**9.4.** Anti-crisis measures of the world developed countries………………………………………. 410
**9.5.**Prospects and forecasts of the XXI age world economy……………………………………….. 424

**Conclusion……………………………………………….** 435
**Reference……………………………………………...** 438
**Basic economic concepts………………….................** 458
**Author Index ………………………......................** 463
**Country………………………………….................** 478
**Abstract……………………………………………....** 484
**Abstract(in Russian)…………………………………** 492
**Abstract (in English) ……………………………….** 502
**List of works by the author......................................** 510
**List of works by the author (in Russian)…………....** 523
**List of works by the author (in English)…………....** 538

# GİRİŞ

Müasir dövr elmin, texnikanın, informasiya texnologiyalarının, bir sözlə, intellektual biliklərin inkişafı əsridir. Elm isə bu spektrdə problemlərin həlli deməkdir.

Məhəmməd Peyğəmbər (s) yazırdı: «Bir saat elmlə məşğul olmaq altmış il namaz və dua ilə məşğul olmaqdan faydalıdır… Elm uzaq Çində də olsa, ona sahib olmaq üçün yola çıxmaqdan çəkinməyin».

Müasir insanlar bütün elm sahələrində olduğu kimi, iqtisad elminin də kəskin problemlərini, onların həyatı üçün əhəmiyyətini gündəlik olaraq hiss edirlər. Dünyadakı bütün adi və qlobal problemlərin həlli, bugünü, sabahı, gələcəyi, iqtisadi, sosial, siyasi, ideoloji, daxili və xarici vəziyyətin dəyişməsi sosial-iqtisadi proseslərin gedişindən asılıdır.

İnsanların yaşayış səviyyəsini yüksəltmək və yeni istiqamətləri müəyyənləşdirmək üçün iqtisadiyyatın inkişafının sosial yönümünü yaxşılaşdırmaq lazımdır. Bu, bəşəriyyətin iqtisadi durumunun əsasını təşkil etməlidir.

Dantenin «müdriklər müəllimi», Engelsin «ən universal zəka», Marksın "qədim yunan fəlsəfəsinin Makedoniyalı İsgəndəri" adlandırdıqları yunan elm və fəlsəfəsinin ən böyük dühalarından olan **Aristotelin** fəlsəfə tarixində xidmətlərindən biri elmlərin ilk dəfə müfəssəl təsnifatını verməyə çalışmasıdır. **O, bütün elmləri üç əsas qismə bölmüşdür: nəzəri, təcrübi və yaradıcılıq[1].**

K.Marks yazırdı**: «Elmdə geniş bir böyük yol yoxdur və ancaq o adam elmin parlaq zirvələrinə çata bilər ki, yorulmaqdan qorxmayıb, onun daşlı-qayalı cığırları ilə dırmansın»[2].**

---

[1] Bax: Aristotel. Poetika. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı. 1974, s. 7, 11.

[2] Bax: K.Marks. Kapital. I cild. Bakı, 1969, s. 25.

Elmi-texniki tərəqqi öz təbiəti etibarilə sonsuzluğa gedən bir prosesdir. Bütövlükdə dünyanın özü, onun dərk edilməsi mürəkkəb və sonsuzdur. Məlumdur ki, elmi-texniki tərəqqi istehsalda inqilabi dəyişikliklər yaradır. Bunun nəticəsində insan kapitalının hərtərəfli inkişafı üçün potensial imkan və şərait yaranır. Elmin nailiyyətlərindən bacarıqla və düzgün istifadə olunması ölkənin sosial-iqtisadi inkişafının yüksəlişi deməkdir. Əlbəttə, burada söhbət bütün dünya elmi nailiyyətlərinin sistemli halda dərk və istifadə edilməsindən gedir. **O ölkədə elmi-texniki tərəqqi güclü inkişaf edir ki, orada bütövlükdə təhsil güclüdür.**

Müasir qlobal dünya elmin kompleks inkişafını tələb edir. Bu istər dəqiq, istərsə də sosial elm sahələrinə eyni dərəcədə aiddir. Dəqiq elm sahəsinin nümayəndəsi ABŞ-da yaşayıb-yaradan həmyerlimiz Lütfi-Zadəni «XX əsrin ən böyük alimi», «Qeyri-səlis məntiqin atası» adlandırırlar. Onun yaratdığı qeyri-səlis məntiqi nəzəriyyə riyaziyyatın əsası sayılan ikili çoxluq anlayışını qeyri-səlis çoxluqla əvəz etmişdi. Lütfi-Zadənin nəzəriyyəsi təbiət və cəmiyyətdəki proseslərin qeyri-müəyyənliyini nəzərə almağa imkan yaratdı. Lütfi-Zadə nəzəriyyəsi Amerikada, Yaponiyada və Avropada texnoloji proseslərin sürətli inkişafına təkan verdi və kainatın sirlərinin dərindən dərk olunmasında insanların köməyinə gəldi[1].

**Görkəmli alimlər belə hesab edirlər ki, əgər Eynşteyn XX əsrin birinci yarısında fizika sahəsində inqilab etmiş-**

[1] Qeyd: Lütfizadə , Lütfi Ələsgərzadə (1921) – görkəmli təbiətşünas alim, fizik, professor. 1926-cı ildə İrana, 1944-cü ildə ABŞ-a köçmüş və hazırda elmi fəaliyyətini orada davam etdirir. 50-70-ci illərdə ümumi sistemlər nəzəriyyəsinin qurulmasına dair yanaşmaların müəlliflərindən biridir. NASA-nın və NATO-nun aparıcı mütəxəssisidir. Elektron cihazları istehsal edən dünya şirkətlərinin əksəriyyəti onun nəzəriyyəsinin tətbiqi ilə məşğuldur. (Bax: Fəlsəfə ensiklopedik lüğəti. Müəllif kollektivi. Bakı: “Azərbaycan Ensiklopediyası” Nəşriyyat – Poliqrafiya Birliyi. 1997, s. 255).

**dirsə, Lütfi-Zadə həmin əsrin ikinci yarısında alternativ riyaziyyat yaratmışdır.**

**Göründüyü kimi, yaxşı nəzəriyyə min təcrübədən vacibdir. Nəzəriyyəyə nisbətən təcrübə çox dəyişkəndir. Nəzəriyyəyə görə, birqütblü dünya dayanıqlı ola bilməz. Çünki dünyada harmoniya lazımdır. Ən optimal variant isə nəzəriyyə ilə təcrübənin əlaqələndirilməsidir.**

**Təəssüflə qeyd etmək lazımdır ki, bu gün postsovet ölkələrində elm və təhsilin inkişafı qaneedici deyil və təsadüfi insanlar bu prosesə müdaxilə etməklə onun dəyərini heçə endirmişlər.** Elm fədaisi olan Xudu Məmmədov özünün «Qoşa qanad» kitabında yazırdı: «… 50-60 il bundan qabaq elmi iş bugünkü kütləviliyə malik deyildi. Hələ o vaxtlar, elmi işçilik az tanınan nemətlərdən biri olarkən, **Eynşteyn elm adamlarını üç qrupa bölürdü.** Eynşteynə görə **bir qrup adamlar** elm aləminə təsadüfən düşmüşlər, onlar eyni asanlıqla başqa yerdə işlər və özlərini yenə də öz yerlərində hiss edərdilər. **İkinci qrup** nümayəndələrinin elmə münasibəti idmançının idman yarışlarına yanaşmasını yada salır: maraqlı bir çətinliyin öhdəsindən gəlib öz üstünlüyünü göstərmək. **Elm adamlarının qalan az bir qismi isə,** istəsələr də özlərini başqa bir işdə tapa bilməzlər. Onların bütün həyatı varlığın qəribəliklərini görmək, axtarmaq və bacardıqları qədər onların səbəbini dərk etməyə yönəlmişdir. Eynşteynin bu bölgüsü çox kəskin olsa da burada bir gerçəklik var. Bölgüdə sadəcə olaraq, elmi işçilərin elmə yanaşmasından söz gedir**. Elmə böyük yenilik gətirənlər bu qrupların hamısına mənsub ola bilər. Bütün həyatını elmdə görən bir adamdan isə dəyərli bir iz qalmaya bilər»[1].**

**1949-cu ildə Qərbi Almaniyanın prezidenti Adenauer ölkə Bundestaqında növbəti il üçün təhsilə büdcənin əlli**

---

[1] Bax: Xudu Məmmədov. Qoşa qanad. Bakı: Gənclik, 1974, s. 42-43. Eyni zamanda Xudu Məmmədovun bu fikirlərini oxumaq olar: Elm adamları elm haqqında. Professor Səlahəddin Xəlilovun təqdimatında. Bakı: Çaşıoğlu, 2010, s. 97.

**faizinin ayrılmasını təklif etmişdi[1].** Bu zaman ölkə siyasətçilərinin hamısı: **«Məmləkət ağır dünya savaşından çıxıb. Ölkə başdan-başa bombalanıb, dağılıb. Sosial-iqtisadi problemlərə daha çox önəm verməlidir»** fikrini bildiriblər.

Bu zaman Adenauer:

**«Əbədi, güclü Almaniya istəyirsinizsə mən deyən olmalıdır. Ancaq pul, hakimiyyət hərisliyi ilə yanan, başdan-başa fahişəxanalara çevrilmiş cəmiyyət istəyirsinizsə öz bildiyiniz qanunları qəbul edin»** cavabını vermişdi.

Bu ağır sözlərdən sonra bütün alman cəmiyyəti Adenauerun yanında durdu. İyirminci yüzillikdə **iki dəfə Dünya müharibəsində ən ağır məğlubiyyətləri dadan Almaniya bu gün dünyanın ən güclü bir dövlətidir, alman xalqı bununla qürur duyur[2].**

Əsl elmi qorumaq üçün zamanında heç kimin bacarmadığı prinsipiallığı ilə seçilən, dünya şöhrətli alim akademik Azad Mirzəcanzadənin məşhur bir ifadəsi vardır: **«İndi bir damla istedad, bir stəkan zəhmət və bir vedrə həyasızlıqla alim olmaq dəbdədir»[3].**

---

[1] Qeyd: **ümumiyyətlə elmə ayrılan vəsaitlər ümumi daxili məhsulun 2 faizindən azdırsa, elmin iqtisadiyyata heç bir təsiri olmur.**

[2] Bax: "Hürriyyət" qəzeti 2007. 12-14 mart

[3] Qeyd: Azad Mirzəcanzadə 1992-2002-ci illərdə Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının sədri olub. Onun sədr olduğu dövrdə elmə «dolayı» yolla daxil olanların sayı minimuma endirilmişdir. Ədalətlə demək lazımdır ki, **akademik bütün təzyiqlərə dözmüş, lakin bəzən nadir də olsa, məlum «insanların» təsir dairəsindən çıxa bilməmişdir.** Bunu özü də dəfələrlə etiraf etmişdir. Bu, zəmanənin eybəcərliyi idi. Belə insanlar, həm öz ətrafında mövcud idi, həm də vəzifə sahibləri idilər. **Bütün cüzi təsirləri nəzərə almasaq A.Mirzəcanzadəni öz şəxsi elmi tədqiqatlarına və «yad» ünsürlərin elmə «soxulmalarının» qarşısını çətin zamanda, mümkün olmayan şəraitdə aldığına görə minnətdarlıq hissi ilə daim yad etmək lazımdır.**

Bəli, yalnız alim olmaq elmə yenilik gətirmək deyil, Konfutsi demişkən, köhnə elmlərdən istifadə edərək yeni elmlər əldə etmək elmin təməlidir.

Məşhur qazax şairi və ictimai xadimi Oljas Süleymanov isə daha kəskin şəkildə yazır ki: **«… elmdə məsuliyyət hissi olmalıdır, günahkar mütləq öz cəzasına çatmalıdır!»[1].**

Həqiqət naminə göstərmək lazımdır ki, 30 ildən artıq Azərbaycana rəhbərlik etmiş H.Əliyev XX əsrin 70-80-ci illərində vəzifə başında olan insanların dissertasiya müdafiə etməsinə qəti qadağa qoymuşdu. Bu olduqca çətin, lakin ədalətli qərar idi. Elmlə məşğul olanlara məlumdur ki, bir məqalə yazmaq və onu çap etdirmək üçün nə qədər əziyyət, zəhmət çəkmək lazımdır. Bu gün də, gec də olsa Ali Attestasiya Komissiyası yenidən belə bir qərar çıxarıb. Ancaq buna necə əməl ediləcək, demək çətindir.

Bir gün Şam şəhərinin fəthi zamanı Əmir Teymura şəhərin sayılıb-seçilən alim və üləmalarının, şairlərinin, ziyalılarının Böyük Fatehlə görüşə gəldiklərini xəbər verirlər. Teymur bütün hakimiyyəti dövründə ilk dəfə olaraq özünü «yığışdırıb», onları qarşılamaq üçün taxtından enir. İçəri girənlər Əmirin qarşısında yerə sərilirlər.

Teymur nifrətlə, qəzəblə geri-taxtına qalxır və deyir: «Heyf o adları ki, siz daşıyırsınız, rədd olun, gözüm sizin yaltaq xislətinizin şahidi olmasın, hökmdarlar sizin qarşınızda baş əyməlidirlər, **sizin kimi yaltaq və riyakarlara mənim yanımda yer ola bilməz».**

Türk dünyasının qüdrətli hökmdarı olmuş Sultan Səlim 1512-ci ildə taxta çıxmış, cəmi 8 il Osmanlı dövlətinə başçılıq etmişdir. O, çox sərt təbiətə malik bir şəxs idi. Buna görə də tarixdə Yavuz Sultan Səlim kimi tanınır.

Bununla belə Sultan Səlim elm adamlarına, şairlərə çox böyük qayğı ilə yanaşırdı. Yürüşlərin birində Sultanın çox hör-

[1] Oljas Süleymanov. Az-Ya.-B.: Azərnəşr, 1993, s. 11.

mət etdiyi elm adamı alim Kamal Paşazadənin atı bir nohura girmiş, oradan çıxdıqdan sonra silkələnərkən çirkablı su Sultan Səlimin paltarını batırmışdı. Son dərəcə qəddarlığı ilə ad çıxarmış Sultan Səlimin qəzəblənəcəyini və artıq ömrünün sonuna çatdığını yəqin edən alimin rəngi kağız kimi ağarmışdı. Lakin Sultan Səlim bu hadisəyə əhəmiyyət verməyərək demişdi: **«Bir alimin atının ayağından sıçrayan çamır mənim üçün şərəfdir. Öldüyüm zaman bu paltarı bu cür sandıqçamın üstünə qoyarsınız».**

Sultan vəfat etdikdən sonra onun bu vəsiyyəti yerinə yetirilmişdir[1].

**Ürək ağrısı ilə qeyd etmək lazımdır ki, müasir dövrdə (yəni bizim nəslin yaşadığı dövr nəzərdə tutulur) elm və təhsil sahəsində çalışanların, dissertasiya müdafiə edənlərin bir çoxu bu şərəfə nail olmağa layiq olmayanlardır. Buna görə də elm və təhsil hörmətdən düşüb.**

**Təəssüflər olsun ki, son zamanlar elə «elmi» əsərlərə rast gəlinir ki, keçmişdə və bu gün qoyulan problemlər haqqındakı məlum fikirlər sanki müəllifin özünə aiddir. Bu hala elmlər namizədindən tutmuş «akademik»lərin əsərlərində də rast gəlinir. Mənbəsiz yazılan monoqrafiyalar, kitablar və məqalələr bu qəbildən olanlardır.**

**Elmi tədqiqatlarda söylənilən hər hansı bir fikrin mənbəyi göstərilməlidir və sonra şərhi verilməlidir: mənfi və ya müsbət.** Bu həm dəqiq, həm də ictimai elmlərə aiddir. Tarixdə ciddi elmi araşdırmalar həmişə belə olub.

Misirin İsgəndəriyyə şəhərində yaşamış Evklidin riyazi əsəri olan «Başlanğıc»ın iki mindən artıq yaşı var. Əsrlər ötmüş, xalqlar dəyişmiş, bəzi dövlətlər yer üzündən itib getmiş, başqa dövlətlər yaranmış, şəhərlər dağılmış, kitablar və kitabxanalar alovlardan yanıb külə dönmüşdü. Lakin ilk dəfə çox zərif

---

[1] Bax: Həbiboğlu Vəli. Türk Dünyasının qüdrətli hökmdarları, xaqanları, sərkərdələri. Bakı: Örnək, 1995, s. 291-301.

papirusda yazılmış «Başlanğıc» zamanın sınağından çıxmışdır. Eramızdan əvvəl III əsrdə yaranmış «Başlanğıc» indi də öz əhəmiyyətini itirməmişdir. Bu əsər riyaziyyat tarixində xüsusi yer tutur.

Evklid İsgəndəriyyədə riyaziyyat məktəbi təsis etmiş və öz sanballı elmi əsəri olan «Başlanğıc»ı da elə o vaxt tələbələri üçün yazmışdır. Evklid həndəsə alimlərinin nailiyyətlərini həmin dövrə qədər toplamış bütün bilikləri ümumiləşdirmişdir.

Əlbəttə, Evklid öz sələflərinin əsərlərinə istinad edirdi: lakin heç bir yerdə mənbə göstərmirdi.

O, qədim dövr idi və elmin inkişafı, onun müxtəlif sahələri yaranmamışdı. Təsadüfi deyil ki, bu günə qədər əsər qəbul edilir və qiymətləndirilir.

Mübaliğəsiz demək olar ki, bir çox görkəmli alimlər Evklidin «Başlanğıc» əsərinin təsirini hiss etmişlər.

Evklid həndəsəsinə Albert Eynşteyn də məftun idi. O deyirdi: «Biz qədim Yunanıstanı Qərb elminin beşiyi hesab edirik. Orada ilk dəfə Evklid həndəsəsi yaranmışdır. Bu, təfəkkür möcüzəsi, məntiq sistemidir. Onun bir-birindən çox dəqiqliklə irəli gələn nəticələrini bizim heç birimiz şübhə altına ala bilmərik. Bu heyranedici təfəkkür əsəri insan idrakına onun gələcək fəaliyyəti üçün çox vacib olan inam verir. Gəncliyində həmin yaradıcılıq əsərinə məftun olmayanlardan nəzəri tədqiqatçı çıxmaz»[1].

Böyük Britaniya yazıçısı və teleaparıcı Melvin Breqqin **«Dünyanı dəyişən 12 kitab»** adlı əsəri nəşr olunub. **Müəllif kitabında bəşəriyyət tarixinə ən ciddi təsir göstərmiş 12 kitabın siyahısını tərtib edib.** Siyahıda bədii kitablar yer almadığına görə onu tənqid edənlər də olub.

Breq tənqidçilərini cavabsız qoymayaraq göstərib ki, bədii kitabların ayrı-ayrı şəxslərin həyatına təsiri inkaredilməzdir.

---

[1] Bax: Qluxov A. Əsrlərin sınağından çıxmış kitablar. Bakı: Azərnəşr, 1979, s. 5-15.

Mənsə seçim edərkən ayrı-ayrı insanların deyil, bütövlükdə bəşəriyyətin, dünyanın dəyişməsinə təsir göstərən kitabları seçmişəm.

Nyuton bizi Aya apardı, Faradey bizə elektrik verdi, Meri Uolstonkraft isə qadınların bərabərliyi uğrunda mübarizəyə başlayıb. Bu şəxslərin yaradıcılıqları sayəsində dünya dəyişib.

Breqqin versiyası üzrə dünyanın dəyişilməsinə səbəb olan kitabların siyahısı aşağıdakı kimidir:

1. «Riyazi prinsiplər», 1687, — İsaak Nyuton.
2. «Ər-arvad məhəbbəti», 1918, — Meri Stoups.
3. «Azadlığın böyük partiyası», — 1215.
4. «Futbol assosiasiyasının qaydaları» — 1863.
5. «Növlərin mənşəyi haqqında», 1859, — Çarlz Darvin.
6. «Qul ticarətinin ləğvinə dair», 1799, — Uilyam Uilbertfors.
7. «Qadın hüquqlarının müdafiəsi», 1792, — Meri Uolstonkraft.
8. «Elektrikə dair təcrübi araşdırmalar», 3 cilddə, 1839, 1844, 1855, —Maykl Faradey.
9. «Arkraytın buxar maşını», 1769, — Riçard Arkrayt.
10. «Kral Yakovun İncili», 1611, — Uilyam Tindeyl.
11. «Xalqların sərvətinin təbiəti və səbəbləri haqqında», 1776, — Adam Smit.
12. «Birinci folio», 1623, — Uilyam Şekspir[1].

Dəqiq elmlərdə bu özünü daha qabarıq göstərir. İctimai elmlərdə isə iqtisadi sistem dəyişikliklərindən asılı olaraq fikirlər modifikasiyaya uğrayır. Buna baxmayaraq dünyanın simasını dəyişən əsərlər siyahısında Adam Smitin «Xalqların sərvətinin təbiəti və səbəbləri haqqında»kı tədqiqatı birbaşa, 2, 6-cı əsərlər isə dolayı yolla iqtisadi problemlərə aiddir.

**Bütövlükdə götürəndə bütün kəşflər istər dəqiq, istərsə də ictimai elmlərdə olsun iqtisadiyyata xidmət edir.** Şüb-

[1] Bax: «Gündəlik Azərbaycan» qəzeti. - 2006.- 24 mart

həsiz bu kitabların siyahısında və hətta birinci yerlərdə "Qurani-Kərim"in adı çəkilməli idi. Görünür, buna ingilis yazıçısının ambisiyası yol verməyib.

**ABŞ-ın sabiq prezidenti Ronald Reyqan 1988-ci ildə SSRİ-yə səfəri zamanı Moskva Dövlət Universitetinin tələbələri ilə görüşündə söyləmişdir: Üç nəfər cənnətin qapısı ağzına gəlir. İçəri birinci kim girməlidir? Həkim deyir: «Allah Həvvanı Adəmin qabırğasından yaradıb, mənsə ömrü boyu cərrahlıqla məşğul olmuşam, buna görə birinci mən girməliyəm». Mühəndis ona etiraz edir: «Ondan əvvəl allah Yeri xaosdan yaradıb, mənsə inşaatçıyam». İqtisadçı onlara gülür: «Nə danışırsınız, qardaşlar! Özünüz dediniz ki, ən əvvəl xaos olub, xaosu isə bildiyimiz kimi məhz iqtisadçılar yaradıb»[1].**

Həyatın özü, bazar münasibətlərinə keçid dövrü, qlobal dünyaya qoşulma xüsusi münasibət tələb edir. Aydındır ki, bunu qısa zaman kəsiyində və hər bir ölkədə etmək olmaz. **Ayrılıqda hər bir ölkədə qarşıya qoyulan məqsədi aydın görmək, bu məqsədə can atmaq və bu məsələdə ölkənin prinsipial xəttini həyata keçirmək üçün ilk növbədə iqtisadi və siyasi şərait olmalıdır. Bu şəraiti isə ilk növbədə ölkə rəhbəri və parlamenti yaratmalıdır. İstiqamət əsasən onların iradəsinə uyğun xətlə həyata keçirilir. Tarixdə şəxsiyyətin rolu burada tam qabarıqlılığı ilə meydana çıxır.**

Lakin, **sivil ölkələrdə tarixi köklərə söykənən və əsasən** dəyişilməz (cüzi dəyişiklikləri nəzərə almasaq) **konstitusiya mövcuddur ki, dövlət bu əsaslarla idarə edilir. Ölkə başçısı özbaşına, sərbəst olaraq, razılaşmadan qəti addım ata bilməz.**

---

[1]Qeyd: Lakin, demək lazımdır ki, insan, o cümlədən də hər hansı bir iqtisadçı özü-özlüyündə xaos yaratmır. Xaos istər cəmiyyətdə, istərsə təbiət və fiziki aləmdə obyektiv olaraq baş verir. İqtisadçının xidməti ondan ibarət ola bilər ki, o, sosial-iqtisadi proseslərdə mövcud olan xaos və riskli şəraiti törədən amilləri düzgün nəzərə alaraq optimal idarəçilik qərarları verə bilsin.

Siyasi və iqtisadi inkişafı təxirə salmaq, laqeyd surətdə durub gözləmək, sabah da yenə də həmin problemlərlə üzləşmək deməkdir. İqtisadi siyasətdə uzunmüddətli və təxirə salınmaz vəzifələr üzvi surətdə əlaqələndirilməlidir. Əks təqdirdə heç bir nailiyyət əldə etmək olmaz.

Hər bir dövrdə iqtisadi təfəkkür obyektiv şəraitin dəyişilməsinin passiv nəticəsi kimi təşəkkül tapa bilməz. İqtisadi təfəkkür daim inkişaf etməli, təkmilləşməli, formalaşmalıdır. Obyektiv şəraitin özü dəyişməzdən əvvəl insanlar bu dəyişikliyin zəruriliyini dərk etməlidirlər. Hər dövrün iqtisadi təfəkkürü cəmiyyətin gələcək inkişafını təmin etmək gücünə malik olmalıdır.

İqtisadi təfəkkürü olan insan dünyaya nəzər salarkən, planetimizdəki ölkələrin nə dərəcədə rəngarəng olduğunu təsəvvür edə bilər.

**Arktikanın buzlaqları, tayqanın ucsuz-bucaqsız meşələri, ucu-bucağı görünməyən okean suları, Afrikanın qumluq səhraları, tropik ölkələrin cəngəllikləri, bir sözlə, möcüzəli dünya haqqında təsəvvürümüz olsa da onlardan insanların xeyrinə istifadə etməklə iqtisadiyyatı inkişaf etdirmək olar. Bütün bunları reallığa çevirmək üçün qlobal düşüncə tərzi, qlobal təfəkkür, qlobal iqtisadiyyat lazımdır.**

İqtisadi təfəkkür həyatın bütün sahələri ilə birbaşa və ya dolayısı ilə bağlıdır. Müasir dünyada iqtisadi vəziyyət, konsepsiya xeyli dəyişilmişdir. İndi artıq başlıca rəqabət amili məhsulun keyfiyyətidir. Onun texniki səviyyəsi, çeşidin təzələnməsi sürəti, resurslardan istifadənin səmərəliyi və nəhayət ən başlıcası dünya standartlarına uyğun istehsal ən öndə olan məsələlərdəndir. Postsosialist ölkələri və inkişaf etməkdə olan ölkələrin hamısı bazar iqtisadiyyatına keyfiyyət dəyişikləri ilə keçir. Yeganə olan bu yol nə qədər mürəkkəb və çətin olsa da, keçilməlidir. Çünki müasir dünyada hələlik başqa, dolayı yol sadəcə olaraq yoxdur.

**Müasir qlobal iqtisadiyyat təbii ehtiyatlardan çox, «beyin gücünə» söykənir. İnnovasiyalı informasiya texnologiyası əsas istehsal amili olaraq ön plana çıxır.**

Bazar iqtisadiyyatı istedadlı insanların prinsipcə yeni keyfiyyətini yaradır. Bu şəraitdə texnoloji amillər, keyfiyyət amilləri həlledicidir və insan resurslarının idarə edilməsinə yeni qaydada yanaşmağı tələb edir.

İndi bazar münasibətlərinin mövcud olduğu təzadlı dünyada yaşayırıq. «Diktatura», «demokratiya» və «bazar iqtisadiyyatı» adı altında ölkələr bir-biri ilə müqayisə olunur və inkişaf edir. **Monoqrafiyada məqsədimiz siyasi və iqtisadi problemlərə təkan verən və bu proseslərin normal gedişinə mane olan hadisələri, prosesləri və mexanizmləri araşdırmaqdır. Burada siyasətə və iqtisadiyyata təsir edən şəxsiyyət amili, iqtisadi amillər — pul, rüşvət, korrupsiya, təbii resurslar və onlardan əldə edilən gəlirlərdən istifadə mexanizmi tədqiq edilir və müəllif öz yanaşma mövqeyinə görə şəxsi mülahizələrində yeni-yeni sualların, problemlərin yaranmasına bir növ şərait yaradır. Bəzi problemlər isə sanki «ezop» dilində qoyulur. Ona görə də müəllifin fikirləri ətrafında geniş diskussiya yarana bilər və gələcək tədqiqatçılar üçün yeni-yeni problemlər meydana çıxa bilər. Bütün proseslərin, hadisələrin və siyasətin iqtisadiyyatdan, daha doğrusu, puldan asılılığı nəzəri cəhətdən təsdiq edilir.**

**Müasir dövrdə əksər problemlərin kökündə pul amili dayanır. Sanki pul diktator rolunu oynayır. Siyasi, iqtisadi, ideoloji, ailə, vəzifə və s. – bütün bunlar pul üzərində qurulur və uyğun münasibətlər yaranır.** «Müasir iqtisadiyyat» dərsliyində yazıldığı kimi: müasir iqtisadi nəzəriyyə pul nəzəriyyəsidir. Bu aydın məsələdir: müasir iqtisadiyyat – pul təsərrüfatıdır; pul - hər hansı bir biznesin başlanğıcı və məqsədidir; pulun əldə olunması, xərclənməsi və yığılması – ailə iqtisadiyyatının mahiyyəti məhz budur; bu qayğılar həm də hökumətin qayğılarıdır (pulu haradan götürmək və necə xərcləmək). Bir

sözlə, müasir iqtisadiyyatı bilməkdən ötrü, pul haqqında geniş informasiyaya malik olmaq lazımdır.

Pul bəşəriyyətin ən böyük ixtirasıdır; hələ qədimdə yaranan pul bu gün də müəmmalıdır və qabaqcadan xəbər verilməyəndir. Məhz buna görə də pulun təbiətinin tədqiq edilməsi və onun iqtisadiyyata təsiri indiyə qədər iqtisad elminin başlıca istiqaməti olaraq qalır[1].

Ukrayna iqtisadçısı, professor A.A.Mazaraki yazır: "Pul problemi qədim dövrlərdən tədqiqatçıların diqqətini özünə cəlb edir. İqtisadi nəzəriyyənin çətin ki, elə bölməsi olsun ki, onun haqqında puldan daha çox danışılsın və yazılsın. Bununla yanaşı, çətin ki, puldan başqa hər hansı bir məsələ haqqında bu qədər düzgün və bəzən tamamilə fantastik nəzəriyyələr formalaşdırılsın." O, sözünə davam edərək göstərir ki, əgər daha geniş planda danışsaq, pulun tədqiqi, mahiyyət etibarilə elə həyatın tədqiqidir. Çünki pul insanın ona hansı münasibət bəslədiyindən asılı olmayaraq, onun bütün həyatına "nüfuz edir". Çünki həyat – insanı və ya bütün elmləri maraqlandıran, onlar tərəfindən onun dərk edilməsi və bir tam kimi dünyanın tabe etdirilməsi üçün istifadə edilən əsasdır (bazisdir). Pul fəlsəfəsi məhz həyatı və onun bütünlüyünü başa düşmək üçün öz diqqətini pul üzərində cəmləşdirir.[2]

Biz isə daha dərinə gedərək şərh edirik: **pul – siyasətdirmi, iqtisadiyyatdırmı, vəzifədirmi, ailədirmi, məhəbbətdirmi, dostluqdurmu, yoldaşdırmı, namusdurmu, qeyrətdirmi, mənəviyyatdırmı? Bir sözlə - bütün münasibətlərin əsasıdırmı? Bazar iqtisadiyyatı pul iqtisadiyyatıdırmı? Pul yaşadığımız cəmiyyətdə bütün hadisə və proseslərdə diktatordurmu? Bütün bu ziddiyyətli, paradokslu, təzadlı suallara cavab verməyə çalışmışıq. Məhz sadalanan bu məsələlər,**

---

[1] Bax: Современная экономика. Общедоступный учебный курс. Ростов Н/Д.: // Феникс, 1999, с. 611.

[2] Bax: Mazaraki A.A. Ticarət. Pul. Mentalitet. Bakı: "İqtisad Universiteti" Nəşriyyatı, 2010, s. 355, 359 (rus dilindən tərcümə).

**problemlər monoqrafiyanın yazılmasının aktuallığını doğurmuşdur.**

Bütün bunlar ilk baxışda əlaqəsiz, epizodik fikirlər, elm, bilik, iqtisadiyyat haqqında ayrı-ayrı seçmə fikirlərin toplusu kimi görünə bilər. Müəllifin təsəvvüründə isə bu təqdim olunan kitabın məziyyətidir. Çünki, birincisi – bu fikirlər seçmə və müdrik fikirlərdir, ikincisi, görünən əlaqəsizlik ümumiləşdirmə aparmaq zərurətini (çoxfaktorluq hadisələrin əhatəli sintezini) ifadə edir və bunu göstərmək üçündür.

Girişin belə "qeyri-standartlığı", basmaqəliblikdən uzaqlığı kitabın məzmunundan xəbər verir.

Kitabda məqsəd heç də ardıcıl determinizm deyil, yəni bəhs olunan problemlər arasında mütləq səbəbiyyət əlaqəsi axtarmaqdan ibarət deyil. İndi bu metod arxa plana keçib. Elə qeyri-məntiqin uğur qazanması da bunun sübutudur. Burada əsas məqsəd iqtisadiyyatdakı bir çox problemlərə indiyədək az diqqət yetirilən və ya heç diqqət yetirilməyən müstəvilərdə baxmaqla yeni, müasir bir dünyagörüşünü, nöqteyi-nəzəri ortaya qoymaqdır. Məsələn, "iqtisadi siyasətin effekti nədir və ümumiyyətlə varmı?","iqtisadi uzaqgörənliyin amilləri","iqtisadiyyat nə zaman demokratiya üçün şərt olur", "rüşvət və korrupsiya doğurdanmı pulun funksiyasıdır" və i.a. bu kimi suallara kitabda cavab tapmaq olar.

**Nə üçün biz monoqrafiyanın adını "Pulun diktaturası" adlandırmışıq? Əlbəttə, bunun müxtəlif səbəbləri vardır. Dünya təcrübəsi və gündəlik həyatımız göstərir ki, əmtəə münasibətlərindən daha çox pul münasibətləri dominantlıq təşkil edir və bu münasibətlər demək olar ki, bütün sferalara güclü təsir göstərməkdədir. Sanki indi, pulun törətdiyi fəsadlar pulun ənənəvi funksiyalarına yeni bir – "diktatura" funksiyası əlavə etmişdir. Bu münasibətlərin intensivliyi və iyrəncliyi bir daha sübut edir ki, yaxın və uzaq gələcəkdə pulun diktaturası daha geniş əhatə kəsb edəcək, mütləq bir hala çevriləcək.**

**Görünür bu diktatura gələcəkdə istər-istəməz yenidən XIX əsrin axırlarında və XX əsrin əvvəllərində cərəyan edən sosial inqilablara gətirib çıxara bilər. Biz bunu sosial inqilaba yenidən qayıdış adlandırardıq.**

Kitabda müasir iqtisad elminin predmetinə dair mövcud təsəvvürlər heç də dəyişməz olaraq qəbul edilmir. Belə hesab edirik ki, istənilən təbii, sosial, ekoloji, bioloji, fiziki, kimyəvi, psixoloji, milli və digər amillər böyük təsir gücünə malik olub, iqtisadi amillərə çevrilə bilər və hadisələrə təsir göstərər.

Kitabı geniş mənada yazmaqda məqsəd insana xidmət göstərməkdir. İnsanlığın tarixi vəhşilikdən (40 min il əvvəl) müasir sivilizasiyaya gəlib çıxır. Lakin hələ də yetkinlikdən, daxili saflıqdan uzaq olan insanlar çoxdur. İnsanlığın çətin yolu mütaliədən keçir. Görünür Bəhmənyar elə buna görə deyib: “**Elə adamlar tapın, onlarla söhbət edin ki, kitab oxumağa bərabər olsun**”. Biz ancaq intellektual, etik, hüquqi, mədəni davranışlara nail olmaqla inkişaf edə bilərik.

Çox istərdik ki, kitab bu ümumbəşəri ehtiyaclara, hisslərə, borclara azacıq da olsa xidmət edə bilsin. Müəllif bu məqsədin həyata keçirilməsi yolunu insanın mükəmməl dünyagörüşünün formalaşmasında görür.

# I FƏSİL

# SİYASƏT VƏ İQTİSADİYYATA YENİ KONSEPTUAL BAXIŞ

## 1.1. Siyasətə elmi-konseptual yanaşma nə vəd edir?

İqtisadiyyatla siyasət bir-birini tamamlasa da, bir-biri ilə qarşılıqlı əlaqədə və qarşılıqlı vəhdətdə olsa da onların hansının birinci və ilkin olması haqqında diskussiya uzun müddət iqtisadçılarla siyasətçilərin mübahisə predmeti olmuşdur. İqtisadçıların fikrincə, siyasətlə iqtisadiyyatın qarşılıqlı əlaqəsində iqtisadiyyat ilkindir, müəyyənedicidir, əsasdır. Cəmiyyətdə bazisi əsas götürən, siyasi üstqurumu ondan törəmə hesab edən məşhur marksist baxışa görə siyasət-iqtisadiyyatın təmərküzləşmiş ifadəsidir. **Elmi nöqteyi-nəzərdən siyasət iqtisadiyyatdan üstün ola bilməz. Əsl siyasət həmişə iqtisadiyyata söykənməlidir.** Qərarlar qəbulu nəzəriyyəsinin saziş və konstitusiya əsaslarının təhlili üzrə Nobel mükafatı laureatı, ABŞ iqtisadçısı Ceyms Byukenenin fikrinə görə isə seçim edən insan onun üçün subyektiv dəyər kəsb edən nemətlərlə öz iqtisadi maraqlarını eyniləşdirir. Belə davranış nəinki bazar üçün, həm də siyasət üçün xarakterikdir. Onun fikrincə, bazarla siyasi sistem arasındakı əsas fərq insanların maraqları və dəyərlərin fərqlənən tiplərindən yox, onların öz çoxcəhətli etiqadlarının inandırdıqları şəraitdən ibarətdir. Siyasət fərdlər arasında mürəkkəb mübadilə sistemidir ki, burada fərdlər xüsusi məqsədlərə nail olmağa kollektiv səy göstərir. Belə ki, adi bazar mübadiləsi yolu ilə onları reallaşdıra bilmirlər. Burada fərdi maraqlardan başqa digər maraqlar yoxdur. Bazarda, insanlar almanı portağala dəyişirlər, siyasətdə isə yerli yanğın mühafizəsindən tutmuş

məhkəməyə qədər hamıya və hər bir kəsə lazım olan nemətin əvəzinə vergi ödəməyə razılaşırlar[1].

Siyasət son nəticədə pul amili ilə bağlıdır. Tanınmış iqtisadçı, Kolumbiya Universitetinin professoru Çeffri D. Saks tamamilə haqlı olaraq yazır: "Siyasətçilər arasında ictimai əxlaq və milli strategiya ilə əlaqədar münaqişələr pul məsələsi ilə bağlıdır". Problem korrupsiyaya qurşanmış Amerika siyasətində və vətəndaş mənəviyyatının itirilməsindədir. Amerikada siyasi korrupsiyanın səviyyəsi insanı sadəcə olaraq dəhşətə gətirir. Ağlasığmaz dərəcədə bahalaşmış seçki kompaniyalarının keçirilməsi indi tamamilə puldan asılıdır. Artıq seçkilərin dəyəri 4,5 milyard ABŞ dolları civarındadır. Obama dəyişikliklər vəd etməklə hakimiyyətə gəlmişdir. İndiyə qədər dəyişiklik yoxdur[2].

Siyasətə cəmiyyətin üstqurumunun ən mühüm ünsürləri olan siyasi münasibətlər, ideyalar və müvafiq idarələr daxildir. Ensiklopedik politologiya lüğətində siyasət haqqında yazılır: «Siyasət – cəmiyyətin tənzimedici-nəzarətedici, təşkiledici sahəsi olub iqtisadi, ideoloji, hüquqi, mədəni, dini sferalara ayrılır. Siyasət termini Aristotelin «Siyasət» adlandırdığı dövlət, idarəetmə və hökumət haqqında yazdığı risalənin təsiri altında geniş yayılmışdır. Siyasət ənənəvi olaraq, XIX əsrin axırına qədər dövlət, yəni təsis olunmuş hakimiyyət, dövlət səviyyəsi haqqında təlim kimi qəbul olunmuşdur. Lakin yeni dövrdə siyasi fikrin və dövlət haqqında təsəvvürlərin inkişafı dövlət haqqında elmlərin ayrılmasına və onların siyasi fəlsəfədən və siyasi elmlərdən fərqlənməsinə gətirib çıxarmışdır. Siyasət haqqında təsəvvürlər xeyli genişlənmişdir, siyasət anlayışı artıq mürəkkəb problemə çevrilmişdir, hər halda o, müxtəlif təfsirlərin predmeti olmuşdur»[3].

---

[1] Bax: Джеймс М.Бьюкенен. Сочинения. Пер. с англ. Серия: «Нобелевские лауреаты по экономике». Т. 1. / Фонд экономической инициативы; Гл. ред. кол.: Нуреев Р.М. и др. / - М.: «Таурус Альфа», 1997, с. 22-23.

[2] Bax: "Procect Syndicate" – 27.XII.210; "Azərbaycan" qəzeti.- 2010.- 30 dekabr

[3] Bax: Qədim mütəfəkkirlər, siyasi dövlət xadimləri və politoloqlar siyasət haqqında.Bakı, 1998, s.5-6.

Siyasi lüğətlərdə isə siyasət dedikdə – cəmiyyətin siyasət sahəsində hakimiyyətin başlıca olaraq qazanılmasına, saxlanılmasına, möhkəmlənməsinə və həyata keçirilməsinə yönəlmiş sosial fəaliyyət kimi səciyyələndirilir. B.Rayzberqə istinadən demək olar ki, digər lüğətlərə görə isə siyasət – müəyyən nəticələrin, arzu edilən məqsədlərin qazanılmasına istiqamətlənən davranış xətti, fəaliyyət tərzidir, iqtisadiyyat isə – təsərrüfatdır[1].

A.Q.Duqinə görə, siyasət – ictimai əlaqələrin və münasibətlərin məkanında təcəssüm olunan aləmin (dünyanın) konkret reallığında insanın mövcud olmasının ən yüksək qabiliyyətlərinin tətbiq olunduğu sahədir.

Fransız politoloqu Pyer Burdye siyasət anlayışına öz paradiqmasından yanaşır: "Siyasət – tərəflərin rəqabət mübarizəsinə cəlb olunduğu elə bir meydandır ki, burada siyasi məhsul əldə edilir... Siyasi istehsal səhnəsindən uzaq olan "istehlakçı" vətəndaşların seçimi məhz bu siyasi məhsula – problemlər, proqramlar, konsepsiyalar, təhlillər və şərhlərə əsasən həyata keçirilir."

Görkəmli dövlət xadimi, Almaniya imperiyasının birinci reyxskansleri, "dəmir kansler" adını qazanmış **Otta Bismark** (1815-1898) siyasətə qeyri-adi rakursdan yanaşırdı: **"Siyasətə baş qoşan öz şəxsiyyətini məhv edir. Siyasət adamı lap rahatca üç halda - seçkiqabağı ərəfədə, müharibə vaxtı və ovdan sonra yalan danışa bilər."** "Siyasət mümkün olanın incəsənətidir".

Siyasəti dərindən dərk edən ilk mütəfəkkirlərdən biri Aristotel olmuşdur. O, siyasəti **«ali məharət»** adlandırmışdır. Aristotel siyasətdə «insanların kollektiv varlığının ali forması»nı görürdü. **O, insanı «siyasi heyvan» hesab edirdi:** «İnsan öz təbiətinə görə siyasi məxluqdur (heyvandır), təsadüfi vəziyyət nəticəsində yox, öz təbiətinin gücünə görə dövlətdən kənarda

[1] Bax: Райзберг Б.А. Основы экономики: учеб.пособие. – М.: ИНФРА-М, 2000, с. 369.

yaşayırsa – ya əxlaqi mənada inkişafdan qalmış məxluqdur, ya da fövqəlbəşərdir».

Aristotel dövlət (rus dilində «политика», yunan dilində «polis» deməkdir (Kursiv Ş.Q.)) haqqında yazırdı: «Ailə ilə və hər birimizlə müqayisədə dövlət öz təbiətinə görə birincidir (ilkindir), axı tamın hissələrdən əvvəl olması vacibdir». Sonra o yazır: «Dövlət təbiətə görə mövcuddur və təbiətə görə hər bir insanla bağlıdır, çünki insan təcrid vəziyyətində olarkən müstəqil (özlüyündə əhəmiyyəti olan) məxluq deyil, onda onun dövlətə münasibəti hər hansı bir hissənin öz tamına münasibəti kimidir. **O adam ki, ya ünsiyyətə girmək qabiliyyətində deyildi və özündən razıdırsa, onda heç bir şeyə ehtiyac duymur və bu səbəbdən artıq dövlətin elementini təşkil etmir... heyvana çevrilir.** O, fikrini davam etdirərək yazır ki, siyasət insanın mövcudluğunun şüurlu ümumiləşdirilməsidir, sferasıdır, burada ümuminin, obyektivin və miqyasın dərk olunması hərəkətlə bağlıdır və bu hərəkət həmin dərk olunmadan yaranan nəticələri təsdiq etmək iqtidarındadır, başqa sözlə, siyasətdə insanın (ictimai orqanizmin bir hissəsi kimi) baxışı təcəssüm olunur:

1. keçmişə;
2. bu keçmişin miqyaslı (geniş əhatəli) dərk olunmasına;
3. çıxarılan nəticələrin sonradan həyatda təcəssüm olunması, yəni gələcəyin gedişini əvvəlcədən müəyyən edən indiki zamanda (hazırda) ətraf aləmə onların iradı proyeksiyası (şəklinin salınması).

Siyasətin nə olmasını izah etməkdən ötrü, fərz edək ki, idarə olunan məntiqdə (ailə, iş, istirahət) yaşayan insan birdən fikirləşməyə başlayır ki, onun özü, onun xalqı, dövləti əhatə edən aləm haradan törəyib? Tədricən onda belə fikir formalaşır ki, o, hadisələr, hərəkətlər və hallar axınında təsadüfən iştirak etmir, onun varlığı xeyli dərəcədə onun nəsli, xalqı, mədəniyyəti, tarixi, dili ilə qabaqcadan müəyyən edilir və onun hər bir hərəkətində və hislərində, fikirlərində və qiymətləndirilməsində çox qədim dövrdə yaranan, məna strukturlarına gedən dərin

gizlin səbəb vardır. Onda insan özündən (ondan) əvvəl gələn və onu yaradan öz keçmişinə çox diqqətlə, xüsusi mənəvi və əqli gərginliklə yanaşmağa başlayır.

Daha sonra A.Q.Duqin «siyasi anlayışı» təsvir edən yeddi əsas məqamı ayırır:

– hakimiyyət;
– cəmiyyətin məqsədi, layihəsi;
– qeyri-bərabərliyin izahı, iyerarxiya, ictimai funksiyaların bölgüsü, hüquqi sistem;
– kollektiv identifikasiya;
– zorakılıq, zorakılığın legitimləşməsi, zorakılıqdan müdafiə olunma (kollektiv təhlükəsizlik);
– dəyər sistemi[1].

ABŞ-ın keçmiş prezidenti ata **Corc Buşun fikrincə, siyasət fəlsəfə deyil, taktikadır.** Ona görə Buş prezidentliyə namizədlərin bir-birinə qarayaxmalarını ictimaiyyət qarşısında pisləyirdi. Bununla yanaşı, öz rəqibləri haqqında çəkdirdiyi videolenti etibarlı silah kimi əlinin altında saxlayırdı[2].

**Siyasət reallıq üzərində qurulmalıdır. Siyasətdə acıqlı yox, soyuqqanlı olmalısan. Siyasətdə strategiya lazımdır.** Təəssüf ki, cəmiyyətdə çox zaman buna riayət olunmur. **Siyasəti dərk etməyən bir millətin uğuru, gələcəyi ola bilməz. Siyasəti dərk etməyən millət həmişə başqa millətin quluna çevrilir.** İmkana görə yaşamaq üçün yeni sosial-siyasət dəyişən iqtisadi şəraitə cavab verməlidir.

Aristotel göstərirdi ki, siyasətin məqsədi və funksiyası insan birgəyaşayışını idarə etmək vasitəsilə ümumi rifahı ayrı-ayrı adamların rifahı ilə əlaqələndirməkdən ibarətdir. Con Meynard Keyns (1883-1946) bu məqsədlə yazırdı: «… iqtisadçıların və siyasi mütəfəkkirlərin (filosofların) ideyaları, onlar həm haqlı, həm də haqsız olanda belə, ümumən hesab edildiyindən daha

---

[1] Bax: Дугин А.Г. Философия политики. М.: Арктогея, 2004, с. 5-6, 13.
[2] Bax: Tetçer zarafatı xoşlamır. Məşhur adamların həyatından bilmədiyimiz faktlar. Bakı: Yazıçı, 1994, s.9.

çox təsir gücü kəsb edirlər. Həqiqətdə dünya belə azlıq tərəfindən idarə edilir. Özünü intellektual təsirlərdən tamam azad hesab edən praktik insanlar adətən keçmişdə qalmış müəyyən bir iqtisadçının qulları olurlar. Hakimiyyətdəki dəlilər – başı havalı olaraq öz sarsaq fikirlərini bir neçə il bundan qabaqkı akademik cızma-qaraçılarından mənimsəyirlər»[1]

**İqtisadiyyata söykənmədən, onu inkişaf etdirmədən, siyasi yolla, öz xeyrinə müəyyən siyasət yeritməklə insanlara xoşbəxtlik gətirmək olmaz.** V.V.Mixeev haqlı olaraq göstərir ki, iqtisadiyyatla siyasət arasında sərt asılılıq mövcud deyil və tarix sübut etmir ki, avtoritarizmə daha çox iqtisadi artım uyğun gəlir, nəinki demokratiya, **ən güclü iqtisadiyyat demokratik ölkələrdədir[2].**

Siyasətçilər həmişə çalışırlar ki, insanları narahat edən məsələlərdən onları kənarlaşdırsınlar, vədlər versinlər, ümidlər yaratsınlar. Onlar bolluq, yüksəliş, inkişaf yaratsalar da bu hələ iqtisadiyyatın artımı demək deyildir.

Amerikalı professor N.Qreqori Menkyu yazır: «Siyasətçilərin də məqsədləri var. Sözsüz ki, siyasi liderlərin hər zaman cəmiyyətin rifahının yaxşılaşdırılması və səmərəli və ədalətli bölgü arasında ən optimal seçimin edilməsi barəsində düşündüklərini fərz etmək yaxşı olardı. Düzdür, yaxşı olardı, lakin bir o qədər də real olmazdı. Şəxsi maraq, istehlakçılar və müəssisə rəhbərləri üçün olduğu qədər siyasətçilər üçün də çox güclü stimul mənbəyidir. Bəzi siyasətçilər təkrar seçilmək arzusundadır və az seçici bazasını artırmaq üçün cəmiyyətin maraqlarını qurban verməyə hazırdırlar.

… Bəzi siyasətçilərin isə stimulu sadəcə olaraq acgözlükdür»[3].

---

[1] Bax: Con Meynard Keyns. Məşğulluq, mənfəət və pulun ümumi nəzəriyyəsi. Bakı: Qanun, 2001, s. 440.

[2] Bax: Авторитаризм развития: генезис, функции, перспективы.// Мировая экономика и международные отношения, 2005. № 6, с.104.

[3] Bax: N.Qreqori Mənkyu. Ekonomiksin əsasları. (Azərbaycan dilində). Harvard Universiteti. 200, s. 488.

**Siyasətdə yalan, dolayı, üstüörtülü, iki və çox mənalı fikir, aldatma sanki normal və adi görünür. Yalan olan yerdə isə əxlaq və tərbiyədən danışmaq olmaz. Bu, siyasətçinin əxlaqsız, tərbiyəsiz olması anlamına gətirmir. Siyasətçi sanki tarix səhnəsində öz rolunu oynayır. Halbuki, bu rol müsbət və mənfi insan obrazı ola bilər. Deməli, siyasətçinin əxlaqsızlığı onun adi bir insan kimi əxlaqının ifadəsi deyildir.**

M.Ə.Rəsulzadə vaxtilə yazırdı: «Fikri, milli və siyasi istiqlalların kökü iqtisadi istiqlaldır»[1].

İqtisadi vəzifələrin yerinə yetirilməsinə, hər şeydən əvvəl, siyasi cəhətdən yanaşmaq lazımdır. Müasir Qərb iqtisadi nəzəriyyəsində iqtisadiyyata və siyasətə «insanlar arasında qarşılıqlı fəaliyyətin həyata keçirildiyi vahid ümumi strukturun bir hissəsi kimi» yanaşırlar[2].

Elmi cəhətdən əsaslandırılmış, dərki mümkün olan siyasət işlənib hazırlanmadan və həyata keçirilmədən iqtisadiyyatın inkişafı mümkün deyildir.

## 1.2. Müasir iqtisadi siyasət: düşüncələr, reallıqlar və mülahizələr

İqtisadiyyat insanların həyatına həm iqtisadi, həm sosial, həm də siyasi proseslər vasitəsilə təsir göstərir. Qədim Çində Konfutsi ideologiyasının ən görkəmli nümayəndəsi olan Syun-tszı (b.e.ə. 313-238-ci illər) yazırdı ki, dövlətin iqtisadi siyasəti üç əsas prinsipə söykənməlidir: xərclərə qənaətə, xalqda bolluğu təmin etməyə və mövcud olanı saxlamaq zərurətinə. Hesab edirdi ki, «bolluq» - cəmiyyətin sosial dərəcəsinə (ranqına) uyğun gələn tələbatlar səviyyəsinin ödənilməsidir. Syun-tszı despot dövləti yalnız ictimai məhsulun istehsalı və bölgüsünün qaydaya

---

[1] Bax: M.Rəsulzadə. Azərbaycan cümhuriyyəti. Bakı, 1990, s.3

[2] Bax: Серёгина С.Ф. Роль государства в экономике. Синергетический подход.- М.: Издательство «Дело и Сервис», 2002, с. 231; Альт Дж.И., Алесина А. Политическая экономия: общие проблемы: Политическая наука: новые направления / Под.ред. Р.Гудина и Х.Д.Клингеманна.- М.: 1999, с.625.

salınmasına yox, həm də onun istehlakına çağıraraq (dəvət edərək) istismarın aşkar məddahlığı ilə çıxış edirdi. İstehlak isə iqtisadiyyatın mühüm sabitləşdirici amilinə çevrildi[1].

Pol A.Samuelson və Vilyam D.Nordxaus qeyd edirdilər ki, iqtisadiyyat yalnız oyun deyil, məntiqdə, hesabda və riyaziyyatda (məharətdə, mənfəətdə) öz qüvvəsini sınamaqdan ötrü yalnız incə başsındırma deyil. Əgər iqtisadiyyat şəxsi xudpəsəndlik nöqteyi-nəzərindən sizin üçün həyati cəhətdən mühüm olan məsələlərlə və yaxşı cəmiyyət üçün nəzərdə tutulan insan üçün əhəmiyyətli məsələlərlə bağlı deyilsə, onda öz maraqlarını itirir[2]. Mövcud siyasi proseslərə inamsızlıq bir çox iqtisadçılarda hər hansı bir siyasi təsirdən iqtisadi siyasətin formalaşması prosesini azad etmək cəhdi doğurur[3].

Bir sıra iqtisadçılar hesab edirlər ki, iqtisadi siyasət bəzi məsələləri siyasətçilərin sərəncamına buraxmaqdan ötrü kifayət qədər mühüm sahədir. Belə bir fikir iqtisadi siyasətin rolunu qiymətləndirmək üçün həlledici əhəmiyyətə malikdir, baxmayaraq ki, o, iqtisadi xarakterə nisbətən ən çox siyasi xarakter daşıyır. İnsanlar çəkinirlər ki, pul-kredit və büdcə-vergi siyasətinin güclü alətləri səlahiyyətli və ya opportunist əhval-ruhiyyəli siyasətçilərin əlində oyuncaq ola bilər.

İqtisadi siyasətdə səlahiyyətlilik və səlahiyyətsizlik bir neçə səbəblə izah olunur. Bir sıra iqtisadçılar hesab edirlər ki, siyasət müxtəlif qrupların spesifik maraqlarının təsiri altında nizamsız formalaşır. Bundan əlavə, **makroiqtisadiyyat-mürəkkəb elmdir və siyasətçilər əsaslı qərarlar qəbul etməkdən ötrü bəzən onu kifayət qədər yaxşı dərk etmirlər.** Siyasətçilərin kifayət etməyən peşəkarlığı cəlbedici (aldadıcı), lakin düzgün olmayan mürəkkəb problemlərin həllini tələb edən fırıldaqçılar üçün əlverişli zəmin yaradır. Siyasi prosesin gedişində

[1] Bax: История экономических учений: Учебное пособие / Под.ред. В.А.Жамина, Е.Г.Василевского – М.: Изд-во МГУ, 1989, с.17.
[2] Bax: Пол А.Самуэльсон, Вильям Д.Нордхаус. Экономика. Пер. с.англ. – М.: «БИНОМ», «Лаборатория Базовых Знаний», 1999, с. 35.
[3] Bax: Мэнкью Н.Г.Макроэкономика. Пер. с англ. – М.: Изд-во МГУ, 1994 , с. 497.

fırıldaqçıların məsləhətindən səlahiyyətli iqtisadçıların tövsiyələrini qorumaq heç də həmişə mümkün olmur[1].

**İqtisad elmi iqtisadiyyatı nə qədər real əks etdirərsə iqtisadi siyasət mükəmməl olar və onun həyata keçirilməsi sürətlənər.** İqtisadi siyasət elmi cəhətdən dürüst idarə edilmiş ideya və müddəaların, uzunmüddətli və yaxın vəzifələrin, elə məqsədyönlü fəaliyyətinin məcmusudur ki, onların köməyi ilə dövlətin iqtisadiyyata rəhbərliyi həyata keçirilir.

S.Bryu və K.Makkonnellin «Ekonomiks»in - də yazılır: «İqtisadi siyasətin düzgün əsaslandırılması iqtisadi prinsiplərə istinad etməlidir. Məsələn, ən məşhur iqtisadi prinsiplərdən birinə görə müəyyən hüquqlar daxilində xərclərin ümumi səviyyəsi ilə ölkədə məşğulluq səviyyəsi arasında birbaşa əlaqə vardır: "Xərclərin ümumi həcmi artdıqda işsizliyin səviyyəsi aşağı düşür". Bu prinsip iqtisadi siyasəti müəyyənləşdirərkən hökumətə çox böyük fayda verə bilər. Məsələn, hökumət iqtisadçıların əldə olan statistik materiallardan xərclərin ümumi həcminin azaldığını gördükdə, göstərilən prinsip onlara arzu olunmayan işsizliyin yaranacağını qabaqcadan söyləməyə imkan verəcək. Bu xoşagəlməz nəticədən xəbər tutan dövlətin səlahiyyət sahibləri xərclərin ümumi həcminin artırılmasına və işsizliyin gözlənilən səviyyəsinin qarşısının alınmasına, yaxud aradan qaldırılmasına yönəldilmiş müəyyən hökumət siyasətini işə sala bilərlər. Qısaca desək, səmərəli idarəetmə üçün biz qabaqcadan görmək qabiliyyətinə malik olmalıyıq. İqtisadi prinsiplər bu irəligörməni mümkün edir və sağlam iqtisadi siyasət üçün zəmin yaradır»[2].

Onlar eyni zamanda qeyd edirlər ki, iqtisadi siyasət iqtisadi davranışa və onun nəticələrinə nəzarət edir və ya onlara təsir göstərir[3]. İqtisadi nəzəriyyə və praktikaya dair ensiklopedik

---

[1] Вах: Мэнкью Н.Г. Макроэкономика. Пер.с англ. – М.: Изд – во МГУ, 1994, с. 496-497.
[2] Вах: Макконнелл К.Р., Брю С.Л.Экономикс: Принципы, проблемы и политика. В. 2Т.: Пер. с англ. 11-го изд. Т.Т. – М.: Республика, 1992, с. 23.
[3] Yenə orada, s. 20.

lüğətdə də doğru olaraq göstərilir ki, iqtisadi siyasət – dövlət tərəfindən həyata keçirilən iqtisadi tədbirlər sistemidir, iqtisad elminin bir sahəsidir[1].

AFR-in məşhur alimi X.Girşinin fikrincə, dövlətin iqtisadi siyasəti proseslərin gedişini qaydaya salmaqdan, onlara təsir etməkdən ötrü ona istiqamətlənmiş tədbirlərin məcmuudur. İqtisadi siyasətin məzmunundan danışarkən bir neçə prinsipial müddəanı nəzərə almaq vacibdir:

1. İqtisadi siyasət özündə iki aspektin təsirini sınayır: bir tərəfdən, təsərrüfat vəziyyətinin dəyişilməsini, digər tərəfdən iqtisadi təfəkkürdə dəyişikliyi. Hər iki məqam qarşılıqlı əlaqəlidir, lakin eyni zamanda onlar nisbi müstəqilliyə malikdirlər. Cəmiyyətin inkişafı prosesində iqtisadi təfəkkür labüd olaraq dəyişir, çünki dəyərlər haqqında təsəvvürlər başqalaşır. Bununla əlaqədar olaraq, hətta ənənəvi vəzifələrin bəzən yeni mövqelərdən həll edilməsi qəbul olunur.
2. Mövcud təcrübə göstərir: iqtisadi siyasətin səmərəsi o halda yüksək olur ki, bu zaman hökumətin qərarları ölkədə mövcud olan reallıqlara – siyasi qüvvələrin düzəlməsinə və ölkənin inkişaf səviyyəsinə (istehsal-texniki potensial, sosial strukturun vəziyyəti, ümumdövlət və yerli idarəetmənin institusional qaydası) yönəldilməklə qəbul olunur.
3. İqtisadi siyasət ölkənin siyasi kursuna dəstək verilməsinin həlledici vasitəsidir[2].

Bütün yuxarıda deyilənlərdən bu nəticəni çıxarmaq olar ki, iqtisadi siyasət bir sıra şərait və amillərdən asılıdır. Bunlar isə bir-biri ilə bağlı və əlaqədardır. Daha doğrusu, bu səbəblər bir-birini tamamlayır. İqtisadi siyasət ilk növbədə maddi istehsalın inkişafına təsir göstərir. Hazırda postsovet ölkələrində iqtisadi siyasət bazar münasibətlərinin yaradılmasına, elmi-texniki inqilabın

---

[1] Вах: Лубнев Ю.П., Кравцова Н.И., Лозовой А.М. Краткий энциклопедический словарь по экономической теории и практике / Рост. Гос.э-коном. акад. – Ростов н/д, 1997, с. 72.

[2] Вах: Экономическая теория: Учеб. для студ. высш. учеб. заведений /Под. ред. В.Д.Камаева. – 7-е изд., перераб. и доп. – М.: Гуманит. Изд. центр ВЛАДОС, 2001, с. 457.

nailiyyətlərinin bazar sisteminin üstünlükləri ilə üzvi surətdə birləşdirilməsi sahəsində vəzifənin həllinə yönəldilmişdir. Lakin, **bazar yalnız məqsəd yox, cəmiyyətin həyatının yaxşılaşdırılması, iqtisadiyyatın sağlamlaşdırılması vasitəsi olmalıdır. Bazara tullanmaqla yox tədricən (təkamül yolu ilə), yavaş-yavaş, addım-addım hərəkət etmək lazımdır.**

Çikaqo Universitetinin professoru, 1976-cı ildə istehlak sahəsində tədqiqatları, monetar nəzəriyyə və pul tədavülü tarixinin işlənməsinə görə Nobel mükafatı laureatı **Milton Fridmen yazır: "... heç bir hökumət bazardan ağıllı ola bilməz... "[1].**

Bazarın xəmirini, mayasını, ardıcıllığını, prinsiplərini, vəzifələrini və məqsədini hazırlamaq lazımdır. B.A.Rayzberqin «İqtisadiyyatın əsasları» dərsliyində iqtisadi siyasətin məqsədi haqqında söylədiyi fikirlərlə razılaşmamaq olmur. O göstərir ki, iqtisadi siyasət - dövlət, ölkənin hökuməti tərəfindən aparılan iqtisadi hərəkətlərin baş xəttidir, iqtisadi proseslərə arzu olunan istiqamətin verilməsidir. O, məcmu halda dövlət tərəfindən qəbul edilən tədbirlərdə təcəssüm olunur ki, bunların vasitəsilə nəzərdə tutulan məqsəd və vəzifələr əldə edilir, sosial-iqtisadi problemlər həll olunur. Hökumətin reallaşdırdığı ölkənin kursu bilavasitə iqtisadi siyasətdə əksini tapır. Öz mənasına görə iqtisadi siyasət ölkənin, dövlətin, xalqın məqsədlərini, vəzifələrini, maraqlarını ifadə etmək, təcəssüm etmək iqtidarındadır[2]. Digər dərslikdə isə iqtisadi siyasətə buna yaxın fikirlər söylənsə də yeni yanaşma da hiss olunur. Burada iqtisadi siyasətə qarşıya qoyulmuş məqsədlərin reallaşması üçün iqtisadi proseslərə dövlət tərəfindən təşəbbüs edilən təsir tədbirlərinin məcmusu kimi baxılır. Məsələ ondadır ki, siyasətçilər necə fəaliyyət göstərirlər, iqtisadi siyasətin normativ nəzəriyyəsi ilə necə məşğul olurlar. İqtisadi siyasətin normativ nəzəriyyəsi iqtisadiyyata dövlət müdaxiləsinin zərurəti, xarakteri və sərhədləri problemini öyrənir.

---

[1] Bax: Фридмен М. Если бы деньги заговорили… / Пер.с.англ. – М.: Дело, 1999, с.12.
[2] Bax: Райзберг Б.А. Основы экономики: Учеб. пособие. – М., ИНФРА – М.: 2000, с. 371.

İqtisadi siyasətin pozitiv (müsbət) nəzəriyyəsi politologiya ilə sıx əlaqədardır, bu elm isə iqtisadi siyasətin hazırlanması və reallaşması praktikasını öyrənir[1].

Bəzi iqtisadçılar iqtisadi siyasəti ölkənin qarşısına qoyduğu məqsədlərin həyata keçirilməsinə və bu məqsədlərə nail olmaq yollarının, iqtisadi inkişafın əsas meyillərinin elmi cəhətdən əsaslandırılmış şəkildə qabaqcadan görülməsinin vahid prosesi kimi şərh edirlər.

Professor Ş.Hacıyev bu nöqteyi-nəzərdən haqlı olaraq yazır ki, iqtisadi siyasətin obyekti – ümumxalq dövlətinin maraqları və istehlakçılarıdır[2].

Dünya iqtisad ədəbiyyatında «iqtisadi siyasətlə» «dövlət tənzimlənməsi» anlayışları bəzən eyni mənada işlədilir. Lakin inkişaf etmiş ölkələrdə iqtisadi siyasətin mövcud təcrübəsi göstərir ki, «iqtisadi siyasət» «dövlət tənzimlənməsi» anlayışından genişdir. Dövlət iqtisadi siyasəti həyata keçirərək, təşəbbüsçü, əsas halqa rolunu oynayır. Lakin dərk etmək lazımdır ki, dövlət bu rolda, necə deyərlər, kifayət qədər böyük orkestrin dirijoru kimi çıxış edir[3].

Ş.Hacıyev isə iqtisadi siyasətdə milli iqtisadiyyatın inkişafını ön plana çəkir. O, müasir şəraitdə beynəlxalq iqtisadi münasibətlərin mürəkkəb sistemini və mexanizmini, onların milli iqtisadi münasibətlərlə qarşılıqlı fəaliyyətinin, milli iqtisadiyyatın bu mexanizminə implantasiyasının (köçürmənin) spesifikliyini açan tədqiqatların olmasını, iqtisadi siyasət üçün aktual əhəmiyyət kəsb etməsini göstərmişdir[4].

---

[1] Bax: Современная экономика. Общедоступный учебный курс. Ростов н/д.: «Феникс», 1999, с. 393.

[2] Bax: Гаджиев Ш.Г. Азербайджан на пути к мировому сообществу: стратегия внешнеэкономического развития. – Киев.: «Експрес об.ява», 2000, с. 352.

[3] Bax: Экономическая теория: Учеб. для студ. высш. учеб. заведений. / Под ред. В.Д.Камаева. – 7-е изд., перераб. и доп. - - М.: Гуманит. изд. центр ВЛАДОС. 2001, с. 461.

[4] Bax: Гаджиев Ш.Г. Азербайджан на пути к мировому сообществу: стратегия внешнеэкономического развития. – Киев.: «Експрес об.ява», 2000, с. 355.

Əhalisi çox, ərazisi əhalisinin sayına görə kiçik, iqtisadi cəhətcə vaxtilə zəif olan **Çində «islahatların memarı» Den Syaopinin**[1] iqtisadi siyasəti ölkəni qabaqcıllar sırasına çıxartdı. Den Syaopin kim idi? Onun iqtisadi möcüzəsinin mahiyyəti nə vəd edirdi?

Çin iqtisadçısı Xuan J. yazır ki, siyasi risklər qadağanedici ola bilər. Lakin bu, Den Syaopinin islahatlarına təsir etmədi. Mao Tzedun[2] hakimiyyətinin sonuncu illəri Çin Nikita Xruşşovun dövründəki Sovet İttifaqına bərabər tutulurdu. Den Syaopinin islahatları Çini o səviyyəyə yüksəltdi ki, ibtidai biliklərə malik istənilən adam yəqin ki, bunu skeptik (yəni inanılmaz, hər şeyə şübhə ilə baxan adam – (Kursiv Ş.Q.) qəbul edər. Mao dövründəki Çin ilə Den dövründəki Çin arasında müqayisəedilməz inkişaf mövcuddur. Bu, “Den Syaopin effekti” dir. Praktik olaraq Çin islahatlarına dərhal yaranan inam kifayət dərəcədə Çin siyasətinə hər hansı başqa birinin deyil, məhz Den Syaopinin başçılıq etməsi ilə səciyyələnir. Həm alimlər, həm də praktiklər arasında belə bir fikir formalaşır ki, Den Syaopin Çin islahatlarının memarıdır.

Denin reytinqi Maodan xeyli dərəcə yüksəkdir. “Xeyli dərəcə” burada aparıcı sözdür. Dendə hamıya məlum olan bir sıra üstünlüklər vadır. Sahibkarlar tərəfindən cavabı ona şəhərin yüksək təbəqəsindən deyil, bütün ölkədən yüz milyonlarla çinli kəndlilərdən gəlmişdir. Onlar inanırdılar ki, Denin dövründə siyasətdəki dəyişikliklər uzunmüddətlidir, tsiklik deyil və Den Çini Mao Çinindən obyektiv olaraq fərqlənir. Denin böyük əhəmiyyət kəsb etməsi də öz rolunu oynadı: o üç dəfə Maonun göstərişi ilə repressiyaya məruz qaldı, onun oğlanlarından birini Maonun “qırmızı qvardiyaçıları” “mədəni inqilab” dövründə şikəst

---

[1] Вах: Э.П. Пивоварова. Реформационные воззрения Дэн Сяо-пина и Лю Гогуана: важный аспект анализа современных экономических дискуссий в КНР// «Российский экономический журнал». - 2007. - № 4, с. 71.

[2] Qeyd: Mao Tzedun (1893-1976) 1949-cu ildən 1976-cı ilə qədər Çin Xalq Respublikasına başçılıq edib.

etdilər. Başqa heç bir Çin rəhbəri onun kimi etimad qazanmamışdır.[1]

Den dünyaya gələndə onun adı Den Sisyan idi. İnqilabi fəaliyyəti dövründə adını dəfələrlə dəyişmiş, gah Den Bin olmuş, gah da Den İxe. «Syaopin» təxəllüsü onun balaca boyuna görə verilmişdir. Syao – Çin dilində balaca deməkdir. **Syaopinin həmkarları ona «boyu bir qarış, saqqalı yeddi qarış» deyirdilər.**

XX əsrin 20-ci illərində Den Syaopin Fransada «Reno» zavodunda işləmişdir. O, öz ölkəsində dəfələrlə təqiblərlə üzləşmişdir. Çindəki mədəni inqilab illərində Denin 65 yaşı var idi. Den öz ölkəsində traktor zavoduna sürgünə göndərilir. «Reno» zavodunda topladığı təcrübə onun zavodda da köməyinə gəlmişdir. O, zavodda çilingərliklə, arvadı isə şurupları təmizləməklə məşğul olmuşdur.

Ziddiyyətli, mübarizələrlə dolu həyat yolu keçmiş bu balacaboy kişi Çin iqtisadiyyatında möcüzələr yaratmışdır. Əlbəttə, ona Çin rəhbərliyinin inamı olmuş və eksperimentlərini həyata keçirməyə imkan yaratmışlar. **Den elə nüfuz qazanmışdır ki, çinlilərin dediyi kimi «göyə nərdivan qoymaq» bu nüfuza qarşı çıxmaqdan asan idi. O, elə vəzifələrdə çalışmışdır ki, onun ünsiyyətdə olduğu əhali siyasi lüğətin ən adi sözlərindən belə xəbərdar olmamışdır.** «Azadlıq», «bərabərlik» və s. bu kimi sözləri Den Syaopin əhaliyə əl-qol işarələri ilə başa salmalı olurdu.

Den Syaopin həbsxanada yatıb, ev dustağı olub, 3 dəfə siyasi ölümə məhkum olunubdur. Lakin Denin islahatçılıq məharəti hər dəfə onun qələbəsilə nəticələnib.

**O, həmişə aforizmlərlə danışırdı.** Məsələn: «**Pişiyin ağ və ya qara olmasının mətləbə dəxli yoxdur, təki siçanları yaxşı tutsun**», «**Pələngin quyruğunu dartmaqdan qorxmayın**», «**Məgər imkan vermək olar ki, kimsə tualetdə görüləsi**

---

[1] Вах: Хуан Я. Капитализм по – китайски: Государство и Бизнес./ Яшэн Хуан: Пер.с. англ. – М.: Альпина Паблишерз – 2010, с. 59-61,

**işi görməyə-görməyə tualetdə boş-boşuna otursun?», «Əvvəlcə çiçəklənən cəmiyyət qurmaq, sonra isə ona ad vermək lazımdır», «Əgər xalq aparılan siyasətin düzgünlüyünə inanarsa, bu siyasəti dəyişmək istəyən hər bir kəsi öz yolundan süpürüb aparacaqdır», "Çayı keçərkən ayaqlarının altındakı daşları əllərinlə yoxlamalısan"…**

Den Syaopin heç vaxt vəzifə düşkünü olmayıb. Baxmayaraq ki, 1978-ci ildə ölkənin siyasətini müəyyənləşdirmişdir. 1989-cu ildən bütün vəzifələrdən istefa vermişdir. Bununla belə, ölkənin daxili və xarici siyasətində yaranan hər hansı çətinlik zamanı son sözü Den Syaopin deyirdi.

XX əsrin sonlarında **Çinin Quandun əyalətində Şençcen adlı kiçik bir qəsəbənin yerində xarici kapital sayəsində ucaldılmış ultramüasir şəhəri gəzərkən qoca Den sosialist təfəkkürlü olmasına baxmayaraq qəfildən demişdir: «Yəqin bunun sosializm və ya kapitalizm adlanması o qədər də vacib deyil. Əgər yaxşıdırsa, faydalıdırsa, götürmək lazımdır». Bu fikir vaxtilə Çin Xalq Respublikasında (ÇXR-də) ən qatı mühafizəkarları da islahatlar aparmağa ruhlandırdı və ölkənin qapılarını xaricilərin üzünə açmağın vacibliyini dərk etdilər.** Beləliklə, **Den Syaopin «Çin spesifikalı sosializm» yarada bildi[1].**

Den Syaopinin, Turqut Özalın, Lüdviq Erxardın timsalında Q.N.Menkyunun aşağıdakı fikirləri ilə tam razılaşmaq olar. O yazır ki, **nəyin yaxşı və ya pis olmasından asılı olmayaraq, iqtisadi siyasətin formalaşmasında başlıca rol iqtisadçılara məxsusdur.** Bu rol çox çətindir, çünki iqtisadiyyat – mürəkkəb sistemdir. Lakin ondan imtina etmək də olmaz. İqtisadi siyasətin işlənib hazırlanması zamanı iqtisadçılar iqtisadi modellərin daha təkmil olması vaxtını gözləyərək kənarda dura bilməzlər.

---

[1]Bax: Э.П. Пивоварова. Реформационные воззрения Дэн Сяопина и Лю Гогуана: важный аспект анализа современных экономических дискуссий в КНР// «Российский экономический журнал». -2007.- № 4, с. 73.

**Kimsə bu gün siyasi xadimlərə məsləhət verməlidir və bu çətin vəzifə iqtisadçıların payına düşür.** İqtisadçıların iqtisadi siyasətin formalaşması prosesində iştirakı siyasətçilərə məsləhət verilməsi çərçivəsindən kənara çıxır. Hətta onlardan konkret tədbirlərin işlənib hazırlanmasında və reallaşmasında bilavasitə iştirak etməyənlər də öz tədqiqatları və nəşrləri ilə bu prosesə dolayı təsir göstərirlər[1].

Müəllifin fikirləri ilə tam razılaşsaq da, hadisə və proseslərə tarixi nöqteyi-nəzərdən yanaşdıqda hətta sivil ölkələrdə bunun əksinə rast gəlmişik. **Əksər hallarda siyasətçilər iqtisadçılarla razılaşmır və öz siyasi iradələrini həyata keçirirlər.**

İqtisadi siyasətin strategiya və taktikası bir-birini qarşılıqlı surətdə zənginləşdirməli, tamamlamalı və vəhdət yaratmalıdır. İqtisadi siyasət işlənib hazırlanarkən ölkənin təkcə daxili deyil, xarici şəraiti nəzərdə tutulmalıdır. Ölkənin iqtisadiyyatına münasibətdə dövlətin davranışı müxtəlif olur.

İqtisadi siyasət geniş diapazonda – dövlətin iqtisadiyyata mütləq qeyri müdaxiləsindən planlı iqtisadiyyatlı dövlətlərdə olan sərt idarəetməyə qədər yerləşə bilər. Əgər konkret şərait, mövcud vəsait nəzərə alınmazsa, iqtisadi siyasətin həyata keçməsindən söhbət gedə bilməz.

**İqtisadi siyasəti həyata keçirmək üçün ölkə rəhbərinin ətrafında güclü iqtisadçılar olmalıdır. Ancaq onların kompleks şəkildə işləyib hazırladıqları plan və proqnozlar möcüzələr yarada bilər. Ən inkişaf etmiş ölkələrdə belə olmuşdur.**

İqtisadiyyat və siyasət, onların qarşılıqlı əlaqəsi haqqında tarixi və müasir baxışların təhlilindən belə nəticəyə gəlmək olur: **ayrılıqda iqtisadiyyat və siyasət yoxdur, iqtisadiyyat və siyasət cütlüyü vardır. Burada təsir ikitərəflidir. Bu qarşılıqlı təsirdə birincilik və ikincilik zaman və məkan amilləri ilə bağlıdır.**

---

[1] Bax: Мэнкью Н.Г. Макроэкономика. Пер. с англ. – М.: МГУ. 1994, с. 508-509.

**İqtisadçılar üçün önəmli olan onların fikir və mülahizələrinin reallaşması və nəticənin əldə edilməsidir. Bu yol iki müstəvidən – təfəkkür və gerçəklik müstəvilərindən keçir.** Təfəkkür müstəvisində ideya və nəzəriyyələr formalaşır. Gerçəklik müstəvisində onlar əvvəlcə prinsiplərə (iqtisadi prinsiplərə), sonra iqtisadi siyasətə çevrilərək həyata keçirilir.

**Beləliklə, faktlar → prinsip və ya nəzəriyyələr → iqtisadi siyasət → siyasət formulu, iqtisad elmi ilə iqtisadi fəaliyyət, onun vasitəsilə siyasət arasındakı bağlılığı (əlaqəni) ifadə edən mühüm bir formuldur.**

### 1.3. Qloballaşma şəraitində siyasi-iqtisadi maraqlar və super dövlətlərin "oyunları"

Tarixən dünyada həmişə liderlik uğrunda mübarizə getmişdir. Bu mübarizə XX əsrdə SSRİ ilə ABŞ arasında gedirdi. Hələ 1800-cü ildə ABŞ prezidenti seçilmiş Tomas Cefferson[1] (1743-1826) dövlətçiliyi daha da möhkəmləndirmişdir. 1812-1814-cü illərdə İngiltərə ilə ABŞ arasında ikinci istiqlaliyyət müharibəsi baş verdi. Nəticədə İngiltərə tamamilə ABŞ-a olan iddiasından əl çəkdi.

XX əsrin sonunda Sovet İttifaqının dağılmasına baxmayaraq, bu gün də Rusiya ilə ABŞ arasında rəqabət davam etməkdədir. Hazırda bu rəqabət soyuq müharibə formasında getməsə də, iqtisadi sahədə, yanacaq-enerji resurslarından istifadə istiqamətində özünü göstərir.

Bütövlükdə müasir dövrdə iqtisadi hakimiyyətin dörd dünya mərkəzi mövcuddur:

1. Beşlik qrupu (BVF-nin nizamnamə fondunda ən iri üzvlük haqları olan – ABŞ, Yaponiya, Almaniya, Fransa və Böyük Britaniya).

[1] Qeyd: Tomas Cefferson 1801-1809-cu illər ərzində ABŞ-ın prezidenti olub. ABŞ tarixində iki prezident ümummilli lider sayılıb. Onlardan biri Corc Vaşinqton, digəri isə Tomas Cefferson olub.

2. Böyük yeddilik (Beşlik qrupu üstəlik Kanada və İtaliya) Rusiya ilə birlikdə Böyük səkkizlik, lakin iqtisadi problemlər Böyük səkkizliyin ixtiyarında (sərəncamında) qalır.

3. Onluq qrupu (kreditlər haqqında Ümumi Sazişləri imzalayan ölkələr – Böyük yeddilik, Belçika, Niderland və İsveç, həmçinin İsveçrə. Deməli, real olaraq, on yox, on bir).

4. İşçi qrupu 3 (WP3) (İƏİT-in İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının iqtisadi siyasətinin bir hissəsi), onun tərkibi Onluq qrupunun tərkibi ilə üst-üstə düşür.

Avropa Şurasının qərarlarının qəbul edildiyi ən mühüm mərkəzlərin bu siyahıya əlavə edilməsi lazımdır, lakin öz mahiyyətinə və funksiyalarına görə o, hökumətlərarası instansiyalarla əlaqədar xüsusi yer tutur və onlarla dəqiq müqayisəyə məruz qalmır[1].

Son illər dünya iqtisadiyyatında sənaye cəhətdən inkişaf etmiş 20 ən böyük dövlət mühüm rol oynayır. Vikipediya – azad ensiklopediya materiallarına görə "Böyük 20-lər"in (G20), yəni iyirmilər qrupu (rəsmi adı: ingiliscə Group of Twenty Finance Ministers and Central Bank Governors) - 20 dövlətin (Avstraliya, Argentina, Braziliya, Böyük Britaniya, Almaniya, Avropa İttifaqı, Hindistan, İndoneziya, İtaliya, Kanada, Çin, Meksika, Rusiya, Səudiyyə Ərəbistanı, ABŞ, Türkiyə, Fransa, CAR, Cənubi Koreya, Yaponiya) iqtisadiyyatını: 19 ən iri milli iqtisadiyyatı və Avropa İttifaqını (Aİ) təmsil edən Maliyyə nazirlərinin və Mərkəzi bankların başçılarının beynəlxalq müşavirələrinin formatıdır.

Məcmu şəkildə "Böyük 20-lər"in (G20) dünya ÜDM-nin 90%-i, dünya ticarətinin 80%-i (Aİ daxilində ticarət daxil olmaqla) və dünya əhalisinin üçdə iki hissəsi deməkdir.

2008-ci ilə qədər G20 ən yüksək səviyyədə sammitlər keçirmirdi, onun əsas forması Maliyyə nazirləri və Mərkəzi bankların rəhbərləri səviyyəsində illik görüşlər idi.

---

[1] Bax: Каррон де ла Каррьер Г. Экономическая дипломатия. Дипломат и рынок / Пер. с фр. – М.: «Российская политическая энциклопедия» (РОССПЭН), 2003, с. 233.

G20 1990-cı illərin sonunda maliyyə böhranlarına cavab olaraq və dünya iqtisadiyyatında inkişaf etməkdə olan ölkələrin adekvat çıxış etməsini nəzərə alaraq yaranmışdı.

İyirmilər qrupunun təsis konfransı 1999-cu il dekabrın 15-16-da Berlində keçirilmişdir. Qrup iqtisadi və maliyyə siyasətinin mühüm məsələləri üzrə inkişaf etməkdə olan ölkələrlə dialoqun aparılması üçün dünyanın sənaye cəhətdən inkişaf etmiş yeddi dövlətinin – ABŞ, Kanada, Böyük Britaniya, İtaliya, Fransa, Almaniya və Yaponiyanın maliyyə nazirlərinin təşəbbüsü ilə yaradılmışdır.

**Göründüyü kimi, dünya siyasətinin əsasında müəyyən maraqlar durur. Müasir dünya siyasətinin əsasını isə enerji mənbələri və kommunikasiyalar təşkil edir.** Məhz dövlətin təhlükəsizlik konsepsiyasının təməlini də iqtisadiyyatın artan sürətinə uyğun stabil və fasiləsiz enerji təşkil etmişdir.

ABŞ İraq və Birləşmiş Ərəb Əmirliklərinin neftinə nəzarət edir. Əgər gələcəkdə ABŞ İranın neft ehtiyatlarına nəzarəti ələ keçirərsə, bununla dünyanın bir çox ölkələrinə, xüsusən də Rusiyaya böyük zərbə vurmuş olacaq.

1929-cu ildə başlamış dünya iqtisadi böhranı ABŞ-ın da iqtisadiyyatına zərbə vurdu. 1932-ci ildə prezident seçilmiş Franklin Delano Ruzvelt (1882-1945) amerikalıların qəlbində ümid yaratmağa çalışır: qorxmalı olduğumuz bir şey varsa o da qorxudur. Ruzvelt çıxış yolu kimi o vaxtlar ölkədə dəbdə olan sosialist metodunu – vəhşi kapitalizmdən əl götürmək və yeni iqtisadi kursu qəbul etmək təklifini irəli sürür. Bu gündən etibarən dövlət iqtisadiyyatı planlaşdırmalı və fərdi biznesin işlərinə daha fəal müdaxilə etməli idi. Sonralar Ruzvelt etiraf edərək demişdir: “Mən bunu inqilabdan qurtulmaq üçün elədim”.

Yeni kurs (bəzən iqtisadi ədəbiyyatda buna “Yeni xətt”də deyirlər) iqtisadiyyata elə bir uğur gətirmir, bununla belə, amerikalıların son ümid yeri olan Ruzvelt 1936-cı ildə ikinci, 1940-cı ildə isə üçüncü müddətə prezident seçilir. Ölkə yalnız İkinci

Dünya müharibəsinin başlanması ilə bir vaxtda böhrandan çıxmağa başlayır – hərbi sifarişlər ölkə istehsalını canlandırır.[1]

İqtisadi ədəbiyyatlarda tarixi planda dünya təsərrüfatının inkişafında bir neçə mərhələni bir-birindən ayırırlar:

**Birinci mərhələ:** XIX əsrin sonundan – 1939-cu ilə qədər olan dövrü əhatə edir. Dünya təsərrüfatı müstəmləkə süqutu ilə xarakterizə olunur. Bir neçə inkişaf etmiş ölkə dünya qaydasını müəyyən edir və nəzarət edir.

**İkinci mərhələ:** 1945-1975-ci illərdir. Müstəmləkə ölkələrinin milli-azadlıq mübarizəsi müstəmləkə sisteminin sükutuna gətirib çıxardı. Siyasi müstəqillik əldə edərək inkişaf etməkdə olan ölkələrin əksəriyyəti xarici mülkiyyəti milliləşdirib iqtisadiyyatın dövlət sektorunu yaratdı.

**Üçüncü mərhələ:** 1976-cı ildən XX əsrin 90-cı illərinin ortalarına qədər olan dövrdür. Bu mərhələdə inkişaf etmiş ölkələr və transmilli korporasiyalar (TMK) kapital qoyuluşunun strukturunu təkmilləşdirməyə və regional iqtisadi inteqrasiyanın üstünlüklərindən istifadə etməyə, əlavə texnoloji, təşkilati və ya bazar imkanlarını əldə etməyə cəhd göstərirlər. TMK-ların kəmiyyət artımı qeyd olunur.

**Dördüncü mərhələ:** 90-cı illərin sonundan hazırkı dövrə qədər davam edir. Bu mərhələ qloballaşma prosesinin intensivliyi və dərinləşməsi ilə xarakterizə olunur. Əqli, elmi-texniki və maliyyə potensialını təmərküzləşdirən dünya iqtisadi sisteminin özəyini TMK-lar formalaşdırır.

Bu inkişaf mərhələləri tədricən ölkələrin siyasi və iqtisadi həyatında mühüm dəyişikliklərin baş verməsinə gətirib çıxardı ki, dünyada güc strukturları, dövlətləri əmələ gəldi.

Birinci qrupu inkişaf etmiş ölkələr təşkil edir. Bu ölkələrdə təxminən 1 milyard insan yaşayır. Onların payına dünya ümumi daxili məhsulunun (ÜDM-nin) 51%-i, dünya əmtəə ix-

---

[1] Bax: Demokratiya: Gedişi uzun bir yol. Demokratiya və Antidemokratiya Antologiyası (e.ə. 430- b.e. 1998). Bakı, 2002, s. 40.

racının 56,8%-i düşür, adambaşına ÜDM orta hesabla 29 min dollar təşkil edir. Bu ölkələri aşağıdakı altqruplara bölmək olar:

- dünyanın ən inkişaf etmiş ölkələri (ABŞ, Yaponiya, Almaniya, Böyük Britaniya, Fransa, İtaliya, Kanada);
- Avropanın inkişaf etmiş ölkələri (Norveç, Finlandiya və s.);
- Kənardan gətirilmiş (köçürmə) kapitalizm ölkələri (Avstraliya, CAR, İsrail, Yeni Zelandiya).

İkinci qrup – inkişaf etməkdə olan ölkələr. Cənubi Koreya, Sinqapur, Tayvan, Argentina, Braziliya, Venesuela, Meksika, Qətər, Küveyt, Birləşmiş Ərəb Əmirlikləri, Səudiyyə Ərəbistanı, Bəhreyn, Liviya, Kolumbiya, Qvatemala, Paraqvay, Tunis, Hindistan, Çin Xalq Respublikası, Pakistan, İndoneziya və s.

Üçüncü qrupa keçid iqtisadiyyatlı ölkələr aid edilir (Mərkəzi və Şərqi Avropa, MDB ölkələri, o cümlədən Rusiya).

Dördüncü qrupu avtargiya ölkələri formalaşdırır (Şimali Koreya, Kuba)[1].

İkinci Dünya müharibəsi ərəfəsində ABŞ yenə də güclü dövlətə çevrilmişdir. Müharibədən sonra dünyanın siyasi qütbləşməsi daha da dərinləşdi. Sosializm və kapitalizm adı altında qarşı-qarşıya duran SSRİ və ABŞ təsir dairələrini genişləndirmək üçün psixoloji mübarizəyə başlamışdılar.

1945-ci ildə F.D.Ruzveltin ölümündən sonra prezident postuna Harri Trumen[2] (1884-1972) gəldi. Onun həyata keçirdiyi islahatlar nəticəsində ABŞ-da daxili və xarici siyasəti gücləndirmək məqsədilə Prezident yanında Milli Təhlükəsizlik Şurası və Mərkəzi Kəşfiyyat İdarəsi fəaliyyətə başladı. Dünyanın bir sıra yerlərində ABŞ-ın hərbi bazaları yaradıldı.

ABŞ-ın müharibədən sonrakı tarixində yeni dönüş 1980-cı ildə prezident seçilmiş Ronald Reyqanın[3] (1911-2004) adı ilə

[1] Bax: Воронин В.П., Кандакова Г.В., Подмолодина И.М. Мировое хозяйство и экономика стран мира: Учеб. пособие / Под. ред. В.П. Воронина – М.: Финансы и статистика, 2008, с. 8-9, 11, 20, 22.

[2] Qeyd: Harri Trumen 1945-1953-cü illər ərzində ABŞ-ın prezidenti olmuşdur.

[3] Qeyd: Ronald Reyqan 1981-1989-cu illərdə ABŞ-ın prezidenti olmuşdur.

bağlıdır. Onun irəli sürdüyü «mühafizəkar inqilab» adlı proqramı nəticəsində ABŞ-ın iqtisadiyyatı xeyli güclənmişdi. Bu proqram «Reyqanomika» adını almışdı. Reyqan xarici siyasət sahəsində «strateji müdafiə təşəbbüsü» adlı siyasi xətt yürüdürdü. Reyqan SSRİ ilə münasibətləri yaxşılaşdırmaqda mühüm addımlar atmışdır.

Dünya ictimaiyyəti üçün potensial, uzunmüddətli gözlənilməz nəticələr verən SSRİ-nin tənəzzülünü o dövrdəki ABŞ-ın dövlət katibi C.Beyker Amerikanın XX əsrin sonunda üzləşdiyi "ən böyük problem" adlandırmışdır. Rusiyanın taleyi ilə bağlı narahatlıqları və onun inkişafının bu və ya digər perspektivlərinin mümkün nəticələrini B.Klinton və C.Buş (oğul) administrasiyasının nümayəndələri belə ifadə edirdilər: "Biz bilmirik – ABŞ-ın keçmiş dövlət katibi U.Kristofer yazırdı – XXI əsrdə Rusiya necə bir ölkə olacaq, lakin biz bilirik ki, Rusiyanın gələcəyi bizim təhlükəsizliyimizə və bizim avropalı müttəfiqlərimizin təhlükəsizliyinə böyük təsir göstərəcək"[1].

Amerika və Qərbin inkişaf etmiş ölkələri sosializmi bəzi ölkələrdə inqilablar yolu ilə məhv etməyə cəhd göstəriblər. Məsələn, 1956-cı ildə ilk dəfə Macarıstanda, 1968-ci ildə Çexoslovakiyada, 1980-cı ildə Polşada buna təşəbbüs göstərilmişdir. Bütün bunlar uğursuzluqla nəticələndi. Bunu görən Qərb dünyası «Eyzenhauer doktrinası»nı işə saldı.

ABŞ prezidenti Eyzenhauer Duayt Deyvid[2] (1890-1959) 1950-ci illərin ortalarında SSRİ-ni dağıtmaq üçün milli münaqişələrin yaradılmasını nəzərdə tuturdu. Nəhayət bu istək XX əsrin sonlarında M.S.Qorbaçovun hakimiyyəti dövründə reallaşdı və dünyanın siyasi xəritəsində dəyişikliklərə səbəb oldu. Azərbaycanla Ermənistan məsələsi bunun əyani sübutudur. Ermənistanın sabiq prezidenti Levon Ter-Petrosyan 1998-ci ildə istefa verməzdən əvvəl hökumət üzvləri ilə keçirdiyi qapalı top-

---

[1] Bax: Гаджиев К.С.Геополитика: учебник для бакалавров/ К.С.Гаджиев. – 4-е изд., перераб. и доп. – М.: Юрайт, 2012, с. 392.

[2] Qeyd: Eyzenhauer Duayt Deyvid 1953-1961-ci illər ərzində ABŞ-ın prezidenti olmuşdur.

lantıda kəskin və cəsarətli olaraq demişdir ki: «Dağlıq Qarabağ münaqişəsi öz həllini tapmadan Ermənistanın iqtisadi cəhətdən inkişafı mümkün deyil».

Levon Ter-Petrosyan Ermənistanın sonrakı (2006-cı ildə) siyasətini də kəskin tənqid etmişdir. O göstərmişdir ki, siyasi hadisələr Ermənistanla Türkiyə arasında iqtisadi əməkdaşlıq potensialından istifadə etməyə imkan vermir. Bu səbəbdən Ermənistan Bakı-Tbilisi-Ceyhan (BTC) əsas ixrac boru kəməri layihəsində iştirak edə bilmədi. Ona görə nə qədər ki, Qarabağ münaqişəsi mövcuddur, Ermənistan rəhbərliyində kimin, hansı ağıllı adamın əyləşməsindən asılı olmayaraq ölkənin normal iqtisadi inkişafını təmin etmək, mövcud ictimai və iqtisadi problemləri həll etmək mümkün olmayacaq.

Azərbaycan və Türkiyə ilə sərhədlərin bağlanması, ətraf aləmlə dəmir yolu əlaqəsinin kəsilməsi, nəqliyyat xərclərini məcburi qaydada artırır, Ermənistanın ixrac imkanlarını aşağı salır və xarici sərmayədarların ölkəyə kapital qoymaq marağını azaldır.

Aktiv hərbi əməliyyatlar dövründə Ermənistan iqtisadiyyatının həcmi iki dəfə azalıb. Əgər Qarabağ münaqişəsi öz həllini tapmasa, iqtisadi inkişaf sürəti daha da azala, hətta birdəfəlik dayana bilər. Ter-Petrosyan onu da bildirib ki, **ermənilər müharibəni deyil, döyüşü qazanıblar və beynəlxalq ictimaiyyət Dağlıq Qarabağda uzunmüddətli müharibəyə dözməyəcək.**

Ədalət naminə demək lazımdır ki, Ter-Petrosyan prezident kimi hər şeydən xəbərdar idi və hardasa real mənzərəni görürdü. Ermənistanın bu günü və sabahı haqqında söylədiyi fikirlər tam obyektivdir. Lakin təəssüflər olsun ki, o vəzifədən gedəndən sonra bunları açıqlayıb. Yaxşı siyasətçi bu prosesləri qabaqcadan görməli və xalqı o istiqamətə yönəltməli idi. **Uinston Çörçill deyirdi ki, siyasətçinin istedadı sabah, bir həftə sonra, o biri ildə hansı hadisələrin baş verəcəyini qabaqcadan görmək qabiliyyətindən, həmin hadisələrin baş verməməsi səbəbini izah etmək bacarığından ibarətdir.**

Hərçənd ki, U. Çörçill siyasətin çətinliyini də dərk edirdi: “.... Sizə təklif edə biləcəyim ancaq bunlardır – qan, ağır zəhmət, göz yaşları və tər”. U. Çörçilin fikrincə **siyasətdə gedişlər tükənmir.**

On ildən sonra Ter-Petrosyan yenidən 2008-ci ildə prezident seçkilərində iştirak etmək üçün namizədliyini irəli sürdüyü zaman yenə də narahatçılığını ifadə edərək deyib: «… sual olunur: Ermənistanın daha 20, 30, 40 il status-kvonu qoruyub saxlamağa imkanları varmı? Öz iqtisadiyyatını inkişaf etdirməyə, blokadaları və blokadaların doğurduğu maneələri dəf etməyə onun resursları kifayət edərmi? Və nəhayət, ölkəmiz Azərbaycanla rəqabətə tab gətirə bilərmi?».

Yeri gəlmişkən bu suallar bir qədər geniş formada Ter-Petrosyan tərəfindən 2009-cu ilin martın 1-də Yerevanda çoxminlik mitinqdə də səslənmişdir.

Status-kvo xəritə deyil, stabil qüvvələr balansıdır. Məsələyə bu səpgidə nəzər salanda, böyük təəssüflə qeyd etmək lazımdır ki, biz olduqca narahatedici, təsəllisiz bir vəziyyətdəyik. 20 il bundan əvvəl Ermənistanla Azərbaycan öz insani, iqtisadi və hərbi resurslarına görə az-çox müqayisə edilə bilən qüvvələr olublarsa, bu gün eyni göstəricilərə görə onların arasında nəhəng uçurum əmələ gəlib və getdikcə dərinləşir. Makroiqtisadi göstəricilərdən görünür ki, Ermənistanın iqtisadi inkişaf göstəriciləri bütün sahələrdə ildən-ilə Azərbaycanın inkişaf sürətindən daha çox geridə qalır.

Lakin istər siyasi və istərsə də iqtisadi nöqteyi-nəzərdən Ermənistan ciddi çətinliklərə məruz qalır, Azərbaycanda isə vəziyyət başqa cürdür. Düzdür təbii ehtiyatlar, iqtisadi artım, bir sözlə, bütün göstəricilər üzrə Respublikamız Ermənistandan qat-qat yüksəkdə dayanır. Lakin müharibə müharibədir. Müharibə şəraitində yaşamaq isə narahatçılıq və daim faciələrin baş verə biləcəyi ehtimalı deməkdir. Onun fəsadları bu gün də, hələ sabah da və gələcəkdə də özünü göstərə bilər. Digər tərəfdən

isə torpaqlarının 20%-nin işğalı, 1 milyondan artıq qaçqını olan ölkədə tam əmin-amanlıqdır demək özü də düzgün deyildir.

Torpaqlarımız qayıdandan sonra tamamilə aydın elmi proqnozlar və gələcəyimizə ürəkli və elmi əsaslandırılmış təminat vermək olar.

Tarixən iri dövlətlər arasında həm iqtisadi, həm də siyasi maraqlar uğrunda mübarizə getmişdir. İkinci Dünya müharibəsindən sonra soyuq müharibə özünü Koreyada və Vyetnamda göstərməyə başladı. ABŞ müasir dövrdə dünyaya yenə də meydan oxuyur. Rusiya da yerində saymır. Ukrayna və Gürcüstanda Rusiya – ABŞ qarşıdurması davam edir. Rusiya ölkələrə açıq və gizli şəkildə həm iqtisadi, həm siyasi təzyiqlər göstərir. Krımın işğalı bu fikri bir daha təsdiq edir.

Dünyanın super dövlətlərinin apardığı siyasətin gizli tərəflərinə nəzər salsaq görərik ki, «Qərb-Türk-İslam», başqa sözlə desək, «xristian-müsəlman» qarşıdurması yaranıb. Bu onların düşünülmüş, gizli həyata keçirdikləri və açıq söyləyə bilmədikləri modeldir.

Bir real faktı qiymətləndirməmək ədalətsizlik olardı. Dünyada 70-dən çox müsəlman dövləti var. Dünyada hər 4 nəfərdən 1-i müsəlmandır. Müsəlmanların 2/3-si 10 ölkədə yaşayır. Bu ölkələrdən altısı Asiya qitəsində (İndoneziya, Pakistan, Hindistan, Banqladeş, İran, Türkiyə), üçü Şimali Afrikada (Misir, Əlcəzair, Mərakeş), biri Mərkəzi Afrikada (Nigeriya) yerləşir. Dünyada müsəlmanların ən çox yaşadığı ölkə İndoneziyadır. Orada 203 milyon müsəlman, yəni dünyadakı müsəlmanların 13 faizi, Asiya qitəsində ümumilikdə müsəlmanların 60 faizi, Yaxın Şərqdə və Şimali Afrikada 20 faizi, Mərkəzi Afrikada 15 faizi, Avropa qitəsində 2,4 faizi, Şimali və Cənubi Amerikada 0,3 faizi yaşayır.

"Müsəlman əhalinin gələcəyi: 2030 öncəgörmə" –hesabatında göstərilir ki, 2010-cu ildə müsəlmanların sayı 1,6 milyard olub. 2030-cu ildə isə onların sayı 2,2 milyarda çatacaq. Proqnoza

görə 2030-cu ildə dünya əhalisinin sayı 8,3 milyard olacağını nəzərə alsaq, müsəlmanlar onların 26,4 faizini təşkil edəcək.

Avropada hazırda 44 milyon 138 min müsəlman var ki, 2030-cu ildə bu rəqəm 58 milyon 209 min olacaq. ABŞ-ın müsəlman əhalisi isə 2,5 dəfə artacaq. 2010-cu ildə 2,6 milyon olan müsəlman əhali 2030-cu ildə 6,2 milyona çatacaq.

70 illik sosializm adlanan dövrdə əhalisinin əksəriyyəti müsəlmanlar olan ölkələr içərisində hərtərəfli, xüsusilə də elm və incəsənət sahəsində ən inkişaf etmiş ölkə Azərbaycan olub. Müasir dövrdə isə Türkiyə liderlik edir. Son zamanlar türk dövlətləri birliyinin yaradılması ideyasının ortaya atılması dünyaya ağalıq etmək istəyən ölkələri narahat etməyə bilməz.

Son illərdə isə dünyada enerji təhlükəsizliyi milli təhlükəsizliyin əsas təməlinə çevrilməkdədir. ABŞ-ın və Qərb dövlətlərinin xarici siyasətində əsas məsələ enerji qaynaqlarını ələ keçirməkdir. Qazaxıstanın BTC-yə qoşulması ABŞ-ın Xəzər regionuna nəzarət uğrunda mübarizədə Rusiya üzərində növbəti qələbəsi kimi qiymətləndirilir. Digər tərəfdən bu, həmçinin İranın Xəzər bölgəsinə nəzarət imkanlarının zəifləməsi və Vaşinqtonun mövqeyinin daha da güclənməsi deməkdir. Qazaxıstanın layihəyə qoşulması təkcə strateji nöqteyi-nəzərdən yox, həm də iqtisadi baxımdan önəmli hadisə hesab olunur. Bununla Azərbaycan neft ixrac edən ölkədən tranzit ölkəyə çevrilir. Bu, həm də BTC-nin rentabelliyini artırmış olacaq.

Rusiya isə bu siyasətin əleyhinə olaraq Avropaya neft və qaz ixracında əvvəlki inhisarını saxlamaq istəyir. V.Putinin bu sahədə ilk addımı o oldu ki, 2007-ci il mayın 11-də neft və qaz nəqli ilə bağlı bir neçə ölkə başçısının Polşada keçirilən görüşünə Qazaxıstan prezidenti Nursultan Nazarbayevin qatılmasına açıq surətdə mane oldu. Polşanın Krakov şəhərində keçirilən görüşdə Azərbaycan, Ukrayna, Gürcüstan, Litva və Polşa prezidentləri iştirak edirdi. Qazaxıstanın prezidenti isə bu tədbirdə iştirak etmədi və xeyli kiçik vəzifəli nümayəndə ilə təmsil olundu. Burada enerji əməkdaşlığına dair bəyanat imzalandı ki, bu

da enerjidaşıyıcılarının Xəzər regionundan Avropaya ötürülməsinə şərait yaratmalıdır.

Göründüyü kimi, Putinin qəfil addımı Azərbaycanı və Avropanı çətin situasiya qarşısında qoymuşdu. Bunu nəzərə alaraq, Azərbaycan həmişə çalışıb və çalışmalıdır ki, Qərblə-Rusiya arasında tarazlaşdırılmış balanslı siyasət aparsın.

Bu hadisədən bütün dünya bir daha belə nəticə çıxardı ki, enerji resurslarını ələ keçirmək uğrunda Qərblə Rusiya arasında çox ciddi mübarizə gedir. Putinin əvvəlki prezidentliyi dövründə bu sahədə müəyyən işlər görülmüşdür. Burada məqsəd Rusiyanın bu sahəni ələ keçirmək və quruma başçılıq etmək idi. Aydındır ki, belə olan halda Rusiya qiymətləri diktə etməklə özünə enerji resurslarından siyasi məqsədlər üçün istifadə etməsinə şərait yaradacaqdır. Bu isə ABŞ və Qərb üçün real təhlükə deməkdir.

**Otto Bismark vaxtilə demişdir ki, Rusiyaya qarşı getməyin. Sizin hər hansı bir hiylənizə o, ağlasığmaz və sizin üçün son dərəcə təhlükəli olan hiylə ilə cavab verəcək.**

Göründüyü kimi, Bismarkın söylədikləri bu gün həqiqətə, reallığa çevrilmişdir.

Qərbin ABŞ-la yaxınlığının məqsədi Qərbin Rusiyadan enerji asılılığını aradan qaldırması ilə bağlıdır. Statistikadan məlumdur ki, dünya qaz istehlakının 16 faizi Qərbin, neft istehlakının çox hissəsi ABŞ-ın payına düşür. Ekspertlərin rəyinə görə bu pay ildən-ilə artır. Dünya mütəxəssisləri isə bu tələbatı ödəmək və asılılığı aradan qaldırmaq üçün yeni enerji mənbələri axtarır.

Dünya mətbuatından məlumdur ki, bütün parametrlərinə görə bu gün dünyanın ən nəhəng və yaxın müddət üçün rəqibi olmayan super dövləti ABŞ-dır. Rusiya da bunu görür. Yəqin keçmişini bəzən yada salır və ABŞ-a qısqanclıqla yanaşır.

Dünyada təhlükəsizliyi, sabitliyi təmin etmək üçün super dövlətlərdən ibarət olan «səkkizlər»in başçılarının daimi sammiti keçirilir. Sammit hər dəfə üzv ölkələrin birində keçirilir. Avropa Birliyinin nümayəndələri də toplantıya dəvət olunurlar. İlk dəfə

belə bir toplantı 1975-ci ildə Fransa prezidenti Jiskar D'Estenin təşəbbüsü ilə Paris yaxınlığındakı Rambuye qəsrində 6 ölkənin - ABŞ, Böyük Britaniya, Fransa, Almaniya, İtaliya və Yaponiyanın dövlət başçıları arasında baş tutub. XX əsrin 70-ci illərindən başlayaraq bu görüşlər maliyyə nazirləri səviyyəsində keçirilirdi.

Az sonra (bir ildən sonra) Kanada dövlət başçısı da belə görüşlərə dəvət olundu. 1997-ci ildən isə Avropa Birliyi S-8-in toplantılarına qatılıb. 1997-ci ildə Denver sammitində Çin də toplantıya dəvət olundu. Ancaq nədənsə hələlik Pekin bu təşəbbüsə daim qoşulmağa bir o qədər də meyilli deyil. Yəqin ki, Çin görünməmiş iqtisadi inkişafına görə buna ehtiyac duymur. Ekspertlərin hesablamalarına görə 20 ildən sonra Çində ÜDM-in həcmi 20 trilyon dollara çatacaq və 16 trilyon dollarla ABŞ-ı ikinci yerə qoyacaq. Hal-hazırda amerikalı çinlidən 53 dəfə yaxşı yaşayır. Asiyada yerləşən 500 Çin şirkətinin aktivi 500 milyard dollar təşkil edir. Proqnozlara görə yaxın 20 ildə Çinin iqtisadiyyatının illik artım sürəti 6%-dən çox olacaq. Bu da ona Amerikadan sonra dünyanın ikinci super dövləti statusu qazandıracaqdır. Rusiya Çinlə müqavilə bağlayıb ki, 2038-ci ilə qədər onlara neft verəcək. Rusiya xammal istehsal edən nisbətən geridə qalmış, Çin isə xammalı istifadə edən qabaqcıl ölkədir. Qeyd etmək lazımdır ki, Çinin bu cür sürətlə inkişafı ABŞ-ı, Qərbi-Avropanı və hətta Rusiyanı qıcıqlandırmaya bilməz.

1991-ci ildən 2002-ci ilə qədər Rusiya da tədricən S-8-in toplantılarının daimi iştirakçısına çevrilib. 2006-cı ildə isə Rusiya ilk dəfə olaraq sammitə ev sahibliyi etdi (iyulun 15—17-də Sankt-Peterburqda).

Sammitdə həmişə aktual qlobal problemlərlə bağlı müzakirələr aparılır və iştirakçılar ümumi nəticələrə gəlməyə çalışırlar.

Göründüyü kimi, sammitdə bir növ hegemon dövlət yoxdur. Ancaq BMT sırf Amerikanın alətinə çevrilmişdir. Təşkilat ABŞ-a lazım olan qərarlar çıxarır və onlar icra olunur. Buna baxmayaraq Rusiya və Çin də bu qurumda hər hansı bir qərarın qəbul edilməsinə və qəbul edilməməsinə nail ola bilər. BMT-nin

qətnamələri Amerika, Avropa və Rusiyaya sərf etdikdə, onlar həyata keçirilir, əks təqdirdə məsləhət bilinməyən sənəd yalnız gözdən pərdə asmaq üçün qəbul edilir və onun icra mexanizminə əhəmiyyət verilmir. Bunun nəticəsidir ki, tanınmış maliyyəçi Corc Soros dəfələrlə ABŞ-ın siyasətini kəskin tənqid edib, xüsusilə də 11 sentyabr terror hadisəsindən sonra ABŞ-ın səhvlər erasına daxil olduğunu söyləmişdir. Soros Ağ Evin xarici siyasətinin bütün dünyada stabillik üçün təhlükə olduğunu qeyd etmişdir. Sorosa görə, ABŞ-ın siyasəti başqa ölkələri Amerikaya qarşı çevirir və ölkə daxilində demokratiyaya zərbə vurur.

Soros xüsusilə oğul Buşun hakimiyyəti dövründəki «terrorizmlə mübarizə» strategiyasının səhv olduğunu göstərmişdir: “ABŞ heç bir günahı olmayan insanları öldürdüyünə görə yerləri bəlli olmayan terrorçulara qarşı müharibə elan edib. Ancaq özü də bu zaman heç bir günahı olmayan insanların ölümünə səbəb olur» deyə Soros bildirmişdi. O demişdir ki, Buş onun siyasətini tənqid edən hər kəsi vətənpərvər olmamaqda günahlandıra bilər. Lakin unutmamalıdır ki, bu hərəkətləri ilə vətəndaş cəmiyyətinə zərbə vurur. Soros 2004-cü il seçkilərində Buşa qarşı kompaniya üçün 25 milyon dollar xərcləmişdi. O, növbəti seçkilərdə də respublikaçılara qarşı fəaliyyət göstərəcəyini və demokratlara pul verəcəyini gizlətmirdi.

BMT-nin 61-ci sessiyasının iclasında **Venesuelanın sabiq prezidenti Uqo Çaves ABŞ prezidenti Corc Buşu (oğul) şeytan adlandırmışdır. Hətta ağız-burnunu büzərək Buşun çıxış etdiyi kürsüdən şeytandan üfunət iyi gəldiyini də bildirdi.** O, İsrail hökumətinin ABŞ-dakı ağası Corc Buşu Birləşmiş Ştatlardakı kilsələrin birində də rüsvay edib: **«Sizin prezident Corc Buş əyyaşdır. O, başdan ayağa komplekslərlə dolu olan xəstə adamdır»** deyərək əllərini belinə sıxaraq, xəstə, əyyaş adam kimi onu yamsılamağa başlayıb və Amerika xalqına müraciət edərək özlərinə heç olmasa danışıq və işləmək qabiliyyətinə malik olan adam seçməyi tövsiyə edib.

Argentinanın paytaxtında minlərlə insanın iştirak etdiyi anti-Amerika mitinqində çıxış edən **Çaves Corc Buşu «siyasi meyit» adlandırmışdır. Onun fikrincə, Amerika tarixində Corc Buş amerikalıların ən az etimad göstərdiyi prezidentdir[1].**

«CNN»-nin təsisçisi, mediamaqnat Ted Terner Amerika prezidentinin İraq siyasətini şiddətli tənqid edib. Onun sözlərinə görə, bomba atmaq insanları başqa cür düşünməyə məcbur etmək üçün yaxşı üsul deyil, **mentaliteti yalnız təhsil dəyişir.** Ternerin fikrincə, Buş vəziyyətə obyektiv yanaşmır: «Barmağı nüvə düyməsində olan bu oğlan – yalnız «dəyişmiş» sərxoşdan başqa bir şey deyil». O, qeyd edirdi ki, Corc Buş eyni zamanda 1986-cı ildə sərxoş vəziyyətdə maşın idarə etdiyinə görə günahkardır. Sonralar Buşun özü prezident olandan sonra 1980-cı illərdə spirtə qurşandığını, daha sonralar isə İraqa hücumun səhv olduğunu, ona səhv məlumatlar verildiyini etiraf etmişdi.

Kubanın siyasi lideri **Fidel Kastro ABŞ prezidentini «apokaliptik şəxsiyyət» (faciəvi şəxsiyyət) adlandırıb.** C.Buşun İraq və Əfqanıstanda hərbi əməliyyatların maliyyələşdirilməsi ilə bağlı konqresin hər iki palatası tərəfindən qəbul edilmiş qanun layihəsini imzalaması münasibəti ilə bu açıqlamanı verib. Yazılı bəyanatında Kastro ABŞ prezidentini ictimai rəylə manipulyasiya etməkdə, «saxta rasionallıqda» günahlandırıb.

Avropa Birliyinin Portuqaliyada keçirilən sammiti zamanı Rusiyanın prezidenti **Vladimir Putin** İrana qarşı daha sərt sanksiyaların tətbiqi haqda çağırışlar edən **Amerika rəhbərliyini «əlində iti bıçaq yelləndən manyaklara» bənzətmişdir.**

---

[1] Qeyd: Latın Amerikasının ən böyük neft ixracatçısı olan Venesuella ABŞ-a hər gün 1,5 milyon barel neft satır. Uqo Çaves ABŞ hökumətinin onu öldürməyi planlaşdırdığını iddia edirdi: "Əgər ölsəm bütün məsuliyyət Corc Buşun üzərinə düşür." İqtidarda olandan Uqo Çaves Vaşinqtonun tənqid və təzyiq hədəfinə çevrilib. ABŞ-ın keçmiş dövlət katibi **Kondoliza Rays Çavesi Latın Amerikasının neqativ qüvvəsi adlandırmışdır.**

2004-cü ildə ABŞ-da çıxan «Newsweek» jurnalına müsahibə verən ABŞ-ın dövlət katibi olmuş, məşhur siyasətçi Zbiqnev Bjezinski qeyd etmişdir ki, **ikinci inaqurasiya nitqinə başlamazdan əvvəl prezident Buş özünə belə bir sual verməlidir: Ruzvelt, Çörçill və Trumen arasında hansı ümumi cəhətləri tapmaq olar? Nəyin hesabına onlar dünya miqyaslı siyasi fiqurlar sayılırlar?**

Doğrudur, alimlər bu tarixi şəxsiyyətlər haqqında cildlərlə kitablar yazıblar, amma **bu suala ikicə kəlmə ilə cavab vermək mümkündür: onlar başqalarını təlqin edə bilmişdilər ki, seçilmiş yol doğrudur və öz gücümə inanmalıyam. Amma tarix onların qarşısına hər hansı məsələ qoyanda bu şəxslər ümumi məqsəd naminə hətta öz düşmənləri ilə də əməkdaşlıq etməyə hazır olublar.** Öz düşmənlərindən fərqli olaraq onlar qorxu altında əzilməyiblər və heç zaman ucuz demaqogiya səviyyəsinə enməyiblər. Məhz bu göstəricilərə görə də onlar azad dünyanın demokratik liderləri səviyyəsinə yüksələ biliblər.

Burada vaxtilə Çörçillin davamçısı **Marqaret Tetçerin 20 yanvar 1990-cı il hadisəsi ilə əlaqədar verilmiş sualın cavabını xatırlatmaq yerinə düşər. Jurnalistin: "Siz nəyə görə rus qoşunlarının Bakıda qan tökülməsinə etiraz etmədiniz?" sualına Marqaret Tetçer belə cavab vermişdir: - İngiltərənin nə daimi dostu, nə də daimi düşməni yoxdur, onun daimi maraqları var.**

Göründüyü kimi, Qərb dünyasının siyasəti budur. Dünyanın bir sıra ölkələrində tarixin müxtəlif vaxtlarında terror hadisələri olub və kütləvi surətdə insan ölümü ilə nəticələnib. Hansı başqa bir ölkəyə terror hadisəsindən sonra ümumbəşəri problem kimi komissiya yaradılıb?

Ruzveltin, Çörçillin[1], Trumenin, hətta Stalinin[1] tərcümeyi-hallarında onların siyasətində cəmiyyətin kəskin şəkildə

---

[1] Qeyd: II Dünya müharibəsindən sonra ABŞ-ın və Qərbi Avropa ölkələrinin siyasi strategiyasının əsası U.Çörçillin 1946-cı il martın 5-də ABŞ-ın Fulton Universitetindəki çıxışı ilə qoyuldu. U.Çörçillin çıxışında Şərqin kommunist

parçalanması ilə nəticələnə biləcək hallar olub. Amma onların hər biri ilk növbədə öz emosiyalarına qalib gələrək problemi həll etməyi bacarıblar.

**Deyirlər ki, siyasətçinin ən böyük qələbəsi onun səmimiyyətindədir. Bizcə bayağı bir fikirdir. Çox nadir hallarda siyasətçidə səmimilik görmək olar.**

2005-ci ildə «Ekonomist» jurnalında bir amerikalı politoloq ilə Hafiz Əsədin tərəfdarı olan suriyalı jurnalistin maraqlı fikir mübadiləsi dərc olunmuşdu.

Amerikalı suriyalını qeyri-demokratik ölkədə yaşamaqda və despotizmə qarşı mübarizə aparmaqda suçlayır, ancaq jurnalistin çox haqlı qınağı ilə üzləşir. Amerikalı: Sizin ölkədə hakimiyyətdə ata oğul ilə əvəz olunub. Prezidentin xanımı isə siyasətlə fəal məşğul olur.

Suriyalı: «Bəs Sizin? Corc Buşu digər Buş əvəz etdi. Və nəyə görə Bill Klintonun hakimiyyəti dönəmində onun xanımı Hillari Senata seçilmək istədiyini bildirmişdi?»[2].

Ədalətli cavabdır. Siyasi nöqteyi-nəzərdən **Amerikanın digər ölkələrdən fərqi yalnız ondadır ki, baş verən hadisələri qanunlar libasında təqdim edir. Lakin özü çox hallarda demokratiyaya əməl etmir.**

Ata Corc Buşun prezidentliyi dövründə nisbətən «soyuq müharibə»yə son qoyuldu.

---

ideologiyasının Qərb dövlətlərinə nüfuzunun qarşısını almaq üçün «dəmir pərdə» strategiyası irəli sürülürdü. Bu çıxışın əsasında ingilis-amerikan siyasi strategiyası hazırlandı. 1947-ci ildə «Trumen doktrinası» həyata keçirildi.

[1] Qeyd: Ədalət naminə deyək ki, mənfi emosiyalı olsa da Stalində də dəmir iradə var idi. II Dünya müharibəsi dövründə ətrafındakıların təzyiqlərinə baxmayaraq Moskvanı tərk etməmişdi. Əks təqdirdə bəlkə də müharibəni uduzmalı olardılar.

[2] Qeyd: Nəticədə Hillari Klinton Senata üzv seçildi. Barak Obama administrasiyasında ABŞ-ın Dövlət Katibi də oldu. Argentinanın prezidenti Nestor Kirşnerin həyat yoldaşı Kristina Fernandes de Kirşner isə 2007-ci ildə (oktyabr 28-də) prezident seçildi.

Bill Klintonun dövründə ABŞ əvvəlki qüdrətini saxlaya bilmişdir. Hal-hazırda isə ABŞ dünyanın 3 güc mərkəzindən biridir. **ABŞ-ın yürütdüyü siyasət «beynəlxalq terrorizmə qarşı mübarizə» siyasətidir.**

ABŞ bütün dünyada çıxarılan faydalı qazıntıların 40%-dən çoxunu istifadə edir. Bu ölkənin hərbi xərcləri Rusiyanın, Fransanın, İngiltərənin, Almaniyanın, İtaliyanın, Yaponiyanın, Türkiyənin, İspaniyanın, Şimali və Cənubi Koreyanın, İsrailin, Hindistanın, Pakistanın və Meksikanın birlikdə götürülmüş hərbi xərcləri qədərdir.

ABŞ öz hərbi tələblərinə bir gündə 1 (bir) milyard dollardan artıq pul xərcləyir. Müqayisə üçün deyək ki, Birləşmiş Ştatların bir həftə üçün hərbi xərcləri Rusiyanın bir illik hərbi xərcləri qədərdir. Bu gücündən istifadə edərək ABŞ 2004-cü ildə İraqı bütünlüklə işğal etdi. Bu, iraqlıların canını Səddam Hüseyndən qurtarmaq deyil, İraqda neft ehtiyatlarının zənginliyindən irəli gəlirdi. İraqda Səudiyyə Ərəbistanında olduğu qədər neft var. Dünyanın neft ehtiyatlarının 15%-ə qədəri İraqdadır. Burada bir barel neftin çıxarılma xərci bir dollardan da aşağıya başa gəlir.

ABŞ dünyada aşağıdakı sahələr üzrə liderdir:

–hərbi qüdrətinə görə;

–milyarderlərin və milyonerlərin sayına görə;

–adambaşına düşən elektrik enerjisi sərfinə görə;

–məişət tullantılarının çəkisinə görə;

–neft və qaz sərfinə görə;

–adambaşına qəbul edilən kaloriyə görə.

Bütün bunlara baxmayaraq bəzən kiçik dövlətlər də çox böyük strateji əhəmiyyətə malik olurlar. Qərb mütəxəssislərinin qeyd etdiyi kimi dünyanın hal-hazırda beş geostrateji dayağı mövcuddur: Ukrayna, Cənubi Koreya, Türkiyə, İran və Azərbaycan.

Corc Mason Universitetinin professoru Mark N.Katz ABŞ-ın «United Press İnternational» nəşrində 2006-cı ildə çap etdirirdi «Azərbaycanın geosiyasi durumu» adlı təhqiqat

məqaləsində yazmışdır ki, Azərbaycanın geosiyasi durumu getdikcə daha da mürəkkəbləşə bilər.

**Mark Katz Azərbaycanda 5 önəmli geosiyasi məsələ olduğunu yazır.** Bunlar: **Dağlıq Qarabağ, Xəzərin sektorlara bölünməsi, Cənubi Azərbaycan, demokratikləşmə və kəmərlərdir.**

Kəmər məsələsinə toxunan professor Azərbaycanın müttəfiqlərinin ABŞ, Avropa Birliyi ölkələri, Türkiyə və Gürcüstanın olduğunu, rəqiblərinin isə Rusiya və İran olduğunu göstərir. Burada Xəzərin dibi ilə boru kəmərinin çəkilməsini və Qazaxıstan neftinin BTC-yə çıxarılması ön plana çəkilir. Ancaq istisna deyil ki, **Rusiya istəsəydi BTC layihəsinin qarşısını ala bilərdi, amma bu, özünü məğlub etmək olardı.** Çünki belə olan halda Qazaxıstan neftini Şərqdən Çinə ixrac edərdi.

Ekspertin fikrincə, ABŞ-la İran arasında münasibətlərin dəyişəcəyi təqdirdə, Azərbaycan neftinin İran vasitəsilə ixrac edilməsi daha sərfəli hesab olunsa da bu ehtimal çox azdır. Ancaq Türkiyə və ya Gürcüstanda çaxnaşmaların olması və bunun BTC-nin fəaliyyətinin qarşısını alması ehtimalları onun fikrincə, yüksəkdir: «Həqiqətən də belə görünür ki, Rusiya Gürcüstanda bunun üçün işləyir. Bu, baş verəcəyi təqdirdə, Azərbaycan öz neftini ya Rusiyadan, ya da İrandan ixrac etməli olacaq. ABŞ — İran münasibətlərinin yaxşılaşacağı ehtimalı olmadığı üçün, çox güman ki, bu ölkə Rusiya olacaq».

Mark N. Katzın diqqət yetirdiyi digər məsələ isə Xəzərin delimitasiyasıdır. SSRİ dağıldıqdan sonra İranla Azərbaycan arasındakı su sərhədləri məsələsi həmişə qalmaqallı olub. Bundan əlavə, hesab edilir ki, mübahisəli ərazidə, həm də neft yataqları var.

Tədqiqatın sonunda M.N.Katz bu cümlələri yazır: «Bu təhlil göstərdi ki, **Ermənistan istisna olmaqla Azərbaycanın düşmənlərinin heç biri həmişə düşmən deyil. Şübhəsiz ki, Azərbaycan hökuməti də başa düşür ki, dostların da heç biri həmişə dost deyil».**

2006-cı ildə Türkiyənin doqquzuncu prezidenti Süleyman Dəmirəl demişdir ki, «Qars-Axalkalaki-Tbilisi-Bakı dəmir yolu iqtisadi layihədir. **İqtisadi layihələr isə zaman içində siyasi əngəlləri aşır».** Ermənistanın Qars-Axalkalaki-Tbilisi-Bakı dəmir yolu layihəsindən kənarda qalması onun Azərbaycan torpaqlarını işğal etməsi və Türkiyəyə qarşı əsassız iddialarından irəli gəlirmi? – sualının cavabında isə S.Dəmirəl dəmir yolu layihəsinin hansı şərtlərlə olursa-olsun, əvvəl-axır reallaşacağını vurğulayıb.

Göründüyü kimi, **istər siyasi və istərsə də iqtisadi maraqlar müxtəlifdir, ziddiyyətlidir və təzadlıdır.** Bəs necə etməli ki, bu qarışıq dünyada uduzmadan inkişaf edəsən. Bu, hər bir ölkənin apardığı siyasi və iqtisadi strategiyadan asılı olacaqdır.

### 1.4. Siyasi və iqtisadi uzaqgörənlik inkişaf amili kimi

Tarixdə elə dövlət başçıları olmuşdur ki, onlar həm siyasi, həm də iqtisadi baxışlarına görə seçilmişlər. ABŞ tarixində Franklin Ruzveltdən sonra ən çox iz buraxan dövlət başçısı, prezidentliyə aktyorluqdan gələn, öz siyasi və iqtisadi təfəkkürü ilə seçilən Ronald Uilson Reyqan olmuşdur. Onun siyasəti ilə iqtisadi addımları bir-birini tamamlamışdı.

Reyqan prezidentliyinə başladığı 1981-ci ildə inflyasiyanı 10 faiz aşağı endirməyə müvəffəq oldu. İşsizlik 7 faizdən 5,4 faizə qədər azaldı. Reyqanın prezidentliyi dövründə müsbət cəhətlərlə yanaşı, ağır fəsadlar da baş verdi. Belə ki, hərbi xərclər büdcə kəsirini ildən-ilə artırırdı. 1986-cı ildə büdcə kəsiri 221 milyard dollara çatmışdı. Varlılarla orta təbəqə arasında uçurum, getdikcə birincilərin xeyrinə artmışdı. Reyqanın xarici siyasətdəki uğuru kommunizmə qarşı mübarizədə qətiyyətli və cəsarətli addımı oldu. O, Qərbi Berlində çıxışı zamanı divarın o biri hissəsini göstərərək SSRİ-ni "şər imperiyası" adlandırmışdı.

Bununla bərabər bu siyasəti açıq surətdə üçüncü dünya ölkələrində antikommunist qüvvələri də dəstəkləyirdi. O, prezidentliyinin sonrakı dövründə hərbi xərcləri dəhşətli dərəcədə artırmışdı. Bunun müqabilində isə, Sovet iqtisadiyyatı dağılmağa doğru gedirdi. **Siyasətçilər və tarixçilər SSRİ-nin dağılmasında Reyqanın xüsusi rol oynadığını göstərirlər. Reyqan neft və qaz satışından asılı olan SSRİ-ni silah yarışına cəlb etməklə onun ömrünü qısaltdı.**

Məhz ABŞ-ın 40-cı prezidenti onun əbədi rəqibi olan sosialist rejimlərin dağılmasında müstəsna rol oynadı, bu isə tarixin yaddaşına əbədi həkk olundu.

Reyqanın prezidentliyi ilə Corc Buşun prezidentliyi dövrünün paradoksu isə siyasətdə tam çılpaqlığı ilə özünü göstərir.

1983-cü ildə livanlı kamikadze Beyrutdakı ABŞ səfirliyini partladan zaman səfirlik ərazisindəki 250-yə yaxın ABŞ əsgəri həlak olmuşdur. Adətən belə hallarda amerikalı siyasətçilər genişmiqyaslı hərbi əməliyyat keçirirlər. Corc Buş 11 sentyabr hadisəsindən sonra məhz belə etmişdir. O, Əfqanıstana və İraqa qoşunlar yeritdi. Reyqan Livandakı terror hadisəsindən dərhal sonra, ABŞ qoşunlarını Livandan çıxarmaq əmrini verdi. Reyqan obyektiv olaraq düşünürdü ki, ABŞ qoşunları Livanda işğalçı siyasəti yeridib.

Osmanlı imperatorluğunun onuncu padşahı Sultan Süleyman 45 ildən çox hakimiyyətdə oldu. Padşahlığı dövründə atası Birinci Səlimdən miras qalan 6.557 milyon kvadrat kilometrlik Osmanlı torpaqlarının miqyasını iki dəfədən çox böyüdərək 14,893 milyon kvadrat kilometrə çatdırdı. Buna necə nail olmuşdur?

Sultan Süleyman Osmanlı dövlətini idarə edərkən 4 şərtə ciddi riayət etmişdir:

1. Dövləti idarə etmək üçün güclü ordu lazımdır.
2. Ordunu saxlamaq üçün ölkənin güclü iqtisadiyyatı olmalıdır.

3. Güclü iqtisadiyyata nail olmaq üçün xalqın rifahı yüksək olmalıdır.

4. Xalqın rifahının yüksək olması üçün qanunların aliliyi vacibdir.

Göründüyü kimi, hələ çox qədimlərdə belə, ölkənin taleyinin iqtisadiyyatdan asılılığını dərk edən dövlət başçıları da olub.

İqtisadi təfəkkür gücünə malik dövlət başçılarından biri Türkiyənin prezidenti olmuş və tarixdə türk iqtisadi möcüzəsinin atası sayılan Turqut Özaldır.

ABŞ müdafiə nazirinin keçmiş köməkçisi **Riçard Perl** böyük işlər görən dünya liderlərindən danışarkən üç ad çəkə biləcəyini söyləmişdir: **«Tetçer, Reyqan və Özal. Biz bu insanlardan çox şey öyrəndik. Onlar bütün istiqamətlərdə cəsarətli addımlar atmaqdan çəkinmirdilər».**

Turqut Özal dövründə İraq Küveyti işğal etdi. ABŞ Türkiyənin dəstəyinə ehtiyac duyurdu. Ata Buş bu məsələdə Özalla məsləhətləşdi. Özal artıq hərəkətlərinə görə İraq prezidenti Səddam Hüseyni sevmirdi. 1991-ci ildə ABŞ Küveytə qoşun yeritdiyinə görə İraqın qoşunlarını darmadağın etdi və nəticədə İraqa qarşı hərtərəfli embarqo tətbiq edildi. Küveytin işğalından sonra İraqla Türkiyə arasındakı münasibətlər kəskinləşmişdi. İraq nefti dünya bazarına Türkiyə vasitəsilə daşınırdı. Müharibədən sonra Türkiyə bu imkanlardan məhrum edildi. Türkiyə ekoloji cəhətdən əziyyət çəkdi. Türkiyəyə dəyən iqtisadi zərəri ödəyəcəyinə söz verən Vaşinqton, Küveyt azad edildikdən sonra vədini unutdu. Türkiyə on milyardlarla dollar ziyana düşdü. Görünür, elə bu səbəbdən də 2007-ci ildə ABŞ ikinci dəfə İraqı ram etmək istədikdə, Ankaradan lazımi dəstək ala bilmədi.

**1991-ci ildə Azərbaycan müstəqillik əldə etmək istədiyi dövrdə, Turqut Özal ABŞ-da rəsmi səfərdə idi. Dünyanın diqqəti bir məsələyə yönəlmişdi. Turqut Özal necə reaksiya verəcək? Vaşinqtonda «müstəqillik çalışmalarında Azərbaycana dəstək verəcəksinizmi?» - sualına Özal belə cavab**

**vermişdi: «Azərbaycanın əhalisi şiələrdir, İrana daha çox bağlıdırlar, onlara dəstək verməmiz mümkün deyil».**

**O zaman belə bir fikir dünya müsəlmanlarını, xüsusilə də azərbaycanlıları çox məyus etmişdi. Əslində bu o zaman Özal tərəfindən taktiki gediş idi. Özal sadəcə olaraq vaxtından əvvəl Kremli ayıltmaq istəməmişdir. Bunu onunla əsaslandırmaq olar ki, SSRİ dağılmamış Azərbaycana ilk səfər edən məhz Turqut Özal olmuşdur. Azərbaycanın müstəqilliyini də ilk tanıyan onun rəhbərlik etdiyi Ana Vətən Partiyası idi.**

**Atatürk 1937-ci ildə deyirdi: «Bu gün Sovetlər Birliyi qonşumuzdu, müttəfiqimizdi. Fəqət sabah nələr olacaq, bunu bu gündən heç kəs müəyyən edə bilməz.** Osmanlı kimi, Avstriya-Macarıstan kimi Sovetlər Birliyi də parçalana bilər. Türkiyə də o günə hazır olmalıdır». Belə parçalanma olarsa, Azərbaycan türklərinə yardımçı olmağı vəsiyyət edən Atatürkün vəfatından sonra nələr baş verdi?

**Atatürk 60 il öncə sovetlərin dağılacağını deyirdi,** 90-cı illərdə bu dağılma prosesi baş verəndə Türkiyədə bəzi siyasi xadimlər «bunu gözləmirdik» söylədi. Burada F.Ruzveltin sözü yada düşür: «Siyasətdə təsadüf olmur. Əgər nə isə baş veribsə deməli, hər şey məhz belə planlaşdırılıbmış». Turqut Özal siyasətini də məhz belə qiymətləndirmək lazımdır. Turqut Özal şəxsiyyətində yüksək cəmiyyətə xas islahatçılıq və islam ənənələrinə sədaqət bir-birinə qovuşmuşdur.

**Bəli, yaxşı deyiblər, insan var tarixə salınır, insan da var tarix yaradır. Turqut Özal Atatürkdən sonra iqtisadi islahatlarına görə tarix yaradan insan olub.**

Turqut Özal ölümündən əvvəl son səfərini türk dövlətlərinə etdi. Orta Asiya ölkələrini və Azərbaycanı gəzdi. O, həmişə ürəklə gələcək planlarından danışırdı, imperiyapərəst qüvvələrin siyasətini kəskin tənqid edirdi. Geri qayıtdıqdan dərhal sonra qəflətən ağır xəstələndi və vəfat etdi. Mətbuatın prezidentə

zəhər verildiyi barədə yazdığını, Özalın həyat yoldaşı Səmra xanım ailənin də bu qənaətdə olduğunu təsdiq etdi.

Səmra xanım hesab edir ki, sui-qəsdə T.Özalın açıqlamağa hazırlaşdığı «Böyük Türk Cümhuriyyəti quruluşu proyekti səbəb olub», «Sonda Çinə gedəcəkdik və orada Böyük Türk Cümhuriyyəti elan olunacaqdı. Təbii ki, böyük bir Türk Cümhuriyyətinin qurulması böyük dövlətləri narahat etdi. Bütün yeraltı sərvətlər bu ölkələrdə idi. Narahat ola biləcək çoxlu qruplar vardı. Onların təsiri ilə nələrsə baş verdi».

Bir sıra türk siyasətçiləri Özalın sərgidə zəhərləndiyi iddiasını qəbul etmir. Onların iddialarına görə, eyni məcməyidə bakallar gəlib və hərə birini götürüb, içib – yəni zəhərlənmə olsaydı, hamı zəhərlənərdi. Səmra xanım isə bununla razılaşmır: «Elə deyil, Turqut spirtli içki içmirdi. Ona görə də həmin sərgidə ona xüsusi limonad hazırlanıb. Ondan başqa heç kim limonad içməyib»[1].

Turqut Özalın Azərbaycana səfərini başa vurduqdan sonra qəflətən dünyasını dəyişməsilə bağlı şübhələr Türkiyə mətbuatında səslənirdi. Bu mülahizələrin nə dərəcədə doğru olub olmayacağı tarixin işidir. Gec-tez bu həqiqət ortaya çıxacaq.

Əgər türk mətbuatında belə fikirlər səslənirsə, onda **H.Əliyevin başına gələn haqsızlıqları kimlərin adı ilə bağla-**

[1] Qeyd: 2006-cı ilin dekabrın 20-dən 21-nə keçən gecə Türkmənistan prezidenti Saparmurad Niyazov (Türkmənbaşı) dünyasını dəyişdi. Məlumatda bildirilir ki, S.Niyazovun qəflətən ürəyi dayanıb. Ancaq ekspertlər Niyazovun zəhərləndiyini bildirdilər və əsaslandırmağa çalışdılar ki, o, xüsusi həkim nəzarətində olub və ola bilməzdi ki, qəflətən vəfat etsin. Alman həkimləri də yaxın vaxtlarda onu müayinədən keçirdiklərini və tam sağlam olması barədə bəyanatla çıxış etdilər. Oxşarlığa baxın. Ümumiyyətlə, dünya tarixinə nəzər yetirsək, görərik ki, dövlət başçılarının qəfil ölümü nadir hadisədir. Çünki onlar daim güclü həkim nəzarətində olurlar. Qəfil ölüm hadisəsində isə dərhal ekskumasiya edilir. Turqut Özal isə ekskumasiya edilməyib. Özalın həyatını itirdiyi gün həkimin, tibb bacısının, təcili yardımın olmaması, qan olduğu şüşənin həkimin əlindən düşərək sınması şübhələri daha da artırmışdır.

**yaq.** 90-cı illərdə Azərbaycan Respublikası Ali Soveti sədrinin müavini işləmiş Telman Orucov öz kitabında yazır: «Əliyev Naxçıvandan Ali Sovetin deputatı olarkən, Ali Sovetdə biz onunla görüşdük və mən ona öz ehtiramımı göstərdim. Ona qarşı fiziki hücum təhlükəsi olduğuna görə cangüdəninin binaya buraxılması məsələsini hər cür çətinliyə baxmayaraq, həll etdim. Bizim aramızda geniş söhbət getdi və o, Qorbaçova qarşı mübarizə yolunu tutduğunu qeyd etdi və hətta göstərdi ki, ölümcül xəstəlikdən qalxdıqdan sonra **övladlarını yanına çağırmış,** hərəkətinə görə onlara pislik edilməməsi üçün **ataları kimi ondan imtina etməyi təklif edibmiş.** Onlar bununla qətiyyən razılaşmamış və öz xəttini yerinə yetirməkdə atalarına mane olmayacaqlarını bildirmişlər. O, xəstəliyini xüsusilə dərd boyasında təsvir edirdi. Mən ona ürək-dirək verib dedim ki, ölmək hələ tezdir, Siz çox lazım olacaqsınız, bədbinliyə əsas yoxdur»[1].

Turqut Özaldan əvvəl belə faciə ilə Heydər Əliyev üzləşmişdir və təsadüf nəticəsində sağ qalmışdır. O zaman hələ Heydər Əliyev SSRİ Nazirlər Soveti sədrinin birinci müavini və Sov.İKP MK Siyasi Bürosunun üzvü idi. Qorbaçov onu istefaya göndərmək istəyirdi. H.Əliyevin qızı Sevil xanım «Atamın xəstəliyi Qorbaçovun razılığı və təşəbbüsü ilə törədilmişdi» müsahibəsində tarixi həqiqəti çılpaqlığı ilə söyləmişdir.

Sevil xanım atasının infarkt keçirməsinin öz-özünə baş vermədiyini əsaslandırır. O, qeyd edir ki: «adətən o səhər yeməyini evdə yeyərdi. Həmin gün isə səhər yeməyini iş yerində yemişdi. Yarım saatdan sonra onun halı pisləşir. Sonra bir qrup həkim gəlir və onu dərhal xəstəxanaya aparır. İş yerində ona iynə vurmuşdular. Güman edirəm ki, hər şey elə bu iynədən başlamışdı. Bəlkə də səhər yeməyindən.

Atamı müalicə edən həkimlər ona yaxşı münasibət bəsləyirdilər. Lakin atamı müalicə edən həmin həkimlərin bəziləri

[1] Bax: Telman Orucov. Ömürdən fraqmentlər. Bakı.: «Şuşa» 2004, s. 61.

sonradan müəmmalı şəkildə vəfat etdilər. Həkimlərdən birini küçə qapısında güllə ilə vurub öldürürlər, başqa biri cavan ikən vəfat etdi. Bu da çox müəmmalı əhvalatdır… Sıravi həkimlər onu müayinədən keçirir, əllərinin baş barmaqlarını yuxarı qaldırır və ona ürək-dirək verirdilər: yəni səhhətiniz qaydasındadır. Müalicə edən həkimlər isə vəziyyəti şişirdir və onu qorxudurdular. SSRİ səhiyyə naziri Yevgeni Çazov bir dəfə atamın yanına gəldi və onu dilə tutmağa başladı ki, istefaya getsin. Atam onun dərsini verdi…

… Atamın istefasından sonra Qorbaçov onun övladlarına «girişmişdi». İlham Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunda (MDBMİ-də) dərs deyirdi. Onu çağırıb dedilər ki, işdən getməlidir. Səbəbini də açıq izah etdilər. **Xatirimdədir, atamın qanı qaralmışdı. Şevardnadzenin qəbul otağına zəng vurub xahiş etdi ki, onunla əlaqə saxlasın. Lakin Şevardnadze ona zəng vurmadı.** Yaxşı, tutaq ki, sənə Əliyevin oğlunu işdən azad etmək tapşırılmış, əmr edilmişdir. **Sadəcə, zəng vurmaq ki, olardı»[1].** (Sonralar H.Əliyev Azərbaycan Respublikasının Prezidenti, E.Şevardnadze isə Gürcüstan Respublikasının Prezidenti olarkən H.Əliyevlə dəfələrlə görüşündə **«dostum, qardaşım», İlham Əliyevə isə qardaşoğlu kimi müraciət edirdi.** Öz səmimiliyini dəfələrlə televizor ekranlarında xalq qarşısında ifadə edib). 30 oktyabr 2007-ci il tarixdə rusiyalı jurnalist Andrey Karaulov Bakıda prezident İlham Əliyevin kitabının təqdimat mərasimində çıxışı zamanı vaxtilə SSRİ rəhbərliyinin Heydər Əliyevi aradan götürmək planı haqda iddia irəli sürüb. TVC kanalında «Həqiqət anı» verilişinin müəllifi olan Karaulov deyib ki, **Mixail Qorbaçov Siyasi Büronun üzvü olarkən, Heydər Əliyevi aradan götürmək üçün killer də tutubmuş.** Çünki o, Mərkəzi Komitənin Baş katibi postuna Çernenkodan sonra H.Əliyevin seçilə biləcəyi haqda məlumatlara malik olub. Lakin killer bu planı icra edə bilmə-

[1] Bax: «Azərbaycan» qəzeti. 16 oktyabr 2005-ci il.

yib, H.Əliyev isə ona qarşı sui-qəsd haqqında məlumatların təsiri altında infarkt keçirib.

«Azadlıq» radiosu Eduard Şevardnadzedən müsahibə götürərkən Heydər Əliyevlə də dost idiniz sualına o, belə cavab vermişdir: «Mən onun haqqında çox danışmışam. Bəlkə də on dəfə gəliblər, müsahibə götürüblər məndən. Nə demək istəyirdimsə, hamısını demişəm. **Biz qardaş idik. Əsl qardaş.** Heydər Əliyev bugünkü Gürcüstan üçün həddən çox iş görüb. Çox təəssüf edirəm ki, tez getdi»[1].

BTC-nin reallığa çevrilməsində Saakaşvilidən müqayisəyəgəlməz dərəcədə çox xidməti olan, dəfələrlə ölüm təhlükəsi ilə üz-üzə qalan Şevardnadzenin törənə dəvət almamasını isə sağlam, məntiqlə izah etmək mümkün deyil[2].

Bu reallıqdır. Ədalətsizliyin reallığı. Digər bir tərəfdən isə Şevardnadzenin kürəkəninin Gürcüstanda onun dövründə, hətta indi də ən varlı insanlardan biri olduğu da reallıqdır. Axı o, qayınatasının dövründə milyonçu olub. **Bu paradoks deyilmi?**

Atalar demiş, nə tökərsən aşına, o da çıxar qaşığına.

---

[1] Bax: «Femida 007» qəzeti. 11 avqust 2007-ci il, № 32 (321).

[2] Qeyd: Eks-prezident Eduard Şevardnadze Gürcüstanın sabiq rəhbəri Mixail Saakaşvilini xəsislikdə suçlayıb. Onun sözlərinə görə, Saakaşvili vədinə əməl etməyib. E.Şevardnadze ona vəd olunan pensiyanı ala bilməyib. Nəticədə o zaman sabiq prezidentin işığa, suya və qaza olan borcları 5 min dolları ötmüşdü. O yazdığı kitablara görə qonorar almaqla çörək pulu çıxarmağa çalışır. Bunlar mətbuatda yazılanlardır. Özlərini təmizə çıxarmaq xatirinə boğazdan yuxarı söylənilən fikirlərdir. Lakin, mən 2010-cu ildə Almaniyanın gözəl, olduqca mənzərəli şəhərlərindən biri olan Baden-Badendə olarkən Eduard Şevardnadzenin vertolyotla ona bağışlanmış villaya gəlişini gözümlə görmüşəm. Bu villa Almaniyanın birləşdirilməsindəki roluna görə ona hədiyyə edilib. (Bu, monoqrafiya müəllifinin şəxsi müşahidələrinin nəticəsidir). 1991—1994-cü illərdə Belarusun başçısı olmuş Stanislav Şuşkeviç də çörək pulunu yaradıcılıqla çıxarır. Aleksandr Lukaşenko tərəfindən 1997-ci ildə ona kəsilmiş pensiyada indeksasiya edilməmiş və nəticədə keçmiş dövlət başçısı 1 dollar 48 sent pensiya almışdır. O, məruzə oxumaqla da pul qazanır. Xirosimada Çernobıl qəzası ilə bağlı oxuduğu məruzəyə bir biletin qiyməti aylıq pensiyasından 20 dəfə yüksək olub. Şuşkeviç məhkəmə yolu ilə pensiyasını qaldırmaq istəyib, ancaq uğur qazana bilməyib. (Bax: «Hesabat» jurnalı, 23 aprel 2005-ci il).

**Budur siyasətin çirkinliyi. Tarixi həqiqət bu cür meydana çıxır.**

Oğul Buş demişdir: «Biz indi seçim qarşısındayıq. Tarixi dərslik **müəllifləri deyil, cəsarətli insanlar yazırlar.** Müasir amerikalılar bu hərəkəti davam etdirmək üçün öz sələfləri kimi kifayət qədər cəsarətlidirlər. Biz irəli getməkdə davam edəcəyik».

Görkəmli siyasi xadimlərin hakimiyyətdə olduğu dövrlərdə həyatlarının görünməyən tərəfləri onlar hakimiyyətdən getdikdən sonra böyük maraq kəsb edir. Bu həmişə belə olub. H.Əliyev, T.Özal, Reyqan, ata Buş, Qorbaçov, Şevardnadzenin həyatlarından gətirdiyimiz epizodlar təbii ki, müəyyən dünyagörüşü formalaşdırır. Bu dünyagörüşü isə müasir inkişaf strategiyasını dərk etmək üçün çox vacibdir. Peşəkar siyasətçi və iqtisadçı üçün isə bunlar ibrət dərsləri kimi çox faydalıdır.

**Maraqlar əsasında formalaşan iqtisadi siyasətin bəzən bu maraqları tam realizə edə bilməməsi real tarixi hadisələrin nəzərə alınmamasının nəticəsidir.**

**Lakin iqtisadi siyasətin bir iqtisadi fəaliyyət kimi mükəmməlliyi onun nəzəri əsasının mükəmməlliyi ilə bağlıdır.**

Burada bir tarixi hadisəni xatırlatmaq yerinə düşər. Bazar iqtisadiyyatına keçidlə əlaqədar heç də asan olmayan islahatlaşma proseslərinə geniş miqyas verən Azərbaycan prezidenti H.Əliyev 28 noyabr 1995-ci ildə Londona A.Smit İnstitutunda keçirilən iqtisadi foruma dəvət olunur. Orada H.Əliyevin məruzəsi çox maraqla dinlənilir. Forumun bağlanışında prezidentimizə A.Smitin "Xalqların sərvətinin təbiəti və səbəbləri haqqında" tədqiqat əsəri hədiyyə edilir. Bu hədiyyə rəmzi məna kəsb etsə də heç də təsadüfən seçilməmişdi. Forumun Smit İnstitutunda keçirilməsi, Adam Smitin isə bu əsəri onun "bazar iqtisadiyyatının atası" rəmzi adını daşımasının ifadəsi idi. Başqa sözlə, bu o demək idi ki, Azərbaycan da başqa ölkələr kimi Smitin iqtisadi nəzəriyyəsindən faydalana bilər və faydalanmalıdır.

Azərbaycanın iqtisadi inkişafının formalaşmasında heç şübhəsiz klassik nəzəriyyələrin, o cümlədən A.Smitin liberalizm, azad rəqabət, dövlətin iqtisadiyyatda yerinə dair nəzəri baxışlarının mühüm rolu olmuşdur.

Beləliklə, klassik və müasir iqtisadi nəzəriyyələr iqtisad elmində yeni paradiqmaların dərk olunması, mənimsənilməsi və istifadəsi üçün müstəsna əhəmiyyət kəsb edir.

# II FƏSİL

# KLASSİK İQTİSADİ NƏZƏRİYYƏLƏR VƏ İQTİSAD ELMİNDƏ MODERNİZASİYA

## 2.1. Klassik iqtisadi nəzəriyyələrin təkzibolunmaz və təzadlı tərəfləri

Bütün tarixi dövrlərdə, xüsusilə də müasir dövrdə, bazar münasibətləri şəraitində iqtisadiyyat hər bir adamın həyatına möhkəm daxil olmuş və insanlar onun haqqında çox şey bilməyə səy göstərmişlər. İqtisadiyyat gündəlik həyat məsələsinə çevrilmiş və iqtisadçılar öz əsərlərində suallara, problemlərə həmişə cavab axtarmışlar. Bu qəribə görünməməlidir, təbii haldır.

**Müasir elm və texnika nə qədər inkişaf etmiş olsa da, biz həmişə şəxsiyyətlərin həyatını və əsərlərini unutmamalıyıq və unuda da bilmərik. Onların kəşfləri, nəzəriyyələri, ideyaları olmasaydı və həqiqi elmi axtarışlara qiymət verilməsəydi, müasir dünya da mövcud olmazdı.**

Dünya elmi fikrinin inkişafında nadir insanlar öz nəzəriyyələri ilə seçilmiş və tarixdə öz izlərini buraxmışlar. Onlardan biri və vaxtı ilə uzun bir dövrdə elm məbədgahlarının qapısında dayanan, əksəriyyətin səcdə etdiyi alman filosof-iqtisadçısı Karl Marks olmuşdur.

**Marks böyük insan idi. Hər şeydən əvvəl ona görə ki, o, zəmanəsinə uyğun gəlirdi. Onun doğulduğu mühit özünün yazdığı kimi idi. O, əsərlərində öz dövründəki kapitalizmin iç üzünü açmış, tənqidi yanaşmış və cəmiyyətin inkişafı üçün öz mülahizələrini söyləmişdir.**

Lakin, Marksa qədər də kapitalizmin tənqidçiləri olub. Hansı ideyanın düz və ya əyri olduğunu isə praktika göstərdi. K.Marks əsərlərində sosializm və kommunizm ifadələrini işlətmişdir. Lakin onun söylədiyi fikirlər və nəzəriyyələr vaxtı ilə yaşadığımız «sosializm» cəmiyyəti ilə bir uyğunsuzluq təşkil

etmişdir və qura bilmədiyimiz cəmiyyətin bütün eybəcərlikləri-ni onun adına yazanlar da az deyildir.

Qəribədir, vaxtilə dünyanın az qala çoxunu öz varlığı ilə titrədən sosializm (kommunizm) haqqında görəsən Marks hansı əsərində dəqiq, elmi, birmənalı, hökmlü fikirlər söyləyib? Görəsən bəşəriyyəti lərzəyə salan sosializmin hansı ölkədəki reseptini Marks vermişdi?

Fəlsəfə elmləri doktoru V.Mejuev məntiqi olaraq göstərir ki, **kimin «kommunizm» sözündən xoşu gəlmirsə, onu başqası ilə əvəz edə bilər. Burada söhbət cəmiyyətdən gedir. İnsanlar elə cəmiyyətdə yaşamaq istəyirlər ki, azad olsunlar, heç kəsdən asılı olmasınlar və yüksək səviyyəli mədəni həyat tərzi keçirsinlər.** Marks hər şeyi qabaqcadan görüb fikir söyləyə bilməzdi, lakin bir sıra məsələlərin vaxtında, zamanında həll olunacağını söyləmişdir. Baxdığı problemlərə, tarixi proseslərə məntiqi yanaşmışdır. Bu baxımdan o, nəinki öz dövründə, hətta bu gün də elmin zirvəsində dayanır və maraq doğurur[1].

Bir qrup alimlər və siyasətçilər marksizm deyəndə sırf Marksı nəzərdə tuturlar. **İnsaf naminə demək lazımdır ki, marksizmlə Marksı eyniləşdirmək elmi cəhətdən ədalətsizlikdir.** İngiltərənin sabiq baş naziri Toni Bleyer çıxışlarının birində qeyd etmişdir ki, kapitalizm dayanıqlı deyil. Mən K.Marksı oxuyub sosialist partiyasına daxil olmuşam. 2004-cü ildə Venesuela prezidenti Uqo Çaves Moskvada Rusiya Elmlər Akademiyasının Fəlsəfə İnstitutunda çıxışı zamanı demişdir ki, Marksın ideyaları və onun fəlsəfəsi heç bir zaman ölməyəcək[2]. Dünya ölkələrinin dövlət xadimlərinin həyatından belə misallar çox çəkmək olar.

Vaxt öz işini görür, hər şey köhnəlir və yeniləri meydana gəlir. **Marksın ideyaları da zamanın hökmündən kənarda**

---

[1] Bax: Марксово наследие и современная экономическая наука («круглый стол» журнала «Вопросы экономики»). «Вопросы экономики». 2005, № 1, с. 120-121.

[2] Bax: Российский экономический журнал. 2005, № 1, с. 61.

**deyildir.** Hər şeyə yaradıcı, inkişaf edən bir hadisə, proses kimi yanaşıldığı kimi Marks ideyalarının da yeniləşməsinə, dövrün ab-havası ilə nəfəs almasına ehtiyacı vardır. Amma antimarksistlər bundan belə nəticə çıxarırlar ki, artıq o yaramır, onu bir kənara atmaq lazımdır. Bu kor-koranə inkardır. Marksın tərəfdarları isə onu olduğu kimi qəbul etmiş və yeniləşdirməyə gücləri çatmamışdır. Bu isə ehkamçılıqdan xəbər verir. **Marksizm** bu iki qüvvənin – **inkar edənlərlə ehkamçıların arasında sıxılıb boğulmuşdur.**

**Marksizmi elm kimi, elmi cərəyan kimi qəbul etmək olar, lakin ideologiya kimi yox. Elm kimi onun müsbət və mənfi cəhətləri mövcuddur.** Dövründən asılı olaraq onları şərh etmək olar. Marksizmi tamamilə inkar etmək isə sağlam düşüncə tərzinin məhsulu deyil. Pol A.Samuelson yazır: «Marksizm (marxism) – XIX əsrdə Karl Marks tərəfindən işlənib hazırlanmış sosial-siyasi və iqtisadi konsepsiyaların cəmidir. İqtisadi nəzəriyyə kimi marksizm daxili çəkişmələrin kəskinləşməsi, xüsusilə də zəhmətkeş siniflərin istismarı meyillərinin nəticəsində kapitalizmdə fəhlə sinfinin sıxışdırılması etimadı, əməkhaqqının dəmir qanununa (bu qanuna görə əməkhaqqı minimum yaşayış səviyyəsinə qədər aşağı düşə bilməsi meyli hökm sürür) əsaslanır»[1].

Marksizmin müasir dünyadakı yeri və rolu qızğın diskussiyaların predmetidir. Bununla bağlı mülahizələr aşağıdakılardır:

1. Marksizm ümumən öz zəmanəsinə müvafiq idi, lakin sonralar aktuallığını itirdi və ona dair hər bir klassik təlimə qarşı olan münasibəti sərgiləmək lazımdır.
2. Marksizm cəlbedici prinsipləri irəli sürsə də, onların tətbiqi mexanizmlərini işləyib hazırlamadı.
3. Marksist proqnozlar ümumən düzgündür, lakin bəşəriyyətin uzaq gələcəyinə dairdir.[2]

---

[1] <fx: Пол А.Самуэльсон, Вильям Д. Нордхаус. Экономика. Пер. с англ. – М.: «БИНОМ», «Лаборатория Базовых Знаний», 1999, с. 786.

[2] Bax: Sirota N.M. İdeologiya və siyasət: ali məktəblər üçün dərs vəsaiti / Rus dilindən tərcümə. Bakı: "İqtisad Universiteti", 2013, s. 152.

Təəssüf ki, SSRİ-də qurulan totalitar dövlət sosializminin bütün eybəcərliklərini Marksın adı ilə bağlayanlar, az deyil. **Marksı oxumayanlar, bilməyənlər, onun dərin elmi nəzəriyyəsindən xəbəri olmayanlar Marksı, hətta bir alim kimi inkar edir, lağa qoyur və XX əsrdə baş verən bütün bəlaları onun adı ilə bağlayırlar.**

Digər bir tərəfdən müasir dövrdə marksizm nəinki Çinin, Cənubi Şərqi Asiyanın bir sıra ölkələrində (bu ölkələrdə dünya əhalisinin təxminən dörddə biri yaşayır), hətta ABŞ-ın, İngiltərənin, Fransanın, Almaniyanın nüfuzlu və hörmətə layiq universitetlərində tədris olunur. Marksın elm adamı kimi böyüklüyü mübahisəsizdir. Ona görə də Almaniyada hal-hazırda Marksın əsərlərini orijinaldan çap edirlər. Marksa qayıtmaq lazımdır, marksizmə yox[1]. Miçiqan Dövlət Universitetinin sosiologiya professoru, iqtisad elmləri doktoru V. Şlyapentox K.Marksı cəmiyyət tarixində dahi mütəfəkkirlərdən biri hesab edir[2].

**Azərbaycanda isə daha dərinə və irəliyə gedildi. Marksı alim kimi qəbul edən bütün dünya ölkələrinin ağıllı adamlarından fərqli olaraq onun heykəlini uçurub yerində benzindoldurma məntəqəsi tikdilər. Marks yaradıcılığı azərbaycanlıların gözündə və nəzərində bir benzindoldurma məntəqəsinə də dəymədi.**

Hələ bu azmış deyə, sanki bəzi müəlliflər K.Marks yaradıcılığına açıqca, əslinə qalanda heç bir məntiqə sığmayan səviyyədə hücuma keçmişlər. Məsələn, İslam Nakamoğlu yazır: «… K.Marks elmin elmi tərəfini öyrənməmiş, yüksək ideal xülyalardan bəhs etmişdir; başa düşməmişdir ki, məntiqi yaradılmış mexaniki hərəkətdə bir düyməni basmaqla mexanizm necə hərəkətə gətirilibsə, eynilə ictimai orqanizm də elə hərəkətə

---

[1] <f x: Марксово наследие и современная экономическая наука («круглый стол» журнала «Вопросы экономики»). «Вопросы экономики». 2005, № 2, с. 118, 123, 136.

[2] Bax: В. Шляпентох. Егор Гайдар – марксист?! (о книге Е.Гайдара «Долгое время»). «Вопросы экономики». 2005, № 10, с. 154.

gətirilə bilər, əgər elm qayda üzrə ictimai orqanizmə şamil edilirsə, əgər haşiyə çıxılırsa, onda haşiyə çıxılmış qədər elmdə qeyri-elmilik olacaqdır»[1]. Yaxud kitabın bir çox yerində müəyyən məsələləri şərh edərkən «... K.Marks bundan xəbərsizdir»[2]. «... K.Marks buna diqqət yetirmir»[3] və s. ifadələr işlətmişdir.

Bu gün nəinki marksist nəzəriyyəyə, hətta XX əsrin müasir nəzəriyyələrinə (keynsçiliyə, monitarizmə, neoliberalizmə və s.) münasibət birmənalı deyildir. Xüsusən dünya təcrübəsində nəticələrinə görə ən açıq iqtisadi böhran, ipoteka böhranı kimi başlayan müasir iqtisadi böhran dövründə bazar iqtisadiyyatı nəzəriyyələri ciddi tənqid hədəfinə çevrilib. Dünya ölkələrində tətbiq olunan bazar iqtisadiyyatı modellərinin bir çox problemləri (inflyasiya, işsizlik, yoxsulluq, dinamik iqtisadi artım, iqtisadi təhlükəsizlik və s.) həll edə bilmədiyi artıq bir reallıqdır. Beləliklə, həm marksist, həm də keynsçi, monetarist və digər nəzəriyyələrdən dərin mahiyyətinə görə fərqlənən alternativ nəzəriyyələrin irəli sürülüb tətbiq olunmasına ehtiyac yaranıb.

XXI əsrin əvvəllərindən başlayaraq ümumdünya iqtisadi fikir tarixinin təhlili göstərir ki, artıq bu cür nəzəriyyələr yaranmaqdadır. Yeni yüzillik sosial bir əsr kimi təsvir olunur. İnsan amili özünün bütün spektrlərində diqqət mərkəzində durur. Bazar iqtisadiyyatı, dövlət iqtisadiyyatı, sosialist iqtisadiyyatı anlayışları daha güclü və modern sayılan insan iqtisadiyyatı, geniş mənada insana xidmət edən iqtisadiyyata transformasiya olunur. Yeni alternativ nəzəriyyələrin qarşısına sanki sinfi mənsubiyyətindən, irqindən, cinsindən, məşğuliyyət sferasından, müxtəlif iqtisadi maraqlarından, mülkiyyət mənsubiyyətindən asılı olmayaraq insana xidmət etmək və onu tam reallaşdırma vəzifəsi qoyulur. Yeni yaranan bu cür nəzəriyyələrdən biri türk iqtisadçısı və din xadimi Haydar Başın "Milli İqtisadi Mo-

[1] Bax: İslam Nakamoğlu. Mücərrəd elm. Bakı.: Çaşıoğlu. 1999, S. 135.
[2] Yenə orada, s. 134.
[3] Yenə orada, s. 158.

del”idir[1]. Burada bu yeni modeli hərtərəfli təhlil etmək fikrində deyilik. Lakin qeyd etməliyik ki, iqtisad elminin fəlsəfəsində köklü dəyişikliyi ifadə edən bu modeldə həm marksizmdə, həm də müasir bazar iqtisadi nəzəriyyələrində kifayət qədər nəzərə alınmamış, həmçinin mənfi nəticələr doğuran bir çox elementlər, xüsusən din, mənəviyyat, dövlət və digər institusional amillər ön plana çəkilmişdir.

Kitabda çoxsaylı müsbət cəhətlərlə yanaşı, bizi qane etməyən bir sıra ideyalar mübahisə, diskussiya doğuran müddəalar mövcuddur.

Türk alimi prof. Dr. Haydar Baş «Milli İqtisadi Model» kitabında dünya iqtisadçılarını, marksizmi, kapitalizmi, sosializm-kommunizm sistemini alt-üst edir və özünün ideyalarını irəli sürür. Sanki bəşəriyyəti onun qurduğu model xilas edəcək.

Prof. Dr.Haydar Başa görə: «İstər kapitalizm, istərsə də sosializm modellərinin heç biri bəşəriyyətə səadət gətirə bilməz… Milli İqtisadi Model yalnız ölkəmizi deyil, bəşəriyyəti də rifaha qovuşduracaq»[2]. «… bu günə qədər insanın ehtiyacları qeyri-məhdud, ehtiyatlar isə məhdud hesab olunmuşdur. Ehtiyatlar qeyri-məhdud, insan ehtiyacları məhduddur. Bu dövrümüzə qədər tətbiq olunan iqtisadi modellərin və siyasətlərin inanılmaz səhvlərindən irəli gəlir»[3]. «Milli İqtisadi Model milli dövlətin olmasını tələb edir və qloballaşmanı aradan qaldırılma tədbirlərindəndir»[4] və s.

Qərb iqtisadçısı C.Helbreytin ifadəsini xatırlatmaq istərdim: ən yaxşı iqtisadi sistem – insanların çox ehtiyac duyduğu şeylərlə, onların maksimum tələbatını ödəməyə qadir olan sistemdir. Əvvəla, bu məsələyə dair dünya iqtisadçılarının əvəzedilməz xidmətləri çoxdur və dünya iqtisadiyyatı onların sayə-

---

[1] Bax: Prof. Dr. Haydar Baş. Milli İqtisadi Model. «Bakı Dövlət Universiteti» nəşriyyatı. Bakı.: 2005, 306 ç.

[2] Yenə orada, s. 61.

[3] Yenə orada, s. 62.

[4] Yenə orada, s. 28.

sində bugünkü vəziyyətdədir. Bəzi siyasətçilərin və dövlət başçılarının şəxsi ambisiyaları bəzi ölkələrdə xoşagəlməz mənzərələr yaradırsa, bu o demək deyildir ki, iqtisadçıların ideyaları məntiqsizdir.

İkincisi, kommunizm bəşəriyyətin ideyası, arzusu kimi, gələcəyin xoşbəxt günləri kimi şərh edilirdi. Cəmiyyət kommunizmi utopik bir cəmiyyət kimi qiymətləndirirdi və o xəyallardan, yaddaşlardan sanki silinmək üzrədir. Hansı ki, hər bir kəs belə bir ideal cəmiyyətdə yaşamağı arzulayardı. Lakin, mümkün olmayan cəmiyyət haqqında danışmaq xəyalpərəstlikdən başqa bir şey deyil. Bəlkə də hələ bunun vaxtı deyildir.

Son zamanlar dahi mütəfəkkirlərdən heç biri Marks kimi hörmətdən salınmamışdır. O bütün bunlara layiqdirmi? Daha kəsərli desək, onu tənqid edənlərin buna haqları və elmi səviyyələri çatırmı?

Orta əsrlərdə Qalileyi yer kürəsinin fırlanması barədə nəzəriyyəsindən imtina etmədiyinə görə tonqalda yandırmaq istəyirlər. Tonqalda yanmaqdan xilas olmaq üçün Qaliley öz nəzəriyyəsindən imtina edir. Amma elə ki, tonqalın üzərindən düşür, yenə «Yer kürəsi fırlanır» deyir.

**Hər bir elm kimi iqtisadiyyat da nəinki tanınmış elm korifeylərinin əsərləri sayəsində, eyni zamanda bəzən o qədər də məşhur olmayan bir çox alimlərin səyləri nəticəsində inkişaf etmişdir. Bəzən isə təsadüf nəticəsindəki kəşflər elmin inkişafına güclü təkan vermişdir.** Məsələn, ağacdan düşən alma İshaak Nyutona ümumi cazibə qanununu, vannada suyun səviyyəsinin qalxması Arximedə üzən cisimlər qanununu, Maykl Faradey maqnit sahəsinin qüvvə xətlərini eninə kəsən məftildən hərəkət zamanı elektrik cərəyanının induksiya edildiyini gördükdə, mexaniki enerjini bilavasitə elektrik enerjisinə çevirməyin mümkün olduğu qənaətinə gəlmişdir.

**Marks nəzəriyyəsini siyasiləşdirməklə yox, yaradıcı yanaşmaqla həqiqəti üzə çıxarmaq olar. Təəssüf ki, bu gün iqtisadiyyat haqqında yazanlar Marksın əsərlərindən istifa-**

**də etdikləri halda onun adını hallandırmaqdan sanki qorxurlar. Onlar yazdıqlarına müasir bazar iqtisadiyyatı donu geyindirməyə çalışırlar.** Lakin nəzərə almırlar ki, hər kəsin öz təfəkkürü var. **Marks öz yaradıcılığında insan təfəkkürünə nüfuz etməyi, inam yaratmağı bacarırdı.** O, öz ideyalarının vətənpərvəri idi. K.Marksın heç bir nüfuz qəbul etməyən müstəsna dərəcədə də dəqiq və cəsarətli iqtisadi təfəkkür qabiliyyəti var idi.

Təfəkkürlü insanlar Marks yaradıcılığına münasibətdə bu günün və gələcəyin gözü ilə baxmağı bacarmalıdırlar. Bəzi marksistlər isə əksinə, onun fikirlərini bayağılaşdırırdılar, aksioma, ehkama və ideologiyaya çevirdilər.

Marks nəzəri fikirlərinə görə bəşər tarixinin digər dahi mütəfəkkirlərindən daha çox haqlı olmuşdur. D.V.Valovoy Marksın nələr öyrətdiyini yada salaraq göstərir ki, «Siyasi iqtisadın tənqidinə dair» əsərin müqəddiməsində o, Dantenin «İlahi komediya»sından misal gətirərək yazır ki, cəhənnəmin qapısı kimi elmin qapısında da belə bir tələbnamə asılmalıdır: «Burada möhkəm ruh olmalıdır, burada məsləhəti vahimə verməməlidir»[1].

XIX əsrdə doğulmuş Karl Marks, Ziqmund Freyd[2], Albert Eynşteyn[3] öz dövrlərinin ehkamlarını qırmış və öz kəşf və nəzəriyyələri ilə hətta XXI əsrdə də öz aktuallıqlarını saxlayacaqlar.

---

[1] Bax: Valovoy D.V. Axtarış: iqtisadi povest. – B.: Azərnəşr, 1986, s. 273.
Qeyd: K.Marksın əsərində isə şeir olduğu kimi verilir: "Burada gərəkdir qəlbdə mətanət; Burada qorxudan alma məsləhət".
(Bax: K.Marks. Siyasi iqtisadın tənqidinə dair. Azərnəşr, 1955, s.10).

[2] Qeyd: Fransanın sabiq prezidenti F.Mitteran isə Marksın müasir təfəkkürə çox qiymətli hədiyyəsini «etiraf edərək», eyni zamanda hesab edirdi ki, «Freydin əsərləri bizim zəmanəmiz üçün ideyalar aləmində daha yüksək inqilabi təmsil edir». (Bax: Mirzəcanzadə A. Yaradıcılıq haqqında düşüncələr. B.: Yazıçı, 1984, s. 116). Freyd Ziqmund (1856-1939) Avstriya həkim-psixiatrı və psixoloqu, psixoanalizin banisi olmuşdur. İnkişaf xarakterinin və onun patologiyasının təşəkkülündə psixoseksual nəzəriyyəni inkişaf etdirmişdir, həyəcanlara çox böyük əhəmiyyət vermişdir.

[3] Qeyd: Heç bir şəxs öz sağlığında Albert Eynşteyn qədər nüfuz, ümumi etibar sahibi olmamışdır… Eynşteyn özünün, zaman və məkan materiya, enerji və işıq haqqında

Marksın adı ilə bağlı marksizm ideyası özlərini marksist adlandıranların siyasiləşdirdiyi və həyatda, təcrübədə elmə söykənməyən, əsası olmadan tətbiq etdikləri formada da demək olar ki, məhv oldu (üç ölkəni və bəzi ölkələrdəki ideya insanlarını çıxmaq şərtilə).

Əslinə qalanda **Marksın əsərləri bir çox cəhətcə dünya təfəkkürünü zənginləşdirmişdir. Marksın əsərləri bu gün də elm aləmində nüfuzunu intellektual təhlil sistemi kimi saxlamaqdadır.** Onlar aktual və zəruri olaraq qalırlar. Hərçənd onun izahının bəzi incəlikləri səhv olmuşdur. Bunu nüfuzlu elm xadimlərinin əsərlərində də görmək olar. Oksfordda «Korpus Kristi» kollecinin mühazirəçisi Endryu Qlin «Marksist iqtisadi nəzəriyyə» məqaləsində Bem-Baverk tərəfindən 1896-cı ildən başlayaraq daimi olaraq Marksın müxtəlif nəzəriyyəsini tənqid edənlərin fikirlərini təhlil edərək belə bir nəticəyə gəlir ki, mark-

---

tamamilə yeni və daha dərin təsəvvür oyatmış xüsusi nisbilik nəzəriyyəsini ilk dəfə dünyaya elan edərkən cəmi iyirmi altı yaşında idi.

Nə qədər qəribə görünsə də, prezident Ruzveltə məktub imzalayıb, onu atom bombası yaratmaq işlərinə başlamağa çağıran şəxs öz əsərinin görkəmli pasifisti olan Eynşteyn idi. (ABŞ-da olduğu illərdə Eynşteyn imkanı daxilində alman antifaşistlərinə kömək edirdi. O, narahat idi ki, alman alimləri nüvənin bölünməsi təcrübələrini uğurla başa vursalar Hitler nüvə silahına sahib ola bilər). Sonradan atom bombasının dəhşətlərini dərk edən və onun yaradılmasına xeyli kömək etmiş iki alim – Leo Stsillad və Albert Eynşteyn – hadisələrin gedişatını dayandırmağa çalışaraq 1945-ci ilin yazında Ruzveltə məktubla müraciət etdilər (Ruzvelt bu məktubu oxumamış vəfat etmişdi).

1945-ci il avqustun 6-da, Yaponiya üzərində atom bombasının partladığı xəbəri bütün dünyanı sarsıtdığı bir vaxtda milyonlarla adam nisbilik nəzəriyyəsinin mənasını dərk etmişdi. Həmin vaxtdan etibarən insanın taleyi nazik riyaziyyat sapından asılı qalmışdır.

Eynşteyn atom bombasının nə kimi təhlükə doğura biləcəyini dünyaya başa salmağa çalışaraq, xeyli vaxt və qüvvə sərf etmişdi. (Bax: U.P.Loren. İnsan və atom. Azərbaycan Dövlət Nəşriyyatı. Bakı.: 1975, s. 12, 242, 248-249).

Müasir dövrdə dünya elminin ən görkəmli simalarından biri, qeyri-səlis məntiq nəzəriyyəsinin banisi Lütfi-Zadə müsahibələrinin birində demişdir: «… belə hesab edirlər ki, Eynşteyn belə bir məktubu yazmayıb. Bu məktubu Zeland və başqaları yazıb. Eynşteyn isə onu sadəcə imzalayıb». Sadəcə olaraq bu həqiqəti bilmək üçündür. Eynşteynin məktubu özünün yazıb-yazmaması əslində elə də böyük əhəmiyyət kəsb etmir. Başlıcası odur ki, Eynşteynin imzası ilə gedib.

sist iqtisadi nəzəriyyə yenidən müasir cəmiyyətdə fəaliyyətdədir, ona yaradıcı yanaşılır və təhlil edilir[1].

2004-cü ilin oktyabrında «Вопросы экономики» jurnalının redaksiyasında marksist iqtisadi nəzəriyyəsinin aktual problemlərinə həsr olunmuş «dəyirmi masa» keçirilmişdir. Buna Rusiya iqtisadçıları E.Qaydar və V.Maunun «Марксизм: elmi nəzəriyyə ilə dünyəvi din arasında liberal oxşarlıq» silsilə məqalələrinin çap olunması səbəb olmuşdur. «Dəyirmi masa»ya Rusiyanın görkəmli iqtisadçıları, marksizm mütəxəssisləri dəvət olunmuşdur.

Müzakirədəki bəzi müddəalar düşünmək üçün xüsusi maraq doğurur. Diskussiyada akademik L.Abalkin marksizmə yanaşmada üç anı nəzərdən qaçırmamağı məsləhət görmüşdür:

1. Marksizm digər istənilən elmi nəzəriyyə kimi inkişafdadır. O ictimai fikrin zirvəsində deyil, olsa-olsa onun təkamül mərhələsindədir.
2. Marksizmə hər hansı münasibət olub, var və gələcəkdə də müxtəlif olacaq. Onu müdafiə edənlərin bu və ya digər düşüncələri mütləq səviyyədə öz düzgünlüyünə inanır.
3. Marksizmin keçmişini və gələcəyini müxtəlif formada izah etməyin özü mürəkkəb və məsuliyyətlidir.

L.Abalkinə görə işin mənası inhisarçı reallığın inkarıdır. İnhisarçılığın elan edilməsinə cəhd reallıqda elmin sonu deməkdir[2].

Professor S.Dzarasova görə **Y.Şumpeter doğru olaraq təsdiq edir ki, Marks nəinki alim olub, XX əsrin ən geniş ideologiyasının yaradıcısı və peyğəmbəridir.** Marksizmin bir sıra ideyalarının təsdiqini tapmaması təəccüb doğurmamalıdır.

---

[1] Bax: Экономическая теория. /Под ред. Дж.Итуэлла, М.Милгента, П.Ньюмена: Пер. с англ./. Науч ред. чл. – корр. РАН В.С.Автономов. – М.: ИНФРА – М, 2004, с. 529-542.

[2] Bax: Марксово наследие и современная экономическая наука («Круглый стол» журнала «Вопросы экономики»). «Вопросы экономики» 2005, № 1, с. 87-88.

Tarixi həqiqət həmişə təsadüflərlə zəngindir, bu zaman, heç bir nəzəriyyəni tam surətdə qabaqcadan müəyyənləşdirmək, görmək mümkün deyil[1].

Akademik T.Oyzerman marksizmin bu və ya digər dərəcədə tənqidçiləri olan E.Qaydar və V.Maudan misal çəkərək göstərir ki, müasir dövr və inkişaf qloballaşmaya doğru gedir[2].

---

[1] Bax: Марксово наследие и современная экономическая наука («Круглый стол» журнала «Вопросы экономики»). «Вопросы экономики» 2005, № 1, с. s. 94-95.

[2] Qeyd: V.Şlyapentox Eqor Qaydarın yeni kitabını (Гайдар Е. Долгое время. Россия в мире: очерки экономической истории. М.: Дело, 2005.) təhlil edərkən göstərir ki, o əvvəlki kitabındakı (Гайдар Е. Государство и эволюция. М.: Евразия. 1995) tənqidi müddəalardan fərqli olaraq Marks haqqındakı fikirlərində radikal dəyişikliklər edib. Hətta Qaydar məşhur Qərb elm adamlarından Y.Şumpeterdən, F.Brodelyadan, C.Xiksdən və D.Nortdan Marksı yüksək qiymətləndirdiklərinə dair müddəalar gətirir (Bax: Шляпентох. Егор Гайдар – марксист?! (о книге Е.Гайдара «Долгое время»). «Вопросы экономики». 2005, № 10, с. 149).

R.Nureyev yazır ki, 17 mart 1883-cü ildə Xayget qəbiristanlığında Karl Marksı dəfn edən zaman cəmi 11 nəfər iştirak etmişdir. (Qeyd – Əsl dahi məqsədsiz olur, ancaq elmə xidmət edir. Onu şöhrət maraqlandırmır. Marks da sadə, çətin, lakin şərəfli həyat yaşamışdır. Albert Eynşteyn də şöhrət xəstəliyinə tutulmamışdır. **Ölüm gələndə isə «Mən yer üzündə öz vəzifəmi yerinə yetirmişəm» deyərək həyatını peşmanlıqsız başa vurdu. O, təntənəli dəfn mərasimini məqbul saymamış və vəsiyyət etmişdir ki, dəfn olunduğu yer gizli qalsın ki, insanlar oranı məbədə çevirə bilməsinlər. Onun dəfnində 12 nəfər ən yaxın adamı iştirak etmiş və öz arzusu ilə meyiti yandırılandan sonra külünü küləyə sovurmuşlar.** Kursiv Ş.Q.). Onun dostu və silahdaşı Fridrix Engels dəfn mərasimində çıxışı zamanı belə bir ifadə işlətmişdir. «Onun adı və işi əsrlər boyu yaşayacaq». O zaman bu çox yüksək qiymət kimi səslənsə də sonralar həqiqətə çevrildi. (Bax: Р.Нуреев. Исторические судьбы учения Карла Маркса. «Вопросы экономики». 2007, № 9, с. 87: Маркс К. и Енгелс Ф. Соч. 2-е изд., т. 19, с. 352.).

Digər məqalələrdə də K.Marks yaradıcılığı yüksək qiymətləndirilmişdir. (Bax: А.Бузгалин, А. Колганов. Нужен ли вам либеральный марксизм? (О статье Е.Гайдара и В.Мау «Марксизм»: между научной теорией и «светский религией»). «Вопросы экономики». 2004, № 7, с. 132-150.; Е.Гайдар, В.Мау. Марксизм: между научной теорией и «светской религией» (либеральная аналогия). «Вопросы экономики». 2004, № 5, с. 4-28.; Л.Гребнев. «Мавр» возвращается? А он и не приходил (к дискуссии о значимости научного наследия К.Маркса). «Вопросы экономики». 2004, № 10, с. 55-70; В.Кудров. К современной научной оценке экономической теории Маркса – Энгельса – Ленина (десять пунктов для размышления). «Вопросы экономики». 2004, № 12, с. 111-131.; О.Ананьин. Карл Маркс и его «Капитал»: из девятнадцатого в двадцать первый век. «Вопросы экономики» 2007, № 9, с. 72-87.; А.Бузгалин, А.Колганов. «Капитал»

Marks və Engelsdə qloballaşma sözü yox idi, lakin onlar istehsalın beynəlmiləlləşdirilməsindən, ümumdünya tarixindən yazmışlar. Professor V.Kulikov isə qeyd edir ki, E.Qaydar və V.Maunun dəfələrlə marksizmin böhranı haqqında yazdıqlarına nəzər yetirəndə düşünürsən ki, doğurdan da marksizm böhran dövrünü yaşayır. Lakin, V.Kulikova belə gəlir ki, müasir dövrdə təkcə marksizm deyil, bütövlükdə iqtisadi nəzəriyyə – marksist və qeyri-marksist istiqamətlər böhran keçirir[1].

İqtisad elmləri doktoru M.Voeykov marksizmi elm kimi və marksizmi ideologiya kimi qarışdırmağı lazım bilmir[2].

Marksın orijinallığının ən görkəmli nümunəsi tarixi iqtisadi cəhətdən şərh etməsidir. **Dünyada elə bir mütəfəkkir tapılmaz ki, tarixə Marks qədər böyük təsir göstərmiş olsun.** Makmillanın müasir iqtisadi nəzəriyyə lüğətində göstərildiyi kimi, çox dəqiq baxılan zaman, hətta bir sıra yekun nəticələri səhv olsa belə Marksın nailiyyətləri çox böyükdür. Şumpeter özünün «İqtisadi təhlilin tarixi» əsərində yazırdı ki, Marks tərəfindən tarixin iqtisadi şərhi, tarixi materializm «güclü analitik vasitədir» və onun «hər şeyi əhatə edən sistemi» və «iqtisadi prosesin təkamülündə labüdlüyün görünməsi… Marksa böyük iqtisadçı adını almaq hüququ verir»[3].

"Keynsə qədər 100 böyük iqtisadçı" kitabının müəllifi Mark Blauq yazır ki: "... Qoy onun böyük iqtisadçı olduğundan

---

в XXI веке: pro et contra. «Вопросы экономики» 2007, № 9, с. 104-121.; Э.Райт. Что такое аналитический марксизм? «Вопросы экономики» 2007, № 9, с. 121-139.; В.Черковец. К вопросу об основных альтернативах в общей экономической теории (по поводу 140-летия I тома «Капитала» К.Маркса). «Российский экономический журнал». 2007, № 11-12, с. 74-99.; К.Тронев. О предмете и содержании первого отдела I тома «Капитала» К.Маркса. «Российский экономический журнал». 2007, № 9-10, с. 62-98 və s.

[1] Bax: Марксово наследие и современная экономическая наука («круглый стол» журнала «Вопросы экономики»). «Вопросы экономики». 2005. № 1, с. 94-95.

[2] Yenə orada. ç. 121.

[3] Bax: Словарь современной экономической теории Макмиллана. – М.: ИНФРА – М.: 2003. с. 316.

heç bir şübhə olmasın. Əgər biz, hətta fundamental marksist sxemini və onun əsas nəticələrinin əksəriyyətini inkar etsək, "Kapital"-ın üç cildini, xüsusilə də son iki cildində, müasir iqtisadçıların öyrənə biləcək bir çox maraqlı misallar olduğunu qəbul etməliyik."[1]

Əgər kommunistlər Marksın ssenarisi (əslində o ssenari yazmamış, sadəcə olaraq tədqiqat aparıb öz fikirlərini söyləmişdi, özü də qətiyyətlə, lakin hökmlə yox, elmi əsaslarla) üzrə hərəkət etməmişlərsə, onun nəzəriyyələrini ehkama çevirmişlərsə kimdir günahkar, Marksın özümü?

Qurani-Kərimdə yazılanlar, dindarlar və dindar olmayanlar tərəfindən təhrif olunursa və yaxud ölkədə qanunlar işləmirsə, onun günahı qanunları qəbul edən deputatlardadırmı?

Marks öz dövrünün bütün kapitalist sistemini mühakimə edirdi, onun iç üzünü elmi cəhətdən açırdı. O, kapitalizmin əsaslarını, ziddiyyətlərini, problemlərini üzə çıxartmış və onu əvəz edə biləcək quruluş haqqında mülahizələrini söyləmişdir. Pol A.Samuelson və Vilyam D.Nordxaus ədalətli olaraq K.Marksın uzaqgörənliyi və səhvi haqqında yazır: «Sonrakı onilliklər ərzində tarix sanki Marksın bir neçə qabaqcadan dediyi fikirlərini təsdiq etdi. 1890-cı illərin və 1930-cu illərin iqtisadi çaxnaşması XX əsrin əql sahiblərini xüsusi sahibkarlığa əsaslanan kapitalizmin həyat qabiliyyəti məsələsinə gətirib çatdırdı. 1917-ci ildən başlayaraq sosialistlər öz modelindən istifadə etməyə başladılar və bu sistemin çiçəklənmə zirvəsində dünyanın demək olar ki, üçdə bir hissəsi marksist doktrinasına tabe olurdu. Doğrudur, hazırda özünü marksist adlandıran dövlətlərin sayı kəskin surətdə aşağı düşmüşdür. K.Marks bir çox məsələlərdə, xüsusilə iqtisadi sistem kimi sosializmin üstünlüyü məsələsində səhvlər etmişdir. Lakin bu böyük iqtisadçı kimi onun əhəmiyyətini azaltmır»[2].

---

[1] Bax: Mark Blauq. Keynsə qədər 100 böyük iqtisadçı / rus dilindən tərcümə. Bakı: "İqtisad Universiteti", 2009, s. 182.

[2] <fx: Пол А.Самуельсон, Вильям Д.Нордхаус. Экономика: Пер. с англ. – М.: «БИНОМ», Лаборатория Базовых Знаний, 1999, с. 51.

Əlbəttə, unutmaq lazım deyildir ki, K.Marks sosializm və kommunizm deyəndə «marksistlərin» qurmaq istədikləri cəmiyyətləri nəzərdə tutmamışdır. **Kapitalizm bu gün Marksın dövründə olduğuna bənzəmir. Artıq kapitalizm məfhumunun özü leksikonumuzdan çıxmaq üzrədir. Kapitalist əvəzinə sahibkar, biznesmen, menecer və s. ifadələr işlədilir. Bunu nəzərə almaq lazımdır. Lakin unutmaq da olmaz ki, bununla mahiyyət dəyişmir.**

Bir tədqiqatçı kimi Marks nəhəng şəxsiyyət idi. O, özündən əvvəlki və öz dövründəki filosof və iqtisadçıların əsərlərini təhlil etmiş və şəxsi mülahizələrini söyləmişdir. Marksı iqtisadi təfəkkür tarixi üzrə dünyada aparıcı nüfuz sahibi hesab etmək olar. Bu fikrə sivil ölkələrin tanınmış mütəfəkkirləri də heç bir zaman etiraz etməyiblər.

K.Marks bütün ictimai elmlərdə dərin iz buraxmışdır. Lakin hər halda, ilk növbədə o, iqtisadçı idi, ona görə ki, onun tədqiqatının başlıca predmeti siyasi iqtisad idi. Bir çox insanlar bu gün də K.Marksı bütün dövrlərin ən böyük iqtisadçısı hesab edirlər və onun nəzəriyyəsində həyatda yoxsullar, məzlumlar olmaqdan, görünməmiş bərabərsizlik, ədalətsizlik, satqınlığın mövcud olmaması üçün cəmiyyətin iqtisadi həyatının necə qurulması sualına cavab axtarırlar. K.Marksın iqtisadi ideyaları indiyə qədər kəskin diskussiyaların predmeti olaraq qalır, baxmayaraq ki, onun başlıca əsərləri 100 ildən çox əvvəl yazılmışdır. Bu yaxşıdır və ya pisdir, lakin onun ideyaları o təsəvvürlər aləminin tərkib hissəsinə çevrilmişdir ki, bunun çərçivəsində biz düşünürük. Hazırda heç kim A.Smit və ya D.Rikardo uğrunda mübarizə etmir, elə ki, Marks tədqiqatın predmeti olur, sanki əvvəlki kimi qan təzyiqi qalxır[1].

[1] <fx: Современная экономика. Общедоступный учебный курс. Ростов н/Д.: «Феникс», 1999, с. 645; Блауг М. Экономическая мысль в ретроспективе. М.: 1994, с. 207.

Marks anadangəlmə analitik idi. Bu bir həqiqətdir. Afrika məsəlində deyildiyi kimi, **həqiqəti də günəş kimi ovucla örtmək olmaz.** Dağıstanlılar isə deyir: **keçmişinə tapançadan güllə atma, gələcək səni topa tutar.**

ABŞ-ın keçmiş prezidenti **Ronald Reyqan** K.Marks və V.Leninə qəribə ironiya ilə, lakin məntiqi mühakimə ilə yanaşaraq tutumlu sual verir:

**- Sizcə kommunist kimdir? Bu, K.Marks və V.Lenini oxuyan şəxslərdir. Bəs sizə görə antikommunist kimdir? Bu, K.Marks və V.Lenini başa düşən şəxslərdir.**

Marks ondan əvvəlki iqtisadçıların etinasız yanaşdığı, ondan sonrakı iqtisadçıların isə artıq keçinə bilmədiyi bir çox mühüm məsələləri qaldırmışdır. Bütün bunları Marks öz dövründə ən inkişaf etmiş kapitalist ölkəsi olan İngiltərənin timsalında təhlillər aparmış və nəticələr çıxarmışdır.

O, əsrinin dahi iqtisadçı-filosofu[1] olmuş, bu gün də təfəkkürlü insanlar tərəfindən qəbul edilir, ideyaları yaşayır və

---

[1] Qeyd: Bəzi müəlliflər doğru olaraq göstərirlər ki, Marksın iqtisadi təlimi – iqtisadi nəzəriyyədə diqqətəlayiqdir və dərin istiqamətlidir. Bununla yanaşı onlar Marks nəzəriyyəsindəki müasir dövrün tələbinə uyğun gəlməyən cəhətləri də göstərirlər. (Bax: Экономика. Учебник. 3-е изд., перераб. и доп./Под ред. д-ра экон. наук проф. А.С.Булатова. – М.: Юристь, 2001, с. 146-150).

Maraqlı məsələlərdən biri də odur ki, Marksın müasirlərindən olan təkamül nəzəriyyəsinin banilərindən biri, dəyişkənlik, irsiyyət, təbii və süni seçmə təliminin banisi Çarlz Darvin (1809—1882) Marksın təlimini bilmirdi və bilmək də istəmirdi. K.Marks isə Darvin təliminə yüksək qiymət verirdi.

Marks özünün «Kapital» əsərini Darvinə hədiyyə göndərmiş və əsərin Darvin təliminə uyğun bir fəslini ona həsr etmək arzusunda olduğunu bildirmişdir.

Darvin isə bundan imtina etmiş və göstərmişdir: «Mən bu hədiyyəyə özümü o qədər də layiq hesab etmirəm, çünki mən siyasi iqtisadla tanış deyiləm». (Bax: Nələr olmur bu dünyada! (Toplayıb tərtib edəni və işləyəni Ə.Əsgərov). B.: İşıq. 1990, s. 8-9).

Əsil elm adamı ancaq bu cavabı verə bilərdi. Bunun şərhə gərək ki, ehtiyacı yoxdur.

gələcəkdə də yaşayacaqdır. **Şapiro İen Karl Marksı klassik iqtisadçı adlandırmışdır[1].** Bunu inkar etmək, onun yaradıcılığına dərindən bələd olmayanların, süni, yüngül şöhrət naminə və yaxud kiməsə, hansı saxta ideologiyaya xidmət etmək xatirinə mümkün ola bilər. Bunu isə tarix öz yoluna qoyacaqdır. Necə ki, **tarix sanki yenidən təkrar olunur. Lakin əslinə baxanda təkrar olunan tarix deyil, həyatda özünün reallığını tapan ideyalar və nəzəriyyələrdir.** Belə ki, 2008-ci ildə dünyanı, xüsusilə də inkişaf etmiş ölkələri maliyyə böhranı[2] bürüdü. Böhran ABŞ-dan başladı. 2009-cu ildə ABŞ prezidenti Barak Obama etiraf etmişdir ki, dünyadakı böhranın səbəbkarı ABŞ-dır. Amerika maliyyə böhranı ilə mübarizəyə 700 milyard dollar, ardınca Fransa, Almaniya və Böyük Britaniya birlikdə bir trilyon dollar ayırdılar. İqtisadiyyat üzrə Nobel mükafatı laureatı Pol Kruqman böhranın dərinləşməsinə reaksiya verərək qeyd etmişdir ki, dünyanın maliyyə sistemini hələlik də olsa, Britaniyanın baş naziri Qordon Braun xilas etdi. Onun fikrincə, Britaniya Amerikanın iqtisadi rəhbərlərindən fərqli olaraq aydın düşüncə göstərdi. Braunun və onun maliyyə naziri Alistair Darlinqin qətiyyətlə həyata keçirdiyi iddia odur ki, hökumət çökən banklarda həlledici pay alsın. Britaniya hökuməti 3 bankdan nəzarət zərfini aldı, nəticədə Amerika hökuməti elan etdi ki, vəziyyəti pis olan 9 bankın səhmlərini alır və buna 250 milyard dollar verir.

Həmin ərəfədə İtaliyada yüksək rütbəli ruhanilər məclisində çıxış edən **Roma Papası qlobal maliyyə böhranını ilahi xəbərdarlıq kimi xarakterizə edib.** Vatikanda «Yepiskoplar sinodu» adlı toplantının açılış mərasimində çıxış edən papa bankların və kredit qurumlarının batmasından ibrət alınmasının zəruriliyini bildirib. Böyük bankların iflas etməsini və valyutaların dəyərini itirməsini müşahidə etdiyimiz zaman bütün bun-

---

[1] Bax: Шапиро Иэн. Моральные основания политики. Учебное пособие / Пер. с англ. под ред. В.С.Малахова. – М.: КДУ, 2004, с.55.

[2] Qeyd: Böhran sözü Çin dilində "heroqlifdən" ibarətdir, "təhlükə" və "imkan" deməkdir. Deməli, böhran həm təhlükə, həm də bir imkan şansıdır.

ların heç bir qiymətinin olmadığını görürük. Yaşanan böhran maddiyata bel bağlamanın yanlışlığını bir daha nümayiş etdirib. Həyatlarını yalnız nailiyyət, karyera və pul kimi gözlə görünən şeylər əsasında quranlar evlərini qumların üzərində inşa etmiş insanlara bənzəyirlər. İnsanın həqiqət hesab etdiyi bu kimi şeylər gec-tez yox olub onun əlindən çıxaracaq – deyə Roma Papası sinoddakı çıxışında qeyd edib.

Beynəlxalq Valyuta Fondunun (BVF) 2009-cü ilin əvvəllərində dünya iqtisadiyyatının son mərhələsinə həsr olunmuş proqnozları əvvəlkindən daha məyusedici olmuşdur. Belə ki, proqnozda bildirilirdi ki, İkinci Dünya müharibəsindən sonra belə əhatəli qlobal iqtisadi tənəzzüllə dünya iqtisadiyyatı rastlaşmayıb. Bu il (yəni 2009-cu ildə) geriləmə nəticəsində iqtisadi artım 1,3 faiz həddinə düşəcək. Gələn il isə cüzi artım (1,9 faiz) gözlənilir.

BVF qlobal iqtisadiyyatda 0,5 faiz artım olacağını söyləyirdi. O zaman böhranın episentri ABŞ-ın maliyyə sistemi 2 trilyon 700 milyard dollar itirdi. BVF-nin o dövrdəki proqnozuna görə, Obama administrasiyasının gördüyü tədbirlər dərhal səmərə verməyəcək. ABŞ iqtisadiyyatı 2010-cu ildə də sıfır nöqtəsində qalacaq. Avropada isə iqtisadi artım daha gec başlayacaq. Hazırda dünya iqtisadiyyatının bayraqdarı Çin və Yunanıstan sayılır. Bu ölkələrdə indi artım var, növbəti ildə daha çox gözlənilir. Düzdür, bu proqnozlar özünü tam doğrultmadı. Çünki, Yunanıstanda vəziyyət getdikcə pisləşməyə başladı.

2009-cu ildə Londonda dünyanın ən iri iyirmi ölkəsinin liderləri iqtisadi böhranın aradan qaldırılması ilə əlaqədar olaraq birgə bəyanat qəbul etdilər və qərara gəldilər ki, dünyanın aparıcı ölkələri Beynəlxalq Valyuta Fondu və Dünya Bankı vasitəsilə inkişaf etməkdə olan ölkələrə 2 trilyon dollar vəsaiti kredit şəklində versinlər. Lakin London samitində 2 trilyon deyil, yalnız 1,1 trilyon dollar vəsaitin verilməsi barədə razılıq əldə olundu. Bunun özü də o zaman üçün kifayət qədər ciddi rəqəm idi.

Bu proqnozun ardınca yeni böhran dalğasının başlanması deyilənləri demək olar ki, alt-üst etdi. Proqnoz çox cəhətdən özünü doğrultmadı.

Bütün dünyada yaranan iqtisadi böhran Karl Marksın «Kapital» əsərinin satışını rekord həddə çatdırdı. Almaniyada bir gün ərzində 300 min ədəd satılan «Kapital»ın müəllifinin XIX əsrdə yazdığı «Burjua öz məzar ekskavatorlarını yaradacaq», «Kapitalizm öz-özünü yox edəcək» kimi fikirləri bu gün öz təsdiqini tapır. Qeyd edək ki, 1848-ci ildə Fridrix Engelslə Karl Marksın birgə yazmış olduğu «Kommunizmin manifesti» əsəri «Kapitalizmin özünü yox etməyə gətirib çıxaracaq daxili dinamitlər yaradacaq, eynilə feodalizm kimi» fikirləri ilə zəngindir. Bu gün yaşanan iqtisadi böhran anında insanlar yenidən «Kapitalizm çökməyə məhkumdur» deyən Marksı oxuyur və xatırlayırlar. Bu ara Türkiyədə də Marksın yaradıcılığına böyük maraq yaranmışdır.

**Böyük italyan şairi Dante (1265-1321) demişdir: - Sən öz yolunla get, qoy adamlar nə deyirlər desinlər. K.Marks həmişə yeri gəldikcə bu sözləri təkrar edərdi, hətta «Kapital»a yazdığı müqəddiməsini də bu sözlərlə qurtarmışdır.**

**Marks elmdə dahi idi, lakin əvəzedilməz də deyildir. Qədim Çin hikmətində deyildiyi kimi, özünü əvəzedilməz bilən şəxs qoy barmağını su dolu fincana salsın və sonra baxsın ki, barmağını çıxarandan sonra suda hansı deşik qalıb.**

**Fəlsəfi və iqtisadi təfəkkürü güclü insanlar isə, quruluşundan, hakimiyyət başında kimin dayanmasından asılı olmayaraq, cılız fikirlərdən uzaqlaşıb, tarixin qiymət verə biləcəyi elmə əsaslanmalıdır. Ruslar demişkən, başı itirəndən sonra saça heyfsilənməzlər.**

Məşhur qazax şairi, alimi və ictimai xadimi Oljas Süleymanov başıbəlalı «Az-Ya» əsərində çox kəskinliklə yazmışdır: «Tək şübhə hesabına elmi irəli aparmaq mümkün olmadığı kimi, təkcə inam gücünə onu inkişaf etdirmək olmaz. Əks halda tarixi tutya iki dinin – nihilizmin və vətənpərvərliyin bir atribu-

tuna çevrilir. Mənbəni bilmək mənbədən nə almaq istədiyini bilməkdən qat-qat əhəmiyyətlidir.

Belə bir şəraitdə elmdə ən dəyərli fiqur skeptik olur. Onu qoruyub saxlamaq elmin ömrünü uzatmaq deməkdir.

… Skeptik – neştərli arıdır. Yalnız nadan bağban bu arını qoruq sayılan gül-bağçadan qova bilər. Məhz arı gülzarlığa soxularaq çiçəkləri mayalandırır. Qiymətli çiçək şirəsini tüklücə quldurdan qorumaqla gələcək məhsulu məhv etmiş oluruq»[1].

## 2.2. Marksizm, marksist ideologiya, marksist rəhbərlər (siyasətçilər)

Tədqiqatımızda marksizmin təhlilinə, marksizmə dair müasir baxışlara nisbətən çox diqqət yetirilməsi təəccüblü görünməməlidir. Çünki, iqtisadi nəzəriyyələr tarixində alternativ nəzəriyyələr axtarışının ən ciddi dövrü başlanıb.

XX əsrdə 70 il hökm sürən ölkəni Marksın ideyalarından yaranmış tam sosializm hesab etmək olmaz. Bu sosializm haqqında tarixən söylənilmiş fikirlərdən və 70 illik təcrübədən çıxan obyektiv nəticədir.

Marksizm formalaşdırılmış marksist ideologiya və marksist rəhbərlərin fəaliyyəti ilə nəinki elmi simasını saxlamış, əksinə illüziyaya çevrilmişdir. **Elmlə gerçəklik arasında böyük təzad əmələ gəlmişdir.**

Leninin[2] (1870-1924) rəhbərliyi ilə işlənib hazırlanmış sosializm xətti, sosializm quruculuğunun Stalin[1] tərəfindən zor-

---

[1] Bax: Süleymanov Oljas. Az-Ya. – B.: Azərnəşr, Azərbaycan Bədii Tərcümə və Ədəbi Əlaqələr Mərkəzi. 1993, s. 10.

[2] Qeyd: ABŞ prezidenti olmuş oğul Corc Buş Usamə bin Ladeni Lenin və Hitlerlə bir sıraya qoyub. O, Amerikanın hərbi zabitlər assosiasiyasının qarşısında çıxışı zamanı dünyanın vaxtilə Leninin və Hitlerin açıq bəyanatlarına fikir vermədiyini və bunun milyonlarla insanın ölümünə gətirib çıxardığını vurğulayıb və qeyd edib ki, bu gün Usamə bin Laden və onun müttəfiqləri öz niyyətlərini Lenin və Hitler kimi açıq bildirirlər.

Görün nə dərəcədə ədalətsiz müqayisədir**. Lenini alim kimi qiymətləndirməməyin özü ədalətsizlikdir.** Rus hərbi tarixçisi Dmitri Volkoqonov (1923-1996) «Lenin: siyasi portret» əsərində göstərir ki, əvvəllər deyirdilər ki, Lenin daha 20 il yaşasaydı hər şey başqa cür olardı. Bu tam yanlış fikirdir. Lenin yüz faiz Stalinin mənəvi atası idi. Rusiyanın bütün fəlakətlərinin kökü – Lenində və leninizmdədir. Eyni zamanda **Lenin qüdrətli intellektə malik qeyri-adi adam idi. O, günahkar idi, lakin «dahi günahkar» idi.**

Qorbaçovun prezidentliyi dövründə radikal əhval-ruhiyyəli demokratlar mavzoleydən V.İ.Leninin cəsədinin götürülməsi və torpağa basdırılması qərarının çıxarılmasına cəhd etmişlər. Onlar B.N.Yeltsinin prezidentliyi dövründə də buna təşəbbüs göstərmişlər. SSRİ dağıldıqdan sonra V.İ.Leninə qoyulmuş çoxsaylı heykəllərin çoxu sökülmüş, muzeylər bağlanmış, adı şəhərlərin, küçələrin, müəssisə və təşkilatların üzərindən götürülmüşdür. 1993-cü ildən hətta Moskvada, Qızıl meydanda, Lenin mavzoleyi qarşısındakı 1№-li qarovul postu ləğv edilmişdi. 2001-ci ildə Kremldə mətbuat konfransında sələflərindən fərqli olaraq V.V.Putin V.İ.Leninin cəsədinin basdırılmasının əleyhinə çıxmış və demişdir: «Ölkə 70 il Sov.İKP-nin inhisarında yaşamışdır. Bu bütöv nəslin həyat dövrüdür və çox insanlar öz şəxsi həyatlarını Leninin adıyla bağlayırlar. Leninin dəfni onu göstərəcək ki, onlar yanlış dəyərlərə sitayiş etmişlər, qarşılarına yanlış məqsədlər qoymuşlar və onların həyatı bihudə yaşanmışdır». V.V.Putin qeyd etdi ki, V.İ.Leninin cəsədinin basdırılması cəmiyyətdə vəziyyəti poza bilər və «Rusiyanın real yeniləşdirilməsinə mane ola bilər». Bununla yanaşı, o vurğuladı ki, «əgər biz iqtisadiyyatı və siyasi mühiti dəyişsək, onda bu əhalinin böyük hissəsinin şüurunun qaçılmaz dəyişilməsinə gətirib çıxaracaq». Və onda «əhalinin böyük əksəriyyətinin həyata yeni baxışlarına arxalanaraq biz Rusiya xalqının iradəsini yerinə yetirəcəyik. Lakin o necə olacaq, biz gələcəkdə baxacağıq». (Bax: Zenkoviç N.A.Putin ensiklopediyası. Ailəsi. Komandası. Rəqibləri. Ardıcılları. (Rus dilindən tərcümə). Bakı.: «Nurlan», 2006, s. 364-365).

Tarix göstərir ki, bəzi dövlət başçıları çox hallarda öz səviyyələrinə uyğun fikirlər söyləmişlər. Oğul Corc Buşun səviyyəsi insanları, özü də 55 cildlik əsər yazan, əvvəlki mütəfəkkirləri oxuyub təhlil edən bir insanı bu cür qiymətləndirməyə əsas verirmi?

«*Times*» qəzetinin məlumatına görə keçirilən psixoloji tədqiqatdan sonra məlum olub ki, ABŞ-ın sabiq prezidenti oğul Corc Buş 1920-ci illərin əvvəllərində prezident olmuş Uorren Hardinqi (1865—1923) çıxmaq şərtilə, intellektual səviyyəsinə görə XX əsrdəki bütün ABŞ prezidentlərindən geridə qalır. (Uorren Hardinq 1921—1923-cü illər ərzində ABŞ-ın prezidenti olmuşdur).

Kaliforniya Universitetinin psixoloqu Din Kit Simonton «Siyasi psixologiya» jurnalında prezidentlərin intellektini qiymətləndirərkən tərcümeyi-halları əsas götürərək yazır ki, oğul prezident C.Buşun açıqlığa, yeniliyə, öyrənməyə, fantaziyaya, estetikaya, dəyərlərə və ideallara olan marağı sıfra bərabərdir.

Hələ bütün bunlar C.Buşun prezident işlədiyi dövrün təhlili idi. O, artıq prezident deyil, bundan sonra onun haqqında nələr yazılacaq – bunu isə tarixin ixtiyarına buraxaq.

la qəbul etdirilmiş ağır nəticələri, yolları və metodları, N.S.Xruşşovun «demokratiya» və «şəxsiyyətə pərəstişliyə qarşı» addımları, ziddiyyətlərlə dolu qeyri-elmi fəaliyyətinin xarakteri[2], L.İ.Brejnevin, Andropov və Çernenkonun heç nədən

[1] Qeyd: Bəxtiyar Vahabzadə «İnsanla, torpaqla üz-üzə» adlı kitaba yazdığı ön sözdə qeyd edir: «Stalin ölübsə də stalinizm bu gün belə yaşayır və bizim demokratiyaya və aşkarlığa doğru gedən yolumuzu yenə də kəsir. Mən bu dəhşəti hər yerdə, hər gün hiss edirəm. Buna baxmayaraq, çox yerdə eşidirik: «Ölünün dalınca nə qədər danışarlar? Bəs deyil?». Mən deyirəm, bəs deyil, Stalinin ölümüylə onun ənənəsinə son qoyulsaydı, bəs olardı. Axı, son qoyulmayıb, **axı bu gün də danışanın ağzını yumur, yenə həqiqəti qapı dalında qoyanlar meydan sulayırlar. Bütün bunlar isə stalizmin davamıdır».** (Bax: Murtuzayev S.N. İnsanla, torpaqla üz-üzə. B.: Azərnəşr, 1989, s. 5).

Fikrin söylənilməsindən müəyyən müddət keçməsinə baxmayaraq bu gün də aktualdır. Stalin milyonlarla insanın düşünmək qabiliyyətini sanki əlindən almış, hamının əvəzinə sanki özü düşünürdü. (Bu xüsusiyyət təkcə Stalində deyildir. Hakimiyyət başında olanların əksəriyyəti bu cür düşünürdü. Fransız filosofu və hüquqşünası Monteskyö Mişel de (1533-1592) doğru demişdir: «Ötən əsrlərin təcrübəsindən məlumdur ki, **hakimiyyətə malik olan hər bir şəxs bu hakimiyyətdən sui-istifadə etməyə meyillidir və o istiqamətdə son həddə çatana qədər irəliləyəcəkdir)».** Stalin bir çox xüsusiyyətlərinə görə «dahi» şəxsiyyət olmuşdur. ABŞ prezidenti Trumen atom bombası haqqında ilk dəfə Stalinə iyulun 24-də Potsdam konfransı zamanı danışmışdı. Trumen Stalinə «söz gəlişi» bildirmişdi ki, amerikalıların fövqəladə dərəcədə dağıdıcı qüvvəyə malik yeni silahı vardır. Trumenin xatırladığı kimi, Stalin buna «xüsusi maraq göstərməmişdi. O, yalnız bunu demişdi ki, belə bir xəbəri eşitməyə şaddır və güman ki, biz ondan Yaponiyaya qarşı lazımınca istifadə edə bilməyəcəyik». Bu hadisədən beş il sonra öyrəndiyimiz kimi, Stalin bomba haqqında hər şeyi hətta Trumendən əvvəl bilirmiş. (Bax: U.P.Loren. İnsan və atom. Azərbaycan Dövlət Nəşriyyatı. Bakı.: 1975, s. 167). Həqiqət naminə deyək ki, II Dünya müharibəsindəki qələbə Stalinin adı ilə bağlıdır.

[2] Qeyd: Tarix heç vaxt N.S.Xruşşovun BMT-nin yığıncağındakı biabırçı hərəkətini unutmaz. O, salonu bürüyən səs-küyə etiraz əlaməti olaraq ayaqqabılarını çıxarıb xitabət kürsüsünə döymüşdür. Baş Assambleyanın sədri iclası yarıda kəsməyə məcbur olmuşdur. Budur bizim marksist adlandırdığımız rəhbərlərimizin əsl siması.

Onun genetikaya qarşı qəti, kəskin və ardıcıl olaraq söylədiyi fikirləri biologiya elminə vurduğu ziyan, «qarğıdalı epopeyası» barədə illərlə davam edən hay-küyü öz dövründə mütərəqqi insanları çaş-baş salmışdı. Bütün bunların nəticəsidir ki, həqiqəti dolayı yolla ifadə edən lətifələr yaranırdı. Stalin dövrünü xarakterizə edən bir lətifədə deyilir ki, guya Xruşşov XX qurultayda məruzə edib qurtarandan sonra kimsə yerindən qışqırır:

xəbəri olmayan» xəstə təxəyyüllər [1] ilə Baş Katib işləmələri, M.S.Qorbaçovun qeyri-ciddi yenidənqurması sosializm demək deyildi.

SSRİ-nin «Ulduz»lu rəhbəri L.İ.Brejnevin[2], sonra isə M.S.Qorbaçovun dövründə iqtisadi inkişaf səviyyəsinin aşağı düşməsi artıq məlum idi.

---

- O vaxt niyə susurdunuz?

Xruşşov: - Soruşan kimdir? (Zaldan cavab gəlmir) – kimdir bunu soruşan? (Zaldan cavab gəlmir). Susursunuz? Bax, biz də susurduq.

Görün ölkə hansı prinsiplərlə, necə idarə olunurdu.

[1] Qeyd: 1979-cu ilin iyununda yüksək dairələrin Vyana görüşündə L.İ.Brejnev faktiki olaraq, yeriyə bilmirdi. 1980-cı ildə o, Qazaxıstanın 60 illiyi münasibəti ilə Alma-Ataya getmişdir. O illərdə Brejnev çox pis vəziyyətdə idi. Min nəfərlik möhtəşəm zalda Qazaxıstanın birinci katibi Kunayev L.İ.Brejnevin şərəfinə qədəh qaldırar-qaldırmaz, o, qəfildən durub qapıya yönəlmiş və gedib öz maşınına əyləşmişdi. Mərasim iştirakçıları başa düşürlər ki, Brejnev yenə kələfin ucunu itirib, hara, niyə gəldiyini unudub. Bunu görən Qazaxıstanın rəhbərliyi tez-tələsik, ləngimədən maşınlara doluşurlar və qabaqcadan nəzərdə tutulmayan, proqramda olmayan istiqamətdə maşın karvanı yola düşür.

Və yaxud 80-cı illərdə Azərbaycana gəlmiş L.İ.Brejnev möhtəşəm sarayda Azərbaycan əvəzinə Əfqanıstan oxuması, vərəqləri səhv salması yəqin ki, tarixi həqiqət olaraq, gələcək nəsillərə çatdırılacaq.

Tarixdə ölkə başçılarının qeyri-adi hərəkətləri barədə çox yazılıb. Hətta insanlarda bəzən belə təsəvvür yaranıb ki, prezidentsiz də ölkə idarə olunur. Məsələn, 1865-1869-cu illərdə Amerika prezidenti olmuş Endryu Conson (1808-1875) heç bir məktəbdə oxumamışdır. 17 yaşı olarkən gələcək həyat yoldaşı Eliza Mak Kardel ona oxumağı öyrətmişdir. Conson geydiyi bütün kostyumları şəxsən özü tikirmiş. Və yaxud N.S.Xruşşov heç bir ali təhsili olmadan ölkəni idarə etmişdir. Reyqan prezidentliyi dövründə bir paltarı ikinci dəfə geyməmişdir və s.

[2] Qeyd: L.İ.Brejnev SSRİ tarixində yeganə insandır ki, 4 dəfə Sovet İttifaqı Qəhrəmanı və Sosialist Əməyi Qəhrəmanı adına layiq görülüb. Bundan başqa, 1976-cı ildə marşal hərbi rütbəsi ilə təltif olunub, hansı ki, müharibə başlananda və qurtaranda polkovnik rütbəsində olub. Onun 8 – Lenin ordeni, 2 – Qırmızı Bayraq, II dərəcəli Boqdan Xmelinski ordeni, I dərəcəli Vətən müharibəsi ordeni, Qızıl Ulduz ordeni olub. Sülh dövründə o, yüksək hərbi orden olan Qələbə ordeni ilə təltif olunub. Bu sırf hərbi orden idi. Bu-

Ölkəni xilas etmək lazım idi. Lakin “bu xilasetmə” ölkənin dağılması ilə nəticələndi. Sosializmdən bazar münasibətlərinə keçid və SSRİ-nin dağılması həm obyektiv, həm də subyektiv amillərdən irəli gəlmişdir. Daha belə yaşamaq olmazdı. Lakin məqsədi elan etmək başqa, onu həyata keçirmək isə tamamilə başqadır. M.S.Qorbaçovun dövrü çətinliklərlə, əks qüvvələrin müqaviməti ilə qarşılaşdı[1]. Bundan əlavə, səriştəsiz hərəkətlərlə belə çətinliklər daha da dərinləşdirilirdi. Qorbaçov

---

nu Böyük Vətən müharibəsində qələbəyə görə təltif edirdilər. Bunlardan başqa, köhnə sosialist ölkələrinin çoxsaylı mükafatları ilə təltif olunmuşdur.

Bütün bunlar xalqda bir ikrah hissi oyatsa da heç kim cürət edib, ona qarşı çıxmırdı. Lakin yaxınlıqlarından istifadə edib, o zamankı SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri olmuş Podqornı bir gün ona demişdir: Leonid İliç, artıq Sizdən anekdotlar danışırlar, deyirlər ki, Brejnev cərrahiyyə əməliyyatına uzanıb – sinəsini enliləşdirir, təzə ordenlər üçün yer düzəldir.

[1] Qeyd: Katolik kilsəsinin siyahısında 264-cü Roma papası II İohani Pavel M.Qorbaçovun ictimai-siyasi hadisələrdə rolunu belə qiymətləndirir: «Qorbaçovun xidməti ondadır ki, o, Şərqi Avropadakı və öz ölkəsindəki proseslərin qarşısını almağa cəhd etmədi… Bu xadim vəziyyəti aydın görürdü, amma neynəməli ki, tale ona dağıntı və xaosdan başqa heç nə verməmişdi».

Papanın fikrincə, Sovet imperiyasının süqutunda başlıca rolu iki hadisə oynayıb: partiyanın XX qurultayında Xruşovun məxfi məruzəsi və Aleksandr Soljenitsının imperiyaya vurduğu güclü zərbə. Qorbaçov hakimiyyətə gələn zaman bu imperiyanın ölümünü bir fakt kimi təsdiq etməli oldu. (Bax: Tetçer zarafatı xoşlamır. Məşhur adamların həyatından bilmədiyimiz faktlar. B.: Yazıçı, 1994, s. 3-6).

«Dəmir ledi» Marqaret Tetçer Sovet İttifaqının keyfiyyətcə yeni şəraitə keçdiyini duyan ilk Qərb liderlərindən biri idi. 1984-cü ildə Londonda M.S.Qorbaçovu qəbul edərkən Tetçer özünəməxsus siyasi duyumla nəinki sovet cəmiyyətində yeni əhval-ruhiyyəni hiss etmişdi, hətta onu da başa düşürdü ki, SSRİ rəhbərliyində prinsipcə yeni siyasi kursla işləməyi bacaran qüvvələr var. (Bax: yenə orada, s. 15).

Hətta o vaxtlar dünyanın sivil ölkələrində dərslik kimi qəbul edilmiş kitablarda belə M.S.Qorbaçovun islahatlarına diqqət yetirilmiş, lakin onun nəticəsinin necə olacağı haqqında konkret fikir söyləməkdən çəkinmişlər. (Bax: Макконнелл К.Р., Брю С.Л. Экономикс: Принципы, проблемы и политика. В. 2т.: Пер. с англ. 11-го изд. Т.I. – М.: Республика, 1992, с. 47, 50).

bütün cəmiyyətin canına hopmuş sərxoşluğu az qala əlin bircə hərəkəti ilə ləğv etmək qərarına gəlmişdir. Onun prezidentliyi dövründə, 1985-ci ildən başlayaraq spirtli içkilərin istehsalını və satışını kəskin şəkildə azaltdılar, xeyli üzüm sahələrini məhv etdilər. İstehsalatı spirtsiz içkilər istehsalına yönəltdilər. Bəs nəticə necə oldu? Problemi həll edə bilmədilər, daha yeni problemlər meydana çıxdı – əldəqayırma araq çəkilməsi kəskin surətdə artdı, şəkər qıtlığı yarandı, araq-şərab möhtəkirliyi gücləndi, ölkə on milyardlarla valyuta itirdi, dövlət büdcəsinə kəskin zərbə vuruldu.

Bir tərəfdən hakimiyyət orqanlarının qətiyyətsizliyi, tədbirlərin alayarımçıq aparılması, digər tərəfdən isə əks qüvvələrin müqaviməti ölkəni fəlakət həddinə gətirən inzibati-amirlik sistemindən yaxa qurtarmağa imkan vermirdi.

Bunlarla yanaşı, aşkarlıq, cəmiyyətin demokratikləşdirilməsi, siyasi sərbəstlik yolunda ilk addım atılması kimi müsbət halları da qeyd etməmək olmaz. Eyni zamanda o dövrdə nazirliklərin və baş idarələrin əmrləri ilə hərəkətə gətirilən köhnə təsərrüfat mexanizmi yenə də saxlanılırdı. Bir çox köklü problemlər hələ də həllini gözləyirdi.

**Analoji müqayisə nəticəsində demək olar ki, o dövrdə də, elə bu gün də bəzi dövlət rəhbərləri yaranmış vəziyyəti bütövlükdə dərk etməkdə çətinlik çəkirlər. İqtisadiyyatda və həyatın bütün sahələrində bazar münasibətləri lazımı dərəcədə dərk edilmir, onun müsbət və mənfi nəticələri haqqında insanların çoxunda tam təsəvvür yoxdur.**

XVIII əsrin fransız utopik sosialisti Tomas Myunser (1490-1525), utopik sosialist, ingilis humanist yazıçısı dövlət xadimi Tomas Mor (1478-1535), sonralar fransız utopik sosialistləri Anri Klod De Ribrua, Sen-Simon (1760-1825), Şarl Furye (1772-1832), Qabriel Bonn de Mabli (1704-1785), Morelli (tərcümeyi-halı məlum deyil), ingilis Robert Ouen (1771-1858), italyan filosofu, şair, siyasi xadim, utopik kommunizmin yaradıcısı Dominikan, 1598-1599-cu illərdə Kalabriyada

İspaniya hökmranlığına qarşı qəsdə başçılıq etmiş, 27 ilə yaxın həbsdə olmuş Tommazo Kampanella (1566-1639) belə hesab edirdilər ki, **ən yaxşı cəmiyyət o cəmiyyətdir ki, hər kəs təmin olunmuşdur və heç kimin artıq var-dövləti yoxdur. Bəzi utopistlərə görə mülkiyyət o həddə qədər məqbul sayıla bilər ki, bu hədd daxilində insan ondan yalnız yaşamaq vasitəsi kimi istifadə etmiş olsun.**

1991-ci ildə Türkiyənin sabiq prezidenti Turqut Özal Moskvaya səfər etmişdi. O zaman Özalın Mixail Qorbaçovla görüşü 5 saat çəkmişdir. Özal Türkiyədəki islahatların gedişindən danışmış, Qorbaçov diqqətlə dinləmiş və müəyyən qeydlər aparmışdır. Təbii ki, o zaman Qorbaçov bazar iqtisadiyyatının nə olduğunu bilmirdi[1].

---

[1] Qeyd: Tarix göstərir ki, hətta bəzən ən güclü siyasətçilər belə, iqtisadiyyatı dərk etməmişlər və siyasəti iqtisadiyyatdan üstün tutmuşlar. Böyük ingilis iqtisadçısı Con Meynard Keyns 1934-cü ildə «Böyük depressiya»nın ən qızğın çağında ABŞ prezidentinə yardım göstərmək üçün Böyük Britaniyadan Vaşinqtona gəldi. O zamankı ABŞ prezidenti Ruzveltlə Con Keynsin birinci və yeganə görüşü dünyada çox söz-söhbətə səbəb oldu. Bu söz-söhbətin mahiyyəti isə ondan ibarət idi ki, Ruzvelt Keynsin dəlillərini və hesabatlarını «başa düşmürdü», çünki iqtisadiyyatdan zəif başı çıxırdı.

Ruzveltlə Keyns təkcə eyni dildə danışmırdılar həm də onların hər ikisinin yaxından tanış olduqları bir problemi müzakirə edirdilər. Ancaq Ruzvelt praktiki, Keyns isə nəzəri cəhətdən. Bu görüşü izləyən müşahidəçilərin fikrinə görə C.Keynsin dəlillər sistemi inandırıcı idi, lakin Ruzvelt onu başa düşməyib.

Fransua Bedarida Uinston Çerçillin həyatı haqqında yazdığı əsərdə, onu güclü şəxsiyyət və siyasətçi kimi xarakterizə edir. Lakin eyni zamanda qeyd edir ki, o, nə Freydin, nə də Marksın əsərləri ilə tanış deyildi. Hətta o iqtisadi bazisə heç bir əhəmiyyət verməmişdir. (Bax: Бедарида Ф. Черчиль / Пер. с фр. Е.Н.Юдинов (Жизнь замечат. людей: Сер. биогр. Вып. 847) – М.: Мол. Гвардия, 2003, с. 175; Qafarov Ş.S. Müasir iqtisadi sistem və qloballaşma. (Monoqrafiya). Bakı.: 2005, s. 369-371).

Uzun müddət (1965-1985-ci illərdə) SSRİ Dövlət Plan Komitəsinin sədri işləmiş N.K.Baybakov yazır ki, bir gün N.S.Xruşşov məni yanına çağırdı və söhbət əsasında qəflətən dedi:

XX əsrin yetmiş ili ərzində SSRİ-də «sosializm» ideyası, elmin, praktikanın bütün sınaqlarından keçmişdir. O zaman insanlar öz gələcəyini sosializmdən kənarda təsəvvür etmirdilər. Bu reallıq idi. Pol A.Samuelson yazırdı: «Sosializm – bu siyasi nəzəriyyəyə görə, işçi qüvvəsi istisna olmaqla bütün istehsal amilləri cəmiyyətə məxsus olmalıdır. Bu kapitaldan gələn gəliri kapitalizmə nisbətən daha bərabər sürətdə bölməyə imkan verərdi»[1].

**Dövlət başçıları və onların ətrafındakılar özlərinin hakimiyyətini möhkəmləndirmək naminə sosializmi müdhiş dərəcədə deformasiyaya uğratmışdılar, onun əsl mahiyyətini boğmaq üçün amansız bir mexanizm yaratmışdılar.**

---

- Mərkəzi Komitənin Rəyasət Heyəti məqsədəuyğun hesab edir ki, Sizi SSRİ Dövlət Plan Komitəsinin sədri təyin etsin.

Bu gözlənilməz, mənim üçün yeni və böyük təklif idi. Ona görə də dedim:

- Nikita Sergeyeviç mən iqtisadçı deyiləm. Və ölkənin xalq təsərrüfatının planlaşdırılmasının öhdəsindən gələ bilmərəm.

O, mənim sözlərimdən heç də təəccüblənmədi və dedi:

- Bəs mən? Bəyəm mən iqtisadçıyam? Mənim planlaşdırmadan başım çıxır ki? Buna baxmayaraq bütün ölkənin iqtisadiyyatına rəhbərlik edirəm. Belədir yoxsa yox?

- Bəli, lakin bir var ayrı-ayrı sahələr üzrə tapşırıq verəsən, bir də var ki, bütün sahələri balanslaşdırasan. Bunlar başqa-başqa şeylərdir. Bu gün resursların qarşılıqlı əlaqəsini və meylini hesablamaq və məsələnin düzgün optimal variantını tapmaq çətindir.

Xruşşovu inandıra bilmədim. (Bax: Байбаков Н.К. От Сталина до Ельцина. – М.: ГазОил пресс, 1998, с. 110).

M.S.Qorbaçovla B.N.Yeltseni müqayisə etməli olsaq, Yeltsen populist, Qorbaçov isə həm populist həm də praqmatik idi.

Turqut Özal və Süleyman Dəmrəli müqayisə etməli olsaq, demək lazımdır ki, hər ikisi ixtisasca mühəndis, mərkəz sağ ideologiyasına qulluq edən, lakin fərqli şəxsiyyətlər olublar. Turqut Özal xalq adamı, əsl mənada iqtisadiyyatı dərindən bilən islahatçı idi. Süleyman Dəmirəl isə siyasətlə oynayan, sözün həqiqi mənasında, populist siyasətçi idi.

[1] Bax: Пол А.Самуэльсон, Вильям Д.Нордхаус. Экономика: Пер. с англ. – М.: «БИНОМ», «Лаборатория Базовых Знаний», 1999, с. 794.

Marksist adlanan rəhbərlər tərəfindən sosializmin deformasiyaya uğraması bir elm kimi marksizmə baha başa gəldi. O, nüfuzdan düşdü, saxtakarlıqda, utopizmdə günahlandırıldı. Dünya iqtisadi fikrində marksizmə baxış bucağında böyük fərqin əmələ gəlməsi hiss olunmasa da postsosialist ölkələrdə bu aydın hiss olundu.[1]

[1] Qeyd: Azərbaycan iqtisadi fikrində də marksizmin tənqidi təhlilinə həsr olunmuş əsərlər yarandı. Bu mövzuda yazılmış irihəcmli kitablardan biri N.Məmmədovun "Marksist – leninçi iqtisadi təhlilinə praqmatik baxış" kitabıdır. Bakı, Azərnəşr, 2007, 484 səh.

Kitabın geniş təhlilini vermək məqsədində deyilik. Müəllifin bütün fikirləri ilə razılaşmasaq da diqqəti cəlb edən məsələlər mövcuddur.Lakin qeyd edək ki, bu kitabda da zəngin materiallar əsasında psevdomarksistlərin, marksist rəhbərlərin, siyasi xadimlərin fəaliyyətlərindəki eybəcərliklər geniş işıqlandırılmışdır.

# III FƏSİL

# DEMOKRATİYAYA MODERN MÜNASİBƏT

## 3.1. «Kommunizm» və «demokratiya» siyasətçilərin və iqtisadçıların utopik və ideal arzuları kimi

Sosializm dövründə SSRİ-də ideal bir cəmiyyət kimi kommunizm qurmaq insanların xəyalında məskən salmışdı.

N.S.Xruşşov XX əsrin 60-cı illərində bütün çıxışlarında sanki inandırıcı şəkildə deyirdi ki, yaxın gələcəkdə biz heç bir ölkənin yaşamadığı həyat tərzində və bu günün gəncləri 80-cı illərdə kommunizmdə yaşayacaqlar. Xruşşovun digər bir ifadəsi özü-özünü təkzib kimi səslənirdi. O qeyd edirdi ki, **siyasətçilərin hamısı bir yuvanın quşudur: çay axmayan yerdə körpü salmağa söz verirlər.**

O zamankı ideoloji təbliğat elə güclü idi ki, hətta ən inkişaf etmiş ölkələrin nəinki vətəndaşları, eyni zamanda alimləri də sosializmin inkişafına inanırdılar.

2001-ci ildə Nobel mükafatına layiq görülmüş ABŞ iqtisadçısı prezident Bil Klintonun yanında iqtisadi məsləhətçilər komitəsinin sədri işləmiş Cozef Stiqlits gənclik vaxtlarında tələbə olarkən bir-birinin alternativi olan bazar və inzibati-amirlik iqtisadi sistemlərinin öyrənilməsinə böyük maraq göstərmiş, öz məqalələrində hər iki sistemin problemlərinə yer vermişdir. İqtisadi ədəbiyyatlarda iqtisadçının bu fikri qeyd olunub: «Mənim ali məktəbə daxil olduğum müddətdən bəri ən çox müzakirə olunan məsələ iqtisadi sistem olmuşdur. Mən soyuq müharibə hadisələrinin ən mərkəzində böyümüşəm. O zaman elə görünürdü ki, kommunizm iqtisadi artımın böyük templərini göstərir, lakin o bunu müstəqillik bahasına edir. Əslində dünyanın böyük bir hissəsi nə iqtisadi artıma, nə də demokratiyaya gətirib çıxarmayan müstəmləkəçilik əziyyəti altında idi. O, mənim böyüdüyüm və inanığım prinsiplərə zidd idi…

… Bazar iqtisadiyyatı isə sanki ictimaiyyətin böyük hissəsini yoxsulluğa gətirib çıxara biləcək daimi işsizlik hücumuna məruz qalmışdır»[1].

**Şarl de Qoll deyirdi ki, doğrudan da siyasətçi özü öz sözlərinə inanmadığı halda camaatın inamını görüb matməəttəl qalır.** Həm Şarl de Qollun, həm də Fransanın bütün başçılarının xarici siyasətinin əsasını çoxqütblü dünya ideyası təşkil edirdi. Şarl de Qollun müəyyən etdiyi bu ideyaya siyasi mənsubiyyətindən asılı olmayaraq Fransa prezidenti olmuş bütün siyasi xadimlər sadiq qalmışlar.

Böyük fransız yazıçısı Jül Vern (1828-1905) necə deyərlər, texnika sahəsində gözlənilən yeniliklərin qeyri-adi mütəxəssisi olmuşdur. O, sualtı qayıqların və aviasiyanın olacağını, səsli kinonu, uzaqvuran topları, Aya uçmağı, yerin dərinliklərinə səyahəti əvvəlcədən görmüşdür. Bununla yanaşı etiraf etmişdir: «Mənim bütün yazdıqlarım, bütün uydurduqlarım – reallıq önündə kiçik görünəcək, belə ki, **elə bir vaxt gələcək ki, elmin gücü təsəvvürü ötəcək»[2].**

Deyilənlərdən konkret nəticəyə gəlmək olar ki, əsl siyasətçi hadisələri on illərlə qabaqdan görməyi bacarmalıdır.

Bu gün də təkcə adi insanlar arasında deyil, dövlət başçıları səviyyəsində xalis kommunizm ideyası ilə yaşayanlar var.

Sabiq Kuba prezidenti Fidel Kastro ABŞ-ın 6 prezidentini, SSRİ və Rusiyanın 6 rəhbərini yola salıb. Bu gün prezident olmasa da o, həmişə həyatının amalı uğrunda çarpışmış – Kubanı kommunizmə aparmağa çalışmışdır. Kubalılar 48 il onun kommunizm ideyalarına qulaq asmışlar. Bütün dünyada kom-

---

[1] Bax: Nobel mükafatı almış iqtisadçılar və onların nəzəriyyələri. Bakı.: «Elm» nəşriyyatı. 2004, s. 193. Cəsarətli iqtisadçı BVF-nin ən radikal tənqidçisi kimi yadda qalmışdır. Hətta o, bu qurumu və həmçinin Dünya Bankını Rusiyada və Cənubi-Şərqi Asiyada səhv siyasət aparmaqda günahlandıraraq Dünya Bankının baş iqtisadçısı vəzifəsindən istefa vermişdir. (Bax: yenə orada, s. 192).

[2] Bax: Jül Vern. Kapitan Qrantın uşaqları. Gənclik. Bakı.: 1986, s. 527.

munizm kabusu sükut etməsinə baxmayaraq kubalılar bu məqsədlərinə sadiqdirlər. Kommunizm isə hələ də uzaqlardadır. Kubada mükəmməl səhiyyə və təhsil sistemi yaranıb. Onların həkimləri dünyanın bir çox ölkələrinə mütəxəssis kimi dəvət olunurlar. Bütün bunlara baxmayaraq kubalılar ərzaq və yanacaq qıtlığından əziyyət çəkirlər. Vətəndaşlara ərzaq kart sistemi üzrə paylanır. Bunu ABŞ-ın Kubaya qarşı siyasi və iqtisadi embarqosunun nəticəsi kimi izah edirlər.

**Xalis kommunizm olmadığı kimi, xalis demokratiya da yoxdur[1]. Xalis demokratiya kommunizm ideyası kimi utopiyadır. İnsanlar demokratiyaya yaxınlaşa bilər, lakin ona tam nail olmaq mümkün deyildir.**

Kommunizm cəmiyyəti də, demokratik ölkə qurmaq da bəşəriyyətin arzusu olub[2]. Hər bir arzunu yerinə yetirmək üçün isə mexanizmi düzgün seçmək lazımdır.

Belə bir lətifə yada düşür: Bir nəfər ölür və o dünyada mələk ona cənnət və cəhənnəmi göstərir, seçmək imkanı verir. Adam baxır ki, bir gözəl yer var, gül-gülü çağırır, bülbül-bülbü-

---

[1] Qeyd: Aristotel "Politika" əsərində yazır ki, dövlət quruluşunun dörd növü vardır: monarxiya, oliqarxiya, demokratiya və aristokratiya. Dövlət quruluşunun beşinci növünü politiya adlandırırlar. Bu quruluş növünə az rast gəlinir, ona görə də dövlət quruluşunun növlərini araşdıranlar onu diqqətdən qaçırırlar; onlar da Platon kimi dörd növü göstərməyi yetərli bilirlər... (Bax: Demokratiya: gediləsi uzun bir yol, Demokratiya və Antidemokratiya Antologiyası (e.ə. 430-b.e. 1998). Bakı. 2002, s. 18)

Aristotel bununla yanaşı sözünə davam edərək göstərir ki, lakin dövlət quruluşunun, görünür, iki başlıca növü vardır, - deyilənə görə küləyin iki əsas növü (quzey və güney) olduğu və qalanları sapdırma sayıldığı kimi, dövlət quruluşunun da iki başlıca növü vardır: demokratiya və oliqarxiya. Burada o, çox maraqlı fikir söyləyir: demokratiyada ali hakimiyyət xalqın olsa da, demaqoqlar onun rəyi üstündə hakim olur, kütlə onların sözü ilə hərəkət edir. (Bax: Yenə orada, s. 19)

[2] Qeyd: 2008-ci ildə Türkiyə mütəxəssisləri Nostrdamusun 2008-2167-ci illər üçün proqnozlarını vermişlər. Orada göstərilir ki, 2076-cı ildə kommunizm dövrü başlayacaq. Nostrdamusun proqnozları yüzlərlədir və bunlar daim mübahisələrə, müzakirələrə səbəb olur.

lü, adamlar yeyib-içməklə məşğuldur. Mələkdən oranın hara olduğunu soruşur. Mələk deyir, cəhənnəmdir. Adam deyir elə məni cəhənnəmə göndərin, ora yaxşıdır. Nəsə, bunu cəhənnəmə göndərirlər, Adam çatan kimi bunu qır qazanına salıb qaynatmağa başlayırlar.

Adam qışqırır:

- Bəs bayaq mənə ayrı şey göstərmişdiniz axı?

Mələk:

- O reklam idi…

İngilis yazıçısı Çarlz Dikkens (1812-1870) XIX əsrdəki İngiltərə cəmiyyətinin qüsurlarını sənətkarlıqla qələmə alıb ifşa edərkən bəşəriyyət üçün ən yaxşı gələcək arzusu ilə yaşamış, azad, demokratik, hamının bərabərhüquqlu olacağı ictimai mühitin, səfilliyin, cəhalətin, yoxsulluq və ehtiyacın aradan qalxacağı ədalətli cəmiyyəti bir ideal kimi düşünmüşdür[1].

**Demokratiya qanundur. Hətta qeyd edirlər ki, hökumət qanunsuz asanlıqla keçinə bilər, lakin qanun hökumətsiz heç vaxt keçinməz. Qanun aydın və şəffaf bir proses olmalıdır. Qanun hamı üçün eyni olmalıdır.** Əgər indi bu belə deyilsə demokratiyadan danışmağa dəyməz.

Demokratiya mücərrəd bir anlayış deyil. Ədəbiyyatda onun əsasən bir neçə prinsipini qeyd edirlər.

1. Qanunun aliliyi.
2. Xalqın iradəsi əsasında hakimiyyətin formalaşması[2].
3. İnsan hüquqlarının və ləyaqətinin prioriteti[3].
4. İnsan azadlıqlarının təminatı.
5. Bərabərhüquqlu vətəndaşlar.

---

[1] Bax: Çarlz Dikkens. Oliver Tvistin macəraları. Bakı.: Yazıçı. 1988, s. 3.

[2] Qeyd: Demokratiya hazır şəkildə və həmişə verilən hədiyyə deyil. Demokratiya inkişaf edən və azadlığı və müstəqilliyi uğrunda kütlənin mübarizəsinin sarsılmaz əsasda yeni məzmunu ilə tamamlanır. (Bax: Сегизбаев О.А. Преобразование социализма в рынок: Причины, последствия и проблемы (краткий социально-экономический очерк). – Алматы.: 2003, с. 36).

[3] Qeyd: İnsan hüquqları ən yüksək ali dəyərdir.

6. Şəxsi mülkiyyətin toxunulmazlığı.

Ümumiyyətlə, demokratiya və azadlıq dərk edilməlidir. Demokratiya plüralizmə can atmaqdır. Əgər o, dərk edilmirsə o həyata keçə bilməz. Platon isə yazırdı ki, demokratiya despotizmə aparır.

Demokratiya öz mahiyyətinə görə insanların öz-özlərini idarə etməsi deməkdir. Demokratiya heç vaxt mükəmməl olmur. Bu bütün ölkələrdə belədir. Hər bir ölkədə demokratiya ilə bağlı müəyyən problemlər mövcuddur. Demokratik dövlətdə hakimiyyət bölüşdürülməli və ona məhdudiyyət qoyulmamalıdır. Platon demişdir, demokratiya elə bir quruluşdur ki, onun çərçivəsində istədiyin hər şeyi etmək olar.

ABŞ iqtisadçısı Ceyms Byukenenin fikrinə görə birbaşa demokratiya – elə siyasi sistemdir ki, buraya hər bir vətəndaş öz nöqteyi-nəzərini şəxsən ifadə etmək və hər hansı bir konkret məsələyə səs vermək hüququna malikdir.

Birbaşa demokratiya müasir cəmiyyətdə də qalır. O, kollektiv müəssisələr və idarələrin yığıncaqları, klubların və yaradıcılıq ittifaqlarının işi, partiya yığıncaqları və qurultayları üçün tipikdir[1].

Avropada demokratiyanın tarixi eramızdan əvvələ təsadüf edir. Afrika demokratiyası dünya tarixində dolğun təsvir olunmuş ilk demokratik dövlət sistemidir.

Yunan filosofu Aristotelin fikirləri də maraqlıdır. O, e.ə. 330-cu ildə «Politika» əsərində yazıb: «Beləliklə, aydın olur ki, ümumi faydanı nəzərə alan dövlət quruluşu ciddi ədalət baxımından düzgün sayılır; yalnız hakimiyyətdə olanların rifahını güdən quruluşlar isə düzgün deyildir, səhvdir; onlar yalnız hökmranlığa əsaslanır, dövlət isə azad insanların ünsiyyətidir». Məşhur filosof daha sonra deyib: «Dövlət, ümumiyyətlə, yaşa-

[1] Вах: Джеймс М.Бьюкенен. Сочинения. Пер. с англ. Серия: «Нобелевские лауреаты по экономике». Т.1./Фонд экономической инициативы; Гл.ред.кол.: Нуреев Р.М. и др./ - М.: «Таурус Альфа», 1997, с. 456.

maq üçün deyil, xoşbəxt yaşamaq üçün qurulur: əks halda kölələrdən yaranan və heyvanlardan təşkil olunan birliyi də dövlət saymaq lazım gələrdi, bu isə gerçək olmazdı, çünki onlar hamını rifaha çatdırmır və öz iradələri ilə birlik qurmurlar», «Demokratiyanın 1-ci prinsipi bərabərlikdir. Bərabərlik demokratiyanın bu növü üçün əsas qanun olub və nə kasıblara, nə də varlılara hər hansı bir üstünlük vermir; ali hakimiyyət nə onun, nə də o birinin əlində toplanır, hər ikisi bərabərdir. Əgər azadlıq və bərabərlik demokratiyanın mühüm əlamətləridirsə, bu özünü onda göstərə bilər ki, dövlətin idarə olunmasında hamı mütləq iştirak etsin. Xalq demokratiyada çoxluqda qaldığından və onun qərarları həlledici olduğundan belə dövlət quruluşu demokratikdir».

XVIII və XIX əsrlərdə öz populyar zirvəsinə yüksəlmiş «klassik» liberal doktrinanın görkəmli bilicisi olmuş, onu dərindən mənimsəmiş, fəal təbliğatçılarından biri, 1974-cü ildə Nobel mükafatı laureatı olan Fridrix A.Hayek «Hüquq, qanunvericilik və azadlıq» kitabında yazır: «Yunanca «demokratiya» sözü xalq (demos)[1] sözü ilə hakimiyyət üçün istifadə oluna biləcək iki sözdən biri olan və o vaxta qədər başqa məqsədlərlə belə bir birləşmədə işlədilməmiş olan kratos (və ya *kratein feli*) sözlərinin birləşdirilməsi ilə əmələ gətirilmişdir. Bununla birlikdə, monarxi, oliqarxi, anarxi və s. mürəkkəb isimlərdə işlədilən alternativ *archein felinin* əksinə, *kratein* qaydalarla bağlı hökumət yerinə fiziki gücü daha çox vurğulayan kimi görünməkdədir»[2].

---

[1] Qeyd: Siyasi lüğətlərdə demokratiyaya belə tərif verilmişdir: «Demokratiya – xalq hakimiyyəti (yunancadan hərfi tərcümədə); hakimiyyətin xalq əlində olduğu siyasi quruluş». 1. Demokratiya – (yunanca demos - xalq və kratos – qüvvə), hakimiyyət formalarından biri; vətəndaşların azadlıq və hüquqi bərabərliyinin tanınması ilə səciyyələnir. Həqiqətdə isə hər bir demokratiya cəmiyyətin təşkili formasıdır. (Bax: Fəlsəfə ensiklopedik lüğəti. Müəllif kollektivi. "Azərbaycan Ensiklopediyası". Nəşriyyat – Poliqrafiya Birliyi. B., 1997, s. 100).

[2] Bax: F.A.Hayek. Hüquq, qanunvericilik və azadlıq. (Cild III. Azad adamların siyasi qaydaları). (Azərb. dilində). Bakı.: Qanun. 2002, s. 73-74.

Demokratiya haqqında fikirlərini davam etdirərək Fridrix A.Hayek yazır: «Mənə elə gəlir ki, bir çoxlarının təcrübədən keçirdiyi məyusluq özlüyündə demokratik idealın uğursuzluğu üzündən deyil, bizim onu yanlış yolla istifadə etməyimizdəndir»[1]. «Demokratiyanın həqiqi qiyməti bizə, hakimiyyətdən sui-istifadə edilməsindən qoruyan profilaktik tədbir kimi, xidmət etməsidir»[2]. «Əgər sivilizasiyamız yaşamaqda davam edəcəksə, - bu isə ancaq həmin səhvlərdən qurtulmaqla mümkündür – inanıram ki, insanlar bizim dövrümüzə əsasən Karl Marks və Ziqmund Freyd adları ilə bağlı olan bir xurafat dövrü kimi baxacaqlar»[3].

**Demokratiya iqtisadiyyatı yüksək səviyyədə olan ölkələrdə daha çox inkişaf edib.**

**ABŞ-ın prezidenti Millard Filmor[4] (1800-1874) Oksford Universitetinin fəxri doktoru adından imtina etmişdir. Bu hərəkətini belə əsaslandırmışdır ki, o, elm üçün heç bir iş görməyib.**

**Dünyanın ən despot dövrlərində Elmlər Akademiyası mötəbər qurum sayılıb. O dövrdə dövlət başçıları belə bir quruma bəzən təsir göstərə bilmirdilər. Belə ki, Nikita Xruşşovun SSRİ Elmlər Akademiyasına üzv seçilmək üçün göstərdiyi cəhdi xatırlada bilərik. Sov. İKP MK-nın Birinci Katibi seçiləndən sonra Xruşşov Elmlər Akademiyasının üzvü olmaq və akademik adı almaq həvəsinə düşdü. Bunun üçün SSRİ Elmlər Akademiyasının prezidenti Keldışla görüşür. Ondan xahiş edir ki, üzvlük məsələsini həll etsin. Keldış Xruşşovun məsələsini ümumi müzakirəyə qoyur. Məlum olur ki, bütün akademiklər Xruşşovun əleyhinə səs**

---

[1] Bax: F.A.Hayek. Hüquq, qanunvericilik və azadlıq. (Cild III. Azad adamların siyasi qaydaları). (Azərb. dilində). Bakı.: Qanun. 2002, s. 157.

[2] Yenə orada, s. 214.

[3] Yenə orada, s. 270.

[4] Qeyd: Filmor Millard 1850-1853-cü illərdə ABŞ prezidenti olmuşdur.

**verib. Bundan əsəbləşən Xruşşov Keldışa deyir ki: «Heç olmasa, sən lehimə səs verəydin».**

**Keldış cavab verir ki: «Mən elə fikirləşdim ki, hamı leyhinizə səs verəcək. Onun üçün əleyhinizə səs verdim ki, demokratik seçki görüntüsü yaradaq». Bu, sovet rejiminin ən sərt məqamlarında akademikin öz adını yüksək tutmasının nümunəsidir.**

Bizim üçün heç də uzaq olmayan tarixdən götürülən bu nümunələr demokratiya, iqtisadi inkişaf səviyyəsi arasında müəyyən qanunauyğunluqlardan kənara çıxan və paradoksal olan əlaqələrdən də xəbər verir. Məsələn, belə bir nəticə alınır ki, **həqiqi elm adamları öz fəaliyyətlərində inkişaf səviyyəsindən, özlərinin həyat səviyyəsindən asılı olmayaraq həmişə demokratik olublar.** Digər tərəfdən, bu gün "kommunizm" və "sosializm" müəyyən qadağaların, rejimin mövcud olduğu cəmiyyət kimi təsəvvür olunsa da burada demokratizmin cəmiyyət həyatının bütün sahələrində təzahürlərinə də rast gəlmək çətin deyilir. Bu mənada cəmiyyət hadisələrinə, o cümlədən iqtisadi hadisələrə birmənalı qiymət vermək düzgün sayıla bilməz.

Dünyada demokratik arzularla yaşayan ölkələr çoxdur. Amma, bu demokratik arzuları inkişaf etdirən, həyata keçirən hakimiyyət qurulmalıdır. **Hakimiyyət, dövlətçilik o zaman qüvvətli olur ki, bu dövlətçiliyin bütün məqsədi milləti dirçəltməyə xidmət etsin.**

### 3.2. Yetkin sosial iqtisadiyyat demokratiya üçün şərtdir

Ədalətli cəmiyyətdə qanunların aliliyi təmin olunduqda o daha səmərəli fəaliyyət göstərir.

Vaxtilə Sokrat elə bir şəhər – dövlət tərəfdarı olmuşdur ki, orada yalnız ədalətli qanunlar fəaliyyət göstərsin. O, soruşurdu: «Qanunsuz şəhəri kim xoşlaya bilər!».

Sokrata görə hakimiyyəti zəhmlilər, tiranlar, zorakılar deyil, ağıllılar idarə etməlidir.

Birləşmiş Krallığın baş naziri olmuş Toni Bleyr demokratiyanı belə xarakterizə edirdi: «Hökumət nə qədər şəffafdır; onun nəyi və niyə etdiyini necə bilirik; necə şikayət edirik; hökuməti necə dəyişirik; ona necə təsir edirik – bütün bunlar demokratiyanın mahiyyətini göstərir».

Hələ XVIII əsrdə böyük fransız mütəfəkkiri Şarl Lui Monteskye yazırdı ki, ərazicə böyük dövlətlərdə demokratiya mümkün deyil.

Londonda yerləşən «*Ekonomist İntelligence Unit – EİU* Mərkəzinin» 2006-cı il üçün «Demokratiya İndeksi» adlı hesabatında idarəetmə formasından asılı olaraq, ölkələri dörd qrupa bölmüşdür[1]. Tam demokratik ölkələrə 28, qüsurlu demokratik ölkələrə 54, hibrid (qarışıq) ölkələrə 30, avtoritar ölkələrə isə 55 dövlət daxil edilmişdir.

Tam demokratik ölkələrin siyahısına İsveç başçılıq edirdi. ABŞ isə bu siyahıda 17-ci sırada idi.

Hesabatda bildirilirdi ki, son onilliklərdə demokratiya sahəsində irəliləyişlərə baxmayaraq, dünya əhalisinin ancaq 13 faizi demokratik ölkələrdə yaşayır, 40 faizi isə hələ də avtoritar idarəetmədən əziyyət çəkir.

ABŞ və Qərb ölkələri dağılmış sosialist ölkələrinə sanki demokratiya gətirdi. Vaxtı ilə **Uinston Çörçill demişdir ki, demokratiyadan ziyanlı şey yoxdur, amma nə edəsən ki, bəşəriyyət hələ bundan yaxşı idarəetmə forması tapmamışdır.**

Bəzi ölkələrdə demokratiya hələ başlanğıc dövründədir, digərlərində isə artıq özünün yüksək səviyyəsinə qalxıb. Məsələn, Rusiya prezidenti Vladimir Putin 12 iyul 2006-cı ildə Fransanın TF-1 kanalına verdiyi müsahibədə jurnalistin – Siz hesab

[1] Qeyd: Qiymətləndirmədə aşağıdakı parametrlər əsas götürülür: seçki prosesi, siyasi proseslər və plüralizm, hökumətin fəaliyyəti, siyasi mədəniyyət, siyasi proseslərdə iştirak və vətəndaş azadlıqları.

edirsiniz ki, demokratiyanın Rusiya modeli var və o tutaq ki, Avropa və Amerika demokratiyasından fərqlidir?

Vladimir Putin cavabında qeyd edir ki, dövlət dayə deyil, dövlət hər şeyə məcburetmə aparatıdır və mən belə hesab edirəm ki, demokratiya daha çox demokratik prinsiplərin təminatı nöqteyi-nəzərindən yanaşmada daha parlaq şəkildə özünü büruzə verəcək. Bəzi Avropa ölkələrində isə region rəhbərlərinin birbaşa təyinatı mövcuddur. Bizdə isə bu proseslərdə indi regional məclislər iştirak edirlər. Lakin bu prinsip bəzi ölkələrdə ümumiyyətlə yoxdur. Orasını heç demirəm ki, Avropanın bir sıra ölkələrində hələ də monarxiya institutları qalmaqdadır.

Corc Buş 2005-ci ildə Bratislavda Vladimir Putinlə görüşərkən Rusiyadakı demokratiyadan narahat olduğunu, demokratiyaların hər zaman ölkələrin mədəniyyət və ənənələrini əks etdirdiyini bildirib. Demokratiyanın ortaq nöqtələri də var: hüquqi dövlət, azad mətbuat və azad müxalifət.

Putin isə orada və yaxud burada, az və ya çox demokratiya olduğunu söyləmək, mənim qənaətimə görə, doğru deyil — deyə bildirib. Demokratiya anarxiya demək deyil. Hər kəsin ağlına gələni etməsi, xalqı aldatmağa cəhd göstərməsi demokratiya deyil. Biz xüsusi demokratiya qurmaq niyyətində deyilik. Demokratiyanın əsas şərtlərini mənimsəyirik, lakin bu şərtlər Rusiya ənənələrinə də uyğun olmalıdır[1].

Doğrudan da demokratiya fikir azadlığıdır, o əməl azadlığına çevriləndə anarxiya yaranır. İqtisadiyyatı zəif inkişaf etmiş ölkədə demokratiyanın mövcudluğunu inkar etmək, fikrimizcə, mübahisəli görünür. Çünki, reallıqda hər nəfərə düşən ÜDM-in orta dünya səviyyəsindən aşağı olan ölkələrdə demokratiya, bu göstəricinin orta dünya səviyyəsindən yüksək olduğu ölkələrdə

---

[1] Qeyd: "Exo Moskvı" radiosunun verdiyi məlumata görə 2009-cu il iyulun 6-8-də Rusiyaya səfəri ərəfəsində ABŞ prezidenti **Barak Obama V.Putin haqqında demişdir: "Putin bir ayağı ilə köhnə, digər ayağı ilə isə yeni metodlarla hərəkət edir". Bu bir daha onu göstərir ki, Putinin məqsədi hələ də tam aydın deyil.**

olduğundan bəzən yüksəkdir. Bu halda demokratiyanın digər meyarları nəzərə alınmalıdır. Hər halda bu bir həqiqətdir ki, mükəmməl demokratiya və azadlıq iqtisadi demokratiya və azadlıqdır. Demokratiya olmayan ölkələrdə avtoritarizm, inzibati-amirlik və bürokratizm var gücü ilə inkişaf edir. Y.M.Berqer göstərir ki, sabit olmayan hakimiyyətdən təkamüldən başqa nə istəsən gözləmək olar. Demokratiya xaosdan yarana bilməz. Demokratiya o zaman mümkündür ki, dövlətlə – cəmiyyət və insan arasında sistemli münasibət yaransın və nəticədə tədricən özbaşınalıq ləğv edilsin[1].

Putin Rusiyanın 90-cı illərin əvvəllərindəki kimi diktatorluq dönəminə qayıtmaq niyyətində olmadığı barədə təminat verib: «keçmişə qayıtmaq olmaz. Çünki ruslar azadlığa qovuşub». Bu vaxta qədər qapalı görünən Putin, daxili aləmini ilk dəfə olaraq açıqlığı ilə büruzə verdi. Lakin Putin bir müddət əvvəl SSRİ-nin dağılmasını «20-ci əsrin geosiyasi faciəsi» sayanda daha çox səmimi idi.

Putin demək olar ki, bununla bütün şübhəli addımlarına guya son qoydu. Onun ilk dövrdəki siyasəti isə gizli niyyətlərdən xəbər verirdi. Belə ki, hakimiyyətə gələndən sonra ilk dəfə olaraq Şimali Koreya, Kuba, İran və Çinə səyahət etmişdi. Məlum idi ki, bu ölkələr ABŞ-ın düşmənləri idi. Sanki Rusiya ABŞ-ın düşmənləri ilə ittifaq yaradırdı.

Rusiyada əhalinin sayının ildə bir milyon nəfər azalmasına, ölkənin korrupsiyaya bürünməsinə, orduda vəziyyətin olduqca gərginləşməsinə, iqtisadiyyatın ciddi böhran şəraitinə düşməsinə baxmayaraq Rusiya demokratik yolla getmək fikrindədir.

Rusiyada kəndlilər tamamilə tənəzzül edib. Rusiya rəhbərliyi görür ki, Qərb, NATO inkişaf edərək Rusiyanın sərhədlərinə qədər gəlib çıxıb. Lakin Rusiyada demokratiya həqiqətən də boğulur. Bu ziddiyyəti həll etmək üçün demokratiya lazımdır.

---

[1] Вах : Авторитаризм развития: генезис, функции, перспективы. Мировая экономика и международные отношения. 2005, № 6, с.95.

Amma Rusiya imperiya olduğuna görə çox böyük qüvvələr var ki, demokratiyaya qarşı çıxır. Rusiyanın inkişafı üçün dövləti imperiya vəziyyətindən çıxarmaq lazımdır.

Rusiyanın bu səylərinə baxmayaraq Helmut Şmidt 2003-cü ilin uyun ayında Moskvada çıxışında birbaşa demişdir ki, hörmətli cənab demokratlar məni bağışlayın, Rusiya iqtisadi avtoritarizmdə hələ də özünü göstərir[1].

Neçə illərdir Rusiya rəhbərliyi ölkəni neft və qaz imperiyasına çevirmək istəyir. **Neft və qaz resursları üzərində imperiya qurmaq yox, səmərəli istifadə üçün ona azad xalq hakim olmalıdır.** Bu demokratiya olardı.

Putinin prezidentliyinin ilk dövrlərində Rusiyada müasir standartlara cavab verən zavodların sayı cüzi idi. Avropa ölkələri və Yaponiya kimi inkişaf etmiş bir dövlət bu gün də avtomobillərini rus metalından hazırlayırlar. Amma Rusiyada avtomobil sənayesi demək olar ki, tənəzzülə uğrayıb. Rusiyaya bir çox məhsullar Qərbdən gəlir. Digərlərinin hesabına yaşayan ölkə isə qüdrətli dövlət sayıla bilməz.

Rusiyanın birinci Prezidenti Boris Yeltsin vaxtı ilə, «Rusiyanın xilaskarı» adlandırılırdı. Bir müddət keçəndən sonra isə az qala «Vətən xaini» adlandırmağa başladılar. Boris Yeltsin Mixail Qorbaçovun elan etdiyi «yenidənqurma» və «aşkarlıq» şüarlarını sözdə deyil, əməldə həyata keçirməyə can atırdı.

Aralarındakı kəskin ziddiyyətlə əlaqədar Mixail Qorbaçov Yeltsinə açıq surətdə demişdir: «Mən səni siyasətə buraxmayacağam».

Belə ziddiyyətli dövlət başçılarından fərqli olaraq 1989-cu ildə yüksək səviyyəli ABŞ – SSRİ danışıqları zamanı Buş qara dərili gənc qadının qolundan tutaraq onu Mixayil Qorbaçova təqdim edib: «Bu, Kondoliza Raysdır. Sizin ölkəniz haq-

[1] Bax: Авторитаризм развития: генезис, функции, перспективы. «Мировая экономика и международные отношения». Журнал. 2005, № 6, с. 102.

qında nə bilirəmsə, ona borcluyam» - demişdir. Amerikada özlərindən əvvəlki prezidentlərə və layiqli insanlara münasibət tamamilə fərqlidir. Bu demokratiyanın əlamətidir.

Bill Klintonun hakimiyyətə gəlməsindən sonra Rays Stenford Universitetindəki köhnə işinə qayıdıb. Oğul Buşun dövründə isə dövlət katibi Kolin Pauell istefa verdikdən sonra onun yerinə «Qara ledi» adlanan Kondoliza Rays təyin olundu. Kondoliza Rays Putindən xoşunun gəlmədiyini «onu seçmək mənim işim deyildir» söyləmişdir. Bu adamın enerjisi və niyyətləri var. Məsələ ondadır ki, bu enerji hansı istiqamətə yönələcək – Rusiyanı daha da avtoritar dövlətə çevirməyəmi? O, güc strukturları ilə nəinki əlaqəlidir, hətta öz yüksəlişində müəyyən mənada onlara borcludur.

«Yabloko» partiyasının lideri məşhur iqtisadçı Q.A.Yavlinski V.V.Putini «qara yeşik» adlandırır, çünki onun içində nə olduğunu heç kim bilmir[1].

Lakin, Yeltsin inadkarcasına, açıq-aydın Qorbaçovun əleyhinə gedərək mübarizəsini davam etdirdi. Müxtəlif qruplar Yeltsini müdafiə etməyə başladılar. Hər dövrün öz xüsusiyyətləri var. «Boris, sən haqlısan» sözü o dövrün ən məşhur siyasi şüarına çevrilmişdir.

Boris Yeltsinin ikinci prezidentliyi dövründə iç üzü açılmış, tam nüfuzdan düşmüşdür. 1996-cı ildə onun prezident seçilməsi sual altında idi. O zaman Rusiyanın baş siyasi texnoloqu sayılan Anatoli Çubays ölkənin əksər inhisarçılarının köməyi ilə Yeltsini müdafiə edə bildi. Çox çətinliklə prezident seçilməsinə baxmayaraq xəstəliyi siyasi proseslərə təsir imkanlarını olduqca zəiflətmişdir. Rusiyada sanki ailə hakimiyyəti yaranmışdı. Yeltsini xəstəlik əldən salmışdı, demək olar ki, ölkəni qızı və köməkçiləri idarə edirdi. Yeltsin ikinci prezidentliyinin elə ilk aylarında ürəyindən əməliyyat olundu. Vəziyyət getdik-

[1] Bax: Zenkoviç N.A.Putin ensiklopediyası. Ailəsi. Komandası. Rəqibləri. Ardıcılları. (Rus dilindən tərcümə), Bakı.: «Nurlan» , 2006, s. 732.

cə gərginləşirdi. Bir tərəfdən inhisarçılar və çökməkdə olan ölkə iqtisadiyyatı, digər tərəfdən idarəçilikdə baş alan xaos. Tarix təkrarlanırdı. Brejnev – Andropov – Çernenko dövrü yada düşürdü. Yeltsin isə prezidentliyi kimə isə həvalə etməyi ağlına belə gətirmirdi. Cərrahiyyə əməliyyatına hazırlıq dövründə hamı dərk edirdi ki, Yeltsin yaşlı olduğundan əməliyyat ölümlə də nəticələnə bilərdi. Ona görə də 1996-cı ilin noyabrında ağır cərrahiyyə əməliyyatına məruz qalanda Yeltsin səlahiyyətlərini sərəncamla müvəqqəti olaraq o zamankı baş nazir Viktor Çernomırdinə həvalə etdi. Vəzifə hərisliyi o dərəcədə güclü idi ki, bu sərəncamla bərabər, ikinci bir sərəncamın (prezident səlahiyyətlərinin sahibinə qaytarılması haqqında) hazırlanmasına göstəriş vermişdi. Cərrahiyyə əməliyyatından dərhal sonra narkozdan hələ özünə tam gəlməmiş Yeltsinin ilk sözləri həkimləri şoka salmışdı: «İkinci sənədi mənə gətirin imzalayım».

Doğrudan da yaxşı deyiblər, xəstə bədəndə xəstə ruh olar. V.S.Çernomırdin 17 saat ərzində RF Prezidentinin səlahiyyətlərini icra edib.

21.VII.2007-ci ildə ABŞ prezidenti Corc Buş səlahiyyətlərini müvəqqəti olaraq vitse-prezident Dik Çeyniyə verib. Bu prezidentin tibbi müayinəsi ilə bağlı olmuşdur. Vitse-prezident Çeyni prezident səlahiyyətlərini cəmi 2 saat 15 dəqiqə icra edib. Buş 2002-ci ildə də belə müayinədən keçib. O vaxt o, səlahiyyətlərini yenə də 2,5 saat ərzində Çeyniyə ötürmüşdür.

ABŞ-ın keçmiş prezidenti Bill Klinton öz xatirələr kitabında Boris Yeltsinin prezident olarkən 1995-ci ildə Amerikaya səfəri zamanı sərxoş halda alt paltarında küçəyə çıxıb taksi saxlatmağa cəhd göstərdiyini yazır. ABŞ-ın mühafizə xidmətinin əməkdaşları Ağ Evin yüz metrliyində onu saxlamışlar. Yeltsin mühafizəçilərin əhatəsindən hansısa yolla çıxıb və guya pitsa almağa gedirmiş.

Digər bir epizodda isə mühafizəçilər Yeltsini qaldığı iqamətgahın zirzəmisində gecə yarısı dolaşarkən oğru bilərək saxlayıblar. Yeltsin ora-bura vurnuxaraq nəsə axtarırmış. O zaman

beynəlxalq qalmaqala imkan verməmək üçün bu hadisəni örtbasdır etməli olublar.

Vaxtilə L.Brejnevə lağ edən Yeltsin özü keçmiş baş katibin gününə düşmüşdü. Otto Fon Bismark yaxşı demişdir: **siyasətə baş qoşan öz şəxsiyyətini məhv edir.**

Moskvanın sabiq meri Yuri Lujkov Rusiyanın Birinci Prezidenti Boris Yeltsinin hakimiyyətdə olduğu dövrü «ölkə üçün itirilmiş illər» hesab edirdi.

2009-cu ildə ABŞ-da Harvard Universitetinin professoru Henri Luis öz evində soyğunçuluq etmək ittihamı ilə həbs edilmişdir. Bir qadın polisə zəng edərək qonşu evə iki kişinin soxulmaq istədiyini demişdir. Həqiqətən də polislər hadisə yerinə gələrkən iki qaradərilinin evə soxulmağa cəhd göstərdiklərini görmüşlər. Onları saxlayarkən məlum olub ki, şübhəlilərdən biri elə ev sahibinin özü, professor Henri Luisdir. Professoru saxlayan polis bildirib ki, o hadisə yerinə gələrkən onları söyub və "rasist" adlandırıb. Hadisə ABŞ-da geniş rezonans doğurmuşdur və ABŞ prezidenti Barak Obama Ağ Evdə mətbuat konfransı keçirərkən professoru müdafiə etmiş və demişdir ki, polis kifayət dərəcədə kobud və axmaqcasına davranaraq adamı öz evində həbs etmişdir. Obama Amerika polisinin qaradərili vətəndaşları ağdərililərə nisbətən daha çox incitdiyini və bunun səbəbinin irqçilik problemi ilə bağlı olduğunu söyləmişdir. Prezidentin sözlərindən Amerika polisləri çox məyus olmuşlar.

Barak Obama bir gün sonra professor Henri Luisi saxlayan polis serjantı Devid Krouliyə zəng edərək, işlətdiyi ifadələrə görə üzrxahlıq edib. Sadəcə olaraq söylədiyi "rasist, axmaqcasına" ifadələri seçərkən ehtiyatsızlıq edib. O, professora da zəng edib və hər ikisini Ağ Evə dəvət edərək, onlarla birlikdə pivə içib.

**Dünyada nadir də olsa elə dövlət başçıları olub ki, ölkəsinin siyasi deyil, iqtisadi xəttini köklü surətdə dəyişdirib. Bəzi prezidentlər siyasi cəhətdən, çox azları isə iqtisadi baxımdan, iqtisadi təfəkkür səviyyəsinə görə fərqlənib.**

Məsələn, Ruzvelt, Çörçill siyasi baxışlarına görə seçilsələr də iqtisadi təfəkkür səviyyələri dərin deyildir[1].

Beləliklə, tarix elə konkret fəaliyyətlərdən ibarətdir ki, onların real hadisələrə təsirini qabaqcadan birmənalı şəkildə söyləmək mümkün deyil. Qorbaçovun, Yeltsinin, Putinin fəaliyyətinin iqtisadiyyat və siyasətin qarşılıqlı təsiri prizmasından izah etməyə çalışsaq, bu təsirin həm müsbət həm də mənfi tərəflərindən danışmalı olarıq. Bu təkcə Rusiyada deyil, istənilən ölkədə belədir.

## 3.3. İqtisadi demokratiya

Tarixən demokratiya nəinki real həyatda, nisbətən sözdə daha gur səslənib. 1789-cu ildə ilk dəfə olaraq ABŞ-da prezident seçkiləri keçirilmiş və Corc Vaşinqton (1732-1799) prezident seçilmişdir[2]. 1791-ci ildə ABŞ konqresində konstitusiyaya 10 düzəliş edildi. «Hüquqlar haqqında bil» adlı bu düzəlişlərə demokratik insan hüquqları və azadlıqları daxil idi. Buna baxmayaraq nə «İstiqlaliyyət bəyannaməsi», nə də Konstitusiya quldarlığı ləğv etmədi.

Yuxarıda qeyd etdiyimiz kimi BMT beynəlxalq təşkilatdır və ora 197 ölkə daxildir. Üzvlərin birgə qərarı BMT-nin qərarıdır. Bu ölkələrin yalnız 50-si demokratik ölkə sayılır.

Afrika qitəsində 30 ölkə var, bunlardan maksimum iki dövləti qismən demokratik dövlət hesab etmək olar. Afrikada demokratiyanın pozulması özünün ən iyrənc formasında həyata keçirilir. Məsələn, Afrika ölkəsi olan Toqada 1967-ci ildən ölkəni idarə edən və ən qəddar diktatorlardan biri sayılan Qnasinqbe Eyabeminin qəflətən ölməsindən sonra 2005-ci ildə növbədənkənar prezident seçkiləri keçirildi.

---

[1] Bax: Con Meynard Keynsin 1925-ci ildə «Экономические последствия политики мастера Черчилля», 1923-cü ildə «Трактат о денежной реформе» adlı əsərlərində bunu aydın görmək olar.

[2] Qeyd: Corc Vaşinqton 1789-1797-ci illər ərzində ABŞ-ın prezidenti olub.

Qnasinqbe Eyabem də hakimiyyətə qiyam yolu ilə gəlmişdi. O, vaxtilə öz rəqiblərindən yaxa qurtarmaq üçün onları timsahlara yedizdirirdi. Onun səlahiyyətlərini icra edən oğlu, ölkənin Olimpiya Komitəsinin sədri olmuş For Qnasinqbe paralel olaraq prezidentliyə namizədliyini irəli sürdü. Qnasinqbe ilə altı müxalifət partiyasının vahid namizədi Emmanuel Beb Akitani arasında kəskin seçkiqabağı mübarizə gedib. Bunun faydası olmamışdır, çünki seçkilərin nəticəsi Qnasinqbenin xeyrinə saxtalaşdırılmışdı.

1973-cü ilin sentyabrın 11-də Çilidə hakimiyyətə hökumət xuntasının rəhbəri olan Pinaçet gəldi[1]. S.Batçikov yazır ki, heç də demokratiya şəraitində yox, qanlı hərbi diktatura şəraitində Çilidə iqtisadi islahatı həyata keçirən Pinoçeti bir sıra vətənpərvər pərəstişkarlar qatillər diktaturası, onun qurduğu dövləti isə «etik» dövlət elan etmişlər. Ölkənin liberallarının beyinlərində bu aberrasiyaya (yəni uzlaşmaya) bəzi məqalələrdə xüsusi diqqət yetirilmişdir.

Beləliklə, iki statuslu liberallar «suveren demokratiya» konsepsiyasının dərk edilməsi üçün iki formal birölçülü model – siyasi və iqtisadi modelləri verdilər. Bu modellərdən biri demokratiya ilə bir araya sığışmayan «şaquli» dövlət strukturları, ikinci model isə daha sərtdir və hələlik özünü doğrultmur[2].

İqtisadi azadlıq[3], azad iqtisadiyyat-rəqabət, siyasi azadlıqlar olan dövlətlərdə olur. Qeyri-azad ölkələrdə azad sahibkarlıq,

[1] Bax: Л.Резников, А.Мелентьев. К обоснованию леводемократической реформационной альтернативы. «Российский экономический журнал». 2004, № 7, с. 12.

[2] Bax: С.Батчиков. По поводу «суверенной демократии» и ее либералистических трактовок. Российский экономический журнал. 2007, № 4, с. 76.

[3] Qeyd: İnsan azadlığı da mövcuddur. Franklin Delano Ruzvelt dörd azadlığı qeyd edir: “Dünyanın istənilən hissəsində söz, ibadət, ehtiyac əsarətindən və qorxu hissindən azadlıq”. (Bax: Demokratiya: Gediləsi uzun bir yol. Demokratiya və antidemokratiya antologiyası (e.ə. 430-b.e. 1998) Bakı. 2002, s. 265.). Britaniya tarixçisi, yazıçısı və siyasi filosofu İsayya Berlin (1909-cu ildə anadan olub və öz valideynləri ilə birgə Sovet Rusiyasından İngiltə-

iqtisadi azadlıq ola bilməz. Bu gün bəzi ölkələrdə bir nomenklatura sahibkarlığı mövcuddur. İqtisadi azadlıq həm istehlakçıda, həm də istehsalçıda şəxsi marağı genişləndirir. **Şəxsi azadlıqla iqtisadi azadlığın vəhdəti üçün iqtisadiyyat demokratikləşməlidir.**

XX əsrin 60-70-ci illərində Cənubi Koreya, Tayvan, Çili, İndoneziyada, əsrin sonunda isə Çində iqtisadiyyatın liberallaşması nəticəsində vətəndaşlar üzərində nəzarət demək olar ki, itirilmişdir.

**Sosial sabitliyi saxlamaq üçün iqtisadiyyatın liberallaşması labüd prosesdir. İqtisadi demokratiya əslində iqtisadiyyatın liberallaşdırılmasından başlayıb.**

Dövlət mülkiyyəti nə qədər bir əldə mərkəzləşdirilirsə və təmərküzləşdirilirsə, bir o qədər də diktaturaya meyil güclənir. Bu şəraitdə isə normal iqtisadiyyatdan danışmağa dəyməz.

İqtisadiyyatın liberallaşdırılması xarici iqtisadi əlaqələrin inkişafından çox asılıdır. Belə ki, idxal və ixrac ölkənin inkişaf səviyyəsinə görə müəyyən həddə qədər liberal olmalıdır. Dövlət idxalın və ixracın həvəsləndirilməsi üçün müxtəlif növ vergi güzəştləri tətbiq etməlidir.

**İqtisadi azadlıq siyasi plüralizmə rəvac verir. İqtisadi azadlıq orta sinfi doğurur, vətəndaşların dövlətdən asılılığını azaldır. O yoxsulluğun azaldılması ilə sıx bağlıdır.**

---

rəyə 1920-ci ildə mühacirət etmişdir) azadlığı iki qismə bölür: neqativ və pozitiv azadlıq. Berlin pozitiv azadlığı bəşəri və ya ictimai məqsədlərin əldə edilməsi azadlığı kimi müəyyənləşdirir. "Azadlıq" sözünün pozitiv mənası fərdin öz şəxsi həyatının sahibi olmaq istəyindən irəli gəlir. Neqativ azadlıq isə cəmiyyət və dövlətin insanın muxtariyyətinə müdaxilə etməməsi üçün gərək olan azadlıqdır. (Bax: Yenə orada, s. 339, 344).

Fəlsəfi nöqteyi-nəzərdən **azadlıq insanların idrak və zərurətə yiyələnməsi vasitəsilə nail olduğu real sərbəstlikdir. İnsanın yaşadığı cəmiyyət nə qədər azad olarsa, o, özü də bir o qədər azad olar. Digər tərəfdən, şəxsiyyət daha çox inkişaf etdikcə, cəmiyyətdən də daha çox azadlıq tələb edir. Dünyada insan azadlığından qiymətli heç nə yoxdur.**

Sözün əsl mənasında hər hansı bir ölkə yüksək azad iqtisadiyyata malikdirsə, orada digər azadlıqlar da mövcuddur. Yəni təkcə iqtisadi sahədə deyil, siyasi, ideoloji, mənəvi və s.

2006-cı ildə «*State of World Liberty*» təşkilatı dünya ölkələrinin azadlıq xəritəsini tərtib etmişdir. Burada üç meyar əsas götürülmüşdü: insan (fərdi) azadlığı, iqtisadi azadlıq və hökumətin siyasəti. Qeyd etmək lazımdır ki, iqtisadi azadlıqla şəxsi azadlığın birlikdə təhlili və ümumiləşdirilməsi buna qədər heç bir təşkilat tərəfindən araşdırılmamışdır.

Xəritəyə 159 ölkə daxil edilmişdir. Qiymətləndirmə 100 ballıq sistem üzrə aparılmışdır. İlk onluğa aşağıdakı ölkələr daxildir: Estoniya, İrlandiya, Kanada, İsveçrə, İslandiya, Baham Adaları, Böyük Britaniya, ABŞ, Kipr və Yeni Zelandiya.

İlk baxışda elə görünə bilər ki, demokratiya geniş mənada azadlıqlar gətirməklə sivilizasiyanın mühüm meyarı olan ədalət yaradır, lakin tarixi təcrübə göstərir ki, demokratiyanın özünün də effekti müəyyən ölçülər daxilində olur. İfrat demokratik siyasət və azadlıqlar müəyyən şəraitdə anarxiya üçün, cəmiyyətdə müəyyən amillərin təsiri ilə formalaşmış harmoniyanın pozulması üçün şərait yaradır.

Demokratiya hər hansı bir cəmiyyətin ancaq tələb etdiyi ölçülərdə effektlidir. Onun bundan artıq olması yol verilməzdir. Başqa sözlə, cəmiyyət demokratiyaya hazır olduqda bu demokratiya institutu məqsədəuyğun hesab olunur.

Cəmiyyətdə iqtisadi artım və daha yüksək gəlir səviyyəsi həm də demokratiyaya gətirib çıxarmalıdır və yaxud bu məqsədə uyğun gəlməlidir. Demokratiyanı qoruyub saxlamaq üçün yüksək iqtisadi inkişaf lazımdır.

İqtisadi azadlıq iqtisadiyyatı yüksəldə bilər, ancaq demokratiyaya aparmaya da bilər. Çünki cəmiyyətdə tam iqtisadi azadlıq mümkün deyil. Məsələn, Honkonq, Sinqapur və Avstraliya azad iqtisadiyyatlı ölkələrdir. Zəngin təbii ehtiyatlara malik olan və bunun nəticəsində yüksək gəlir əldə edən ölkələr də iqtisadi azadlığa və demokratiyaya nail olmaya da bilərlər. Əksinə, de-

mokratiya olan ölkələrdə iqtisadi azadlığın mövcudluğu daha real görünür.

Siyasi və iqtisadi azadlıqlar bir-birini tamamlamalıdır. İqtisadiyyat üzrə 1976-cı ildə Nobel mükafatı laureatı ABŞ iqtisadçısı Milton Fridman 1962-ci ildə yazmışdır ki, tarixdə siyasi azadlıq ilə azad bazar arasında əlaqədən çox danışırlar. Mən yüksək siyasi azadlıq dərəcəsinə malik olan və eyni zamanda əsas iqtisadi fəaliyyətin təşkili üçün azad bazara bənzər hər hansı bir şeydən istifadə etməyən cəmiyyət nümunəsinin hansı zamanda və hansı məkanda isə mövcudluğu barədə heç nə bilmirəm. O təsdiq edir ki, iqtisadi azadlıq və siyasi azadlıq bir-birini tamamlayır. Bunlar bir-birindən tədric edilmiş halda mövcud ola bilməz, olsa da müvəqqəti hal kimi qəbul edilməlidir. Siyasi və iqtisadi azadlıqlar arasında qarşılıqlı əlaqələr mürəkkəbdir və heç cür birtərəfli xarakter daşımır[1].

Latın Amerikasında 25-30 ölkə var, bunlardan iki-üçünü çıxmaq şərtilə qalanları antidemokratik dövlətlər hesab edilir. Təbii ki, bunların səsi BMT-də qərarların qəbuluna şərait yaradır.

BMT-də ölkələrə regional prinsip əsasında səs verilir. Məsələn, ədalət naminə demək lazımdır ki, burada Azərbaycanın vəziyyəti ora iddia edən Ermənistanın vəziyyətindən yaxşıdır. Səs verən ölkələrin çoxu Azərbaycanın təbii ehtiyatlarından gəlir əldə edirlər. Təbiidir ki, belə şəraitlə Azərbaycan-Ermənistan münasibətlərinə dair səsvermə keçirilərsə, hər şey respublikamızın xeyrinə həll olunar. Çünki, səs verən ölkələr öz vətəndaşlarının Azərbaycanda vəziyyətinin yaxşı olmasını istəyəcəklər. **Realist olanlar başa düşürlər ki, dünyanı maraqlar idarə edir. Təəssüf ki, bəzən demokratiya da bu prinsipə söykənir.**

2006-cı ildə ABŞ səfirliyinin şöbə rəisi Conatan Henik öz müsahibələrinin birində demişdir ki, ABŞ-ın Azərbaycanda bir

---

[1] Bax: Demokratiya: Gediləsi uzun bir yol. Demokratiya və Antidemokratiya Antologiyası (e.ə. 430-b.e. 1998). Bakı. 2002, s. 350-355.

sıra maraqları var. Belə maraqların sayı dörddür – demokratik islahatlar, energetika, iqtisadi inkişaf və təhlükəsizlik məsələləri. Bizi bəzən bir marağı digərinə qurban verməkdə ittiham edirlər. Əslində isə onlar bir-biri ilə bağlıdır.

2006-cı ildə Minsk Qrupunun yeni təyin olunan amerikalı sabiq həmsədri, dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə sabiq köməkçisinin müavini Metyu Brayza «Azadlıq» radiosunun Praqadakı baş redaksiyasının əməkdaşlarına geniş müsahibə verib. O göstərib ki, biz axmaq deyilik ki, demokratiyadan imtina edək. Bəli, bizim enerji maraqlarımız da var və çəkinmədən deyirik ki, enerji – strateji maraqdır. Eyni zamanda bizim təhlükəsizlik, terrorizmlə mübarizə, hərbi münaqişələrin qarşısının alınması və region ölkələrinin ərazi bütövlüyünün bərpası maraqlarımız da var. Mən onu nəzərdə tuturam ki, Gürcüstan daxilindəki münaqişələr bu ölkənin ərazi bütövlüyü prinsipi daxilində həll edilməlidir. Dağlıq Qarabağ münaqişəsinə gəldikdə, bizim rəsmi mövqeyimiz Azərbaycanın ərazi bütövlüyünün dəstəklənməsindən ibarətdir. Bizim üçüncü qrup maraqlarımıza hər bir ölkədə daxili islahatlar, demokratik və bazar iqtisadiyyatı islahatları daxildir.

**ABŞ-ın sabiq prezidenti oğul Buş** öz nitqlərində və hərəkətlərində ziddiyyətli addımlar atmışdır. O, ikinci inauqurasiya mərasimindəki nitqində demişdir ki, uzunmüddətli stabillik ancaq demokratiya sayəsində təmin oluna bilər. **Biz axmaq deyilik ki, istənilən ölkədə uzunmüddətli maraqlarımızın enerji maraqları və ya təhlükəsizlik maraqlarından asılı olduğunu düşünək və demokratiyadan geri çəkilək.**

Corc Buş öz çıxışında qeyd edib ki, kommunizm iflasa uğradıqdan sonra nisbi sakitlik oldu. İllər sakit ötüşdü. Lakin sonra birdən-birə odlu-alovlu günlər başladı. Nə qədər ki, bütün dünya regionları qəzəb və istibdad içindədir, zorakılıq artacaq, ən möhkəm sərhədləri belə keçəcək, ölüm təhlükəsi yaradacaq. **Tarixdə nifrət və qəzəbi dağıda biləcək, tiranları ifşa edə-**

**cək, sadə və dözümlüləri mükafatlandıracaq bir qüvvə var – insan azadlığının qüvvəsi.**

Siyasətçilər hesablamışlar ki, Buş əgər 2001-ci ildə inauqurasiya mərasimindəki çıxışında azadlıq və demokratiya sözlərini 431 dəfə səsləndirmişdisə, 2005-ci ildə bu rəqəm 1564-dür. O zaman amerikalıların 62%-i Buşun çıxışını yüksək qiymətləndirmiş, 11%-i isə dəhşətli adlandırmışlar.

Bunun nəticəsi SSRİ dövründə yaranmış lətifəyə bənzəyir. Amerika prezidenti ilə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin Baş Katibi öz ölkələrində demokratiyanın inkişafından danışırlar və hərəsi öz ölkəsini daha demokratik sayır. Amerika prezidenti deyir ki, onun ölkəsində kim istəsə Ağ Evin qarşısında prezidenti söyə bilər. Sov.İKP MK-nın Baş Katibi də deyir ki, SSRİ-də də belə demokratik şərait var: «Bizdə də hər bir vətəndaş Kremlin qarşısında – Qızıl Meydanda ABŞ prezidentini istədiyi qədər söyə bilər».

Ayrı-ayrı epizodlar hələ ölkənin demokratik inkişafına dəlalət etmir. Sosializmdən ayrılmış Çexiyanın paytaxtı Praqanın polis rəisi Vladislav Hursak 2006-cı ildə özünü üç ay müddətinə sürücülük hüququndan könüllü surətdə məhrum edib. O, eyni zamanda uşaqlara yardım göstərən xeyriyyə fondunun hesabına 440 dollar köçürməyi qərara alıb. Hursakın özü barəsində belə qərar qəbul etməsinə səbəb isə ölkənin populyar qəzetinin əməkdaşlarının polis rəisini maşını yüksək sürətlə (saatda 190 kilometr) sürdüyünə görə ifşa etmələri olub. Rəis ona yönələn ittihamları qəbul edib, səhvini boynuna alıb və bütün Çexiyadan üzür istəyib.

Cənubi Amerikada yerləşən Paraqvayın polisi 2009-cu ildə ölkənin prezidenti Fernando Luqonu yol hərəkəti qaydalarını pozduğuna görə cərimələmişdir. Prezident qadağan olunmuş ərazidə ötmə əməliyyatını pozduğuna görə polislər tərəfindən saxlanılmış və 104 dollar cərimə edilməklə, bir il sürücülük hüququndan məhrum edilmişdir. Hətta polislər onu sükan arxasından enməyə və yerini cangüdənə verməyə məcbur ediblər.

Hər iki epizod Qərbsayağı demokratiyadır.

Bu heç də o demək deyil ki, artıq Çexiya və Paraqvay tam demokratik ölkədir. Lakin demokratiyanın dəyərlərini qiymətləndirən, özünə və xalqına, qanunlara hörmət edən məmurlar mövcuddur.

İtaliyanın ədliyyə naziri Klementi Mastella məhkəmə onun arvadı Sandra Lonardo Mastellanı ev dustağı kimi cəzalandırdığına görə 2008-ci ildə vəzifəsindən imtina etmişdir.

«Ailəmə və hökumətə olan sevgim arasında seçim etməliydim. Mən ailəmi seçdim» deyən K.Mastella ədliyyə naziri olmasına baxmayaraq, arvadını ədalətsizlikdən müdafiə edə bilməməsindən şikayətlənib. Qeyd etmək lazımdır ki, ədliyyə nazirinin arvadı, Kampaniya vilayətinin regional şurasının sədri Sandra Lonardo Kazerta şəhər xəstəxanasının baş həkimindən rüşvət almaqda günahlandırılırdı.

CAR-ın müdafiə naziri Mosiuoa Lekota 2008-ci ildə dəmir barmaqlıqlar arasına düşməkdən canını güclə qurtarıb. O, heç də külli miqdarda korrupsiyada təqsirli bilinməyib. Sadəcə olaraq, CAR-ın müdafiə naziri avtomobilini normadan artıq sürətlə idarə edibmiş. O, maksimum sürət 120km/saat olan yerdə 189 km/saatla hərəkət edibmiş. Məhkəmə isə olaya görə nazirin bir il həbs cəzası və ya bunun müqabilində pul cəzası ödəməsi barədə qərar çıxarıb. Müdafiə nazirinin pul cəzasını ödəməyə razılıq verərək həbsdən qurtulduğu bildirilir.

Bütün bunlar ayrı-ayrı epizodlar olsa da, müxtəlif ölkələrdə demokratik şəraitin necə olması haqqında müəyyən fikir yaradır.

**Bizim ölkəmizə gəldikdə isə, bu gün qeyri-adi görünən hadisələr yəqin ki, gec-tez reallığa çevriləcək. Cəmiyyətin başqa inkişaf yolu görünmür.**

Hələlik isə, hətta düzgün seçilmiş yol hesab etdiyimiz bazar münasibətlərinin müvəffəqiyyət qazanılacağına tam təminat vermək düzgün olmazdı. Heç kəs iddia edib deyə bilməz ki, bazar münasibətləri bütün problemləri həll edəcəkdir. Əksinə, bazar münasibətləri yeni problemlər doğurmuş, bəzi insanlarda

inamsızlıq yaratmış və əgər idarəçilikdə köklü dəyişiklik edilməsə, bizi nələr gözləyir demək çətindir. Söhbət təkcə bizim ölkəmizdən deyil, bu istiqaməti tutmuş bütün dünya ölkələrindən gedir.

**O da aydındır ki, bazar münasibətləri heç də hamının ürəyincə deyil, ləngitmə qüvvələri hələ böyük və təhlükəlidir. Onlar fürsət düşən kimi əvəz çıxmağa çalışırlar.**

Lakin, kimin xoşuna gəlib-gəlməməsindən asılı olmayaraq yol seçilmişdir. Bu yol bazar iqtisadiyyatıdır. Məsələn, akademik N.Şmelyovun fikrincə, Rusiyada bazar işləmir[1]. O, bunu bir sıra misallarla sübut etməyə çalışır. Doğrudan da belə inkişaf nə Rusiyada, nə də Azərbaycanda hələ bazar iqtisadiyyatı demək deyildir. Burada, bazar iqtisadiyyatının bir sistem kimi bütün komponentlərinin, mexanizmlərinin xalis fəaliyyəti nəzərdə tutulur.

Bəziləri stalinizmin, digərləri brejnevçiliyin, bir başqaları isə qorbaçovçuluğun həsrətini çəkir, bir qrup isə hadisələrin məntiqi və reallıqları ilə hesablaşmayaraq onun gedişini tələsdirməyə çalışırlar. Halbuki siyasətdə yolu seçmək və həmin yolda büdrəməmək eyni dərəcədə vacibdir. Əks mövqelərdən hər biri vacib işlərdən yayındırır, qiymətli vaxtın itirilməsinə səbəb olur.

İqtisadi demokratiyanın iqtisadi inkişafla, demokratik inkişafla əlaqəsini epizodik görünən bu faktlarla izah etməyə cəhd etdik. **İqtisadi demokratiya haqqında yaranan ümumi anlayış belə deməyə əsas verir ki, bir cəmiyyət hadisəsi kimi bu da insan davranışlarından ibarətdir. Bu davranışların isə psixoloji, mənəvi, milli, dini aspektləri də mövcuddur və bunlar heç də az əhəmiyyət kəsb etmir.** Məsələn, eyni inkişaf mərhələsini keçən, eyni səviyyədə qanunvericilik bazasına, hüquqi bazaya malik müxtəlif xalqlarda demokratiya ilə, o cümlədən iqtisadi demokratiyaya münasibət onun dərk olunması və

---

[1] Bax: «Вопросы экономики» журнал. 2006, № 2, с. 156.

istifadəsi müxtəlif ola bilər. **Bir həqiqət də vardır ki, istənilən cəmiyyət hadisəsini (o insanlarla bağlı olduğu üçün) maraqlandıran, bu maraqların reallaşdırılması vasitəsi olan puldan kənarda təsəvvür etmək mümkün deyildir.**

# IV FƏSİL

# PUL SİYASƏT VƏ İQTİSADİYYATDA MÖCÜZƏLİ ALƏT KİMİ

## 4.1. Pulun etimologiyası və təkamül mərhələləri

Peşəkar iqtisadçılar üçün sadə görünsə də, geniş oxucu kütləsi üçün pul nədir sualı dünən, bu gün və sabah da maraq dairəsindədir. Pula verilən elmi təriflər, pul haqqında müxtəlif deyimlər bu möcüzəli, sirli, cazibədar, eybəcər təsəvvürolunmaz güc və qüdrətə malik olan hadisənin tam anlayışını yaratmaqda yenə də acizdir. Bəşər sivilizasiyasına meydan oxuyan dünyada bütün müharibələrin, toqquşmaların səbəbi olan, həm də insanlara zənginlik gətirən, maddi dünya adlanan bir dünyanı formalaşdıran pul haqqında bir daha bəhs etməyi lazım bilirəm.

N.B.Şulevski doğru olaraq yazır: "Pul – hətta fenomen də deyil o noumendir" (yəni yenilik baxımından fenomenin daha yüksək səviyyəsi. Məsələn, insan noumeni – tarixdə şəxsiyyətin, induviduallığın rolu. (Kursiv Ş.Q.). Burada bir paradoks müşahidə olunur. Pullarda və pullar vasitəsilə hansısa daimi və sonsuz subyekt təsir göstərir. Demək olmaz ki, bu subyekt ölümsüzdür, lakin onun gələcəyi də hələlik ifşa olunmayıb. Heç kim pulun mənasını, yaranma mənşəyini bilmir. Amma pulun subyekti çox yaxşı bilir ki, insan mövcuddur, o nəyə görə dünyaya lazımdır, ondan özü üçün, öz dostları üçün və dünyanın sahibi üçün hansı faydanı götürmək mümkündür. **Pullarda insanın özünüdərk tapmacası gizlədilmişdir.**[1]

Genezis baxımından pulun meydana gəlməsi ictimai əmək bölgüsü ilə bilavasitə bağlıdır. Tarixdə birinci böyük ictimai əmək bölgüsünün meydana gəlməsi nəticəsində istehsal

---

[1] Вах: Шулевский Н.Б. Деньги – Логос – Инкогнито мира. «Россия как цивилизация денег». Под редакцей проф. Ю.М.Осипова; проф. М.М.Гузева и др. Москва – Волгоград – 2008, с.11.

olunan müxtəlif məhsulların miqdarı artmağa başlamışdır. Bununla da mübadilə prosesi genişlənmiş, daha çox məhsul əmtəə mübadiləsinə daxil olmuşdur.

Nəticədə isə əmtəələrin dəyəri ekvivalent rolu oynayan bir çox əmtəələrin istehlak dəyərində öz ifadəsini tapır, yəni daha çox əmtəə ekvivalent rolunda çıxış edir. Bununla bərabər, əmtəələrin mübadilə edildiyi miqdar nisbətləri əvvəlkindən sabit xarakter alır. Lakin vahid ölçünün olmaması mübadilədə çətinliklər yaradır.

İctimai əmək bölgüsünün və mübadilənin dərinləşməsi nəticəsində əmtəələr aləmindəki bütün digər əmtəələrə mübadilə edilə biləcək bir əmtəənin ümumi ekvivalent rolunda çıxış etməsinə zərurət yaranır. Pulun əmələ gəlməsini A.Smit əmək bölgüsünün meydana gəlməsi ilə və cəmiyyətin «ticarət ittifaqına» çevrilməsi ilə əlaqələndirirdi. O hesab edirdi ki, mübadilə iştirakçıları bir-birilə mübadilə prosesində müəyyən çətinliklərlə üzləşirdilər. Lakin pulun yoxluğundan irəli gələn mübadilənin texniki çətinliklərini A.Smit pulun meydana gəlməsinin izah edilməsində çıxış nöqtəsi hesab etmir. Əksinə o, bu çətinlikləri əmək bölgüsünün dərəcəsi ilə müəyyən olunan mübadilənin inkişaf şərtlərindən çıxarır. Smit yazır ki, hər bir ağıllı insan əmək bölgüsü əmələ gəldikdən sonra cəmiyyətin hər hansı bir inkişaf pilləsində, təbiidir ki, öz işlərini qurmağa elə çalışmalıdır ki, daim özünün xüsusi peşəsinin xüsusi məhsulları ilə yanaşı, onun fikrincə, öz peşəsinin məhsuluna dəyişməyə heç kimin imtina etmədiyi müəyyən miqdar əmtəəyə malik olsun[1]. Beləliklə, mübadilə münasibətlərinin inkişafı labüd olaraq pulun meydana gəlməsinə gətirib çıxarır.

Heç də təsadüfi deyildir ki, ingilis iqtisadçısı L.Harris «Pulun nəzəriyyəsi» kitabında pulun meydana gəlməsi və

[1] <f[: Адам Смит и современная политическая экономия. Под ред. Н.А.Цаголова. М., Изд-во Моск. Ун-та, 1979, с. 140; Смит А. Исследование о природе и причинах богатства пародов. М.: 1962, с. 33.

mübadilənin pul formalarının inkişafını müasir qeyri-marksist ədəbiyyatda yer tutan müxtəlif yanaşmaların elementlərini birləşdirməklə şərh etməyə çalışır. O, birmənalı şəkildə təsdiq edir ki, pul mübadilənin əsasını təşkil edir[1].

Tarixdə elə bir dövr başlanır ki, artıq əmtəələrin dəyəri təkcə bir əmtəədə ifadə oluna bilir. Ümumi ekvivalent olan bir əmtəənin istehlak dəyərində bütün digər əmtəələr öz dəyərini təzahür etdirir. Ümumi dəyər formasının xarakterik cəhəti ondan ibarətdir ki, bütün əmtəələr ümumi ekvivalent rolunu oynayan əmtəəyə mübadilə edilməyə başlayır. Lakin əmtəə mübadiləsinin həmin pilləsində müəyyən bir əmtəənin ümumi ekvivalent rolu oynaması hələ sabitləşməmişdi. Ümumi ekvivalent rolunu bəzi xalqlarda mal-qara (ərəblərdə), xəz və dəri (slavyanlarda), çay (monqollarda), duz (çinlilərdə), başqalarında fil sümüyü, yumurta, balıq, it dişi, donuz dişi, paxla, tənbəki yarpaqları, preslənmiş çay, tiryək, kakao və s. oynamışdır. Lakin bu əmtəələr ümumi ekvivalent dəyər formasından ibarət vəzifələrini maneəsiz və tam yerinə yetirə bilmədiyinə görə ümumi ekvivalent rolunda tədricən nəcib metallar çıxış etməyə başlayır. Bir əmtəənin ümumi ekvivalent rolu oynaması sabitləşdikdə dəyərin pul forması meydana gəldi. Bu vaxtdan da əmtəə aləmi iki qütbə bölünür: bir tərəfdən bütün əmtəələr, digər tərəfdə isə pul dayanır.

Ümumi ekvivalent kimi əvvəlcə dəmir və misdən, sonra isə qızıl və gümüşdən istifadə edilmişdir. Qızıl və gümüşün ümumi ekvivalent rolu möhkəmləndikdən sonra ümumi dəyər formasını dəyərin pul forması əvəz edir. Lakin tarixin müəyyən bir dövründə pul olmaq etibarı ilə qızıl xüsusi əmtəəyə çevrilmiş, bütün əmtəələr üçün o ümumi ekvivalent olmuşdur.

Pulun üç min ildən artıq yaşı var; bu uzun müddətli dövrdə dörd mərhələni (və ona uyğun pul formalarını) ayırırlar:

- «əmtəə pulları» - «külçə» (b.e.ə. VII əsrə qədər);

[1] <f[ : Харрис Л. Денежная теория. Пер. с англ./Общ. ред. и вступ. ст. В.М.Усоскина. – М.:Прогресс. 1990, с. 26, 78, 79.

– «sikkə pulları» - «sikkə» (b.e.ə. VII əsr – XIX əsr);
– «kağız pullar» - «banknot» (XIX – XX əsrlər);
– «elektron pullar» - «kart» (XX əsrin ortalarından)[1].

Uzun müddət qızıl və gümüş əsas pul materialı kimi istifadə olunur. İbn Xəldun (1332-1406) yazırdı ki, iqtisadiyyatda pul mühüm rol oynamalıdır. Buna görə də «Allah iki metalı – qızılı və gümüşü yaratmışdır, ona görə ki, onlar hər cür daşınar əmlakın dəyəri olsunlar»[2].

Hər bir mübadilə aktı zamanı metalı tərəzidə çəkmək zərurətini aradan qaldırmaq üçün külçələrə standart formalar verməyə başladılar. Vaxt getdikcə bu formalar sikkə şəklini aldı[3].

Pulun tədricən məhdudlaşan forması sikkədir. Sikkə xırda pul şəklində də əlverişlidir. Bununla yanaşı bütün ölkələrdə xırda metal pullar ümumi pul kütləsinin yalnız bir neçə faizini təşkil edir. Qədim sikkələr eramızdan əvvəl 680-cı ildə Türkiyədə və Livanda düzəldilib. Kiyev Rusiyasında sikkələrin kəsilməsinə IX-X əsərlərdən başladı. Monqol-tatar istilası zamanı (1243-1480) ayrı-ayrı rus knyazları öz sikkələrini kəsirdilər. Sonralar «kopeyka» adlanan sabit, vahid sikkə təsis edildi. Bu ona görə belə adlanırdı ki, onda nizəli atlı həkk edilmişdir. Çəkisi 0,68 qram gümüşdən ibarət idi.

Daha sonra alğı-satqı əməliyyatlarını sadələşdirmək üçün metallar müxtəlif forma və çəkili dəmir pullar şəklinə salındı. Bu halda lazım olan pul məbləği çəkmək əvəzinə hesablamaqla müəyyən oluna bilir. İngiltərədə XVII əsrin ortalarına qədər pul kimi yalnız qiymətli metallar və dəmir pullar istifadə olunmuşdur. Con Meynard Keyns yazırdı: «Pul – öz mühüm atributlarına görə, hər şeydən əvvəl, bu gün və gələcək arasında incə

---

[1] Bax: Современная экономика. Общедоступный учебный курс. Ростов н/Д.: «Феникс», 1999, с. 613.

[2] Bax: История экономических учений. Ч. Ş.: Учебное пособие (Под ред. В.А.Жамина, Е.Г.Василевского). – М.: Изд-во МГУ, 1989, с. 34.

[3] Qeyd: Sikkə pul nişanıdır. Müxtəlif metallardan: qızıldan, gümüşdən, misdən, nikeldən və alüminiumun müxtəlif ərintilərindən hazırlanır.

bir birləşdirici vasitədir. Elə ona görə də, gələcəyə dair dəyişən təsəvvürlərin bizim cari fəaliyyətimizə təsirini aydınlaşdırmağa başlamağı belə, hətta yalnız pul terminləri ilə edə bilərik. Biz, hətta qızılı, gümüşü və digər qanuni tədiyyə vasitələrini məhv etməklə də puldan yaxa qurtara bilmərik. Nə qədər ki, pulun atributlarını öz üzərinə götürə bilən hər hansı bir uzunmüddətli aktiv mövcuddur, pul iqtisadiyyatının xarakterik problemləri meydana çıxacaqdır»[1].

Keynsin göstərdiyi kimi, pulun xarakterik problemləri tarixin bütün mərhələlərində mövcud olmuşdur və olacaqdır. Belə ki, tarixin müəyyən mərhələsində tədricən qızıl və gümüş kimi nəcib metallar pul rolunda uzun müddət qoşa fəaliyyət göstərmişlər. Sonralar isə qızıl yeganə pul metalı kimi şöhrət qazandı və uzun bir dövr ərzində özünün pul olmaq rolunu oynadı. Başqa metallara nisbətən qızıl mübadilədə pula çevrilmə və satış rolunu daha yaxşı yerinə yetirməyə malik olan ümumi keyfiyyətlərə malikdir. Qızıl öz xassəsinə görə fil sümüyü, xəzdəri, almaz, balıq yağı, mirvari və s. kimi ümumi ekvivalent rolu oynamış əmtəələrlə müqayisədə bir sıra üstünlüklərə malikdir. Birincisi, qızıl təbiətdə saf şəkildə tapılır və nadir metaldır. İkincisi, qızıl asanlıqla bölünmə qabiliyyətinə malikdir, onu müxtəlif hissələrə bölmək mümkündür. Üçüncüsü, onu saxlamaq asandır, xarab olmur, yüksək temperaturda əriyir. Dördüncüsü, parlaqdır, sürtünmə qabiliyyəti azdır.

N.Qreqori Menkyuya görə hazırda pul kimi istifadə etməsək də, tarixən qızıl pulun işlək forması olmuşdur, çünki onu daşımaq, ölçmək və təmizliyini yoxlamaq nisbətən asandır. İqtisadiyyatda qızıldan (və ya tələb olunduğu hallarda, qızıla çevrilə bilən puldan) pul kimi istifadə olunursa, bu zaman o, qızıl standartı ilə fəaliyyət göstərən iqtisadiyyat adlandırılır[2].

---

[1] Bax: Con Meynard Keyns. Məşğulluq, mənfəət və pulun ümumi nəzəriyyəsi. (Azərbaycan dilində). Bakı.: «Qanun» nəşriyyatı – 2001, s. 335.

[2] Bax: N.Qreqori Menkyu. Ekonomiksin əsasları. (Azərbaycan dilində). Harvard Universiteti. 2004, s. 629.

**Tarixdə qızıl həmişə ecazkar bir qüvvəyə malik olub, hamının gözünü bir növ pərdələyib.** K.Marks Kolumbun 1503-cü ildə Yamaykadan göndərdiyi məktubundan misal çəkərək yazırdı: qızıl qəribə şeydir! **Kimin qızılı varsa, ürəyindən keçən hər şeyin sahibidir. Qızıl hətta insan ruhu üçün cənnətə yol aça bilər[1].** Göründüyü kimi, Kolumb bütün dünyanı gəzəndən sonra bu nəticəyə gəlmişdir.

K.Marks Şekspirin «Afinalı Timponun həyatı» haqqında əsərindən gətirdiyi sətirlərdə qızılın onun yaşadığı cəmiyyətdə nələrə qadir olduğunu sanki sübut edir:

«Qızıl! O parlaq metal, gözəl, qiymətli metal…
Odur qapqara şeyi təmiz, ağappaq edən,
Çirkini gözəl edir, günahı – haqq, ədalət,
Alçaqları ucaldır, qorxağa verir cürət,
Qocalmış kaftarları təzə cavan göstərir.
Köhnəliyə min rövnəq, zinət, lətafət verir…
Ey allahlar, söyləyin bunun nə hikməti var?
Nə üçün yaratdınız qızılı, ey allahlar?
O ki, saf bəndələri qovur dərgahınızdan,
Xəstənin başı altdan odur balışı qapan.
O məlun parıltısı azdırır insanları,
Bir anda həm bağlayır, həm pozur peymanları.
O pərəstiş etdirir ən iyrənc, pis bidətə,
Bəli, odur mindirən quldurları hörmətə,
Onlara ad-san verən, əyanlığa qaldıran,
Cavanlara qartımış qarıları aldıran…
Sən də, ey qoca dünya, rədd ol artıq gözümdən.
Sən də bu kainata satılmış cariyəsən!»[2].

Sofoklun «Antiqona» əsərindən isə pula dair şeri misal çəkərək, onun necə bəla olduğunu göstərir:

---

[1] K.Marks. Kapital. I c. Bakı.: 1969, s. 140.
[2] Yenə orada.

«Pul bəladır… Fəlakət gətirir insanlara:
Pul üstündə şəhərlər dönüb xərabəzara;
Pul üçün tərk eləyir övlad ata yurdunu,
Pul yad, qərib ellərə didərgin salır onu.
Pul məsum ürəkləri pozur, əxlaqsız edir,
İnsanlara bəd əməl, riyakarlıq öyrədir»[1].

**Marks birmənalı şəkildə göstərir ki, pul hamıya cəllad kəsilmişdir[2].**

Baxmayaraq ki, müasir şəraitdə qızıl və gümüş pul kimi istifadə olunmur, onlar da adi əmtəələr kimi alınıb satılır, lakin Marksın göstərdiyi bütün əlamətlər onda özünü ən eybəcər şəkildə büruzə verir. U.Petti pulu iqtisadi inkişafın stimulu kimi izah edirdisə, Buagilber pula bütün fəlakətlərin əsası kimi baxırdı[3].

Cəmiyyət inkişaf etdikcə əmtəə-pul münasibətlərinin genişlənməsi metal pullarla alqı-satqıda çətinliklər yaranmış və metal pullar kağız pullarla əvəz olunmuşdur.

Kağız pulların geniş şəkildə yayılması öz tarixini XVIII əsrin başlanğıcından götürür. Ancaq tədqiqatlar göstərir ki, bu pullar daha əvvəl yaranmışdır. Güman etməyə əsas vardır ki, kağız pullar Çin tacirləri tərəfindən ixtira edilmişdir. İlk kağız pullar 812-ci ildə Çində çap olunub və 870-ci ildən yayılmağa başlanıb. Rusiyanın ilk əskinazları 1661-ci ilin iyunundan İsveçin Stokholm şəhərində buraxılıb. Rusiyada ilk kağız pullar 1769-cu ildə II Yekaterinanın vaxtında buraxılmışdır.

Pulun yaranma tarixinə dair ziddiyyətli fikirlər çoxdur. Məsələn, Q.B.Şeremeteva yazır ki, birinci kağız pulun və kağızın özü ilk dəfə Çində hazırlanmışdır. Bunu XIII əsrin axırlarında Çinə gəlmiş və orada 17 il yaşamış İtaliya səyyahı Marko Polo da təsvir etmişdir. Yuan sülaləsinin hökmranlığı vaxtı

---

[1] K.Marks. Kapital. I c. Bakı.: 1969, s. 141.
[2] Yenə orada, s. 148.
[3] История экономических учений. Ч. Ş.: Учебное пособие / Под ред. В.А.Жамина, Е.Г.Василевского – М.: Изд-во МГУ, 1989, с. 64.

(1271-1368-ci illər) çoxlu miqdarda kağız pullar çap olunmuş və bu Çində başlıca pul tədavülü vasitəsi olmuşdur.

Kağız pulun ilk dəfə buraxıldığı ölkələrdən biri də Azərbaycandır. Təbrizdə Keyxatu xanın dövründə (1291-1296) "çav" adlı kağız pul buraxılmışdır.

Rus sözü olan "denqi" XIX əsrin axırlarında və XX əsrin əvvəllərində meydana gəlmişdir. XX əsrə qədər pulun ümumi adı kimi aşağıdakı sözlər işlənmişdir: mal-qara, mis, xəz-dəri, qrivna (təxminən bir kirvənkə qızıl və ya gümüş), gümüş…

"DENQİ" sözünün özü tatar sözü olan "tamqa" sözünün törəməsidir. Tədricən bu söz "mtanqa" sözünə çevrilmişdir. "Tanqa" sözü rus dilində "nişanə", "möhür" deməkdir. Bunun əsasında "tanqa" manatı və beləliklə də, "denqi" sözü meydana çıxmışdır.

Şərqi Avropada pul tədavülü VII əsrdə meydana gəlmişdir. Bu dövrdən ərəb və Vizantiya gümüş monetləri kütləvi halda yayılmağa başlamışdır[1].

Balaca əskinaslar isə 1817-ci ildə Rumıniyada dövriyyəyə buraxılıb. Bu kağız pulun ölçüləri 27,5 x 38 mm-ə bərabər idi.

Yüksək dəyərli əskinas ABŞ Federal Ehtiyat Bankının buraxdığı «10 minlik» banknotdur. Əskinazın üzərində «Çeyz Manhetten Bank»ın yaradıcısı S.P.Çeyzin təsviri əks olunub. Lakin 1944-cü ilin iyununda bu pulların buraxılışı dayandırılıb. Hazırda dövriyyədə 348 ədəd 10 min dollar dəyərli əskinas qalıb.

Aşağı dəyərli əskinaz və qanuni ödəniş vasitəsi 1 sentlik İndoneziya banknotu hesab edilir.

Avropada kağız pulların rolunu əmtəə və qızılın mühafizə olunması üçün qəbul edilən qəbz oynayırdı. Bu qəbzləri veksel, yəni ilk qiymətli kağızlar hesab etmək olar. Əslində isə, ilk dəfə pul bank biletləri şəklində 1716-cı ildə Fransada Maliyyə naziri

---

[1] Вах: Г.Б.Шереметева. Энергия денег, или деньги в жизни человека / Галина Шереметева. – 2-е изд. – М.: Амрита – Русь, 2006, с.53-54.

olmuş şotlandiyalı C.Lonun layihəsi üzrə buraxılmışdır. Baxmayaraq ki, banknotların emissiyasının köməyi ilə Fransanın sərvətini artırmaq haqqında C.Lonun planı baş tutmadı, lakin o kağız pulların kütləvi surətdə buraxılması və işlənilməsinə təkan verdi.

Azərbaycanda milli puldan istifadə olunması tarixi qədim dövrlərə gedib çıxır. XX əsrin əvvəllərində Bakı şəhər idarəsi və Bakı Sovetinin şəhər təsərrüfatı «Bakı bonları» adlanan kağız pulları dövriyyəyə buraxmışdı. Azərbaycan Demokratik Respublikası yaradılandan sonra isə Rusiya pulları, «Bakı bonları» ilə yanaşı Zaqafqaziya bonlarından da istifadə edilməyə başladı.

İlk müstəqil pul emissiyası 1919-cu ilin əvvəlində tədavülə buraxılan 25, 50, 100 və 250 manatlıq əskinazlardır.

Azərbaycan SSRİ-nin tərkibinə daxil olanda respublikada vahid pul – SSRİ rublu işləməyə başladı. 1920-ci ildə ikinci dəfə Azərbaycan Sovet Sosialist Respublikasının adından dövriyyəyə buraxılan əskinazlar 1.000 rubl böyük formatda, 1000 manatlıq kiçik formatda, 5 və 100 manatlıq iki variantda tədavülə buraxılmışdır.

1921-ci ildə yeni dizaynla dörd yeni nominal – 5.000, 10.000, 25.000 və 50.000 manatlıq əskinazlar tədavülə buraxılmışıdır.

1922-ci ildə 3 yeni əskinaz: 100.000 (3 variantda), 250.000 (2 variantda), 1.000000 (2 variantda); 1923-cü ildə 5.000000 manat nominal pul nişanı dövriyyəyə buraxılmışdır.

Sovet hakimiyyəti dövründə 3 dəfə pul islahatı həyata keçirilmişdir: 1947, 1961, 1991. Ən uzunömürlü pul nişanı 1961-ci il islahatından sonra dövriyyəyə buraxılan 1, 3, 5, 10, 25, 50 və 100 rubl dəyərində olan biletlər olmuşdur. Eyni zamanda, 1961-ci ildə dövriyyəyə yeni dizaynla 1, 2, 3, 5, 10, 15, 20, 50 qəpik və 1 rubl dəyərində sikkələr də buraxılmışdır.

1991-ci ildə həyata keçirilən pul islahatı yaddaşlarda "Pavlov islahatı" (o zaman Pavlov SSRİ Maliyyə naziri idi) kimi qal-

mışdır. O zaman 50 və 100 rublluq əskinazlar dövriyyədən 3 gün müddətində çıxarıldı.

Müstəqil Azərbaycan Respublikasının pul tədavülünün yaradılmasını və təşkil edilməsinin əsası, Azərbaycan Respublikası Prezidentinin 11 fevral 1992-ci il tarixli "Azərbaycan Respublikası Milli Bankının yaradılması haqqında" Fərmanı ilə Milli Bankın yaradılması və Azərbaycan Respublikası Prezidentinin 15 iyul 1992-ci il tarixli "Azərbaycan Respublikası milli valyutasının dövriyyəyə buraxılması haqqında" Fərmanına müvafiq olaraq milli valyutanın dövriyyəyə buraxılması ilə qoyulmuşdur.

SSRİ dağılandan sonra – 1992-ci il avqustun 15-də 1, 10 və 250 manatlıq, noyabr ayında 5, 10, 20 və 50 qəpiklər, dekabrda 5 manatlıq əskinaslar olmaqla milli pulumuz tədavülə buraxıldı. 1993-cü ilin martında 50, 100, 500 və 1000 manatlıq nominallı pul vahidləri dövriyyəyə buraxıldı. 1992-ci il avqustun 15-dən 1994-cü ilə qədər Azərbaycanda manat dövriyyədə rublla paralel işlədi. 1994-cü il yanvarın 1-dən manat dövriyyədə yeganə ödəniş vasitəsi olmuşdur. 1994-cü ildə 10 min manatlıq əskinaslar, 1996-cı ildə 50 min manatlıq əskinaslar buraxıldı. 2005-ci il fevralın 7-də denominasiya ilə bağlı fərman verildi. 2006-cı il yanvarın 1-dən Azərbaycanda yeni manat dövriyyəyə çıxdı. O zaman 1 yeni manat 5000 köhnə Azərbaycan manatına bərabər tutuldu və 2007-ci ilin birinci ayına qədər köhnə pullar ödəniş vasitəsi kimi qəbul olundu. Dövriyyəyə buraxılan yeni manat 1, 5, 10, 20, 50, 100 ekvivalentində olan əskinazlar və 1, 3, 5, 10, 20, 50 metal pul nişanlarından ibarət oldu[1].

---

[1]. Qeyd: Bu problemlə bağlı geniş məlumatı professor Zahid Məmmədovun və türk iqtisadçısı Ahmet Yemanın Türkiyədə çap olunmuş "Azerbaycanın kredit ve para sistemi, günümüzdeki özellikleri və gelişme yönü" məqaləsindən oxumaq olar. (Bax: Maliye finans yazıları. YII: 24 sayı: 87 Nisan 2010, s. 51-77.)

## 4.2. Pulun anatomiyası, funksiyaları və qəribəlikləri

Pul nədir? Ümumi şəkildə demək olar ki, tarixi inkişafın müəyyən mərhələsində daha çox satılma qabiliyyəti olan məhsul pula çevrilir.

İqtisadi ədəbiyyatda pula müxtəlif təriflər verilmişdir: “Pul tam satıla bilən mübadilə vasitəsidir”. “Pul məhsul almaq və borc ödəmək üçün hamı tərəfindən qəbul ediləndir”. “Pul təsərrüfat həyatının inkişafının müəyyən mərhələsində meydana gəlmiş iqtisadi alətdir”. “Pul iqtisadi münasibətlərin inkişafının, insanların təbii təsərrüfat həyatının nəticəsi kimi meydana gəlmiş dəyər formasıdır”.

Tarixi ardıcıllıqla götürdükdə pulun tədqiqatçıları bir sıra nəticələrə gəlmişlər və cüzi fərqlərə baxmayaraq konkret ümumi fikirlər söyləmişlər. Adam Smit pulu «tədavülün çarxı» adlandırmışdır[1].

Digər iqtisadi kateqoriyalar kimi pul da tarixi kateqoriyadır. Pul-birincisi, tarixi inkişafın müəyyən bir mərhələsində ona obyektiv zərurət olduğu zaman yaranıb. İkincisi, ictimai istehsalın yüksəlişi inkişaf edir: pulun funksiyalarının yerinə yetirilməsi metodları, onun forma və növləri dəyişir.[2]

E.Abel və B.Bernanke yazır ki, pul – nağd və nağdsız hesablaşmaların həyata keçirilməsi üçün istifadə oluna bilən aktivin iqtisadi adıdır.[3]

---

[1] <f[ : Экономика: Учебник. 3-е изд., перераб. и доп. / Под ред. д-ра экон. наук. проф. А.С.Булатова. – М.: Юрист, 2001, с. 447.

[2] Bax: Деньги. Кредит. Банки: учебник для студентов вузов, обучающихся по экономическим специальностям, по специальностям «Финансы и кредит», «Бухгалтерский учет, анализ и аудит» / Е.Ф.Жуков, Н.М.Зеленкова, Н.Д.Эриашвили; под ред. Е.Ф.Жукова. – 4-е изд., перераб. и доп. – М.: ЮНИТИ – ДАНА, 2009, с.6.

[3] Bax: Абель Э.Бернанке Б. Макроэкономика. 5-е изд. – СПБ.: Питер, 2012, с. 323,

Bəzi müəlliflər insanın müasir modern konsepsiyasını, pulun ideoloji əsasını tarixən “insan təbiətinin” dəyişməsi konsepsiyası baxımından izah edir.[1]

Bu fikirlə mütləq mənada yox, qismən razılaşmaq olar. Əlbəttə cəmiyyətin tələbi artdıqca insanların da tələbatı artır. Lakin bu, gəlirlərin bölgüsündəki radikal bərabərsizliyə heç də haqq qazandırmır.

Mahiyyətinə görə pul – bütün əmtəələr üçün ümumi ekvivalentdir. Marksizmə görə bu o deməkdir ki, pul olan şeyin ictimai istehlak dəyəri vardır, həmin şeydə mücərrəd əməyin təcəssümü olan dəyər vardır. Pul istehsal şəraitində insanların ictimai münasibətlərini ifadə edən iqtisadi kateqoriyadır. K.Marks yazırdı: «1844-1845-ci illərdə ser Robert Pilin bank qanunları münasibətilə parlamentdəki mübahisələr zamanı Qladson qeyd etmişdi ki, **hətta məhəbbət üzündən axmaq vəziyyətinə düşənlərin sayı pulun mahiyyəti haqqındakı əlləməlik üzündən eyni vəziyyətə düşənlər qədər çox deyildir.** Qladson britaniyalılardan danışır və britaniyalılara müraciət edirdi»[2]. «Pul cəmiyyətdə insanları birləşdirən yeganə və hər şeyi əhatə edən əlaqəyə çevrilmişdir»[3]. Pol A.Samuelson qeyd edir ki, pul bütün dünyada qəbul edilmiş mübadilə vasitəsidir (nağd pul və çeklər)[4].

N.Qreqori Menkyuya görə pul insanların digər insanlardan əmtəə və xidmətlərin alınması üçün müntəzəm surətdə istifadə et-

---

[1] Bax: А.И.Пигалев, «Деконструкция денег и постмодернистская концепция человека». «Вопросы философии» журнал. 2012, № 8, с. 50.

[2] <f[: R.V fhr ç. Çbqf çb bünbçf l şy nzyüb byz l f bh. Fpzh, f q; f y L. dkzn Yzı hbqqf nş. 1955, ç. 53.

[3] <f[: Fybr by F.D. Tkv by `zy; kbqb V f hr çf üzl zhr b bünbçf l xş v wnzəzr-r bhkzhby özqf nş dz b t qf kf hş. <f r ş.: " zy; kbr, 1987, ç. 269.

[4] <f[: Пол А.Самуельсон, Вильям Д.Нордхаус. Экономика: Пер. с англ. – М.: «БИНОМ», Лаборатория Базовых Знаний, 1999, с. 79.

dikləri vasitələr məcmusudur[1]. İqtisadi nəzəriyyə və praktikaya dair qısa ensiklopedik lüğətdə yazılıb: «Pul – hər hansı bir digər əmtəəyə mübadilə edilməyə qadir olan xüsusi əmtəədir, ümumi ekvivalentdir, əmtəələr əmtəəsidir»[2]. Beləliklə, pul satılmış və alına biləcək əmtəəni təmsil edir.

Pul bir neçə funksiyanı (vəzifəni) yerinə yetirmək üçün yaranmışdır. Funksiya (latın sözü olub functio – icra deməkdir) pul vəsaitinin istifadə edilməsi xüsusiyyətlərini xarakterizə edir. Onları pulun mahiyyətinin təzahür formaları kimi nəzərə almaq olar. Pul vəsaitləri ilə icra olunan funksiyalar barədə müxtəlif yanaşmalar mövcuddur.[3]

Ən əvvəl pul dəyər ölçüsü funksiyasını yerinə yetirir, çünki nağd şəklində deyil, xəyalən bütün əmtəələrin dəyəri pulla ölçülür. Pul dəyər ölçüsü kimi tədavüldə iştirak etmir. O əmtəədə təcəssüm edən ictimai zəruri əməyin ölçüsüdür. Pul ictimai əməyin məhsulu olduğuna görə dəyər ölçüsü funksiyasını yerinə yetirir. Qızıl standartı olduğu şəraitdə pul dəyər ölçüsü vəzifəsini qızılın köməyi ilə yerinə yetirir. Pulun özünün də dəyəri var. Dəyəri olmayan hər hansı bir şey dəyər ölçüsü ola bilməz. Dəyər ölçüsü vəzifəsini yerinə yetirməklə pulun qiyməti üzə çıxır. Əmtəənin dəyəri tədavül dairəsində qiymət şəklində meydana çıxır. Qiymət miqyası pul vahidində ifadə olunmuş qızılın kütləsini ölçmək üçündür. Pul dəyər ölçüsü olmaqla başqa əmtəələrin dəyərini, qiymət miqyası kimi isə qızılın miqdarını ölçür.

---

[1] Bax: N.Qreqori Menkyu. Ekonomiksin əsasları. (Azərbaycan dilində). Harvard Universiteti. 2004, s. 628.

[2] Bax:Лубнев Ю.П., Кравцова Н.И., Лозовой А.М. Краткий энциклопедический словарь по экономической теории и практике / Рост. гост. эконом. акад. – Ростов Н/Д. 1997, с. 72.

[3] Bax.: Деньги. Кредит. Банки: учебник для студентов вузов, обучающихся по экономическим специальностям, по специальностям «Финансы и кредит», «Бухгалтерский учет, анализ и аудит» / Е.Ф.Жуков, Н.М.Зеленкова, Н.Д.Эриашвили; под ред. Е.Ф.Жукова. – 4-е изд., перераб. и доп. – М.: ЮНИТИ – ДАНА, 2009, с.9.

Pulun ikinci funksiyası onun tədavül vasitəsi olmasıdır. Pol Samuelson, Vilyam Nordhaus yazır: «Pul iqtisadiyyatı ümumi qəbul olunmuş tədavül vasitəsinin köməyi ilə ticarəti həyata keçirən iqtisadiyyat»[1]dır.

Pul tədavül vasitəsi kimi satıcı ilə alıcı arasında sövdənin baş tutmasını mümkün edir, alğı-satqı baş verir. Ancaq pul bu prosesdə mütləq meydanda olmalıdır ki, əmtəələrin alğı-satqısı baş versin. Pul tədavül vasitəsi vəzifəsini ötəri yerinə yetirir. Belə ki, pul alıcının əlindən satıcının, satıcının əlindən alıcının əlinə keçir və belə bir formula alır: Ə (əmtəə) – P (pul) – Ə (əmtəə). Hazırda dünyanın hər yerində pulun bu funksiyasını kağız pullar yerinə yetirir.

Əmtəələrin möhlətlə satılması pulun tədiyyə funksiyasını yerinə yetirməsinə səbəb olur. Tədiyyə vaxtı çatdıqda alıcılar əmtəənin pulunu ödəməyə məcbur olurlar. Pul alınmış hər cür borcların, vaxtı çatmış digər zəruri ödəmələrin icrasını mümkün edir və bu zaman özünün tədiyyə vasitəsi olması funksiyasını yerinə yetirir.

Pulun tədiyyə funksiyasını yerinə yetirməsi tədavüldə pulun miqdarını azaldır. Bunun əvəzində bank sənədlərindən, çeklərdən istifadə olunur. Makmillanın müasir iqtisadi nəzəriyyə lüğətində göstərilir ki, əmtəə mübadiləsi üçün və ya borcun ödənilməsi kimi, özü də xüsusi istehlak üçün yox, sonrakı oxşar mübadilə üçün geniş qəbul edilən hər şey pul xarakterinə malikdir, çünki onların ilkin funksiyasını yerinə yetirir, yəni tədiyyə vasitəsidir. Tədiyyə vasitəsi kimi pul bir qədər maddi məzmuna malikdir ki, bu da tədiyyənin həyata keçirilməsi zamanı əldən ələ keçir, yəni bu qisimdə onlar ən primitivlər istisna olmaqla hər hansı bir iqtisadiyyatda həyati cəhətdən mühüm əhəmiyyət kəsb edən funksiyanı yerinə yetirərək tədavül vasitəsi kimi fəaliyyət göstərirlər. «Pul» anlayışı, həmçinin uçot vasitəsini ifadə etmək

---

[1] <f[: Пол А.Самуельсон, Вильям Д.Нордхаус. Экономика: Пер. с англ. – М.: «БИНОМ», Лаборатория Базовых Знаний. 1999, с. 781.

üçün istifadə olunur, yəni mücərrəd uçot vahidləri sisteminə aiddir ki, bunlarda da dəyərlər ifadə olunur və ya borclanma müəyyən edilir. Praktikada bu sistemin mövcud olması qiymət sisteminin məcburi ilkin şərtidir, çünki o, nisbi dəyərlərin pulda ifadə olunan əlverişli qiymətlərinə çevrilir[1].

Pulun funksiyalarından biri də sərvət toplamaq və qənaət edib yığmaq rolunda çıxış etməsidir. Pulu bir müddət tədavül dairəsindən çıxarmaq və toplamaqla, onu yığım vasitəsinə çeviririk. Pul qənaət funksiyasını səmərəli surətdə yalnız o halda yerinə yetirə bilər ki, yığıldığı müddətdə alıcılıq qabiliyyətini saxlaya bilsin. Daha doğrusu, müəyyən vaxtdan sonra, onun əvvəl olduğu miqdarda əmtəə və ya xidmət almaq qabiliyyəti olsun. İnflyasiyanın mövcud olduğu bir şəraitdə isə pulun real dəyəri aşağı düşür və özünün funksiyasını yerinə yetirə bilmir.

Pulun mahiyyəti geniş şəkildə onun funksiyalarında təzahür edir. Qızıl standartları ilə götürüldükdə klassik formada iqtisadi ədəbiyyatda pul: dəyər ölçüsü, tədavül vasitəsi, tədiyyə vasitəsi, yığım vasitəsi, dünya pulu vəzifələrini yerinə yetirir.

Rus iqtisadçıları arasında da pulun 5 funksiyanı yerinə yetirdiyi fikri üstünlük təşkil edir: 1) dəyər ölçüsü (dəyərlərin müqayisəsi); 2) tədavül vasitəsi (alğı vasitəsi); 3) yığım vasitəsi (qənaət); 4) ödəmə vasitəsi; 5) dünya pulu[2]

Pul haqqında Ksenofontun (b.e.ə. 430-355 və ya 354-cü illər) mülahizələri maraq doğurur. Onun ticarətə və pul təsərrüfatına mənfi münasibətinə baxmayaraq, o, həm iqtisadi firavanlıq dövründə, həm də yoxsulluq illərində pulun faydalılığını qəbul etmişdi. Ksenofont dərk edirdi ki, pul (gümüş) spesifik

---

[1] <f[ : Словарь современной экономической теории Макмиллана. – М.: ИНФРА – М., 2003, с. 332.

[2] Bax: Деньги. Кредит. Банки: учебник для студентов вузов, обучающихся по экономическим специальностям, по специальностям «Финансы и кредит», «Бухгалтерский учет, анализ и аудит» / Е.Ф.Жуков, Н.М. Зеленкова, Н.Д.Эриашвили; под.ред. Е.Ф.Жукова. – 4-е изд., перераб. и доп. – М.: ЮНИТИ – ДАНА, 2009, с.10,

əmtəədir, çünki «heç kimin arzu etdiyi qədər çox pulu yoxdur» eyni zamanda digər əmtəələrin əldə edilməsinin həddi var. Ksenofont pulun bütün funksiyalarından yalnız ikisini qəbul edirdi: pul tədavül vasitəsi kimi və xəzinə kimi[1].

Bank fəaliyyətinin zəif və əhatə dairəsinin məhdud olduğu bir şəraitdə tədavül dairəsindən çıxarılan pullar sandıqlarda saxlanılırdı. İnkişaf etmiş bazar iqtisadiyyatı şəraitində sahibkarlar sərbəst pullarını banklarda saxlamağı daha məqsədəuyğun hesab edirlər. Çünki bu pullar onlara əlavə gəlir gətirir. Banklarda toplanmış həmin pullardan yığım vasitəsi kimi istifadə olunur.

Əmtəə tədavülü üçün lazım olan kağız pulun miqdarı həmişə ölkədə tədavül üçün tələb olunan qızılın miqdarına uyğun olmalıdır. Qızıl standartının ləğv edilməsi pul kimi qızılın yığım vasitəsi və dünya pulu funksiyalarının aradan çıxmasına gətirib çıxarmışdır. Hazırda bu funksiyaları qızılın əvəzləyicisi olan pullar yerinə yetirir: dollar, avro, funt sterlinq, iyen və s.

Pulun funksiyalarından biri də onun dünya pulu rolu oynamasıdır. Tarixən qızıl əsasən dünya pulu funksiyasını yerinə yetirib. Dünya bazarlarında alğı-satqı və tədiyyə vasitəsi kimi qızıldan istifadə olunub. Qızıl pul kimi öz fəaliyyətini dayandırdıqdan sonra yuxarıda deyildiyi kimi dünya pulu rolunda ABŞ dolları və digər inkişaf etmiş bir neçə ölkənin dönərli valyutaları çıxış edir.

Ölkədə pulun miqdarı nə qədər olmalıdır?

Pul özünün tədavül və tədiyyə vasitəsi olmaq funksiyalarını yerinə yetirə bilməsi üçün lazım olan pulun miqdarı, necə gəldi deyil, pul tədavülü qanununun tələblərinə uyğun olaraq müəyyən edilir.

Pul tədavülü əmtəələrin alğı-satqısı ilə bağlıdır və ona xidmət edir. Buna görə də tədavül üçün lazım olan pulun miq-

---

[1] <f[: История экономических учений. Ч.Ş: Учебное пособие / Под ред. В.А.Жамина, Е.Г.Василевского – М.: Изд-во МГУ. 1989, с. 21.

darı ilk növbədə əmtəələrin qiymətləri cəmindən asılıdır. Eyni zamanda tədavül edən pul vahidinin dövriyyə sürəti nə qədər çox olarsa tədavül üçün tələb olunan pulun miqdarı bir o qədər az olar və əksinə.

Deyilənlərə əsasən belə bir nəticə əldə olunur ki, tədavül üçün tələb olunan pulun miqdarı əmtəələrin qiymətləri cəminin eyniadlı pul vahidlərinin dövriyyə sürətinə olan nisbətinə bərabərdir.

Tədavülə tələb olunandan artıq kağız pullar buraxılarsa, onlar qiymətdən düşür, alıcılıq qabiliyyəti azalır, qiymətlər isə artır və nəticədə inflyasiya baş verir.

Bencamin J.Cohen pulun funksiyalarından bəhs edərək yazır: «Pulun ənənəvi olaraq üç ayrıca funksiyası var: mübadilə vasitəsi, hesablaşma vahidi və kapital yığımı. Mübadilə vasitəsi kimi pul dövr edən ödəmə vasitəsidir. Bu rolda onun əsas atributu müqavilə öhdəliklərini yerinə yetirmək üçün ümumi qəbul edilə bilməsidir. Hesablanma vahidi kimi pul malların, xidmətlərin və aktivlərin dəyərləndirilməsi üçün ümumi məxrəc rolunu oynayır. Burada onun əsas atributu qiymət məlumatını etibarlı və dərhal ifadə etmək qabiliyyətidir. Yığım üçün pul ən rahat sərvətsaxlama vasitəsidir. Bu rolda onun əsas atributu alıcılıq gücünü saxlamaq qabiliyyəti, satış qəbzləri və alış ödəmələri arasında keçid yaratmaqdır. (Pulun müəyyənləşdirilməsində hər üç faktorun ayrılmaz olması fikri monetar nəzəriyyəçilər arasında mübahisələr yaradırdı; bəziləri onun mübadilə vasitəsi kimi rolunu əsas hesab edir, digərləri isə hesablaşma vahidi kimi rolunu vurğulayır. Yaxşı ki, bu uzun debatı burada həll etməyə ehtiyac yoxdur)»[1].

Prof. Dr.Haydar Başa görə kapitalizm anlayışında pul yalnız mübadilə və yığım vasitəsi kimi qəbul olunmuşdur. Bununla

---

[1] <f[: <ty;fv by ).: jöty. Ğekey ;jmhfəbqfçş. (Fpzh, fq;fy 1bkbylz). : jhytkk Eybdthçbntnb Yzıhbqqfnş, Şnöf;f dz Kjyljy. <frş.: 2003, ç. 9, 141.

da pulun əslində çox önəmli olan iki funksiyası diqqətdən qaçmışdır: – birincisi, işə təhriketmə vasitəsi və ikincisi, istehsal olunan mal və xidmətlərin qarşılığı olma keyfiyyətidir[1]. Pulun tərifini səhv və nöqsanlı şəkildə verən müasir iqtisadi modellərə görə pul, yalnız mübadilə və yığım vasitəsidir[2].

Professor doktor Haydar Başın pula baxışında müasir iqtisadi nəzəriyyələrdən fərqli olaraq təkcə iqtisadi faktor deyil, mənəvi faktor da diqqət mərkəzinə gətirilir. Müəllifin yaratdığı iqtisadi modelə görə indiyədək pula təkcə mübadilə və yığım vasitəsi kimi baxılmasının nəticəsidir ki, inflyasiya, kredit böhranı, ifrat varlılıq və yoxsulluq hadisələri baş verir.

Haydar Baş daha sonra yazır: «Heç bir iqtisadi nəzəriyyə bu günə qədər pulun niyyəti üzə çıxaran bir amil olması barədə bir şey söyləməmişdir»[3]. Nəticə olaraq isə pulun dörd funksiyasını qəbul edir:

1. Pul təhrik amili kimi.
2. Əməyin və istehsalın müqabili olması.
3. Mübadilə vasitəsi kimi.
4. Pulun yığım (dəyər saxlama) funksiyası[4].

Professor T.Ə.Quliyev çoxsaylı iqtisadi ədəbiyyatdakı fikirləri təhlil edərək doğru olaraq belə bir ümumi nəticəyə gəlmişdir ki, müasir şəraitdə bir sıra iqtisadçı alimlər pul anlayışını yeni formada şərh etməyə çalışırlar. Lakin bu cür şərh yenə də hamı tərəfindən qəbul edilmiş nəzəriyyə əsasında həyata keçirilir və pulun funksiyaları heç də həmişə sistemli iqtisadi nəzəriyyə baxışından öyrənilmir. Bəzi hallarda pul obyektiv dəyər kateqoriyası vasitəsi ilə yox, istehlak dəyəri nöqteyi-nəzərdən dəyəri dəyərlər kateqoriyası ilə əvəz etməklə izah edirlər[5].

---

[1] <f[: Ğhj ə. Lh. Öfqlfh <fı. Vlkb Bincfl b Vjltk «<frş L.dkzn Eybdt hçbt rb» yzı hbqqfnş. <frş.: 2005, ç. 57.

[2] Qtyzj hfl f, ç. 82.

[3] Qtyzj hfl f, ç. 83.

[4] Qtyzj hfl f, ç. 72-88.

[5] <f[: Т.А.Кулиев. Парадоксы экономических теорий. Баку.: 2008, с. 216.

Dünya iqtisad ədəbiyyatında pulun mahiyyəti və funksiyaları haqqında çoxsaylı müxtəlif fikirlər mövcuddur. Rusiya iqtisadi ədəbiyyatında göstərilir ki, təsərrüfatlararası dövriyyədə pul aşağıdakı funksiyaları yerinə yetirir:

– dəyər ölçüsü;
– tədavül vasitəsi;
– tədiyyə vasitəsi;
– yığım vasitəsi.

Beynəlxalq dövriyyədə pul dünya pulu funksiyasını yerinə yetirir.

Bir qrup iqtisadçılar (əsasən «Qərb» pul nəzəriyyəsinin nümayəndələri) bu nöqteyi-nəzəri bölüşdürmürlər. Birmənalı olaraq üç əsas funksiyanı qəbul edirlər:

– dəyər ölçüsü;
– tədavül vasitəsi;
– yığım vasitəsi[1].

Bəzi iqtisadi ədəbiyyatda da pulun əsasən üç funksiyası göstərilir:

– ölçü vahidi;
– ümumi mübadilə vasitəsi;
– dəyərin saxlanılması vasitəsi[2].

---

[1] <f[ : Экономическая теория: Учеб. для студ. высш. учеб. заведений / Под ред. В.Д.Камаева. – 7-е изд., перераб. и доп. – М.: Гуманит. изд. Центр ВЛАДОС, 2001, с. 309; Харвей Дж. Современная экономическая теория: Пер. с англ. – М.: ЮНИТИ – ДАНА, 2003, с. 378; Экономика: Учебник. 3-е изд., перераб. и доп. / Под ред. д-ра экон. наук. проф. А.С.Булатова. – М.: Юрист, 2001, с. 448; Протас В.Ф. Экономическая теория: структурно-логические схемы. / Протас В.Ф. – М.: Экзамен, 2002, с. 35; Макконнелл К.Р., Брю С.Л. Экономикс: Принципы, проблемы и политика. В 2 т.: Пер. с англ. 11-го изд. Т.Ş – М.: Республика, 1992, с. 264.

[2] <f[ : Базелер У., Сабов З., Хайнрих Й, Кох В. Основы экономической теории: принципы, проблемы, политика. Германский опыт и росийский путь. – СПб: Издательство «Питер», 2000, с. 450-451; <f[ : Трасевич Л.С.,

N.Qreqori Menkyu pulun iqtisadiyyatda üç funksiyasını göstərib: pul mübadilə vasitəsidir, hesablama vahididir və əmanət vasitəsidir[1]. Mübadilə vasitəsi kimi o, sövdələşmələrin aparılması üçün lazım olan vahidi təmin edir. Hesablama vahidi kimi qiymətlərin və digər iqtisadi dəyərlərin qeydə alınması üçün vasitələri təmin edir. Əmanət vasitəsi kimi alıcılıq qabiliyyətinin indiki zamandan gələcək zamana köçürmə üsulunu təmin edir[2].

Göründüyü kimi, Menkyu birbaşa pulun məhz iqtisadiyyatdakı funksiyasını qeyd edir**. Deməli, pulun iqtisadiyyatdan kənar funksiyası yoxdur.** Ancaq və ancaq iqtisadi proseslərin həlli zamanı puldan istifadə olunmalıdır.

«Müasir iqtisadiyyat» dərsliyində pul – nemətin iqtisadi dəyərlərin (qiymətinin) ictimai ifadəsi üsulu kimi göstərilməklə, bu ifadə onunla təmin olunur ki, pul üç funksiyanı yerinə yetirir:

– əmtəə və xidmətlərin tədavül (tədiyyə) vasitəsidir;

– reallaşan nemətlərin dəyərinin (qiymətinin) ölçülməsi vasitəsidir;

– yığım (gələcək bazar aktları üçün pul yığımı) vasitəsidir[3].

Bu cür yanaşma makroiqtisadi nəzəriyyə və pul nəzəriyyəsi sahəsində mütəxəssis olan, ingilis iqtisadçısı Lourens Harrisa da məxsusdur[4].

Pul, onun mahiyyəti, funksiyaları, miqdarı haqqında bir çox nəzəriyyələr mövcud olmuşdur. Onlardan ən çox yayılanı

---

Гребенников П.И., Леусский А.И. Макроэкономика: Учебник. – 5-е изд., испр. и доп. – М.: Юрайт – Издат. 2004, с. 88.

[1] <f[: Y.Ühtüj hb V eyrqe. Trj yj v brçby zçfçkfhş (Fpzh, fq;fy 1 bkbyl z). Öf hdf hl Eybdlt hçbtrb 2004, ç. 628.

[2] Yenə orada, ç. 642.

[3] <f[: Современная экономика. Общедоступный учебный курс. Ростов н/Д.: Феникс, 1999, с. 130.

[4] <f[: Харрис Л. Денежная теория: Пер. с англ. / Общ. ред. и вступ. ст. В.М.Усоскина. – М.: Прогресс 1990, с. 75-76, 82.

pulun miqdar nəzəriyyəsidir. XVII-XVIII əsrlərdə bu nəzəriyyəni C.Lokk, Ş.Monteskye, D.Yum, XIX əsrdə isə D.Rikardo kimi görkəmli iqtisadçı və filosoflar inkişaf etdirmişlər[1].

Bu nəzəriyyəyə görə pulun dəyəri tədavüldə olan pulun miqdarı ilə müəyyən olunur, əmtəələr tədavülə qiymətsiz, pul isə dəyərsiz daxil olur, qiymət isə tədavül prosesində yaranır.

XX əsrdə pulun miqdar nəzəriyyəsini Amerika iqtisadçısı N.Fişer, sonra isə C.Keyns və digərləri yeni yanaşma ilə əsaslandırmağa çalışmışlar. N.Fişer özünün «Pulun alıcılıq gücü» kitabında həmin nəzəriyyəni əsaslandırmaq üçün MV=PQ mübadilə bərabərliyindən istifadə edir.

Burada:
M – nağd pulun miqdarı;
V – pulun dövriyyə sürəti;
P – əmtəələrin qiymətlərinin orta səviyyəsi;
Q – satılmış əmtəələrin miqdarını bildirir.

N.Fişer burada iki göstərici ilə – əmtəələrin qiymətlərinin orta səviyyəsi (P) və «əmtəələrin kütləsi» - tədavüldə olan pulun miqdarını müəyyən edir. Əmtəələrin qiymətlərinin orta səviyyəsini isə

$$P = \frac{MV}{Q}$$ nisbəti ilə ifadə edir.

Göründüyü kimi, Fişerin tədavüldə olan pulun miqdarını hesablamaq üsulu, əvvəlki tədqiqatçılardan, adi dərsliklərdə illərlə öyrənilən formulalardan fərqlənir. Monetarizmin tezisi isə

[1] Bax: Головнин М.Ю. Развитие денежно – кредитной сферы в трансформационный период: Россия и
страны Центральной и Восточной Европы. – М.: Книжный дом «ЛИБРОКОМ», 2009, с. 9 – 11, 15.

ondan ibarətdir ki, pulun sabitliyi iqtisadiyyatın normal fəaliyyət göstərməsi üçün müstəsna əhəmiyyətə malikdir[1].

1976-cı ildə istehlak sahəsində tədqiqatları, monetar nəzəriyyə və pul tədavülü tarixinin işlənilməsinə görə Nobel mükafatı laureatı almış ABŞ iqtisadçısı Milton Fridmanın sözlərinə görə, «monetarist» - bu pul miqdar nəzəriyyəsinə inanan insandır.

### 4.3. Kağız pullar, banknotlar və plastik kartların ümumi xarakteristikası

Müasir pul vahidləri olan dollar, funt sterlinq, iyen, avro, rubl, manat və s. kağız pullar vasitəsilə alıcılıq qabiliyyətinə malikdirlər. Sizin müəyyən məbləğdə pulunuz varsa onu asanlıqla istənilən nemətə dəyişə bilərsiniz. Çünki, **pul hamının qəbul etdiyi mübadilə vasitəsidir.**

Tarixi nöqteyi-nəzərdən pulun iki formasının mövcudluğu göstərilir: tam dəyərli və natamam dəyərli.

Tam dəyərli pullar öz daxili dəyəri olan əmtəə xarakteri daşıyır. Tam dəyərli pullara metal pullar aid edilir. Külçə, gümüş və qızıldan olan sikkələr.

Natamam dəyərli pullar dəyərin əlamətləridir. Qızılı əvəz edən natamam dəyərli pullar əmtəəlik xüsusiyyətlərini itirir, özünün daxili dəyəri olmur. Pul əmtəəsindən fərqli olaraq natamam dəyərli pulları istehlak ehtiyaclarında istifadə etmək mümkün deyil. Natamam dəyərli pulların aşağıdakı növlərini fərqləndirirlər: 1) dövlət kağız pulları – xəzinədarlıq biletləri; 2) kredit pullar-nağd və nağdsız (tələb edilən bank hesablarında vəsaitlər, depozit pullar); 3) mübadilə sikkələri hal-hazırda praktik

---

[1] <f[ : Современная экономика. Общедоступный учебный курс. Ростов н/Д.: Феникс, 1999, с. 664; Головнин М.Ю. Развитие кредитной сферы в трансформационный период: Россия и страны Центральной и Восточной Европы. – М..: Книжный Дом «ЛИБРОКОМ», 2009, с. 10, 13-15.

olaraq bütün ölkələrdə dövriyyədə kredit pullar və mübadilə sikkələri mövcuddur.

İqtisadi ədəbiyyatda göstərilir ki, kağız pullar üçün 2 xüsusiyyət xarakterikdir. Birinci xüsusiyyət ondan ibarətdir ki, onların öz daxili dəyəri var. Onlar natamam dəyəri olan pullar – dəyər əlamətləridir. Kağız pullar alıcılıq qabiliyyətini müəyyən edən dəyərə malikdir. Kağız pulların ikinci xüsusiyyəti onların tədavülünün xarakteri ilə əlaqədardır: onlar təbiətən, qeyri-sabitdirlər, daha doğrusu, dəyərsizləşmişlər.[1]

Bəzi iqtisadçılar bu cür kağız pulları bir növ inzibati pullar kimi şərh edirlər. Y.A.Vasilçuk yazır: "İnzibati pullar – dövlət tərəfindən buraxılan qızıl və valyuta ilə deyil, əksinə dövlətin hakimiyyət gücü ilə təmin olunan və əmtəə dövriyyəsindən bütün digər pul materiallarını istisna edən kağız işarələridir. Burada pullar, həmçinin insanlar üzərində hakimiyyəti həyata keçirir. Lakin onlar özləri hakimiyyətin özünün yalnız bir alətidir. Yalnız bu diri pullarla" olan ödənişlər qanunidir. Yalnız onlar valyuta mövqeyindədir, yəni xarici pullara bərabərləşdirilir. Bütün qızıl, gümüş çeklər, veksellər, qiymətli kağızlar - ən yaxşı halda pulun surroqatlarıdır (sürəti, oxşarı). Onları bu yaxınlara kimi yer kürəsinin 1/3-ə hakim olmuş "xalis" şəkildə dərk etmək daha asandır.

İnzibati pulların hərəkətinin başlıca məqsədi Dövlət büdcəsidir, alətləri isə - dövlət bankı və vergi aparatıdır, istifadəçiləri – dövlət təşkilatları, dövlət müəssisələri və əhalidir[2].

Kağız pullar məcburi kursla dəyərləndirilmiş pul nişanlarıdır (dəyərin nominal nişanıdır) və adətən metalla əvəzlənmir,

---

[1] Вах.: Деньги. Кредит. Банки: учебник для студентов вузов, обучающихся по экономическим специальностям, по специальностям «Финансы и кредит», «Бухгалтерский учет, анализ и аудит» / Е.Ф.Жуков, Н.М. Зеленкова, Н.Д. Эриашвили; под ред.Е.Ф.Жукова. – 4-е изд., перераб. и доп. – М.: ЮНИТИ – ДАНА, 2009, с. 22, 26-27.

[2] Вах:Васильчук Ю.А. Социальное развитие человека в XX веке. Фактор денег. // Общественные науки и современность. 2001, № 4, с.10.

dövlət tərəfindən öz xərclərini (dövlət büdcəsi kəsirini) ödəmək üçün buraxılır.

Kağız pulların təbiəti ondan ibarətdir ki, onların sərbəst dəyəri yoxdur, belə ki, onların çap olunması əmək itkisi onların dəyərini ifadə etdiyi mallarla müqayisədə cüzidir. Ona görə də kağız pullar öz dəyəri sayəsində dövriyyə edən qızıldan fərqli olaraq, yalnız özlərinin dövriyyəsi prosesində əsl dəyərini alır. Metal və kağız pulların paralel tədavülü zamanı onların dəyəri əvəz etdikləri qızıl və gümüşün kəmiyyətinin dəyəri ilə müəyyənləşir: bir kağız pul vahidinin dəyəri tədavüldə olan kağız pulun kəmiyyətinə bölünən tədavül üçün lazım olan metalın kəmiyyətinin dəyərinə uyğundur.[1]

Bu müddəalardan çıxan nəticələri iqtisadçı K.V.Rudıy də təsdiq edərək yazır: "Kağız pullar və kredit pullar simvolik pullardan hesab olunur. Kağız pullar dövlət hakimiyyətinin qüvvəsinə əsaslanaraq, dövriyyədə qızılı və gümüşü əvəz edir və ilkin olaraq nominal üzrə nəcib metallara mübadilə oluna bilirdi."[2]

Bəzi iqtisadçıların fikrincə, ümumiyyətlə götürdükdə kağız pulların dəyəri yoxdur. Məsələn, N.Qreqori Menkyu göstərir ki, kağız pulların həqiqi dəyəri yoxdur və hökumətin qərarı ilə pul kimi istifadə olunur[3]. O, sonra yazır ki, qızıl kimi əmtəə formasındakı pul həqiqi dəyəri olan puldur. O, hətta pul kimi istifadə olunmadıqda belə, öz dəyərini saxlayacaq. Kağız dollar kimi xalis pul həqiqi dəyəri olmayan puldur. Pul kimi istifadə olunmadıqda onun heç bir dəyəri olmayacaqdır[4]. Ancaq insanlar kağız pulları qiymətləndirirlər, onların alıcılıq qabiliyyəti olan «kağız parçaları»

[1] Bax: Pul və banklar. Dərslik. Bakı: "İqtisad Universiteti" Nəşriyyatı – 2012, s. 155.

[2] Bax: Rudıy K.V. Xarici ölkələrin maliyyə, pul və kredit sistemi: Dərs vəsaiti / K.V.Rudıy – 2-ci nəşri, düzəlişlər və əlavələrlə / rus dilindən tərcümə. Bakı: "İqtisad Universiteti" nəşriyyatı, 2009, s. 29.

[3] <f[: Y.Üht üj hbV eyr qe. Trj yj v br çby zçf çkf hş (Apzh, fq; fy l bkbyl z). Öf hdf hl Eybdt hçbt nb 2004, ç. 630.

[4] Ytyzj hfl f, ç. 642.

edirlər. Pulun alıcılıq qabiliyyəti pul kütləsinin həcmini öz nəzarətində saxlayan hökumət, Mərkəzi Bank tərəfindən müəyyən edilir. Müasir pul sabitliyi heç də ölkənin qızıl ehtiyatı ilə müəyyən olunmur. Lakin əvvəllər pulun sabitliyi birbaşa qızıl ehtiyatlarından asılı idi. Bu sabitliyi Mərkəzi Bank özünün düşünülmüş pul-kredit siyasəti ilə təmin etməlidir. Tədavüldə həddindən çox pul kütləsi olarsa o öz alıcılıq qabiliyyətini itirir, qiymətdən düşür, bir sözlə, inflyasiyaya uğrayır.

Pul tədavülünün daha böyük faizi ölkənin Mərkəzi Bankının buraxdığı banknotlar (bank biletləri) və dövlət xəzinədarlığının buraxdığı xəzinə biletləridir. N.Qreqori Menkyunun qeyd etdiyi kimi ən bariz aktiv valyuta əhalidə olan kağız banknotlar və sikkələrdir[1]. Bunlar kağız pullardır. Onlar dövlət kağız pullarını təmsil edir. Adi həyatda bu iki forma vətəndaşlar üçün fərqlənir.

Kağız pullar və xırda pullar, bir yerdə nağd pulları əmələ gətirir. Bu pullar öz fiziki formasında mövcud olan real pullardır. Nağd pullar hələ də onları cəlbedici edən üstünlüklərə malikdir. Nağd pullar çoxsaylı ödəmələrin yerinə yetirilməsində kifayət qədər universal vəsaitdir. Nağd pul asanlıqla nağd olmayan pula çevrilir. Ancaq bu prosesdə çətinliklər də meydana çıxa bilər.

Nağdsız pullardan istifadə etməyin geniş yayılan və tərəqqi edən forması pul çekləridir. Bank hesabında olan pul çekləri əmanətinin sahibinin, əmanətin məbləğini ötüb-keçməyən, istənilən məbləğdə çek yazmağa və bu çeki ödənilməyə təqdim etməyə və yaxud ödəmə vəsaiti kimi ondan istifadə etməyə əsası və hüququ vardır. Bununla da, çek pulun – nağd olmayan pulun ödəmə funksiyasını yerinə yetirir. Lazım olan şeyləri almaq üçün öz cibində və portfelində pul gəzdirmək lazım deyildir. Çek kitabçasının olması kifayətdir. Çünki, sahibinin imza etdiyi çek,

---

[1] <f[ : Y.Ühtüj hbV eyrqe. Trj yj v brçby zçf çkf hş (Apzh, f q; f y l bkbyl z). Öf hdf hl Eybdt hçbnt rb 2004, ç. 631.

bankın onun hesabından pul verilməsində və yaxud başqa hesaba köçürülməsində əmanətçinin əmrini təmsil edir. Nağdsız hesablaşmalardan istifadə olunan ölkələr də çeki və çek əmanətlərini pulun forması hesab edirlər.

Lakin nağd puldan fərqli olaraq, çeklər o qədər də universal ödəmə vasitəsi hesab olunmur. Onların qəbulu məhdud ola bilər və bankda müəyyən hesaba bağlıdırlar. Onu başqa şəxsə vermək çətindir, onların əsl olmasını və həqiqi sahibinə aid olmasını təsdiq etmək tələb olunur. Bir sıra ölkələrin maliyyə praktikasında geniş istifadə olunan çeklər, öz tətbiqini Azərbaycanda indi tapmışdır. Ayrı-ayrı şəxslərə nisbətən müəssisələr tərəfindən tez-tez istifadə olunur.

Xüsusi kredit biletlərini təmsil edən çeklər, pul vəsaitlərinin bir növü olub, pul vəsaitinin bir hesabdan digərinə köçürülməsi üçün istifadə olunur və pul ödəmələrini həyata keçirir.

Plastik kartlar forması olan bu çeklər pul vəsaitlərinin spesifik alətləri sırasına aid edilir. Bu cür kartların köməyi ilə ödəmələri həyata keçirmək, onlar üzrə banklardan pul almaq olar. Maqnit yazısı olan kartlardan metroya keçmək üçün, plastik kartlardan avtomat telefonlarla danışmaq üçün istifadə edilir.

**Gələcəkdə daha əlverişli və təkmilləşmiş formada istifadə ediləcək elektron pulların olacağı nəzərdə tutulur. Kağız pul sənədlərinin, məlumatın daşıyıcılarının maşınlar olan sənədlərə dəyişdirilməsi elektron pullara yol açır. Elektron ticarət, elektron imza, elektron pullar əmtəə-pul münasibətlərinin təkamülündə ən yeni mərhələni ifadə edir.**

Banklardakı cari hesablarda olan nağdsız pullar, çeklərin köməyilə, asanlıqla ödəniş vasitəsinə çevrilir. Bundan əlavə, bir bank hesabından digərinə nağdsız-pul köçürmələri formasından geniş istifadə olunur. Məsələn, ABŞ-da və Avropada bütün bağlaşmaların və əmtəə-pul dövriyyəsi dəyərinin təxminən 90 faizi, nağd puldan istifadə olunmayan hesablaşmalar vasitəsilə həyata keçirilir. Bu səbəbdən hesablaşmalarda istifadə edilən bütün əmanətlər və yaxud müddətsiz depozitləri, çeklər və çek əmanət-

lərinin müxtəlif formalarını pul hesab etmək və pul kütləsinə aid etmək qanunauyğun sayılır.

## 4.4. Valyuta məzənnəsi və denominasiya

Valyuta (italiyanca "valuta" -"dəyər", "qiymət" deməkdir) məzənnəsi milli valyutanın hər hansı başqa bir ölkənin valyutasının pul vahidlərinin ifadə etdiyi müqayisəli qiymətidir.

Rusiya iqtisadçısı O.V.Xmız yazır ki, valyuta məzənnəsi elə obyektiv iqtisadi kateqoriyadır ki, bütün mövcudluğu əmtəə istehsalının və beynəlxalq mübadilənin inkişafı ilə şərtlənir, bu mübadilənin təsiri zamanı müxtəlif pul vahidlərinin dövr etməsindən asılıdır, onun iqtisadi məzmunu ayrı-ayrı valyutalar tərəfindən təqdim olunan müxtəlif dəyərlərin mübadiləsinin qanunauyğunluqları ilə müəyyən olunur. O, sözünə davam edərək yazır ki, valyuta məzənnəsi iqtisadi kateqoriyadır, milli pul vahidlərində ifadə olunan xarici valyuta vahidinin qiymətidir. Bu qiymət valyuta bazarı adlanan bazarda tələb və təklifdən asılı olaraq formalaşır. Tələb fiziki və hüquqi şəxslər tərəfindən yaranır ki, bunlar da xarici valyutada hesablanmalıdır və bu valyutanı ona malik olan şəxslər təqdim edirlər[1].

Valyuta məzənnəsi bir ölkənin pul vahidinin digər ölkələrin pul vahidləri ilə ifadə olunmuş qiymətidir[2].

Valyuta məzənnəsi – milli pul vahidinin alıcılıq qabiliyyəti nəzərə alınmaqla müəyyənləşdirilir. Valyuta məzənnəsinə əsasən aşağıdakı amillər təsir göstərir:

1. Ölkənin ümumi iqtisadi vəziyyəti;
2. Ölkənin tədiyyə balansı;

---

[1] <f[ : Хмыз Ольга Васильевна. Международный рынок капиталов (монография). – М.: «Издательство ПРИОР», 2002, с. 92.

[2] Bax: İqtisadi nəzəriyyə. Makroiqtisadiyyat – 1,2. Metaiqtisadiyyat. Transformasiya iqtisadiyyatı: Dərslik / PF əməkdar elm xadimi, professor, iqtisad elmləri doktoru Q.P. Juravlyovanın ümumi redaktəsi ilə. – M.: "Daşkov və K$^{0}$" nəşriyyat – ticarət korporasiyası, 2008, s. 739-740.

3. Ölkədaxili bazarın vəziyyəti;
4. Ölkədəki inflyasiyanın səviyyəsi;
5. Ölkənin vergi sistemi;
6. Milli valyuta mübadilə olunduğu xarici ölkə valyutasının vəziyyəti, ona təsir edən amillər;
7. Ölkədə daxili və xarici valyutaya olan tələb və təklif arasındakı nisbət;
8. Ölkənin investisiya siyasəti;
9. Ölkənin xarici ticarət siyasəti;
10. İdxal və ixrac qiymətləri;
11. Aparıcı ölkələrin uçot dərəcələri;
12. Bir çox qeyri-iqtisadi amillər.

Ümumiyyətlə, iqtisadi ensiklopediyalarda və lüğətlərdə göstərilir ki, valyuta siyasəti – pulun alıcılıq qabiliyyətinə, valyuta məzənnəsinə və ölkənin bütövlükdə iqtisadiyyatına təsir etmək məqsədilə, pul tədavülü və valyuta münasibətləri sferasında dövlətlərin və mərkəzi bankların həyata keçirdikləri tədbirlərin məcmusudur.

Valyuta məzənnəsi aşağı və yuxarı həddə qalxa bilər. Professor Tofiq Quliyev göstərir ki, valyuta məzənnəsinin aşağı düşməsi daxili qiymətlərə, pulun alıcılıq qabiliyyətinə əks təsir göstərməklə yanaşı, milli valyutanın özünün qiymətdən düşməsinə gətirib çıxarır[1].

İqtisadi ədəbiyyatda valyuta məzənnələrindəki dəyişikliklərə tədiyyə balansı, alıcılıq qabiliyyəti, monetar siyasətin düzgün aparılması və portfel balansı baxımından yanaşılır.

İnflyasiyanın qarşısını almaq üçün valyuta məzənnəsinin daha elastik olmasına şərait yaratmaq lazımdır. Bunun üçün ölkənin ixrac potensialı inkişaf etməlidir.

Tədiyyə balansı valyuta məzənnəsindəki dəyişikləri açıqlayır. Alıcılıq qabiliyyəti baxımından yanaşma isə ölkənin əv-

---

[1] <f[ : N. Z.Üekbqtd. Byəkqfçbqfyşy fyfnj v bqfçş. <frş.: 2006, ç. 146.

vəlki illərdə mərhələli şəkildə valyuta məzənnələrinin yüksəlməsində maraqlı olduğunu açıqlamağa imkan verir.

Monetarist yanaşma qısa dövrlərdəki valyuta məzənnəsi dəyişmələrinin səbəbini anlamağa imkan verir. Portfel balansı isə inkişaf etmiş ölkələrdə valyuta məzənnəsi dəyişmələrinin açıqlanmasında ən aktual yanaşmadır.

İqtisadi ədəbiyyatda nominal və real valyuta məzənnələrini bir-birindən fərqli şərh edirlər. Məlumdur ki, nominal və real valyuta məzənnələri bir-biri ilə sıx əlaqədədir. Nominal valyuta məzənnəsi dedikdə onu başa düşmək lazımdır ki, hər hansı bir şəxs bir ölkənin valyutasını başqa ölkənin valyutasına, real valyuta məzənnəsi isə, ölkənin əmtəə və xidmətlərini digər bir ölkənin əmtəə və xidmətləri ilə həmin nisbətdə dəyişə bilsin.

Beləliklə, nominal məzənnə iki ölkənin milli valyutalarının mübadilə olunduğu nisbət, real məzənnə isə iki ölkənin əmtəə və xidmətlərinin mübadilə olunduğu nisbi qiymətidir. Əgər nominal məzənnə dəyişirsə və hər dollar daha çox xarici valyuta ala bilirsə, onda dollar dəyər qazanmış yaxud güclənmiş hesab edilir. Əgər nominal məzənnə dəyişərsə və hər bir dollar daha az xarici valyuta alırsa, onda dollar dəyərdən düşmüş yaxud zəifləmiş hesab olunur[1].

Dünyanın əksər ölkəsində valyuta məzənnəsi milli valyutanın dollara və avroya nisbəti ilə müəyyənləşdirilir. Son illəri nəzərə almasaq həmişə dünya pulu vəzifəsini əsasən dollar ifadə edib.

Bəs mütəxəssislər dolların dünya bazarında gələcək aqibətini necə görürlər?

Dollar ABŞ-ın valyutasıdır. Son illərin maliyyə böhranını nəzərə almasaq ABŞ-da makroiqtisadi göstəricilər həmişə normal vəziyyətdə olub. Buna baxmayaraq ABŞ daimi olaraq yüksək tədiyyə balansı və xarici ticarət kəsiri və büdcə defisiti ilə üzləşir.

[1] <f[: Y.Ühtüj hbV zyrqe. Trjyjv brçby zçfçkfhş (Fpzh, fq;fyl bkbyl z). Öfhdfhl Eybdthçbntnb 2004, ç. 685, 686, 694.

Hər hansı bir ölkədə iqtisadi sabitliyi təmin etmək üçün milli valyuta gücləndirilməlidir. Milli valyutanın güclənməsi ixracata mənfi, idxala müsbət təsir göstərir. 2005-ci ildən başlayaraq Azərbaycanda dollar manata nisbətdə kəskin surətdə aşağı düşmüşdür, (sonrakı illərdə bu meyil güclənmişdir). Bu, dolların dünyadakı vəziyyəti ilə əlaqədar olmuşdur. Manat dollara nisbətən möhkəmlənir[1]. Vaxtilə bu hal Rusiya, Türkiyə və İranda baş vermişdir. Lakin dollar bu ölkələrin milli valyutasına nisbətdə daha çox düşmüşdür. Bu illərdə avro ilə bağlı belə vəziyyət qeydə alınmamışdır.

Ümumiyyətlə, dünya ölkələrinə nəzər yetirsək görərik ki, təbii ehtiyatlarla bağlı məhsulları ixrac edən ölkələrdə problemlər mövcuddur. Özü də bu problemlər birbaşa xarici valyutalarla bağlıdır. Milli valyutanın xarici valyutaya nisbətən məzənnəsini Milli Bank müəyyən edir. Milli Bank bunu valyuta birjalarında tələb və təklif arasındakı nisbətə əsasən müəyyən edir.

Daxil olan valyutalar mübadilə nəticəsində ölkənin milli pul vahidi kimi istifadə edilir. Bununla da ölkənin milli valyutası möhkəmlənir. Bu halda milli valyutanı tənzimləmək lazım gəlir. Azərbaycanda bu proses Mərkəzi Bank tərəfindən tənzimlənir. Mərkəzi Bank hələ ki, bütün proseslərə təsir etmək gücündədir. Mərkəzi Bank manatın məzənnəsinin möhkəmləndirilməsi siyasətini həyata keçirir. Bu ona görə mümkündür ki, dünyada

---

[1] Qeyd: manat – "xammal valyutası" olmaqla, son illər Azərbaycanın neftdən əldə etdiyi gəlirlərin səviyyəsinə uyğun möhkəmlənir... Manatın real kursunun neftin qiymətindən asılılığı maraqlı mənzərəni ortaya çıxarır. Belə ki, neft bahalaşanda manatın kursu sürətlə yüksəlir, amma neftin qiyməti aşağı düşəndə manatın ucuzlaşması adekvat sürətdə aşağı düşmür.

2008-ci ildə başlamış qlobal maliyyə böhranının Azərbaycan iqtisadiyyatına, xüsusən də real sektora təsirini minimuma endirmək üçün Dövlət Neft Fondunun vəsaitlərinin bir hissəsinin Azərbaycana gətirilməsi və onun düzgün istifadəsi mexanizminin qurulmasına ehtiyac yaranmışdı. (Bax: Azərbaycanın iqtisadi inkişaf modelləri. İqtisadi Tədqiqatlar Mərkəzi. Bakı – 2009, s.11) .

bütün ölkələr üçün qəbul edilmiş vahid sərbəst dönərli valyuta yoxdur. Ona görə də, dolların və yaxud başqa bir valyutanın Azərbaycan manatına birbaşa təsir etmək imkanı məhduddur.

**Mərkəzi Bank lazım bildiyi vaxt manatın məzənnəsini bahalaşdırmaq və ya sabit saxlamaq imkanına hələ ki, malikdir və bu sahədə bəzi mütəxəssislərin qəbul edib-etməməsindən asılı olmayaraq konkret mexanizmləri var.**

İdxalda və yaxud ixracda inflyasiya mövcud ola bilər. Mərkəzi Bankın 2008-ci ildəki hesablamalarına görə, ölkədə inflyasiyanın təxminən 24-25 faizini idxal malları yaratmışdır. Dünya bazarında xam neftin qiymətinin artırılması istehsal xərclərinə təsir göstərməyə bilməz. Bu halda ölkədə idxal malları bahalaşır. Deməli, idxalda inflyasiya baş verir. İnhisarçılıq və gizli iqtisadiyyatın səviyyəsi inflyasiyanın artımında mühüm əhəmiyyət kəsb edən amildir.

Tədqiqat apardığımız dövrdə dövlət reyestrində 215 inhisarçı şirkətin adı qeydə alınmışdır. Bunlardan 117-si təbii inhisarçıdır, 98-i 35 faizdən artıq bazar payına malikdir. Yəni inflyasiyanın sürətinə uyğun olaraq idxaldakı inhisarçılığın təsir gücünün artacağı daim gözlənilir.

Gizli iqtisadiyyatın səviyyəsi də inflyasiya yaradan amillərdəndir. Ölkədə gizli iqtisadiyyatın səviyyəsi regional göstəricidən 1,5 dəfə, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatına üzv olan ölkələrdə olan orta göstəricidən 3 dəfə yuxarıdır.

İrihəcmli xarici valyutanın ölkəyə daxil olması pul-kredit siyasətində mühüm problemlərin yaranmasına səbəb olur. Ölkəyə xarici valyuta axını mübadilə məzənnəsinin yüksəlməsinə istər-istəməz təsir göstərir.

Azərbaycan Dövlət Statistika Komitəsinin verdiyi məlumata görə, 1997-ci ildə respublikanın milli valyutası olan manat ABŞ dollarına görə mövqeyini möhkəmləndirmişdir. Əgər 1996-cı ildə bir ABŞ dolları orta, hesabla 0,8591 manat idisə, 1997-ci ildə bu rəqəm 0,7974 manat olmuşdur. Beləliklə, manat bir ildə təxminən 7% möhkəmlənmişdir. Sonrakı dövrlərdə

2000-ci ildə 1 ABŞ dolları 0,8948 manat, 2005-ci ildə 0,9460 manat və 2007-ci ildə 1 ABŞ dolları 0,8581 manat, 2008-ci ildə, 0,8216, 2009-cu ildə 0,8037, 2010-cu ildə 0,8026, 2011-ci ildə 0,7897, 2012-ci ildə 0,7856 manat olmuşdur[1].

Təhlil göstərir ki, 2013-cü ildə dolların məzənnəsi qalxmamışdır. (1 dollar 0,7840 – 0,7849 manat arasında dəyişmişdir). Bir avro isə bir manatdan çox cüzi fərqlə baha olmuşdur.

**Hər hansı bir ölkədə valyutanın məzənnəsinin möhkəmlənməsi xarici məhsulların idxalını artırır, yerli məhsulların ixracatını isə çətinləşdirir. Bu isə iqtisadiyyatda mənfi hal kimi qiymətləndirilir. Belə ölkələr inkişaf etmiş ölkələrin xammal bazasına çevrilir.**

Ölkə valyutasının xarici valyutaya nisbətən məzənnəsinin möhkəmlənməsi yerli istehsalçıların ixrac qabiliyyətini istər-istəməz zəiflədir. Belə şəraitdə ölkə daxilində istehsal xərcləri milli valyuta ilə ifadə olunan məhsulların dünya bazarında rəqabət aparmaq imkanlarını məhdudlaşdırır. Çünki dünya bazarında bu məhsulların xarici valyuta ilə qiyməti artmış olur. Digər tərəfdən milli valyutanın xarici valyutaya nisbətən məzənnəsinin möhkəmlənməsi alıcılıq qabiliyyətinin aşağı düşməsinə səbəb olur.

İngiltərə dünyada Mərkəzi Bank anlayışının beşiyi sayılmasına və o dövrdə orada pul bazarının həcminin böyük olmasına baxmayaraq, 1992-ci ilin sentyabrında qeyri-adi əməliyyatların qarşısını almaqda acizlik göstərmişdir. Pul bazarının həc-

---

[1] Bax: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Azərbaycanın xarici ticarəti – 2008. Bakı: 2008, s. 3; Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Azərbaycanın statistik göstəriciləri – 2009. Bakı: 2009, s. 7 ; Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Azərbaycanın Statistik göstəriciləri – 2010. Bakı: 2010, s.9; Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Azərbaycanın Statistika göstəriciləri 2011. Bakı: 2011, s.7; Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Azərbaycanın Statistik göstəriciləri 2013. Bakı: 2013, s. 372.

mi kiçik olan ölkələrdə isə denominasiya ilə bağlı zəruri tədbirlərin görülməsinə daim ehtiyac yaranır.

Hər hansı bir ölkədə milli valyutanın məzənnəsinin yüksəlməsi daxili bazarı genişləndirir. Bu zaman bəzi iş adamları xarici bazara çıxmağa cəhd edir və bu prosesi sürətləndirməyə səy edirlər. Digərləri isə bu prosesdən istifadə edərək müəyyən məhsulları idxal etməkdənsə özləri istehsal etməyə üstünlük verirlər. Nəticədə ölkə iqtisadiyyatının xarici bazardan asılılığı tədricən zəifləyəcək və öz milli məhsullarını istehsal etməkdə maraqlı olacaqlar. Bununla da ölkə əhalisinin həmin məhsullara tələbatı ödənilə bilər.

**Dünya ölkələri valyutalarına qarşı dolların məzənnəsinin artması və yaxud azalması hər hansı bir ölkə üçün nə ilə nəticələnə bilər?** Bu proses birbaşa həmin ölkədə ixrac məhsulundan asılıdır. Başqa sözlə, ixrac edilən məhsulun dünya bazarında qiymətinin aşağı və ya yuxarı olması ölkənin gəlirinin artmasına və ya azalmasına gətirib çıxara bilər. Dolların bahalaşmasının baş verdiyi şəraitdə, əgər ölkənin ixracını təşkil edən əsas məhsulların dünya bazarında qiyməti aşağı düşürsə, həmin ölkənin dollar ifadəsində olan valyuta gəlirləri azalacaq. Lakin belə bir şəraitdə ölkədə dollara tələbat artarsa dolların məzənnəsi yüksələ bilər, yəni dollarla daha çox məhsul almaq imkanı yaranar. Belə olan halda isə həmin ölkənin əhalisi qazanar.

Hansı ölkənin ki, məhsulu dünya bazarında dollara satılır, həmin ölkənin daxili bazarında dolların təklifi tələbindən çoxdur. Belə ölkələrin Mərkəzi Bankları ölkə daxilindəki bazarda öz valyutalarını sataraq dollar təklifini balanslaşdırırlar. Bu halda ölkə valyutasının möhkəmlənməsi ləngiyir. Bəzən belə şəraitdə dünya bazarında əks proses gedir.

Dolların ucuzlaşması üç yolla baş verə bilər:

1. Məcburi
2. Məqsədli
3. Təbii olaraq

Artıq dünya praktikasından məlumdur ki, dolların məcburi və məqsədli ucuzlaşması istər-istəməz milli valyutanın möhkəmləndirilməsi ilə nəticələnir.

Əslində isə belə ucuzlaşma bazar qanunlarını pozur. Dolların məzənnəsinin təbii yolla aşağı düşməsi əslində iqtisadi inkişafda balansın pozulması deməkdir. Bu isə idxalla ixrac arasında kəskin proporsiyanı yaradır.

Hər hansı bir ölkədə dolların ucuzlaşması uzunmüddətli proses ola bilər. Bu da ölkədə valyuta böhranına gətirib çıxaracaqdır. Ümumiyyətlə, valyuta böhranını şərtləndirən cəhətlər aşağıdakılardır:

1. Ölkədə devalvasiyanın həyata keçirilməsi (səbəbindən asılı olmayaraq);
2. Valyuta ehtiyatlarının kəskin şəkildə azalması;
3. Faiz nisbətlərinin qəflətən yüksəlməsi.

Dolların ucuzlaşması ölkə iqtisadiyyatına müsbət və ya mənfi nə vəd edir?

Müsbət cəhətləri aşağıdakılardır:

1. İdxalla məşğul olan sahibkarlar bu prosesdən istifadə edib xaricdən ucuz qiymətə məhsullar ala bilərlər;
2. Kredit götürən sahibkarlar bundan istifadə edib tez bir zamanda borc faizlərini qaytara bilərlər;

Mənfi nəticələr isə aşağıdakılardır:

1. İnflyasiya prosesi baş verir;
2. Əhalinin banklara dollarla qoyduqları vəsaitlər öz dəyərini itirir və onlar ziyana düşürlər. Bununla da əhalinin banklara inamı azalır;
3. İdxalla məşğul olan sahibkarlar bu şəraitdən istifadə edərək qiymətləri qaldıra bilərlər;
4. Təbii ehtiyatlarla zəngin ölkələrdə «Holland sindromu» yarana bilər;
5. Strateji məhsulların dünya bazarında qiymətlərinin kəskin şəkildə qalxması prosesi baş verə bilər.

2006-cı il mayın 10-da ABŞ Mərkəzi Bankının funksiyasını yerinə yetirən Federal Ehtiyat Sistemi[1] dünya birjalarında dolların sürətlə enməsini iqtisadi mənada dolların həcminin artmasını nəzərə alaraq dolların çapının dayandırılması haqqında qərar qəbul etmişdir[2]. Buna görə də dolların dəyəri gözlənilmədən aşağı düşmüşdür. Belə qərar zamanından asılı olmayaraq qəbul edilərsə, onda birbaşa avronun, iyenin, funt sterlinqin və digər dönərli valyutaların dünya ticarətində dəyəri yüksələcəkdir.

Dolların nə zamansa çapı dayandırılarsa, adekvat tədbirlər görülməzsə, bu hal dünya bazarında qiymətlərə ciddi təsir göstərəcəkdir. Tədqiqatımızın yekun mərhələsində (2013-cü ilin sonunda) məlum oldu ki, ABŞ Mərkəzi Bankı (Federal Ehtiyat Sisitemi) 2008-ci il maliyyə böhranından sonra aylıq çap etdiyi 85 milyard dolları 10 milyard azaldacağı və 2014-cü ilin yanvar ayından etibarən ABŞ valyutasının aylıq 75 milyard dollar çap olunacağı ilə bağlı qərar verib.

Artıq ABŞ Mərkəzi Bankı tərəfindən verilən bu açıqlama birjalara ciddi təsir göstərməyə başlayıb. Birjalarada neftin və qızıln bahalaşması müşahidə olunmaqdadır. Bununla bərabər unutmaq lazım deyil ki, dolların çapı dayansa da, dayanmasa da dünyanın inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrində qiymətlər günü-gündən artır. Amerika iqtisadçısı Con Perkins yazır ki, pulu çap etmək imkanı bizə hədsiz güc verir. Bu o deməkdir ki, digərlərindən fərqli olaraq, biz kredit verməkdə davam etməliyik və xeyli borcu yığa (toplaya) bilərik. 2003-cü ilin əvvəlinə ABŞ-ın milli borcu son dərəcə heyrətləndirici rəqəm olan yeddi trilyon dollar həddinə – təxminən hər bir ABŞ

---

[1] Qeyd: ABŞ-ın Federal Ehtiyat Sistemi 1914-cü ildə bir neçə kredit müəssisələrinin 1907-ci ildə baş vermiş müflisləşməsindən sonra yaranmışıdır. Bu hadisələr ABŞ konqresini inandırdı ki, ölkəyə milli bank sisteminin maliyyə sağlamlığını təmin edə biləcək Mərkəzi Bank lazımdır. (Bax: Menkyu N.Q. Ekonomiksin prinsipləri. 2-ci nəşr – "Ali məktəblər üçün dərslik" – seriyası / rus dilindən tərcümə. Bakı: "İqtisad Universiteti" nəşriyyatı, 2009, s. 514).

[2] Bax: "Gündəlik Azərbaycan" qəzeti. 13 may 2006-cı il.

vətəndaşına düşən 24000 dollara çatmalı idi. Bu məbləğin xeyli hissəsini Asiya ölkələrinə, xüsusilə Yaponiya və Çinə borclu kimi verməliyik. Onlar elektronika, kompyuterlər, maşınlar, paltar daxil olmaqla istehlak mallarının satışından alınan pula ABŞ-ın Maliyyə Nazirliyinin qiymətli kağızlarını (istiqrazlarını) Birləşmiş Ştatlarda və dünya bazarında əldə edirlər[1].

Əgər Con Perkinsin ideyası həyata keçərsə onda ABŞ-da və dünyada nə kimi mənzərə baş verə bilər? Bu bir sıra ölkələrin iqtisadiyyatına ciddi zərbə olardı.

Qiymətlərin artması isə əsas strateji məhsulların qiymətinin yüksəlməsindən asılıdır. Məsələn, dünyada neftin, qızılın və s. qiymətinin artması digər məhsullara təsir göstərməyə bilmir.

Ümumiyyətlə, hər hansı bir ölkə valyutasının çapını dayandırarsa, həmin ölkəyə idxal güclənər, ixrac isə azalar.

2006-2013-cü illər ərzində ABŞ dollarının məzənnəsi olduqca aşağı düşdü. 30 il ərzində ilk dəfə olaraq Kanada dollarının məzənnəsi ABŞ dolları ilə bərabərləşdi. Hətta yeni türk lirəsi Amerika dolları ilə müqayisə ediləcək səviyyəyə yüksəldi.

Amerika dollarının dəyərinin aşağı düşməsi ilk dəfə deyil. 1955-1970-ci illərdə Amerika dollarının dəyəri 34% aşağı düşmüşdür. 1971-ci ildən sonra isə tədricən yüksəlmə müşahidə olunmuşdur. Belə ki, dolların dəyəri 1971-ci ildə 4,4%, 1972-ci ildə 3,2%, 1973-cü ildə 4,7% və 1974-cü ildə 9,3% yüksəlmişdir[2].

2008-ci ildə ABŞ dollarının məzənnəsi o dərəcədə aşağı düşdü ki, Amerika rəhbərliyinin düşməni olan sabiq İran prezidenti Mahmud Əhmədinejad dolları dəyərsiz kağız parçası adlandırmış, Venesuelanın sabiq prezidenti Huqo Çaves isə «Sadəcə dollar deyil, ABŞ-da son günlərini yaşayır», söyləmişdir.

[1] Вах: Перкинс Джон. Исповедь экономического убийцы. Предисловие и ред. русского издания д.э.н., проф. Л.Л.Фитуни. М.:Pretext, 2005, s. 279-280

[2] <f[ : Лоран Эрик. Нефть: ложь, тайны, махинации (Эрик Лоран: пер. с фр. Татьяны Ждановой) – М.: СТОЛИЦА – ПРИНТ, 2007, с. 15.

Venesuela neft yataqlarının milliləşməsinin və neftə dair hesablaşmalarda avroya keçidi elan etdi[1].

Hazırda İran, Venesuela və Rusiya neftini satarkən əsasən avro tələb edir. Suriya dövləti də bu illərdə (ölkədə baş verən hadisələrdən əvvəl) bütün ehtiyatlarını avroya çevirməyi qərarlaşdırmışdır. Ucuzlaşdığı ərəfədə hansı ölkə vətəndaşının əlində külli miqdarda ABŞ dolları vardısa, onlar alıcılıq qabiliyyətinə görə çox uduzdular. Dünyada belə ölkələrin sayı isə çoxdur. Məsələn, avropalılar, çinlilər, yaponlar, ərəblər, azərbaycanlılar, ukraynalılar və s. Əgər belə davam edərsə bu ölkələr məcbur olub müəyyən tədbirlər həyata keçirə bilərlər. Onda dollara sarsıdıcı zərbə dəyər. Avropa ölkələri dolların belə ucuzlaşmasının tərəfdarı deyil. Çünki onlar dərk edirlər ki, bu Avropa məkanına da mənfi təsir göstərə bilər. Ona görə də dolların məzənnəsinin yüksəlməsi ilə əlaqədar görülən tədbirlərdə onlar da maraqlıdırlar.

Lakin qeyd etmək lazımdır ki, ABŞ dollarının məzənnəsinin aşağı düşməsinin həm siyasi, həm də iqtisadi səbəbləri var. Siyasi nöqteyi-nəzərdən ABŞ-ın və İsrailin İrana qarşı başlamaq istədikləri hərbi əməliyyatları və İranın nüvə proqramının BMT Təhlükəsizlik Şurasındakı müzakirəsini siyasətçilər səbəb kimi göstərirlər.

İqtisadçılar isə iqtisadi cəhətdən bunu İranın, Rusiyanın, Venesuelanın və Suriyanın nefti satarkən avro tələb etmələri (İraq dövləti də vaxtı ilə bu addımı atmışdır), ABŞ Federal Ehtiyat Sisteminin 2007-ci ilin əvvəlindən uçot dərəcəsini azaltmaq niyyəti, ABŞ-da iqtisadiyyatın kəsiri – ABŞ-da ipoteka və bank sektorundakı problemlərlə və xarici ticarətdə kəsirin artım sürəti ilə əlaqələndirirlər.

Bütün bunların nəticəsidir ki, dünya maliyyə bazarında dollar, avro və iyen arasındakı rəqabət güclənib. Gələcəkdə bun-

[1] <f[ : М.Ершов, В.Лохмачев, В.Татузов, А.Тапасова. Российская экономика: актуальные внешние риски. Российский экономический журнал. 2007. № 7-8. с. 105.

ların hansının üstün olacağını həyat özü göstərəcək. Bəzən isə mütəxəssislər dolların avroya görə dəyərdən düşməsini müxtəlif səbəblərlə əsaslandırmağa çalışırlar.

Avro yeni valyuta növü olmasına baxmayaraq (dünyanın ən gənc pul vahidi olan avro öz başlanğıcını 01 yanvar 1999-cu ildə başlayıb və ilk olaraq 11 Avropa ölkəsi bu məkana daxil olub: Almaniya, Fransa, İtaliya, İspaniya, Portuqaliya, İrlandiya, Avstriya, Finlandiya, Belçika, Lüksemburq və Niderland. 01 yanvar 2002-ci ildən isə bu ölkələrin pul vahidləri avro ilə əvəz olunub[1]) məzənnəsinə görə dolları və digər pul vahidlərini hələ ki, üstələyir.

**Fikrimizcə, ABŞ-ın tarixi keçmişi zəngin, adət-ənənəsi qədim, iqtisadiyyatı günü-gündən inkişaf edən bir ölkədir. Ona görə də Amerika dollarının dəyərdən düşməsi yaxın gələcəkdə özünün əvvəlki dəyərini tapa bilməyəcəyi inandırıcı səslənmir.**

Nəzərə almaq lazımdır ki, inkişaf etməkdə olan ölkələrin milyardlarla xarici borcu Amerika dolları ilədir. Valyuta məzənnəsi isə bazardakı tələb və təkliflər əsasında müəyyən olunur. Lakin bəzən siyasi hakimiyyət bunu süni surətdə tənzimləyə bilir. Yəni ölkədə məzənnənin aşağı düşməsi iqtisadiyyata müsbət təsir edərsə və yaxud hökumətə belə sərf edirsə onda bunu süni yollarla həyata keçirmək mümkündür.

Son dövrlərdə bir çox ölkələr islahatlarının bir növü olan denominasiyadan istifadə etməli olurlar. Bu güclənən inflyasiya proseslərindən irəli gələn nisbətən mülayim pul siyasətidir.

"Denominasiya" terminin iki mənası vardır:

1. İstiqraz, veksel, kupon, sikkələr, kağız pullar və s. nominal dəyəri. Səhmlərə münasibətdə bir sertifikata düşən səhmlərin sayını ifadə edir.
2. Pul – kredit siyasətinin aləti kimi ölkənin pul vahidinin adını dəyişmədən dəyərinin artırılması. Bu alətin məqsədi pul

[1] <f[ : Рэнди Эппинг. Путеводитель по мировой экономике / Пер. с англ. И.М.Макарова. – М.: Междунар. отношения, 2006, с. 17-18.

dövriyyəsinin asanlaşdırılması və pulların dəyərliliyinin yüksəldilməsidir.[1]

Denominasiya pul nişanlarının dəyişdirilməsidir. Bu latın mənşəli söz olub «denominato» deməkdir ki, bu da 10, 100, 1000 və i. a. dəfə azaltmaq mənasını ifadə edir. İqtisadi nəzəriyyə və praktikaya dair qısa ensiklopedik lüğətdə yazıldığı kimi, denominasiya – ölkə pul tədavülünü qaydaya salmaq, uçot və hesablamaları asanlaşdırmaq məqsədilə köhnə pul nişanlarının yeni pul nişanlarına müəyyən edilmiş nisbətdə mübadilə edilməsi yolu ilə milli pul vahidinin iriləşməsidir. Məhz bu nisbətdə əmtəə və xidmətlərin qiymətləri, tariflər, əməkhaqqı, pensiyalar, bank hesablarında pul vəsaitlərinin qalıqları, müəssisə və təşkilatların balansı yenidən hesablanır. Denominasiya nəticəsində, həmçinin pul vahidinin valyuta məzənnəsinin dəyişilməsi baş verir ki, bu da eyni, yaxud digər əmsal üzrə yüksələ bilər[2].

Pul yaranandan əksər ölkələrdə çoxsaylı denominasiya hadisəsi baş vermişdir. İkinci Dünya müharibəsindən sonra dünyanın müxtəlif ölkələri 600 dəfədən çox denominasiya prosesinə məruz qalıb.

Denominasiya prosesi həmişə məqbul iqtisadi islahat sayılmır. İqtisadçıların bəziləri normal iqtisadiyyatı olan ölkələrdə denominasiya prosesini sadə, texniki və bəzən mənasız əməliyyat hesab edirlər. Denominasiya o zaman tam müsbət hadisə sayıla bilər ki, ölkədə hiperinflyasiya baş verir və bunun qarşısını digər iqtisadi islahatlarla almaq mümkün deyildir. İnflyasiyanın digər növlərinin baş verdiyi ölkələrdə isə tələsik olaraq denominasiya əməliyyatlarının aparılması isə mənasızdır, qeyri-məntiqidir.

Denominasiya iki formada baş verə bilər:

---

[1]Bax: Bank – Maliyyə terminlərinin izahlı lüğəti. Bakı. 2011, s.114.

[2] <f[ : Лубнев Ю.П., Кравцова Н.И., Лозовой А.М. Краткий энциклопедический словарь по экономической теории и практике. Ростов. гос. эконом. акад – Ростов н/Д, 1997, с. 72.

1. Dövriyyədə olan bütün pul nişanlarının dəyişdirilməsi yolu ilə;
2. Qismən – bir və ya bir neçə nominalın dəyişdirilməsilə.

Denominasiya prosesi uzun və qısa vaxt ərzində həyata keçirilə bilər. Daha doğrusu:

1. Bir neçə gün və ya bir neçə həftə çəkə bilər;
2. Bir neçə ay və ya bir ilə qədər davam edə bilər;
3. Müddətsiz, yəni bir neçə ili əhatə edə bilər.

Adətən müddətsiz denominasiya prosesi ABŞ iqtisadiyyatına xas olan cəhətdir.

Denominasiya prosesi Rusiya dövlətində və xüsusilə də SSRİ dövründə sanki daimi prosesə çevrilmişdir. Ümumiyyətlə, Rusiya tarixində 1913-cü il qızıl dövr sayılırdı. Çünki o dövrdə rus rublu qızıl standartlarına görə hesablanırdı. Ona görə də rus rublu öz dövründə nüfuzlu valyuta hesab olunurdu. Rusiyada 1914-cü ilin avqustundan başlayaraq kağız pulların qızıla dəyişdirilməsi prosesi dayandırılmışdır. Buna səbəb Birinci Dünya müharibəsinin başlanması olmuşdur ki, rus rublu o dövrdə öz dəyərini tədricən itirməyə başlamışdır.

Sovet hakimiyyəti qurulandan sonra (1917-ci ildə) Rusiyada dövriyyədəki nağd pulun həcmi dəfələrlə yüksəlmişdir. Pul öz dəyərini tamamilə itirməyə başlamışdır. Bunun nəticəsidir ki, SSRİ təşkil edilənə qədər üç il ərzində 1922,1923 və 1924-cü illərdə 3 dəfə denominasiya prosesi həyata keçirilmişdir.

SSRİ sükut edənə qədər isə bir neçə dəfə denominasiya prosesi baş vermişdir:

1. 1947-ci ilin 14 dekabr tarixində. O zaman əhaliyə nağd pullarını dəyişdirmək üçün bir həftə vaxt verilmişdir. Pul nişanlarının dəyişdirilməsi isə 10:1 nisbətində həyata keçirilirdi. İslahat nəticəsində talonlar ləğv edildi. Məhsullar açıq satışa çıxarıldı. Lakin məhsulların qiyməti baha olduğundan bu dövr tarixdə insanların soyulması prosesi kimi yadda qalıb.

2. 1961-ci ilin pul islahatları. Bu islahat Sov.İKP-nin Birinci Katibi N.S.Xruşşovun arzusu ilə həyata keçirilmişdir. Əslində o dövrlər üçün islahata ehtiyac yox idi.

3. 90-cı illərdə SSRİ-də axırıncı denominasiya prosesi baş verdi.

Çexoslovakiyada, Polşada və Rumıniyada İkinci Dünya müharibəsindən sonra pul islahatları həyata keçirilmişdir.

Azərbaycan müstəqillik əldə etdikdən sonra 1992-ci ildə ilk dəfə olaraq milli valyutamız dövriyyəyə buraxılmışdır. Az müddət keçmədi ki, milli valyuta 1000 dəfədən artıq dəyərsizləşdirildi və pul islahatı zərurətə çevrildi. Bunun nəticəsi olaraq 2005-ci ildə denominasiya həyata keçirildi.

Türkiyə və İranda da denominasiya həyata keçirilmişdir. Hər iki ölkədə bu zərurətdən irəli gəlmişdir. Son zamanlar bu ölkələrin kağız pullarını gəzdirmək, hesablamaq olduqca çətinləşmişdi. Onlar köhnəlmiş, əzilmiş və demək olar ki, üstündə yazılanları oxumaq belə mümkünsüz olmuşdu. Bu ölkələrdə pul köçürmələri və hesabatlar aparmaq mürəkkəbləşmişdi.

## 4.5. Pul zaman və məkan prizmasında

Pulun yaranma tarixinə, mahiyyətinə, funksiyalarına nəzər salındıqda onun inkişaf paradoksları müasir dövrdə daha qabarıq formada üzə çıxır.

Riçard Dunkan "Dolların böhranı" kitabında Milton Fridmanın pul haqqındakı fikrini epiqraf kimi verir: "Bir şeyə biz qətiyyətlə əminik: pulun tarixi bundan sonra da onun inkişafını izləyənləri sürprizlərlə üz-üzə qoyacaq. Bu sürprizlər hətta təhlükə anında belə, necə maliyyə nəzəriyyəçisi, eləcə də, öz işini praktiki cəhətdən yaxşı bilən dövlət məmurunun nəzərindən qaçacaq".[1]

---

[1] Riçard Dunkan. Dolların böhranı / rus dilindən tərcümə. Bakı: "İqtisad Universiteti" nəşriyyatı, 2009, s. 303.

Y.A.Vasilçuk sübut etməyə çalışır ki, pul istehlakçının, millətlərin ukladlarının və yaşam tərzinin, onların sinfi və siyasi strukturlarının dəyişməsi amilinə çevrilmişdir. O qeyd edir ki, bu gün bu proseslər daha böyük miqyasda Çində, Hindistanda və "üçüncü dünyanın" digər regionlarında baş verir və bəşəriyyətin ikinci "qızıl milyardını" formalaşdırır. Mübahisə etməyə ehtiyac yoxdur ki, müasir dövrdə də "pul amili" XX əsr insanının inkişafı üçün fundamental əhəmiyyətə malik olan bu prosesləri inkişaf etdirməkdə davam edir. Buna görə bizim üçün daha vacib olan pulların bütün növlərinin başlıca funksiyalarını kollektivlərdə işə, əmək və məişətin yeni formalarının mənimsənilməsinə keçid alan yerin, şəhər əhalisinin formalaşmasına və sivilləşməsinə dəstək kimi müəyyənləşdirmək lazımdır.[1]

**Göründüyü kimi, pulun ilkin inkişafı ilə onun müasir mahiyyəti tam ziddiyyət təşkil etmişdir. Pulun əsil iqtisadi mahiyyəti sanki yox olmuşdur. Pul bütün problemlərin – siyasi, iqtisadi, mənəvi problemlərin həlli mexanizminə çevrilmişdir. Bazar münasibətləri isə buna təkan vermiş və «hər şey» artıq pulla alınıb-satılır. Rüşvət, korrupsiya, yalan, riyakarlıq, yaltaqlıq, ikiüzlülük, vicdansızlıq, şərəfsizlik, insan alveri və s. Bu kimi eybəcərliklər pulun köməyi ilə daha da dərinləşir və insanların qanına «hopur».**

**Elə bir dövr yetişib ki, sanki hamı yalan danışır: ata övladına, övlad atasına, ər arvadına, arvad ərinə, gənclər öz sevgililərinə, idarə, şirkət rəhbərləri öz işçilərinə və i. yalan söyləyir. Yüksək vəzifəlilər böyük yalanlar, kiçiklər isə nisbətən xırda yalanlar danışır. Bütün bunlarda məqsəd sanki pul qazanmaqdır. Yalan danışmaqla haqqı, ədaləti, həqiqəti boğanlar əslində cəmiyyətin inkişafını ləngidir, onun «məcrasını» başqa istiqamətə yönəldir və son nəticədə məhv edirlər.** Fransız dramaturqu Dekursal Anrinin (1837-1898) yazdığı

[1] Вах: Васильчук Ю.А. Социальное развитие человека в XX веке. Фактор денег. // Общественные науки и современность. 2001.№ 4, с.8-9.

kimi, pul həmişə ağıllı adam üçün vasitə, axmaqlar üçün məqsəd olub.

Con Kexo "Pul, uğur və Siz" adlı kitabında pulun insan mənəviyyatı ilə bağlılığı ilə əlaqədar bir sıra suallara cavab verir. Belə ki, pul xoşbəxtliyi satın almağa qadir deyildir — sualına cavabında qeyd edir ki, düzdür, lakin bunu yoxsulluq da edə bilməz. Xoşbəxtlik insanın daxilindən çıxış edir. Bu mənəvi dəyərlərə və amala uyğun gələn özünüdərketmə və özü üçün belə bir həyat tərzi qurmaqdan irəli gəlir.

Sonra o, pul mənəviyyatdan kənar iqtisadi vasitədir− sualına cavabında tarixi köklərə söykənir. Onun fikrincə, bu aşağıdakı Bibliya iqtibasından irəli gəlir: "ya bütün pisliklərin köküdür, ya da gümüşsevərlikdir". Burada söhbət görünür o gümüş sevgisindən gedir ki, bu sevgidə bütün başqa şeylər nəzərə alınmır. Pula sevgi həm də onun özünün və başqalarının rifahı üçün necə istifadə olunmasının başa düşülməməsi halında da ola bilər. Lakin pul rifah və xeyirxahlığın qeyri-ehtimal potensialın enerji formasıdır. Əgər həqiqətən mənəvi baxımdan pul bu dərəcədə pisdirsə onda nə üçün Xristos çar Solomon haqqında bu qədər yüksək fikirdə olmuşdur? Axı məlumdur ki, öz dövründə dünyada ən varlı adam olan çar Solomon haqqında Bibliyada xeyli qeydlər vardır. Beləliklə, aydın olur ki, zənginlik öz-özlüyündə pis şey ola bilməz. Lakin pis olmamaq üçün nə isə başqa şey də lazımdır.[1]

Başqa bir müəllif Yakoves Y.V. pulu – təkcə iqtisadi deyil, həmçinin mənəvi kateqoriya hesab edir. Burada ikisimalı Yanus (yunan mifologiyası qəhrəmanı – kursiv Ş.Q) rolunda çıxış edir. Müsbət aspektdən o insanlar arasında ünsiyyət vasitəsidir. Uşaqlar və qocalar haqqında qayğını və qənaətçiliyi təlqin (tərbiyə) edir, insanların kiçik və böyük kollektivlərə birləşməsi üçün, onların sivilizasiyasının formalaşmasında, mədəniyyətlərinin və iqtisadiyyatlarının çiçəklənməsi üçün stimuldur.

[1] Вах: Джон Кехо. Деньги, успех и Вы. Минск. 2007, с. 50, 52.

(Bu pulun yaxşı cəhətdir – kursiv Ş.Q.). Özünün digər siması ilə bu əzəmətli "Yanus" zorakılıq və istismarın silahına çevrilir, insanları ayırır, onların qəlblərində ikrah hissləri oyadır, onları mənəvi pozuntulara və cinayətlərə sürükləyir.[1]

**İnsanlar pul qazanmaqdan başqa, digər qiymətli şeylərin, dəyərlərin olduğunu sanki unutmuş və amansız bazar dünyasında həqiqətin və ədalətin çıraqla axtarışına çıxıblar. Bu, təkcə ayrı-ayrı insanlara aid deyil, artıq «iri» dövlətlər də bu prosesə qoşulub. Pul «insanlıq», «demokratiya» anlayışlarını arxa plana çəkib.**

**Demokratiya, azadlıq, bərabərlik, ədalət, tərəqqi, ailə, məhəbbət, dostluq və i. dəyərlərə dünyanın indiki gerçəklikləri prizmasından baxa bilsək, bu dəyərlərin ölkənin maliyyə imkanlarından asılı olduğunu etiraf etməliyik.**

**Dünya və bazar iqtisadiyyatı artıq pul iqtisadiyyatıdır. Bu mübahisəsiz belədir. Müasir dövrdə artıq milyarderlər və milyonçular ordusu yaranmışdır. Və bu ordu dünyanı və qeyd etdiyimiz dəyərləri idarə edir. (Aşağıdakı cədvələ bax).**

**Dünya zənginliyinin coğrafiya və statistikası**[2]

| Sıra nömrəsi | Ölkələrin adı | Milyarderlərin sayı | | Ümumi vəsaitləri (milyard dollarla) |
|---|---|---|---|---|
| | | 2011 | 2012 | |
| 1 | 2 | 3 | 4 | 5 |
| 1. | ABŞ | 413 | 425 | 1640 |
| 2. | Rusiya | 101 | 6 | 376,1 |
| 3. | Almaniya | 52 | 55 | 251,1 |

[1] Bax: Яковец Ю.В. Деньги и нравственность: цивилизационный аспект. «Россия как цивилизация денег». Под редакцией проф. Ю.М.Осипова; проф. М.М.Гузева и др. Москва – Волгоград – 2008, с. 43.

[2] Bax: "Forbes" журналı, may, 2012, s. 302-303. Qeyd: Cədvəl jurnaldakı rəqəmlər əsasında tərtib olunmuşdur.

| | | | | |
|---|---|---|---|---|
| 4. | Çin | 115 | 95 | 204,3 |
| 5. | Hindistan | 55 | 48 | 194,6 |
| 6. | Honkonq | 38 | 36 | 159 |
| 7. | Braziliya | 30 | 36 | 151 |
| 8. | Meksika | 11 | 11 | 129,7 |
| 9. | Fransa | 14 | 15 | 122 |
| 10. | Böyük Britaniya | 32 | 36 | 98,6 |
| 11. | Kanada | 24 | 26 | 80,9 |
| 12. | İtaliya | 14 | 16 | 76,5 |
| 13. | İsveç | 10 | 11 | 75.7 |
| 14. | Yaponiya | 26 | 24 | 73,3 |
| 15. | İndoneziya | 14 | 17 | 71,5 |
| 16. | İspaniya | 15 | 16 | 70,9 |
| 17. | Avstraliya | 18 | 17 | 65,9 |
| 18. | Tayvan | 25 | 24 | 61,5 |
| 19. | Səudiyyə Ərəbistanı | 8 | 8 | 51 |
| 20. | Türkiyə | 38 | 34 | 50,7 |
| 21. | Cənubi Koreya | 16 | 20 | 47 |
| 22. | Malayziya | 9 | 9 | 45,3 |
| 23. | İsrail | 16 | 3 | 41,5 |
| 24. | Çili | 4 | 5 | 40,9 |
| 25. | İsveçrə | 9 | 9 | 37,2 |
| 26. | Ukrayna | 8 | 8 | 31,1 |
| 27. | Kolumbiya | 2 | 3 | 23,6 |
| 28. | Avstriya | 5 | 6 | 21,2 |
| 29. | İrlandiya | 5 | 5 | 20,6 |
| 30. | Tailand | 3 | 5 | 20,6 |
| 31. | Filippin | 4 | 6 | 17,8 |
| 32. | CAR | 4 | 4 | 17,7 |
| 33. | Misir | 8 | 7 | 17,2 |
| 34. | Niderland | 6 | 6 | 16,7 |
| 35. | Nigeriya | 2 | 2 | 15,5 |
| 36. | Livan | 6 | 6 | 12,8 |
| 37. | Norveç | 4 | 5 | 12,6 |
| 38. | Kipr | 2 | 2 | 12,3 |
| 39. | Sinqapur | 4 | 5 | 11,6 |
| 40. | Çexiya | 3 | 3 | 11,5 |
| 41. | Yeni Zelandiya | 3 | 3 | 11,3 |
| 42. | Danimarka | 3 | 3 | 11,1 |

| | | | | |
|---|---|---|---|---|
| 43. | Argentina | 2 | 4 | 9,6 |
| 44. | Polşa | 4 | 4 | 8,3 |
| 45. | Yunanıstan | 2 | 3 | 7,9 |
| 46. | Portuqaliya | 3 | 3 | 7,9 |
| 47. | Qazaxıstan | 5 | 3 | 7,8 |
| 48. | Birləşmiş Ərəb Əmirlikləri | 4 | 4 | 7,6 |
| 49. | Venesuela | 2 | 2 | 7,6 |
| 50. | Küveyt | 3 | 5 | 6,8 |
| 51. | Mərakeş | 0 | 3 | 6,8 |
| 52. | Belçika | 3 | 2 | 6,4 |
| 53. | Gürcüstan | 0 | 1 | 6,4 |
| 54. | Monako | 2 | 2 | 4.2 |
| 55. | Peru | 0 | 2 | 4,2 |
| 56. | Finlandiya | 1 | 1 | 2 |
| 57. | Sent-Kitst və Nevis | 0 | 1 | 1,6 |
| 58. | Rumıniya | 2 | 1 | 1,5 |
| 59. | Beliz | 1 | 1 | 1,1 |

Ümumiyyətlə, dünya sərvətinin yarısı 1% əhaliyə məxsusdur. Dünyada yaşayan 3,6 milyard kasıb əhalinin cəmi 1,7 trilyon dolları vardır. Bu qədər də sərvət dünyanın 85 nəfər ən varlı adamının əlindədir.[1]

Sual olunur bu milyarderlərin qarşısında hər hansı bir problem varmı?

Pul, nəinki ayrı-ayrı vətəndaşların, eyni zamanda bütün cəmiyyətin «sivilizasiyalı» azadlıq imkanlarını və onun səviyyəsi arasındakı fərqin müəyyənləşdirilməsi üçün sanki ən dəqiq kəmiyyət ölçüsüdür. **2008-ci ildə Azərbaycandakı prezident seçkiləri ərəfəsində Ermənistan prezidenti Serj Sarkisyan Dağlıq Qarabağ münaqişəsilə bağlı sanki «şok» açıqlama verərək göstərmişdir ki, Azərbaycan Dağlıq Qarabağa investisiya qoymağa çalışsa, o zaman bəlkə oranın Azərbaycanın tərkibində qalmaq perspektivinə münasibətini dəyişər. Əslində, dövrümüz üçün bu heç də «şok» açıqlama deyil, zamanın tə-**

[1] Bax: «Российская газета» 22 январь 2014 г.

**ləbindən irəli gələn fikirdir. «Pul hər şeyi almaq gücünə malikdir» fikrinin bir növ təsdiqidir.**

**Pul, insanları hər şeyi etməyə məcbur edən bir mələk və ya şeytandır, əxlaqla, insanlıqla tərs mütənasibdir.**

**Obyektivlik naminə deyək ki, tarixin bütün dövrlərində pul iqtisadi funksiyalarından başqa, digər «eybəcər» mahiyyətini müasir dövrdəki kimi çılpaqlığı ilə göstərməmişdir.**

1912-ci ildə Paris səfərindən qayıdan Hacı Zeynalabdin Tağıyev «Bakı» qəzetinin müxbirinə belə bir əhvalat danışmışdır.

- Parisdə faytonda gedirdim, qabaqda mənə sağa burulmaq lazımdı. Faytonçu isə sola burulurdu. Mən çətirin ucu ilə onun kürəyinə toxunub dedim: «Sağa dön». Nə olsa yaxşıdır? Faytonçu qəzəblənmiş halda yerə atılıb qollarını ölçə-ölçə qışqırmağa başladı. «Ona nə oldu? - deyə mən mütərcimdən soruşdum». Mütərcim dedi: «O qəzəblənib, deyir ki, nə cəsarətlə siz çətirlə onun kürəyinə toxunursunuz? Bununla onu təhqir etmisiniz».

Mən, oradakı camaata təəccüb qaldım və hər şeyi başa düşdüm… **bizdə əgər pulun, vəzifən varsa istəyirsən lap adamın belinə min sür, dəxli yoxdur, o yenə sənə səcdə eləyəcək. Bizdə də Parisdəki kimi camaat olandan sonra başqa həyat olacaq**.

Bu hadisə hələ XX əsrin əvvəllərinə təsadüf edir. Lakin sanki bugünkü günü əks etdirir.

Göründüyü kimi, hələ bir əsr bundan əvvəl adi fransız faytonçusu öz ləyaqətini pula satmamışdır. Konfutsi yazırdı, ləyaqətli insan zəng kimidir, toxunmasan səs çıxarmaz. Ləyaqət şəxsiyyətin öz-özünə nəzarət etməsinin elə formasıdır ki, fərdin özünə qarşı tələbkarlığı bu formaya əsaslanır. Fərd elə hərəkət etməlidir ki, öz ləyaqətini alçaltmasın. Beləliklə, ləyaqət vicdanla yanaşı insanın cəmiyyət qarşısında borcunu və məsuliyyətini dərk edib başa düşməsinin üsullarından biridir[1]. Ləyaqət haqqında alman filosofu İmmanuel Kantın fikirləri də maraqlı-

---

[1] Bax: Fəlsəfə ensiklopedik lüğəti. Müəllif kollektivi. "Azərbaycan Ensiklopediyası". Nəşriyyat – Poliqrafiya Birliyi. B., 1997, s. 248.

dır: "İnsan üçün qiymətli nədir? Ləyaqət, yoxsa həzz? Ləzzətdə, həzzdə keçən həyatın heç bir qiyməti yoxdur. Öz ləyaqətini qoruyan insan hər şeyi, hətta həyatını itirməyə hazırdır. Ləyaqətin mənbəyi və şərhləri nədir? Bu, insanın özünün özü üzərində yüksəlməsidir, nəfsinə qalib gəlməsidir. İnsan borcunu başa düşərək yaşayır və fəaliyyət göstərir. Deməli, o, həzz xətrinə yaşamır." Azərbaycan dilinin izahlı lüğətində yazılıb: "Ləyaqət insanda yüksək mənəvi keyfiyyətləri göstərən xassələrin məcmusu, həmçinin bu xassələrin dəyərini dərk edən şəxsin özünə qarşı duyduğu ehtiram hissidir.[1]"

**Bütün tarixi dövrlərdəki klassiklərin əsərlərini nəzərdən keçirəndə görmək olar ki, hər mərhələnin özünəməxsus xüsusiyyətləri olub. Lakin, heç bir zaman pul bugünkü kimi fetişləşməyib, ilahiləşməyib. Sanki müasir dövrdə pul «ilahi» bir qüvvəyə çevrilib.**

Tədqiqatımızın məqsədi heç də bütün dövrləri təhlil etmək deyil, qoyduğumuz problemlə bağlı bəzi məsələlərin ayrı-ayrılıqda şərhinin və ümumiləşmələrin aparılmasıdır.

**Cəmiyyət yaranandan insanla bağlı bütün möcüzələri insanın özü yaradır. İnsan bəzən acizləşir, yaratdığı möcüzələrin quluna çevrilir. Öz yaratdığının qarşısını almaqda çətinlik çəkir və ümumiyyətlə buna nail ola bilmir.** SSRİ xalq rəssamı Mikayıl Abdullayev İtaliya səfərindən sonra yazdığı xatirələrində söyləyir ki, nəhayət, «San-Pyetro in Vinkoli» - yəni «Müqəddəs Pyotr zəncirdə» kilsəsinə gedib. Mikelancelonun mərmər «Musa»sını gördük. Nə deyim, bu dahilər dahisinin qüdrəti yerə-göyə sığmır. Mikelancelo «Musa»sının haqqında mən nə deyə bilərəm. Mənim tərifimə onun zərrə qədər ehtiyacı yoxdur. Kilsə xidmətçisi bizə yaxınlaşaraq Musanın dizindəki çəkicin yerini (zədəsini) göstərir və onun «macərasını» danışmaq istəyir. Biz gülümsünürük. O, tez bilir ki, rəssamıq və sözünü saxlayır. Dahi

---

[1]. Bax: Azərbaycan dilinin izahlı lüğəti. III cild. "Elm" nəşriyyatı. Bakı – 1983, s. 232.

usta böyük mərmər parçasını yonaraq, onu Musaya döndərir və özü də yorulub əldən düşür. Musa o qədər canlıdır ki, az qalır nəfəs alsın. Yorğunluqdan əsəbiləşmiş Mikelancelo əlindəki mərməryonanı heykəlin dizinə çırparaq qışqırır ki: «Dillən, ey Musa». Musanın dizindəki həmin zədədir[1].

Bədii əsərlərdə insan obrazı bütün cizgiləri ilə verilir. İnsana məxsus keyfiyyətlər müxtəlif obrazlarda canlandırılır. Ədalət naminə deyək ki, keçmişdə və hətta Sovet dövründə insan öz mənliyini, mənəviyyatını, bir sözlə, insana məxsus müsbət keyfiyyətlərin qorunub saxlanmasına çox zaman nail ola bilməyib. Sovet dövrünün ilk illərindəki kimi kütləvi yox, sonrakı inkişaf mərhələlərində bəzi insanlara «bolşevikdir» deyərdilər. Bu söz hərfi mənada deyil, saf, təmiz, obyektiv, prinsipial insana məxsus bütün müsbət keyfiyyətləri özündə saxlayan mənasında başa düşülürdü.

A.A.Mazaraki monoqrafiyasında yazır ki, müasir sosiologiya tərəfindən təqdim edilən nümunə diqqətəlayiqdir: orta amerikalının söhbətlərinin təxminən 90%-i pulla bağlıdır: pula necə sahib olmaq olar və onu nəyə sərf etmək lazımdır. Dünyanın bütün digər maraq və hadisələri yerdə qalan 10%-in payına düşür. Onun (orta amerikalının) ləyaqəti də iqtisadi yolla müəyyən olunur: “Bu insanın dəyəri nə qədərdir”.

.... Pul insanı ovsunlayır. İnsanlar ona görə əzablara qatlaşır, onun üçün zəhmət çəkirlər. Onlar pulu əldə etmək üçün ən mahir üsullar düşünüb tapır və qazandıqları pulları sərf etmək üçün də bir o qədər də məharətli üsullar fikirləşirlər. Pul – yeganə əmtəədir ki, ondan istifadə etməyin yalnız bir yolu var, o da ki, ondan azad olmaqdır.[2]

**Bütün dövrlərdə cəmiyyəti pozan, onun mənəviyyatını korlayan, şikəst eləyən pul olmuşdur.** K.Marks öz yaradıcılı-

---

[1] <f[: V .F, l ekkf qtd. Bf kbqf [f mbzkzhb <f rş.: 1958, ç. 196.

[2] Bax: Mazaraki A.A. Ticarət. Pul. Mentalitet. Bakı: “İqtisad Universiteti” Nəşriyyatı. Monoqrafiya (rus dilindən tərcümə). 2010, s. 357, 359.

ğında Şekspir, Sofokl və Hötenin əsərlərindən misallar gətirir və onların pulun mahiyyətini öz dövrləri üçün dərindən dərk etdiyini göstərir. Özü isə zəmanəsini belə təsvir edir: **«Mən eybəcərəm, ancaq mən ən gözəl qadını satın ala bilərəm. Deməli, mən eybəcər deyiləm, çünki eybəcərliyin təsiri, onun qorxuducu qüvvəsi pulla heçə endirilmişdir. Qoy mən – öz şəxsiyyətimə görə – çolaq olum, ancaq pul məni 24 ayaqlı edir; deməli, mən çolaq deyiləm. Mən pis, şərəfsiz, vicdansız və kütbaş bir adamam, lakin pulun hörməti vardır, deməli, pulun sahibinin də hörməti vardır. Pul yüksək xoşbəxtlikdir, deməli, onun sahibi də gözəldir»[1].**

ABŞ-ın prezidenti Con Kennedi öldürüldükdən beş ay sonra dul qalan gözəl və şux arvadı Jaklin özündən 22 yaş böyük olan yunan milyarderi Aristotel Onassisə ərə getdi. Bu nikaha qədər bu varlı adam öz həmvətəni, məşhur opera müğənnisi Mariya Kallasa məşuqluq etmişdi.

M.Ə.Sabir yazır:

Nuri çeşmanımmısan, ey pul, ya canımmısan?
İsmətim, namusum, irsim, qeyrətim, qanımmısan?
Hörmətim, fəxrim, cəlalım, şöhrətim, şanımmısan?
Müshəfim, Məkkəm, Mədinəm, qibləm, ərkanımmısan?
Məzhəbim, dinimmi, ayinimmi, imanımmısan?[2]

Bu misralar öz əhəmiyyətini bu gün də itirməyib və əksinə cəmiyyətin bütün sahələrində dərinləşib.

Öz dövründə haqqı, ədaləti həmişə müdafiə edən filosof Asif Əfəndiyev yazırdı: “Pulun qarşısında insan titrəyirmiş, pulun hicranı ilə saralıb solarmış, pulun vüsalı sonsuz fərəh gətirərmiş. Pulun başını sığallayıb, üzündən öpərmişlər. Pul gözlərə işıq, dizlərə taqət verərmiş. Pul gözlərin işığını, dizlərin taqətini alarmış”[3]

---

[1] <f[ : R.V fhr ç dz Ə.Ty`t kç. Bkr zçzhkzhl zy. L . dkznÇbqf çbZl z, bqqf nş Yzıhbqqf nş. V .: 1956, ç. 618.
[2] <f[ : V .Z.Çf , bh, F .Çzöözn Çtxbkv b zçzhkzhb L wyqf E ıfü Zl z, bqqf nş r bnf , [ f yf çş. ( ; bkl . <f r ş.: " zy; kbr . 1984, ç. 8.
[3] Bax: Asif Əfəndiyev. “Ulduz” jurnalı. 1969-cu il, № 2.

Mark Tven pulun hər şeyin əvvəli, hər şeyin əsası olması, başqalarını qul və aclıq içində saxlamaq kimi bir qüdrətə malik olması və bunun tərəfdarları olan mövcud qayda-qanun, bu cəmiyyətdə yaşayan ən gözəl insanı belə eybəcərləşdirir və qeyri-humanist hərəkətlər etməyə məcbur edir. Sədi demişkən, **pulu olan güclüdür.** Çin məsəlində isə deyilir ki, **pul olmasaydı, dünyada bu qədər fəlakət də olmazdı.**

Tarixin müəyyən dövrlərində bəzi ölkə başçılarının iradəsindən asılı olaraq pul tam siyasi hakimiyyətə tabe etdirilmişdir. Siyasi hakimiyyətə qarşı çıxmağa heç kəs cürət edə bilməzdi. Var-dövlət sahibi olan insanlar hakimiyyətin istəyindən asılı olaraq cah-cəlalla yaşayır, villalar tikdirir, ailə üzvləri ən bahalı maşınlarda gəzirlər. Belə ölkələrdə siyasi hakimiyyət ona görə bu şəraiti yaradır ki, korrupsiya yolu ilə qazanan insanlar birbaşa onlardan asılı olsun. **Korrupsiya nəticəsində yığılan pullar hökmən istər-istəməz müxtəlif istiqamətlərə xərclənməlidir. Əks təqdirdə külli miqdarda pul artıqlığı yaranır. Bu isə gələcəkdə hakimiyyətə meydan oxumağa imkan yaradır. Pulun kökündə hakimiyyət, mənsəbpərəstlik iradəsi durur.** Bu tarixən belə olub.

Vaxtilə N.Nərimanov yaxşı başa düşürdü ki, ədalətsiz quruluşlarda pul hər şeyi həll edir, minlərlə, milyonlarla təmiz adamların əxlaqını, mənəviyyatını pozur, əqidəsini əlindən alır. Bu cəmiyyətdə hər şey, hətta azadlıq, «hürriyyət»də puldan asılıdır. Pulun gücü ilə hər şeyi satın almaq mümkündür. Hər şeyə, hətta madonnalara «yüzlüklərdən yorğan qayıranlar» min bir cinayət törədir və pulun gücü ilə də ona haqq qazandırırlar. O, pul ilə iş görən mühərrirləri ifşa edib bir vəkilin – advokatın dili ilə 1906-cı ildə yazırdı: «Mən əqidəmi pula satmayacağam. Qoy nə olursa-olsun, qızım, oğlum, o balaca balalarım aclıq çəksinlər, qoy mən məramıma yetişməyim… Ancaq tutduğum yoldan, etdiyim fikirdən əl çəkməyəcəyəm. Elə bu günlərdə açıq meydana çıxıb öz rəyimi söyləyəcəyəm, bacaracağam. Eşidən eşitsin, eşitmək istəməyən qulaqlarını bərk-bərk tutsun… Mən bunu anlamışam ki,

hürriyyət olmayınca bizim millət ayılmayacaqdır. Mən açıq-aşkar deyirəm, hürriyyətə zidd olan millətinə, Vətəninə ziddir»[1].

Bəli, N.Nərimanov bunları ədalətsiz quruluşda — 1906-cı ildə demişdir.

**Lakin bütün dövrlərin təhlili göstərir ki, pulun yaranmasından bu günə qədər ona əyilməyən, həyatını onda görməyən insanlar çox olub. Belələri əzab-əziyyət çəksələr də vüqarlı olmağı üstün tutublar.** Şair Süleyman Rüstəm «Mən varlıyam, sən yoxsul» şeirində dediyi kimi:

İnsana ta qədimdən zinət olub ömürlük -
Şöhrət olub ömürlük
Namus, qeyrət, həqiqət,
Təmiz vicdan, məhəbbət.
Ey məclislər başında vardan söz açan adam,
Ciblərindəki cansız yardan söz açan adam.
Dilin pul, nəfəsin pul,
Eşqin pul, həvəsin pul.
Sözündən pul tökülür,
Gözündən pul tökülür.

Piylənmiş əndamında tərin də puldur sənin,
Dərin də puldur sənin.
Sağda pul asqırırsan, solda pul asqırırsan,
Yolda pul asqırırsan.

Görürəm, qazancını düzdən-düz xərcləyirsən,
Aylığın yüz manatdan – gündə yüz xərcləyirsən.
Məclislərdə şairi kinayəli süzürsən,
Şeiri alqışlananda yaman dodaq büzürsən.
Baxıb sənə, gülürəm,
Mən çox gözəl bilirəm –
Yoxdur zərrə hörmətin,

[1] <f[: Y.Yzhbv fyj d. Çtxbkv b zçzhkzhb <frş.: 1973, ç. 342.

El içində şöhrətin.
Bu yerdə ən abırlı şəxsiyyət səncə, sənsən,
Dünyanın ən yoxsulu, şübhəsiz, məncə, sənsən.
Heç vaxt hörmət sahibi ola bilməyəcəksən,
Namus, qeyrət sahibi ola bilməyəcəksən.
Çünki çölə atılmır mənim bu saydıqlarım,
Mağazada satılmır mənim bu saydıqlarım.
Mənim bu saydıqlarım cibə-filana sığmaz,
Yox, yox ümmana sığmaz.
Dünyanın bu varından sən məhrumsan ömürlük,
Ömürlük baharından sən məhrumsan ömürlük.
Atalar əcəb deyib, ömrə bəzək deyil pul.
Xoşbəxtlər xoşbəxtiyəm - mən varlıyam,
sən yoxsul.[1]

Nobel mükafatlarının verilməsi tarixinə nəzər salsaq görərik ki, cəmi iki nəfər bu mükafatdan imtina edib. Fikir tarixində xüsusi yeri olan Jan-Pol Sartr və «Doktor Jivaqo»ya görə Boris Pasternak. Jan-Pol Sartr bunu siyasi səbəblərdən, Boris Pasternak isə hökumətin tələbi ilə bu mükafatdan imtina ediblər.

Alfred Nobelin vəsiyyətinə görə riyaziyyatçılara Nobel mükafatı vermirlər.

Beynəlxalq səviyyədə Filds mükafatı var ki, onu «riyaziyyatın Nobel mükafatı» sayırlar. Bu mükafatı ispan kralı təqdim edir. Mükafatın məbləği 1 milyon dollar və qızıl medaldır.

2006-cı ildə bu mükafatı 40 yaşlı rus riyaziyyatçısı Qriqori Perelmana təqdim edərkən o bu mərasimə qatılmamışdır. Qriqori Perelman 100 il ərzində heç kimin həll edə bilmədiyi Anri Puankarenin qoyub getdiyi hipotezin sübutunu tapmışdır. Puankarenin adı Fransa tarixinə qızıl hərflərlə yazılıb, bir də qardaşının baş nazir olması ilə tanınıb.

[1] Bax: Süleyman Rüstəm. Seçilmiş əsərləri. 6 cilddə. I cild, B; Yazıçı, 1983, s. 463-464.

100 ildən çoxdur Puankare hipotezi həll olunmamışdır. Onu həll edən Qriqori Perelman bu işi pul naminə deyil, elm xatirinə etdiyini sübut edərək mərasimə qatılmamışdı.

Perelman məşhur adam olmamışdır. O, Sankt-Peterburq-da Riyaziyyat İnstitutunda işləyib. Mükafat aldığı dövrdə oranı da tərk edib. Rəsmi olaraq işsizdir. Nə ilə məşğul olduğu bəlli deyil. Maddi cəhətdən olduqca aşağı səviyyədə yaşayır. Lakin o, 1 milyon dollardan imtina etdi.

Bu, yəqin ki, Sovet təhsil sisteminin nəticəsidir. Bazar münasibətləri şəraitində başa düşülən deyil.

Belə misalları çox çəkmək olar. İngilis məsəlində deyildiyi kimi, **pul və elm heç vaxt dost olmaz. Müasir dövrdə isə mənəviyyatın pul üzərindəki qələbəsi çətin məsələdir.**

Amerika alimləri uzun müddət sosioloji tədqiqatlar apararaq belə nəticə çıxarmışlar ki, **pulun çoxluğu heç də insanları xoşbəxt etmir. Onlar sevincin, hissin və bu kimi müsbət emosiyaların pulla yox, başqa amillərlə bağlı olduğunu söyləmişlər. Bu hisslər daha çox insanın müstəqilliyi və ətrafda özünə qarşı hiss etdiyi hörmətdə görünür. İnsanın ürəyincə olan iş yerinin olması və çevrəsindəki insanların müsbət emosiyası insanı daha xoşbəxt edir, nəinki pul.**

Sokrat öz-özünə tez-tez suallar verir və özü də cavablandırırdı: «Ey Allah! Nə üçün doyunca yeyən adam yenə də yeməkdə davam edir! Nə üçün keflənənə qədər içən adam yenə də içməkdə davam edir! Nə üçün qumarda çoxlu pul udan adam bununla kifayətlənmir, həmin pulları yenidən qumara qoyur! Nə üçün şöhrətə çatmış adam daha artıq şöhrət arzulayır! Nə üçün hakimiyyətin bir pilləsinə qədəm qoyan adam növbəti pilləyə qalxmağa can atır? Nə üçün hədsiz xəzinə toplamış adam bununla kifayətlənmir, xəzinə yığmaqda davam edir!».

Sokrat suallara belə cavab vermişdir: «Necə ki, xeyirxahlıq törədən adam ölənə kimi onu davam etdirir: necə ki, incəsənətdə gözəllik yaradan adam onunla kifayətlənməyib yenə yaratmaqda davam edir: necə ki, həqiqətə xidmət edən adam on-

dan ötrü əzab-əziyyətlərə dözür və ölümə gedir; ona görə ki, ey Sokrat, haqqında düşündüklərinin hamısı bəşər ehtirasları, hərislikləridir!».

Pulun bütün yuxarıda göstərdiyimiz xüsusiyyətlərini nəzərə alsaq fəlsəfə elmləri doktoru, professor N.N.Zarubinanın aşağıdakı fikirləri ilə tam razılaşmaq olar. O yazır ki, **pul artıq çoxdan iqtisadi sferadan çıxmışdır: müxtəlif istiqamətli dini və fəlsəfi fikirlərin, mənəviyyatdan dəm vuranların və siyasətçilərin, ideoloqların və bədii yaradıcılıqla məşğul olanların mühakimə predmeti olmaqla bir mifə çevrilmişdir....**

Müəllif sonra pul haqqında yazır ki, pul ona xas olan bütün cəhətlərinə görə: relyativizm, irrasionallıq, ekletlik (ziddiyyətlik) və s. əlamətlərinə görə postmodernist səciyyə daşıyır. Bu həm də müəllifin göstərdiyi kimi maliyyə sahəsində davranış strategiyasının xüsusi tipini formalaşdırır.[1]

**XX əsrin ortalarından başlayaraq pul təkcə iqtisadi vəzifələri deyil, digər başqa: rüşvət, korrupsiya və şapka kimi "funksiyaları" da yerinə yetirməyə başlayıb.**

[1] Bax: Н.Н.Зарубина. О мифологии денег в Российской культуре. Социологические исследования" .Журнал. 2007, N3 (275), s. 43.

# V FƏSİL

# PUL MÜASİR AİLƏ MÜNASİBƏTLƏRİNDƏ

## 5.1. Dünya ölkələrində ailə probleminin genetik-tarixi kökləri və müasirlik

Müasir ekonomiksə görə iqtisadi dövriyyə modelinin bir subyekti ev təsərrüfatı, ailədir. Bu ümumi təsnifatdır. Ev təsərrüfatı, ailə özlüyündə insan faktorunu səciyyələndirir. Həm də ümumi şəkildə deyil, yaş, cins, milli mənsubiyyətini nəzərə almaqla ailənin iqtisadi təbiətini müəyyən edir. Milli iqtisadiyyat anlayışında milli bazar, ümumi milli məhsul, milli valyuta, milli mənafelər kateqoriyaları kimi milli ailə ifadəsinin də yeri vardır. Ailə özlüyündə ümumi anlayışdır və bir hadisə kimi kişi, qadın, uşaq, məşğulluğu olan və məşğulluğu olmayan insanların iqtisadi davranışlarını təcəssüm edir. Bu davranışlar da heç də həmişə üst-üstə düşmür və ya oxşar olmurlar. Müəyyən demoqrafik amillərdən irəli gələn fərqlər mövcuddur ki, bunların cəmiyyətin iqtisadi həyatında nəzərə alınması vacibdir. Bununla əlaqədar heç də təsadüfi deyildir ki, insan yaranandan xalqların tarixi inkişaf xüsusiyyətlərindən asılı olaraq ailəyə, qadınlara münasibət müxtəlif olub. Hər bir millətin adət-ənənəsinə, keçmişinə, iqtisadi inkişafına, qanunlarına uyğun olaraq qadınlara necə münasibət göstərmələri, onların ailədə və cəmiyyətdə mövqeyi, yeri, rolu, ictimai-siyasi hadisələrə təsir dairəsi mühüm əhəmiyyət kəsb etmişdir.

Ümumiyyətlə, bu problemin özü çox təzadlıdır, ziddiyyətlidir və həm də mücərrəddir. Bu səbəbdəndir ki, görünür ailə problemi ən az tədqiqata cəlb edilən sahədir. Müasir elmi tədqiqatların nəticələri göstərir ki, qadın və kişi beyinləri hardasa fərqlidir, deməli, onların düşüncə tərzi də müxtəlifdir. Bəzi tədqiqatçılar, hətta kişi və qadınların ayrı-ayrı varlıq olduqlarını sübuta yetiriblər, yəni kişi beyni və qadın beyni bir-birindən fərqlənir.

Türk dünyasının məşhur yazıçısı Rəşad Nuri Güntəkin "Çalı quşu" əsərində yazır: "Kişilərin çoxu həddindən artıq pis, həddindən artıq zalımdır, - buna şübhə ola bilməz. Qadınların isə hamısı yaxşı, hamısı məzlumdur... – buna da şübhə ola bilməz. Amma kişilərin yalnız ürəyi və beyni ilə yaşayan lap az, ən az bir qismi var ki, onlarda olan könül təmizliyini qadınlarda tapmaq mümkün deyildir."

Digər bir tərəfdən, tədqiqatlar göstərir ki, kişilərin beyni qadınların beynindən 200 qram ağırdır. Kişilər qadınlardan daha az depressiyaya düşürlər, qadınların sözünü kəsməkdən çəkinmirlər, lakin qadınlara nisbətən daha dözümsüzdürlər.

Qadınlar daha həssas, istiqanlı və hissiyyatlı olurlar. Kişilər üçün isə əksinə, emosional sabitlik, dominantlıq, qaydaları dərketmə və ayıq-sayıqlıq daha xarakterikdir.

Qadınlarda kişilərə nisbətən sevginin ömrü daha uzundur. İngiltərənin Oksford, **ABŞ-ın Northiestern universitetlərinin apardığı araşdırmalarda qadınlarda sevgi hissinin 14 il, kişilərdə isə 7 il olduğu müəyyənləşdirilib. Meksika Universiteti alimlərinin apardığı tədqiqata görə isə ümumiyyətlə sevginin ömrü dörd ildir. Sevgi beyindəki müəyyən kimyəvi maddələrin aktivləşməsi ilə başlayır və bu maddənin ehtiyatı tükənəndə bitir. Bu kimyəvi maddənin mövcudluq müddəti isə 4 ildir.**

Kişi və qadın beyninin maqnit rezonans tomoqrafiyası təhlil edilərkən tədqiqatçılar belə qənaətə gəliblər ki, onlar eyni məsələyə müxtəlif səpkidən yanaşırlar. Sanki tamamilə başqa mövqedən çıxış edirlər. Belə ki, eyni məsələ qadın və kişi beyinlərinin müxtəlif sahələrində götür-qoy edilir və nəticə çıxarılır. Əslinə baxanda bu yenilikdir. Buna səbəb, psixi pozuntuların müalicəsində, eyni məsələyə onların müxtəlif reaksiyalarının, yeni metodların meydana çıxması olmuşdur.

**Kişi və qadınlar yumor hissinə, düşünmə qabiliyyətinin səviyyəsinə görə də bir-birindən fərqlənirlər. Görünür bunun nəticəsidir ki, kişilər özgələrinin sirrini daha yaxşı saxlayırlar, nəinki öz sirlərini. Qadınlar isə əksinə. 2011-ci**

**ildə Fransada aparılan araşdırmanın nəticələrinə görə qadınlar onlara açılmış sirri ən uzağı 15 dəqiqə saxlaya bilirlər. Özü də bu sirləri ilk olaraq əri, ən yaxın rəfiqəsi və anasına söyləyir.** Fransızlardan fərqli olaraq amerikalı psixoloqlar müəyyənləşdiriblər ki, qadınlar sirri 47 saat 15 dəqiqədən artıq saxlaya bilmirlər. Onlar bunun səbəbini qadınların eqosunda görürlər. Qadınlar hər hansı bir məsələ ilə bağlı məlumata sahib olduqları üçün həmişə fəxr edirlər, sevinir və qurur duyurlar. Bununla onlar sanki kişilərdən daha güclü olduqlarını sübut etməyə və öz eqolarını doyuzdurmağa çalışırlar. Amerikalı psixoloqlar qadınların bu cəhətlərinə görə özləri ilə mübarizə apardıqlarını, lakin nəticənin hər zaman öz ziyanlarına olduğunu qeyd edirlər. **Qadınların bir-birinə baxıb keçirdiyi həsəd hissi ən ehtiraslı kişinin keçirdiyi ehtiras hissindən daha güclü, daha dəhşətlidir.**

Qadınların orta ömrü kişilərə nisbətən çoxdur. Qadınların orta ömrü 83,3, kişilərinki isə 77,4 ildir. İqtisadi ədəbiyyatlarda göstərildiyi kimi, proqnozlara görə 2050-ci ildə insanların ömrü daha uzun olacaq. O zaman qadınlar orta hesabla 88,9, kişilər isə 83,6 il yaşayacaqlar.

Yeni Zelandiya tədqiqatçıları belə nəticəyə gəliblər ki, qadınların yaşı artdıqca onlar emosiya və hissləri adekvat qəbul edə bilmir. Onlar hisslərini ifadə etməkdə, səhvini boynuna almaqda ciddi çətinlik çəkirlər. Bu da onlara münasibəti çətinləşdirir. Qadınlar ətrafdakıların münasibətini düzgün anlaya bilmir və ciddi neqativ nəticələrə gətirib çıxarır.

Proqnozu əsaslandıran səbəblər hansılardır? Nə üçün qadınlar kişilərə nisbətən çox yaşayır? Yapon alimlərinin fikrincə, bunun səbəbi kişilərin orqanizmində onlara çox yaşamağa imkan verməyən gen aşkar olunub. **Ona görə də qadınlar kişilərlə müqayisədə əsəbiliyə qarşı daha dözümlü və səbirli olurlar. Eyni zamanda qadınlar kişilər qədər ağır fiziki işlərdə çalışmırlar. Tədqiqatlara görə, qadınlar dəmir kimi möhkəm olmaqla yanaşı, mülayim xarakterə malikdirlər.**

**Sanki qadınlar həyatın əzab-əziyyətləri qarşısında sınmır. Onlar, müharibələrə, zorakılığa, təbii fəlakətlərə, bir sözlə, həyatın çətinlikləri qarşısında kişilərdən daha sakit və dözümlü olurlar. Lakin kişilərdən fərqli olaraq, qadınlar həkimə getməyə daha meyillidirlər.** Bununla da hər hansı xəstəliyin qarşısını vaxtında almaq mümkün olur. **Bütün bunlara baxmayaraq deyirlər ki, əgər qadının heç yeri ağrımırsa, deməli, başı ağrıyır.**

Qadınlar anadır. Dünyaya övlad gətirib, onun tərbiyəsi ilə məşğul olur. **Onlar düşündüklərini, hiss etdiklərini demək qabiliyyətinə malikdirlər. Qadınların qoxu bilmə duyğusu güclüdür. Onların qulağı kişilərin qulağından daha yaxşı eşidir. Qadınlar mübahisə etməyi daha çox sevirlər. Onlar pul yığmağı kişilərdən yaxşı bacarırlar. Bütün qadınlar cavabını dəqiq bilmədiyimiz mövzuda sual verməkdə ustadır. Məqsədləri sizin özünüzü günahkar hiss etmənizdir. Qadınlar tez-tez ağlamağı sevirlər, amma adətən tək olanda yox sevdiyi insan onu eşidə biləcəksə, onda ağlayırlar. Buna baxmayaraq, mütəxəssislərin qeyd etdiyi kimi göz yaşları insanın daxilindəki aqressiyanı, kini, qəzəbi, bir sözlə, bütün mənfi yükü boşaldır. Bu isə yüngüllük, həyat enerjisinin artması deməkdir. Digər tərəfdən psixoloqların və tibb elminin qənaətinə görə göz yaşlarında elə maddələr var ki, o zərərlidir, insan orqanizmindən kənarlaşmalıdır. Məhz qadınların kişilərə nisbətən uzunömürlülüyünün bir sirri də budur.**

Akademik Azad Mirzəcanzadə yazır: «Qadın məntiqi məsələsi tədqiqatçıların nəzərini çoxdan cəlb etmiş və yalnız yaxınlarda bilmişlər ki, qadınların davranışındakı hallar genlə anadangəlmə xüsusiyyətlərdir. Hər bir kişinin 23 cüt xromosomunun bir cütündə həm $X$ xromosomu, həm də $Y$ xromosomu var. Qadınların hüceyrəsində isə $Y$ xromosomu əvəzinə, üstəlik bir dənə də $X$ xromosomu var. $X$

xromosomu $Y$ xromosomundan çox olduğundan qadınlarda nəsli keçid, nəsli ünsürlər kişilərinkinə nisbətən çox olur. Qadının orqanizmi inkişaf etdikcə $X$ xromosomlarından biri sadəcə olaraq fəaliyyətdən düşür. Bu hal orqanizmin çoxhüceyrəli olduğu və müxtəlif hüceyrədə cürbəcür $X$ xromosomun (bəzilərində – atadan alınmış, bəzilərində isə anadan alınmış xromosomlar) fəaliyyətdən düşdüyü mərhələdə baş verir. Deyilənlər qadınların orqanizmində daha çox rəngarənglik yaradır ki, beyin üçün də səciyyəvidir.

Bu xüsusiyyət mürəkkəb məişət vəziyyətlərində qadının rəftarını müəyyənləşdirir; iki mümkün qərardan təsadüfən bəyənilmiş birini qəbul etməyi tələb edir, bununla yanaşı, çox vaxt qadın məntiqi kişininkinə üstün gəlir»[1].

Digər bir əsərində akademik rus ədəbiyyatşünası akademik D.S.Lixaçovdan misal çəkir: "**Ancaq ağıllı qadın başa düşür**: nə etmək lazımdır ki, təbiətin ona verdiyi səlahiyyəti həmişə və minnətdarlıqla kişidən qəbul edərkən, kişini, onun üstünlüyünə güzəştə mümkün qədər az məcbur etsin. Lakin bu, olduqca çətindir. Ona görə də təbiət özü çalışıb ki, kişidən fərqli olaraq, qadın, davranışında (mən istisnaları nəzərə almıram) yüksək rəftar və böyük, təbii nəzakət hissinə malik olsun".[2]

Bəşər tarixinin ilk dövrlərindən başlayaraq bütün xalqlar qadınların hüquqlarını məhdudlaşdıran, onu dar çərçivəyə salan qadağalar sistemi tətbiq etmişlər. Engels yazırdı: «Qız uşaqlarını anadan olandan sonra dərhal öldürmək kimi vəhşilər arasında geniş yayılmış adət isə başqa məsələdir. Bunun sayəsində hər bir ayrıca tayfa içərisində kişi artıqlığı əmələ gəlir, bunun da ən yaxın labüd nəticəsi bir neçə kişinin birlikdə bir arvada sahib olmasından – çoxərlilikdən ibarət olur. Buradan da, onun fik-

---

[1] Bax: Mirzəcanzadə A. Yaradıcılıq haqqında düşüncələr. B.: Yazıçı, 1984, s. 88.

[2] Bax: Azad Mirzəcanzadə. İxtisasa giriş. Neft və qaz profilli ali məktəblər üçün dərs vəsaiti. Bakı: Qanun, 2010, s.66.

rincə, belə bir nəticə çıxır ki, uşağın anasının kim olması məlum idi, lakin atasının kim olması məlum deyildi və buna görə də qohumluq kişi xətti ilə deyil, yalnız qadın xətti ilə hesab olunurdu»[1].

Yəhudilərin adətinə görə qadın səsini yad kişi eşitsə idi, o qadını boşayırdılar. Hindistanda ərinin ölümündən 40 gün sonra qadınların yaşamaq hüququ yox idi. Müasir dövrdə isə, Hindistanda uşağın cinsinin ultra-səs müayinəsi qadağandır. Ancaq gizli yolla buna nail olmaq mümkündür. Çində təzə yeriməyə başlayan körpə qızların ayağının altına isti dəmir parçası bağlayırdılar ki, şikəst olub, ömürlük evdə otursunlar. Keçmişdə Çində də dölün dəqiqləşdirilməsi üçün ultra-səs müayinəsindən keçmək qəti qadağan idi. Son illərdə Çin Səhiyyə Nazirliyi tibb müəssisələrində hamilə qadınların dölün cinsini müəyyən etmələrinə qadağa qoyulmasına dair yeni qərar qəbul edib. Yəni hamilə qadınlar övladların cinsindən xəbərsiz olacaqlar. Ona görə də, ölkədə doğulan oğlan uşaqlarının sayı qızların sayından 10 faiz çox olmuşdur. Belə nisbətin pozulması sosial həyatda bir sıra problemlər yaradırdı, demoqrafik vəziyyət getgedə pisləşirdi.

Çin qanunlarına görə hər qadın yalnız bir uşaq doğa bilərdi. Əgər ilk övlad qızdırsa, onda ikinci övladın doğumuna qoyulan qadağa götürülürdü. Çinlilərin adətinə görə ərə gedərkən oğlanın evinə köçürlər. Belə çıxır ki, qız övladı olan valideynlər tək yaşamağa məcburdur. Ona görə də bəzi ailələr qız uşaqlarını elə ana bətnindəcə tələf edirdilər. «Çində ixtisaslı kənd qadınları arasında intihar faktlarının artması bəlkə də faciəvi xarakter alıb, artıq zorakılığın banal tipi mənasız hala gəlib. «The New York Times» qəzetinin yazdığına görə, Çin qadınlar

---

[1].Bax: Marks K. və Engels F. Seçilmiş əsərləri. 3 cilddə. 3-cü cild. B.: Azərnəşr. 1983, s. 224.

Qeyd: Ümumiyyətlə F.Engels "Ailənin xüsusi mülkiyyətin və dövlətin mənşəyi" əsərində ailənin yaranması və inkişafının tədqiq edilməsinə ciddi töhfə vermişdir.

arasında intiharın sayına görə dünyada ən yüksək çəkiyə malikdir, bütün qadın intiharlarının 56 faizi bu ölkənin payına düşür, Çin sərhədləri daxilində gündə təxminən 500 qadın intihar edir… Adi, hətta mənasız hadisə intihar üçün əsas ola bilər. Kənd qadınları dünyaya qarşı rüşeym halında olan etiraz edən kütlələrlə zəhərli pestisidləri azaltmaqdır»[1].

Flores, Benqukula, Kruye, Lampunqe adalarında ərlik qızlar satılır və qiyməti baha olduğu üçün gənc oğlanlar evlənə bilmirlər. Buna görə də bu yerlərdə ərə getməmiş qızlar çoxdur.[2]

Misirlilər Nil çayının səviyyəsi aşağı düşəndə bir qız uşağını qurbanlıq kimi çaya atırdılar. Yeni doğulan qızlar üçün qəbir qazırdılar.

İngiltərə qanunlarına görə qadınlar «müqəddəs» kitab oxuya bilməzlər. Son dövrdə ingilis tədqiqatçıları belə bir nəticəyə gəliblər ki, uzaq keçmişdə qadınlara xüsusi münasibət olub və müharibələr daha çox qadın əldə etmək üçün başlanıb.

F.Engels yazırdı ki, fərdi ailə heç də hər yerdə və hər zaman yunanlarda olduğu kimi klassik sərt bir formada olmamışdır. Sonralar dünyanın fatehləri olub, şeylərə yunanlardan daha geniş, lakin onlardan az incə nəzərlə baxan romalılar arasında arvad daha çox azad və daha çox hörmətli olurdu. Romalı belə hesab edirdi ki, öz arvadının ölüm-diriminin hakimi olması onun ərinə sədaqətini kifayət qədər təmin edir. Bundan əlavə, burada ər ilə yanaşı olaraq arvad istədikdə nikahı poza bilərdi.[3]

2007-ci ildə İran hökuməti Urmiya gölündə yerləşən 120 adadan biri olan Arzu adasını çimərlik üçün qadınların sərənca-

---

[1] Bax: Qlobal siyasi iqtisad: müasir nəzəriyyələr (Azərbaycan dilində). Ronen Palanın redaktəsi ilə «Routledgeq / RIPE» qlobal siyasi iqtisad təlimləri seriyasından. Bakı.: 2003, s. 241.

[2] Bax: Nələr olmur bu dünyada! (Toplayıb tərtib edəni və işləyəni Ə.Əsgərov). Bakı.: İşıq. 1990, s. 98.

[3] Bax: Marks K. və Engels F. Seçilmiş əsərləri. 3 cilddə. 3-cü cild. Bakı.: Azərnəşr. 1983, s. 277.

mına verməyi qərara almışlar. Adaya kişilərin daxil olması qəti qadağan olunacaq. Adadakı bütün ictimai-iaşə sahələrində qadınlar çalışacaq və burada qadınlar istədikləri kimi geyinəcəklər. Hətta üst paltarlarını çıxara biləcəklər. Çimərlikdəki binalar da qadınların rəhbərliyi ilə tikiləcək. Ölkənin dini lideri Əli Xamenei qadın adasının yaradılmasının şəriət qanunları ilə ziddiyyət təşkil etmədiyini söyləmişdir. İranda son vaxtlar qadınlar üçün bir neçə çimərlik və park fəaliyyət göstərirdi. Qadınlar ancaq burada Avropa paltarları geyinə bilərdilər.

2006-cı ildə İtaliyanın Riççion şəhərində də müsəlman qadınları üçün xüsusi çimərlik yaradılıb. İtaliyada bir neçə xüsusi «qadın çimərliyi» fəaliyyət göstərsə də, yad kişilərin baxışlarından «sığortalanmamaları» narahatçılıq yaradırdı. Bu əvvəlkilərdən fərqlənir. Riççionda dörd bir tərəfi hasarlanmış çimərliyə kişilərin girişi qəti qadağandır. Əlbəttə, italyanlar bunu qazanc məqsədi ilə ediblər. Lakin buna baxmayaraq Qərbi Avropanın mərkəzində bu yenilikdir. Belə bir yeniliyin edilməsinə səbəb hər il yüzlərlə varlı ərəb şeyxinin ailəsi ilə birgə istirahət mərkəzinə gəlməsidir. Bu da külli miqdarda vəsaitin ölkəyə daxil olması deməkdir.

**Nazim Hikmətin bir fikri yada düşür: «1927-ci ildə Batum çimərliyində gəzərkən ömrümdə ilk dəfə idi çılpaq qadın bədəni görürdüm. Bundan sonra qadın bədəni mənim üçün əhəmiyyətini itirdi». Bu fikirdə böyük hikmət və həqiqət var. Avropa dəyərlərinə qoşulduğumuz qlobal dünyada belə fikirlər sanki öz əhəmiyyətini itirib. Amerika alimləri 30 il araşdırma aparmış və belə qənaətə gəlmişlər ki, son illərdə kişilərdə prostatın xərçəngi xəstəliyinin səbəbi, heç də əvvəllər düşünüldüyü kimi qidalanma və iqlimlə əlaqədar deyil, qadınların küçələrdə yarıçılpaq, qısa yubka və ya dekoltedə gəzmələridir. Kişilər belə qadınları küçədə görəndə ehtiras hiss etsələr də tələbatlarını ödəmək imkanlarından məhrumdurlar. Bu da, sonda impotensiyaya və prostat xəstəliyinin yaranmasına səbəb olur.** Qərbdə və Qərb

istiqamətli ölkələrdə, bu problem daha genişdir, nəinki müsəlman Şərqində. Məlumdur ki, Şərqdə qadınlar tarixən qapalı geyinib və istər-istəməz kişilər bu problemlə nadir hallarda üzləşirlər. **Respublikamızda Qərbə meyillilik güclü olduğuna görə, digər Şərq ölkələrinə nisbətən bizdə açıq geyinmək geniş yayılıb. İtaliyada 2010-cu ildə qısa yubka geyməyi demək olar ki, qadağan etdilər. Çünki, bu ölkədə qısa yubka geyənlərə küçələrdə çoxsaylı təcavüzlər olurdu.**

İnkişafın müasir səviyyəsinə baxmayaraq elə adət-ənənələr var ki, hal-hazırda qeyri-adiliyi ilə seçilir. Sivilizasiyanın indiki inkişafına uyğun gəlmir.

Dəniz səviyyəsindən 4000 metr yüksəklikdə yerləşən Tibeti «dünyanın damı» adlandırmaq olar. İlk baxışda adama elə gəlir ki, burada yaşamaq çox çətindir. Çünki boğazı qıcıqlandıran seyrəkləşmiş quru havadan adamın dərisi quruyur, dırnaqları qopur. Daim temperaturun kəskin dəyişilməsini hiss edirsən: belə ki, eyni vaxtda adamın kürəyini isti yandırırsa, döş qəfəsi üşüyür, yaxud da əksinə, gündə hərarət 30 dərəcə, kölgədə isə 12 dərəcə olur. Su 100 dərəcədən xeyli aşağı temperaturda qaynayır. Ona görə də suda nə isə bişirmək çox çətin olur. Burada daş-kəsəkli torpağın kasıb bitki örtüyünün, normal yanacağın olmaması belə, insanları bu torpaqdan bezdirib uzaqlaşdıra bilməyib.

Tibetlilər doğan qadını adətən tək-tənha çölə qovurlar. Yeni doğulan çağanı isə şəlalənin bumbuz suyunun altına tuturlar. Əgər körpə məhv olarsa, deməli, həm özünü, həm də qohum-əqrabasını gələcək iztirablardan qurtaracaq.

Tibet dünyada çörək yeyilməyən diyarlardandır. Burada tərəvəz və ət də çox az işlədilir. Əsas qida yak südünün yağı qatılmış duzlu çay və tzambadır (Tzamba qovrulub çaya qatılmış arpa unundan ibarətdir). Tibetdə dərini tez-tez yağlayırlar ki, qurumasın. İldə bir dəfə – sentyabrda (xüsusi çimmək həftəsində) çimirlər.

Burada çoxərlilik mövcuddur. Ailədə yalnız böyük qardaşı evləndirirlər. Qardaşların hamısı bəy sayılsa da, bu vəzifəni rəs-

mi olaraq böyük qardaş icra edir. Kiçik qardaşlar isə böyüdükcə böyük qardaşın arvadının əri olur. Arvadın fikri isə heç zaman nəzərə alınmır. Beləliklə, ailənin var-dövləti heç zaman bölünmür. Nikahdan əvvəlki məhəbbət macəralarına, cinsi əlaqələrə nəinki pis baxırlar, əksinə o, təqdir olunur. Ənənəyə görə, qızlar boynunda məşuqlarının bağışladığı monetkalar (xırda sikkələr) düzülmüş boyunbağı gəzdirirlər. Əgər qızın boyunbağısında belə monetkaların (xırda sikkələrin) sayı 1 düzümdən azdırsa, onun ərə getmək ehtimalı da azdır.

Kəbinsiz doğulmuş uşaqları nənə və babalar himayələrinə götürürlər. Uşağın atası isə öz borcunu ay yarım (doğuşa üç həftə qalmış və körpə dünyaya gələndən sonra üç həftə) bu ailəyə maddi yardım göstərməklə bitmiş hesab edir.

Dünyanın digər ölkələrindən fərqli olaraq Tibetdə qəbiristanlıq yoxdur. Burada dəfn mərasimi də olmur: ölən adamın cəsədini üç gün evdə saxlayırlar ki, «ruhu canından çıxsın», sonra onu «göylərə» tapşırmaq üçün aparıb xüsusi qayanın başına qoyurlar. Burada cəsəd nəhəng kərkəslərin yemi olur. Bu adət lamaizm (buddizmin bir növü) fəlsəfəsi ilə bağlıdır. Həmin fəlsəfəyə görə, ölüm varlığın digər formaya keçididir, ona görə də ölən adam həyatın digər formalarına sovqat edilməlidir[1].

Buna bənzər hadisələrlə əlaqədar F.Engels yazırdı: «Şimali Amerikanın azı qırx tayfa arasında böyük bacı ilə nikah bağlayan kişi onun bütün bacılarını da, onlar müəyyən yaşa çatdıqda, özünə arvad etmək hüququna malikdir – bu isə bütöv bacılar qrupu üçün ərlərin ümumiliyi qalığıdır»[2].

Səudiyyə Ərəbistanı krallığında qadınların mehmanxanalarda tək qalmalarına həmişə qadağalar qoyulmuşdur. Lakin 2008-ci ildən mehmanxanalarda qadınların kişilərin nəzarəti ilə

---

[1] Bax: V.V.Ovçinnikov. Sirli-soraqlı Tibet. «Elm və həyat» jurnalı. 1991, № 9-10; Tibetdə çoxərlilik. İngilis dilindən tərcümə edən Zahid Əhmədov. «Qızıl əsr» qəzeti. 26-31 dekabr 2005-ci il.

[2] Bax: Marks K. və Engels F. Seçilmiş əsərləri. 3 clddə. 3-cü cild. Bakı.: Azərnəşr. 1983, s. 258-259.

qalmasına şərait yaradılıb. Krallıqda qadınların mehmanxanada qalmasına onların şəxsiyyətini təsdiq edən sənəd təqdim etmək şərtilə icazə verilib.

Cəmiyyət inkişaf etdikcə qadınlara münasibət də tədricən dəyişməyə başladı. XIX əsrin sonu XX əsrin əvvəllərində qadınlar öz hüquqları uğrunda mübarizəyə qalxdılar. 1910-cu ildə Danimarkanın paytaxtı Kopenhagen şəhərində sosialist qadınların beynəlxalq konfransı olmuşdur. Həmin konfransda məşhur ictimai xadim və inqilabçı qadın Klara Setkinin təklifi ilə hər il martın 8-də bütün ölkələrdə Beynəlxalq qadınlar günü keçirilməsi qərara alınmışdır. 1948-ci ildə isə BMT-də qadının bir insan kimi hüquqları bərpa olundu. 1975-ci ildə BMT-nin qərarı ilə Beynəlxalq qadın ili elan olundu.

XX və XXI əsrdə qadınlar siyasətdə, incəsənətdə, hərbdə, elmdə və hətta terrorda özlərini sınadılar. Radioaktivlik haqqında təlimin banilərindən biri polyak Sklodovskaya-Küri iki dəfə, qızı Jolılo Küri bir dəfə Nobel mükafatına layiq görüldü.

İsrail dövlətinin inkişafında böyük xidmətlər göstərmiş Qolda Meir Əmək naziri vəzifəsində işləyərkən, ölkədə kütləvi immiqrasiyaya baxmayaraq onun fəaliyyəti nəticəsində işsizlik demək olar ki, yox idi. Qətiyyətinə görə onu Ben-Qurionun hökumətində yeganə kişi adlandırırdılar.

XX əsr böyük siyasətçi İngiltərənin baş naziri «dəmir ledi» adını daşıyan Marqaret Tetçeri, Pakistanın keçmiş baş naziri, Şərqin «dəmir ledisi» sayılan Bənazir Bhuttonu dünyaya gətirmişdir.

Müasir dövrdə qadınlar bütün sahələrdə uğur qazanmaqla yanaşı, ən çox siyasətlə və sahibkarlıqla məşğul olurlar. ABŞ, Kanada, Almaniya, Fransa, İngiltərə, Rusiya, Ukrayna, Türkiyə, Finlandiya, Norveç, Şri-Lanka və digər dövlətlərdə qadınlar dövlət katibi, baş nazir, müdafiə və xarici işlər naziri kimi mühüm vəzifələr tutur.

Bəzi filosofların, iqtisadçıların və psixoloqların fikrincə, kişilər üçün həlli çətin problemlərin öhdəsindən qadınlar asanlıqla gəlir, onlara qayğı və məsuliyyətlə yanaşırlar, hətta riskə getməkdən belə çəkinmirlər.

Qadınlar daha yüksək etik normalara və insanlarla daha yaxşı münasibət yaratmaq qabiliyyətlərinə malikdirlər.

## 5.2. «İnsan kapitalı» nəzəriyyəsində ailə problemi

XX əsrin 50-ci illərində iqtisadi nəzəriyyədə «insan kapitalı» anlayışı meydana gəldi və bir sıra müəlliflər problemin müxtəlif tərəflərini tədqiq etməyə başladılar. Bundan əvvəl isə iqtisadi ədəbiyyatda tarixən bu anlayışı «əmək», «iş qüvvəsi» kimi işlədirdilər.[1] Hətta bəzi iqtisadçılar «insan kapitalı»nı iş qüvvəsinin çevrilmiş forması kimi şərh etmişlər[2].

Professor N.Qreqori Menkyu kapitala iqtisadiyyatdakı avadanlıq və qurğuların cəmi, insan kapitalına isə insanların istehsal fəaliyyəti üçün hazırlanmasına qoyulan investisiyanın məcmu ifadəsi kimi baxır[3].

«İnsan kapitalı» nəzəriyyəsinin işlənib hazırlanmasına görə ABŞ iqtisadçısı professor Teodor Şults 1979-cu ildə, professor Qarri Bekker isə 1992-ci ildə Nobel mükafatına layiq görülmüşlər. T.Şults insan kapitalı nəzəriyyəsinin əsasını qoymuşdur. O, tədqiqatında belə nəticəyə gəlmişdir ki, ABŞ iqtisadiyyatı uzun müddət ərzində «maddi kapitala» nisbətən «insan ka-

---

[1] Qeyd: Vaxtilə problem müxtəlif səpgidə V.Petti, A.Smit, K.Marks, C.Mill, A.Marşall, J.B.Sey, L.Valras, V.Pareto, İ.Fişer və s. iqtisadçılar tərəfindən öyrənilmişdir. Müasir dövrdə digər məşhur iqtisadçılar da «insan kapitalı» probleminə toxunmuşlar. Məsələn: S.Minker, E.Denison və s. (Bax: A.O.Вереникин. Человеческий капитал: концептуалные основания и особенности проявления. «США. Канада: Экономика. Политика. Культура». Журнал. 2005. № 3, c. 85; Nobel mükafatı almış iqtisadçılar və onların nəzəriyyələri. Bakı.: «Elm» nəşriyyatı. 2004, s. 80-82, 136-140, 200).

[2] Bax: A.Бузгалин, A.Колганов. Человек, рынок и капитал в экономике XXI века. «Вопросы экономики». Журнал. 2006. № 3, c. 131.

[3] Bax: N.Qreqori Menkyu. Ekonomiksin əsasları (Azərbaycan dilində). Harvard Universiteti. 2004, s. 412-413.

pitalı»ndan daha çox mənfəət əldə etmişdir.

XX əsrin ikinci yarısında dünya iqtisad ədəbiyyatında insan kapitalı problemi makro və mikroiqtisadi səviyyədə işlənməyə başlamışdır. Q.Bekker öz tədqiqatlarında «iqtisadi ailə» probleminin mühüm istiqamətlərini ümumiləşdirmiş və müəyyən nəticələr çıxarmışdır. Ona görə mikroiqtisadiyyat səviyyəsində gündəlik həyatımızda üzləşdiyimiz problemlərin hamısı son nəticədə ailənin iqtisadi problemləri ilə bağlı olur. Məsələn, nikah, boşanma, uşaqların anadan olması haqqında qərarlar qəbul edilməsi, uşaqların sayı, tərbiyəsi və s. kimi hadisələr. Mütəxəssislərin fikrinə görə Qarri Bekker tədqiqatının nəticələri həm xüsusi, həm də dövlət səviyyəsində kapitalın «insan amili»nə qoyulmasının iqtisadi cəhətdən məqsədəuyğunluğunun sübut olunmasına aid idi.

Q.Bekker «insan kapitalı»nı tədqiq edərək aşağıdakı nəticələrə gəlib:

1. **Əgər ailənin aylıq qazancı azdırsa, o dünyaya uşaq gətirməyə tələsmir. Ona görə ki, yaşadığı cəmiyyətdə həyat standartları onun əməkhaqqına uyğun gəlmir.** Məlumdur ki, bazar iqtisadiyyatı şəraitində uşağın təhsilinə çox miqdarda pul sərf olunur. Yüksək gəlir əldə edən ailələrdə isə uşağın tərbiyəsinə və təhsilinə daha çox vəsait lazımdır. Çünki hər bir ailə cəmiyyətə gözəl, tərbiyəli və savadlı vətəndaş bəxş etmək istəyir[1]. Bu səbəbdən hər bir ailə az uşaq dünyaya gətirməkdə maraqlıdır. Ona görə də inkişaf etmiş ölkələrdə doğum faizi aşağıdır.

Bu məsələnin təhlilində Y.A.Vasilçukla razılaşmamaq mümkün deyil. O yazır ki, məsrəflərin kapitallaşmasının ən ümumi formulu bir çox şeyləri hesaba almır. Belə ki, o “görmür ki”, uşaq haqqında qayğı doğulmasından daha çox-çox öncə başlanır və heç də onun 18-20 yaşa çatdığında yekunlaşmır, ailənin bir çox digər xərcləri birbaşa olmasa da dolayısı ilə bu investisi-

[1] Qeyd: Ümumiyyətlə o qadın gözəl və ağıllıdır ki, cəmiyyətə lazım olan bir övlad böyüdüb, tərbiyə edir.

ya qoyuluşu prosesində iştirak edir. Faktiki olaraq uşaqların və gənclərin formalaşması illərindəki ailənin az qala bütün xərcləri yeni nəslin psixoloji, intellektual və mənəvi sağlamlığı üçün zəruridir. İnsana kapital qoyuluşlarının bu kimi prosesindən keçmiş hər bir nəsil özündə ailələrin daxilində yaradılan və bu mürəkkəb, yaxud yaradıcı istehsal əməyinə qabil olan insanların gələcək qazanclarında reallaşdırılan nəhəng yeni əlavə olunmuş dəyər daşıyır.[1]

**2. Boşanmağı düşünən ər-arvad iqtisadi cəhətdən daha yaxşı vəziyyətdə olmayacağını başa düşdükcə boşanmadan əl çəkir. Əgər ərin və arvadın (xüsusilə də qadının) pul vəsaitləri imkan verərsə, onlar sərbəst yaşamağı daha üstün tuturlar.** Bu baxımdan Q.Bekker belə bir nəticəyə gəlir ki, **qadın işləməyə başlayan andan boşanmaların sayı artır. Belə bir hal mövcuddur. Cəmiyyət insanlara bol-bol «azadlıq» verdikcə, bu nəticə daha da özünü eybəcər şəkildə göstərir. Qadın fikirləşir ki, özüm-özümü saxlaya bilərəm nə üçün başqasına qulluq etməliyəm. Eqoizm insanlarda belə bir psixologiya yaradır.[2]**

Müasir dövrdə bu sahədə bir paradoks yaranıb. **İngiltərə mütəxəssisləri belə bir nəticəyə gəliblər ki, əgər İkinci Dünya müharibəsindən sonrakı dövrlərdə qadınlar özlərindən yaşca daha böyük və varlı şəxslərlə evlənməyə üstünlük verirdilərsə, hal-hazırda əksinə, müəyyən karyera qurandan sonra gəlirləri özlərindən daha aşağı olan kişilərlə ailə qurmağa meyillidirlər. Yəqin ki, bunun səbəbi qadın eqoizmindən doğur. Kişilər qarşısında oz üstünlüklərini göstərmək, müasir qadınların xarakterinə çevrilib.**

ABŞ prezidenti **Barak Obama** 2012-ci ildə gənclər qar-

---

[1] Bax: Васильчук Ю.А. Социальное развитие человека в XX веке. Фактор денег. // Общественные науки и современность. 2001. №4, с.25,

[2] Qeyd: Son illərdə respublikamızda qadın müğənnilərinin sayının artması buna əyani sübutdur. Bir az səsi olan qadın ərindən boşanaraq müğənniliyə başlayır. Çünki toylar həm onlara şöhrət gətirir, həm də pul.

şısında çıxışı zamanı söylədiyi fikir ailə problemini yaşayan ölkələr üçün sanki bir örnəkdir. O, deyib: "Amerikada yaşayın və hələ evlənməmiş oğlanlara bir tövsiyəm var. **Ən qısa zamanda çalışın gözəl, yaxşı ailə tərbiyəsi almış və sağlam genləri olan qızlarla evlənin. Əgər evləndiyiniz qızın genləri yaxşı olsa övladlarınızın da tərbiyəsi yaxşı olacaq".**[1]

Bu fikirlər bizim atalar sözlərimizlə necə də eynidir: "Anası gəzən ağacı, balası budaq-budaq gəzəcək". Biz bəzən Qərbi çılpaqlıqda, açıqlıqda, pozğunluqda qınayırıq. Ancaq həyat göstərir ki, Qərb sanki Şərq ailə problemlərinə daha da yaxındır və üstünlüklərdən bəhrələnmək istəyir.

3. **Şirkətlər kimi ailələr də davranışlarını qazancı artırmaq və gəliri çoxaltmaq istiqamətində qururlar. Bu fikri birmənalı şərh etməli olsaq, mübahisəsiz demək olar ki, iqtisadi cəhətdən imkanlı ailələr, kasıb ailələrdən qız almırlar və ya əksinə. Əlbəttə, cəmiyyətdə belə bir qütbləşmə gedir.**

4. **İqtisadi yüksəlişi az olan ölkələrdə insan dəyərsizdir[2].**

Nobel mükafatı laureatları - Herbert Saymon (ABŞ-1978), Daniel Kaneman (ABŞ-2002), Morris Alle (Fransa-1988) «iqtisadi insan» modelini tənqid ediblər.

Digər məşhur iqtisadçılar da «insan kapitalı» probleminə toxunmuşlar, məsələn: S.Munser, E.Denison və b[3]. Daha dəqiq desək, Munser və Denison bu nəzəriyyəni inkişaf etdirərək öz modellərini təklif etmişdilər.

Qadınların uşaq doğumunda yaş həddinin rolunu müəyyən-

---

[1] Bax. "Yeni Müsavat" qəzeti. №111 (5120) 30 aprel 2012-ci il.

[2] Bax: Гарри Беккер. Семья. Экономическая теория / Под ред. Дж. Итуэлла, М.Милгейта, П.Ньюмена: Пер. с англ. / научн.ред.чл-корр. РАН А.С.Автомонов – М.: ИНФРА – М.: 2004, с. 308-322; Ş.Qafarov. Müasir iqtisadi sistem və qloballaşma (Monoqrafiya). Bakı.: 2005, s. 249-251.

[3] Qeyd: Eyni zamanda bax: А.О.Вереникин. Человеческий капитал: концептуальные основания и особенности проявления. США. Канада: Экономика. Политика. Культура. 2005. № 3, с. 85; Nobel mükafatı almış iqtisadçılar və onların nəzəriyyələri. Bakı.: «Elm» nəşriyyatı. 2004, s. 80-82, 136-140, 200.

ləşdirmək üçün və iqtisadi nöqteyi-nəzərdən səmərəliliyi öyrənmək məqsədilə Amerika alimləri araşdırmalar apararaq belə nəticəyə gəlmişlər ki, uşaq dünyaya gətirməyin bir il gecikdirilməsi həyat səviyyəsini ən azı 10% yaxşılaşdırır. Sahibkar, işgüzar qadınların 24 yaşda yox, 25 yaşda uşaq doğması isə illik gəlirin 3% və 4,7% artmasına gətirib çıxarır. Əgər bu proses 33 yaşına qədər davam etdirilsə, hər il gəlir yüksələ bilər.

2010-cu ildə Böyük Britaniyada sosioloji tədqiqatların nəticəsi göstərib ki, ərə gedən qızların yaş həddi 30,1-ə yüksəlib. Hansı ki, 1976-cı ildə orta yaş səviyyəsi 22,6 olub. (Burada söhbət yəqin ki, rəsmi nikahdan gedir, vətəndaş nikahından yox). **Britaniyalı qadınlar öz şəxsi həyatlarından 40 yaşdan sonra daha çox həzz alırlar. Onların fikrinə görə intensiv və avantüralarla dolu olan həyat 20 yaşında olandan daha maraqlıdır. Kişilər isə 32 yaşında evlənirlər. Ümumiyyətlə, müasir dövrdə avropalı qadınlar mətbəx və paltar yumaqdan çox təhsil və işə meyil göstərirlər.**

**Böyük Britaniya nevroloqları qadınların beyninin 40 yaşa çatdıqda kamilləşdiyi qərarına gəliblər. Onların araşdırmalarının nəticəsinə görə qadınların beyninin 21 yaşında tam yetişməsi haqqındakı fikirlər yanlışdır. Qadınların beyni uşaqlıq və yeniyetməlik dövrü bitdikdən sonra da inkişafı davam etdirir. Onların beyninin arxa hissəsinin öz formasını 30-40 yaş arasında mütəmadi olaraq dəyişdiyi üzə çıxıb.** Bu hissə beynin əsasını təşkil edir və insanın ağlı, dərrakəsi məhz bununla əlaqədardır.

Lakin baş verən proseslər nəticəsində dünyada, xüsusilə də inkişaf etmiş ölkələrdə qadınlar arasında gec uşaq doğmağa meyilliliyin daha çox olduğu hiss olunur. Hətta son dövrlərdə yaş həddi artıq 40-a çatmışdır. Əlbəttə, tibb elmi bu fikri birmənalı qarşılamamışdır. Həyatda bu prosesin sürətlə inkişafına baxmayaraq bəzən gecikmə və səhlənkarlıq tənhalığa gətirib çıxarır. **İnkişaf etmiş ölkələrdə əhalinin xeyli hissəsi tənhalıqdan əzab və iztirab çəkirlər.** Sivil ölkələrin statistikasına mü-

raciət etməli olsaq görərik ki, son 25-30 ildə tənhalıq iyirmi dəfəyə qədər yüksəlmişdir. Mütəxəssislərin fikrincə, buna əsas səbəb onların vaxtının çox hissəsini ofislərində keçirmələri və bütün problemlərini internetlə həll etməklərindədir. **Hətta son illər evlənmək istəyənlər kompyuter vasitəsilə xarakterlərinə uyğun insan axtarmağa çalışırlar. Belə hallar isə məhəbbət və insanlıq qayğılarından, ailə-uşaq sevgisini hiss etməkdən deyil, şəhvəti yox etmək üçün müvəqqəti müqavilə şərtləri ilə evlənməyə gətirib çıxarır[1].**

2008-ci ildə dünyada tanınan «FOCUS» jurnalı yazır ki, tədqiqatlar nəticəsində məlum olub ki, dünyada kişilərin sayı tədricən azalacaqdır. Buna səbəb qadınların kişilərsiz də hamilə olmalarıdır. Lakin bu cür mayalanmada laboratoriya şəraitində kişilərdə olan $Y$ xromosomunun əldə edilməsi hələ ki, mümkün deyil. Bu xromoson olmadan isə oğlan uşağı doğula bilməz. Hətta jurnal tədqiqatlara inanaraq kişi nəslinin kəsilməsi tarixini də göstərib:

1. 2108-ci ildə qadınların kişilərsiz hamilə qala biləcəkləri klinikalar dünyaya yayılacaq;

---

[1] Qeyd: Son illər İngiltərə tədqiqatçıları belə qənaətə gəlmişlər ki, qadınları sevmək üçün kişilərə cəmi 8 saniyə vaxt lazımdır. Əgər qadın kişinin xoşuna gəlmirsə 4 saniyə ərzində qərar çıxara bilər. Onların gəldikləri nəticəyə görə "əsl məhəbbət" kişilərdə orta hesabla 4 ildən artıq davam etmir. Onlar sevgi hissinin qadınlarda daha çox olduğunu qeyd edirlər. Tədqiqatdan belə nəticə çıxır ki, qadınlar ömürlərində yalnız bir dəfə sevirlər. Kişilər isə ömürləri boyu 5-8 qadını sevə bilərlər. Bu kişilərdə nəsil artırmaq tələbatının, qadınlarda isə əsas məqsədin uşaqları tərbiyə etməsi ilə izah edilir. Alimlər bunun səbəbini insan anatomiyası ilə şərh edirlər. Sevməyi isə, insan beynindəki müəyyən hüceyrələrin hərəkətə keçməsi ilə yaranan emosional – impulsiv hiss kimi aydınlaşdırırlar. **Sevən adam məhəbbət bəslədiyi adamdan başqa heç bir şey haqda fikirləşmək iqtidarında olmur. Ən güclü sevgi hissini həyatda yalnız bir dəfə keçirmək mümkündür. Bunu əsl sevgi adlandırırlar. Digər bütün halları isə ancaq seksual baxışdan cəlbediciliklə bağlayırlar. Hətta onlar belə nəticəyə gəliblər ki, məhəbbət insanın hərtərəfli inkişafına, xüsusən yaradıcı insanlarda həyat fəaliyyətinin azalmasına mənfi təsir göstərir.**

2. 2128-ci ildə dünya əhalisinin 70 faizini qadınlar təşkil edəcək;
3. 2158-ci ildə son oğlan uşağı dünyaya gələcək;
4. 2238-ci ildə dünyada sonuncu kişi də öləcək və kainatda ancaq qadınlar yaşayacaq.

2006-cı ildə İqtisadi İnkişaf və Əməkdaşlıq Təşkilatı (OECD) doğum səviyyəsinin vəziyyətilə bağlı xüsusi hesabat hazırlamışdır. Hesabata əsasən 15 Avropa ölkəsində hər qadına 1,3 uşaq düşür. Şərqi Avropada vəziyyət daha ağır olmuşdur – hər qadına 1,2 uşaq düşürdü. Çexiya, Sloveniya, Latviya və Polşa son illərdə dünya tarixinin ən aşağı doğum göstəricilərinə malik olmuşlar.

40 il belə davam etsə, Çexiya əhalisi təxminən 20 faiz azalacaq. Yunanıstan, İtaliya və İspaniyada bu problem daha kəskindir. Fransada isə onlara nisbətən vəziyyət yaxşıdır – hər qadına 1,8 uşaq düşür. Təhlil göstərir ki, normal olmasa da, hələlik bu cür vəziyyət az-çox mühacirlərin hesabınadır.

İrqçi hücumlarına məruz qalmalarına baxmayaraq Avropa hələ də daha çox mühacirə ehtiyac duyur və qitəyə 2030-cu ildə 20 milyon əlavə işçi lazım olacaqdır. Mühacirlər arasında artım avropalılardan 3 dəfə çoxdur. Bu da ən çox Qərbi Avropadakı müsəlman icmasının payına düşür. Mütəxəssislər Avropada artımın səviyyəsinin aşağı düşməsinin bir sıra səbəblərini göstərirlər.

1. Abortun leqallaşdırılması.
2. Hamiləlik əleyhinə preparatlardan istifadə olunması. Bəzi ölkələrdə bunlara qadağa qoyulduğundan artım nisbətən yüksəkdir. Məsələn, İrlandiya, Portuqaliya və Maltada.

Bəzi ölkələrdə, məsələn, Almaniya, Fransa, Çexiya və Rusiyada bir sıra proqramlar qəbul edilib. Məsələn, Rusiyanın prezidenti V.Putin 2006-cı ildən yeni demoqrafik proqram elan edib. Rusiyanı «insan böhranı»ndan xilas etmək üçün hazırlanmış proqram 100 maddədən ibarətdir. Proqram yaxın 10 il üçün elan edilib və 10 ildən sonra, o yenidən müzakirə ediləcək. Bu iki mərhələyə ayrılıb. 2010-cu ildə birinci mərhələyə yekun

vuruldu və 2015-ci ilə qədər davam etdiriləcək. 2010-cu ildə, birinci mərhələ başa çatdı onun səmərəsi və qüsurları öyrənildi və ikinci mərhələdə bunlar nəzərə alınacaq.

Proqramda ən ümdə məsələlərdən biri Rusiya ərazisində doğulmuş ikinci uşaq üçün ailəyə 250 min rubl məbləğində birdəfəlik müavinətin veriləcəyidir (Fars körfəzi ölkələrində bu məbləğ bəzən 500 min dollara qədər qaldırılır). Bu o dövr üçün (2006-cı il) 8 min ABŞ dollarından bir qədər artıqdır.

Bundan əlavə, hər bir uşaq üçün verilən aylıq müavinatın həcmi də artırılıb: birinci uşaq üçün ayda 1500 rubl (təqribən 50 dollar), ikinci uşaq üçün isə 3000 rubl (100 dollar). Məktəb yaşına çatmamış hər bir uşaq üçün də ailəyə kompensasiya verilir.

2012-ci ildə Rusiya Federal Statistik Xidmətinin məlumatına görə Rusiya prezidenti Vladimir Putin 3 və ya daha çox uşaq sahibi olan ailələrə iqamətgah, ikinci uşağa görə 387 min rubl (12 min dollar) verilməsi və aylıq sosial yardımla təmin edilməsi kimi imkanlar yaradıb.

Proqramın qəbul olunmasına səbəb rus demoqraflarının həyəcan təbili çalmaları olub. Onların proqnozlarına görə 100 ildən sonra Rusiyada rus qalmayacaq. Bu göstəricinin azalma meyli ildən-ilə sürətlənir.

Yadımdadır, 1982-ci ildə Moskva Dövlət Universitetində 5 aylıq ixtisasartırma kursunda dinləyici olarkən o zamankı Mərkəzi Komitənin şöbə müdirlərindən biri bizə «bağlı» qapılar arxasında mühazirə oxudu. O dedi ki, bizi ən çox narahat edən odur ki, belə getsə 2000-ci ildə SSRİ sərhədlərini müsəlmanlar qorumalı olacaqdır. Çünki ruslarda ildən-ilə uşaq doğumu azalır. SSRİ tərkibindəki müsəlman dövlətlərində isə artım günü-gündən çoxalır.

Rusiyada ailələrin 15 faizinin uşağı olmur. Rusiyada 76,9 (17.01.2013) (54%) milyon qadın var. Onların 39,1 milyonu doğa biləcək yaşdadır: 15-49. Statistika təsdiq edir ki, indi uşağı olmaq ehtimalı olmayan qadınların sayı 6 milyondur. Bu rəqəm hər il demək olar ki, 250 min nəfərə qədər artır. Bu proses üzrə

kişilərin sayı 4 milyon nəfər təşkil edir. Rəsmi statistikaya görə Rusiyada hər il 1,6 milyon uşaq aborta məruz qalır. Son illərdə görülən inzibati tədbirlərlə əlaqədar olaraq Rusiyada abortların sayı 2005-ci ildə 1,5 mln-dan 2012-ci ildə 935000-ə qədər azalmışdır. Yəqin ki, qeyri-rəsmi abortun sayını fantastik rəqəmlə ifadə etmək olar. Rusiyada 20 faizdən çox həddi-büluğ yaşına çatmamış qızlar aborta cəlb olunur. 1996-2009-cu illərdə Rusiya əhalisinin sayı davamlı olaraq azalmışdır: 148,3 mln nəfərdən 2009-cu ildə 142,7 mln nəfərə ensə də, 2012-ci ildə bu rəqəm 143 mln olub.

Demoqrafların fikrincə, 2050-ci ildə Rus ordusu əsgərsiz qala bilər. Belə bir nəticə hələ 20 il bundan əvvəl səslənirdi. Vəziyyət isə günü-gündən düzəlmək əvəzinə daha da pisləşir.

Yaponiyada da belə bir proses mövcuddur. Yaponiyanın əhalisi 127,5 (iyul 2012) milyon nəfərdir. Yapon alimləri belə hesab edirlər ki, 50 ildən sonra ölkə əhalisinin sayı 50 milyona qədər azalacaq. Proqnoza görə 100 ildən sonra Yaponiya əhalisi 44,59 milyon nəfərə qədər azalacaq. Yaponiyada doğum qabiliyyəti hər 1000 qadına orta hesabla 126 uşaq düşür. Sonrakı illərdə bu göstəricinin aşağı düşəcəyi gözlənilir. Bütün bunların, ümumiyyətlə, baş verməsinin səbəbi aşağıdakılardır:

1. Ailələrdə , ümumiyyətlə , uşaqların sayının azalması;
2. Nikahsız yaşamağa üstünlük verilməsi və bu meylin günü-gündən artması;
3. Müasir sosial vəziyyətin gec evlənməyə gətirib çıxarması;
4. Ümumiyyətlə, çox ailələrdə maddi vəziyyətin aşağı olması;
5. Şəhvətin təmin edilməsi üçün geniş imkanların yaranması;
6. Qadınların azad, tam sərbəst, qayğısız yaşamaq istəkləri;
7. Qadınların ev işlərində bərabərlik tələb etməsi;
8. Uşağa qulluğun edilməsindəki eqoizm və tənbəllik.

Dünyada isə əks proseslərin getdiyi müşahidə olunur. Hələ 50 il bundan əvvəl dünya alimləri tərəfindən belə bir proqnoz verilmişdir ki, planetin əhalisi 2005-ci ildə 6,5 milyard nəfər olacaq. O zaman planetin əhalisi 2,7 milyard nəfər təşkil edirdi. Bu

proqnoz demək olar ki, özünü doğrultmuşdur. Belə ki, BMT-nin 2005-ci ildəki hesabatında Yer kürəsi əhalisinin sayı doğrudan da 6,5 milyard nəfər olduğu göstərilmişdir. Hər gün dünyada 365 min uşaq doğulur. Ən çox doğum Asiyada – 57%, Afrikada – 26%, Avropada – 9%, Şimali Amerikada – 3%, Okeaniyada – 1% təşkil edir. Gün ərzində Yer kürəsində əhalinin sayı 210 min nəfər artır, 155 min nəfər isə ölür. İl ərzində isə əhali artımı 75 milyon nəfər təşkil edir. Artıq dünya əhalisinin sayı 7 milyardı ötmüşdür. Bəzi proqnozlar bir-birini təkzib etsə də , hər halda proses artım xətti ilə gedir. Məsələn, 50 il əvvəlki proqnozlara görə 2050-ci ildə dünya əhalisinin sayı 15 milyarda çatacağı qeyd edilirdisə, hal-hazırda başqa hesablamalara görə bu rəqəmin 8-9 milyarddan artıq olmayacağı göstərilir. Deustsche Bank-ın təhlillərinə görə 2055-ci ilədək dünya əhalisinin sayı 8,7 milyarda çatacaq. Sonrakı illərdə isə tədricən azalma baş verəcəkdir.

Bəzi istisnaları çıxmaqla inkişaf etmiş ölkələrdə çoxuşaqlı ailələrə az rast gəlinir. Keçmiş dövrlərdə ailədə uşağın sayının çox olması adi bir hal idi. Hətta prezident ailələri səviyyəsində də belə artım hiss olunurdu. Məsələn, Con Tayleri (1790-1862)[1] ABŞ-ın ən «məhsuldar» prezidenti saymaq olar. Belə ki, onun birinci arvadından 8, ikinci arvadından isə 7 uşağı olmuşdur. Ən maraqlısı odur ki, bu dövlət başçısının sonuncu uşağı onun 71 yaşı olanda dünyaya gəlmişdir.

Cəmiyyətdə qadınların doğumu onların həmişə ana olmaq arzusundan, yaxud şəxsi ambisiyalarından asılı deyil. Analıq dövrü bazar qanunları ilə şərtlənir. «Kapitalist maraq ehtirasının ən sonuncu versiyası kimi qloballaşma ideoloji, struktur və fiziki aspektdən qadın cinsini ləkələyir»[2]. **Daha konkret desək, ana olmaq üçün konkret olaraq maddi şərait olmalıdır. Bunsuz ana olmağın özü də məsləhət deyil. Bazar münasibətləri bu-**

---

[1] Qeyd: Con Tayler 1841-1845-ci illərdə ABŞ-ın prezidenti olmuşdur.

[2]Bax: Qlobal siyasi iqtisad: müasir nəzəriyyələr (Azərbaycan dilində) Ronen Palanın redaktəsi ilə. «Routledege» / RİRE qlobal siyasi iqtisad təlimləri seriyasından. Bakı.: 2003, s. 238

**nu birbaşa diktə edir. Artıq ən inkişaf etmiş ölkələrin iqtisadçıları da bu qənaətə gəliblər.**

İndiki ailələr əvvəlki tək şəffaf olmur[1].Gec doğan qadınlar özlərini gecikmiş hesab edirlər. **Qadınların ana olma vaxtını təxirə salmaları onların pul qazanmaq arzuları ilə bağlıdır. Çünki bazar münasibətləri şəraitində övlad saxlamaq pulsuz mümkün deyil. Qadının və kişinin müasir dünyada pul barədə fikirləşməsi heç də pis əlamət sayılmır. Lakin bu məsələdə ifrata varmaq cəmiyyətdə mənfi təzahürlərə gətirib çıxara bilər.**

Tədqiqatçıların qənaətinə görə qadınların dünyaya övlad gətirmələrinin ən ideal dövrü əvvəllər 26 yaş nəzərdə tutulurdusa son vaxtlar 30-40 yaş arasındadır. Onların fikrincə, 30 yaş insanların psixoloji sağlamlığı ilə maddi rifahları arasında optimal balansın yaranması dövrüdür. Digər tədqiqatçılar isə qadınların doğum dövrünün yüksək həddini 20-28 yaş hesab edirlər.

Mütəxəssislər ona görə 30 yaşdan yuxarını müvafiq hesab etmirlər ki, doğum zamanı və uşaqların tərbiyəsi zamanı yaranan əsəbilik və bütövlükdə digər amillər qadın orqanizmini zəiflədir, gələcəkdə onların səhhətinə öz mənfi təsirini göstərir. Dünyanın bir sıra ölkələrində hamiləlik dövründə dölün itirilməsi, ana ölümü və bir yaşına çatmamış uşaqların tələf ehtimalı yüksək faiz təşkil edir.

Buna səbəb kimi ailədə uşaqların sayının çox olması, doğum arasındakı müddətin azlığı, ölkədə səhiyyənin inkişaf səviyyəsinin aşağı olması, qadınların hakimiyyət orqanlarında təmsil olunması, bəzi ailələrdə maddi vəziyyətin ağır olması, ailələrin bir çoxunda psixoloji gərginliyin mövcudluğudur.

Analar üçün ən əlverişli şərait olan ölkələr Şimali Avropa

---

[1]Qeyd: Son zamanlar dünya ölkələrinin bir çoxunda eyni cinsdən olan cütlər arasında evlilik geniş yayılmışdır. Bu eybəcər meyil Avropa ölkələrindən Hollandiya, Belçika, İspaniya, Norveç, İsveç, Portuqaliya və İslandiyada qanuniləşdirilib. Təəssüflər ki, bu proses daha da genişlənir. Bu da inkişafın "son" məhsuludur.

ölkələridir. 2012-ci ildə belə ölkə Norveç olmuşdur. İslandiya (2 yer), İsveç (3), Yeni Zelandiya (4), Danimarka (5), Finlandiya (6), Avstraliya (7), Belçika (8), İrlandiya (9), Hollandiya / Böyük Britaniya (10). 2013-cü ildə isə Finlandiya birinci yerdə olmuşdur.

Müxtəlif illərin, məlumatlarına görə 125 ölkə arasında analar üçün ən əlverişli və təhlükəsiz şərait Skandinaviya ölkələri olmuşdur. Məsələn, İsveçdə ailə-nikah münasibətləri Avropa mentalitetindən qaynaqlanır. Ölkədə iki nikah növü mövcuddur. Sambor (birgəyaşayış) adlanan nikahda tərəflər qeydiyyatsız yaşaya bilər. Sonadək ömür sürənlər də az deyil. Bu nikahda qadın barmağına bir üzük taxır. Cift adlanan ikinci nikah növü kilsənin xeyir-duası, ər və arvadın ərizəsi əsasında yerli bələdiyyədə rəsmiləşdirilir. Belə nikahda qadın iki üzük taxır.

Yuxarıda qeyd etdiyimiz kimi, ana olmaq üçün ən pis şərait Afrikadadır. Orada hər il 2 milyon uşaq doğumun ilk günündə tələf olur. Nigeriyada vəziyyət daha dəhşətlidir.

**London iqtisadiyyat məktəbinin üzvlərinin apardığı tədqiqatlardan belə nəticə çıxarılmışdır ki, övlad gözləyən insanların ən gözəllərinin qızı, zahiri görkəmcə çox da cazibədar görünməyən, amma əqli üstünlüyünə görə fərqlənənlərin isə oğlu olmaq ehtimalı yüksəkdir. Qərb dünyasında müxtəlif adları çəkməklə də bunu sübut etməyə çalışırlar. Dünyada belə bir fikir də formalaşıb ki, ayrı-ayrı millətdən olan cütlüklərin övladları gözəl olur.** Bunu da təsdiq edən çoxsaylı adlar da çəkmək olar.

Təkamül qanunlarına görə övladlar valideynlərin ən yaxşı cəhətlərini özlərində cəmləşdirirlər.

Qadınların kəskin silahı həmişə onların gözəlliyi olub. Daha doğrusu, öz cazibədarlıqları ilə fəxr edirlər. (İngiltərə mütəxəssislərinin son araşdırmaları göstərir ki, qadınların təxminən yarısı öz şəklinə baxan zaman narazılıq, stress keçirirlər. Qadınların əksəriyyəti özlərinə tənqidi yanaşır, şəklə baxan zaman ilk olaraq diqqətlərini narazı olduqları məqamlara yönəldir

və dərhal da kefləri pozulur. Onların öz şəkilləri ilə bağlı narazılıqları daha çox təbəssümlərinin "xoşagələn alınmaması", dişlərinin kifayət qədər ağ olmaması, həmçinin bədən quruluşlarının şəkildə pis düşməsilə bağlıdır.) **Hətta Hollandiya tədqiqatçıları belə nəticə çıxarıblar ki, kişilər gözəl bir qadınla ilk dəfə qarşılaşandan sonrakı bir neçə dəqiqə ərzində onların ağlı başından çıxır, beyin fəaliyyətləri zəifləyir. Yəni kişilər özlərini itirir, onlar sağlam düşünə bilmir, hərəkət və danışıqlarında səhvlərə yol verirlər. Ancaq unutmaq lazım deyildir ki, Ərəb məsəlində deyilir: «Qadının gözəlliyi balaca uşağın əlindəki silaha bənzər. Bu silah həm özü, həm də ətrafındakılar üçün çox təhlükəlidir». Yapon məsəlində isə qadınlar gözəl mənzərəsi olan dağlara bənzədilir və onları ancaq uzaqdan seyr edib zövq almaq tövsiyə edilir.**

Zahiri gözəllik qızlar üçün əsas olsa da qadının üz gözəlliyi keçici, xasiyyət gözəlliyi isə daimidir. Oğlanlar isə gözəl olmaya da bilərlər. **Dünyanı kişilər, kişiləri isə qadınlar idarə edir – fikri də müasir kişilərin əksəriyyətinin etirafıdır. Bu fikrə qarşı mənfi münasibətdə olsaq da reallıq budur.**

**Bütün bunlar birbaşa və dolayısı ilə cəmiyyətdə iqtisadi amilləri formalaşdırır.**

Bu gün qadınların intellektual səviyyəsindən və peşəkarlığından necə istifadə olunur — sualına cavab axtarsaq burada kifayət qədər ehtiyatların mövcudluğunu müəyyən etmiş olarıq. Beləliklə, intellektual kapital yeni mahiyyət kəsb etməli, idarəetmə elmi əsaslara söykənməlidir.

### 5.3. Sağlam təfəkkürlü və intellektual qadınlar iqtisadiyyatın aparıcı qüvvəsidir

**İngilis yumoruna görə Allah-taala əvvəlcə kainatı yaratdı, istirahət elədi, sonra kişiləri yaratdı, istirahət elədi, nəhayət, qadınları yaratdı və o vaxtdan indiyə kimi nə kainat, nə də kişilər istirahət etmir.** Əlbəttə, bu bir zarafatdır. Tarixən

qadınlar bəşəriyyətin inkişafında sanballı rol oynamışlar.

«Forbes» jurnalı 2006-cı ilin məlumatlarına əsasən ictimai rəyə təsiri, iqtisadi (o cümlədən kommersiya) və siyasi idarəçilikdə rollarına görə dünyanın ən güclü 100 qadınının siyahısını tərtib etmişdir. İlk yeri Almaniya kansleri Angel Merkel tutub. ABŞ Dövlət Katibi Kondoliza Rays isə 2-ci (Rays 2005-ci ildə lider olmuşdur), ÇXR baş nazirinin müavini By Ju 3-cü yerdə olmuşdur. İlk onluğu «Pepsi» firmasının Hindistandan olan nümayəndəsi İndra Nooyi, «Xerox»un təmsilçisi Anna Mulkay, fransalı iş adamı Anna Lovergen təmsil etmişdir. İki türk qadını «Sabançı Holdinq»in idarə heyətinin rəhbəri Gülər Sabançı 65-ci, «Doğan Holdinq»in idarə heyətinin üzvü İmrə Barmanbek isə 100-cü sırada olmuşlar.

2011-ci ildə Almaniya kansleri Angela Merkel yenidən birinci pillədə, ikinci ABŞ-ın dövlət katibi Hillari Klinton, üçüncü Latın Amerikasının ən böyük iqtisadi gücü olan Braziliyanın ilk qadın dövlət başçısı Dilma Roussef, dördüncü "Pepsi Cola"nın rəhbəri İndra Nooyi olmuşlar. ABŞ prezidenti Barak Obamanın xanımı Mişel Obama 8-ci yeri tutmuşdur.

Hər il bu siyahı dəyişir və yeni-yeni adlara rast gəlmək olar. Lakin birinci və sonuncu olmasından asılı olmayaraq dünya siyasətinə və iqtisadiyyatına qadın amilinin təsiri danılmazdır və bəzən həlledici rola malikdir.

1991-ci ildə ABŞ prezidenti Klinton arvadı Hillari ilə ölkəni səyahətə çıxarkən Çikaqo yaxınlığındakı xırda bir benzindoldurma məntəqəsində dayanırlar. Benzindoldurma məntəqəsinin sahibi məşhur qonaqları görməkdən şad olduğunu gizlətmir. Klintona göz vuraraq demişdir: «Billi, hələ məktəbdə oxuyanda Hillaridən kəsirdim. Hətta onunla gəzib-dolaşmışıq da!».

Klinton oğlanın bu sözünə qəhqəhə çəkib gülmüş və arvadına demişdir: «Hillari, sən bu oğlana ərə getsəydin, indi kimiydin?».

Hillari halını pozmadan sakitcə xarakterinə uyğun cavab vermişdir: «Amerika prezidentinin arvadı!».

**Bəli, bu hadisənin həqiqətən baş verib-verməməsindən asılı olmayaraq bütün amerikalılar təsdiq edə bilər ki, Hillari hər hansı amerikalını prezident kürsüsünə oturtmaq qabiliyyətinə malik qadındır.**

Klintona ərə getməyinin səbəbkarı da məhz Hillarinin özü olub. Yell Universitetinin tələbəsi olan Hillari bir dəfə kitabxanadakı oğlanlardan birinin gözünü ona zillədiyini görüb və buna dözməyərək yerindən qalxıb zalın bir başından o biri başına gəlib və Klintonun düz qənşərində dayanaraq demişdir: «Əgər bir də mənə baxsan, arxamı sənə çevirməyə məcbur olacağam. Sən az qala gözünlə məni yeyirsən, bəlkə tanış olaq? Mənim adım Hillari Rodemdi… Nə gözünü döyürsən? Adın yadından çıxıb, nədi?»

Klinton «hə» dedi, - «yadımdan çıxıb». Bu cür tanışlıqdan sonra onlar ailə həyatı qurublar və 1971-ci ildə evləniblər.

Hillarinin atası çox varlı idi. Hillarinin ömrü boyu qazandığı təqaüd və mükafatların heç biri atası ilə bağlı deyil. O, bütün bunlara şöhrət xatirinə, birinci olmaq naminə nail olub. Olduqca şöhrətbaz və eqoist(xudpəsənd) bir qadındır. Hillari yeganə prezident arvadı olub ki, ərinin bütün işlərinə qarışıb. Hətta ərinin prezidentlik dövrü başa çatandan sonra senatın üzvü oldu. 2008-ci il prezident seçkilərində isə prezidentlik uğrunda son ana qədər mübarizə apardı və 2009-cu ildən artıq ABŞ-ın Dövlət Katibi vəzifəsinə təyin olundu.

Vladimir Putinin arvadı Lyudmila Putinanın[1] sözlərinə görə, onun əzmkar və müstəqil qərar qəbul edən əri var. Ərinin siyasi işlərinə heç vaxt qarışmır. Ərinin iki fikrini söyləməkdən çəkinmir:

1. qadın evdə bütün işləri görməlidir;
2. qadını çox tərifləmək olmaz, əks halda pozular.

Almaniya kansleri Angel Merkel iki dəfə ərə gedib. Bö-

[1] Qeyd: 2013-cü ildə cütlük rəsmi olaraq ayrılıblar.

yük Britaniyanın sabiq baş naziri Toni Bleyrin xanımı Şeri Bleyr 4 övlad anasıdır. O, vəkildir. Vəkil və şəxsi «Matriks» hüquq firmasının rəhbəri kimi ərindən 2 dəfə artıq qazanırdı. Onun razılığı və məsləhəti olmadan Toni Bleyr heç bir strateji qərar qəbul etmirdi. Vaxtilə «Forbes» jurnalı onu dünyanın ən nüfuzlu qadınları sırasında 12-ci yerdə vermişdir.

**Yunan təmsilçisi Ezop (e.ə. VI-V əsr) demişdir: «Arvada öz daxilini açıb göstərmə, heç bir sirrini demə, unutma ki, ailə həyatında qadın heç vaxt silahı yerə qoymayan, daim səni özünə tabe etdirməyə çalışan çox qorxulu rəqibdir».**

**İspan məsəlində isə deyilir ki, evliliklə qarpız arasındakı oxşarlıq odur ki, hər ikisinin necə olacağını əvvəlcədən bilmək olmur.**

Vaxtilə Martin Van Buren[1] (1782-1862) adlı ABŞ prezidenti Ağ Evi tərk edəndən sonra öz memuarlarını (xatirələrini) yazmışdır. Memuar yazmaq siyasətdən getmişlər üçün adi haldır. Maraqlı cəhət odur ki, Martin Van Buren memuarlarında öz həyat yoldaşının adını bir dəfə də çəkməmişdir. Yəqin ki, bu unutqanlıq deyil, münasibətlərin kəskinliyindən yaranan əlamətdir.

Açıq-saçıqlıq Fransa xarakterinə uyğundur. Lakin prezident səviyyəsində hadisələrin cərəyan etməsi xoşagəlməzdir və təəccüblüdür. Belə ki, 2007-ci ildə Fransa prezidenti seçilmiş Nikolya Sarkozidən boşanan xanımı, Fransanın məşhur teleaparıcısı olmuş 49 yaşlı Sisilia mətbuata müsahibə verərək 2005-ci ildə Riçard Attias adlı iş adamına vurulduğunu «cəmiyyət həyatının ona uyğun olmadığını» və «aramsız xalqın gözü önündə olmaqdan bezdiyini», sarayda öz yerini görmədiyini etiraf etmişdir. Bu eşq macərası boşanmanın əsas səbəbi olmuşdur. Baxmayaraq ki, hal-hazırda onlar arasında heç bir münasibət yoxdur. Sisilia Sarkozinin seçkilərdə qələbə qazanması üçün əlindən gələn köməyi etmişdir. Sisilia N.Sarkozi ilə 1987-ci

[1] Qeyd: Martin Van Buren (1837-1841-ci illərdə) ABŞ-ın prezidenti olub.

ildən yaxın münasibətdə olmalarına baxmayaraq, ancaq 1997-ci ildə rəsmi olaraq evləniblər.

Sisilia Fransa tarixində prezident ikən ərindən boşanan ilk qadındır. O, etiraf edib ki, bu onu ağrıdır. Lakin, bu addımı atmaq lazım idi.

Sisilianın Fransada belə populyarlıq qazanması onun əvvəlki ərinin ən məşhur teleaparıcı olması faktıdır. Sisilianın xəyanəti onunla teleaparıcının yollarını istər-istəməz ayırmışdır.

Yunanıstanda qadına şeytan nəslindən olan varlıq kimi baxırlar. Bəlkə də bunun nəticəsidir ki, Çexovun hekayələrində gəncin aşiq ola biləcəyi qadın surəti tapmaq mümkün deyil. Dahi şairimiz Bəxtiyar Vahabzadə Çexovun "Popriqunya" hekayəsini xatırladaraq yazır: "Hekayədəki qadın, zəmanəmizin böyük adamları ilə oturub durmağı çox sevir. Evində bu seçmə adamlara tez-tez ziyafətlər verir. Qadının əri də xidmətçi kimi həmin adamların qulluğunda durur. Yalnız ər öləndən sonra qadın başa düşür ki, onun öz əri həsrətində olduğu seçmə adamların hamısından seçmə, hamısından böyük imiş. Arvad isə bir damın altında yaşadığı ərini adi adam hesab eləmiş, onun böyüklüyünü görə bilməmişdir"[1].

**Bütün bunlarla yanaşı həyat göstərir ki, qadın gözəlliyi bəzən bütöv bir tarixi, əsri dəyişməyə qadirdir. Hətta qədimlərdə ən gözəl qənimətlərə və ən gözəl qadınlara malik olmaq uğrunda nə qədər müharibələr olmuş, nə qədər qəhrəmanlıqlar göstərilmişdir.**

Eyni vaxtda həm Yuli Sezarı, həm də Mark Antonini sevən, riyakarlıq fonuna bürünmüş cazibədar Kleopatra haqqında (Kleopatra həm də Mark Antonini qanuni arvadı Ostaviyadan boşanmağa məcbur etmişdi) **Fransız Paskalın «Kleopatranın burnu əyri olsaydı, tarix özgə yolla gedərdi» aforizmi hər dövr üçün qəbul ediləndir.**

---

[1] Bax: Bəxtiyar Vahabzadə. "Ədəbiyyat və incəsənət" qəzeti. 25.X.1969-cu il, s.10.

**Qadınlar azadlığa meyillidir. Rus məsəlində isə əksinə deyilir, əslində qadına müstəqillik vermək təhlükəlidir.**

Yaponiyada güclü ailə ənənələrinin mövcudluğu çoxuna məlumdur. Bu gün də bir çox mərasimlərə əməl edirlər, köhnə görünməkdən qorxmurlar. Bu köhnəlik yaponlara nə texnika sahəsində, nə ədəbiyyatda, nə mədəniyyətdə dünyada ən aparıcı yerlərdən birini tutmağa qətiyyən mane olmur. Səbəbi isə odur ki, Yaponiya dünyada nə yaxşı varsa hamısını alır, öz daxilində əridir, yəni özününküləşdirir, bundan sonra isə tamamilə başqa bir formada, yüksək keyfiyyətdə yenidən dünyaya qaytarır.

Təəssüflə qeyd etmək lazımdır ki, son vaxtlar sahibkarlıqla məşğul olan yapon qadınlarının 80-90 faizi ailə həyatına ikinci dərəcəli proses kimi baxırlar. Belə qadınlar sərbəst yaşamağa daha çox üstünlük verirlər. Belə olan halda yapon kişiləri qeyri-millətlərin nümayəndələrilə evlənməyə məcbur olurlar. Bu isə gələcək nəslin inkişafına, bir millət kimi formalaşmasına mənfi təsir göstərir.

Məlumatlara görə Yaponiyada uzunömürlülərin əksəriyyəti qadınlardır. Onlar yaşı yüzü ötənlərin 85,4 faizini təşkil edir. Rəsmi məlumata görə yaşlıların daha çox yaşadığı ərazi Yaponiyanın ən cənubu olan Okinavadır. Bu gün Yaponiyada yaşı 100-ü ötmüş insanların sayı 100.000-dən çoxdur. Bu Yaponiyada insan kapitalına verilən yüksək qiymətdir, insanların yaşayış səviyyəsinin nə dərəcədə yüksək olmasının göstəricisidir.

## 5.4. Maddi təminat və boşanma problemi

Amerika filosofu, psixoloqu və jurnalisti Napoleon Xill 1937-ci ildə Böyük Durğunluğun qaynar dövründə çap etdirdiyi “Düşün və zənginləş” əsəri 70 ildən çoxdur ki, zənginləşməyə doğru yollar göstərən klassik ədəbiyyat sayılır. Ö dövrdə gələcəyə ümidlərini itirən insanlar üçün bu kitab çox vacib idi. Napoleon Xill yazır ki, insanların çoxu məndən soruşur ki, niyə Siz pul haqqında kitab yazmağı lazım bildiniz? Məgər var-dövlət ancaq

pulla ölçülür? O qeyd edir ki, bu və digər suallar ona görə yaranır ki, insanlar indiyə kimi xoşbəxtliyi pulda yox digər şeylərdə görürdülər. **Bəli pulla ölçülə bilməyən var-dövlət də var, lakin buna baxmayaraq hansısa bir insana seçim təqdim edilir – pul və ya onun maddi ekvivalenti. O sizə cavab verəcək – mənə pul verin və lazım olan hər şeyi pulla ala bilərəm.**

Napoleon Xill sözünə davam edərək yazır ki, mənim bu kitabda ancaq pul haqqında yazmağımın səbəbi hal-hazırda dünyada kasıb qoxusunun heç vaxt görünməyən həddə çatmasıdır.

Pul nədir? Sadəcə bir kağız parçası. Pula sevgi, dostluq, məhəbbət, səxavət, kiminsə dərdinə şərik olmaq kimi hissləri almaq mümkün deyil. Amma pul çatışmayanda insanlar bunların hamısını yaddan çıxarır və pis ruh düşkünlüyündə olur. **Evsiz-eşiksiz və yaşamağa maddi imkanı olmayan insan onsuz da puldan başqa heç nə haqda düşünə bilmir.**[1]

Müdriklərdən biri deyib ki, ailə-xoşbəxtliyin açarıdır. **Lakin dövlətin əsası olan ailədə də problemlər mövcuddur. Bu problemlərin kökündə əsasən pul amili dayanır.**

Mütəxəssislər insan ömrünün necə keçdiyi haqda tədqiqat aparmışlar və aşağıdakı nəticəyə gəlmişlər:

İnsan həyatı boyu 30 min km yol gedir, 18 il ayaq üstə durur, iki üzgüçülük hovuzunu dolduracaq su qədər tüpürür, 25 min at gücündə enerji itirir, 300 ton yük qaldırır, 26 il yatır, 2 il telefonla danışır, 5 il uşaqlıq həyatı keçirir, 5 il tualetdə və hamamda vaxt keçirir, 15 il işləyir, kişilər isə 14 il (3350 saat) üzünü qırxmağa sərf edir.

Yerdə qalan 5 ildə insan ya yaşayır, ya da yaşamır. İnsanı yaşadan və yaşamaqdan bezdirən isə ailə həyatıdır. Belə olan

---

[1] Вах: Наполеон Хилл. Думай и богатей. Классическое издание, исправленное и дополненное / Наполеон Хилл. – СПб.: Прайм – ЕВРОЗНАК, 2009, с. 16, 283,

tərzdə bu beş ili problemlərlə yaşamağa dəyərmi? Əlbəttə bu problemlərin obyektiv və subyektiv səbəbləri mövcuddur.

Mətbuatdan oxumuşam ki, Bakıda mövcud olan qadın cəzaçəkmə müəssisəsinin karsının qapısında yazılıb: **“Qadın evin açarıdır, çalış onu itirməyəsən”.**

**Doğrudur, ancaq bunun mexanizmi nədir?**

Son tədqiqatlar göstərir ki, inkişaf etmiş ölkələrdə qadınlar ailə həyatından tez bezirlər. Onlar ərə getdikdən bir müddət sonra ailə həyatının maraqsız olduğunu düşünürlər.

Ümumiyyətlə, hər bir fərd, müsbət və mənfi cəhətləri götür-qoy edib, nikahın məsrəflərini nəzərə almalıdır. Hamı üçün ən əsas mənfi cəhət – müstəqilliyi itirməkdir. İnsanlar heç vaxt tam sərbəst olmurlar: onlar öz hərəkətlərinin başqalarına təsirini nəzərə almalıdırlar. Ailədə fərdlərin hərəkətlərinin nəticəsi daha təsirli və birbaşa ola bilər. Ona görə də, hamı hərəkətlərini ayrı yaşadığı zamandan fərqli olaraq daha çox məhdudlaşdırmalı olur[1].

Turqut Özal deyərdi: «Millətin gələcəyi və gücü ailə tərbiyəsindədir. Ailə insana möhkəm milli adət-ənənələr çərçivəsində müasir tərzdə düşünmək bacarığı aşılamalıdır». Q.Bekker yazır ki, nəhayət, iqtisadçılar daimi olaraq ailə problemlərini təhlil etməyə başlamışlar[2].

**Q.Bekker öz tədqiqatlarında boşanma probleminin kökündə maddi imkanın mövcudluğunu dəfələrlə şərh etmişdir.** O yazır ki, boşanma və ərin ölümü zamanı uşaqların iqtisadi cəhətdən daha zəif olduğuna görə qadınların onlara qulluq etməkdə ixtisaslaşması, bütün cəmiyyətdə insan nəslinin

---

[1] Bax: İqtisadi nəzəriyyə. Mikroiqtisadiyyat – 1,2: Dərslik / RF əməkdar elm xadimi, professor, iqtisad elmləri doktoru Q.P. Juravlyovanın ümumi redaktəsi ilə. – 3-cü nəşr, düzəldilmiş və əlavələr edilmiş. – M.: “Daşkov və K$^0$” nəşriyyat – ticarət korporasiyası, 2007. Azərbaycan dilinə tərcümə. 2009, s. 184.

[2] Вах: Экономическая теория / Под ред. Дж. Итуэлла, М.Милгейма, П.Ньюмена: Пер. с англ. / науч. ред. чл. корр. РАН В.С.Автономов – М.: ИНФРА – М.: 2004 – XII, с. 308.

təzələnməsi (təkrarlanması) ilə qanuni məşğul olan kişilər və qadınlar arasında «nikah» adlanan uzunmüddətli müqavilə bağlanmasını tələb edərək, bu problemin mövcud olmasını qəbul etdilər. Çox zaman xristian cəmiyyətlərində bu müqavilələr zina, ərin yoxluğu və ya ölümü halları istisna olmaqla pozula bilməzdi. İslam və Asiya ölkələrində nikah digər səbəblərdən pozula bilər, lakin bununla belə, əgər kişilər üzürsüz səbəbdən boşanırdılarsa, onların arvadlarına kompensasiya ödənilməsi tələb olunurdu[1].

Avropa İttifaqında hər iki nikahdan biri boşanma ilə hər üç uşaqdan biri isə nikahdan kənar doğulur. Boşanmaların sayına görə liderlik edən ölkələr Çexiya və Litvadır. Bu ölkələrdə hər 1000 nəfərə 3,3% boşanma düşür. Boşanmaların ən aşağı səviyyəsinə isə İrlandiya (0,7%), İtaliya (0,8%) və Yunanıstanda (1,1%) rast gəlinir.

Son vaxtlar Böyük Britaniyada pis ailə həyatının göstəriciləri haqda araşdırma aparılıb (bunlar çox zaman boşanmaya səbəb olur) və aşağıdakı nəticələr çıxarılıb:

1. Ər və arvaddan biri yatarkən digəri televizora baxır.
2. Biri söhbət edərkən digəri kitab oxuyur.
3. Ər və ya arvad problemlərini bir-biri ilə paylaşmır.
4. Cütlük bayırda görüşüb gəzməyə getmir.
5. Ər və arvaddan birinin işlə bağlı problemi olduqda biri digərini dinləmir.
6. Cütlük birlikdə televizora baxarkən biri digərinə nəzər yetirmir.
7. Ər və arvad övladlarından başqa heç nə haqda səmimi söhbət edə bilmirlər.

Bütün bunlar və digər amillər boşanmaya səbəb olsa da İsveç alimləri təbii ki, yuxarıda göstərilən amillərlə yanaşı, tədqiqatlarında belə bir nəticəyə gəliblər ki, “boşanma” geni

---

[1] Bax: Экономическая теория / Под ред. Дж. Итуэлла, М.Милгейма, П.Ньюмена: Пер. с англ. / науч.ред.чл.корр. РАН В.С.Автономов – М.: ИНФРА – М.: 2004 – XII, с. 316.

nikahın bitməsində əhəmiyyətli rol oynayır. “Oksitosin” adlandırılan bu gen, qadınlarda doğuşdan sonra ifraz olunan hormon onların ətrafdakılarla ünsiyyət qurmasında mühüm əhəmiyyət kəsb edir. Hormonu qayda-qanunla, nizamlı ifraz etməyən qadınlar həyat yoldaşlarına, ətrafdakılara bağlanmaqda çətinlik çəkirlər. Bu gen boşanmaya səbəb olur və ətrafdakılarla ünsiyyət qurmaqda problemlər yaradır.

Həmişə nikaha daxil olanların sayı boşananlardan çox olub. Adət-ənənələrə uyğun olaraq insanlar rəsmi nikaha üstünlük versələr də, boşanmalardan çox hallarda dövlətin xəbəri olmur. Bazar münasibətləri bunu daha da gizli xarakterə çevirib.

Bizə belə gəlir ki, **milli şüur formalaşmadan bu prosesin müsbət həllini gözləmək düzgün deyil.** Əgər qanunla qadağan edilərsə, onda yuxarıda qeyd etdiyimiz kimi rəsmi boşanma halı baş verməsə də cütlüklər bir yerdə yaşamaqdan qeyri-rəsmi olaraq imtina edəcəklər. Məhkəmədə ərizə vermədən süni qeydiyyatları olsa da, ailə münasibətləri pozulmuş hesab ediləcəkdir. Bu hal isə heç bir zaman millətin gələcəyinə müsbət mənada yaxşı heç bir şey vəd etmir.

ABŞ və Almaniya tədqiqatçıları bu qənaətə gəliblər ki, boşananlar nadir hallarda özlərini xoşbəxt saya bilərlər. Bu fikrin özü də müstəsnalıq təşkil edir və bununla tam razılaşmaq olmaz. Buna fərdi yanaşılsa, fərqli mövqelərdə dayananların nisbətini müəyyən etmək mümkündür. Digər bir tərəfdən, hər bir millətin mentalitetinə uyğun təhlil aparılması zəruridir.

Tədqiqatçıların fikrincə, boşanmışlar ailəlilərlə müqayisədə həyatdan daha az zövq alırlar. Bu yəqin ki, cütlüyün xarakterinin nisbətən uyğunluğu ilə bağlıdır. **Bütün boşanmaların əvvəlində bir məmnunluq hissi yaranır. Sanki onlar hansısa zülmdən qurtulduqlarına, sərbəst olduqlarına görə xoşbəxt olduqlarını söyləyirlər. Bunun nə dərəcədə real olduğunu sübut etmək çətindir.**

İnsana qarşı münasibətdə xüsusilə seçilən ölkədaxili demokratiyaya, iqtisadiyyatın hərtərəfli inkişafına, həyat səviyyəsi-

nə görə dünyada ilk yerlərdən birini tutan İsveçin ən böyük problemi boşanmadır. Demək olar ki, evlənənlərin yarıdan çoxu bir müddət sonra ayrılır. Ümumiyyətlə bütün Qərbdə, o cümlədən İsveçdə ailənin dağılması çox adiləşib.

Böyük Britaniya kralı tacının varisi, şahzadə Çarlzın guya etibarsızlığına cavab olaraq xanımı Diana ərinə cəmiyyəti üçün bəlkə də adi görünən çox böyük sədaqətsizliklə cavab vermişdir. Son məlumatlara görə Diana özünə çoxsaylı məşuqlar seçmiş ərindən boşanmış, sarayla olan əlaqələrini kəsmişdir. Son məşuqu misirli ərəb olan Dodi Əl-Fayedlə Parisdə avtomobil qəzasında həlak olan Diananın dəfni dünyada milyonlarla insanın, onun pərəstişkarlarının matəminə çevrildi. Diana bu hərəkəti ilə Britaniya kral tacını təhqir etmişdir ki, onun da bağışlanması mümkün olmayan bir hadisədir. O, məşuqu ilə Parisdə avtomobil qəzasına uğradı və məşuqu ilə birlikdə faciəli surətdə həlak oldular. Bu günə qədər dünya ictimaiyyəti bu hadisələri birmənalı qiymətləndirmirlər[1]. Halbuki, tarixə nəzər salsaq görərik ki, 1850-ci illərə qədər İngiltərədə ümumiyyətlə boşanma qadağan idi. İndi isə İngiltərədə evlənənlərin 30%-i boşanır. Bu rəqəm Amerikada, İsveçdə  və digər Qərb ölkələrində daha yüksək faizi təşkil edir[2].

[1] Qeyd: Böyük Britaniya şahzadəsi Diana barədə qalmaqallı məlumatlar ara vermir. Belə ki, 2009-cu ildə Fransanın 83 yaşlı keçmiş prezidenti Valeri Jiskar D' Esten "Prezident və şahzadə" adlı kitab yazıb. O, bu kitabda Diana ilə eşq macərası yaşadığını iddia edir. Jiskar Diana ilə 1980-ci illərdə "C7" zirvə toplanması zamanı təşkil olunan ziyafətdə tanış olduğunu yazır. Guya o vaxt Diana əri şahzadə Çarlzın onu aldatdığını öyrənibmiş. Prezident şahzadə ilə sevişərkən 55 yaşında, Diana isə 19 yaşında olub. Valeri Jiskar  D' Estenin yazdığına görə o Dianaya eşq hekayəsindən kitab yazacağına söz verib və bu gün vədini yerinə yetirir.

[2] Bax: Экономическая теория / Под ред. Дж. Итуэлла, М.Милгейма, П.Нюмена: Пер. с англ. / науч.ред.чл.корр. РАН  В.С.Автономов – М.: ИНФРА – М.: 2004 – XII, с. 316-317.

Tarixdə buna bənzər hadisələr çox olmuşdur. Lakin məşhurların başına gələndən sonra tarixə çevrilir. Ceyms Bükenen[1] (1791-1868) ABŞ tarixində yeganə subay prezident olmuşdur. O, bir dəfə nişanlanmış, lakin sonradan sevdiyi qız nişanı pozmuş, bundan az sonra isə vəfat etmişdir. Prezident öz sevgilisinin xatirəsi ilə yaşamağa üstünlük vermişdir.

İstanbul Opera və Balet Teatrının səhnələşdirdiyi *Giasomo Puççininin* üçpərdəli «*Madam Batəflay*» («*Madam Butterfly*») operası ötən əsrin əvvəllərində yazılsa da, əsərdə qaldırılan problemlər bu gün də aktualdır.

Opera yapon qızı Cio-Cio-Sanın amerikalı dəniz donanması komandiri Pinkretonla olan talesiz məhəbbətindən bəhs edir. 15 yaşlı yapon qızı məhəbbəti yolunda dinindən və qohum-əqrəbəsindən imtina edir. Xristianlığı qəbul edir. Buna baxmayaraq amerikalı komandir yapon qızını atıb gedir.

Sonradan oğlunun olduğunu bilir. Onu Amerikaya aparmaq üçün Yaponiyaya gəlir. Cio-Cio-San əvvəlcə Pinkretonun birdəfəlik onun yanına qayıtdığını zənn edir, lakin komandirin yanındakı qadını, yeni arvadını gördükdən sonra hər şeyi anlayır. O, oğlunun Amerikaya getməsinə mane olmur. Çünki adət-ənənəyə bağlı yapon qadın üçün analıq eşqdən daha önəmlidir. Məhz oğlunun gələcəyi naminə Cio-Cio-San eşqinin ətrini duyduğu sevimli övladının Amerikaya getməsinə icazə verir. Eşqsiz və övladsız yapon qadını ən doğru yolu – ölümü seçir. Mədəniyyətlərdəki, adət-ənənələrdəki fərqlər məhəbbətə qalib gəlir[2].

2006-cı ildə Böyük Lüksemburq Hersoqu Henrinin üçüncü oğlu şahzadə Lui taxt-taca sahib olmaqdan imtina etmişdir. O, Tessi Antoni adlı sadə bir qızla evlənməyə qərar vermişdir.

Bu cür tarixi keçmişi olan məşhur ailələrdə belə bir hadisənin baş verməsi yenilikdir. Maraqlı cəhət bir də odur ki, şahzadənin valideynləri Luinin qərarına etiraz etməmişlər.

---

[1] Qeyd: Ceyms Bükenen 1857-1861-ci illərdə ABŞ-ın prezidenti olmuşdur.
[2] Bax: 525-ci qəzet. 25 fevral 2006-cı il.

Şahzadə Luinin Tessidən Qabriel adlı oğlu doğulmuşdur. Bu, Lüksemburq böyük hersoqunun ilk nəticəsi idi.

2007-ci ildə Danimarka şahzadəsi Aleksandra özündən 15 yaş kiçik fotoqraf Martin Yorqensə ərə gedib. Martin Yorqens kral ailəsinin fotoqrafı, ailə haqqında çəkilən bütün filmlərin müəllifidir. Nikahdan sonra Aleksandra formal olaraq kral ailəsinin üzvü sayılmır və şahzadə titulunu itirmişdir.

Aleksandra 1964-cü ildə Honkonqda anadan olub. Bu Şahzadənin ikinci nikahı idi. O, 1995-ci ildə Yaponiya şahzadəsi Yoakimayla ailə qurmuşdur. Doqquz ildən sonra boşanmışdılar. Onların iki oğulları var.

Birləşmiş Ştatların Əhalinin Siyahıyaalınma Bürosunun məlumatlarına görə, evlənmiş 86 kişinin payına ərə getməmiş 100 qadın düşür.

**40 milyon subay amerikalı kişi və qadın internetdəki tanışlıq saytları vasitəsilə ailə qurmağa çalışırlar. Artıq bu cür tanışlıq forması kompyuterin geniş yayıldığı ölkələrə xas olan xüsusiyyətdir[1].**

Latviya hökuməti aliment verməyən valideynləri sürücülük vəsiqəsindən məhrum etməyi qərara alıb. Məqsəd boşanmış ailələrdə böyüyən uşaqların maddi rifahını yaxşılaşdırmaqdır.

Tarixə nəzər yetirsək nikahın pozulmasına görə qadınların həmişə ağır cəzaya məruz qaldıqlarını görmək olar. Bu tədbirlər bəzən ölüm hökmü ilə nəticələnirdi. Ərli qadınların xəyanəti isə ən böyük günah hesab edilirdi.

Assuriya qanunlarına görə günahkar qadını məhkəməyə çağırıb boşanma elan edirdilər. Razılığa əsasən qadın ərinin

[1] Qeyd: 2010-cu ildə Pekindəki mağazaların birində evlənmək istəyənlər üçün yeni xidmət növü açılıb. Belə ki, evlənmək istəyənlər boylarına, yaşlarına uyğun həyat yoldaşı tapa biləcəklər. Mağazada ailə qurmaq istəyən namizədlərin şəkilləri verilir və onlar haqqında rəhbərlik tərəfindən məlumatlar toplanır və bəyənilən şəxs barədə məlumatlar mağazadan asılır. Mütəxəssislərin dediyinə görə guya bu üsul internetdən daha etibarlı və inandırıcıdır.

evində qala da bilərdi. Lakin o, özünün təzə günüsünə tam surətdə qulluq göstərməlidir.

Yaponiyanın bir sıra regionlarında boşanmaq istəyən ər və arvadı bir «qayalıq» yerə göndərirlər. Onlar orada qalırlar. Belə halda əlacsız qalmış ər və arvad barışmalı olur və yalnız bundan sonra onlar öz evlərinə qayıda bilərlər.

Hətta Yaponiyanın bir sıra regionlarında kişilərə belə hüquq verilir ki, əgər gecələr onun arvadı xoruldayırsa, onu boşaya bilər. Burada qadının xoruldaması valideynin qızını pis tərbiyə etməsi əlaməti kimi qiymətləndirilir[1].

İ.P.Lebedeva müasir dövrü xarakterizə edərək yazır ki, iqtisadi cəhətdən dünyanın ən inkişaf etmiş ölkələrindən biri olmaqla Yaponiya eyni zamanda ənənəvi şərq cəmiyyətinə xas olan bir çox xüsusiyyətləri saxlamaqdadır. Bu, Yapon qadınlarının timsalında özünü daha aydın göstərir. Müharibədən sonrakı dövrlərdə bu sahədə baş vermiş əhəmiyyətli irəliləyişlərə baxmayaraq indiyə kimi cəmiyyət həyatının bir çox sahələrində qadınlar asılı vəziyyətdədirlər və ikinci dərəcəli rol oynayırlar. İki cins arasında tam bərabərliyə nail olunması haqqında danışmaq yersizdir. İctimai şüur indiyə kimi yapon qadınlarında ilk növbədə arvad və ana rolunu ayırır. Yapon qadınları bütün digər fəaliyyət növlərini yalnız ikinci dərəcəli, yaxud əlavə kimi nəzərdən keçirir. Təbii ki, Yaponiyada da öz qarşısında peşəkar yüksəliş məqsədi qoymuş və elmin, incəsənətin və hətta biznesin müxtəlif sahələrində parlaq karyera əldə etmiş çoxlu qadınlara rast gəlmək olar. Lakin bütövlükdə yapon qadınlarının əksəriyyəti ərə gedərək uşaqları dünyaya gətirir və öz işlərini uzun müddətə tərk edirlər. Onlar daha çox öz ailə vəzifələrinin yerinə yetirilməsinə diqqətlərini yönəldirlər. Asudə vaxtlarında isə, (hansı ki, ev əməyini asanlaşdıran müxtəlif maşın və cihazların sürətli yayılması sayəsində tədricən daha da artmaqdadır) müxtəlif

[1] Bax: Nələr olur bu dünyada! (Toplayıb tərtib edəni və işləyəni Ə.Əsgərov). B.: İşıq. 1990, s. 98-99.

hobbilərə, yaxud müxtəlif könüllü ictimai hərəkatlara, yaxud təşkilatlara həsr edirlər.[1]

Romalı xəyanət etdiyinə və ondan icazəsiz spirtli içki içdiyinə görə arvadını boşaya bilərdi. Çində ər və arvad bir-birinə qarşılıqlı nifrət hissi duyurdularsa, boşanmaya icazə verilirdi. Koreyada yalnız arvadının ona xəyanət etdiyi halda, ər nikahın pozulmasını tələb edə bilərdi. Bundan sonra həmin qadını bircə cəza tədbiri gözləyirdi: ölüm.

Türkmənlər heç vaxt məhkəməyə müraciət etməzdilər. Əgər qadın öz ərindən bir yerə getməyə icazə istəsəydi və onda ər «get» kəlməsi ilə yanaşı «qayıt» sözünü işlətməsəydi, onların arasında nikah pozulmuş hesab olunurdu.

İngiltərədə kral IV Georq əmr etmişdi ki, boşanmış qadınları onun sarayına buraxmasınlar. Sonradan kraliça Viktoriya (1837-1901) da məhz belə hərəkət etmişdi.

Yalnız VII Eduardın taxta çıxması ilə kral sarayının qapıları yenidən «günahkar» qadınların üzünə açılmış oldu.

Psixiatr Ağabəy Sultanov boşanmadan söhbət gedəndə belə hesab edirdi ki, günahın çox hissəsi qadındadır[2].

Fransız yazıçısı Bomarşenin belə bir kəlamı var: «Təbiət qadına demişdir: bacarırsansa gözəl ol, istəyirsənsə müdrik ol, lakin sən hökmən ağıllı olmalısan»[3].

Alfred Nobel[4] öz vəsiyyətində Nobel mükafatının beş istiqamət üzrə verilməsini istəmişdi. Bu istiqamətlərə riyaziyyat elmini daxil etməmişdir. Bunun qəribə tarixçəsi var.

---

[1] Bax: Лебедева И.П. Малый бизнес в Японии. – М.: Восток – Запад. 2004, с. 154-155,

[2] Bax: «Azərbaycan gəncləri» qəzeti. 30.VIII.1984.

[3] Qeyd: ABŞ alimləri tədqiqatlarında belə nəticəyə gəliblər ki, canlı, cüssəli qadınlar zərif həmcinslərindən daha ağıllı olurlar. Onların araşdırmalarına görə, bel və çanaq ölçüləri arasında fərq artdıqca qadın daha ağıllı olur. Bunu qadınların çanaqlarındakı yağ vasitələri ilə əlaqələndirirlər.

[4] Qeyd: Alfred Nobel 6 dili mükəmməl bilirdi, varlı və savadlı idi.

Onun sevgilisi Anna Dezri başqa seçim edərək həmyerlisi Frans Lemarj ilə evlənmişdi. Frans Lemarj riyaziyyatçı olmuş və məclislərin birində Alfred Nobeli pərt etmişdir. Bu hadisə Alfred Nobelə çox pis təsir etmiş və sevgilisini əlindən almış Frans Lemarja görə riyaziyyat elminə və bütün riyaziyyatçılara nifrət formalaşdırmışdır.

O, şer yazmaq qabiliyyətinə malik idi və misralarının birində bir də heç bir gözələ könül verməyəcəyinə and içir. Alfred Nobel sözünə əməl edərək ölənədək heç kəslə evlənmir. 43 yaşında olarkən Alfred Vyana qəzetlərinin birində elan verərək son dərəcə savadlı, Parisdə yaşayan ahıl centlmen katib və təsərrüfat müdiri vəzifələrini icra etmək üçün əcnəbi dilləri bilən orta yaşlı qadın axtardığını bildirir.

33 yaşlı avstriyalı aristokrat qadın olan Berta Kinski Parisə gəlir. Bertaya məlum olur ki, Alfred əslində qulluqçu yox, özünə yaxın bir adam, ömür-gün yoldaşı axtarır. Berta isə başqasını sevirmiş. Beləliklə, A.Nobelin istəyi yenə baş tutmur və bu haqda daha heç bir zaman düşünmür.

Şimali Koreyanın lideri Kim Çen İç arvadının ölümündən iki il keçəndən sonra öz katibəsi Kim Ok ilə evlənmişdir. 1980-cı ilin əvvəllərində Kim Ok pianoçu idi. Lakin sonralar Kim Çen İçin katibəsi olmuşdur. Deyilənə görə o, maraqlı, həm də fərasətli və ağıllı qadın olmuşdur, lakin gözəl deyildi. 1970-ci illərdə Kim Çen İçin həyat yoldaşı Kim Yen Suk olub. Sonra isə o, 2003-cü ildə ürək tutmasından vəfat etmiş keçmiş aktrisa Son Xe Rim ilə, daha sonra rəqqasə Ko En Xi ilə evlənib. O isə 2004-cü ildə döş xərçəngindən vəfat edib.

Afrika dövlətlərində ailə qurmaqda qadınların gözəlliyi o qədər də rol oynamır. Hər şeydən əvvəl qadın təsərrüfat işlərini, dadlı yeməklər hazırlamağı bilməlidir. Dar gündə qadın uşaqlarını saxlamalı, ərinə etibarlı olmağı bacarmalıdır[1].

---

[1] Bax: Nələr olur bu dünyada! (Toplayıb tərtib edəni və işləyəni Ə.Əsgərov). B.: İşıq. 1990, s. 101.

Ağabəy Sultanov yazır ki, bir psixoloq kimi qəti fikrim belədir: **ailədə emosional lider qadındır. Ailədəki iqlim onun işdən dönən ərini necə qarşılamasından, yaxud özünün hansı əhval-ruhiyyədə evə qayıtmasından çox asılıdır.**

**Ağıllı qadın ərinin ən yaxşı keyfiyyətlərini görməyə və onu inkişaf etdirməyə çalışar, bu keyfiyyətlərlə fəxr edər[1].**

Sokrat öz gənc dostlarını evə dəvət etməkdən zövq alırdı. Qonaqlığın birində arvadı özünü saxlaya bilməyib, ərinə dişinin dibindən çıxanı deyir. Bəhanəsi də bu olur ki, evdə yeməyə heç nə yoxdur. Dostları dilxor olsa da, Sokrat halını pozmadan evdə əlinə keçən yemək-içməkdən stolun üstünə düzür, şərab süzür. Dostlardan biri özünü saxlaya bilməyib deyir ki, Sokrat, sənin arvadın dözülməz qadındır. Sokrat deyir ki, sən öz qazlarının qaqqıltısına öyrəşdiyin kimi, mən də öz arvadımın səs-küyünə alışmışam. Hazırcavab dostu deyir ki, qazlarım mənə yumurta verir. Sokrat cavabında deyir ki, arvadım da mənə uşaqlarımı bəxş edib.

**Əri ilə tez-tez savaşan arvadı bir gün Sokratın üstünə hücum çəkir. Sokrat onu daha da əsəbiləşdirmək üçün susmağı üstün tutur. İşi belə görən arvad daha bərk acıqlanır və su ilə dolu vedrəni ərinin başına tökür. Sokrat təmkinini pozmadan deyir: «Təbiətin qanunu belədir: həmişə göy guruldayandan sonra yağış yağır».**

**Ümumiyyətlə, bəzi istisnaları nəzərə almasaq dahilərin əksəriyyəti arvaddan yarımayıblar. Hətta zəka sahibləri üç şeydən birinin qurbanı olurlar: ya ehtiyac içərisində yaşayır, ya gənc ikən ölür, ya da dünyadan sonsuz köçürlər.**

Yunan məsəli var: «Qadınların dəyərli zinəti susmaqdır. Təəssüf ki, heç bir qadın bu zinəti daşımaz».

Homer yazır**: «Qadını susmaq gözəlləşdirir».**

Doğrusu, qadınlar kişilərdən o qədər fərqlənirlər ki, elə bil hardansa başqa planetdən gəliblər. Dahi Veyninger qadınlar, onların psixologiyası, xarakter və rəftarları haqqında özünə qə-

[1] Bax: Ağabəy Sultanov. «Azərbaycan gəncləri» qəzeti. 30. VIII.1984.

dər yazılmış əsərlərə sanki yekun vurub bu məxluqlara aid həqiqət nə varsa, hamısını açıb göstərib. Əlbəttə, bu həqiqətlər ürəkaçan deyil. Təsadüfi deyil ki, Veyningerin «Cins və xarakter» əsərinin hələ ilk nəşrlərindən sonra 5 qız öz təbiətlərinin naqisliyindən dəhşətə gəlib intihar etmişdi. Bütün dünyada dönə-dönə çap olunmuş bu əsər indi də maraqla oxunur.

Veyninger sübut etdi ki, qadınlar fərd deyil, onlarda kişilər kimi bənzərsizlik yoxdur. Hamısı zahirən bir-birinə bənzəməsələr də xarakter və davranışca tamamilə eynidirlər. Biri nə etsə, ətrafındakılar dərhal onu təqlid edəcəklər. Dəstə halında gəzər, bir-birinə ən intim hisslərini açıb tökərlər. Halbuki, kişilər bu cür məsələləri qətiyyən aşkarlamazlar.

Veyninger iki növ qadın görür: ana və fahişə. Ana, əlbəttə mənəviyyatca xeyli yüksəkdir. Məsələn, ana qadınlar türmədən çıxan kişilərə qətiyyən maraq göstərməzlər. Fahişələr isə belə adamdan ötrü, əldən gedərlər.

Ümumiyyətlə, Veyninger göstərir ki, bütün qadınlar bu və ya digər dərəcədə ikinci növə meyillidirlər. Gərək ki, **Pallada adlı bir şair yazmışdı ki, qadınlar iki dəfə yaxşı olurlar. İlk məhəbbət anlarında və ölüm yatağında. Özləri haqqında heç bir həqiqətə dözməz və bunu desən qəti etiraz edərlər. Hətta axsaq və ya burnu eybəcərsə, yenə qətiyyən bunu eybəcərlik hesab etməzlər. Heç vaxt elədiklərini boyunlarına almazlar və ümumiyyətlə, dünyada ən nifrət etdikləri şey həqiqətdir. Ona görə, peyğəmbər bu cinsə uşaq doğub böyütməkdən başqa heç bir ictimai vəzifə tapşırmaz, bunu məsləhət bilməzdi. Çünki qadınların mühakiməsindən ən gözlənilməz və ağlasığmaz qərarlar çıxa bilər.**

**Lakin gəncliklərində gözəl nüsxələri misilsizdir. Gənc və gözəl qızın sevgi etirafından dadlı dünyada heç nə yoxdur.**

**Ona görə onlar nə qədər ağılsız və fərdiyyətsiz məxluq olsalar da, təbii ki, bu cəhətləri və dünyanın bütün böyük ər-**

**lərini məhz onların dünyaya gətirməsi qüsurlarını yuyub aparır[1].**

2007-ci ildə 20 yaşlı Britaniyalı Jozefina Deorti öz toyunda 177,8 kiloqramlıq gəlin paltarı geyib. 25 min funt- sterlinq dəyəri olan paltarı geyinmək üçün iki saat vaxt sərf edib. Paltarın arxa ətəyinin uzunluğu 18 metr olub. Onu aparmaq üçün 8 sürücü və beş qadının köməyindən istifadə olunub. Gəlin mərasimin keçirildiyi yerə 4 saata çatıb. 40 cərgədən ibarət toy tortu isə böyük qalanı xatırladıb. Belə və buna bənzər mərasimlər son illər çox ölkədə keçirilir. Hələ XIX əsrin 60-70-ci illərində K.Marks və bir çox maarifçilər burjua həyat tərzinin bu cür eybəcərliklərini kəskin tənqid etmişlər. Görünür kapitalizm cəmiyyəti 150 il sonra da öz simasını köklü surətdə dəyişmək iqtidarında deyildir. Halbuki, ailə xoşbəxtliyi son nəticədir. Toyun və yaxud var-dövlətin çoxluğundan asılı deyildir.

Tədqiqat apardığımız dövrdə statistikaya görə, dünyada 4,8 milyon körpə doğulub (əhalinin hər 1000 nəfərinə 10,5% uşaq). Avropa İttifaqı ölkələri arasında ən yüksək göstərici İrlandiya (15,2%), Fransa (12,7%), Danimarka, Lüksemburq və Böyük Britaniyada müşahidə olunur (hər üçü – 12%). Ən aşağı doğum səviyyəsi Almaniya (hər 1000 sakinə 8,6% uşaq) və Latviyadır (8,8%).

Azərbaycanda isə son illərdə təkcə rəsmi qeydə alınmış nikahdan kənar doğulan uşaqların sayı təxminən 4 dəfə artıb. Əgər 2000-ci ildə rəsmi qeydə alınmış nikahdan kənar doğulan uşaqların sayı 6282 nəfər idisə, 2010-cu ilin sonuna bu göstərici 25385, 2011-ci ildə 30983, 2012-ci ildə 27031 nəfərə çatıb.

Hər üç körpədən birinin nikahdankənar doğulduğuna nəzər saldıqda bu reytinqdə Estoniyanın birinci yer tutduğunu görmək olar. 2003-cü ildə burada doğulan bütün uşaqların 58 faizi nikah-

---

[1] Bax: Əlisa Nicat. Kobud və heyvani hissləri inkişaf etməmiş kişilər qadınlarda heç bir təsir buraxa bilmirlər (Otto Veyninger). «Hürriyyət» qəzeti. 20 avqust 2002-ci il. № 181(973).

dankənar olub. Sonrakı yerləri İsveç (55 faiz), Danimarka və Latviya (hər biri 45 faiz), Fransa (45 faiz) tutur. Ən aşağı göstəricilər isə Kipr (3 faiz), Yunanıstan (5 faiz) və İtaliyada qeydə alınır.

2012-ci ildə əvvəlki illərə nisbətən Azərbaycanda nikahların bağlanması azalmış, boşanmaların sayı isə artmışdır. 2012-ci ildə rəsmi orqanlar tərəfindən ölkədə 79065 nikah və 11087 boşanma qeydə alınmışdır. Əhalinin hər 1000 nəfəri hesabı ilə 2009-cu ilə nisbətən nikahların sayı 8,8-dən 8,6-a qədər azalmış, boşanmaların sayı isə 0,9-dan 1,2-ə qədər artıb. Birinci nikaha daxil olanların orta yaş həddi kişilər arasında 27,6 qadınlar arasında isə 23,7 yaş olub.

## Azərbaycan Respublikasında nikah və boşanmalar[1]

| | llər | Nikahların sayı | Boşanmaların sayı | Əhalinin hər 1000 nəfərinə | |
|---|---|---|---|---|---|
| | | | | nikahlar | boşanmalar |
| 1 | 1995 | 43130 | 5669 | 5.7 | 0.8 |
| 2 | 1996 | 38572 | 5598 | 5.1 | 0.7 |
| 3 | 1997 | 46999 | 5806 | 6.1 | 0.8 |
| 4 | 1998 | 40851 | 5657 | 5.2 | 0.7 |
| 5 | 1999 | 37382 | 5013 | 4.8 | 0.6 |
| 6 | 2000 | 39611 | 5478 | 5.0 | 0.7 |
| 7 | 2001 | 41861 | 5382 | 5.2 | 0.7 |
| 8 | 2002 | 41661 | 5738 | 5.2 | 0.7 |
| 9 | 2003 | 56091 | 6671 | 6.9 | 0.8 |
| 10 | 2004 | 62177 | 6914 | 7.6 | 0.8 |
| 11 | 2005 | 71643 | 8895 | 8.7 | 1.1 |
| 12 | 2006 | 79443 | 7817 | 9.5 | 0.9 |
| 13 | 2007 | 81758 | 8340 | 9.7 | 1.0 |
| 14 | 2008 | 79964 | 7983 | 9.3 | 0.9 |
| 15 | 2009 | 78072 | 7784 | 8.8 | 0.9 |

[1] Bax: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin veb səhifəsi. www.stat.gov.az.

| | | | | | |
|---|---|---|---|---|---|
| 16 | 2010 | 79172 | 9061 | 8.9 | 1.0 |
| 17 | 2011 | 88145 | 10747 | 9.7 | 1.2 |
| 18 | 2012 | 79065 | 11087 | 8.6 | 1.2 |

Cədvəldən göründüyü kimi, Azərbaycanda 1995-ci ildən bəri nikah bağlayanların və boşananların sayı artıb. Boşanmaların sayının artması yaxşı əlamət deyil. Hətta 2005 və 2007-ci illərdə bu rəqəm daha çox diqqəti cəlb edir. Qərb ölkələri ilə müqayisədə müsbət qiymətləndirilsə də Şərq üçün, müsəlman dünyası üçün yaxşı göstərici hesab etmək olmaz.

Dünyada gedən prosesləri nəzərə alaraq respublikamızda da boşanmanın qarşısını almaq üçün bir sıra tədbirlər həyata keçirilir. Belə ki, Azərbaycanda Ailə Məcəlləsinə dəyişiklik edilməsi nəzərdə tutulub. Əgər bu baş tutarsa və Milli Məclis təsdiq edərsə burada hansı yeniliklər ediləcək:

1. Nikaha girən şəxslər ailədə onlara düşəcək əmlak payına dair əvvəlcədən müqavilə bağlayacaqlar.
2. Müqavilədə ailədən boşanma, eləcə də bədbəxt hadisələr zamanı kişiyə və qadına düşən payın həcmi qeyd olunacaq.
3. Nikaha girən şəxslər icbari tibbi müayinədən keçəcəklər.

Əgər bunlar qəbul edilsə və kağız üzərində deyil, reallığa çevrilsə, gələcəkdə müsbət nəticələrə gətirib çıxarda bilər.

## 5.5. Qadın siyasətdə və iqtisadiyyatda

Azərbaycan Respublikasının Milli Məclisi «Kişi və qadınların (gender) bərabərliyinin təminatları haqqında» qanun qəbul edib.

Belə qanunlar dünyanın əksər demokratik ölkələrində qüvvədədir. Məsələn, artıq Kanada, Fransa, Portuqaliya, Danimarka, Norveç, Rusiya, Finlandiya və s. ölkələrdə belə tip qanunlar qəbul edilmişdir.

Belə qanunların qəbul edilməsi heç də əsassız deyil. Bu gün dünyada savadsızların $^{2}/_{3}$-i, yoxsulların $^{3}/_{5}$-ü qadınlardır.

Başqa sözlə, savadsızlıq və yoxsulluq qadınlar arasında geniş yayılmışdır. Qadınlar sosial həyatda və siyasətdə, iqtisadiyyatın bir sıra sahələrində kişilərə nisbətən daha zəif iştirak edirlər. Bunun bir sıra obyektiv və subyektiv səbəbləri mövcuddur. İdarəetmədə və dövlət orqanlarında qadınların məhdud təmsil edilməsi də dövrün xüsusiyyətidir və səbəbsiz deyil. Əslində qadının ən böyük vəzifəsi analıqdır.

Hər bir ölkədə ənənəvi olaraq qadınlara münasibətdə müxtəliflik var. 2009-cu ildə Azərbaycan əhalisinin 50,5%-ni qadınlar, 49,5%-ni kişilər, müvafiq olaraq 2010-cu ildə 50,5%; 49,5%; 2011-ci ildə 50,4%; 49,6% 2012-ci ildə 50,4%; 49,6%; 2013-cü ildə 50,3%; 49,7% təşkil edib.[1] Bu nisbət ABŞ, Böyük Britaniya, Norveç, Çin və s. ölkələrlə oxşarlıq təşkil edir. Qadınların 96%-i, kişilərin isə 99%-i savadlıdır. Azərbaycanda 2012-ci ildə məşğul əhalinin – 48,4% qadın, 51,6% kişi; işsizlərin sayı – 57,4% qadın, 42,6% kişi; işsizlərin sayından işsiz statusu olanlar – 42,1% qadın, 57,9% kişi; iqtisadi fəal əhalinin sayı – 48,9% qadın, 51,1 % kişilərdir.

2007-ci ildə Birləşmiş Millətlər Təşkilatının Nyu-Yorkdakı nümayəndəsi Andres Conson 8 mart Beynəlxalq Qadınlar Günü ərəfəsində dünya parlamentinin üzvləri olan qadınlar qarşısında çıxış edərkən göstərib ki, Qırğızıstan dünyada yeganə ölkədir ki, parlamentində qadın deputat yoxdur.

İsveçdə konstitusiyalı monarxiya quruluşu qorunub saxlanılır. Kral hakimiyyətinin səlahiyyətləri isə məhdudlaşdırılıb. 2007-ci ildə kral Karl 16-cı Qustavın funksiyası, sadəcə olaraq Nobel mükafatını təqdim etməkdən ibarətdir. Kralın iki qızı və bir oğlu var: Viktoriya, Medelin və Filipp.

Ənənəyə görə, Qustavdan sonra taxta onun oğlu oturmalı idi. Lakin bir neçə il əvvəl qadınların təşəbbüsü ilə keçirilən referendumda ölkə konstitusiyasına dəyişiklik edilib. Kraldan sonra

---

[1] Bax: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin veb səhifəsi. www.stat.gov.az.

taxt-tac Kralın böyük övladına – qızı Viktoriyaya həvalə olunacaq. Qadınlar referendum keçirməklə öz iradələrini ictimaiyyətə çatdırmış və özlərinin bərabər hüquqa malik olmalarını sübut etmişlər. Filipp taxta ancaq özündən böyüklərdən, yəni bacılarından sonra keçə bilər.

İsveçdə əsas istiqamətverici orqan hökumətdir. Hökumətdə isə nazirlərin yarıdan çoxu qadınlardır.

2007-ci ildə Fransada da Sarkozi prezident seçilən kimi 15 nazirdən 7-ni qadın təyin etdi.

Birləşmiş Millətlər Təşkilatı (BMT) 2012-ci ildə "Siyasətdə Qadın Xəritəsi" adlı araşdırmanın nəticələrini elan edərkən, məlum olub ki, ilk yerləri Skandinaviya ölkələri tutur. Norveç – 52,6 fazilə birinci, İsveç – 52,2 fazilə ikinci, Finlandiya və İslandiya – 50 fazilə növbəti pillədədirlər.

Qərbdə qohum-əqraba, ailə institutu tamamilə dağılıb. Qərb aləmi o qədər harınlayıb ki, arvad uşaq doğub onu böyütmək istəmir. Artıq Qərb aləmi kef aləminə çevrilir. Azərbaycan cəmiyyəti də getdikcə Qərbdəkinə bənzəyir. Bizdə də tədricən sanki bu yola qədəm qoyurlar.

Azərbaycan Respublikasının Konstitusiyasının 17-ci maddəsində yazılıb: «Cəmiyyətin əsas özəyi kimi ailə dövlətin xüsusi himayəsindədir. Uşaqların qayğısına qalmaq və onları tərbiyə etmək valideynlərin borcudur. Bu borcun yerinə yetirilməsinə dövlət nəzarət edir».

1979-cu ilin dekabrında Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası tərəfindən qəbul olunmuş və 1995-ci ildə Azərbaycan Respublikasının da qoşulduğu «Qadınlara qarşı ayrıseçkiliyin bütün formalarının ləğv edilməsi barədə» Konvensiyada qadın hüquqları barədə yazılıb: «Qadınlara qarşı fiziki, cinsi və ya psixoloji zorakılığa səbəb olan, həmçinin məcburi və ya könüllü olaraq azadlıqdan məhrum etməyə əsas yarada bilən, cinslərin ayrıseçkiliyinə söykənən bütün fəaliyyətlər qadağan olunur».

Azərbaycan Respublikası Konstitusiyasının 25-ci maddəsinə görə «Kişi ilə qadının eyni hüquqları və azadlıqları vardır».

2012-ci ildə Azərbaycan əhalisinin sayı 9356,5 min nəfər olmuşdur. Onlardan 4.707700 min nəfəri qadındır. Bu da ümumi əhalinin 50,3 faizi deməkdir[1]. Qadınların 53,4 faizi şəhərlərdə yaşayır. Onların təxminən 59 faizi anadır. Qadınlar məşğul əhalinin 48,4 faizini təşkil edirlər[2]. Müəllimlərin - dövlət orta məktəblərdə 76%, qeyri-dövlət 57%, dövlət orta ixtisas məktəblərində 77%, qeyri-dövlət 84%, dövlət ali məktəblərdə 51%, qeyri-dövlət ali məktəblərdə 38%-i qadınlardır. Qadınlar səhiyyə sistemində 61 faizlə üstün mövqedədir[3].

Ümumtəhsil məktəbləri şagirdlərinin 48 faizi qızlardır. Orta ixtisas məktəblərində qızlar 70 faiz təşkil edir, ali məktəb tələbələrinin təxminən yarısı zərif cinsin nümayəndələridir. Ölkədə elmi işçilərin də təxminən yarısını qadınlar təşkil edir. Parlamentdə qadınlar 16,0 faiz, sahibkarlar arasında 15 faiz təşkil edir.

Tədqiqat apardığımız dövrdə dünyada qadın naziri olmayan 13 ölkə sırasında Azərbaycanın da adı olub. İcra başçıları içərisində də bir nəfər belə qadın yoxdur. Ölkədəki 547 vəkildən 84 nəfəri qadındır. Daxili İşlər Nazirliyi sistemində 228 qadın zabit çalışır.

Qadın məhbusların sayı isə 248-dir. Onların çoxu zorakılığa məruz qaldıqları üçün həyat yoldaşlarını öldürmüş qadınlardır. 52 qeydiyyatdan keçmiş partiyadan yalnız birinin lideri qadındır. Ölkədə 42 qadın QHT-si qeydiyyatdan keçib. Onların 18-də qadın problemləri ilə məşğul olan strukturlar fəaliyyət göstərir.

**Lakin Azərbaycan reallığını götürəndə dövlətin çıxardığı qanun heç bir kəsin ailəsinə birbaşa daxil ola bilmir. Qanun bir növ formal xarakter daşıyır. Ailənin öz əxlaq normaları var. Qanunla ailənin işinə qarışmaq olmaz.**

---

[1] Bax: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. Azərbaycanın demoqrafik göstəriciləri – 2013, Bakı. 2013, s.47.

[2] Bax: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. Əmək Bazarı. Statistik Məcmuə. Bakı, 2013, s. 116.

[3] Bax: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin veb səhifəsi. www.stat.gov.az.

Mətbuatda çap olunmuş bir yazıçının şəxsi fikirləri maraq doğurur[1]. Cəmiyyətimiz üçün obyektiv reallığı əks etdirən, bədii təxəyyülün məhsulu olan bu yazıda da qaldırılan məsələlər hamıya şamil edilməsə də, fikirlərin əksəriyyəti ilə razılaşmamaq mümkün deyil. Bəlkə də zaman gələcək və burada qoyulan problemlər öz istiqamətini müsbət mənada dəyişəcək. Lakin, yaxın gələcək üçün bu reallıqdır. Müasir bazar münasibətləri isə bu fikirləri pis mənada daha da dərinləşdirir.

«Mən sizi inandırım ki, yer üzündə xoşbəxt ailə yoxdur. Bəzən kimsə ailəsinin xoşbəxtliyindən danışanda mənim o adama yazığım gəlir... Qadınlarımız nişanlı olanda bir cür, toydan sonra ayrı cür, bir övladı olandan sonra isə tamam başqa olur. Ancaq bir şeyi fikirləşir ki, ömrünün sonuna qədər kişi üzərində qələbə çalsın.

Kişini ələ almaq, onun üzərində sevgisini hiss etmək qadınlığa məxsus olan istəkdir.

Qadınlar fikirləşir ki, kişinin pulunu, ömrünü ələ alıb xərcləsinlər. Qadınlarımız həmişə kişinin əlinə süpürgə vermək həvəsindədirlər. Daha fikirləşmirlər ki, bu onun özünə ziyandır. Yəni özünün müdafiəçisini aşağıladır.

Azərbaycan qadınları çox savadsızdır, ona görə də az mənalıdır.

Qadın zərif olmalıdır. Bizim qadınlar kobuddur, kişiliyə meyillidirlər.

Belə bir aforizm var, deyirlər, tanış olmayan qadın, kişi üçün heç vaxt olmadığı ölkə kimi maraqlıdır. Bizim kişilər, ancaq başqa qadının evinə gedəndə ona gül aparır. Ancaq heç vaxt öz ailələri üçün bunu etmirlər.

Bilirəm ki, əlimdə gül evə gəlsəm, bütün qonşular mənə güləcək. Bu bizim cəmiyyətdir».

Müəllifin fikirləri ilə tam razılaşmasaq da bir neçə müdrik kəlamı əlavə etmək lazımdır. Məsələn, **Hippokrat demişdir ki,**

[1] Bax: "Gün" qəzeti. 30 yanvar 2007-ci il, N16, (307). Yazıçı Murad Köhnəqala ilə müsahibə.

**göydəki ulduzların sayı qədər qadın ürəyində yalan gizlənir. İspan məsəli var: qadın – göz üçün cənnət, cib üçün od, ruh üçün cəhənnəmdir. Polşa məsəlinə görə qadın evlənməmişdən əvvəl, kişi evləndikdən sonra ağlar. Yunan təmsilçisi Ezop (e.ə. VI-V əsr) demişdir ki, dünyada üç fəlakət var: yanğın, qadın və dəniz. Vilyam Şekspir demişkən, qadın subay ikən evlənmək, evləndikdən sonra isə hər şey istər.**

Avropa Şurasının təşkilatçılığı altında Madriddə «Ailədə Qadınlara qarşı zorakılıqla mübarizə» kompaniyasına start verilib. Bu heç də təsadüfi deyil: İspaniya Avropa qitəsində qadınların təcavüzdən müdafiəsi üzrə mükəmməl qanun fəaliyyət göstərdiyi yeganə ölkədir.

Statistikaya görə Avropada beş qadından biri heç olmasa ömründə bir dəfə ailə zorakılığına məruz qalır. Əksər hallarda təcavüz ər və onun yaxın qohumları tərəfindən olunur.

Avropa Şurasının məlumatına görə hər il bu qitədə 600 qadın ailə zorakılığı nəticəsində həlak olur. 2006-cı ildə London Kral Kollecinin 187 ölkədə apardığı araşdırmalarının nəticələrinə görə qadın məhkumların sayına görə ABŞ, Çin, Rusiya və Tailand dünya ölkələri sırasında liderlik edirlər. Dünyada olan hər üç qadın məhkumdan ikisi bu dörd ölkənin həbsxanalarında cəza çəkir.

Hesabatda Rusiya həbsxanalarında cəza çəkən qadınların sayı 55.400 göstərilsə də, rəsmi statistikaya əsasən, Rusiyada hər 12 məhkumdan biri qadındır. 2000-ci ilə nisbətən Rusiyada qadın məhkumların sayı 38 faiz artıb. Ümumi nisbətdə qadın məhkumlarının sayına görə Belarus öndə gedir. Bu ölkə həbsxanalarında cəza çəkən məhkumların 7,5 faizi qadınlardır. Ukrayna həbsxanalarında cəza çəkən qadınların sayı ümumi məhkumların sayının 6,1 faizini təşkil edir.

MDB məkanında bu sahədə ən aşağı göstərici Azərbaycanda qeydə alınıb. Azərbaycanda məhkumların yalnız 1,5 faizini qadınlar təşkil edir.

Tarixən qadın probleminin müxtəlif aspektlərdən (əmək ehtiyatı, ana, ailə-nikah, məşğulluq, demoqrafiya, tərbiyəçi və s.) öyrənilməsinə baxmayaraq bu problemin, hətta inkişaf etmiş ölkələrdə həll olunduğunu söyləmək mümkün deyildir. Qadın probleminin dünyada kəskinliyi ilə mövcudluğuna və qadın haqqında yuxarıda epizodik olaraq verdiyimiz müxtəlif fikirlərin yaranmasına səbəb nədir? Zənnimizcə, bu suallara cavab axtardıqda tarixən və indi qadına hansı nöqteyi-nəzərdən yanaşıldığına diqqət yetirmək lazım gəlir. Qədim və orta əsr cəmiyyətlərində o dövrlərdəki fəlsəfi baxışlarda qadın hüquqsuz və ya kişilərlə müqayisədə məhdud hüquqlu cəmiyyət üzvü kimi qəbul edilirdi. Marksist baxışla insana, o cümlədən qadına da sinfi münasibət mövcuddur. Kapitalizm cəmiyyətində onun mövqeyi istehsal vasitələrinə sahib olub-olmaması ilə müəyyən edilir. Həmçinin müasir liberal kapitalist modelində qadının ucuz işçi qüvvəsi kimi istehsala cəlb edilməsi nəzərdə tutulur. Belə hesab edilir ki, qadın da kişi kimi çalışmaq və istehsal etmək məcburiyyətindədir. Əks halda onun istehlak etməyə və yaşamağa haqqı yoxdur.

Kommunist ideologiyanın yaşadığımız təcrübəsindən məlumdur ki, burada ailə, evlilik müəyyən mənada köləliyin, qadının hüquqsuzluğu və kişidən asılılığının ifadəsi kimi səciyyələndirilirdi. Bununla əlaqədar qadının ev işindən azad edilməsi və ictimai istehsala cəlb edilməsi kimi strateji bir vəzifə ortalığa qoyulurdu. Bu vəzifəni də heç cürə həll etmək mümkün olmurdu. Çünki qadının ailədə yerinə yetirdiyi funksiyaları əvəzləyə bilən geniş institusional şəbəkəni formalaşdırmaq mümkün deyildir. Digər tərəfdən bu vəzifənin qismən yerinə yetirilməsi müəyyən dərəcədə ailə, evlilik kimi müqəddəs təsəvvürlərin arxa plana keçməsinə (indiki Avropada olan kimi) və əksinə mənəviyyatsızlıq, əxlaqsızlıq hallarının artmasına səbəb olmuşdur.

Beləliklə, qadın problemini nə kapitalizm nə də sosializm adlanan cəmiyyətdə həll etmək mümkün olmadı.

Müasir ictimai-iqtisadi ədəbiyyatda qadına baxışın dəyişdirilməsi məhz buradan irəli gəlir. Bununla əlaqədar bir çox fi-

kirlər vardır. Türk iqtisadçısı və ilahiyyatçısı prof. d-r. Heydər Başın fikrinə görə qadın probleminin həlli o halda mümkündür ki, onun təbii funksiyalarını (ana olmaq, həyat yoldaşı olmaq, sirdaş olmaq) yerinə yetirməsi üçün cəmiyyətdə hər cürə şərait yaradılmış olsun. Bunun üçün isə qadını sənayeyə, kənd təsərrüfatına, siyasətə cəlb etməkdənsə ona "insan əməkçisi" kimi baxmaq[1] bu haqqını layiqincə qiymətləndirmək (həm maddi, həm də mənəvi cəhətdən) lazımdır.

Müəllifin irəli sürdüyü milli iqtisadi modeldə qadına verilən yer məhz bundan ibarətdir. Məncə bu fikir diskussiya etmək, düşünmək üçün kifayət qədər maraqlıdır.

**Kitabda qadınlar haqqında topladığım müxtəlif fikirləri ortalığa qoydum. Bu oxucunun dünyagörüşü üçündür. Özümün bölüşdüyüm və ən qiymətli saydığım fikir isə Böyük Atatürkün 1923-cü ildə dediyi bu sözlərdir: "İnanmaq lazımdır ki, dünyada gördüyümüz hər şey qadın əsəridir".**

---

[1]. Bax: Prof .Dr. Haydar Baş. Milli İqtisadi Model. "Bakı Dövlət Universiteti". Bakı: 2005, s.219.

# VI FƏSİL

# KORRUPSİYA SİYASİ VƏ İQTİSADİ PROSESLƏRİN FENOMENİDİRMİ?

## 6.1. Rüşvət və korrupsiya pulun yeni «funksiyası» rolunda

Dünya ölkələrində gizli iqtisadiyyat, rüşvət və korrupsiyaya dair ciddi əsərlərin yaranması XX əsrin 30-cu illərinə təsadüf edir. Lakin pulun hökmran olduğu dünyada bu problem XX əsrin 70-80-ci illərində özünün pik nöqtəsinə çatmışdır. Ona görə də istər filosoflar və istərsə də iqtisadçılar tərəfindən müxtəlif səpkili əsərlərin yazılmasına səbəb olmuşdur. Məsələn, S.Rouz-Akkerman, E.Banfild, F.Uirl, X.Vex, Q.Beker, Q.Sinilov, Q.Tallok, L.Abalkin, L.Xillman, L.Kosals, M.Conson, N.Hacıyev, O.Krıştanovskaya, O.Kyurer, P.Qutman, P.Mauro, R.Klitqaard, R.Rıvkina, R.Vişni, S.Korddanskiy, S.Qlazev, S.Qlinkina, S.Qolovnin, S.Rottenberq, T.Koryaqina, T.Kuznetsova, V.Dadalko, V.İspravnikov, V.Osipenko, V.Radaev, V.Tambosev, V.Yurev, Y.Latov C.Tirol, B.Frey, L.Xillman, A.Şlyayfer, A.Krılov, D.Peşka, A.Şulus, A.Buniç və b. əsərlərində problemin müxtəlif tərəflərinə toxunulmuşdur.

Gizli iqtisadiyyat – iqtisadiyyatın elə bir hissəsidir ki, milli gəlirin statistikasında əks olunmur, ona görə ki, rəsmi hakimiyyətdən gizlənir. İqtisadiyyatın bu hissəsi 2 əsas səbəbdən yaranır. Bazar iqtisadiyyatı ölkələrində o özünü birinci növbədə əməkhaqqından tutulan gəlir vergisindən və əlavə dəyər vergisindən yayınma cəhdi kimi göstərir. Gizli iqtisadiyyatın milli gəlirdə payı ABŞ-da – 7%, İtaliyada – 15%, Macarıstanda – 20%, Polşada – 22% təşkil edir. İqtisadi ədəbiyyatlarda "gizli iqtisadiyyat" ifadəsindən başqa bu söz: "qeyri-rəsmi sektor",

"qara iqtisadiyyat", "paralel iqtisadiyyat", "ikinci iqtisadiyyat" "kölgə iqtisadiyyatı" və s. kimi də işlədilir[1].

2010-cu ildə Dünya Bankının məlumatlarında 2007-ci ildəki vəziyyətə görə kölgə iqtisadiyyatının payı ABŞ-da 8,8%, Avstriyada – 9,8%, İsveçrədə - 8,6%, Latviyada – 44,7 %, Litvada – 31,9 %, Estoniyada – 40,3%, Gürcüstanda – 70% təşkil etmişdir.

Azərbaycanda isə kölgə iqtisadiyyatının payı 2011-ci ildə 9 % olmuşdur.

Fundamental nöqteyi-nəzərdən gizli iqtisadiyyat – bazar iqtisadiyyatının subyektləri tərəfindən hüquqi normaların istifadəsindən imtina etmək, ümummilli və özəl maraqların arasındakı münaqişələrin alternativ yolla həllinə üstünlük verməkdir.

Tətbiqi nöqteyi-nəzərdən, gizli iqtisadiyyat – fəaliyyətin qadağan edilmiş növləri, statistika və vergidən gizlənən, müşahidə olunmayan istehsal kimi izah edilir.

Gizli iqtisadiyyata yalnız qadağan edilmiş fəaliyyət kimi baxmaq kifayət deyil, ona görə ki, o özündə tez-tez hüquqi, lakin vergidən qaçan fəaliyyəti də əhatə edir.

Gizli iqtisadiyyat müşahidə olunmayan istehsal kimi bir tərəfli izah edilir (vergidən yayınan qanuni istehsal) hansı ki, dövlət tərəfindən nəzərdən qaçanlara qeyri-leqal (qeyri-qanuni istehsal və əmtəə satışı), qeyri-formal iqtisadiyyat (hüquq normaları ilə bağlı olmayan işçi və iş verənin münasibətləri) və yaxud saxta iqtisadiyyat (ehtikar, sövdə, pul alveri ilə bağlı fırıldaq) da aiddirlər.

Gizli iqtisadiyyatın strukturu müxtəlifdir. İqtisadi ədəbiyyatlarda onun çoxsaylı növləri qeyd olunur:

- qeyri-rəsmi və yaxud müşahidə olunmayan iqtisadiyyat – yəni vergidən yayınmaq məqsədilə istehsalın həcmi ya gizlədilir, ya da ki, azaldılır;

---

[1] Bax: Словарь современной экономической теории Макмиллана. Общая редакция Дэвида У. Пирса. Перевод с английского. М.: ИНФРА – М, 2003, с.451.

- qeyri-leqal fəaliyyət, o cümlədən qeyri-leqal məşğulluqla leqal fəaliyyət (xüsusi icazə olmadan, məsələn: həkimin diplomu olmadan xidmət fəaliyyəti və s.); qadağan olmuş istehsal və ya əmtəə satışı;
- qeyri-formal fəaliyyət (şəxsi ehtiyacları üçün xidmət və əmtəə istehsalı, qeyri-formal məşğulluqlu fəaliyyət müəssisəsi, təhsilsiz hüquqi şəxsin sahibkarlığı);
- qanundankənar iqtisadiyyat, yəni qanun pozuntulu iqtisadi fəaliyyət və əmlak hüququna qəsd etmək;
- saxta iqtisadiyyat.[1]

Tarixə nəzər yetirsək, görərik ki, gizli iqtisadiyyatın və korrupsiyanın kökləri daha dərindir. Məlumdur ki, Rusiyada I Pyotrdan sonra gələn bütün dövlət rəhbərlərinin bir nömrəli işi onun vəsiyyətnaməsini həyata keçirmək olmuşdur.

Sovet dövründə də həmin vəsiyyətə gizli şəkildə əməl olunurdu. İndi də Rusiya dövlətinin strategiyasının əsasında həmin vəsiyyətnamə durur. Rusiya tarixçilərinin son tədqiqatlarında belə göstərilir ki, bu ölkədə korrupsiya həmişə mövcud olub. Dəyişən isə zaman, korrupsiyasının təşkilatçıları, obyektləri və subyektləri olub. Korrupsiya Rusiyanı dəfələrlə ölüm təhlükəsi qarşısında qoyub.

Korrupsiya Rusiyada dövlət aparatının yaranması ilə birlikdə yaranıb və getdikcə möhkəmlənir. Dövlət qanun qəbul edir, lakin bu formaldır. XVII əsrdə "vzyatka" termini qanunlarda "poçesti", "pominki", "posul" terminləri kimi göstərilmişdir.

I Pyotr Rusiya üçün çox iş gördü, amma korrupsiyanı aradan qaldıra bilmədi, əksinə bir qədər də genişləndirdi. Korrupsiya ilə bağlı tərbiyə işlərindən öldürməyə keçdilər. 1721-ci ildə Sibir qubernatoru knyaz Qaqarini asdılar. Peterburqda bir neçə-

---

[1] .Bax: Научные подходы к оценке масштабов теневой экономики в финансово – кредитной сфере и мери по их снижению. Москва. "Финансы и статистика", 2005, с. 11,12.

sini bu qaydada cəzalandırdılar. Heç bir faydası olmadı, korrupsiya getdikcə çiçəklənməkdə davam etdi.

I Pyotr cəhd etdi ki, dövlətdə korrupsiya ilə mübarizə sistemi yaratsın, baş tutmadı. Nə işgəncə vermək, nə həbsə atmaq, nə öldürmək, nə də ictimai qınaq rüşvətxorluğu dayandıra bilmədi.

I Pyotrun çarlığı dövründə Rusiyaya gəlmiş bir xarici nümayəndə yazıb: "Rusiyada çinovnikə yırtıcı quş kimi baxırlar. Onlar düşünürlər ki, çinovniklər işə başlayan kimi onlara öz xoşbəxtliklərini qurmaq naminə xalqı iliyinə qədər sormağa və onun rifahını dağıtmağa icazə verilmişdir".

I Pyotr ölümündən bir az əvvəl Senatda çıxış edərək korrupsiyaya uğrayanları qorxutmaq məqsədi ilə bildirir ki, hər kəs xəzinədən kəndir almaq üçün tələb olunan məbləğdən artıq pul oğurlasa, hamısını asdıracam. Bu zaman general-prokuror Yaqujinski Pyotrun qəzəbini yatırmaq məqsədi ilə deyir: "Böyük Hökmdar, bəyəm istəyirsiniz ki, xidmətçisiz, tərəfdarsız təkcə çarlıq edəsiniz? Biz hamımız oğurlayırıq, yalnız biri çox və o birindən..." [1]

Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra iqtisadi sahədə əsas istiqamət kimi bazar münasibətlərini seçdi. Bazar münasibətlərinə keçid isə rəvan yolla getmədi və buna mane olan amillərdən biri də "gizli iqtisadiyyat"ın daşıyıcı elementlərindən biri korrupsiya oldu.

Hüquqi nöqteyi-nəzərdən korrupsiya mütəşəkkil cinayətkarlığın ayrılmaz hissəsidir. Korrupsiya təhlükəli cinayət kimi qanunun aliliyi prinsipini nüfuzdan salır. Korrupsiya əsasən bürokrat aparat və siyasi elita ilə bağlı işlənən ifadədir. Yəni korrupsiya vəzifədə olanın vəzifə səlahiyyətlərindən yararlanıb qanunları saya salmadan bu və ya başqa məsələni hansısa bir cinayətkar, mafioz, inhisarçı qrupun xeyrinə həll etməsidir. Elmi ədəbiyyatda bunun səbəbini obyektiv olaraq vəzifənin (inzibati) status çantası yaranması ilə əlaqələndirirlər. İqtisadi baxımdan

---

[1] Bax.: Z.Qaralov .İdeologiya və mənəviyyat. "Hüquq ədəbiyyatı" nəşriyyatı, Bakı, 2008, s. 399-401.

korrupsiya hər hansı bir ölkənin iqtisadiyyatını buxovlayır. İdarəçilik sahəsində demək olar ki, korrupsiya vəzifəli şəxslərə inamı, etibarı, etiqadı məhv edir. Onları öz vəzifələrinə xəyanət etməyə, yalan danışmağa, şər atmağa məcbur edir.

**Korrupsiya məmur oğurluğu deməkdir. Korrupsiya mənəviyyatın zorlanmasıdır. Korrupsiya olan yerdə qanun işləyə bilməz. Korrupsiya rüşvətxorluğun siyasi hakimiyyətlə qovuşmasıdır. İqtisadi korrupsiyanın ən böyük göstəricisi inhisarçılıqdır. İnhisarçılıq, məmur sahibkarlığı korrupsiyaya şərait yaradır. Rüşvət və korrupsiyadan əldə edilən qanunsuz gəlirlərin əldən çıxmasından narahatlanan məmurlar həmişə normal islahatların əleyhinə çıxır, hüquqi, demokratik dövlət quruculuğuna mane olurlar, ağlasığmayan yalanlar danışırlar. Korrupsiya hər bir dövlətin inkişafına mane olan bəladır.**

Korrupsiyanın mahiyyəti – vəzifəli şəxsin qanunsuz olaraq şəxsi mənfəət əldə etmək və səlahiyyəti çərçivəsində başqa şəxslərə neqativ qaydada təsir etmək gücünə malik olmasıdır.

Dünyada korrupsiyanın formaları müxtəlifdir: rüşvətxorluq, qohumbazlıq, yerlibazlıq, “şapka” tələb etmə, himayədarlıq (krişa) və s..

Azərbaycanda 13 yanvar 2004-cü ildə qəbul edilmiş və 1 yanvar 2005-ci ildən qüvvəyə minmiş «Korrupsiyaya qarşı mübarizə haqqında» Qanunda korrupsiyaya aşağıdakı kimi tərif verilmişdir: korrupsiya – vəzifəli şəxslərin öz statusundan, təmsil etdiyi orqanın statusundan, vəzifə səlahiyyətlərindən və ya həmin status və səlahiyyətlərdən irəli gələn imkanlardan istifadə etməklə qanunsuz olaraq maddi və sair nemətlər, imtiyazlar və ya güzəştlər əldə etməsi, habelə fiziki və hüquqi şəxslər tərəfindən qeyd edilən maddi və sair nemətlərin, imtiyazların və ya güzəştlərin qanunsuz olaraq vəzifəli şəxslərə təklif və ya vəd

olunması və yaxud verilməsi yolu ilə həmin vəzifəli şəxslərin ələ alınmasıdır[1].

Korrupsiya iqtisadiyyatı üzrə tədqiqatların çoxunda əsas diqqət onunla mübarizə üçün müxtəlif yolların axtarılmasına yönəlir.[2] Məsələn, Adam Smitdən sonra Q.Bekker və C.Stiqler əsərlərində təsdiq edirlər ki, korrupsiyanın aradan qaldırılması üçün məmurların əməkhaqları elə artırılmalıdır ki, onlar haradasa "kənardan" heç bir şey ala bilməsinlər...

Dünya xəritəsində Sinqapur kiçik bir ölkədir. Lakin müstəqillik əldə etdikdən sonra orada korrupsiya ilə mübarizə qısa bir müddətdə bir neçə istiqamətdə həyata keçirildi:

1. Qanunların və qərarların qəbulu qaydaları sadələşdirildi. Nəticədə hər hansı sahibkarlıq fəaliyyətinə başlayarkən icazə və lisenziya almağa ehtiyac qalmadı.
2. Dövlət qulluğunda çalışanların və məhkəmə hakimlərinin əməkhaqları kəskin surətdə artırıldı. Ən güclü vəkillər hakim vəzifələrinə cəlb edildi. (Çünki bütün ədalətsizliklər son nəticədə məhkəmədə həllini tapır).[3]

Bu tədbirlərin nəticəsində bir sıra məmurlar həbs edildi, bəziləri isə intihar yolunu seçdi.

Sinqapurun ilk Baş naziri Li Kuaç Yu hakimiyyətə gələrkən demişdir: "Biz bu ölkəni cənnətə çevirəcəyik". Tez bir zamanda o vədinə əməl etdi. Li Kuaç Yuya sual verəndə ki, "bəs siz buna necə nail oldunuz?" O, cavabında demişdir "əvvəl üç yaxın dostunuzu həbs edin, siz də, onlar da niyə həbs olunduqlarının səbəbini gözəl bilir" cavabını verib.

---

[1] Bax: «Azərbaycan» qəzeti. 11 fevral 2005-ci il.

[2] Qeyd: Burada söhbət hüquqi qanunlarla deyil, iqtisadi islahatlar və sanksiyalarla aparılan mübarizədən gedir.

[3] Qeyd: Heç də təsadüfi deyildir ki, Fransa prezidenti Fransua Olland Türkiyədə olarkən (2014-cü ilin yanvarın axırı) 2013-cü il 17 dekabr "böyük rüşvət" əməliyyatı ilə bağlı deyib: "Mühüm olan ölkədə rüşvətin olması deyil. Rüşvət hər ölkədə var. Əsas odur ki, rüşvətxoru həbs edəcək, cinayət işi qaldıracaq azad məhkəmələr olsun".

Göründüyü kimi, Sinqapurda korrupsiyaya qarşı mübarizədə heç kimə güzəşt olunmayıb və bununla da qeyri-adi bir ölkə yaradıblar.

Əlbəttə, korrupsiyanı cərəyanın gücü və ya bədən çəkisi kimi dəqiq və etibarlı ölçmək çox çətindir. Korrupsiya – mürəkkəb sosial hadisədir. Bu sferada pozitiv elmin bu anlayışa hansı məna verə biləcək dərəcədə ölçülməsi olduqca çətindir. Və bu o deməkdir ki, ümumiyyətlə mümkün deyil. Sözsüz, ölçü cihazları çəki və ampermetrdən çox fərqli olacaqdır. Lakin son nəticə həmin olacaq. Korrupsiyanın müxtəlif təzahürləri – müxtəlif korrupsiya bazarlarında müxtəlif ölkə və şəhərlərdə, müxtəlif dövrlərdə - fiziki ölçülərdə olduğu kimi, rəqəmləri köçürə bilərik. Rəqəmlərin belə köçürülməsi aydın olacaq və bu əsasda deyə bilərik ki, hər hansı bir bazarda korrupsiya daha çoxdur və ya bu şəhərdə məmurların korrupsiya həmləsi iki dəfə azdır və ya ötən üç il ərzində bu ölkədə korrupsiya əhəmiyyətli dərəcədə artıb (azalıb).

Qeyd etmək lazımdır ki, korrupsiyanın mürəkkəb sosial hadisə kimi, bədən çəkisi kimi ölçmək çox çətindir. Boru ilə axan elektrik enerjisinin ölçülməsi təkcə cərəyanın gücü ilə mümkün deyil. Korrupsiya isə daha mürəkkəb və maraqlıdır.[1]

Azərbaycan Respublikasının 30 dekabr 2003-cü il tarixli Qanunu ilə 4 noyabr 1999-cu ildə «Korrupsiya ilə əlaqədar mülki-hüquqi məsuliyyət haqqında» və 27 yanvar 1999-cu ildə Strasburqda qəbul edilmiş «Korrupsiya ilə əlaqədar cinayət məsuliyyəti haqqında» Konvensiyaya müvafiq qeyd-şərtlər və bəyanatla birgə təsdiq edilmişdir.

Bundan başqa, Azərbaycan Respublikası «Korrupsiyaya qarşı Birləşmiş Millətlər Təşkilatının Konvensiyası»nı imzalamış və Prezidentin 3 sentyabr 2004-cü il tarixli sərəncamı ilə «Kor-

[1] Bax: Левин М.И., Левина Е.А., Покатович Е.В. Лекции по экономике коррупции (Текст): учеб. пособие / М.И.Левин, Е.А.Левина, Е.В.Покатович; Нац. исслед. Ун-т «Высшая школа экономики». – М.: Изд. Дом Высшей школы экономики, 2011, с. 215, 250, 251.

rupsiyaya qarşı mübarizə üzrə Dövlət Proqramı (2004-2006-cı illər) » təsdiq edilmişdir.

Bütövlükdə, son illər Azərbaycanda korrupsiya ilə bağlı aşağıdakı qanunverici və normativ - hüquqi aktlar qəbul edilmişdir:

1. "Korrupsiya ilə əlaqədar cinayət məsuliyyəti haqqında" Konvensiyanın təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu. 30 dekabr 2003-cü il.

2. "Korrupsiya ilə əlaqədar mülki-hüquqi məsuliyyət haqqında" Konvensiyanın təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu. 30 dekabr 2003-cü il.

3. "Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanunu. 13 yanvar 2004-cü il.

4. "Korrupsiyaya qarşı mübarizə üzrə Dövlət Proqramı (2004-2006-cı illər)". 3 sentyabr 2004-cü il.

5. "Azərbaycan Respublikasının Baş Prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə İdarəsinin Əsasnaməsi". 28 oktyabr 2004-cü il.

6. "Azərbaycan Respublikasının Dövlət Qulluğunu İdarəetmə Şurası yanında Korrupsiyaya qarşı mübarizə üzrə Komissiya haqqında Əsasnamə" 13 may 2005-ci il.

7. "Vəzifəli şəxslər tərəfindən maliyyə xarakterli məlumatların təqdim edilməsi qaydaları". 24 iyun 2005-ci il.

8. "Korrupsiyaya qarşı mübarizə ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına əlavələr və dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu. 3 mart 2006-cı il.

9. "Şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə üzrə Milli Strategiya və onun həyata keçirilməsi ilə bağlı 2007-2011 illər üçün Fəaliyyət Planı". 28 iyul 2007-ci il.

«Korrupsiyaya qarşı mübarizə haqqında» Azərbaycan Respublikası Qanununun 7-ci maddəsinə görə vəzifəli şəxslərin yaxın qohumları, seçkili vəzifələr və qanunvericiliklə nəzərdə

tutulan digər hallar istisna olmaqla, bilavasitə onun tabeliyində olan heç bir vəzifə tuta bilməzlər.

F.Qarayev "korrupsiya termini ilə rüşvət" anlayışını bir-birindən ayırır. "Korrupsiya" termini öz etimologiyasına və ya mənşəyinə görə latın sözü "corruptio" olub "rüşvətlə ələ almaq" deməkdir. Mahiyyətinə görə korrupsiya – iqtisadiyyat sferasında dövlət strukturlarının cinayət aləminin strukturları ilə qovuşması, eləcə də ictimai və siyasi xadimlərin vəzifəli şəxslərin pulla, rüşvətlə, bəxşişlə ələ alınması, öz tərəfinə çəkməsi və satqınlığıdır. Korrupsiyadan fərqli olaraq rüşvətxorluq əlverişli razılığa nail olunması, xüsusi informasiyanın əldə olunması və ya rüşvət alanın qanuni yolla ala bilmədiyi digər yardımın əldə olunması məqsədilə dövlət strukturlarına və ya rəqabət aparan firmaların əməkdaşları kimi digər şəxslərə pulun, qiymətli əşyaların verilməsində və ya xidmətlərin göstərilməsində ifadə olunan mükafatdır.[1]

Amma ensiklopedik lüğətlərdə korrupsiyaya bir qədər fərqli, lakin lakonik tərif verilir: "Korrupsiya – öz xeyri üçün dövlət vəzifəsindən istifadə edilməsidir."[2]

«Freedom House» təşkilatının 2006-cı ildəki «Keçid edən ölkələr» adlı hesabatında demokratik idarəçiliyi araşdırarkən 4 indikator üzrə ölkələr dəyərləndirilir: ictimai fikrə hörmət, mülki azadlıq, qanunun aliliyi və şəffaflıq. Nəticələr göstərir ki, ortaya çıxan ən böyük qlobal problem korrupsiyadır. Araşdırma aparılmış 30 ölkədən heç biri korrupsiyaya qarşı mübarizənin səviyyəsinə görə müvafiq balı yığa bilməmişlər.

Susan Rouz-Akkerman yazır: «Korrupsiya və iqtisadi artım eyni vaxtda mövcud olursa, rüşvətlər zərərlərə və saxtalaşdırmalara gətirib çıxarır. Korrupsiyaya yol verən yüksək rütbəli məmurlar qeyri-məhsuldar investisiyaları dəstəkləyir və köhnə investisiyalara lazımi diqqət ayırmırlar…

---

[1] Bax: F.Qarayev. Korrupsiya sindromu, onun genezisi və anatomiyası. "İqtisadiyyat" qəzeti. 20-27 sentyabr 2000-ci il.

[2] Bax: Советский энциклопедический словарь. Издательства "Советская энциклопедия". 1980, с. 642.

… Müxtəlif ölkələrdəki empirik tədqiqatlar bir daha göstərib ki, korrupsiya iqtisadi artıma və məhsuldarlığa mənfi təsir göstərir. Amma bu fakt özlüyündə antikorrupsiya strategiyasını layihələşdirməyə az kömək edir»[1]. O, daha sonra yazır: «Korrupsiya dövlət hakimiyyətinin şəxsi qazanc naminə istifadə edilməsidir… «Yüksək korrupsiya» hökumətin yuxarı dairələrində baş verir və əsas hökumət layihə və proqramlarını əhatə edir»[2].

Korrupsiya iqtisadi artıma və məhsuldarlığa mənfi təsir etməklə bərabər iqtisadiyyatın ən böyük problemi olan inflyasiya, işsizlik və yoxsulluğun kəskinləşməsinə də ciddi təsir göstərir. Məsələn, korrupsiya əsasən bir pul hadisəsi olduğu üçün pul tədavülü qanununu pozur - pulun dövriyyə sürətini dəqiqləşdirməyə, tədavüldəki pul kütləsini müəyyənləşdirməyə imkan vermir. Xəlvəti (qeyri-qanuni) gəlirlər kimi təzahür etdiyindən vergi daxilolmalarına mənfi təsir göstərir. Korrupsiyadan yaranan gəlirlər çox hallarda bir qrupun ifrat istehlak məqsədlərinə yönəldilir. Pareto effektliyinə görə isə bir qrupun ifrat istehlakı digərlərinin yoxsulluq içərisində yaşaması deməkdir. Beləliklə, korrupsiya gəlirlərdə və həyat səviyyəsində əsassız fərqlərə səbəb olur. Bu fərqlər də son nəticədə bir çox makroiqtisadi proporsiyaların pozulmasına gətirib çıxarır. Hazırda dünya ölkələrinin əksəriyyətini bürümüş dünya iqtisadi böhranının səbəbləri göstərilərkən puldan spekulyativ (möhtəkirlik) istifadə xüsusi olaraq vurğulanır ki, bu da korrupsiya hadisəsi ilə bilavasitə bağlıdır.

Korrupsiya təmənnalı şəxsi maraqlarla ictimai milli maraqların toqquşmasıdır ki, bu halda şəxsi maraqlar önə çəkilir. İnkişaf etmiş ölkələrdə isə həmişə ictimai maraqla şəxsi maraqlar düzgün əlaqələndirilir. Əks təqdirdə korrupsiya daha da inkişaf edə bilər. Bu nöqteyi-nəzərdən dünya təcrübəsində əksər tədqiqatçılar (o cümlədən iqtisadçılar) Dünya Bankının mütəxəssislərinin təklif etdiyi tərifə üstünlük verirlər: «Korrupsiya – şəxsi maraqlar naminə

---

[1] Bax: Susan Rouz – Akkerman. Hakimiyyət və korrupsiya: səbəblər, nəticələr və islahatlar (Azərbaycan dilində) CAMBRIDGE Universiteti Nəşriyyatı. 1999, s.3.

[2] Yenə orada, s. 27, 91.

səlahiyyətli hakimiyyət orqanları tərəfindən sui-istifadə edilmədir»[1].

Korrupsiyanın meydana çıxmasına zəmin yaradan, ona təkan verən amillərdən biri – mütəşəkkil cinayətkarlıqdır. Korrupsiya dövlət xəstəliyidir. O siyasi, iqtisadi, milli və mənəvi təməlləri sarsıda bilər və bu da dövlətin məhvinə aparıb çıxara bilər.

Hələ vaxtilə korrupsiya mövcud olmayanda rüşvət anlayışı mövcud olmuşdur. O zaman Cəlaləddin Rumi yazırdı: «Ey rüşvət yeyən sən fil balası yeyirsən. Buna görə fil sənə düşməndir. Bir gün gəlib səni yox edəcək». Bir bayatıda deyildiyi kimi:

«Ay şəfəqi aynan gedər,
Qışın qarı yaynan gedər.
Rüşvətxorun yığdıqları,
Haynan gəlib, vaynan gedər».

S.R.Akkerman yazır: «Rüşvətin səviyyəsi çox da müxtəlif deyil. Həmin məbləğin yalnız nə qədər olduğunu deyil, onun xərcləndiyi də maraq doğurur». «Rüşvətlə dövlət məmurları ilə iş görməyin baha başa gəlməsi bəzi firmaları qeyri-rəsmi sektorda fəaliyyət göstərməyə, bir çoxlarını isə satış, qiymət və əməkhaqqı cədvəllərində rəqəmləri aşağı göstərməyə sövq edir. Bundan dövlətə dəyən zərərsə hədsizdir və həmçinin rüşvətlərin səviyyəsi investisiyanı və yeni firmaların gəlişini məhdudlaşdırır… Rüşvətxorluğun müdafiəsi əksər hökumət qanun və qaydalarının səmərəsizliyi və təsadüfiliyindən irəli gəlir»[2].

Məhəmməd Peyğəmbər (s) demişdir ki: «Allah rüşvət verənə də, rüşvət alana da, onların arasında vasitəçilik edənə də lənət etsin».

---

[1] Бах: Н.Епифанова. Исследование коррупции на основе методов экономической теории. «Вопросы экономики». 2007. № 1, с. 34.

[2] Bax: Susan Rouz – Akkerman. Hakimiyyət və korrupsiya: səbəblər, nəticələr və islahatlar (Azərbaycan dilində) CAMBRIDGE Universiteti Nəşriyyatı. 1999, s. 4, 15, 25; Сюзан Роуз-Аккерман. Взяточничество. Экономическая теория / Под ред. Дж.Итуэлла, М.Милгейта, П.Ньюмена: пер. с англ. / Науч.ред.чл.корр. РАН В.С.Автономов. – М.: ИНФРА – М., 2004 – XII, с. 19-25.

Korrupsiyadan fərqli olaraq rüşvəti dövlət qulluqçusu olmayan hər hansı bir adam da ala bilər. Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 311-ci maddəsində yazılıb: "Rüşvət alma, yəni vəzifəli şəxsin xidməti vəzifəsinin (səlahiyyətlərinin) icrası ilə əlaqədar hər hansı hərəkətə (hərəkətsizliyə) görə, eləcə də xidmət üzrə ümumi himayədarlıq və ya laqeydlik müqabilində özü və yaxud üçüncü şəxslər üçün birbaşa və ya dolayı yolla, şəxsən və ya vasitəçidən istifadə etməklə maddi və sair neməti, imtiyazı və ya güzəştli istəməsi və ya almasıdır..."[1]

**Rüşvət, şapka və korrupsiya pulu öz məqsədli məcrasından iqtisadi alət funksiyasından çıxarıb eybəcər bir formaya, iyrənc proseslərin həyata keçirilməsi istiqamətinə yönəldib. Rüşvət sanki insanların haqlarına qarşı çevrilən gəlir mənbəyidir. Rüşvət insanı mütiləşdirir, mərdi namərdə çevirir, tamahkarlıq, saxtakarlıq, yalanlar əsasında idarəçilik yaradır, onun dağıtdığı hakimiyyəti heç bir düşmən dağıda bilməz. İstənilən hədiyyə məqsədli verilibsə, deməli, o rüşvətdir. Rüşvət xərçəng xəstəliyidir.** Rüşvətin qarşısı alınsa real sektor inkişaf edər.

XX əsrin 60-cı illərində yazıçı, dramaturq Sabit Rəhman yazırdı: "Hamı rüşvətxor deyil, ancaq tək-tük rast gəldiyimiz rüşvətxorlar hamını əsəbiləşdirir. **Rüşvət təkcə pul ilə olmur, mənəvi rüşvət daha qorxuludur. Yaltaqlıq nədir? Rüşvət verməkdir, yaltaqlığı qəbul etmək isə rüşvət almaqdır. "Yoldaş filankəs", siz öz xalqınızı nə qədər dərindən sevirsiniz. "Yoldaş filankəs, dünənki çıxışınız nə qədər ağıllı çıxış idi." Yalan deyir. Rüşvət verir. Filankəs isə bu rüşvəti qaytarıb onun üzünə çırpmaqdansa, əksinə, qəbul edib cibinə qoyur və sevindiyindən xəmir kimi yayılır, əvəzində isə, yeri düşəndə onu, rüşvət verəni saxlayır"[2].**

Rüşvətxorluq dövlət işlərində problemlərin dövlət yolu ilə, qanunlarla yox, şəxsi münasibətlər əsasında qeyri-dövlət yolu ilə görülməsidir. Qanunla görüləsi işlər, hətta qanuni olub-olmamasın-

---

[1]Bax: Azərbaycan Respublikasının Cinayət Məcəlləsi. "Hüquq ədəbiyyatı" nəşriyyatı. Bakı – 2012, s. 227.
[2] Bax: Sabit Rəhman. Seçilmiş əsərləri. V cild, Bakı, 1978, s. 283.

dan asılı olmayaraq, bürokratik əngəllər törətməklə də pul və ya hədiyyə ilə məsələnin həll olunmasıdır. Rüşvət quru, ürəksiz bürokratiyanın alternatividir. Rüşvət artıq bəzi ölkələrdə iqtisadi və hətta siyasi mexanizmə çevrilib.

Müasir dövrdə xüsusən postsosialist ölkələrində normal siyasi və iqtisadi islahatların həyata keçirilməsi günün tələbidir. Bu ölkələrin iqtisadiyyatı bir sıra çətinliklərlə, problemlərlə üzləşib. Uzun müddət yığılıb qalan problemləri həll etmək üçün, ciddi islahatların aparılması zəruridir. Hələlik bu ölkələrdə ən vacib məsələ bazar iqtisadiyyatlı dövlət qurmaqdır. Bu hüquqi dövlət olmalı və bütün qanunlar işləməlidir. Elə bir iqtisadiyyat yaratmalı ki, rüşvət, "şapka", korrupsiya və inhisarçılıq orada qərarlaşa bilməsin.

İqtisadi ədəbiyyatda yazıldığı kimi, hər il Qərbdə biznes rüşvətə nəhəng məbləğlər ayırır ki, dost, nüfuz və müqavilələr qazansın. Ən ehtiyatlı qiymətləndirməyə görə, təkcə ABŞ-da bir il ərzində rüşvətə 80 milyard dollar sərf edilir. Bu qədər pula, BMT-nin hesablamalarına görə, bütün dünyada yoxsulluğu aradan qaldırmaq mümkündür. Rüşvət verənlər, o cümlədən milli və transmilli şirkətlər, konsaltinq şirkətləri və hətta milli ixrac kreditləri agentlikləri kimi hökumət idarələri xüsusi tənqidə məruz qalırlar (Fransanın məxfi xidmətinin məruzəsinə görə, ölkənin rəsmi ixrac kreditləri agentliyi 1994-cü ildə əcnəbi müştərilərə hərbi avadanlığa görə təxminən 2 milyard dollar vermişdir). Korrupsiya mövzusunda gedən siyasi müzakirələrin mərkəzində çox vaxt inkişaf edən ölkələr durur, fırıldaqçılıq, dələduzluq, oğurluq və rüşvətxorluq həm də Şimala şamil edilir və onların iqtisadi ziyanı heç də az deyil. Təkcə ABŞ-da fırıldaq və korrupsiya hər il 400 milyard dollar aparır[1].

**Azərbaycanın xalq yazıçısı, detektiv yazar Çingiz Abdullayev Modern.az saytına verdiyi müsahibədə yazır ki, insanların bəziləri fikirləşirlər ki, ən vacib şey puldur. Mən bir dəfə bu cür danışanda bir kişi qalxdı dedi ki, Çingiz müəllim, siz başa düşün ki, siz deyənlərin hamısı demoqogiyadır. Siz uşaqları aldadırsınız, bu gün**

---

[1] Bax: Bəzi ümumi qayğılar. Bakı.: 2003, s. 141.

**dünyada ən vacib şey puldur. Pulun olsa hər şeyin var, yoxdursa heç kimsən. Mən də cavab verdim ki, siz burda camaatın yanında deyirsiniz ki, hər şeydən üstün puldur. Neçə yaşınız var ? Dedi ki, 34. Yenə sual verdim ki, uşaqlarınız var ? Bildirdi ki, bir oğlu, bir qızı var. Qızı məktəbdə oxuyur, oğlu isə futbolla məşğul olur. Dedim, onda sizə bir sual verəcəyəm xahiş edirəm inciməyin. Allaha inanırsınız ? Dedi, əlbəttə inanıram. Oruc da tuturam. Sual etdim ki, onda bəs qorxmursan ki, Allah səni eşidə bilər. Axı sən ona inanırsan. Deyirsən ki, dünyada hər şeydən üstün puldur. İndi soruşuram, qızınızın gözlərini neçəyə satarsınız ? Kişi pərt oldu. Oğlunuz futbol oynayır. Birdən Allah eşidib sizə milyon pul göndərir, amma oğlunuzun ayaqlarını alar. Kişi qorxdu. Dedim, əgər qorxursansa, onda belə demə. Puldan da gözəl şeylər var...**

**Yazıçı daha sonra yazır: "Rüşvətxor məmur əslində fahişədən də pisdir, çünki fahişə bədənini satır, məmur isə vicdanını".**[1]

**Korrupsiya eyni zamanda şirkət əməkdaşlarının mənəviyyatını korlayır. Bu hal Azərbaycanda özünü daha qabarıq formada əks etdirir. Şirkət sahiblərinin "mütləq hakim" olmaları, heç bir müdafiə mexanizminin əməkdaşlara tətbiq edilməməsi, xüsusi mülkiyyətin doğurduğu "mənəm-mənəmlik", həmkarlar təşkilatlarının olmaması və ya zəifliyi onların hüquqlarının tez-tez pozulmasına gətirib çıxarır.**

**Xüsusən qadınlara qarşı münasibət, onların mənəvi saflığının çox hallarda pozulması halları narahatçılıq doğurmaya bilməz. Bu müasir dövrdə o dərəcədə hiss olunmasa da gələcək genefondumuzun məhvinə aparıb çıxaran dəhşətli prosesdir.**

Nəticədə korrupsiya insanların qanunlara hörmətsizliyinə, əxlaqsızlığa, mənəviyyatsızlığa, etibarsızlığa, cinayət hallarının artmasına və bütövlükdə dövlətə qarşı inamsızlığa gətirib çıxarır.

**Adətən ölkələr və xalqlar güclü dövlətçiliyi özlərinin mühüm tarixi nailiyyəti hesab edirlər. Lakin bir reallıq da var. Bir ölkədəki korrupsiya geniş yayılıb, deməli, orada dövlətçilik zəifdir.**

---

[1] Bax: Mövqe.az.saytı. 05.05.2014-cüil.

## 6.2. Korrupsiya neqativ siyasi və iqtisadi həyat tərzi kimi

Korrupsiyanın mahiyyəti onun növlərində təzahür edir. Konkret olaraq iki növ korrupsiya mövcuddur: siyasi və iqtisadi. Siyasi korrupsiya – vəzifəli şəxsin təkcə pul qazanmaqla kifayətlənməməsi, həmçinin bu məqsədlə siyasi hakimiyyəti ələ almaq cəhdi və məqsədidir. İqtisadi korrupsiya isə vəzifəli şəxsin öz hakimiyyət səlahiyyətlərindən istifadə edərək maddi gəlir, pul vəsaitləri əldə etməsidir.

Bəzi siyasi nəzəriyyəçilər siyasi korrupsiyanın səbəbini ölkədə demokratiyanın olmamasında, sərt qanunların mövcudluğunda, diktatura rejiminin hökm sürməsində, digər qrup isə qeyri-müəyyən siyasi sistemin mövcudluğunda görürlər.

H.Yepifanova korrupsiyanın aşağıdakı iki mühüm tipinə xüsusi diqqət yetirir. Bu, institusional və siyasi korrupsiyadır. İnstitusional korrupsiya institutların (məsələn, siyasi partiyaların) fəaliyyət göstərməsindən fayda axtarışı ilə əlaqədardır. Siyasi korrupsiya isə ya ictimai sektorda, ya da ictimai və xüsusi sektorların maraqlarının kəsişməsində (məsələn, siyasətçilər resurslardan istifadə etməkdən qanunsuz fayda mənimsəməklə bu resurslara öz imtiyazlı əlyetərliyindən istifadə edilməsi zamanı) baş verir. Həm institusional, həm də siyasi korrupsiya, bir qayda olaraq transaktiv korrupsiyanın müxtəlif növlərindən ibarətdir[1].

Təbii resurslarla zəngin olan ölkələrdə gəlirlərin mənimsənilməsi və onlardan şəxsi varlanma üçün istifadə cazibəsi var. Resurslardan gələn gəlir böyük pul vəsaiti deməkdir ki, siyasətçilər onu mənimsəyə bilər.

---

[1] Бах: Н.Епифанова. Исследование коррупции на основе методов экономической теории. «Вопросы экономики». 2007. № 1, с. 35.

**Hətta dövlət başçıları öz vəzifə səlahiyyətlərini ölkə konstitusiyasına uyğun yerinə yetirmirlərsə, bunun özü də mahiyyət etibarı ilə siyasi korrupsiya hesab edilir.**

**Bəzi dövlətlərdə korrupsiya əhali tərəfindən adi bir proses kimi qəbul edilir, bütün iqtisadi proseslər sanki bunun üzərində qurulub. Avtoritar rejimlərdə məhz belədir.**

Ölkələr də var ki, siyasi hakimiyyət zəif olur, buna görə də onlar maliyyə qrupları ilə əlaqədə iqtisadiyyatı idarə edirlər.

Xalis diktaturanın olduğu ölkələrdə isə mafioz qruplarla hakimiyyət birləşir.

Korrupsiyanın genişləndiyi ölkələrdə inkişaf getmir, əhali arasında yoxsulluq günü-gündən yüksəlir. Susan Rose Akkermana görə, korrupsiya səviyyəsi yüksəkdirsə, ölkə, ümumiyyətlə, çox kasıb olur. Korrupsiya daha çox korrupsiya doğurursa və legitim biznes sərmayələrini məhdudlaşdırırsa, belə olan halda ölkə artıq tələyə düşmüş sayılır. Zəif ölkələr paradoksal vəziyyətlə üz-üzə dayana bilər: sərvətlərin çoxluğu siyasi sabitliyi sarsıdır və artımı aşağı salır. Ölkə kasıb olduğu müddətdə az sayda adam hakimiyyətin qollarına nəzarətlə maraqlana bilər[1].

**Korrupsiyada uduzan və daha da yoxsullaşan kasıblar olur. Ona görə də doğru söylənilib: «Rüşvət – pulun kasıbdan birbaşa varlıya köçürülməsidir»[2].**

Korrupsiyanın və rüşvətin dərinləşməsinə təsir edən amillər aşağıdakılardır:

1. Dövlət idarəçiliyində demokratik prinsiplərə əməl olunmaması.
2. Məmurların müəyyən şərtlər daxilində vəzifəyə təyin olunması.
3. Qanunların sərt, bəzi hallarda isə boşluğun olması.

---

[1] Bax: Susan Rouz – Akkerman. Hakimiyyət və korrupsiya: səbəblər, nəticələr və islahatlar (Azərbaycan dilində). «CAMBRIDGE Universiteti Nəşriyyatı», 1999. Bakı.: 2004, s. 3, 214.

[2] Bax: Bəzi ümumi qayğılar. Bakı.: 2003, s. 142.

4. Vergilərin yüksək olması.
5. Şəffaf informasiya mühitinin olmaması.
6. Mətbuat azadlığının olmaması və ümumiyyətlə, yazılanlara əhəmiyyət verilməməsi[1].
7. Dövlət nəzarətinin zəifliyi və ya nəzarət edən orqanların özlərinin korrupsiyaya qurşanması.

### 6.3. Korrupsiya sindromu, onun sosial-iqtisadi və siyasi nəticələri

Korrupsiyanın iqtisadi nəticələri aşağıdakılara gətirib çıxarır:

– Dövlət iqtisadiyyatın idarə edilməsində maliyyə dayaqlarını itirir;
– bazar qanunları işləmir;
– bazar mexanizmləri pozulur;
– büdcə vəsaitləri düzgün istiqamətə yönəldilmir;
– büdcə öhdəlikləri yarımçıq yerinə yetirilir;
– büdcə gəlirləri günü-gündən aşağı düşür;
– vergi ödəmələri azalır;
– gizli iqtisadiyyatın daha dərin inkişafına gətirib çıxarır və ölkə korrupsiyanın qanunları ilə işləyir;
– özəlləşdirmə ədalətli aparılmır, bəzi ölkələrdə isə ancaq bir qrupun, bir ailənin mənafeyinə xidmət edir;
– investisiya mühiti pisləşir;
– kreditlər rüşvətlə verilir;

---

[1] Qeyd: 1993-cü ildə yaradılan və mərkəzi qərargahı Berlində yerləşən Beynəlxalq Şəffaflıq Təşkilatı (BŞT) «Korrupsiyanı Qavrama İndeksi»ni (KQİ) 1995-ci ildən müəyyənləşdirməyə başlayıb. KQİ-nin hazırlanmasında əsas məqsəd dünya ölkələrində, onların bir-biri ilə müqayisəsi nəticəsində korrupsiyanın ümumi səviyyəsi barədə məlumat verməkdir. İndeksə daxil edilən dövlətlərin sayı konkret ölkə ilə bağlı kifayət qədər mötəbər məlumatların olmasından asılıdır. KQİ-nin müəyyənləşdirilməsi zamanı əvvəlcədən subyektiv informasiyadan istifadə olunur.

– rüşvətsiz heç bir problem həll olunmur;
– inflyasiya yaranır;
– qiymətlər yüksəlir;
– istehlakçılar əziyyət çəkir;
– sağlam rəqabət mühiti pozulur;
– sağlam iqtisadiyyat bütövlükdə məhv olur;
– insanların dövlətə olan inamı azalır;
– iqtisadi və mənəvi stabillik pozulur;
– ağır cinayətin və terrorizmin hüdudları genişlənir;
– xarici ölkələrin dövlətə inamı zəifləyir.

Korrupsiyanın sosial nəticələrinə aiddir:

– ölkədə iki qütb (varlı və yoxsul) yaranır və sosial gərginlik artır;
– cəmiyyətin inkişafı üçün əsas olan orta təbəqə yox olur;
– sosial bərabərsizlik güclənir;
– dövlət əhalinin sosial problemlərini həll etməkdə çətinlik çəkir və bu proses günü-gündən pisləşir;
– əhali yoxsullaşır;
– ölkə gəlirləri əhali arasında qeyri-bərabər bölüşdürülür və nəticədə çox az bir qrup varlanır.

Korrupsiyanın siyasi nəticələri aşağıdakılara gətirib çıxarır:

– beynəlxalq kapitalın hərəkətinə mane olur;
– investisiya qoymaqda tərəddüdlər yaranır;
– iqtisadi və mənəvi sabitlik pozulur:
– ölkənin bütövlükdə inkişafı deyil, ayrı-ayrı qrupların varlanması əsas məqsədə çevrilir;
– ölkənin beynəlxalq aləmdə nüfuzu aşağı düşür;
– siyasi rəqabət imkanları məhdudlaşır;
– vətəndaşların demokratiyaya inamı sarsılır;
– dövlətə inam azalır və onunla cəmiyyət arasında uçurum yaranır.

«Böyük səkkizlər» 15 iyul 2006-cı ildə Sankt-Peterburqda keçirilən zirvə toplantısında müxtəlif bəyanatlar verməklə yanaşı qlobal enerji təhlükəsizliyi, ticarət, habelə piratlığa qarşı mübarizə, korrupsiya və s. sahələri əhatə edən sənədlər imzalayıblar. Toplantıda bütün dünya dövlətlərinə bildirildi ki, korrupsiya ilə idarəetmə arasında əlaqə zəifdir. Korrupsiyaya uğrayanlar cinayət məsuliyyətinə cəlb edilməli və dövlət vəzifələrinə, maliyyə sisteminə onların girişi qadağan olunmalıdır.

Deməli, belə çıxır ki, korrupsiyaya uğrayan dövlət adamları rüşvətxorluqla əldə etdikləri əmlakları və pulları xaricdə, xarici banklarda gizlətməkdə çox çətinlik çəkəcəklər.

«Böyük səkkizlik»lərin götürdükləri öhdəliklərdən belə çıxır ki, korrupsiyaya qurşanmış məmurların rüşvətlə əldə etdikləri əmlakları və pulları xarici banklarda saxlamaqlarına qadağa qoyulacaq və bank hesabları dondurulacaq, hətta bu ölkələrə gəlmələrinin qarşısı alınacaq. Belə çıxır ki, qəbul olunmuş qərara görə bu vəsaitlər həmin ölkələrin özünə qaytarılacaq.

«Böyük səkkizlik»lərin qərarından əvvəl bu təşəbbüslə ABŞ-ın sabiq prezidenti oğul Corc Buş korrupsiyadan mənfəət götürən və ya korrupsiyada iştirak edən miqrant və qeyri-miqrantların ABŞ-a girişinə qadağa qoyan müraciət qəbul etmişdir.

Qərarda təkcə korrupsiyadan deyil, hətta seçkiyə təsir göstərən, onu saxtalaşdırmağa cəhd edən məmurların və onların ailə üzvləri və yaxınlarının da ölkəyə buraxılmaması nəzərdə tutulmuşdur. Ümumiyyətlə, **bütövlükdə götürdükdə əsas məqsəd korrupsiyaya bulaşan dövlət məmurlarının beynəlxalq maliyyə sisteminə girişinə qadağa qoyulmasıdır. Bütün bunlar kağız üzərində gözəl səslənsə də real həyatda görünmədi. Belə çıxır ki, korrupsiya ilə mübarizəyə ciddi yanaşılmır.**

Susan Rouz Akkermana görə, qeyri-demokratik ölkələr korrupsiyaya daha həssasdır, çünki belə ölkələrdə iqtidarın çox az nəzarət və sabitlik təşkil etmək potensialı olur. Son vaxtlarda Meksika, İtaliya, Koreya və Yaponiyada siyasətçilərlə bağlı rüşvət qalmaqalları baş vermişdi. Fransa və Almaniyada dövlət sə-

viyyəsində korrupsiya ümumi hal almışdı. Aydındır ki, demokratik formalar heç də həmişə korrupsiyaya nəzarəti uğurla həyata keçirmir[1].

Korrupsiya hətta ABŞ-ın özündən də yan keçmir. Orada da kütləvi olmasa da korrupsiya hallarına rast gəlinir. Oğul Buşun dövründə Konqres üzvünün korrupsiyada adının hallanması, onlardan bəzilərinin həbs edilməsi ABŞ-ın demokratiya anlayışına müəyyən şübhələr yaratmışdır. Şübhə doğuran cəhət ondan ibarət idi ki, Amerika dövləti hərbi və maliyyə maraqlarını təmin etmək üçün dünyanın hətta ən avtoritar, korrupsiyaya bulaşmış dövlətləri ilə əməkdaşlıq edir. Məsələn, ABŞ İordaniya, Küveyt, Səudiyyə Ərəbistanı kimi korrupsiya səviyyəsi yüksək olan ölkələrlə strateji əməkdaşlığını hal-hazırda bu gün də davam etdirir.

ABŞ-ın sabiq dövlət katibinin köməkçisi Riçard Bauçer Özbəkistana səfər edərək korrupsiyaya bulaşan, Əndican hadisələri kimi qanlı olayları törədən Daşkənd rejiminə işbirliyi təklif etmişdir. Belə hadisələr dünyada ABŞ dövlət başçılarının bəyanatlarına şübhə doğurmaya bilmirdi. Hansı ki, onlar həmişə «demokratiya bütün dünyaya yayılacaq» bəyanatı ilə çıxış etmişdir. Hətta sabiq prezident vaxtilə «Azadlıq istəyən xalqlar, onu alacaqlar!» söyləmişdir.

Bütün bu kimi ziddiyyətli və təzadlı fikirlər bizə belə bir nəticə çıxarmağa imkan verir ki, prezidentin kim olmasından asılı olmayaraq bu kimi bəyanatlar sadəcə olaraq ABŞ-ın siyasi texnologiyasının tərkib hissəsidir.

Korrupsiyaya qarşı mübarizədə ölkələr müxtəlif üsullardan istifadə edir. Məsələn, **ABŞ-da qanuna görə, korrupsiya ilə bağlı faktın açılmasına köməklik edən şəxsə ortadakı məbləğin 15-30 faizi ödənilir.**

---

[1] Bax: Susan Rouz – Akkerman. Hakimiyyət və korrupsiya: səbəblər, nəticələr və islahatlar (Azərbaycan dilində). «CAMBRIDGE Universiteti Nəşriyyatı», 1999, s. 113.

Yunanıstanda korrupsiya ilə effektiv mübarizə aparmaq üçün dövlət qulluqçularının əmlak vəziyyəti ciddi nəzarət altında saxlanılır. Bütün qulluqçular əldə etdikləri əmlakla bağlı kadrlar xidmətini dərhal məlumatlandırmağa borcludurlar.[1]

Korrupsiyanın ən əsas xüsusiyyəti maddi gəlir əldə etməkdir. Korrupsiyanın qarşısını alan ən əsas amil isə korrupsiyaya qurşanan şəxsi ifşa etmək və cəzalandırmaq riskidir. Danimarka, Finlandiya və İsveç kimi ölkələrdə korrupsiyanın səviyyəsi heçə yaxındır. Hətta bu ölkələrdə rüşvət anlayışı yoxdur və onların leksikonundan sanki bu ifadə silinmişdir.

Hər hansı bir məmurun fəaliyyətində korrupsiya faktı müəyyən olunarsa o dərhal vəzifəsindən kənarlaşdırılır. Lakin bu ölkələrdə inhisarçılıq dövlət səviyyəsində mövcuddur ki, bu da iqtisadiyyata olduqca mənfi təsir göstərir. Bunu bəzən müsbət hal kimi qiymətləndirirlər. Guya ki, inhisarçılıq sərxoşluğun, siqaretə meyilliyin qarşısını müəyyən mənada alır.

Digər ölkələrdən fərqli olaraq bu ölkələrdə insanlar sadə geyimi ilə fərqlənirlər. Dövlət qulluqçularından başqa kostyum geyib qalstuk taxanlara nadir halda rast gəlmək olar. Cins şalvar, köynək, kofta və gödəkcəyə üstünlük verirlər. Qiymətli metala, daş-qaşa, xüsusilə də qızıl və brilyanta əhəmiyyət verən azdır.

**2012-ci ildə Almaniyanın prezidenti Kristian Vulf korrupsiyada ittiham olunduğuna görə istefa verdi. Fakt nədən ibarət idi? Kristian Vulf villa tikdirmək üçün dövlət bankından deyil, çox az faiz fərqi ilə yaxın dostunun sahibi olduğu özəl bankdan kredit götürüb. Digər tərəfdən, sən demə Vulfun dostu olan bank sahibinin Amerikanın Florida ştatında villası varmış və Vulf öz həyat yoldaşı ilə orada nə zamansa istirahət edib. Belə bir məsələ də meydana çıxıb ki, Vulf Florida ştatına gedərkən özünə təyyarədə "biznes klass"-da xanımına isə "ekonom klass" üzrə uçuş biletləri alıblar. Sonra aydınlaşıb ki, Berlin Hava Yolları Şirkəti Vulfun xanımı-**

[1]. Bax: Məmurun büdcə yaddaşı. Bakı – 2009, s.78

**nın biletinin əlavə dəyərini ödəyərək onu da "biznes klass" salonunda yerləşdirib.**

Bu hadisə Almaniyada çox böyük səs-küyə səbəb olmuşdur. Vulf böyük siyasi mədəniyyət göstərərək prezidentlikdən istefa vermişdir.

Türkiyədə 2013-cü il dekabrın 17-də "böyük rüşvət" əməliyyatı baş verdi. Türkiyə hökumətinin bir neçə nazirinin və övladlarının eləcə də, ölkənin ən tanınmış iş adamlarının adları rüşvət və çirkli pulların yuyulması sisteminin yaradılmasında hallandı. Ölkənin hüquq-mühafizə təşkilatlarının hakim siyasi qüvvənin üzərinə bu qədər cəsarətlə və inadkar getməsi dünya tarixində nadir hadisələrdən sayılır.

Ərdoğanın Baş nazir olduğu dövrlərdə belə bir hadisənin baş verməsi dünya ictimaiyyətini düşündürməyə bilməzdi.

Çünki, Ərdoğan dövründə Türkiyə ən güclü dövlət hesab edilirdi. Onun 11 illik hakimiyyəti dövründə bütün seçkilərdə siyasi rəqibinə böyük üstünlüklə qələbə çalması, əksər rəqiblərini, güc mərkəzlərini bir-birinin ardınca sıradan çıxarması, müxtəlif biznes dairələrinin, nüfuzlu iş adamlarının, siyasi xadimlərin aradan çıxması və müflisləşməsi, həbsə atılması, susdurulması, Türkiyə ordusunun müəyyən dəyişiklərlə Ərdoğan hakimiyyətinin siyasi iradəsinə tabe etdirilməsi onun gücünü göstərən əlamətlərdir. Lakin gözlənilmədən "böyük rüşvət" əməliyyatı ölkəni sarsıtmaya bilməzdi.

Bütün bunlar onu göstərdi ki, Ərdoğan hakimiyyətini yuxarıda sadaladığımız tədbirlər deyil, rüşvət və korrupsiya qalmaqalı onun və komandasının nüfuzuna son dərəcə ciddi, sarsıdıcı zərbə vurdu. Bu bir daha onu göstərdi ki, pul, rüşvət və korrupsiya diktatorun və hakimiyyətin özü deməkdir.

Ümumiyyətlə, hər hansı bir ölkədə iş adamları öz biznes fəaliyyətini hakimiyyətlə birgə, şərikli gördüyü bir şəraitdə korrupsiya hardasa məğlubedilməz gücə malik olur. Nəticədə isə, bu prosesdə pulun mütləq diktaturası iqtisadi və sosial sistemlərin özünün iflic vəziyyətə düşməsinə gətirib çıxarır.

**Mütəxəssislər hesablamışlar ki, dünya ölkələrinin bəzilərində korrupsiyaya qarşı mübarizəyə xərclənmiş hər bir dollar 23 dollara çevrilir. Aydındır ki, bu da dövlət büdcəsini zənginləşdirir. Beynəlxalq aləmdə isə bu rəqəm 250 dollara qədər yüksəlir.** Bu səbəbdən də BMT, Avropa Birliyi, Beynəlxalq Valyuta Fondu kimi təşkilatlar korrupsiyaya qarşı mübarizədə vəsait sərf edilməsinə xəsisliklə yanaşmırlar.

Təbii ehtiyatlarla zəngin olan ölkələrin çoxunda korrupsiya adi hala çevrilibdir. Beynəlxalq təşkilatların rəyində Anqola, Çad, Ekvador, İran, İraq, Qırğızıstan, Qazaxıstan, Liviya, Kamboca, Zimbabve, Nigeriya, Rusiya, Sudan, Venesuela və Yəmən kimi dövlətlər korrupsiyaya qarşı mübarizəyə görə həmişə çox aşağı bal alırlar. **Bəzi ölkələrdə isə artıq korrupsiya sistem halını almışdır.** Korrupsiya dövlət idarəçiliyinin sanki əsasını təşkil edir, onun tərkibindədir.

Avropa Şurası Parlament Assambleyasının Azərbaycan üzrə o zamankı məruzəçisi Andreas Qross 2005-ci ildə Bakıda olarkən ona belə bir sual vermişlər: Azərbaycanda korrupsiyanın miqyasının azaldılmasına mane olan amillər hansılardır?

A.Qross bildirib ki, az sayda insanın pulu çox, çoxluğun isə pulu az olanda korrupsiya üçün böyük imkanlar açılır. Hər hansı bir ölkədə əhalinin əməkhaqqı aşağı səviyyədədirsə, korrupsiya çiçəklənəcək. İnsana hörmət aşağı, pula hörmət isə yüksək səviyyədədirsə, hər şeyi alıb satmaq olar. Ölkənin sərvətləri 5-10 faizin əlində cəmləşibsə, qanun yox səviyyəsindədirsə və polis cinayətə və korrupsiyaya uğramış haldadırsa, bununla effektiv mübarizə mümkün deyil. Bu durumda korrupsiya ayaq tutub yeriyir.

Korrupsiyanı aradan qaldırmaq üçün fərq qoymadan insanların maddi şəraitini daim yaxşılaşdırmaq və müəyyən şərtlər daxilində tarazlaşdırmaq lazımdır. Bununla yanaşı əməkhaqları arasındakı fərqləri minimuma endirmək zərurəti meydana çıxır. Ancaq ilk növbədə bu şərtlər daxilində korrupsiyanın qarşısını almaq olar.

Bəzi ölkələrdən fərqli olaraq Azərbaycanda korrupsiya ilə mübarizəyə dair qanun mövcuddur. Təəssüflər olsun ki, real-

lıqda korrupsiyaya nəzarət, vətəndaş cəmiyyətinin iqtisadi proseslərdə iştirakı zəifdir. Bu tədrici prosesdir və dövlət səviyyəsində beynəlxalq təşkilatların söylədiyi mənfi cəhətlərin aradan qaldırılması üçün ardıcıl mübarizə formalarından istifadə edilir və günü-gündən gücləndirilir.

Azərbaycan Respublikasının Prezidenti İ.Əliyev Finlandiyanın "Yulesradio" Dövlət Teleradio Şirkətinin müxbirinə müsahibəsində Azərbaycanda korrupsiyanın səbəbləri və onunla mübarizəni aşağıdakı kimi xarakterizə etmişdir: "Korrupsiya böyük bəladır, keçmiş Sovet İttifaqının bütün respublikalarını bürümüşdür. Nəzər salsaq görərik ki, bu ölkələrin hamısında həmin problem çox aktualdır. Bunu yaşadığımız sistem-sosializm sistemi və planlı iqtisadiyyat sistemi, daim qıtlıq və bürokratiyanın olduğu sistem doğurmuşdur. Müstəqilliyin əldə edildiyi dövr Azərbaycanda böyük sarsıntılarla bağlı olmuşdur – işğalda, çox böyük sayda qaçqınlar – köçkünlər də vətəndaş müharibəsi də yoxsulluq da olmuşdur. Bütün bu amillər korrupsiya ilə mübarizənin daha səmərəli olmasına imkan verməmişdir. Çünki əhalinin əksər hissəsinin yoxsulluq içində yaşadığı, əməkhaqqının çox az olduğu vaxtda korrupsiya ilə mübarizə aparmaq son dərəcə çətindir. Hər şey dövlət mülkiyyətində olduğu vaxtda da çətindir. Ona görə də atdığımız ciddi əməli addımlarla yanaşı, - məsələn, Azərbaycanda korrupsiyaya qarşı mübarizə haqqında qanun qəbul edilmiş, korrupsiyaya qarşı mübarizə üzrə xüsusi idarə yaradılmış və o bir çox korrupsiyaçıları üzə çıxarmış və onlar məsuliyyətə cəlb edilmiş və artıq həbsdədirlər, - iqtisadi islahatlar, özəlləşdirmə, özəl sektorun möhkəmlənməsi prosesi də əhəmiyyətlidir. O mənada ki, iqtisadiyyat məmurlardan, bürokratlardan asılı olmasın. Biz yalnız bu yolla səmərəli mübarizə apara bilərik. Çünki bir məmurun başqa bir məmurla əvəz edilməsindən heç nə çıxmaz. Bəlkə də müvəqqəti səmərə olar, lakin uzunmüddətli səmərə olmayacaqdır. Korrupsiyanın başlıca səbəbləri bizim keçmişimizlə, totalitar sistemlə, əhalinin həyat səviyyəsinin aşağı

olması, çox böyük sayda insanların yoxsulluq içində yaşaması ilə habelə dövlət orqanlarının iqtisadiyyata təsiri ilə bağlıdır. Ona görə də biz müxtəlif istiqamətlərdə iş aparmalıyıq... Biz daha tam özəlləşdirmə, dövlətsizləşdirmə və güclü orta sinif yaratmaq prosesinə nail olduqdan sonra korrupsiya, əlbəttə kəskin sürətdə azalacaqdır."[1]

Elə ölkələr var ki, bütün sərvətlər bir qrup insanların əlindədir. Belə ölkələrdə istər-istəməz korrupsiya xərçəng kimi ölkəni məhv edir. Bu cür ölkələrdə korrupsiya dövlət ideologiyasına çevrilir. Milli iqtisadiyyatda inhisarçılıq hökm sürür.

**Rüşvət həm qanuni, həm də qeyri-qanuni işlərin həyata keçirilməsindən alınır. Bunu doğuran səbəblər isə qanunların işləməməsi və əhalinin təfəkküründə rüşvət verilməsə hər hansı bir məsələni həll etmək olmaz fikrinin formalaşmasıdır.**

Vaxtilə, L.İ.Brejnev onun nitqini tərtib edənlərə «istiqamət» verdiyi zaman söhbət ölkədə aşağı əməkhaqqı olanların çətin və yoxsul həyatından düşərkən, adətən, öz nitqlərində daim təmizlikdən, vicdandan dəm vurduğu halda gözlənilmədən demişdir: «Sizin həyatdan başınız çıxmır. Heç kəs əməkhaqqı hesabına yaşamır. Yadımdadır, cavan vaxtı, texnikumda oxuyanda, dərsdən sonra vaqonların yükünü boşaltmaqla «xaltura» edirdik. Özü də necə edirdik? Üç torba ya üç yeşik ora – biri özümüzə. Oğurlayırdıq! Ölkədə hamı bu cür yaşayır».

2007-ci ildə ABŞ-da minimum əməkhaqqı saatda 5,15 dollardan 7,25 dollara qədər qaldırılıb. Federal səviyyədə istisnalar var və ən yüksək saat hesabı əməkhaqqı Vaşinqtonda 9,19 dollar olmuşdur (2013-cü ildə). Bundan sonra Amerikada minimum əməkhaqqı ildə 11 min dollar təşkil edəcək. Lakin bir sıra demokrat deputatların fikrincə, «kasıblıq həddini» daha 6 min dollar qaldıraraq 17 min dollara çatdırmaq lazımdır.

[1] Bax: "Azərbaycan" qəzeti 29 sentyabr 2005-ci il.

ABŞ-da minimum əməkhaqqı sonuncu dəfə 25 may 2007-ci ildə qaldırılmışdır. Əməyin minimum həddi sisteminin müəyyən edilməsi ölkədə ilk dəfə 1938-ci ildə yaradılıb və o zaman bir iş saatı üçün 25 sent olub.

2004-cü ildə tam iş günü ərzində çalışan və minimum əməkhaqqı alan işçi 10,712 dollar qazanırmış. Müqayisə üçün qeyd edək ki, o zaman rəsmi yoxsulluq həddi 15,205 dollar həcmində müəyyən edilib (üç nəfərlik ailə üçün nəzərdə tutulur).

Rusiya mətbuatının yazdığına görə 1 saatlıq əməkhaqqı ayrı-ayrı ölkələr üzrə aşağıdakı kimi olmuşdur: Bolqarıstan -3,7 avro, Litva – 5,8 avro, Polşa – 7,2 avro, Slovakiya – 8,6 avro, Çexiya – 10,7 avro, Sloveniya – 14,5 avro, Yunanıstan – 15,5 avro, İspaniya – 20,9 avro, Böyük Britaniya – 21,9 avro, İtaliya – 27,2 avro, Almaniya – 31 avro, Fransa – 34,9 avro, Belçika – 40,4 avro, İsveç – 41,9 avro.[1]

Prinsip etibarıılə, əməkhaqqı yüksək olan və qanunların işlədiyi ölkələrdə rüşvət amili olmamalıdır.

ABŞ Konqresinin Nümayəndələr Palatasının üzvü, demokrat konqresmen Uilyam Cefferson 100 min dollar rüşvət aldığına görə 2006-cı ildə həbs olunmuşdur. O, Nigeriyanın telekommunikasiya şirkətinin səhmlərini ABŞ şirkətinə satmaqda vasitəçilik etmişdir. Bu proses Federal Tədqiqat Bürosunun əməkdaşları tərəfindən gizli şəkildə videolentə köçürülmüşdür.

Göründüyü kimi, sivil ölkələrdə də rüşvət hadisəsi baş verə bilər, lakin bu kütləvi hal ola bilməz.

### 6.4. Korrupsiya və iqtisadi amnistiya

Korrupsiyanın geniş yayıldığı ölkələrdə məmurların və gizli iqtisadiyyat nümayəndələrinin əldə etdikləri «çirkli» pullara amnistiya verilməsi olduqca ciddi, incə və diqqət tələb edən mürəkkəb bir prosesdir.

---

[1] Bax: «Российская газета» 21 январь 2014 г.

İqtisadi ədəbiyyatlarda «çirkli» pulların şərhi müxtəlif səpkidə verilir və iqtisadçıların yanaşma mövqeləri müxtəlifdir. Alman iqtisadçısı K.Kottke yazır ki, vergi mənasında «çirkli» pul dedikdə – qanuna zidd yolla alınmış gəlirlərin vergiqoyma nəticəsində yalnız əmlak faydasının alınması deyildir. Müvafiq halların məntiqi mühakiməsi və təhlili ona gətirib çıxarır ki, «çirkli» pullar dedikdə düzgün verginin əmələ gəlməsi əsasında qoyulan məbləğ, yəni vergiqoymaya məruz qalan məbləğ, yaxud onun bir hissəsi başa düşülür[1].

«Çirkli» pulların xarakterik cəhəti ondan ibarətdir ki, onlar vergilərin qəsdən azaldılması nəticəsində, başqa sözlə, vergilərin ödənilməsindən yayınma nəticəsində əmələ gəlir. Ona görə də «çirkli» pulların əmələ gəlməsi məqsəddir, nəticədir[2].

O, fikrini davam etdirərək göstərir ki, vergi münasibəti baxımından «çirkli» pullar daha çox yayındırılır. «Çirkli pulların sahibi» hər vəchlə onların aşkarlanmasına gətirib çıxaran izləri çaşdırmağa cəhd göstərir. Vergi mənasında «çirkli» pulların adi olan «pullardan» ibarət olması vacib deyil. Belə ki, əmtəə maddi dəyərlərin «çirkli» ehtiyatlarından da yarana bilər[3].

K.Kottke «çirkli» pul sahiblərinin hər cəhdlə izi itirmək üçün müxtəlif üsullardan istifadəsini istisna etmir. Bəzən «çirkli» pullara nağd hesabla qiymətli kağızlar alınır. Bu pullar evdəki seyfdə və ya bankda saxlanılır. Anonim abonement seyfdə qorunur və oradan yalnız kuponla faiz almaq üçün götürülür. Xüsusilə, çox zaman bu pullar qiymətli kağızlara və bank sirrinin qanunla qorunduğu İsveçrə, Lüksemburq, Lixtenşteyn və ya

---

[1] Вах: Коттке К. «Грязные» деньги – что это такое?: Справочник по налоговому законодательству в области «грязных» денег / Пер. с нем. – М.: Издательство «Дело и Сервис», 1998, с. 38-39.
[2] Yenə orada, s. 39.
[3] Yenə orada, s. 41.

Avstriya kimi dövlətlərdə banka qoyulur və bu nəticədə izlərin itirilməsinə səbəb olur[1].

Dünya praktikasında korrupsiyaya qarşı mübarizədə müxtəlif metodlardan istifadə edilir. 31 may 2007-ci il tarixdə Bakıda «Korrupsiyaya qarşı mübarizə və keçid dövrü ölkələrində islahatlar» mövzusunda keçirilən beynəlxalq konfransda çıxış edən ABŞ-ın Azərbaycandakı sabiq səfiri Enn Dersinin fikrinə görə, ölkənin mövqelərinin yaxşılaşdırılması və regionda onun potensialının ifadəsi üçün korrupsiyaya qarşı mübarizə milli konsensusun əldə olunması vacib məsələlərdən biridir. Korrupsiyaya qarşı mübarizəyə dair ölkəmizdə Milli Strategiya üzərində işlərin başa çatmasını müsbət hal hesab edən səfir, bu sahədə səylərin effektliyinin artırılması üçün 6 təklif irəli sürmüşdür:

1. Çirkli pulların yuyulmasının qarşısının alınmasına dair geniş bir qanunun qəbul edilməsi.
2. Hökumət rəsmilərinin bütün maliyyə vəsaitləri haqqında məlumatların ictimaiyyətə açıqlanması.
3. Dövlət alqı-satqı prosesinin və dövlət vəsaitlərinin şəffaf, rəqabətlə və açıq şərtlərlə aparılması.
4. Korrupsiya ilə Mübarizəyə Qarşı Dövlətlər Qrupunun və BMT Konvensiyasının öhdəliklərinə cavab vermək və Azərbaycanın Korrupsiya ilə Mübarizəyə dair yeni Milli Strategiyasının icrası üçün müddətin təyin edilməsi.
5. Hökumətin antikorrupsiya tədbirlərini necə yerinə yetirilməsini qiymətləndirmək üçün vətəndaş cəmiyyətinin iştirakı ilə müntəzəm monitorinq və hesabatlar prosesinin aparılması.
6. Korrupsiya halları barədə jurnalistlərin mühakimə olunmaq və ya şəxsi ziyan çəkmək qorxusu olmadan obyektiv məlumat

[1] Bax: Коттке К. «Грязные» деньги – что это такое?: Справочник по налоговому законодательству в области «грязных» денег / Пер. с нем. – М.: Издательство «Дело и Сервис», 1998, s. 152.

verməlləri məqsədilə müstəqil, etik və peşəkar medianın olması və güclü hökumət tərəfindən mətbuat azadlığının qorunması.

«İqtisadi amnistiya» anlayışı ilk dəfə müharibədən sonrakı illərdə yaranmış və İsveçrədə həyata keçirilmişdir.

Beynəlxalq aləmdə korrupsiyaya qarşı mübarizədə iqtisadi amnistiyadan geniş istifadə edən ölkələr mövcuddur. Lakin, bu bütün dünya ölkələrində özünü doğruldan metod deyil. Praktika sübut edib ki, bir sıra ölkələrdə maliyyə amnistiyası ciddi etirazlara, iqtisadi tənəzzülə və özbaşınalığa aparıb çıxarmışdır. Bu metod çox hallarda formal xarakter daşıyır və gözdən pərdə asmağa bənzəyir.

İqtisadi ədəbiyyatda maliyyə amnistiyası, iqtisadi amnistiya, kapital amnistiyası və vergi amnistiyası çox hallarda eyni mahiyyət kəsb edən anlayışlar kimi şərh edilir.

Kapitalın amnistiyası daha çox Polşada, Mərkəzi və Şərqi Avropanın timsalında uğur qazanıb.

Maliyyə amnistiyaları Argentinada, Belçikada, Hindistanda, İtaliyada, Pakistanda, Fransada, Fillipində və digər ölkələrdə həyata keçirilmişdir. Maliyyə amnistiyası çox hallarda müsbət nəticələrə gətirib çıxarsa da, bəzən mənfi göstəricilərlə də müşahidə olunur.

Maliyyə amnistiyası dedikdə, qazanılma mənbəyi bilinməyən maliyyə və əmlakların leqallaşdırılması nəzərdə tutulur. Adətən amnistiya tətbiq edildikdə belə «qazanılmış» vəsaitlərin mənbəyi ilə maraqlanırlar. Lakin, amnistiya nəticəsində əldə edilən məbləğin bir hissəsi vergi formasında dövlət büdcəsinə keçirilir. Dünyanın əksər ölkələrində narkotik, silah və insan alveri ilə yığılan vəsaitlərə amnistiya tətbiq edilməsi qadağandır. Belə ölkələrdə maliyyə amnistiyası vergidən yayınan, xüsusi ilə iri məbləğdə maliyyə və əmlaklara şamil edilir.

Ümumiyyətlə, qeyri-qanuni yolla toplanan sərvətin geri qaytarılması asan məsələ deyil. Bunun da öz çətinlikləri, neqativ və pozitiv tərəfləri və uyğun sosial-iqtisadi nəticələri vardır. Əvvəla, çirkli yollarla yığılmış pul və əmlakın geri qayıtması üçün

təminat vermək lazımdır. İkincisi, məmurların əlində olan pul vəsaitlərinin iqtisadiyyata yönəldilməsi üçün şərait yaradılmalıdır. Üçüncüsü, pullu məmurlar öz istəkləri ilə bu prosesə qoşulmazlar. Onlar ya məcbur edilməli, ya da onlarda tam inam hissi yaradılmalıdır. Məmurlar üçün belə şərait yaratmaq heç də çətin deyil.

Korrupsiya olan ölkələrdə maliyyə amnistiyasına böyük ehtiyac var. Ona görə ki, heç olmasa gizlədilmiş, ölkədən çıxarılmış pulların müəyyən qismini geri qaytarmaq mümkün olur.

Dünya təcrübəsi göstərir ki, bəzi ölkələrdə maliyyə amnistiyası ölkə iqtisadiyyatına güclü təsir etmək imkanına malik olmuşdur. ABŞ-da iqtisadi amnistiyalar birdəfəlik tədbir kimi deyil, ştatlarda müntəzəm olaraq həyata keçirilir. Amerikada 1982-ci ildən başlayaraq, müxtəlif vaxtlarda ölkənin 39 ştatında iqtisadi amnistiyalar həyata keçirilib. Nəticədə ştatların büdcəsi 2,1 mlrd dollar artmışdır. ABŞ amnistiyasının ən yüksək uğuru gələcəkdə vergidən yayınmaya görə məsuliyyətə cəlb edilmə nəzərdə tutulmuşdur. Hətta 2003-cü ilin yanvar ayında ABŞ-ın vergi xidməti vergidən yayınma məqsədilə xarici bank, o cümlədən kart, hesabları açılmış şəxslərə 15 aprel 2003-cü il tarixinədək vaxt vermişdir. Bu vaxta qədər vergiləri ödəməyən şəxslər cinayət məsuliyyətinə cəlb edilmişlər. Belçikada maliyyə amnistiyası haqqında qanun 2004-cü il yanvarın 1-dən qüvvəyə minmiş və 2005-ci il yanvarın 1-ə qədər ölkə vətəndaşları həm daxildə, həm də xaricdə mövcud olan əmlak və maliyyə vəsaitləri haqqında ölkənin maliyyə nazirliyinə deklarasiya təqdim etmişlər. Belçika bu amnistiya nəticəsində dövlət büdcəsinə 850 mln avro keçirmişdir.

Rusiya prezidenti V.Putin Dövlət Dumasında maliyyə amnistiyası problemini qaldırmış və ofşor zonalardakı pulların Rusiya iqtisadiyyatına lazımlı olduğunu göstərmişdir. Bu məqsədlə Rusiyada fiziki şəxslər üçün vergi norması müəyyənləşdirilmişdir. Beləliklə, Rusiyada vergilər ödənildikdən sonra fiziki şəxslərin bütün vəsaitləri hüquqi status alır. Bu da o demək-

dir ki, onlar kapitallarını qanunla nəzərdə tutulan sahələrə sərbəst surətdə qoymaq imkanına malik olmuşlar.

Rusiyada «Vergi amnistiyası haqqında» qanuna görə onun ərazisində fəaliyyət göstərən hər bir sahibkar bu günə qədər əldə etdikləri vəsaitə və ödəmədiyi vergiyə görə məsuliyyət daşımır. Vəsait sahibləri daşınan və daşınmaz əmlaklarına deklarasiya təqdim etmişlər.

Almaniyada isə maliyyə amnistiyası 2004-cü ildə qəbul olunmuşdur. Qanunda göstərilmişdir ki, vergi müfəttişliyinə qanunsuz əldə etdiyi vəsaitlərə görə deklarasiya təqdim olunmalıdır. Nəzərdə tutulmuşdur ki, 10 gün müddətində bu vəsaitin 25 faizi dövlət xəzinəsinə verilməlidir. Maliyyə amnistiyası nəticəsində 100 mlrd avro mənfəət götürülməsi planlaşdırılmışdır. Təəssüflə qeyd etmək lazımdır ki, bu proqnoz özünü doğrultmamış və təxminən 5 dəfə az ödəniş olmuşdur.

İtaliyada vergi amnistiyası spesifikliyi ilə seçilir və öz səmərəliliyinə görə fərqlənir. Orada 1982-ci ildə geniş miqyaslı amnistiya keçirilmişdir. Leqallaşdırma həm maliyyə alətləri və kapitalı, daşınar və daşınmaz əmlakı, torpaq sahələrini, incəsənət əsərlərini əhatə etmişdir.

İrlandiyada 1988-ci ildən başlayaraq iqtisadi amnistiya həyata keçirilmişdir. İqtisadi ədəbiyyatda İrlandiya amnistiyasını klassik nümunə kimi göstərirlər. Proses başlayanda vergi ödəyicilərinə 10 ay vaxt verilmişdir. Qanunu pozanların siyahısı isə mətbuatda dərc olunmuşdur. Amnistiya nəticəsində dövlət büdcəsinin kəsiri tamamilə ödənilmişdir.

Postsosialist ölkələri içərisində iqtisadi amnistiya ilk dəfə Qazaxıstanda baş vermişdir. 2 aprel 2001-ci il tarixində «Pulların leqallaşdırılması ilə əlaqədar Qazaxıstan Respublikası vətəndaşlarının amnistiyası haqqında» Qazaxıstan Respublikasının Qanunu qəbul edilmişdir.

Qanuna görə ilk əvvəl pulların leqallaşdırılması iyirmi təqvim günü müddətində, sonradan isə bir ayadək müddətə uzadılmışdır.

Bəzi dünya ölkələrində barələrində cinayət işi açılmış, məhkum edilmiş və inzibati məsuliyyətə cəlb olunan şəxslər amnistiyadan məhrum edilmişdir. Digər tərəfdən korrupsiyaya uğrayanlar, şəxsiyyətə, sülhə, insan və ictimai təhlükəsizliyə, dövlətin konstitusiya quruluşunun əsaslarına, mülkiyyətə, dövlət maraqlarına, ictimai qaydalara, sağlamlığa, əxlaqa qarşı cinayətlər nəticəsində əldə edilmiş, habelə digər şəxslərə məxsus və ya kredit şəklində alınmış pulların leqallaşdırılması hallarına da aid edilmişdir.

Qazaxıstan «kölgə kapital»ın leqallaşması hesabına güclü ordu yaratmaq məqsədi güdürdü. Ölkədə dövriyyədən çıxarılan mülkiyyətə və kapitala görə 10 faizli amnistiya elan edilmişdir. Nəticədə 480 mln dollardan çox pul leqallaşdırılmışdır. Bunun 11 faizi ölkəyə kənardan daxil olub.

Hindistanda vergi amnistiyası 1977-ci ildə həyata keçirilmişdir. Hindistanda ABŞ-da olduğu kimi mütəmadi olaraq amnistiya elan edilir. Bunun həm müsbət, həm də mənfi cəhətləri olur. Orada kapitalın böyük hissəsi «kölgə iqtisadiyyatına» məxsus idi. Vergi amnistiyası nəticəsində əhali həm daşınmaz, həm də daşınan əmlakın, evlərdə olan qızıl və gümüşün, zinət əşyalarının qeydiyyatının aparılmasında yaxından iştirak etdilər. İqtisadiyyatın liberallaşdırılması nəticəsində dövlət büdcəsinə külli miqdarda vəsait daxil oldu. Hindistanın vergi ödəyiciləri xaricdə mövcud olan sərvətlərini ölkəyə gətirməyə başladılar. Bu özünü ona görə doğrultdu ki, ölkədə ucuz işçi qüvvəsi mövcud idi. Ölkədə verginin aşağı olması bu prosesi daha da stimullaşdırmışdır. Lakin, bəzi ölkələrdən fərqli olaraq amnistiyanın hər il deyil, hər 10 ildən bir baş verməsi nəzərdə tutulub.

İqtisadi amnistiya tədbirlərinə daxildir:

1. Əvvəllər qanunsuz hesab edilən kölgə iqtisadiyyatından əldə edilən resursların leqallaşdırılması.
2. Maliyyə resurslarının qismən və yaxud tam leqallaşdırılması.
3. Maliyyə pozuntuları törətmiş şəxslərin əfv edilməsi.

4. Ölkə ərazisindən xaricə çıxarılmış qeyri-leqal kapitalın qaytarılması üçün şəraitin yaradılmasına yönəlmiş inzibati və iqtisadi tədbirlərin həyata keçirilməsi (Bu vəsaitlər fərqi yoxdur banklarda və ya şirkətlərdə saxlanılsın).

Burada məqsəd, vergitutma bazasının möhkəmləndirilməsi və müəyyən makroiqtisadi nəticələr əldə etmək, kapitalın xaricə axınının qarşısını almaq və artıq xaricə ötürülmüş pul vəsaitlərinin ölkəyə qaytarılmasıdır.

Ölkələrin tarixi, adət-ənənələri, iqtisadiyyatlarının inkişafı nəzərə alınaraq amnistiya iki formada həyata keçirilir: tam və qismən.

Tam amnistiya iqtisadiyyatın bütün sahələrini əhatə edir. Hətta silah, narkotik maddələr, can və daxili orqanların alveri, bir sözlə, qanunla qadağan edilmiş sahələrdən əldə edilən kapitallar da daxildir. Qismən amnistiya dedikdə isə iqtisadiyyatın müəyyən sahələri nəzərdə tutulur: sənaye, tikinti, kənd təsərrüfatı, nəqliyyat və kommunikasiya, bank sistemi, xidmət və s.

Yuxarıda göründüyü kimi iqtisadi amnistiyanın həyata keçirilməsində dünya ölkələrinin təcrübəsi olduqca rəngarəngdir. Ölkələri müqayisə etdikdə isə ziddiyyətli, mübahisəli məsələlər çoxluq təşkil edir və maraqlı tədbirlər diqqəti cəlb edir.

Beynəlxalq təcrübə göstərir ki, iqtisadi amnistiya aktı həyata keçirilərkən hər bir ölkənin spesifik xüsusiyyətləri nəzərə alınmalıdır. Daha doğrusu, hər bir ölkəyə ayrıca yanaşılmalıdır. Bununla belə ümumi şərtlər də mövcuddur ki, bu da hər bir ölkə üçün vacibdir. Bunlar aşağıdakılardır:

1. Amnistiya keçirilən zaman hər bir şəxs cəzasız qalacağına əmin olmalı və dövlət səviyyəsində buna təminat verilməlidir.
2. İnsanlar amnistiya zamanı dövləti aldatdıqları zaman gələcəkdə gəlirlərin gizlədilməsi bəlli olarsa onların ciddi cəzalandırılması ilə nəticələnəcəyini dərk etməlidir.
3. İzahat və təbliğat işlərinin real və obyektiv aparılmasının vacibliyi.
4. Məlumatların məxfiliyinin qorunması.

5. Amnistiyanın bütövlükdə qeyri-müsadirə xarakter daşıması.
6. Aministiya zamanı ayrı-seçkilik, güzəştin, imtiyazlı olmaması.

Amnistiya olmadan gəlirlərin deklarasiyası səmərəsizdir. «Korrupsiyaya qarşı mübarizə haqqında» Azərbaycan Respublikası Qanununun 5-ci maddəsinə görə, vəzifəli şəxslər mənbəyi, növü və məbləğini göstərməklə hər il gəlirləri, vergitutma obyekti olan əmlakı, kredit təşkilatlarındakı əmanətləri, qiymətli kağızları və digər vəsaitləri, şirkətlər, fondlar və başqa təsərrüfat subyektlərinin fəaliyyətində səhmdar və ya təsisçi kimi iştirakı, bu müəssisələrdə mülkiyyət payı, şərti maliyyə vahidinin beş min misli miqdarından yuxarı olan borcu, şərti maliyyə vahidinin min mislindən yuxarı maliyyə və əmlak xarakterli digər öhdəlikləri barədə məlumatları korrupsiyaya qarşı mübarizə üzrə Dövlət Komissiyasına təqdim etməlidirlər. Dövlət qulluqçularının maliyyə hesabatı haqqında qanuna görə isə vəzifəli şəxslərin gəlirlərinin deklarasiyasının təqdim olunması nəzərdə tutulub.

Maliyyə amnistiyası elan olunmadan gəlirlərin deklarasiyası həyata keçirilə bilməz. Deklarasiya həyata keçirilən zaman əvvəlki pul vəsaitlərinin amnistiyası elan edilməlidir və ölkədəki pul kütləsinin miqdarı əhaliyə rəsmi surətdə real rəqəmlə bildirilməlidir. Ancaq bu proses başa çatandan sonra yeni yaranan əmlak və pul vəsaitlərinin deklarasiyası elan edilə bilər. Böyük pulların əksəriyyəti qeyri-qanuni yollarla əldə edilir. Bu baxımdan onların üzə çıxarılması çətin prosesdir. Ona görə də maliyyə amnistiyası vacibdir və bu gəlirlərin şəffaflığının təmin edilməsi göstəricisidir.

Amnistiya prosesi zamanı yeni yaranan vəsaitlər hesabına vergi daim artacaq. Belə ki, dövriyyəyə daxil olan pul vəsaitlərindən əlavə dəyər vergisi, əmlak vergisi tutulacaq. Hər hansı bir ölkədə amnistiya aktını həyata keçirməmişdən əvvəl, həmin dövlətdə vəzifəli şəxslərə əhalinin inamı olmalı və onlara etimad bəslənməsi ən başlıca amillərdəndir. Yoxsa onlar öz vəsaitlərini gizlətməyə çalışacaqlar. Hakimiyyət təminat vermədən

amnistiya aktını həyata keçirmək səmərəsizdir və bu formal xarakter daşıyacaq.

**Tam səmimiyyətlə demək olar ki, Azərbaycanda sahibkarlıq fəaliyyətinə və investisiyaya birbaşa məmurlar nəzarət edir. Bəzi məmurların nəzarətində isə çox geniş biznes sahəsi mövcuddur. Ona görə də bu məmurlar kapitalların leqallaşdırılması üçün maraqlı deyillər və buna gizli olaraq ciddi maneçilik törədirlər. Hələlik heç bir qanun bu məmurların özbaşınalığına son qoya bilmir və belə bir mexanizm yoxdur. Ona görə də bu cür məmurların əlavə vergi verməlləri real görünmür və hal-hazırda mümkün də deyil.**

Azərbaycanda çirkli pulların bir hissəsi çoxmərtəbəli binaların, villaların tikintisi zamanı, torpaq bazarında, məzar daşlarına, toylara, yaslara çəkilən xərclər hesabına yuyulur.

Diqqəti cəlb edən məsələlərdən biri də ondan ibarətdir ki, əcnəbilər üçün Azərbaycan «çirkli» pulların yuyulmasında ən optimal ölkələrdən biridir. Bəzi ölkələrdə qeyri-leqal yollarla toplanan vəsaitlər məhz ölkəmizdə yuyulur. Bunun baş verməsinə səbəb onların bəzi məmurlarla iş birliyindədir. Azərbaycana neftdən külli miqdarda vəsait daxil olur, onlardan necə istifadə etməli ki, vəsaitlər nə inflyasiya yaratsın, nə də ki, qeyri-məhsuldar sərf olunmasın. Axı elə bir dövr və şərait yarana bilər ki, gözlədiyimiz neft gəlirlərinin qarşısı müvəqqəti də olsa, dayana da bilər. Buna hər zaman hazır olmaq lazım deyilmi?

Müstəqillik dövrünün ilk illərindən başlayaraq SSRİ-nin keçmiş müttəfiq respublikalarında, o cümlədən Azərbaycanda nomenklatura sahibkarlığının formalaşdığını gördük. Bu səbəbdən, Milli Məclisdə «Vəzifəli şəxslər tərəfindən maliyyə xarakterli məlumatların təqdim edilməsi» qaydaları haqqında qanun qəbul olunub. Qanunda göstərilir ki, korrupsiya hüquq pozmalarının subyekti olan vəzifəli şəxslər – prezident, baş nazir, nazirlər, dövlət komitələrinin başçıları, onların müavinləri, baş prokuror, onun müavinləri və s. öz daşınar və daşınmaz əmlakları haqqında hər il yanvarın 30-dan gec olmayaraq Korrupsiya

ilə Mübarizə Komissiyasına hesabat verməlidir. Hesabat gəlirlərin deklarasiyası şəklində olmalıdır.

Seçkili orqanlar, yerli özünüidarə qurumları isə deklarasiyanı özləri seçdiyi qurumlara təqdim edə bilərlər. Bundan başqa, gəlir deklarasiyasında dövlət qulluğu tutan şəxsin özündən başqa həyat yoldaşının, himayəsində olan övladlarının, ata-anasının adında olan əmlakın da siyahısı olmalıdır. Sənəddə vəzifəli şəxslərin kredit öhdəliklərinə, borc müqavilələrinə də yer ayrılıb.

Məmurların, xüsusilə yüksək vəzifəli şəxslərin gəlirlərinin şəffaflığı məsələsi həmişə xalqı maraqlandıran məsələlərdən biri olmuşdur. Dünya praktikası göstərir ki, sivil ölkələrdə vəzifəli şəxslər vergidən yayınmamaqdan ötrü öz gəlirləri haqqında məlumatları müvafiq qurumlar vasitəsilə açıqlayırlar. Azərbaycan da dünya birliyinə inteqrasiya olunur və bu təcrübədən bəhrələnir. Bunu nəzərə alaraq Azərbaycan Respublikasının Prezidenti 24 iyun 2005-ci il tarixdə "Vəzifəli şəxslər tərəfindən maliyyə xarakterli məlumatların təqdim edilməsi qaydalarının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Qanununu təsdiq etmişdir.

Qaydalar 11 maddədən ibarətdir və burada geniş əhatəli məsələlər öz əksini tapmışdır. Lakin Qaydalarda bəzi məsələlər həllini tapmamışdır.

1. Sənəd vəzifəli şəxslərin gəlirləri haqqında məlumatların gizli saxlanmasını Dövlət Qulluğu İdarəetmə Şurası yanında korrupsiyaya qarşı mübarizə üzrə komissiyanın razılığı olmadan onların yayılmasına görə cinayət məsuliyyəti daşımasını nəzərdə tutur. Məmurların gəlirləri haqqında informasiya əldə etmək imkanına yalnız xüsusi yaradılan komissiya malik olacaqdır. Belə bir Qanunu qəbul edən ölkələrin, o cümlədən Rusiyanın təcrübəsi göstərir ki, bu komissiyalar son nəticədə korrupsiyaya qurşanır və yüksək vəzifəli şəxslərə öz qeyri-leqal gəlirlərini gizlətməkdə yardımçı olurlar.

2. Sənəddə göstərilir ki, gəlirlər və əmlak haqqında bəyannamələr bir neçə orqan – Korrupsiya ilə mübarizə üzrə Komis-

siya, Milli Məclisin, Naxçıvan MR Ali Məclisinin qurumları və s. tərəfindən nəzərdən keçirilir. Dünya təcrübəsi göstərir ki, bir orqan tərəfindən bəyannamənin öyrənilməsi xeyli səmərə verir.

3. Sənəddə digər bir məqam da vəzifəli şəxslərin qohumlarının gəlirlərinin və əmlakının bəyannaməyə cəlb edilməməsidir. Axı təsadüfi deyil ki, vəzifəli şəxslər çox zaman öz adlarını hallandırmamaqdan ötrü əmlak və gəlirlərini yaxın, yaxud uzaq qohumlarının adlarına keçirirlər.[1]

**Dünya praktikası göstərir ki, həddindən artıq varlanan məmurlar, hətta hakimiyyətin yüksək pilləsində vəzifə tutmalarından asılı olmayaraq, son nəticədə siyasi hakimiyyəti ələ almaq üçün səy göstərirlər. Dünya ölkələrində bazar iqtisadiyyatının xüsusiyyətlərindən biri də odur ki, tədricən iqtisadi hakimiyyət siyasi hakimiyyətdən ayrılır. Azərbaycanda isə bunlar bir-birini tamamlayır. Bunların qarşısını almaq üçün Azərbaycanda iqtisadi, siyasi, institusional, sosial və s. istiqamətlərdə ciddi islahatlar aparmaq lazımdır. Digər bir tərəfdən idarəetmənin təşkilati quruluşu formalaşmalı və təkmilləşməlidir.**

Nəticədə, bütün deyilənlərə yekun vurmalı olsaq onda hər hansı bir ölkədə korrupsiya mövcuddursa, ona qarşı mübarizədə aşağıdakı tədbirləri daim, ardıcıl olaraq həyata keçirməyi zəruri hesab edirik:

1. Hüquq – mühafizə orqanlarında müvafiq qurumlar yaratmalı və onların obyektiv fəaliyyəti dövlət tərəfindən tənzimlənməlidir.
2. Qanunvericilik aktları gücləndirilməli, sərt, lakin bununla bərabər ədalətli və obyektiv olmalıdır.
3. Təbii sərvətlərdən əldə edilən gəlirlərə nəzarət edən xüsusi təşkilat yaradılmalıdır.
4. Gəlirlərin əldə edilməsinə və daxil olan vəsaitlərin bölüşdürülməsinə məsul olan vəzifə sahiblərinin (rəsmi şəxslərin)

[1] Bax: "İqtisadiyyat" qəzeti 14-20 oktyabr 2005-ci il.

şəxsi ehtiyaclarını ödəmək üçün sərf etmələrinə imkan verməmək.

5. Müntəzəm olaraq audit və alternativ yoxlamaların aparılmasına obyektiv şərait yaradılmalı.

6. Gəlirlərin və onların xərclənməsinin mənbələri haqqında mütəmadi olaraq ictimaiyyəti məlumatlandırmalı.

7. Kimliyindən (hansı vəzifə sahibi olmasından) asılı olmayaraq korrupsiyaya uğrayan şəxs cinayət məsuliyyətinə cəlb olunmalı.

8. Korrupsiyaya uğrayan dövlət məmurlarının cəzalandırılmalarını insanlar bilməli və hətta görməlidilər, əks təqdirdə insanlarda bu proseslərə laqeyd münasibət yaranacaqdır.

9. Korrupsiyaya uğrayanları əhaliyə göstərmək üçün bir neçə ictimai təşkilat yaratmalı və onların sərbəstliyinə müdaxilə edilməməli.

# VII FƏSİL

# QLOBAL ENERJİ SİYASƏTİ

## 7.1. Qlobal siyasətdə neft geosiyasi imperativlər amili kimi

Müasir qloballaşma dövründə neft amili siyasətdə həlledici faktorlardan birinə çevrilmişdir. Vaxtilə Alan Herbert demişdir ki, neftlə yaşayanlar neftlə də öləcəklər. Alfred Nobel də böyük uzaqgörənliklə yüz il bundan əvvəl söyləmişdir ki, neft, qaz və siyasət Qafqazda bir-birinə qarışacaq.

«Neft» nə deməkdir? «Neft» sözü – Midiya dilində «nafta» kimi ifadə olunur. Bu isə «işıqlanan», «axan», «sızan» mənasındadır. «Neft» - mənşəcə akkad sözüdür. Buradan həmin söz fars dilinə yaxın olan aramey dilinə, oradan farslara, sonra yunan və latın dillərinə keçmişdir[1].

Nefti təbiətin möcüzələrindən biri adlandırırlar. D.İ.Mendeleyev cədvəlindəki elementlərin yarıdan çoxu neftin tərkibinə daxildir.[2]

N.K.Baybakov xatirələrində yazır ki, mənim 1944-cü ildə neft sənayesi üzrə xalq komissarı təyin edilməyim heç kim tərəfindən özümlə müzakirə olunmamışdır. O, sözünə davam edərək deyir:

- Bir gün Stalin məni yanına çağırdı və dedi:

- Yoldaş Baybakov biz Sizi neft sənayesi üzrə xalq komissarı təyin edirik.

O zaman mən özümdə güc tapıb soruşdum:

- Yoldaş Stalin, axı heç kim maraqlanmayıb ki, bu işi mən bacararam ya yox?

Stalin gülümsəyərək mənə baxdı və dedi:

---

[1] Bax: Nələr olmur bu dünyada! Bakı.: İşıq. 1990, s. 66.

[2] Bax: Mahmudov C.M. Bakı nefti, neft milyonçuları və Nobel qardaşları (Elmi-publisistik monoqrafiya). Bakı, “Nurlan”, 2010, s. 47.

- Yoldaş Baybakov biz öz kadrlarımızı yaxşı tanıyırıq, bilirik kimi hara təyin edirik. Siz kommunistsiniz və bunu yaxşı dərk etməlisiniz.

Sonra neft sənayesinin problemlərindən söhbət getdi.

- Siz bilirsiniz neft hərbi texnikanın ürəyidir? – Stalin dedi.
- Yoldaş Stalin – mən təsdiq edərək cavab verdim – neft nəinki hərbi texnikanın ürəyidir, həm də bütün iqtisadiyyat deməkdir[1].

Bəli, neft bütün iqtisadiyyat deməkdir. Bunu artıq bütün dünya iqtisadçıları təsdiq edir. Karron de la Karrer Q. yazır ki, yalnız neft – digər məhsullar kimi məhsul deyil, o, həmişə siyasətçilərin o qədər geniş diqqətini cəlb etmişdi ki, xüsusi «neft diplomatiyası» haqqında danışmaq yerinə düşür. Əvvəllər diplomatları satış bazarları qayğılandırırdı, həm neftə qədər, həm də digər xammal əmtəələrinə münasibətdə onların çatdırılması haqqında düşünmək, sonra isə qiymətlərə nəzarət etmək üsulunu tapmaq lazımdır. Neftin strateji dəyəri müharibə vaxtı daha aşkar görünür – yeni materialların, tankların, təyyarələrin və gəmilərin istehsalı onu daha çox artan miqdarda istehlak edirdi. 1917-ci ildə Klemansonun Vilsona məktubunda «Hər bir neft damlası qan damlası dəyərindədir» ifadəsi zərb-məsələ çevrilmişdir[2].

Təbii resurslar dünya ölkələri arasında olduqca qeyri-bərabər bölünmüşdür. Yalnız dünyanın üç ölkəsi – Rusiya, ABŞ və Çin praktiki olaraq təbii resursların bütün növlərinə malikdir. Rusiya mineral xammalın ən iri ehtiyatlarına malikdir. Belə ki, dünya neft hasilatının – 11,6%-i, qazın – 39%-i, kömürün – 12%-i, dəmir filizinin – 10,2%-i, əlvan və nadir metalların – 10-15%-i, almazın – 26,3%-i Rusiyanın payına düşür.

Dünyada kəşf edilmiş qaz ehtiyatları təxminən 145 trln $m^3$ təşkil edir. Dünyanın əsas qaz ehtiyatları Rusiyada – 32%, Şima-

---

[1] Bax: Байбаков Н.К. От Сталина до Ельцина. – М.: ГазОил пресс. 1998, с. 79-80.

[2] Bax: Каррон де ла Карьер Г. Экономическая дипломатия. Дипломат и рынок / Пер. с фр. – М.: «Российская политическая энциклопедия» (РОССПЭН), 2003, с. 64-65.

li Amerikada – 4,9%, Qərbi Avropada – 3,8% cəmləşmişdir. Qaz ehtiyatları ilə təmin olunma təxminən 100 il üçün hesablanmışdır ki, bu da dünya sivilizasiyasının inkişafı üçün məhdud dövr hesab edilir[1].

Bəşəriyyət tarixində heç zaman siyasi və iqtisadi maraqlar üst-üstə düşməyib. BP-nin ekspertlərinin hesablamalarına görə dünyadakı neft ehtiyatlarının 60 faizindən çoxu Orta Şərqdə, 12 faizi Latın Amerikasında, 7 faizi Avropada, 6 faizi Afrikada, 5 faizi Asiya – Sakit Okean hövzəsində, 4 faizi isə Şimali Amerikadadır.

Təəssüflə qeyd etmək lazımdır ki, mütəxəssislər bu qənaətdədirlər ki, əgər yeni neft yataqları kəşf edilməzsə, bu vaxta qədər kəşf edilmiş neft ehtiyatları Hindistanda və Nigeriyada 26 il, MDB ölkələrində 15 il, Misirdə 14 il, İndoneziyada 12 il, Kanada və Norveçdə 11 il, ABŞ-da 10 il sonra tükənəcək.

Artıq 4 ildən sonra dünyada neft qıtlığı hiss olunacaq. Kəşf edilmiş neft yataqlarındakı neft dünyanın tələbatını cəmi 40 il ödəyə bilər. Vaxtilə yeni neft yataqlarının kəşfi enerjidaşıyıcılarının qıtlığını aradan qaldırmaqla, onların qiymətində də stabillik yaratdı, məsələn, Uralda «ikinci Bakı», 1970-1980-cı illərdə neft böhranının yarandığı dövrlərdə Qərbi Sibirdə «üçüncü Bakı» yataqlarının kəşfi[2].

Dünyanın neft ehtiyatlarının tam 25 faizi Səudiyyə Ərəbistanınındır. Kəşf edilmiş dünya neftinin 5,5 faizi Rusiyanın, 2,2 faizi isə ABŞ-ın payına düşür. Dünya ərazisinin 0,06 hissəsini təşkil edən Azərbaycan bütün dünya üzrə çıxarılan neft və qazın

---

[1] <f[ : Воронин В.П., Кандакова Г.В., Подмолодина И.М. Мировое хозяйство и экономика стран мира: учеб. пособие / Под ред. В.П.Воронина – М.: Финансы и статистика, 2008, с. 44-45.

[2] <f[ : Обеспеченность мировой экономики энергоносителями в ( ( Ş веке. Мировая экономика и международные отношения. 2005. № 6, с. 107; Белонин М.Д., Назаров В.Н. Состояние и геолого-экономическая оценка нефтяных ресурсов мира и России // Минеральные ресурсы России. 2001. № 5.

təxminən bir faizə yaxınını istehsal edir. Neftin adambaşına istehsalı Azərbaycanda təxminən 1,8 ton, İngiltərədə 2,1 ton, Amerika Birləşmiş Ştatlarında isə 1,7 tondur. Adambaşına qaz istehsalı Azərbaycanda 812 kubmetr, İngiltərədə 786 kubmetrdir. Elektrik enerjisinin adambaşına istehsalına görə İtaliya ilə eyni səviyyədədir: 3353 kvt/saat.[1] Lakin, onu da qeyd etmək lazımdır ki, Azərbaycan nefti keyfiyyətinə görə nadirdir.

ABŞ və Qərbi Avropa ölkələri öz maraqlarına görə tarixən çox vaxt Yaxın Şərqin bir sıra monarxiyalı ölkələrində demokratiyanı neftə qurban veriblər. Neftin artmaqda olan geosiyasi əhəmiyyəti bir neçə səbəblə izah olunur. Birincisi, o, dünyada istehlak olunan başlıca enerji mənbəyi kimi kömürü sıxışdırdı və qazla birlikdə sənaye cəmiyyətinin məhək daşlarından birinə çevrildi: 1990-cı ildə karbohidrogenlər dünyada istehlak olunan ilkin enerjinin demək olar ki, $^2/_3$ hissəsini təmin edirdi. İkincisi, onların ən əhəmiyyətli ehtiyatları yer kürəsinin az bir ərazisində cəmləşmiş, özü də ən zəngin yataqlar aşağı maya dəyəri ilə Orta Asiyada (kəşf edilmiş neft ehtiyatlarının yarıdan çoxu, təbii qaz ehtiyatlarının üçdə bir hissəsi məhz geoloji anomaliyaların mövcud olduğu Səudiyyə Ərəbistanında) yerləşir, eyni zamanda ən iri istehlakçılar karbohidrogenlərlə daha kasıb olan inkişaf etmiş ölkələrdir. Hətta karbohidrogenlərin çox hasil olunduğu ABŞ-ın özündə də az istifadə olunmur[2].

Kaliforniya Universitetinin (ABŞ) araşdırmalarına görə hər gün bütün dünya üzrə 85,22 milyon barel neft istifadə edilir.

Məlumdur ki, dünyada enerjidaşıyıcılarına görə iki super dövlət: Amerika və Rusiya mövcuddur. Aşağıdakı cədvəldə Amerikanın mineral xammal ehtiyatlarının əsas növləri verilmişdir (cədvəl № 1).

---

[1] Bax: Mahmudov C.M. Bakı nefti, neft milyonçuları və Nobel qardaşları (Elmi-publisistik monoqrafiya). Bakı, "Nurlan", 2010, s.8.

[2] Bax: Каррон де ла Каррьер Г. Экономическая дипломатия. Дипломат и рынок / Пер. с фр. – М.: «Российская политическая энциклопедия» (РОССПЭН), 2003, с. 91.

Dünyada neftdən ən çox istifadə edən ölkə ABŞ-dır. Amerika dünya neft ehtiyatlarının 3%-ni təşkil etməsinə baxmayaraq dünya neftinin 25%-ni istehlak edir. ABŞ-da istifadə edilən neftin 55 faizi idxal edilir, 45 faizi isə yerli istehsaldır. ABŞ nefti əsasən Səudiyyə Ərəbistanından – gündə 1,66 milyon barel, Venesueladan – 1,54 milyon barel, Meksikadan 1,42 milyon barel, Nigeriyadan – 86 min barel, İraqdan – 78 min barel, Norveçdən – 33 min barel, Anqoladan – 32 min barel, Böyük Britaniyadan – 31 min barel alır.

Mütəxəssislərin fikrincə, Rusiyada neft ehtiyatları 34 ildən sonra tükənəcək. Rusiyanın İqtisadi İnkişaf Nazirliyinin rəqəmlərinə görə, 2020-ci ildə Rusiyada 492-545 milyon ton neft istehsal olunacaq. Bundan isə 228-255 milyon tonu ixrac ediləcək. 2007-ci ildə Rusiya 410-420 milyon ton neft hasil etmişdir ki, bu da onun tarixində ən yüksək göstəricidir.

Rusiya iqtisadçıları da təsdiq edir ki, onlar təbii sərvətlərinə görə dünyada inkişaf etmiş ölkələr sırasındadır. Adambaşına milli sərvət Rusiyada ABŞ və Kanadadakından 1,2 dəfə Qərbi Avropadakından 1,7 dəfə, Sakit okean regionu ölkələrindən 1,3 dəfə, yaxın Şərq ölkələrindəkindən isə təqribən 2,7 dəfə çoxdur.

**Cədvəl № 1**

**2005-ci ildə ABŞ-ın mineral xammal ehtiyatlarının əsas növləri[1]**

| Xammal növləri | Ehtiyat proqnozu | Resurs bazası | Tədqiq edilmiş ehtiyatlar |
|---|---|---|---|
| **Qeyri-metallar** | | | |
| **Fosfat** | 10,5 mlrd.t | 3,4 mlrd. t | 1,2 mlrd. t |
| **Kalium duzları** | 6000,0 mln. t | 300,0 mln. t | 90,0 mln. t |
| **Barıt** | 300 mln. t | 55,0 mln. t | 25,0 mln. t |
| | | | |

[1] Вах: А.В.Корнеев, В.И.Соколов. Природно-ресурсный потенциал США: состояние и перспективы использования. «США. Канада. Экономика. Политика. Культура». Журнал. 2007. № 9, с. 8.

| Metallar | | | |
|---|---|---|---|
| **Molibden** | 5,2 mln. t | 5,4 mln. t | 2,7 mln. t |
| **Mis** | 550,0 mln. t | 70,0 mln. t | 35,0 mln. t |
| **Qurğuşun** | 93,7 mln. t | 20,0 mln. t | 8,1 mln. t |
| **Sink** | 90,0 mln. t | 90,0 mln. t | 30,0 mln. t |
| **Dəmir filizi** | 110,0 mlrd. t | 4,6 mlrd. t | 2,1 mlrd. t |
| **Nikel** | 13,9 mln. t | - | - |
| **Civə** | 16,9 mln. t | 7,0 min. t | - |
| **Qalay** | 283,0 min. t | 40,0 min. t | 20,0 min. t |
| **Volfram** | 544,0 min. t | 200,0 min. t | 140,0 min. t |
| **Sürmə** | 141,0 min. t | 90,0 min. t | 80,0 min. t |
| **Yanacaq xammalı** | | | |
| **Neft** | 582,0 mlrd. barr. | 47,3 mlrd. barr. | 21,8 mlrd. barr. |
| **Təbii qaz** | 40,5 trln. kub.m | 19,3 trln. kub.m | 5,8 trln. kub.m |
| **Kömür** | 3970,0 mlrd. t | 460,9 mlrd. t | 249,5 mlrd. t |
| **Uran** | 1576,4 min. t | 981,0 min. t | 403,2 min. t |

Rusiyanın digər ölkələri qabaqlaması xüsusilə milli sərvətin təbii tərkib hissəsinə görə daha barizdir. Təbii kapitala görə ABŞ və Kanada Rusiyadan 10 dəfə, Qərbi Avropa isə 27 dəfə geri qalırlar![1] İri biznesin inkişafı isə demək olar ki, zəifdir. «Авто ВАЗ»ın dövriyyəsi 2 milyard dollar olduğuna baxmayaraq «Дженерал моторс»dan, 100 dəfə «Силовые машины»nın dövriyyəsi 350 mln dollar olmasına baxmayaraq, «Дженерал электрик»dən 290 dəfə geri qalır. Ona görə də doğru olaraq deyirlər ki, «Rusiya – bu böyük ölkədir, lakin iqtisadiyyatı kiçikdir»[2]. S.Batçikov isə yazır: «Məsələ burasındadır ki,

---

[1] Bax: İqtisadi nəzəriyyə. Makroiqtisadiyyat – 1,2. Metaiqtisadiyyat. Transformasiya iqtisadiyyatı: Dərslik / RF əməkdar elm xadimi, professor, iqtisad elmləri doktoru Q.P. Juravlyovanın ümumi redaktəsi ilə. – M.: "Daşkov və K[0]" nəşriyyat – ticarət korporasiyası, 2009, s. 93-94.

[2] Bax:: Клепач А., Яковлев А. О роли крупного бизнеса в современной Российской экономике (комментарий к докладу Всемирного банка). «Вопросы экономики». Журнал. 2004. № 8, с. 41.

Rusiyanın neft-qaz sərvəti onun başlıca bədbəxtliyidir! Neftdən və qazdan gələn pullar iqtisadi stabilliyi sarsıdır! Əlbəttə, neft və qaz yataqlarını təxirəsalınmadan dərhal ABŞ-a vermək lazımdır – onlar varlıdırlar və çətinliyə dözəcəklər. Bu «yardımına» görə onlara artıq pul verməli olacaqsan. Belə ki, hazırda Meksika xarici borca xidmət etmək hesabına ondan nefti aldığına görə ABŞ-a pul ödəyir[1].

Son vaxtlar neftin qiymətinin sürətlə artması və gözlənilmədən sürətlə də aşağı enməsi, Amerika iqtisadiyyatını çıxılmaz duruma salıb, bununla əlaqədar olaraq ölkənin əvvəllər dondurulmuş iri neft yataqlarını işə salmaq haqda çağırışlar artıb. ABŞ-ın sabiq prezidenti oğul Corc Buş Konqresi yerli neft istismarına qoyduğu qadağaları ləğv etməyə çağırıb. Prezident deyib ki, ABŞ neft şirkətlərinə 1980-ci ildən bəri istismarına qadağa qoyulan əsas ofşor obyektlərinə çıxış əldə etməyə icazə verilməlidir. Onun sözlərinə görə, neft çıxarılması hazırda mühafizə olunan Alyaskanın şimal hissəsindən 10 milyard barelə yaxın neft istehsal etmək olar. Prezident bunun ABŞ-ın 20 ildə Səudiyyə Ərəbistanından alacağı neftdən çox olacağını bildirib. İki dəfə analoji bəyanat verilsə də, Konqres buna icazə verməyib. Qeyd edək ki, ətraf mühitin qorunmasını əsas gətirən Konqres demokratları iri neft yataqlarının mövcud olduğu güman edilən yerlərdə neftçıxarma layihələrinə qarşı çıxırlar.

2006-cı ildə dünya bazarında neftin qiymətinin kəskin artımı müşahidə olundu. Bu zaman Alyaskadakı daxili ehtiyatlardan istifadə ilə bağlı məsələni ABŞ gündəmə gətirdi. Lakin bu ölkənin qanunvericilik orqanı yataqların istismarına dair qərar qəbul etmədi.

ABŞ-da ÜDM-in həcmini sabit saxlamaq üçün 900-950 milyon ton neftə ehtiyac duyulur. Bunun 340-350 milyon tonu

---

[1] Вах: С.Батчиков. По поводу «суверенной демократии» и ее либералистских трактовок. «Российский экономический журнал». 2007. № 4, с. 79.

öz daxilində hasil olunur, qalan 600 milyon tonu isə xarici ölkələrin hesabına ödənilir. Bununla yanaşı son illərdə Çinin, Hindistanın, Braziliyanın, Meksikanın və İspaniyanın iqtisadiyyatının sürətlə inkişaf etməsi dünyada neftə tələbatı artırmışdır. Bu isə neftin qiymətinin bahalanmasına gətirib çıxarmışdır. Nəticədə ABŞ ikirəqəmli inflyasiyadan qaçmaq üçün dolların məzənnə dəyərini aşağı salmaqla öz iqtisadi təhlükəsizliyini təmin edir.

ABŞ müasir dövrdə neft böhranından çıxmaq üçün iki ehtiyat alətindən istifadə etmək niyyətindədir. 1) alternativ enerji növündən, yəni külək, günəş, bioyanacaq və bu kimi enerji mənbələrindən istifadənin xüsusi çəkisini 3 faizdən 15 faizə qədər artırmaq,[1] 2) 30 il bundan əvvəl ekologiya və turizmlə bağlı ola-

---

[1] Qeyd: Alternativ enerjiyə tələbat nədən yarandı? Məlumdur ki, dünyada təbii yanacaq resursları tükənməkdə, bəşəriyyətin tələbatı isə artmaqdadır. Bioenerji ətraf mühitin təmiz saxlanması üçün faydalı yanacaq növüdür. Bioenerji əsas etibarilə kənd təsərrüfatı məhsullarından – qarğıdalı və digər texniki bitkilərdən əldə edilir. Mütəxəssislər bu enerji növünü uzun müddət tənqid etmişlər. Bunu onunla əsaslandırırdılar ki, bioenerjini əldə etmək baha başa gəlir və iqtisadi baxımdan faydalı deyil.

XX əsrin sonlarında Braziliya bu sahəyə çoxlu vəsait qoydu. Bu da neft idxalının azaldılmasına gətirib çıxartdı. Nəticədə külli miqdarda vəsaitə qənaət olundu və iqtisadi səmərəlilik əldə edildi. Beləliklə, Braziliya bütün dünyaya sübut etdi ki, kənd təsərrüfatına lazımi investiyalar qoyularsa dövlət özünün enerji təhlükəsizliyini qismən təmin etmiş olar.

Digər bir tərəfdən, qeyd etmək lazımdır ki, Türkiyədə ilk hidrogen yanacaqdoldurma məntəqəsi inşa edilib və bununla əlaqədar olaraq Mazda şirkəti qərara gəlib ki, Türkiyədə hidrogen yanacağı ilə işləyən avtomobil istehsal etsin.

Azərbaycanda da ümumi enerji istehsalında alternativ bərpa olunan (külək enerjisi, günəş, geoterminal, biokütlə, hidroenerji) enerji istehsalının payının 10%-ə çatdırılması nəzərdə tutulub. (Bax: Azərbaycanın gələcək durumu indeksi 2011. Bakı / Bakı – 2011, s. 8-9.) Dünyanın inkişaf etmiş ölkələrində bu proses gedir, lakin kütləvi hal almayıb. Heç də təsadüfi deyil ki, tədqiqatımızı yekunlaşdıran anda məlum oldu ki, Azərbaycanda ilk dəfə olaraq (2014-cü ilin yanvarında) Masallı rayonunun Boradigah qəsəbəsində alternativ və bərpa olunan enerji ilə işləyən İdman Mərkəzi istifadəyə verilib. 1600 kv metr ərazidə inşa edilən idman mərkəzinin elektrik sistemi günəş

raq bağlanan Mexiko körfəzindəki «Kartel», «Yeni Orian», - «Port-Artur» və Alyaskadakı «Bristal», «Aleum», «Vankuver» yataqlarını bərpa etmək. Əgər bu yataqlar bərpa edilsə onda ABŞ-da neft hasilatı ildə 340 milyon tondan 950 milyon tona çatacaq. Eyni zamanda Səudiyyə Ərəbistanı hasilatı 480 milyon tondan 650 milyon tona çatdırmağı öhdəsinə götürüb[1].

İranda da neft hasilatını 35 milyon tondan 200 milyon tona çatdırmağı beynəlxalq transmilli korporasiyalar öhdələrinə götürüblər. Bu isə neft böhranının başa çatmasını gözləməyə əsas verir. Yaxın 30 ildə neftə olan tələbatın sabitliyini qoruyub saxlamaq mümkün olacaq.

Hazırda İranın təbii qaz ehtiyatları 14 trln kubmetr, neft ehtiyatları isə 155 mlyd barel təşkil edir.

Amerika və Rusiya nüvə baxımından super dövlətlərdir. Düzdür, müasir dövr nüvə müharibəsi vaxtı deyil. Ancaq reallıq ondan ibarətdir ki, Rusiyanın bütün nüvə raketləri ABŞ-a, Amerikanın raketləri isə Rusiyaya tuşlanıb.

Artıq bütün dünyaya məlumdur ki, Rusiya təbii sərvətlərinə görə Avropa və NATO ölkələrini özündən xeyli asılı vəziyyətə salıb. Dünyada elə enerji qıtlığı yaranıb ki, Rusiya bun-

---

panelləri ilə təmin edilib. Mərkəzin damında 70 kilovat enerji verən 280 ədəd günəş panelləri quraşdırılıb, binanı qızdırmaq üçün 90 kilovat istilik enerjisi qurulub.

[1] XXI əsr başlayandan dünya iqtisad ədəbiyyatında, kütləvi informasiya mənbələrində və müxtəlif beynəlxalq təşkilatlarda baxdığımız problemlə bağlı çoxsaylı ziddiyyətli, mübahisəli fikirlər söylənilir. Bəzi iqtisadi göstəricilərə bir sıra beynəlxalq təşkilatlar tərəfindən müxtəlif metodlar, standartlar baxımından yanaşılır. Bəzən isə subyektiv xarakter daşıyır. Ona görə də bəzi iqtisadi göstəriciləri dövlətlərarası və yaxud dünya standartları səviyyəsində müqayisə etmək müəyyən çətinliklər yaradır. Bu göstəricilər bəzən bir-biri ilə ziddiyyət təşkil etsə də çalışmışıq ki, reallığı əks etdirək və fikrimizi əsaslandırmaq üçün onlardan istifadə edək. Onu da nəzərə almaq lazımdır ki, dünyada yeni kəşflərin meydana çıxması ilə əlaqədar olaraq göstərəcəyimiz rəqəmlər artıb-azalır və təbiidir ki, bu halda fikirlər və nəticələr də dəyişilir.

dan istifadə edərək başqa ölkələrə təsir etmək imkanına malik olub.

2006-cı ildə AŞ PA-nın Azərbaycan üzrə həmməruzəçisi Andreas Qross Qərbin siyasi dairələrinin eləcə də AŞ PA-nın özünün neftin üfunətli qoxusuna boyun əydiyini etiraf etmişdir.

Amerika da bunu bilir və Rusiyanın bu siyasətindən narazıdır. Buna baxmayaraq Rusiya ilə çox da dərinə gedə bilmir. Təsadüfi deyil ki, ABŞ NATO-nu genişləndirəndə, Yuqoslaviya imperiyası dağılanda, İraqa hücum edəndə Rusiya ona kəskin ittihamlar irəli sürmüşdür. Son olaraq Suriya və Ukrayna hadisələri bunu bir daha sübut etdi.

Amerika özü də enerjidaşıyıcılarına görə, hətta dünyanın qeyri-sabit regionlarından asılıdır. Amerikalılar bu asılılığı texnologiyanın köməyi ilə aradan qaldırmaq istəyirlər. Bu da alternativ enerji mənbələrinin axtarılıb tapılması ilə mümkün ola bilər. Yuxarıda qeyd etdiyimiz kimi, belə alternativ mənbələr atom enerjisi, etanol, hidrogen, günəş və külək enerjiləri ola bilər. Lakin digər mənbələrin kəşfinə tez və asanlıqla nail olmaq mümkün deyildir. Bunun üçün müəyyən müddət, bəlkə də uzun bir dövr tələb olunur.

ABŞ 2025-ci ilə qədər Yaxın Şərq neftindən asılılığa son qoyulması üçün ciddi addımlar atılmasını da neft şirkətlərindən tələb edir. Ekspertlər bunu mümkünsüz, real olmadığını sübut etsələr də dövlət bu məsələdə israrlıdır. Belə ki, mütəxəssislərin rəyinə görə iyirmi ildən sonra neft istehsalının təxminən dörddə biri Yaxın Şərq ölkələrinin payına düşəcək. Bu reallıqdır, bundan qaçmaq olmaz.

Belə olan tərzdə dünya problemlərlə üzləşə bilər. Təbiidir ki, Yaxın Şərq ölkələri neft istehsalını azaldacaq. Neftə investisiya qoyan şirkətlər daha az həcmdə kapital sərf edəcəklər. Bunun da nəticəsində həm istehsalçıların, həm də istehlakçıların gəlirlərinə ciddi ziyan dəyəcək. Nəticədə isə neftin gələcəyinə inam azaldıqca, bu sahədə çalışanlar öz peşə ixtisasını tədricən başqa istiqamətə yönəltməli olacaqlar.

Əlbəttə, bütün bunlar hər hansı bir siyasətçinin arzusu da ola bilər. Həyat isə çox vaxt başqa forma diktə edir.

ABŞ-ı digər bir problem də çox narahat edir. Məlumdur ki, Amerika iqtisadiyyatı digər ölkələrdən üstündür. Amerika iqtisadiyyatı dinamik surətdə inkişaf etməklə bərabər, digər ölkələrin, xüsusilə də, Çin və Hindistanın iqtisadiyyatı da sürətlə irəliləyir. Bu amil ciddidir və Amerikanı çox narahat edir. Amerika dünyada güclü rəqiblərlə üzləşməli olub.

Digər bir tərəfdən Çində böyük həcmli yanacaq idxalına baxmayaraq ondan səmərəli metodlarla istifadə etməyi bacarırlar. Ona görə də Çin güclü iqtisadi artıma malikdir və bütövlükdə iqtisadiyyatı durmadan sürətlə inkişaf edir.

Əgər Amerika-İran münasibətləri düzəlməsə, İrana neft ixracına görə embarqo qoyulsa və İran neft istehsalını məhdudlaşdırsa bu dünya iqtisadiyyatına daha ciddi təsir göstərəcək. Ən azı dünyada neftin qiyməti kəskin qalxacaq. ABŞ-ın ilk neft inhisarları hələ 1921-ci ildə İrana nüfuz etməyə başlamışdı. Onların bu regiona marağı onunla şərtlənirdi ki, İran dünyanın kəşf edilmiş neft ehtiyatlarının 10%-nə malik idi, dünyada neftin ixracına görə və təbii qazın ehtiyatlarına görə ikinci yeri tuturdu[1].

Hal-hazırda kimin nə deməsindən və düşünməsindən asılı olmayaraq dünya siyasəti enerjidaşıyıcılarından asılıdır. Mübaliğəsiz demək olar ki, dünyada texnikanın müasir səviyyəsi enerjidaşıyıcılarının sayəsində mümkün olmuşdur. İqtisadiyyatın və nəticədə insan həyatının elə bir sahəsi yoxdur ki, enerjidaşıyıcıları ona öz təsirini göstərməsin.

İngiltərənin sabiq Baş naziri Çörçill 1936-cı ildə Nümayəndələr palatasında İngiltərənin mənfəətləri müzakirə edilərkən

---

[1] Вах: Г.И.Юлдашева. Ирано-американские отношения: история и современность. США. Канада. Экономика. Политика. Культура. 2008, № 3, с. 53.

neftin əhəmiyyətini qeyd edərək demişdir: «Bir damcı neft bir damcı qandan daha qiymətlidir»[1].

Son dövrlərdə dünya iqtisad ədəbiyyatında «Neft Məkkəsi», «Neft piroqu», «Neft lənəti», «Resursların lənəti», «Texnoloji lənət» ifadələri meydana gəlib.

«Resurs lənəti» anlayışı ilk dəfə 2001-ci ildə ingilis iqtisadçısı R.Auti tərəfindən işlədilmişdir. O, bu ifadəni 1970-1980-ci illərdə neft ixrac edən ölkələrdə həyat səviyyəsinin olduqca aşağı olması ilə əlaqədar söyləmişdir. «Resurs lənəti» - iqtisadiyyatın strukturunun iqtisadi artım sürətinə (inkişaf səviyyəsinə yox) mənfi təsiridir. Sürətlə inkişaf etməkdən ötrü təbii resursları məhv etmək yox, onları digər məhsulla əvəz etmək lazımdır. «Resurs lənəti» təbii resursların özünün mövcudluğuna yox, onların milli iqtisadiyyatda dominantlığına (üstünlüyünə) mənfi təsir göstərməsini təsdiq edir[2].

Bir qrup iqtisadçılar belə hesab edir ki, «Resursların lənəti» haqqında hipotez, onun ənənəvi dərk olunması ondan ibarətdir ki, böyük miqdarda təbii resurslara – neftə, qaza, kömürə, əlvan metallara malik olan ölkələr, bir qayda olaraq, müəyyən səbəblərə görə yaxın olan, lakin daha az iqtisadi resurslara malik olan ölkələrə nisbətən zəif inkişaf edir. Tədqiqatlar göstərir ki, bu zaman «güclü» mənada «resursların lənəti» baş vermir: reqressiyalarda təbii ehtiyatların təsiri ya azdır, ya da müsbətdir.

«Resursların lənəti» neft ölkələrinin üzləşdiyi problemlə əlaqədar yaranan nəzəriyyədir. Nəzəriyyənin mahiyyəti ondan ibarətdir ki, zəngin təbii ehtiyatlara malik ölkələr sanki Allahın bəlasına düçar olurlar və onlar çox çətin sosial gərginlikdə yaşamağa məcburdurlar. Guya bu sosial gərginlik subyektiv xarakter daşımır. Yəni ölkəni idarə edənlərin günahı üzündən yaranmır. Bir sözlə, dövlət başçısı burada heç bir məsuliyyət daşımır. «Resurs-

---

[1] Qeyd: Bu fikir 1917-ci ildə Klemansonun Vilsona məktubundan götürülmüşdür və yuxarıda mənbə göstərilmişdir.

[2] <f[ : С.Гуриев, К.Сонин. Экономика «ресурсного проклятия», «Вопросы экономики». Журнал. 2008. № 4, с. 61-62; с. 66-69.

ların lənəti» başgicəlləndirici şəkildə qiymətlərin aşağı düşməsinə və qeyri-neft sektorunda qarşısıalınmaz böhrana da gətirib çıxara bilər. Neft və qaz məhsullarının qiymətinin yüksəlməsi belə bir təhlükəni reallaşdıra bilər.

Neft çox zaman vətəndaş müharibəsinə gətirib çıxarır. Məsələn, Kolumbiya, Sudan, Nigeriya, Konqoda məhz belə olmuşdur.

Elmə və praktikaya əsaslanan güclü dövlət siyasətinin yürüdülməsi nəticəsində «Resurslar lənəti»ndən yaxa qurtarmaq mümkündür.

**Bizə belə gəlir ki, «Resurslar lənəti» anlayışı və onun mahiyyətinin şərhi ölkə rəhbərlərinin idarəçilikdə etdikləri səhvlərin üstünü pərdələmək üçün ortaya atılmış bir nəzəriyyədir. İqtisadiyyatın dərin elmi əsaslarla idarə edilməsi bu nəzəriyyənin puçluğunu meydana çıxarır.**

«Texnoloji lənət» isə «Holland xəstəliyindən» doğur[1].

Böyük neft ehtiyatları ölkənin bugünkü rifahı və gələcəyi üçün etibarlı təminatdır. Lakin bundan düzgün istifadə edilməsi dünya siyasətində və iqtisadiyyatında ikiqat təminatdır. Ölkə iqtisadiyyatını neftdən və qazdan, ümumiyyətlə təbii ehtiyatlardan asılı vəziyyətdə saxlamaq böyük faciələrə gətirib çıxara bilər.

Respublikamızın bağladığı müqavilələr kəşf olunmuş neft yataqlarının tez bir zamanda istifadə olunmasına gətirib çıxaracaq. Müqavilə bağlayan şirkətlərin texnologiyaları dünya standartları səviyyəsindədir. Onlar çalışacaqlar ki, müqavilədə göstərilən müddəti qabaqlasınlar. Bu da təbiidir.

Belə olan halda Azərbaycan ziyana düşəcək. Gələcək nəsil bunun ağrısını hiss edəcək.

Beynəlxalq Enerji agentliyi "Dünyanın Enerji Mənzərəsi" adlı 2010-cu ildə hesabatını açıqlayıb. Orada göstərilir ki, Azər-

---

[1] Bax: В.Полтерович, В.Попов, А.Тонис. Механизмы «ресурсного проклятия» и экономическая политика. «Вопросы экономики». Журнал. 2007. № 6, с. 9-10.

baycanda neft və qaz hasilatı növbəti illərdə artacaq. 2014-cü ildə hasilat özünün ən yüksək həddinə - günə 1,3 milyon barelə çatacaq. 2014-cü ildən sonra isə hasilat enməyə başlayacaq. 2035-ci ildə Azərbaycanın neft hasilatı ən aşağı səviyyəyə günə 0,9 milyon barelə enəcək. Sənəddə göstərilir ki, Türkmənistan, Azərbaycan və Qazaxıstanın hesabına 2035-ci ildə Xəzərdə qaz hasilatı 310 milyard kubmetrə çatacaq.

Ancaq, proqnozlar bəzən özünü doğrultmur. Məsələn, 1949-cu ildə istismara verilən Neft Daşları yatağının ehtiyatları hesablamalara görə 1997-ci ildə tam tükənməli idi. Real həyatda gördüyümüz kimi, Neft Daşları hələ də neft verir və proqnozlaşdırılır ki, 2028-ci ilə qədər bu proses davam edəcək.

Vaxtı ilə Səudiyyə Ərəbistanının neft naziri neftin bəla olduğunu görmüş və ona görə də demişdir ki, istərdim ki, biz neft əvəzinə su tapaq.

Venesuela da neft və qaz ölkəsidir. Orada XX əsrin 70 illərində sosial-iqtisadi vəziyyət yüksək dərəcədə olub. 70-ci illərin sonlarında ölkə tənəzzülə uğrayıb. Bütün bu bəlaların səbəblərini araşdıran Venesuelanın keçmiş neft naziri demişdir ki, neft şeytanın ifrazatıdır.

Turqut Özal deyirdi ki, iqtisadiyyat bir nohur kimidir, yatağı zamanla dəyişir. Birdən-birə olmaz. Və o, qeyd edirdi ki, mən Allahdan çox razıyam ki, o, mənim ölkəmə neft hədiyyə verməyib.

Son zamanlar Türkiyə Petrolları Anonim Ortaqlığı (TR-AO) ilə, Braziliyanın «*Petrobas*» milli neft şirkəti arasında Qara dənizdə neft axtarışı ilə əlaqədar müqavilə imzalanıb. Braziliya neft şirkətinin ehtimalına görə Qara dənizdə zəngin neft və qaz yataqları mövcuddur. Bu şirkət dənizin dərinliklərində axtarışlar sahəsində böyük təcrübəyə və texniki imkanlara malikdir. Onlar öz təcrübələrinə əsaslanaraq qətiyyətlə təbii qazın olduğu yerdə neft yataqlarının da olduğuna əmindir. Əgər bütün bunlar müvəffəqiyyətlə başa çatarsa Türkiyənin neft və qazdan xarici asılılığı aradan qaldırılacaq. Bunu əlbəttə ki, gələcək göstərəcək.

Tədqiqatçıların və siyasi liderlərin sözlərində böyük həqiqət olduğunu tarix özü sübut edib. Bir çox ölkələrin təcrübəsi göstərir ki, böyük təbii ehtiyatlar həmişə öz ölkəsinə xeyir gətirmir. Bu sahənin məşhur tədqiqatçıları Ceffri Saks və Endri Uorner 97 ölkənin təcrübəsini təhlil etmişdir. Onlar belə nəticəyə gəliblər ki, zəif xammal ehtiyatları olan ölkələr öz inkişaf göstəricilərinə görə zəngin ehtiyatlara malik ölkələri qabaqlayırlar. Siyasi, humanitar və demokratik inkişaf göstəricilərinə görə isə bu qabaqlama daha böyük əmsallarla müşahidə olunur. Maraqlı cəhət ondan ibarətdir ki, araşdırılan 97 ölkənin ilk 30-luğunda ənənəvi neft ölkəsi yoxdur. Bu siyahıda ABŞ və Norveç liderlik edir. Həmin ölkələr neft ehtiyatlarının mövcudluğuna görə deyil, digər amillərə görə ilk yerdədirlər.

BƏƏ, Küveyt, Qətər və Bəhreyn kimi ölkələr neft gəlirləri hesabına inkişafın zirvəsinə yüksəliblər. Nəzərə almaq lazımdır ki, bu ölkələr, tarixən patriarxal – köçəri həyat tərzində yaşamışlar. Nigeriya, Əlcəzair, İraq, Liviya, İran kimi ölkələrə isə neft nəinki inkişaf və yüksəliş gətirib, əksinə yoxsulluq, səfalət, bərabərsizlik, ədalətsizlik və qeyri-sabitlik, müharibələr gətiribdir.

Mətbuatda yazılanlara görə 1992-ci ildə ölümündən bir qədər əvvəl **Turqut Özal** Bakıda rəsmi səfərdə olarkən Azərbaycan Prezidentinin Zuğulbadakı iqamətgahında nahar yeməyi vaxtı belə bir fikir söyləyib:

**- Mən prezident olan kimi Avropada, Amerikada işləyən, orada yaxşı təhsil görmüş türk mütəxəssislərini Ankaraya yığdım. Söylədim ki, mənə Türkiyə iqtisadi sıçrayış imkanını verən bir model təklif edin. Bir qədər çalışdıqdan sonra gəlib dedilər ki, Türkiyədə neft yataqları var, onların istismarına başlayaq, para əldə edək. Dedim, qazmayın o quyuları qazıb neft tapsanız da haman ağzını qapayın. Neft qədər milləti tənbəlləşdirən, əsl inkişafdan saxlayan bir şey yoxdur. Amerikanları görürsünüzmü? Öz nefti ola-ola, kənardan gətirir. İndi sizə də deyirəm, uymayın neftinizin pa-**

**rasına, özünüzü elə aparın ki, guya heç neftiniz yoxdur. Əsl inkişaf onda olacaq.**

Amerikanı sanki müasir dövrdə enerji maraqları idarə edir. Əgər ABŞ tarixinə nəzər salsaq görərik ki, bu ölkə heç bir zaman uzunmüddətli enerji problemləri haqqında düşünməyib. Lakin 1970-ci illərdə dünyada baş verən enerji böhranından sonra, Amerika neftlə bağlı məsələlərə ehtiyatla yanaşmağa başladı. 1980-ci ildə prezident Nikson demişdir ki, ABŞ enerjiyə görə heç bir ölkədən asılı olmayacaq. 1985-ci ildə prezident Ford da bu məsələdə birmənalı fikir söylədi. Prezident Reyqan kəskin şəkildə göstərdi ki, ABŞ iqtisadiyyatı heç bir zaman başqa bir ölkənin şıltaqlığının girovuna çevrilməyəcək. Oğul Buş isə Amerikanın neftə könül bağladığını söyləyir. Belə çıxır ki, Buşun siyasəti neft ehtiyaclarını ödəmiş və bu da amerikalıların mənafeyini ifadə etmişdir.

Tarixə müraciət etsək görərik ki, Vladimir Putin prezident seçiləndən sonra ilk səfərini Bakıya etmişdir. Azərbaycan müstəqillik əldə edən kimi Marqaret Tetçer 1992-ci ildə Bakıya gəlmişdir. Onların gəlişlərini dünya siyasətçiləri birbaşa neft amili ilə əlaqələndirirdilər. 1945-ci ildə Stalinlə Çörçill arasında BP-nin Xəzər dənizində neft yataqlarının axtarılması və ekspertizanın aparılmasına icazə verilməsi ilə əlaqədar gizli danışıqları olmuşdur[1].

**Göründüyü kimi, neft siyasətdir. Neft siyasəti hər hansı bir neft ölkəsinin ictimai-siyasi, sosial-iqtisadi proseslərin xarakterini və dinamikasını müəyyən edir.**

Azərbaycanın zəngin neft tarixini vərəqlədikdə xalqın xoş, firavan günləri ilə müqayisədə, çətin, məşəqqətli günlərinin daha çox olduğunu görmək olar. Ölkənin neftlə əlaqədar böyük tarixi təcrübəsindən irəli gələn zərurət odur ki, Azərbaycan müasir dövrün tələblərinə uyğun gələn infrastruktur qursun, inkişaf etmiş

[1] <f[ : Эрик Лоран . Нефть, ложь, тайны, махинации / Эрик Лоран; пер. с фр. Татьяны Ждановой – М.: СТОЛИЦА – ПРИНТ, 2007, с. 325.

potensial sənaye bazası yaratsın. Əhalinin neft emalı və hasilatına uyğun gələn yüksək təhsil səviyyəsi, ixtisaslı kadrları var. **Ümumiyyətlə, bütün müsəlman ölkələrində kor-koranə Qərb mədəniyyətini götürmək (bəzən bunu yamsılama kimi də qəbul etmək olar) ənənəsi var. Azərbaycanda da bu hiss mövcuddur. Lakin dərinə nüfuz etsək görərik ki, eyni zamanda Azərbaycan müəyyən dövlətçilik və demokratiya təcrübəsi əldə edib və ölkəmizdə təbii sərvətlərin zənginliyi, iqlim zonalarının müxtəlifliyi, strateji resurslar və gəlir əldə etmək imkanları kimi ənənələri də mövcuddur.**

Təəssüflə qeyd etmək lazımdır ki, bir çox neft ölkələri neft istehsalına başladıqları zaman və hətta çox sonralar da bunlara malik olmayıblar.

Keçmiş sovetoloq Z.Bjezinskinin qənaətinə görə “resurslarla zəngin olan Orta Asiya dövlətləri, onlarla bərabər elə Azərbaycan da istəyirdilər ki, özlərinin iqtisadi inkişafını xeyli sürətləndirmək və müstəqilliklərini möhkəmləndirmək ümidi ilə Amerika, Avropa, Yaponiya və təzəlikcə həm də Koreya kapitalının iqtisadi baxımdan öz torpaqlarında iştirakını maksimal dərəcədə genişləndirsinlər”.[1]

Azərbaycanın sosial-iqtisadi və siyasi perspektivləri neft və qaz amili ilə bağlıdır. Respublikamızın gələcək taleyi məhz neft siyasətini necə həyata keçirməyimizdən asılı olacaqdır. İqtisadiyyatımızın digər sahələri də məhz neft siyasətindən asılıdır. Lakin zaman gələcək və neft tükənəcəkdir. Ona görə də qeyri-neft sektorunun indidən inkişafının sürətlənməsinə ehtiyac duyulur. Bu prosesə başlanılıb. Lakin geniş vüsət almayıb.

Müasir iqtisad elmində daha çox resurs problemi vurğulanan zaman – enerji, ərzaq, investisiya, əmək resursları ilə əlaqədar problemlərin yaşandığı və onların həlli yollarından bəhs

---

[1] Вах: Бжезинский З. Великая шахматная доска. Государство Америки и его геостратегические императивы Москва. «Международные отношения». 2002, с. 155.

edilir. Əlbəttə, bu ondan irəli gəlir ki, iqtisad elminin fəlsəfi əsasını ehtiyatların məhdudluğu, ehtiyacların isə qeyri-məhdudluğu prinsipi təşkil etmişdir. Bu fəlsəfə üzərində qurulmuş elmi postulatlar təəssüf ki, indiki mərhələdə problemləri aradan qaldırmağa imkan vermir. Yeni alternativ nəzəriyyələrin yaradılması zərurəti ortaya çıxır. Artıq bu cür nəzəriyyələrə dair ilkin fikirlərə rast gəlmək mümkündür. Məsələn, Türk iqtisadçısı prof. Dr. Haydar Başın "Milli iqtisadi modeli"ində belə bir fikir əsaslandırılır ki, "qeyri-məhdud olan ehtiyaclar deyil ehtiyatlardır"[1]. Deməli, iqtisad elmində problemlərin, istehsal və tədavüldən istehlak üzərinə keçirilməsi kimi son dərəcə mürəkkəb bir prosesin getdiyini söyləmək mümkündür. Şübhəsiz bu gələcəyin işidir. O da şübhə doğurmur ki, məsələyə belə baxış dünyada enerji problemi kimi bir problemin olmadığını göstərəcəkdir.

## 7.2. Bir daha «Holland sindromu» və onun aradan qaldırılması haqqında

Dünya iqtisad ədəbiyyatında «Holland sindromu», «Afrika sindromu», «Holland-Afrika sindromu», «Holland xəstəliyi» ifadələri son zamanlar tez-tez işlədilir[2].

«Holland xəstəliyi» problemi iqtisadiyyata dair dərsliklərdə işıqlandırılmır. Həmçinin dünya iqtisad ədəbiyyatında, hətta Rusiyanın iqtisadi jurnallarında bu mövzuya aid dərc olunmuş məqalə və materiallar demək olar ki, cüzidir. Buna görə də «Holland xəstəliyi»nin meydana gəlməsi meyillərinin təhlili və onun müalicəsi reseptlərinin axtarışı – elmi tədqiqatın son dərəcə

---

[1] Bax: Prof. Dr. Haydar Baş. Milli iqtisadi model. "Bakı Dövlət Universiteti" nəşriyyatı. Bakı: 2005, s. 72.

[2] Qeyd: Son zamanlarda iqtisad ədəbiyyatında «Rusiya sindromu» ifadəsi də işlədilir. (Bax: 7 НОТ менеджмента. Настольная книга руководителя). Москва. 2002. ЗАО «Журнал эксперт» 000 «Издательство ЭКСМО», с. 103-107. Sindrom anlayışı təkcə neft amili ilə bağlı deyil. Bu anlayışı bir çox hadisə və proseslərə aid etmək olar.

aktual vəzifəsidir. Onların həlli üçün yalnız bütövlükdə «Holland xəstəliyini» dərk etmək və onun inkişafına təsir edən amilləri aşkar etmək yox, həm də 1990-cı illərin transformasiya tənəzzülündən sonra iqtisadi dinamikasız yaşayan postsovet ölkələrin iqtisadiyyatının xüsusiyyətlərini nəzərə almaq lazımdır.

Hamı tərəfindən qəbul edilmişdir ki, enerjidaşıyıcılarının qiymətinin artması neft ixrac edən ölkələr üçün inflyasiyanın ən mühüm amili kimi çıxış edir. Onun fəaliyyət mexanizmi – xüsusi hadisədir və ikinci növ «Holland xəstəliyi» adlanır. «Holland xəstəliyi» fenomeni Q.Fetisovun «Rusiyada «Holland xəstəliyi»: makroiqtisadi və struktur aspektləri» məqaləsində ətraflı şərh edilmişdir[1].

Müəllif digər məqaləsində göstərir ki, iqtisadi ədəbiyyatda «Holland xəstəliyi» dedikdə qaz, neft və digər mineral xammal yataqlarının kəşf edilməsi və işlənilməsi və ya onun dünya qiymətlərinin artması ilə bərabər eyni zamanda qeyri- neft sektoru ilə bağlı sahələrin birtərəfli inkişafının azalması ilə əlaqədardır. Müvafiq olaraq «Holland xəstəliyi»nin iki müxtəlif növünü ayırmaq olar, özü də onun ikinci növü yalnız xalis xammal ixrac edən ölkələrdə yaranır[2].

«Holland sindromu»nun mahiyyəti ondan ibarətdir ki, ölkədə bir sahə sürətlə inkişaf edir, ancaq digər sahələr geridə qalır. Bəzi müəlliflərin qeyd etdiyi kimi, “Holland xəstəliyi” bir sahənin üstün inkişafı fonunda iqtisadiyyatın digər sahələrinin inkişaf etməməsi və nəticədə ölkə iqtisadiyyatında mənfi meyillərin güclənməsidir. Kompleks iqtisadi amillərlə bağlı olan “Holland xəstəliyi” öz nəticəsini kənd təsərrüfatı və emal sənayesində daha qabarıq şəkildə göstərir. Ölkənin valyuta bazarına

---

[1] Bax: Г.Фетисов. «Голландская болезнь» в России: макроэкономические и структурные аспекты. «Вопросы экономики». Журнал. 2006. № 12, с. 38-54.

[2] Bax: Г.Фетисов. Динамика цен и антиинфляционная политика в условиях «голландской болезни». «Вопросы экономики». Журнал. 2008. № 3, с. 23-24.

külli miqdarda xarici valyuta axını xəstəliyin baş verməsi üçün əlverişli mühit yaradır. “Holland xəstəliyi” məhz təbii resursların (ekoloji məhsul) istehsalının və ixracının artması nəticəsində ölkəyə xarici valyuta axınının artmasının yaratdığı effektdir. Bu effekt ona görə xəstəlik adlandırılır ki, xarici valyuta təklifinin artması milli valyutanın real dəyərini artırır və təbii resurslar ixrac edilənədək rəqabətqabiliyyətinə malik olan milli əmtəələrin istər daxili və istər də xarici bazarlarda rəqabətqabiliyyəti aşağı düşür[1]. Hollandiyada 70-ci illərdə qaz tapılandan sonra ixracın 90 faizə yaxını qaz nəqlinin payına düşürdü. Məhz Hollandiyada qaz hasilatının azalması son nəticədə bu ölkədə böhranın yaranmasına gətirib çıxarmışdır. Bu da ixracın kəskin şəkildə aşağı düşməsinə və mənfi saldonun güclənməsinə səbəb oldu. Q.Fetisova görə, iqtisadiyyatın «xammal modeli» ona görə pisdir ki, xammal hasilatının artımı sayəsində və ya müvafiq dünya qiymətlərinin yüksəldilməsi nəticəsində bu xammal ixracının sürətlə artımı «Holland xəstəliyi» doğurur. Bu fenomenin mahiyyəti əmək və kapital resurslarının «ticarət aparılan» qeyri-xammal sektorundan (bundan sonra «ticarət aparılan» sektora) «ticarət aparılmayan» sektora (başlıca olaraq xidmət sferasına) yerdəyişməsindən ibarətdir. «Holland xəstəliyi» anlayışı Şimal dənizinin Niderland sektorunda Qroningen yatağından qazın Almaniyaya ixracı ilə əlaqədar yaranmışdır. İxrac gəlirlərinin artımı Hollandiyanın pul vahidi quldenin güclü möhkəmlənməsinə, müvafiq olaraq idxalın səmərəliliyinin yüksəldilməsinə və prinsipcə beynəlxalq ticarət predmeti olan «ixrac olunan» məhsulların ixracının azalmasına səbəb oldu. «Ekonomiks» mövqeyindən «Holland xəstəliyinin» izahı belədir: təbii xammalın artıqlığına (istehsalın digər amilləri ilə müqayisədə) malik olan ölkədə qeyri-xammal «ticarət aparılan» məhsulların

[1] .Bax: Manatın bahalaşması və iqtisadi inkişaf: “Holland xəstəliyi”nin məzmunu və əlamətlərinin tədqiqi Bakı.: 2005, s.6.

(bundan sonra «ticarət aparılan məhsullar») əvəzinə xammal ixrac etmək əlverişlidir[1].

İxrac ölkəyə pul gətirir, idxal isə ölkədən pul aparır. Müsbət saldonun olması o baxımdan əhəmiyyətlidir ki, ölkəyə daha çox pul gəlir. Təəssüf ki, neft ölkələrində müsbət saldo neft sektorunun hesabınadır. Buna müsbət saldo deyil, bəzən «qara saldo» da deyirlər. Hərfi mənada neftin rənginə uyğun olsa da iqtisadi mənada ona görə «qara saldo» adlandırırlar ki, o, birbaşa birjalardan asılıdır.

Amerikanın Kaliforniya Universitetinin siyasi elmlər üzrə araşdırıcısı Andrea Herşman 2008-ci ildə Bakıda «Holland sindromunun siyasi mənbələri» adlı məruzə ilə çıxış edib. O deyib ki, «Holland sindromu» deyəndə ilk əvvəl enerjidaşıyıcılarının ixracından əldə edilən gəlirlərin artması nəticəsində iqtisadiyyatın sənayesizləşdirilməsi nəzərdə tutulur. Onun fikrincə, bu fəsadın digər əlaməti yerli istehsallı malların bahalaşması və dünya bazarında rəqabət qabiliyyətini itirməsidir. Yəni ölkə iqtisadiyyatının müxtəlif sektorlarında ziddiyyət yaranır, bununla da kənd təsərrüfatı və emal sənayesi böhranla üzləşir. Eyni zamanda, ölkə iqtisadiyyatının neft sənayesindən ifrat asılılığı meydana çıxır. Bu isə öz növbəsində gələcəkdə davamlı inkişafı təhlükə altına alan bir amilə çevrilir.

Yuxarıda qeyd etdiyimiz kimi, «Holland sindromu» ilə yanaşı «Afrika sindromu» ifadəsinə də iqtisadi ədəbiyyatda rast gəlinir. Bunlar arasında ümumi oxşarlıq mövcud olsa da, bəzi xüsusiyyətlərinə görə bir-birindən fərqlənirlər. Bu da həmin ölkələrdə siyasi hakimiyyətin gücündən, adət-ənənədən və iqtisadiyyatın idarə edilməsi metodlarından asılı olaraq meydana çıxır.

---

[1]Bax: Г.Фетисов. Альтернативы «сырьевой» модели развития Российской экономики (как трансформировать «нефтедолларовые» доходы в высокие технологии?). «Российский экономический журнал» 2007. № 9-10, с.7.

Belə ki, «Holland sindromu» ilə «Afrika sindromu»nu müqayisə etməli olsaq görərik ki, bunlar arasında ümumi və fərqli cəhətlər mövcuddur. Hər iki sindromu müəyyən əlamətlərinə görə təyin edib bir-birindən fərqləndirmək olar. «Holland sindromu» zamanı:

1. ölkənin valyutası möhkəmlənir;
2. ölkə iqtisadiyyatı xarici ölkələrdən asılı vəziyyətə düşür;
3. ölkəyə həm daxili, həm də xarici sahibkarlar tərəfindən investisiya qoyuluşu azalır;
4. idxal olunan məhsullar çoxluq təşkil edir;
5. ixrac edilən məhsulların növləri azalır;
6. bütövlükdə istehsal prosesi pozulur;
7. xammal ixracı çoxalır;
8. rüşvət və korrupsiya güclənir.

«Afrika sindromu»nda isə:

1. ölkədə inhisarçılıq artır;
2. ölkə daxilində iqtisadi sahələrin yenidən bölüşdürülməsi uğrunda mübarizə güclənir;
3. ölkədə korrupsiya və rüşvət geniş vüsət alır;
4. ölkəyə həm daxildən, həm də xaricdən gələn gəlirlər az bir qrupun əlində cəmləşir;
5. ölkədə iki qütb yaranır: həddən artıq varlılar və yoxsullar;
6. gəlirlərin bölgüsü zamanı dövlətlə sahibkarlar arasında dərin fərqlər meydana çıxır;
7. dövlət hüquq-mühafizə orqanlarına geniş səlahiyyətlər verir və onlara çəkilən xərclər çoxaldılır.

Q.Fetisov Rusiyada «Holland sindromu» prosesini şərh edərkən göstərməyə çalışır ki, həqiqətənmi Rusiya bu xəstəliyə tutulmuşdur, ölkə iqtisadiyyatı üçün bu xəstəlik nə qədər təhlükəlidir və onu necə müalicə etmək olar? İqtisadi ədəbiyyatda bu məsələlərə dair yekdil fikir yoxdur. Onda nəyə görə «Holland sindromu» bu qədər neqativ hadisədir?

Birincisi, renta gəlirlərinin götürülməsi və yenidən bölgüsü çətin problem yaradır.

İkincisi, hətta dövlət tərəfindən təbii rentanın tam götürülməsi və vətəndaşlar arasında onun ədalətli bölgüsü zamanı da məhsulların tələb və təklifinin regional qeyri-tarazlığının problemləri meydana çıxa bilər.

Üçüncüsü, «Holland sindromu»nun mühüm aspekti onun bir sıra hallarda müvəqqəti xarakterdə olmasıdır.

Dördüncüsü, xammal əmtəələri bazarları üçün qiymətlərin xüsusi qeyri-sabitliyi xarakterikdir.

Beşincisi, hətta əgər xammalın qiymətinin qeyri-sabitliyindən uzaqlaşsaq belə, onda sual yaranır: təbii rentanı mənimsəyərək xammalı hasil etmək və ixrac etmək imkanının mövcudluğu, ümumiyyətlə, Rusiya üçün nemətdirmi?[1]

Göründüyü kimi, Q.Fetisov problemi iqtisadiyyatın bütün sahələrinə təsirini şərh etməyə çalışır. O, Rusiya timsalında «Holland sindromu»nun əlamətlərinin nüfuz dairəsini daha da dərinləşdirməyə çalışır və bundan çıxış yollarını sanki təhlil edir.

Dünyada təbii ehtiyatlardan səmərəli istifadə edib, sabit iqtisadiyyat qurub inkişaf etmiş ölkələr də var. Belə ölkələr iqtisadiyyatlarını təkcə özlərində olan sərvətlər üzərində formalaşdırmayıblar. İqtisadiyyatın digər sahələrini də paralel surətdə inkişaf etdirmiş ölkələr də mövcuddur. Bunlardan ABŞ, Kanada, Norveç, Avstraliya kimi sivilizasiyanın yüksək zirvəsinə çatmış ölkələri göstərmək olar. Təbii ehtiyatlarla zəngin olan bu ölkələrdə, gəlirlərdən istifadə taktikası müxtəlifdir. Norveç və Alyaskada (ABŞ) qeyri-neft sektoru problemi mövcud deyil. Deməli, bu ölkələrdə «Holland sindromu» problemi yoxdur. Lakin mütəxəssislərin göstərdiyinə görə Norveçdə «qocalma sindromu» qorxusu var. Bu ölkədə təbii sərvətlərlə bağlı nəinki problem, hətta narahatçılıq belə yoxdur. Onları düşündürən gələcək nəsilləri ehtiyatlarla problemsiz təmin etməkdir.

---

[1] <f[ : Г.Фетисов. «Голландская болезнь» в России: макроэкономические и структурные аспекты. «Вопросы экономики». 2006. № 12, с. 38.

Təbii ehtiyatlardan səmərəli istifadə etməyən, öz iqtisadiyyatlarında münasib islahatlar həyata keçirə bilməyən, qeyri-neft sektorunu ləng inkişaf etdirən ölkə Nigeriya, Anqola, Yeni Qvineya, Trinidad – Tabaqo kimi ölkələrin həyat tərzini qəbul etməlidir.

«Holland sindromu»nun baş verdiyi ölkələrdə bir sıra cəhətlər və eybəcərliklər özünü göstərməyə bilməz. Lakin bəzi ölkələr bunu həm siyasi, həm də iqtisadi alətlərlə müvəqqəti olaraq ləngidə və ya pərdələyə bilirlər. Bu isə uzun sürən proses ola bilməz.

İqtisadiyyata dərin nüfuz etmiş olsaq, görərik ki, «Holland sindromu»nun baş verdiyi ölkələrdə aşağıdakı xüsusiyyətlər özünü tam qabarıq şəkildə göstərir:

1. Demokratiyanın bütün prinsipləri pozulur.
2. Ölkənin istər siyasi və istərsə də iqtisadi idarə edilməsində xaos yaranır.
3. Təbii ehtiyatlardan gələn gəlirlərin şəffaflığı təmin edilmir.
4. Gəlirlərin bölgüsünə və səmərəli istifadəsinə nəzarət mexanizmi iflasa uğrayır.
5. Ölkənin bütün iqtisadiyyatını korrupsiya və rüşvət bürüyür.
6. Ölkə əhalisi arasında qeyri-bərabər gəlir bölgüsü nəticəsində qütbləşmə yaranır.
7. Yoxsulluğun səviyyəsi daim yüksəlir.
8. İşsizlik günü-gündən artır.
9. Ölkədə təbii ehtiyatlardan kənar qeyri-sahələrin məhsullarının istehsalı azalmaqla ixracı tamamilə dayanır.

Bəzi tədqiqatçıların fikrinə görə, «Holland sindromu» şəraitində neft-qaz sektoru ilə qeyri-ixrac məhsulları sektoru (pərakəndə ticarət, xidmət və tikinti istisna olmaqla) inkişaf etdiyi halda ənənəvi ixracyönümlü qeyri-neft sahələr yalnız daxili bazara işləyir. Xüsusilə də, kənd təsərrüfatı və emal sahələrinin ümumi daxili məhsulda mövqeyini zəiflədir.

Bəzi ölkələrdə sindrom bu formada artıq müşahidə olunub. İqtisadçılar belə bir ümumi nəticəyə gəliblər ki, neft sekto-

runda baş verən qiymət artımı iqtisadiyyatın digər sahələrində də bahalaşmaya gətirib çıxarır. Bu təzahürün özü «Holland xəstəliyi» kimi tanınır və qəbul edilir.

«Holland sindromu»na tutulan ölkələrdən biri də Nigeriyadır.[1] Afrika ölkələri içərisində neft hasilatına görə Nigeriya 3-cü, dünyada isə 13-cü yeri tutur. Nigeriya Afrikada yeganə ölkədir ki, OPEK-in üzvüdür.

1953-1958-ci illərdə Nigeriyanın ixracı bütünlüklə kənd təsərrüfatı məhsulları üzərində qurulmuşdur, xüsusilə də, kakao, araxis, kauçuk istehsalı geniş yayılmışdı. Qurğuşun, odun, göndəri də o zaman əsas ixrac məhsullarından idi. 1958-ci ildən başlayaraq ölkədə neft istehsal edilməyə başladı. Az bir vaxtda neft ölkəyə külli miqdarda valyuta gətirdi. Neftdən gələn gəlir elə yüksək səviyyəyə qalxmışdır ki, digər sahələrin inkişafı sanki diqqətdən kənarda qalmışdır. Nigeriya, hətta ənənəvi məhsulları olan pambıq araxis və palma yağı ilə özünü təmin edə bilmirdi. Sanki, bu ölkədə kənd təsərrüfatı istehsalı heç zaman olmamışdır.

1971-ci ildə Nigeriya da OPEK[2]-ə daxil oldu. Elə o zamandan başlayaraq özünün ənənəvi məhsulları olan palma yağı, pambıq araxislə özünü təmin edə bilmədi.

---

[1] Qeyd: Nigeriyada neft bir növ «yeni» sahə olduğuna görə Azərbaycanla heç cür müqayisə edilə bilməz.

[2] Qeyd: OPEK – ingiliscə tərcümədən Neft İxrac Edən Ölkələr Birliyi deməkdir. OPEK nəhəng neft istehsalçısı olan ölkələrin iqtisadi birliyidir. Bu quruma üzv olan ölkələr aşağıdakılardır: Səudiyyə Ərəbistanı, Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ), İran, Qətər, Küveyt, Qabon, Əlcəzair, Venesuela, Ekvador, İndoneziya, Liviya, Nigeriya, İraq. Dünyanın neft hasilatının təxminən 50%-i, neftin ixracının 80%-i bu ölkələrin payına düşür. (Bax: Воронин В.П., Кандакова Г.В., Подмалодина И.М. Мировое хозяйство и экономика стран мира: учеб.пособие / Под ред. В.П.Воронина – М., Финансы и статистика, 2008, с. 175).

OPEK-ə daxil olan ölkələr birlikdə daimi olaraq istehsal həcmini tənzimləməklə dünya neftinin qiymətlərinin ifrat dərəcədə enməsinin qarşısını almaqla, öz üzvlərinin gəlir səviyyəsini qorumaqla məşğuldur. Qurum həmişə çalışır ki, neftin qiyməti ifrat dərəcədə artmasın. Ona görə ki, neftin qiyməti həddən artıq yüksələrsə, OPEK-in nəzarətində olmayan neft yataqları inkişaf edə bi-

Nigeriya dövlətinin tarixinə nəzər yetirsək görərik ki, 1958-ci ildən başlayaraq ölkədə neft hasilatı sürətlə artmağa başlayıb. Son dövrlərdə Nigeriyanın neft ixracı hər il 150 milyon tondan çox artır. Buna baxmayaraq Nigeriya dünyanın ən yoxsul və korrupsiyaya uğramış ölkələrindən biridir.

Nigeriyada «Holland sindromu»na səbəb Amerikanın regionda İsraili dəstəkləməsinə etiraz əlaməti olaraq 1973-cü ilin 20 oktyabrında neft ixrac edən ərəb ölkələrinin ABŞ-ın xammalla təchiz edilməsinə embarqo qoyması idi. Göründüyü kimi, burada Nigeriya hökumətinin günahı yox idi. Bu, daxili deyil, xarici amilin təsiri idi. Bunu obyektiv amil kimi qiymətləndirmək

---

lər. Hətta neftlə bağlı olmayan energetika sahələri də yeni enerji mənbələri yarada bilərlər.

Əslində OPEK-nın yaradılmasında əsas məqsəd bu quruma daxil olan ölkələrin iqtisadi inkişafını daimi olaraq artırmaq və beynəlxalq inhisardan qorumaq olmuşdur. OPEK-in üzvü olan ölkələr hər il 270-280 mlrd dollardan çox qazanc əldə edirlər.

OPEK 1960-cı ildə yaranmışdır. 1973-cü ildə neft böhranı yaratmaqla daha da məşhurlaşdı. Bəzən OPEK-in fəaliyyətinə bu təşkilata daxil olmayan ölkələrlə – Meksika, Rusiya, Oman və Norveçlə əməkdaşlıq, kömək edir. ABŞ-ın strateji maraqlarına OPEK-in neft hasilatı və qiymətləri üzərində nəzarətini azaltmaq və zəiflətmək daxildir. Bu, yeni neft yataqlarının, o cümlədən də Xəzərdəki və Afrika ölkələrindəki neft ehtiyatlarının istismar edilməsi üçün əsas stimuldur.

Konkret məhsul üzrə olmasa da Avropa ölkələri arasında da belə bir qurum yaradılıb. Bu, Şengenə daxil olan ölkələrdir. Şengen sözü Lüksemburqda kiçik bir şəhərin adından götürülüb və məhz bu şəhərdə 1985-ci ilin iyun ayında 5 Avropa ölkəsi öz ölkələri arasında sərhəddə yoxlama və nəzarətə son qoyan bir saziş imzalayıblar. Sonrakı illərdə bir çox ölkələr də bu sazişə qoşulublar. Hazırda 27 Şengen ölkəsi var: Almaniya, Avstriya, Belçika, Çexiya Respublikası, Danimarka, Estoniya, Finlandiya, Fransa, İslandiya, İsveç, İtaliya, Latviya, Litva, Lüksemburq, Macarıstan, Malta, Niderland, Norveç, Polşa, Portuqaliya, Slovakiya, Sloveniya, Yunanıstan, Lixtenşteyn, İsveçrə, Bolqarıstan, Rumıniya. İslandiya və Norveç istisna olmaqla bütün ölkələr Avropa Birliyinin üzvləridir.

Avropa Birliyinə daxil olan 5 ölkə – Birləşmiş Krallıq, İrlandiya, Kipr Şengenin zonasına daxil deyillər.

olar. O zaman neftin bir barelinin qiyməti 40 dollara qədər yüksəlmişdir. Bundan təkcə Nigeriya deyil bütün neft ixrac edən ölkələr ziyan çəkmişdir. Nigeriya isə iqtisadi tənəzzülə görə tarixə düşmüşdür. Həmin illərdə Nigeriyanın dövlət büdcəsinin 60 faizini neftdən gələn gəlir təşkil edirdi və ölkənin ixracının 85 faizi də neft idi. Nigeriyanın «Holland sindromu»na tutulmasında subyektiv səbəb isə ölkədə iqtisadiyyatın idarə olunmasına birtərəfli yanaşma idi.

Nigeriya tarixən kənd təsərrüfatı məhsulları istehsal etmişdir. İxracını da məhz kənd təsərrüfatı məhsulları təşkil edirdi. Lakin birdən-birə Nigeriya kənd təsərrüfatı məhsullarını idxal edən ölkəyə çevrildi. Ölkədə kənd təsərrüfatı məhsullarının istehsalı o dərəcədə azalmışdır ki, qiymətləri tənzim etmək, nəzarət etmək mümkün deyildi. Qiymətlər əhalinin pul gəlirlərinə uyğun deyildir, olduqca yüksək idi.

1974-1975-ci illərdə dünyada neftin qiyməti kəskin surətdə aşağı düşməyə başladı[1]. Nigeriya iqtisadiyyatı bundan da böyük ziyan çəkmişdi. Bu, ölkənin ixracdan əldə etdiyi gəlirlərin azalmasına səbəb oldu. Ölkə iqtisadiyyatında sabitlik yaratmaq, əhalinin maddi tələbatını minimum səviyyədə də olsa təmin etmək üçün Nigeriya hökuməti 1978-ci ildə beynəlxalq maliyyə bazarlarından borc götürməyə məcbur oldu. Bu isə o demək idi ki, artıq Nigeriya dövləti beynəlxalq maliyyə qurumlarından asılı vəziyyətə düşmüşdü.

Bəzi ədəbiyyatlarda bu gün Nigeriyanı idarə olunma baxımından bir dövlət kimi saymırlar. Burada vahid idarəetmə sistemi ortadan götürülüb, idarəetməni bir neçə mafioz qüvvə, gizli iqtisadiyyatın nümayəndələri həyata keçirir. Belə dövlətlər Cənubi Amerikada və digər qitə ölkələrində də mövcuddur.

---

[1] Qeyd: Görünür bunun səbəbi 1973-cü ildə heç bir neft çatışmazlığının olmamasıdır. Həmin ilin sonunda isə 1 barel neftin qiyməti qəflətən 5,20 dollardan 11,65 dollara qalxmışdır. (Bax: Эрик Лоран. Нефть: ложь, тайны, махинации / Эрик Лоран; пер. с фр. Татьяна Ждановой – М.: СТОЛИЦА – ПРИНТ, 2007, с. 15, 17).

2006-cı ildə Nigeriyanın xarici borcu 35,9 milyard dollar olmuşdur[1]. Bu ölkənin ÜDM-nun 50,4 faizi demək idi. 2010-cu ildə Nigeriyanın daxili və xarici borcu 29 milyard dollar olmuşdur. Ayrıca götürdükdə xarici borcu 2012-ci ilin sonunda 10.100 milyard dollara enmişdir.

BVF-nin göstəricilərinə görə Nigeriya neft hasil etdiyi 40 il ərzində 250 mlrd dollar vəsait əldə edib. Ancaq buna baxmayaraq Nigeriyada günə 1 dollardan az məbləğə yaşayanların sayı 27 faizdən 66 faizə qədər artıb.

**Ölkə ixracatında neftin xüsusi çəkisinin çox olmasını bütün hallarda mənfi qiymətləndirmək iqtisadi cəhətdən düz deyil. İqtisadçılar o zaman bunu birtərəfli inkişaf kimi tənqid edirlər ki, ölkədə idarəçilik aparatı zəifdir. Əgər ölkə rəhbərliyi düzgün mövqe tutub iqtisadiyyatın digər sahələ-**

---

[1] **Qeyd:** Ölkənin xarici borcunun olması əslində qorxulu amil deyil. Dünyanın ən inkişaf etmiş ölkələrində xarici borc var və bu iqtisadiyyatda adi hal sayılır. Əgər həmin ölkələr sonrakı, perspektiv inkişaflarında, iqtisadi strukturlarında islahatlar həyata keçirməsələr mənfi hallarla rastlaşacaqlar. Məsələn, xarici borcu olan ölkələrdən bir neçəsini göstərmək olar: ABŞ-ın -16.749 trilyon dollar (21 oktyabr 2013); Böyük Britaniyanın – 10.090 trilyon dollar (31 dekabr 2012); Fransanın – 5.165 – trilyon dollar (30 iyun 2011); Almaniyanın – 5.719 trilyon dollar (30 iyun 2011); Yaponiyanın – 3.024 trilyon dollar (31 dekabr 2012); İtaliyanın – 2.460 trilyon dollar (30 iyun 2011); İspaniyanın – 2.290 trilyon dollar (11 aprel 2013); İrlandiyanın – 2.163 trilyon dollar (30 dekabr 2012); Avstraliyanın – 1.466 trilyon dollar (31 dekabr 2012); İsveçrənin – 1.563 trilyon dollar (31 dekabr 2012); Kanadanın – 1.326 trilyon dollar (31 dekabr 2012); İsveçin – 1.034 trilyon dollar (31 dekabr 2012); Çinin – 771.7 milyard dollar (31 dekabr 2012); Rusiyanın – 631.8 milyard dollar (31 dekabr 2012); Danimarkanın – 626.9 milyard dollar (30 iyun 2011); Yunanıstanın – 583.3 milyard dollar (30 iyun 2011); Türkiyənin – 331.4 milyard dollar (31 dekabr 2012); Ukraynanın – 135.0 milyard dollar (31 dekabr 2012); Qazaxıstanın – 105.5 milyard dollar (31 dekabr 2012); Malayziyanın – 95.5 milyard dollar (31 dekabr 2012); Sinqapurun – 1.174 trilyon dollar (31 dekabr 2012); Azərbaycanın – 4.042 milyard dollar (31 dekabr 2012); Gürcüstanın – 8.200 milyard dollar (31 dekabr 2012); Ermənistanın – 6.435 milyard dollar (31 dekabr 2012) olmuşdur. (Bax: ABŞ-ın Mərkəzi Kəşfiyyat İdarəsinin hesabatları).

**rini tarazlı şəkildə inkişaf etdirə bilərsə təbii ehtiyatların hər hansı birinin ixracından əldə edilən gəlir kifayətdir. Lakin, istər elmi, istərsə də praktiki cəhətdən bunun özü müvəqqəti hal kimi qiymətləndirilməlidir. Digər bir tərəfdən həmin təbii ehtiyatların ixracı zamanı gələcək nəsillərin bu sərvətlərə ehtiyacını nəzərə almaq lazımdır. İsrafçılıqla bunu həyata keçirmək olmaz.**

1950-ci illərdə Avstraliya zəif inkişaf etmiş ölkə idi. Yüksək surətdə inkişaf edən və eyni zamanda, təbii ehtiyatlar cəhətdən kasıb, lakin intellektual səviyyəsi yüksək olan Yaponiyaya nefti, bütün digər mineralları – dəmir filizi, kömür, boksit, fosfor, pambıq və buğdanı Avstraliya satırdı. Bu məhsulların satışından əldə edilən gəlir sonralar yeyinti, turizm və maşınqayırma sahələrinin inkişafına yönəldi və Avstraliya tədricən inkişaf etmiş ölkəyə çevrildi. Hazırda isə Avstraliyanın ixracının yalnız 42 faizini mineral xammal təşkil edir. Emal məhsulları ixracın 35 faizini təşkil edir.

Dünya ölkələrinin təcrübəsi göstərir ki, «Holland sindromu» yalnız hasilat sənayesində baş vermir. Kolumbiya «Holland sindromu»na qəhvə istehsalına görə yoluxub. Fil Sümüyü Sahilləri kofe, kakao və ağac materialları istehsalı ilə Zambiya və Zair isə filiz istehsalı ilə bağlı olmuşdur. Bu ölkələrin neftlə heç bir əlaqəsi yoxdur.

Qəhvə istehsalına və ixracına görə Braziliyadan sonra dünyada ikinci yeri Kolumbiya tutur. Dünya ölkələrinə nə qədər qəhvə ixrac olunursa, onun 50%-i bu iki ölkənin payına düşür.

Statistika göstərir ki, dünya bazarında alqı-satqı əməliyyatına görə neftdən sonra qəhvə ikinci yerdədir. Kolumbiyanın tarixinə nəzər salsaq görərik ki, XVI-XVII əsrlərdə İspaniyanın müstəmləkəsi olub. 1886-cı ildə qəbul olunmuş yeni konstitusiyaya əsasən ölkə mərkəzləşdirilmiş dövlətə çevrilmiş və Kolumbiya adlanmışdır. O dövrlərdə Kolumbiya iqtisadiyyatında əsas yeri faydalı qazıntıların hasilatı tuturdu. 1916-1918-ci illərdə zəngin neft yataqları tapılmışdır. Kolumbiyada banan, şə-

kər qamışı, pambıq, tütün, kakao, qarğıdalı, buğda, çəltik də yetişdirilir. Heyvandarlıq məhsulları da kifayət qədər əhəmiyyətli sahələrdən biri olmuşdur. Lakin sonralar Kolumbiyada qəhvə istehsalı həm hasilat sənayesini, həm də digər kənd təsərrüfatı sahələrini sıxışdırıb aradan çıxarmışdı.

Kolumbiyaya qəhvə 1732-ci ildə braziliyalılar tərəfindən gətirilmişdi. XIX əsrin ortalarından başlayaraq Kolumbiyada qəhvə istehsalı geniş yayılmağa başladı. İlk dövrlər qəhvəni ölkə daxilində satmaq üçün istehsal edirdilər, sonralar 1835-ci ildən başlayaraq ixrac etməyə başladılar.

XX əsrdən başlayaraq Kolumbiyada qəhvə istehsalı gözlənilmədən yüksəlməyə başladı. Buna səbəb Braziliyada quraqlığın, dünyaya qəhvə istehsalına görə seçilən Qvatemalada isə zəlzələnin baş verməsi oldu.

Kolumbiyanın dünyadakı bu ciddi rəqiblərinin istehsalının təbii fəlakətlər nəticəsində birdən-birə azalması dünya bazarında qəhvə qıtlığına gətirib çıxarmışdır. Təbii ki, bütün bunların nəticəsində dünyada qəhvənin qiyməti qalxmışdır. Beləliklə, Kolumbiya qəhvəsinə tələbat istər-istəməz artmışdır.

«Holland sindromu»nun əlamətlərindən biri də tədavüldə əlavə pul ehtiyatlarının əmələ gəlməsidir. Belə olan halda ölkə iqtisadiyyatında maliyyə tarazlığı pozulur. Təbii ehtiyatlardan iri həcmdə valyutanın axması ölkə daxilindəki müxtəlif müəssisələr arasında rəqabət yaradır. Bəzi müəssisələr rəqabətə dözməyərək sıradan çıxır. İşsizlik yaranır, istər-istəməz işçilər arasında narazılıq əmələ gəlir. Ölkədə təbii ehtiyatlar istehsal edən sahələrə meyil artır, işçilərin bu istiqamətə axını güclənir, peşə, ixtisas dəyişikliyi baş verir. İnvestorların bu sahələrə maraqları güclənir. Belə halların baş verməsi nəticəsində ölkə iqtisadiyyatının başqa sahələrində durğunluq yaranır, məhsul çatışmazlığı baş verir və digər sahələrin ixtisaslı kadrları işsizlikdən əziyyət çəkirlər. Bütün əhali ölkədəki təbii ehtiyat istehsalçılarından asılı vəziyyətə düşür.

«Holland sindromu» zamanı büdcəyə daxil olan artıq pul kütləsindən hər ölkə rəhbərliyi istifadə etmək qabiliyyətində deyil. Məlumdur ki, **pul gəlirlərindən iqtisadiyyatın bütün sahələrini idarə edə bilən mexanizm yaranmış olsaydı heç Holland sindromu baş verməzdi.**

Ölkənin milli valyutasının möhkəmlənməsi, aparıcı xarici valyutaların məzənnəsinin aşağı düşməsi beynəlxalq alıcılar üçün də sərfəli deyil. Çünki həmin ölkədə istehsal olunan məhsulların, xidmətlərin alınması, dünya bazarına çıxarılması mürəkkəbləşir. Əksinə olaraq isə xaricdən gətirilən məhsulların milli valyuta ilə qiyməti aşağı düşür.

Ümumiyyətlə götürdükdə «Holland sindromu» özünü valyutanın məzənnəsinin yüksəlməsində, inflyasiyada və ÜDM-də hər hansı bir təbii ehtiyatın payının artmasında göstərir.

«Holland sindromu» əsasən bir sıra əlamətinə görə müəyyən edilir. Bu əlamətlər iqtisadi ədəbiyyatda öz təsdiqini tapmış və ayrı-ayrı tədqiqatçılar tərəfindən geniş olmasa da müəyyən şərhi verilmişdir. Bunlar aşağıdakılardır:

1. Xarici valyutanın ölkənin maliyyə bazarına daxil olması nəticəsində milli valyuta möhkəmlənir.
2. Milli valyutanın möhkəmlənməsi nəticəsində neftdən kənar ixrac məhsullarının rəqabət qabiliyyətinin aşağı düşməsi prosesinin baş verməsi və onların ixracının azalması.
3. Əvvəllər ölkədə istehsal edilən ənənəvi sahələrin rəqabətə tab gətirməyərək təbii sərvətlər istehsalı sahələrinə axını.
4. İqtisadiyyatın idxaldan asılılığının artması və ölkənin tədiyyə qabiliyyətinin zəifləməsi.
5. Bütövlükdə iqtisadiyyatın bütün sahələrində strukturun dəyişməsi, birtərəfli inkişafın baş verməsi. Nəticədə ölkədaxili tələblə təklif arasında tarazlığın pozulması, iqtisadiyyatın artması və ölkənin tədiyyə qabiliyyətinin zəifləməsi.

6. Əmək və kapital amillərinin neft və xidmət sahələrinə güclü axını baş verir, nəticədə onların iqtisadiyyatda səmərəlilik göstəricilərinin səviyyəsi azalır.

7. Neftdən gələn gəlirlərin hesabına dövlət büdcəsi artır. Əgər dünya bazarında neftin qiyməti aşağı düşərsə, büdcənin qarşılaşa biləcəyi təhlükə dərinləşir[1].

Ümumiyyətlə, hər-hansı bir təbii sərvətlərlə zəngin ölkəyə xarici valyuta axını güclənir, «Holland sindromu»nun yaranma təhlükəsi daha qabarıq formada özünü göstərir.

Təbii ehtiyatlardan gələn gəlirlər artdıqca «Holland sindromu» ölkədə ilk növbədə balanslaşdırılmış iqtisadi artımda, daha sonra gələn gəlirlərin düzgün xərclənməsində, səmərəsiz istifadə edilməsində özünü təzahür etdirir. Holland sindromunu aradan qaldırmaq üçün iqtisadi artım proqnozlaşdırılmalı, balans təmin edilməlidir. Bunu elə etmək lazımdır ki, gəlirlərdən səmərəli istifadə edilməklə makroiqtisadi stabillik təmin olunsun.

Milli valyutanın möhkəmlənməsi iqtisadiyyatda müsbət və mənfi qiymətləndirilir. Müsbət cəhəti odur ki, ixrac edənlər udur, idxal edənlər uduzur. Yerli sahibkarların dünya bazarına çıxışı üçün geniş imkanlar yaranır. Lakin, milli valyutanın möhkəmlənməsinin mənfi nəticələri də olur. Bunlar aşağıdakılardır:

1. Ölkədə istehsal olunan məhsulun qiyməti yüksəlir.
2. Ölkənin valyutası dünya bazarındakı təbii ehtiyatların qiymətindən asılı vəziyyətə düşür. [2] Təbiidir ki, qiymətlər yüksələndə gəlir çox olur. Bu halda valyutanın məzənnəsi artır. Qiymətlər aşağı düşəndə isə əksinə.

---

[1] Qeyd**:** Bu əlamətlər iqtisadi ədəbiyyatlarda məzmunca eyni, formaca müxtəlif şəkildə şərh olunur. Məsələn, bax: Manatın bahalaşması və iqtisadi inkişaf: “Holland xəstəliyi”nin məzmunu və əlamətlərinin tədqiqi. Bakı.: 2005, s. 66.

[2] Qeyd: Bazar münasibətləri şəraitində inkişaf etmiş dövlətlərdə milli valyuta tamamilə bazar vasitəsilə tənzimlənir. Bu bazar iqtisadiyyatının tələbidir.

3. Ölkədə istehsal sahələri yerlərini dəyişir. Hasilat sənayesi emal sənayesini üstələyir.
4. Sosial sahədə ciddi dəyişikliklər yaranır.[1]
5. İqtisadiyyatın digər bütün sahələrinə ciddi ziyan dəyir.

Dünya bazarında təbii ehtiyatların qiymətinin artması «Holland sindromu»na gətirib çıxarda bilərmi?

Dünya bazarında təbii ehtiyatların qiymətinin yüksəlməsi idxal mallarının bahalaşması ilə nəticələnir. Benzinin qiyməti artır ki, bunun da nəticəsində nəqliyyat xərcləri çoxalır.

**Lakin neftin qiymətinin qalxmasının nəticəsində gəlirlərin artmasını bəzi iqtisadçıların düşündüyü kimi sanki bir faciə kimi qiymətləndirmək olmaz. Bizcə başlıca problem gəlirin artmasında deyil, ondan qeyri-neft sektorunun inkişafı üçün istifadə edilməsindədir.**

Rusiya iqtisadçıları neftin yüksək qiymətlərinin ölkənin iqtisadi inkişafına nəinki müsbət, həm də mənfi təsir göstərdiyini və Rusiya iqtisadiyyatında «Holland xəstəliyi»nin əlamətlərini təsbit etmişlər. Onlar xüsusilə ixracının əsasını təşkil edən yanacaq-enerji sektorunu azaldaraq bu ixracın xammal meylinin saxlanmasını qeyd edirlər[2].

Dünyada təbii ehtiyatların qiymətləri artdıqca istehsalçı ölkələrin büdcəsində kəskin artım hiss olunur. Hər bir istehsalçı ölkə bu gəlirlərdən səmərəli istifadə etmək imkanına malik deyil. Bəzən həmin ölkələrdə əhalinin sosial vəziyyəti yaxşılaşmaq əvəzinə pisləşir. Bu özünü ilk növbədə dünya bazarında qiymətlərin yüksəlməsində, idxal məhsullarının bahalaşmasında göstərir.

[1] "Holland sindromu" zamanı sosial bərabərsizlik, gərginlik güclənir. Gəlirlər bir qrup insanın əlində cəmləşir. Demokratiyanın prinsipləri pozulur. Bu şəraitdə dövlət külli miqdarda vəsait sərf etməyə məcburdur.

[2] Bax: М.Ершов, В.Лохмачев, В.Татузов, А.Танасова. Российская экономика: актуальные внешние риски. «Российский экономический журнал». 2007.N7-8, с. 109.

### 7.3. Sabitləşdirmə fondu və gələcək iqtisadi inkişaf

Təbiətin bəxş etdiyi təbii ehtiyatlar nəsillər arasında ədalətli bölüşdürülməlidir. Bunu təbii ehtiyatları olan hər bir ölkə vətəndaşı dərk etməlidir. Bu baxımdan təbii ehtiyatları zəngin olan ölkələr müxtəlif adlı və təyinatlı fondlar yaradırlar ki, gələcək nəsillərə müəyyən vəsaitlər qoruyub saxlaya bilsinlər. Elə bu baxımdan da Azərbaycan Respublikasının Neft Fondunun Əsasnaməsində yazılıb ki, Fondun qarşısında qoyulan əsas məqsədlərdən biri neft gəlirlərinin gələcək nəsillər üçün toplanaraq artırılmasıdırsa, digəri bu gəlirlərdən ölkəmizin cari sosial ehtiyaclarını iqtisadi tərəqqi və inkişaf tələblərini nəzərə almaqla, bugünkü nəsillər üçün istifadə edilməsidir[1].

1974 və 1979-cu illər dünya böhranı neft sahəsində neftin qiymətinin kəskin surətdə artmasını doğurdu ki, bu da bir sıra inkişaf etməkdə olan ölkələrdə ticarət balansının kəsirinin yaranmasına səbəb oldu. BVF bu böhranın aradan qaldırılmasına yardım göstərmək məqsədilə, 1974-cü ilin ortalarında Neft Fondu yaratdı. Fondun əsas vəzifəsi – OPEK-in üzvü olan dövlətlərin ehtiyat vəsaitlərinin xarici yardıma ehtiyacı olanlara yönəltməkdən ibarət idi[2].

Ümumiyyətlə, Neft Fondunun strategiyasını müəyyən edərkən ən əvvəl neft sektorunun inkişafı nəzərdə tutulur. Bunun üçün digər sahələrin inkişafı da zəruridir. Belə ki:

1. Biznes mühiti yaxşılaşdırılmalıdır.
2. İnvestisiya iqlimi sağlamlaşdırılmalıdır.
3. Regionlarda kiçik və orta sahibkarlığın normal fəaliyyətini təmin etmək lazımdır.
4. Ölkənin infrastrukturu hərtərəfli inkişaf etməlidir.

---

[1] Bax: Wikipedia.org

[2] Bax: Бабков Ф.Д., Иванов Е.Ф., Свечников А.Л., Чаплинский С.П. Современный глобальный капитализм. – М.: ОЛМА – ПРЕСС. 2003, с. 70.

5. Maliyyə-kredit sistemində islahatlar həyata keçirilməlidir.
6. Kənd təsərrüfatı müasir tələblər səviyyəsinə çatdırılmalıdır.
7. Yoxsulluq tədricən aradan qaldırılmalıdır.

Beynəlxalq Valyuta Fondunun hesablamalarına görə, dünya bazarında neftin qiyməti 44-45 dollar olduğu təqdirdə, Azərbaycanın Neft Fonduna 2006-cı ildə 2,2 milyard, 2007-ci ildə 6,2 milyard, 2008-ci ildə 16,6 milyard, 2009-cu ildə 29,2 milyard dollar, 2010-cu ildə isə 46,5 milyard dollar pul daxil olacağı gözlənilirdi.

Reallıqda isə vəziyyət belə olmuşdur: Neft Fondunun 2008-ci ildə 27064,8 milyon, 2009-cu ildə 18147,6 milyon, 2010-cu ildə 31522,4 milyon, 2011-ci ildə 38546,5 milyon, 2013-cü il oktyabrın – 1-ə fondun aktivləri 2013-cü ilin əvvəlinə (34129,4 milyon ABŞ dolları) nisbətən 4,9 faiz artaraq 35809,2 milyon ABŞ dollarına bərabər olmuşdur.

Ekspertlər bildirirlər ki, 2025-ci ilə qədər əldə olunacaq 200 milyard dollarla ölkə iqtisadiyyatını elə inkişaf etdirmək olar ki, neftə ehtiyac qalmasın. Bu proqnozlardır özünü doğrultmaya da bilər. Çünki hal-hazırda neftin dünya bazarında qiyməti hər gün yüksəlir və aşağı düşür. Ziddiyyətli, təzadlı bir proses gedir. Əgər bütün bunlar nəzərə alınaraq ciddi islahatlar aparılmasa, yaxın gələcəkdə Neft Fondunda toplanan gəlirlərin böyük miqdarda istifadəsinə məcbur olacağıq. Bu isə arzuolunmaz haldır.

Hazırda dünyanın 15-dək ölkəsində bu tipli müxtəlif fondlar fəaliyyət göstərir ki, təyinatından asılı olaraq onlar şərti olaraq 3 qrupa ayrılır:

1. Stabilləşmə fondları (Alyaska, Venesuela, Kolumbiya, Küveyt, Nigeriya, Norveç, Çili).
2. Gələcək nəsillər fondu (Alberta, Alyaska, Kiribati, Küveyt, Oman, Papua – Yeni Qvineya).
3. Büdcə rezervi (ehtiyat) fondları (Honkonq, Sinqapur, Estoniya, CAR).

Belə fondlara malik olan dövlətlər onların vasitəsilə ölkələrin valyuta bazarını tənzimləyir və ya tükənəcək sərvətlərdən gə-

ləcək nəsillər üçün ehtiyat saxlamaq məqsədi güdürlər. Dünyanın təbii sərvətlərlə zəngin olan bəzi ölkələri iqtisadiyyatlarının sabit, dinamik, tarazlı, balanslı inkişafı üçün müəyyən ehtiyat fondları yaradırlar. Buna alternativ fondlar da deyirlər. Belə alternativ sabitləşmə fondu ABŞ-ın Alyaska ştatında hazırda 2 fond – yığım fondu olan Alyaska Daimi Fondu (*Alyaska Permanent Fund*) və sabitləşmə fondu olan Konstitusiya Büdcə Ehtiyat Fondu (*Constitutional Budget Rezerve Fund*)[1], Çilidə (Mis Sabitləşdirmə Fondu), Venesuelada (Makroiqtisadi Sabitləşdirmə üzrə Venesuela Fondu), Omanda (Fövqəladə Fond), Rusiyada (RF-nin Sabitləşdirmə Fondu), Qazaxıstanda (Milli Fond) fəaliyyət göstərir.

---

[1] Qeyd**:** Yuxarıda göstərildiyi kimi iki neft fondu vardır: Alyaskanın daimi fondu və sabitləşdirici fondu. Daimi fond Alyaska vətəndaşları üçün pul qazanan sərmayə bazasıdır. Bu fond faydalı qazıntı yataqlarının icarəyə verilməsindən gələn bütün məbləğin azı 25%-ni, royaltini, satış məbləğindən royaltini, federal hökumətin faydalı qazıntılardan əldə etdiyi gəlirinin bir hissəsini və ştatın aldığı bonusları özündə cəmləşdirir. Fondun vəsaiti hər il yerli qanunverici hakimiyyətin və qubernatorun razılığı ilə xərclənə bilər. Ümumiyyətlə, vəsaitin bir hissəsi Alyaskanın müvafiq vətəndaşlarına dividend kimi verilir və ya qaytarılıb fonda yenidən sərmayə kimi qoyulur. Prinsip etibarı ilə fondun başçısı yerli konstitusiyaya dəyişiklik etmədən vəsait xərcləyə bilməz, bu dəyişiklik isə yerli əhalinin əksəriyyətinin səsini tələb edir.

Sabitləşdirici fond 1990-cı ildə təsis edilmişdir və ştatın hökuməti büdcə çatışmazlığının öhdəsindən gələ bilmədikdə vəsait ayıra bilər. Fondun illik artımı borc verilən məbləğin həcmi ilə müəyyənləşir, hökumət fonddan götürdüyü borcu büdcəyə izafi qalıq olan illərdə qaytarmalıdır.

Konstitusiya Büdcə Ehtiyat Fondu isə XX əsrin 80-cı illərinin sonunda neftin bazar qiymətinin kəskin aşağı düşməsi nəticəsində 1990-cı ildə yaradılıb. Fondun yaradılmasında əsas məqsəd ştatın büdcə gəlirlərinin azaldılmasını kompensasiya etməkdən, o cümlədən maliyyə ili ərzində büdcə kəsirini müəyyənləşdirməkdən ibarətdir. Fondun gəlirləri hər il ştatın Konqres tərəfindən müəyyən edilən vergi gəlirlərinin və royaltının bir hissəsi, həmçinin fondun vəsaitinin investisiya olunmasından əldə edilən gəlirlər hesabına formalaşır. Fondun vəsaitinin xərclənməsi də ştatın Konqresinin qərarı ilə həyata keçirilir. (Bax: G.Z.Yüzbaşova, Z.S.Abdullayev. Azərbaycanın neft-qaz strategiyası: problemlər və proqnozlar. Monoqrafiya. Bakı – 2006, s. 138.)

ABŞ-ın Alyaska ştatının Daimi Neft Fondu 1976-cı ildə ştatın sakinləri arasında keçirilmiş referendumun nəticələrinə əsasən yaradılmışdır. Fonda ştatın hökuməti tərəfindən neft şirkətlərindən alınan vəsaitlərin (vergilər, qazma işləri üçün lisenziya haqqı, neft kəmərlərindən istifadəyə görə ödənişlər) 25%-i köçürülür, mənfəətin bir qismi isə Alyaska sakinlərinə dividendlərin ödənilməsinə yönəldilir. 2005-ci ilin sonunda fondun həcmi 32 mlrd ABŞ dolları, dividendlər isə - adambaşına 845 ABŞ dolları təşkil edirdi. 2000-ci ildən 2005-ci ilə kimi fondun gəlirləri 5,78% səviyyəsində olmuşdur. Fondun vəsaitlərinin yatırıldığı portfelin tərkibinə ABŞ şirkətlərinin səhmləri (35%), ABŞ istiqrazları (25%), digər ölkələrin istiqrazları (22%), daşınmaz əmlak (10%) və digər investisiyalar (8%) daxildir[1].

Alyaskanın stabilləşmə fondu yeganə missiyanı yerinə yetirir: yerli əhalinin buranı sərt iqlim şəraitinə görə tərk etməsinin qarşısını onların sosial rifahının yüksəldilməsi hesabına almaq. Hər il bu şimal ştatının sakinləri fonddan nağd şəkildə 1000 ABŞ dolları alır. Buna baxmayaraq fondun vəsaiti son illər heç də azalmamışdır.

Çilinin Mis Sabitləşmə Fondu 1985-ci ildə valyuta məzənnəsinin və büdcə gəlirlərinin sabitləşdirilməsi məqsədilə yaradılmışdır. Onun gəlirlərinin formalaşması mexanizmi aşağıdakı kimidir: hər il Çilinin Maliyyə Nazirliyi misin hədəflənən baza qiymətlərini təyin edir. Əgər real ixrac qiyməti onu üstələyirsə, bu halda gəlirlərin artıq hissəsi büdcədən Fonda köçürülür. Xüsusiyyət ondan ibarətdir ki, bu qaydalar yalnız dövlət mis şirkətinə münasibətdə tətbiq edilir və mahiyyətcə onun üçün əlavə vergi kimi çıxış edir. Hökumət bu vasitələrdən yalnız misin qiymətinin baza qiymətindən aşağı olduğu hallarda istifadə edə bilər. Fondun vəsaitləri xarici borcun ödənilməsinə benzinin qiymətlərinin

---

[1] Bax: The Economist, 10.11.2005.

subsidiyalaşdırılmasına yönəldilir. 2006-cı ilin əvvəllərində Fondda 1 mlrd ABŞ dollarından artıq vəsait yığılmışdır[1].

Venesuelada Makroiqtisadi Sabitləşmə Fondu 1998-ci ildə, neftin dünya qiymətləri 1 barelə görə 8-9 ABŞ dollarına kimi düşdüyü zaman, mərkəzi hökumətin, regionların hakimiyyət orqanlarının büdcələrinin və dövlət neft şirkətinin gəlirlərinin sabitləşdirilməsi üçün yaradılmışdır. Əvvəlcə fondun vəsaitlərlə doldurulması meyarları kifayət qədər sərt müəyyən edilmişdir: əgər neftin dünya qiyməti normativi (1 barel üçün 14,7 ABŞ dolları) üstələyirsə, bu halda hər növbəti dollar fonda köçürülür. Daha sonra fondun gəlirlərinin formalaşması sxemi dəyişdirilərək aşağıdakı kimi müəyyənləşdirilmişdir: son 5 ildə neft qiymətlərindən irəli gələrək büdcənin və neft şirkətlərinin büdcələrinin baza gəlirləri hesablanır və baza ölçüsündən artıq olan bütün daxilolmalar fonda yönəldilir. Resurslar fonddan yalnız həmin ildə neft ixracından əldə edilən gəlirlər baza səviyyəsindən aşağı olduğu, yaxud fondun resursları göstərilən beşillik orta səviyyənin 80%-dən artıq təşkil etdiyi halda götürülə bilərdi. Son halda artıq resurslar dövlət borcunun ödənilməsində istifadə edilir[2].

Omanda nefti 1967-ci ildən hasil etməyə başlamışlar. Bu ölkədə 1980-cı ildə Dövlət Ümumi Ehtiyat Fondu, 1993-cü ildə isə, əlavə olaraq, Neft Fondu yaradılmışdır. Burada əsas məqsəd – zaman keçdikcə neft sektorundan daxil olan azalmaqda olan gəlirləri əvəzləməkdir, çünki proqnozlara görə neft resurslarının tükənməsi təxminən 15-20 ildən sonra baş verəcəkdir. Fondun yaradılmasının digər məqsədi gələcək nəsillər üçün əmanətlərin yığılması kimi bəyan edilir, lakin Fondun vəsaitləri çox vaxt xarici təcrübələrdə meydana gələn büdcə kəsirinin aradan qaldırılması üçün istifadə edilirdi. Fonddan vəsaitlər maliyyə və enerji resursları üzrə Şuranın təqdimatı əsasında Nazirlər Kabinetinin

---

[1] Bax: www.opec.ru/1337777.html

[2] Bax: Основные направления единой государственной денежно-кредитной политики на 2006 год.

qərarı ilə ayrılır. Fondun fəaliyyətini tənzimləyən qaydalar dəfələrlə dəyişdirilmişdir. İlk dövrlərdə Fonda bütün neft gəlirlərinin 15%-i köçürülürdü. 1986-cı ildə bu 5%-ə kimi aşağı salındı, 1989-cu ildən isə neftin bir barrelinə görə 15 ABŞ dollarlıq qiyməti üstələyən bütün gəlirlər Fonda köçürülməli idi[1].

Norveç dünyada neft pullarından daha səmərəli istifadə təcrübəsinə malik olan bir ölkə kimi daha çox diqqəti cəlb edir. Qeyd edək ki, Şimal dənizinin dayaz sularında neft və təbii qazın geniş ehtiyatları 50 il bundan öncə kəşf edilmişdir. 1965-ci ildə Böyük Britaniya və Norveç dəniz akvatoriyasının milli sektorlara bölüşdürülməsi haqqında razılaşmanı imzalamışlar.

Norveç iqtisadiyyatı həm təsərrüfatın yüksək texnologiyalı sahələri hesabına, həm də inkişaf etmiş ixracyönümlü neft və qaz sənayesi hesabına inkişaf edir. Norveç xarici ticarətdən güclü asılı olan ölkələr sırasına aiddir. Norveç iqtisadiyyatının güclü sahələrindən olan alüminium sənayesi tamamilə xarici xammala əsaslanır, lakin onun məhsulu bütünlükdə ixrac olunur. Norveç hasil edilən neftin 90%-ni, təbii qazın isə az qala hamısını, tədarük edilən və süni yetişdirilən balıqların 90%-ni ixrac edir. Avtomobillərə, maşınqayırma məhsullarına, təyyarələrə, məişət texnikasına, bir çox sənaye avadanlığına, istehlakçıların mallara və ərzağa olan ehtiyacları isə tamamilə idxal hesabına təmin edilir. Norveçin xarici borcu mövcud deyil, o xalis xarici kreditor ölkədir. 2009-cu ilin məlumatlarına əsasən onun qızıl-valyuta ehtiyatlarının həcmi 35 mlrd ABŞ dollarından artıqdır.

Norveçdə Dövlət Neft Fondu 1990-cı ildə yaradılmışdır. Hökumət fondu iki problemlə (əhalinin qocalması və neft hasilatının həcminin azalması) üz-üzə qaldıqda yaratmaq qərarına gəldi. O, həm makroiqtisadi sabitləşdirmə, həm də “gələcək nəsillər fondu” rolunu yerinə yetirir. Norveçin Neft Fondu iki funksiyanı yerinə yetirir: sabitləşdirici və əmanət. Fondun vəsaitlərlə doldurulması qaydası hökumət tərəfindən müəyyənləşdi-

[1] Bax: http://www.forbes.ru

rilir və hər il parlament tərəfindən təsdiq olunur, buraya dövlət büdcəsinin neft gəlirlərinin təxminən yarısı qədər vəsait daxil olur. Hələ 2006-cı ilin əvvəlində fonda 220 mlrd ABŞ dolları (ÜDM-in 75%-i) vəsait yığılmışdır.

İlkin mərhələdə Fondun vəsaitlərinin təxminən 46%-i səhmlərə, digər hissəsi isə istiqrazlara yatırıldı[1].

Yaradılmış olan alternativ fondlarda məqsəd nədən ibarətdir? Bu fondlar hansı prinsiplər əsasında fəaliyyət göstərirlər?

Alternativ fondların yaradılmasında məqsəd ondan ibarətdir ki, müəyyən dövr keçəndən sonra təbii ehtiyatlardan gələn gəlirlər azalarsa, ölkənin iqtisadiyyatını təmin etmək mümkün olsun və digər sahələrdəki balansın pozulmasının qarşısı alınsın. Belə fondların yaranması digər inkişaf etmiş ölkələrin həmən ölkələrə inamını artırır.

Sabitləşmə Fondları dövlət büdcəsinin gəlir və xərclərinin artıb-azalmasında bir növ tənzimləyici rolu oynayır. Hətta bəzi ölkələrdə ekoloji tarazlığın bərpasına da xidmət edir.

Azərbaycanda Dövlət Neft Fondu yaradıldıqdan sonra Beynəlxalq Valyuta Fondunun təkidi ilə büdcədə tarazlığın qorunması üçün 2003-cü ildən etibarən Sabitləşmə Fondu da fəaliyyətə başlayıb. Hazırda Azərbaycanda qanunvericilik əsasında dünya bazarında neftin qiymətinin artımı nəticəsində əldə olunan əlavə gəlirlərin (daxili topdansatış qiymətləri ilə ixrac qiymətləri arasındakı fərqdən əldə olunan vəsaitin) 25 faizi bu fonda, yerdə qalan vəsaitin isə ARDNŞ-nin sərəncamında saxlanılması nəzərdə tutulub. Azərbaycanda Sabitləşmə Fondu ixrac vergisinin hesabına formalaşır.

**Bəzən belə görüntü yaranır ki, bu fondların yaradılmasında məqsəd təbii ehtiyatlarla zəngin ölkələrin iqtisadiyyatı üçün səciyyəvi olan korrupsiyanın aradan qaldırılmasıdır. Lakin bəzi ölkələr təbii ehtiyatlardan istifadə etmələrinə baxmayaraq, uzun illər istismarı və yoxsulluğu azaltmır, iqtisa-**

[1] Bax: www.rosinvest.com/novosti/220538

**diyyatın sabit inkişafını təmin edə bilmir. Fondların yaradılmasının müsbət cəhəti odur ki, ölkəyə daxil olan gəlirlərin idarə edilməsində, toplanmasında və xərclənməsində şəffaflığı təmin edə bilir. Bu da son nəticədə səmərəsiz xərclərin qarşısının alınmasına və korrupsiyanın aradan qaldırılmasına gətirib çıxarır.**

2006-cı ildə Azərbaycan Respublikasının Prezidenti qeyri-neft sektorunun inkişafı, bu sahədə mövcud olan müəssisələrin maddi və texnoloji bazasının yeniləşdirilməsinə investisiya qoyuluşunun təşviqi məqsədilə «Azərbaycan İnvestisiya Şirkəti» Açıq Səhmdar Cəmiyyəti yaradılması haqqında sərəncam imzaladı.

Şirkətin məqsədi və vəzifəsi texniki və iqtisadi baxımdan əsaslandırılmış, biznes layihələrinin hazırlanmasıdır. Potensial investorlar müəssisələr üzrə bu layihələrin həyata keçirilməsinin maliyyələşməsinə cəlb olunmalıdır.

Şirkətin ilkin nizamnaməsinə kapital Dövlət Neft Fondunun hesabına formalaşdırılırdı. Bu şirkət dövlətin strateji maraqlarından çıxış edir. Lakin gələcək üçün düşünmək lazımdır ki, neft pulları qurtarandan sonra həmin şirkətin maliyyə məsələləri necə həll olunacaq?

**Bəzi iqtisadçılar böyük layihələrin maliyyələşdirilməsində neft pullarından istifadə edilməsini məqsədəuyğun hesab etmirlər. Bu onunla əsaslandırılır ki, bu problem vaxtilə Nigeriya, İndoneziya və Venesuelada da yaranıb. Ona görə də neft pulları ilə həyata keçirilən investisiya layihələrini reallaşdırmaq üçün tədricən yeni pul mənbələri müəyyənləşdirilməlidir. Əks-təqdirdə bunun mənfi cəhətlərini gələcəkdə hiss etməli olacağıq.**

**Neft gəlirləri hesabına iqtisadi artıma nail olan bəzi ölkələrin inkişaf xüsusiyyətlərində ümumi cəhətlər çoxdur və onlar müəyyən nailiyyətlər əldə edə biliblər:**

1. Bu ölkələr uzun tarixi təcrübəyə malikdirlər və bu səbəbdən də artıq dünyanın ən inkişaf etmiş ölkələri sırasındadırlar.
2. Belə ölkələrdə formalaşmış idarəetmə sistemi mövcuddur.

3. Bu ölkələrdə artıq dünyada qəbul edilmiş yüksək demokratiya və gəlirlərdə yüksək şəffaflıq mövcuddur.

Dünya neft ölkələrində neft biznesi ilə sanki hakimiyyətə yaxın dairələrlə əlaqədar müəyyən qrupdan başqa heç kəs məşğul ola bilməz. Dünyanın çox ölkələrində belədir. Bu mənada neft siyasətdir.

Neftin qiymətinin tələb və təklifdən asılı olmayaraq dəyişməsi baş verərsə bu hallarda da neft siyasi bir alət olur. Tarixi təcrübə göstərir ki, neft iqtisadiyyatda həmişə təkcə mənfəətlilik amili əsasında deyil, müəyyən siyasi amillər əsasında inkişaf etmişdir. Nəticədə dünyada, hətta neft siyasəti adlanan bir siyasət formalaşmışdır. Vaxtı ilə M.Ə.Rəsulzadə əsərlərinin birində öz dövrü üçün bu siyasətin əsas konturlarını müəyyən etmişdir. Fikrimizcə, bu gün də Azərbaycan gerçəkliyində neftin həm siyasi və həm də iqtisadi vasitə kimi düzgün dərk olunmasına ehtiyac vardır.

**Adətən təbii ehtiyatlarla zəngin ölkələrdə sosial-psixoloji vəziyyət mürəkkəb olur. Belə ölkələrdə əhali təbii ehtiyatlardan gələn gəlirlərdən özləri üçün nə isə gözləyir. Əhalinin yoxsul təbəqəsi daha çox nəyə isə ümid bəsləyir. Onlar belə güman edirlər ki, dövlət bu gəlirlərdən onlara xüsusi pay ayıracaq və onların sosial vəziyyəti yaxşılaşacaq.**

Təbii ehtiyatların iqtisadiyyata təsir gücü makroiqtisadi dinamika və artım sürəti ilə bağlıdır. Məlum olduğu kimi respublikamızda «Əsrin müqaviləsi» bağlanandan bir neçə il sonra Azərbaycan neft satışından gəlir əldə etməyə başlayıb. O dövrdən başlayaraq neft hasilatında dinamik artım müşahidə olunur. Əgər 1995-ci ildə Azərbaycanda 9,2 mln. ton neft hasil olunmuşdursa, 2000-ci ildə bu 14,1 mln ton, 2005-ci ildə 22,2 mln ton, 2006-cı ildə 32,3 mln ton, 2007-ci ildə 42,6 mln ton, 2008-ci ildə 44,5 mln ton, 2009-cu ildə 50,4 mln ton, 2010-cu ildə 50,8 mln ton, 2011-ci ildə 45,6 mln ton olub. Qaz hasilatı isə 2005-ci ildə 5,7 milyard kub.m., 2006-cı ildə 9,1 milyard kub.m., 2007-ci ildə 16,8 milyard kub.m., 2008-ci ildə 23,4 milyard kub.m., 2009-cu

ildə 23,6 milyard kub.m., 2010-cu ildə 26,3 milyard kub.m., 2011-ci ildə isə 25,8 milyard kub.m. olub.

Kolumbiya Universitetinin professoru, Nobel mükafatı laureatı Cozef Stiqlits yazırdı: «Təbii ehtiyatlarla zəngin ölkələrdə yoxsulluq və bərabərsizlik daha çox müşahidə olunur. Əlbəttə, bu məsələ Azərbaycanı daha çox narahat edir. Belə ki, hesablamalara görə Azərbaycanın ancaq yaxın 20 ildə böyük neft ehtiyatlarına malik olacağı gözlənilir. Əgər vəsaitlər düzgün xərclənməzsə, Azərbaycanın gələcəyi qeyri-müəyyən görünür (axı bu, digər resurs yönümlü ölkələrdə olduğu kimi «Holland sindromu»na səbəb ola bilər). «Holland sindromu» zamanı milli valyutanın möhkəmlənməsi baş verir ki, bu da milli məhsulların analoji idxal məhsullarına nisbətən rəqabət qabiliyyətinin zəifləməsinə səbəb olur. Bu problem Azərbaycan üçün aktualdır, belə ki, kommunizmdən bazar iqtisadiyyatına keçid zamanı ölkədə ÜDM-in həcmi azalmış və yoxsulluq artmışdır. Buna görə də neft sektorunun inkişafı qeyri-neft sektoruna zərbə vurur və işsizliyin artımına yönəlmiş hər bir addım ölkə üçün bədbəxtlik gətirir. Bax buna görə də neft ölkə üçün yeni imkanlar açmır, sadəcə çətinliklərdən çıxış rolunu oynayır»[1].

Tədqiqatdan belə nəticəyə gəlmək olur ki, neftlə zəngin ölkələr iqtisadiyyatlarını daimi və sabit saxlamaq üçün qeyri-neft sektorunu inkişaf etdirməlidirlər. Bunun üçün yeni zavodlar, fabriklər, müəssisələr və s. açılmalıdır. Kənd təsərrüfatını inkişaf etdirməlidirlər. Məsələ ondadır ki, Azərbaycan sosial bazar iqtisadiyyat yolu ilə inkişaf edir. Belə şəraitdə yeni müəssisələr dövlət tərəfindən yaradıla bilməz. Amma bu o demək deyil ki, dövlət tamamilə bu prosesdən kənarda durmalıdır.

Dövlətin borcu və vəzifəsi ölkədə bazar iqtisadiyyatının sosial model mühitini yaratmaqdır. Bunun üçün isə islahatların aparılması labüddür və dövlət müəyyən qanunların qəbul edilməsi ilə bunu sürətləndirər və şərait yarada bilər.

---

[1] Bax: “525-ci qəzet”. 4 fevral 2006-cı il.

Neft Fondundakı vəsaitin hansı istiqamətlərə ayrılması ciddi məsələdir. Bu gələcəyi nəzərə alaraq vəsaitin hansı istiqamətdə xərclənməsinin səmərəliliyi strategiyasının əsasını təşkil etməlidir. Əslinə baxanda Azərbaycanda qeyri-neft sektorunun inkişafı üçün bütün şərait mövcuddur. Respublikamızın maşınqayırma, xüsusilə neft-maşınqayırma sənayesini, elektrotexnika, metallurgiya, kimya, yeyinti və yüngül sənaye sahələrini, kənd təsərrüfatını hərtərəfli inkişaf etdirmək olar. Artıq respublikamızda bu sahədə mühüm işlər görülür. Bu sahələri həm regional, həm də beynəlxalq səviyyədə genişləndirmək lazımdır. Respublikamızda böyük əmək ehtiyatları mövcuddur və bu da əmək tutumlu sahələri inkişaf etdirməyə imkan verir. Neftdən gələn gəlirlər hesabına bu sahələri inkişaf etdirmək mümkündür. Belə olan halda «Holland sindromu»ndan söhbət gedə bilməz. Əks-təqdirdə bu xəstəlik bizdən də yan keçməz.

**Deyilənlərdən aşağıdakı nəticələrə gəlmək olar:**

1. Ehtiyat fondları o ölkələrdə yaradılır ki, onların büdcələri xammallarını satarkən dünya qiymətlərindən güclü asılılığı mövcuddur. Digər tərəfdən, bir çox ölkələr sərvətlərinin gələcəkdə tükənəcəyini nəzərə alaraq vəsaitlərini belə fondlarda toplayırlar.
2. Ehtiyat fondu iki funksiya yerinə yetirir. Birincisi, onun vəsaitləri əlverişsiz şəraitdə dövlət büdcəsi kəsirinin ləğvi üçün istifadə edilə bilər. İkincisi, xammala yüksək qiymətlər qoyulduğu dövrdə, fond ixracdan daxil olan artıq vəsaitləri yığmağa və iqtisadiyyatda "Holland sindromu"nun inkişaf etməsinin qarşısını almağa imkan verər.
3. Sırf iqtisadi məsələlərdən başqa, ehtiyat fondu dövlət xərclərinin sürətli artımının qarşısının alınması üzrə siyasi vəzifəni də yerinə yetirir. Dövlət xərclərini, bir qayda olaraq, gəlirlərin azalmasının ardınca operativ ixtisar etmək mümkün deyil. Nəticədə, münasib olmayan dövrlərdə bu dövlət büdcəsinin böyük həcmdə kəsirinə, vəd olunmuş sosial öhdəliklərin ye-

rinə yetirilməməsinə və dövlət borcu üzrə müflisləşməyə gətirə bilər. Bu kimi fəsadlar iqtisadiyyat üçün daha dağıdıcıdır, nəinki dövlət büdcəsi həcminin özünün tərəddüdləri.

4. Ehtiyat fondlarının yaradılmasının zəruriliyi diskussiyalı məsələdir. Bir sıra iqtisadçı və siyasətçilər hesab edirlər ki, pulları ehtiyatda saxlamaqdansa, onları ölkənin gələcəyinə xidmət edən idxal satınalmaları üçün istifadə etmək daha effeklidir: məsələn, patent və avadanlıqların alınması, tələbələrin xaricdə təhsil alması xərclərinin ödənilməsi və s.

5. Ehtiyat fondlarının vəsaitləri müstəsna olaraq xarici aktivlərdə (Alyaska ştatı üçün - bu ştatdan kənardakı aktivlərdə) yerləşdirirlər. Bunun səbəbləri ondan ibarətdir ki, fond, əgər onun vəsaitləri ölkənin daxilində yerləşdirilərsə, milli iqtisadiyyatın vəziyyətindən asılı olmayan ehtiyat funksiyasını yerinə yetirə bilməz. İqtisadi böhranlar dövründə milli valyuta və milli qiymətli kağızlar qiymətdən düşə bilər və əgər fondun vəsaitləri milli aktivlərdə yerləşdirilibsə, bu halda onun da kapitallaşması aşağı düşəcəkdir. Bundan savayı, bu halda fondun vəsaitləri milli valyutanın sabitləşdirilməsi funksiyasını yerinə yetirə bilməyəcəkdir. Həmçinin onlar inflyasiyanın artmasına səbəb olacaqdır.

6. Ehtiyat fondlarının vəsaitlərini etibarlı qiymətli kağızlara və aktivlərə yerləşdirirlər. Bu bir qayda olaraq, inkişaf etmiş ölkələrin dövlət öhdəlikləri və etibarlı şirkətlərin səhmləridir. Dövlət öhdəliklərinin, məsələn istiqrazların əldə edilməsi zamanı yüksək etibarlılıq, lakin aşağı gəlirlilik təmin edilir. Səhmlərə yatırım zamanı isə gəlirlilik artır, amma etibarlılıq azalır.

# VIII FƏSİL

# NEFT GƏLİRLƏRİ: FORMALAŞMASI VƏ İSTİFADƏNİN STRATEGİYASI

## 8.1. Neft gəlirlərinin ontologiyası və təzadlı xarakteri

Təbii ehtiyatlarla zəngin ölkələrdə əgər idarəetmə aparatı güclüdürsə, əldə edilən gəlir yüksək iqtisadi artım sürətinin daimi xarakter almasına, dövlətin iqtisadi qüdrətinin yüksəlməsinə müsbət təsir göstərir.

Dünyada təbii ehtiyatlarla zəngin olan 51 ölkə var. Təbii ehtiyatlarla zəngin o ölkə hesab olunur ki, orada Ümumi Daxili Məhsulun 25%-dən çoxu məhz təbii ehtiyatların istismarından əldə olunur. Azərbaycanda yanaşı sahələrlə birlikdə bu rəqəm 10%-dir. Azərbaycan təbii sərvətlərlə zəngin ölkələr sırasına daxildir.

Tədqiqatçıların fikrinə görə Azərbaycanda neft kortəbii şəkildə min ildən artıqdır ki, çıxarılır. Neftin satılması isə 1848-ci ilə təsadüf edir. O zaman Balaxanıdakı neft yatağındakı quyu fontan vurmuş və bu tarixi hadisəyə çevrilmişdir. Hesablamalara görə Azərbaycanda bu günə qədər təqribən 1,6 mlrd tondan çox neft çıxarılıb. Bunun 500 mln tondan artığı dənizdəki yataqların payına düşür. Bunun 20 faizi ölkənin öz daxili tələbatının ödənilməsinə sərf edilib. Yerdə qalan hissəsi əvvəlcə Rusiyanın, sonra isə SSRİ-nin sərəncamında olub. Mütəxəssislərin hesablamalarına görə Azərbaycana öz ehtiyaclarını ödəmək üçün ildə 10 milyon ton xam neft lazımdır. Tarixən Azərbaycanda ən çox neft 1941-ci ildə çıxarılıb. O zaman neft hasilatı 23,4 mln ton olub[1].

İtaliyanın «Eni» korporasiyasının hazırladığı hesabata görə Azərbaycanın 7 milyard barel təsdiqlənmiş neft və 1,35 milyard kubmetr qaz ehtiyatları var. Bu məlumatlar Britaniyanın BP şirkətinin hesablamaları ilə demək olar ki, üst-üstə düşür. Hesabatda eyni zamanda göstərilir ki, dünyada ən çox neft ehtiyatı

---

[1] Qeyd: Müstəqillik dövründən əvvəlki illər nəzərdə tutulur.

Səudiyyə Ərəbistanındadır – 266,8 milyard bareldir. Bu göstərici İranda – 138,4, Rusiyada – 60, Qazaxıstanda isə 30 milyard barel təşkil edir. Dünyada ən çox qaz ehtiyatı Rusiyadadır – 47,8 trilyon kubmetr. İran – 26,8, Türkmənistan – 2,9, Qazaxıstan isə – 1,9 trilyon kubmetr mavi yanacaq ehtiyatına malikdir.

Müasir dövrdə neftin qiyməti tələbatdan asılı olaraq gah artır, gah da aşağı düşür. Neftlə zəngin ölkələrdə iqtisadiyyat düzgün tənzimlənməyəndə hasilat sahələrindəki sürətli artım istər-istəməz emal sənayesinin inkişafına da mənfi təsir göstərir. Bu da emal sənayesində ümumi daxili məhsulun payının aşağı düşməsinə gətirib çıxarır. Buna səbəb isə sənayenin nisbətən böyük həcmdə olmasıdır. Digər tərəfdən bu sahədə struktur mürəkkəbdir, texnika müasir tələblərə cavab vermir və bütövlükdə səmərəli deyil. Emal sənayesinin bu cür zəif inkişafı ölkənin digər istehsal sahələrinə də mənfi təsir göstərir. Bunu Azərbaycan timsalında təhlil etsək onda təbii olaraq belə bir sual meydana çıxar: Azərbaycanda sənaye sahələrinə investisiya qoyuluşu nə üçün zəifdir? Nə üçün iri müəssisələrin özəlləşdirilməsi prosesi ləng gedir? Cavab isə aydındır, ona görə ki, investorların sənayeyə qoyduqları hər bir manatdan əldə etdikləri gəlir neft sektoruna və ticarətə qoyulan hər bir manatın gəlirindən azdır. **İnvestorlar heç bir zaman az gəlir gətirən sənaye müəssisələrinə vəsait qoymaqda maraqlı deyillər. Çünki investorları ölkənin iqtisadiyyatının inkişafından çox, özlərinin şəxsi gəlirləri maraqlandırır. Tarixən də belə olub, kapitalist öz kapitalını daha tez gəlir gətirən sahələrə qoyub. Bu isə müasir dövrdə enerji daşıyıcıları, xüsusən də ticarət sahələridir. Bu, sahibkarların tarixən xarakterik xüsusiyyətidir. Neft və ticarət sahələri elədir ki, az bir müddətdə qoyulan vəsaiti çıxarmaq imkanına malikdir.**

Ekspertlərin rəyinə görə Azərbaycanda neft ehtiyatlarının perspektivləri daha böyükdür. Əgər yeni yataqların istismarı nəzərdə tutulmazsa belə, hər il təxminən 40 milyon ton neft çıxarmaq imkanı var. Bu isə 100 il neftlə təminat deməkdir.

Azərbaycanın təsdiq edilmiş qaz ehtiyatları 2,6 trln kubmetrdir.Vaxtilə, akademik Azad Mirzəcanzadə müsahibələrinin birində yazırdı: «Xruşşov dövründə Azərbaycan neftini ümumiyyətlə «bağlamaq» istəyirdilər. Guya ki, çıxarmaq səmərəsizdir. Sonra balaca bir detal aydınlaşdı: burada elə yüksək keyfiyyətli yağlar var ki, SSRİ-də heç bir başqa neft vermir. Neftimizi indi də, ümumiyyətlə, yaxın gələcəkdə də «bağlamaq» müyəssər olmayacaq. Onun həmişə dünya bazarında layiqli yeri olacaq. Özü də təkcə yüksək keyfiyyətinə görə yox, həm də Azərbaycanın çox əlverişli geopolitik vəziyyətini nəzərə almaq lazımdır»[1].

Neft istehsal edən ölkələrdə yataqların kəşfi ilə əlaqədar olaraq bonus da əldə edirlər. Bonus-perspektiv sahənin aşkar edilməsinə və yataqda kəşfiyyat aparılmasına xərclənən vəsaitlərin dövlətə kompensasiya olan birdəfəlik ödənişidir. Bonusların ölçüsü faydalı qazıntıların kəşf edilmiş ehtiyatlarının dəyəri ilə və həmin yataqların sahələrinə olan tələblə müəyyən edilir[2].

**Ölkədə təkcə neftin zəngin olması, çıxarılması əsas şərt olsa da, onun səmərəli formada reallaşdırılması iqtisadiyyatda mühüm əhəmiyyətə malikdir. Daha çox gəlir əldə etmək üçün hansı sərfəli infrastrukturdan istifadə edilməsi**

---

[1] Bax: «Azərbaycan» qəzeti. 31 oktyabr 1999-cu il.

[2] Bax: А.В.Корнеев, В.И.Соколов. Современное состояние добывающих отраслей и энергетики США. «США Канада: - Экономика. Политика. Культура». Журнал. 2007. № 12, с. 25.

Qeyd: Bonus – kontrakt sahəsindən istifadə hüququna malik olmaq üçün verilən haqq deməkdir. Beynəlxalq təcrübədə mineral resursların hasilatında tətbiq edilən ödəmələr, məsələn, royaltı, vergilər, icarə haqqı və s. arasında bonuslar xüsusi yer tutur. Bonuslar mükafat xarakterli birdəfəlik ödənişlər olmaqla, dövlətin gəlirlərinin cüzi bir hissəsini təşkil edir. Buna görə də ona müqavilədə dövlət gəlirlərinin artırılmasına yönəldilmiş əlavə müddəa kimi baxılır. Bonuslar bir və ya bir neçə mərhələdə ödənilə bilər. Adətən belə mükafatlar müqavilələr imzalananda, kəşfiyyat mərhələsi başa çatdıqda, ilkin hasilat baş tutduqda ödənilir. (Bax: Z.S.Abdullayev, G.Z.Yüzbaşova. Qısa izahlı terminlər. Bakı.: «Nurlan» . 2007, s. 53).

**dünya neft ölkələrini həmişə düşündürən problemlərdən olmuşdur.**

Müasir dövrdə neft nəqlinin ən səmərəli və təhlükəsiz forması boru kəməri hesab olunur. Bakı – Tbilisi – Ceyhan neft boru kəməri Xəzərlə Aralıq dənizi arasında ilk və Türkiyə boğazlarından yan keçən birbaşa nəqliyyat xəttidir. Bu boru kəməri güclü texnikaya söykənən dünyada nadir infrastrukturlardan biridir. Kəmərin köməyi ilə dünya bazarı gündə 1 milyon barel xam neftlə təmin ediləcək.

Bakı – Tbilisi – Ceyhan neft boru kəməri vasitəsilə ilə 20-25 milyon ton Qazaxıstan neftinin nəql olunması da nəzərdə tutulmuşdur.

Ümumiyyətlə, hərtərəfli təhlil etsək görərik ki, Azərbaycanın və Gürcüstanın taleyi TRASEKA, «Qars – Axalkalaki – Bakı», «Bakı – Ceyhan – Tbilisi» neft kəməri, «Bakı – Tbilisi – Ərzurum» qaz kəməri kimi qlobal energetika və kommunikasiya layihələrindən asılıdır.

Bakı – Tbilisi – Ceyhan ixrac boru kəmərinin uzunluğu 1770 kilometrdir. Dəyəri isə 5 milyard dollardan artıqdır[1]. Kəmər Xəzər dənizindən Aralıq dənizinə qədər 3 min metr hündürlüyündə dağlardan, 1500 çay keçidindən və 7 seysmik zonadan keçir.

BTC sadəcə olaraq texniki deyil, daha çox iqtisadi-siyasi, geostrateji məqsəd daşıyan qlobal bir layihədir.

---

[1] Qeyd: Kəmərin ilkin qiyməti 3 milyarda yaxın nəzərdə tutulsa da sonradan tikinti xidmətlərinin qiymətinin yüksəlməsi və bank kreditinin faizi nəzərə alınmışdır. Ona görə də nəticədə xərclər 5 milyard dollardan artıq olmuşdur. Bütün bunlara səbəb neftin dünya bazarında qiymətinin o zaman yüksəlməsi idi.

Digər artıma səbəb Gürcüstanda və Türkiyədə tikinti zamanı əlavə xərclərin meydana çıxması olmuşdur. Gürcüstanda Borjomi dərəsində ekoloji təhlükəsizliklə bağlı tikinti 45 gün dayandırılmışdır. Bunun nəticəsində təbiəti mühafizə işləri üçün 100 mln dollar xərclənmişdir ki, bütün bunlar tikinti başlanarkən nəzərdə tutulmamışdır.

XX əsrin 90-cı illərinin əvvəllərində Türkiyə Xarici İşlər Nazirliyinin müstəşarı (nazirlik aparatının rəhbəri) olmuş Özdəm Sanberk Bakı – Ceyhan neft kəməri ideyasını ilk dəfə olaraq irəli sürmüş və layihənin ilkin inkişaf mərhələlərini şərh etmişdir. Onun söylədiyinə görə «bu proyektin fikir babaları mərhum Turqut Özal və Elçibəy olub».

Vaxtilə başqa bir məşhur türk diplomatı Mehmet Əli Bayar isə maraqlı bir tarixçəni yada salmışdır. Mehmet Əli Bayar Türkiyənin Bakıdakı səfirliyində işləmişdir. O, 1992-ci ildə baş vermiş hadisəni belə xatırlayır:

«Bir gün prezident Elçibəy səfir Altan Karamanoğlu ilə məni yanına çağırdı. Əlini xəritəyə uzadaraq gələcəkdə Azərbaycan neftinin ixrac olunacağı marşrutu göstərdi. Bildirdi ki, neft Ermənistandan keçməklə Türkiyənin Ceyhan limanına çatdırılacaqdır, bunu Turqut Özala da deyin». Biz Bakı-Ceyhan barədə ilk dəfə ondan eşitdik. «Niyə Ermənistan?» sualını verdikdə isə dedi ki, həm Azərbaycan, həm də Ermənistan «xalqlar həbsxanası»nda bir yerdə olublar. «İndi Azərbaycan Rusiya əsarətindən qurtulub. Ermənistan isə hələ də Rusiyanın əlindədir. Onun fikrincə, nə qədər ki, Ermənistan Rusiyanın buxovundadır, regionda sabitlik yaranmayacaq, Ermənistanı xilas etməyin və sabitliyə nail olmağın yeganə yolu isə İrəvanı da bu proyektə qoşmaqdır»…

Bu da bir reallıq, həqiqət idi. Ancaq zaman öz işini gördü. Siyasi hadisələr neft nəql edilməsi istiqamətini dəyişdi.

Təbii ehtiyatlarla zəngin olan ölkələrin dövlət büdcəsi xərclərinin çox hissəsi onlardan gələn gəlirlər hesabına maliyyələşdirilir. Ölkəyə daxil olan bu vəsaitlər xarici valyuta deməkdir. Bu da valyuta bazarına iri həcmdə valyuta kütləsinin daxil olması ilə nəticələnir. Belə halda ölkədə milli pula olan tələbin əhəmiyyətli dərəcədə artımı hiss olunur. Bunun müsbət və mənfi cəhətləri ola bilər. Müsbət cəhəti odur ki, ölkənin valyutası möhkəmlənir. Mənfi tərəfi isə inflyasiyanın sürətini yüksəldir. Bu cür halların qarşısını almaq üçün ölkədə makroiqtisa-

di sabitlik yaratmaq lazımdır. Makroiqtisadi sabitlik iqtisadi təfəkkürün yüksək səviyyəsi çərçivəsində mümkündür.

Bəzi ölkələr isə yanacağın qiymətini qaldırmaqla büdcə daxilolmalarını artırır. Əgər son məqsəd büdcə kəsirini aradan qaldırmaq və büdcəni artırmaqdırsa, onda belə siyasət yeritməkdənsə iqtisadiyyatın reallığını, dinamikliyini qorumaq üçün vergilər vasitəsilə büdcəni artırmaq daha məqsədəuyğundur.

Lakin nəzərə almaq lazımdır ki, o ölkədə ki, gizli iqtisadiyyat mövcuddur, azad sahibkarlıq, rəqabət mühiti, sabitlik yoxdur, inhisarçılıq, rüşvətxorluq və korrupsiya baş alıb gedir orada makroiqtisadi sabitlikdən danışmağa dəyməz. **Ümumiyyətlə, iqtisadiyyatının əsas hissəsini təbii ehtiyatlar təşkil edən ölkələrdə iqtisadi və sosial sahədə inkişafı təmin etmək üçün bir sıra şərtlərə əməl olunmalıdır:**

**Birincisi,** təbii ehtiyatlardan yaranan fondlardan dövlət büdcəsinə yönəldilən vəsaitlərə müəyyən məhdudiyyətlər qoyulmalıdır. Fondlardan dövlət büdcəsinə ayırmalar heç zaman dövlət büdcəsinin gəliri kimi göstərilməməlidir.

**İkincisi,** dövlət büdcəsinə ayrılan vəsaitlər hökmən makroiqtisadi inkişafa sərf olunmalıdır.

**Üçüncüsü,** paralel surətdə rəqabətə davamlı, lakin təbii ehtiyatlardan asılı olmayan sahələri daim inkişaf etdirmək lazımdır.

**Dördüncüsü,** infrastruktur layihələrinin maliyyələşdirilməsi dövlətin əsas məqsədi olmalıdır.

**Bütün bunlara nail olmaq üçün, ölkəyə axan külli miqdarda vəsaiti idarə etmək bacarığına malik yeni insan təfəkkürü formalaşdırılmalıdır. Elə bir insan ki, hətta təbii nemətlərdən asılı olmayaraq qazanc əldə etmək qabiliyyətinə malik olsun. Öz ölkəsindən xarici ölkələrə gedəndə qul kimi yox, mütəxəssis kimi işləyə bilsin. Bu gün artıq dünya iqtisadiyyatında iqtisadi artım nəzəriyyələrində əsas diqqət insan amilinə verilib.**

**Dünya xəritəsinə nəzər salsaq asanlıqla görmək olar ki, təbii ehtiyatlarla zəngin olan ölkələr (təəssüflə qeyd etmək lazımdır ki, xüsusilə böyük üstünlük müsəlman ölkələrinin üzərinə düşür) inkişaf etmiş ölkələrin xammal bazasına çevrilib. Əslində belə ölkələr sözdə və öz Konstitusiyalarında müstəqildirlər. Ona görə də belə ölkələr çalışmalıdırlar ki, iqtisadiyyatın bütün sahələrini inkişaf etdirsinlər.**

Tarixdə neftin ən baha qiyməti 1883-cü ildə olub, bir barel[1] 82 dollar olub.

1970-ci ildə neft ixrac edən ölkələrin təşkilatı (OPEK) neftin dünya qiymətini qaldırmaq haqqında qərar qəbul etdilər. Bu da istehsalçı dövlətlərin gəlirlərini kəskin artırdı. Neftin qiymətinin qaldırılmasının əsas üsulu neftçıxaran ölkələrin əlaqələndirilmiş şəkildə satışa çıxarılan neftin miqdarını məhdudlaşdırılması olmuşdur. 1973-cü ildən 1974-cü ilə qədər olan müddətdə neftin qiyməti (inflyasiya hesaba alınmaqla təshih olunmuş) 50%-dən çox artmışdır. Bir neçə ildən sonra 1980-cı ildə 34% və 1981-ci ildə isə yenə də 34% yüksəlmişdir, ancaq OPEK ölkələri gördülər ki, neftin qiymətini yüksək həddə saxlamaq onu qaldırmaqdan daha çətindir. 1982-1985-ci illərdə neftin qiyməti ildə 10% azaldı. Bir vaxtlar sıraları sıx olan OPEK üzvləri arasında inamsızlıq yarandı. 1986-cı ildə onların birgə fəaliyyətlərini əlaqələndirmək mümkün olmadı və neftin qiyməti 45% aşağı düşdü, 1990-cı ildə neftin qiyməti (inflyasiyanın ümumi səviyyəsi nəzərə alınmaqla təshih olun-

[1] Qeyd: Barel – ingiliscədən tərcümədə kiçik çəllək deməkdir. ABŞ və Böyük Britaniyada həcm (maye) vahiddir.

İngilis dilli başqa ölkələrdə (Avstraliya, Kanada, Yeni Zelandiya və s.), həmçinin müsəlman ölkələrində (Pakistan, Səudiyyə Ərəbistanı, Birləşmiş Ərəb Əmirlikləri, İordaniya, Yəmən və s.) çəki vahidi kimi istifadə olunur.

ABŞ-ın neft bazarında bir barel 158,76 litrdir, İngiltərədə isə 163,65 litrdir. ABŞ-da 119,24 litr, həmçinin barel hesab olunur.

1 ton neft orta hesabla 6,24 bareldir.

muş) 1970-ci ilin səviyyəsinə qayıtdı və 1990-cı illər ərzində qorunub saxlanıldı[1].

1970-1980-ci illər, neft qiymətinin ən yüksək olduğu birinci onillikdir, onun istehsalı Norveçdə 7 dəfə, Hollandiyada 2,5 dəfə, Böyük Britaniyada isə demək olar ki, 2 dəfə artmışdır[2].

1998-ci ildən bəri neftin bir barelinin qiyməti 13 dollardan 149 dollara qədər qalxıb[3].

İqtisadi ədəbiyyatda və mütəxəssislərin proqnozlarında neft qiymətlərinin belə sıçrayışlı yüksəlişi nəzərdə tutulmamışdır. Belə yüksək artım nəinki inkişaf etməkdə olan ölkələrə, hətta sivil ölkələrə, o cümlədən Amerika iqtisadiyyatına da ciddi zərbə vura bilər. Hələ o zaman İ.Başmakov yazırdı ki, ABŞ iqtisadiyyatı neftin qiymətinin qaldırılması zamanı az əziyyət çəkir. Həqiqətən, BVF-nin proqnozlarına uyğun olaraq, 2006-cı ildə ABŞ-ın ÜDM-i Avropa İttifaqı ölkələrinə nisbətən xeyli çox olmalı idi. Proporsiyaların dəyişməsinin sabit diapozunu çərçivəsinə qayıtmaq üçün neftin qiyməti 2007-ci ildə 50-65 dollara (1 barel), 2008-ci ildə isə 30-40 dollara (1 barel) düşməli idi. Əgər 2006-cı ildə o daha yüksək qiymətlə artarsa, onda bu 2007-2008-ci illərdə onun kəskin surətdə artmasına gətirib çıxaracaqdır. İnflyasiyaya təshih edil-

---

[1] Bax: Menkyu N.Q. Ekonomiksin prinsipləri. 2-ci nəşr – "Ali məktəblər üçün dərslik" – seriyası / rus dilindən tərcümə. Bakı: "İqtisad Universiteti" nəşriyyatı. 2009, s. 121-122.

[2] Bax: С.Гуриев, К.Сонин. Экономика «ресурсного проклятия». «Вопросы экономики». Журнал. 2008. № 4, с. 63.

[3] Qeyd: Neftin 1 barelinin dünya bazarlarındakı qiyməti 1970-ci ildə 1,2 dollar, 1973-cü ildə 11 dollar, 1996-cı ildə 17-22,3 dollar, 1997-ci ildə 14,9-15,2 dollar, 2008-ci ilin yay aylarında 149 dollar, sentyabrda 94, noyabr ayında isə 45 dollar, dekabrda isə 35 dollar olmuşdur. Əks proses də baş verir. Qorxulu məqam ondan ibarətdir ki, 1997-ci ildə dünya bazarında yaşanan böhran hələ də yaddaşlardan çıxmamışdır. Belə ki, dünya bazarında neftin 1 barelinin birdən-birə enərək 10 dollara düşməsi, neft ixrac edən digər ölkələr kimi (daha çox Rusiyanı) Azərbaycanı da çətin vəziyyətə salmışdı.

miş neftin proqnoz qiyməti 1980-ci il pik səviyyəsinə çatmayacaqdır[1].

Dünya iqtisadiyyatını təhlil etməli olsaq görərik ki, təbii ehtiyatların, xüsusilə də enerjidaşıyıcılarının sürətlə bahalaşması prosesi gedir və dayanmır.

Dünya bazarında neftin bahalaşması neft məhsullarının qiymətindən də yan keçməyibdir. Dünyanın ən çox yanacaq istehsalçısı olan Çində neft məhsulları 18 faiz, Hindistanda 11, Vyetnamda isə 31 faiz bahalaşıbdır.

2012-ci ildə dünya ölkələrində 1 litr Aİ - 95 benzin Norveçdə – 2,42 dollara, Almaniyada – 2,4 dollara, İtaliyada – 2,27 dollara, Hollandiyada – 2,25 dollara, Yunanıstanda – 2,22 dollara, Böyük Britaniyada – 2,15 dollara, Belçikada – 1,99 dollara, Avstriyada – 1,8 dollara, Braziliyada – 1,6 dollara, Macarıstanda – 1,55 dollara, Yaponiyada – 1,54 dollara, Avstraliyada – 1,5 dollara, Kanadada – 1,28 dollara, Sinqapurda - 1,23 dollara, Çində - 1,04 dollara, Rusiyada – 0,91 dollara, Qazaxıstanda – 0,86 dollara, Azərbaycanda – 0,41 dollara satılıb.[2] .

**Məsələ yalnız benzinin qiymətinin hansı həddə olmasında deyil. Reallıq ondadır ki, həmin ölkədə yaşayan vətəndaş ailə büdcəsinin neçə faizini benzinə xərcləyir.**

Dünyanın bir sıra, xüsusilə də inkişaf etmiş ölkələrində innovasiya texnologiyası günü-gündən yüksəlir. Xüsusilə də Çində, Hindistanda və digər Asiya ölkələrində, Qərbi Avropada və ABŞ-da enerjiyə tələbat gündən-gündə artır. Bütövlükdə isə dünyada qlobal iqtisadi artım sürətlənməkdədir. Hələ ki, bu inkişafın qarşısını almaq üçün heç bir mexanizm yoxdur.

Dünya təcrübəsinə əsaslanaraq iqtisadçılar göstərir ki, qiymətlər çox kövrək və dəyişkəndir. Bu artım gələcəkdə nəyə

---

[1] Bax: И.Башмаков. Цены на нефть: пределы роста и глубины падения. «Вопросы экономики». Журнал. 2006. № 3, с. 41.

[2] Bax: http://au95.org/price/

Qeyd: 2013-cü ilin dekabrından Azərbaycanda benzinin 1 litrinin qiyməti Aİ-92 – i 70 qəpik, Aİ – 95 isə 80 qəpik oldu.

aparıb çıxaracaq, səbəbi nədir? Proqnozlar vermək çətin və hətta risklidir. Vaxtı ilə, XX əsrin 70-ci illərin sonuna yaxın İranda qiymətlər qəfildən yüksəlib və qalxdığı kimi də sürətlə aşağı düşməyə başlayıb. Lakin 2007-ci ildən başlayaraq İran hökuməti əhaliyə satılan avtomobil yanacağının satışına məhdudiyyət qoymağa başladı. Yəni müəyyən həcmdən artıq əhaliyə yanacaq satılmasına qadağa qoyuldu. Nəzərdə tutulduğundan artıq benzin işlədən sürücülər əlavə pul ödəməlidir. İqtisadi nöqteyi-nəzərdən və bazar iqtisadiyyatının qanunlarına görə belə tədbirlər məqbul hesab edilə bilməz və məqsədəuyğun deyil. Digər tərəfdən nəzərə almaq lazımdır ki, İranla ABŞ arasında son illərdəki gərginliklər və ABŞ-ın İran neftinə embarqo qoyması bu cür addımlar atılmasına gətirib çıxarmışdır.

**Təbii ehtiyatlarla zəngin ölkə olmaq hələ çox şey demək deyildir. Həmin sərvətlərdən əldə edilən gəlirlərdən səmərəli istifadə etmək iqtisadi yüksəlişə aparıb çıxara bilər. Əks təqdirdə son nəticədə ölkə dilənçilik və korrupsiya ilə üzləşməli olur. Elə siyasət yeridilməlidir ki, təbii ehtiyatların bir hissəsi gələcək nəsillərə qalsın, onlara yalnız borc və dağıntılar qoyub getmək olmaz.**

Neft Fondunun vəsaitlərinin istifadəsi ilə bağlı hər bir dövlətin strategiyası olmalıdır. Azərbaycan hökumətinin hazırladığı strategiyaya görə neft gəlirlərinin 25 faizi gələcək nəsillərə saxlanılacaq, 75 faizi isə xərclənəcəkdir. Beynəlxalq Valyuta Fondu gələcək nəsillərə saxlanılacaq göstəricinin çox az olduğunu qeyd edir. Vəsaitlərin istifadəsi istiqamətinə nəzər yetirsək görərik ki, sosial layihələrin müəyyənləşdirilməsi daha çox üstünlük təşkil edir.

Neftdən gələn gəlirləri gələcək nəsillərə istər daxildə və istərsə də xaricdə valyuta formasında saxlayarkən nəzərə almaq lazımdır ki, istənilən valyutanın alıcılıq qabiliyyəti sabit deyil. Hadisələr göstərir ki, hər an onun aşağı və yuxarı artıb-enmə ehtimalı var. Bu günün dolları ilə dünənin dollarının alıcılıq qabiliyyəti tamamilə fərqlənir. Ona görə də qeyri-neft sektorunu

inkişaf etdirmək üçün çox ciddi layihələr həyata keçirilməsi məqsədəuyğundur.

Bütün dünyada Nigeriya variantı öz çılpaqlığı ilə yadda qalan və təbii ehtiyatlarla zəngin ölkələri düşündürən bir nümunə olmalıdır. Belə ki, Nigeriyada qeyd etdiyimiz kimi, milyardlarla dollar əldə olunmasına baxmayaraq ölkənin 60 faizi yoxsulluq həddində yaşamağa məhkum edilmişdir. Dünyanın məşhur neft şirkətləri Nigeriya neftini inhisara alaraq ölkənin iqtisadiyyatını iflic vəziyyətə salmışlar. Onlar yalnız öz gəlirlərini artırmaq haqqında düşünür və ona görə də əhali son dərəcə müflisləşmişdir. Bundan bütün təbii ehtiyatları zəngin olan ölkələr nümunə götürməli və öz siyasətlərini elə qurmalıdırlar ki, gələcəkdə belə hallara düçar olmasınlar.

Əslinə qalanda sağlam dövlət elə bir siyasət yeritməlidir ki, neft gəlirlərindən bütün cəmiyyət üzvləri xeyir götürə bilsin. Əhalinin ayrı-ayrı təbəqələrinin gəlirlərinin artması bütövlükdə ölkə iqtisadiyyatının inkişafı demək deyildir. 2007-ci ildə Oksford və Kembric Universitetləri «Dünyanın ən xoşbəxt ölkələri»ni müəyyənləşdirmək üçün araşdırma aparıblar. Xoşbəxtlik indeksi əhalinin gəlirləri, təhsil səviyyəsi, qidanın keyfiyyəti, seçim azadlığı, gender bərabərliyi əsasında hazırlanıb. Siyahıya Danimarka başçılıq edib. ABŞ – 17-ci, Yunanıstan – 42-ci, Türkiyə – 67-ci pillələrdə qərarlaşıblar. Siyahıda sonuncu yerləri isə Tanzaniya, Zimbabve kimi Afrika ölkələri tutub.

2011-ci ildə isə "Forbes" jurnalı ən xoşbəxt və bədbəxt ölkələrin siyahısını tərtib etmişdir.

Ən xoşbəxt ölkələr: Norveç, Danimarka, Avstriya, Yeni Zelandiya, İsveç, Kanada, Finlandiya, İsveçrə, Hollandiya və ABŞ-dır.

Ən bədbəxt ölkələr: Mərkəzi Afrika Cümhuriyyəti, Zimbabve, Efiopiya, Pakistan, Yəmən, Sudan, Nigeriya, Mozambik, Keniya, Zambiya olmuşdur.[1]

[1] Bax: xeber.azeri.net

Neft gəlirlərindən səmərəli istifadə edə bilməyən ölkələrdən biri də Venesueladır. Venesuelada neft yataqlarının 30 illik istifadəsindən 260 mlrd dollar həcmində gəlir götürülmüşdür. Bəs bundan necə istifadə edilmişdir? Venesuela iqtisadiyyatı birtərəfli inkişaf etmişdir. Xarici ticarət dövriyyəsində neft və neft məhsulları aparıcı rol oynayır, qeyri-neft sahələri iflic vəziyyətinə düşmüşdür.

Anqola da eyni vəziyyətlə üzləşib. Göründüyü kimi, ölkənin iqtisadi və siyasi cəhətdən düzgün idarə edilməməsi qeyri-neft sektoruna investisiya qoyuluşunun səmərəli variantının seçilməməsi ağır nəticələrə gətirib çıxarır.

**Hansı ölkədə ki, neft gəlirləri müəyyən bir qrupun əlindədir və onların varlanmasına xidmət edir və bunu siyasi sabitliyin saxlanması və öz hakimiyyətlərinin qorunması üçün istifadə edirlər, deməli, onlar üçün iqtisadiyyatın qalan sahələri xüsusi maraq doğurmur. Məlumdur ki, dünyadakı neft ölkələrinin hamısında əməkhaqqı iqtisadiyyatın digər sahələrindəkinə nisbətən yüksəkdir. Ona görə də ixtisaslı kadrlar bu sahəyə daha çox meyillidir. Belə olan halda qeyri-neft sektoruna maraq azalır. Dövlət bu prosesi də tənzimləməlidir. Əks-təqdirdə balans pozular və gələcəkdə bu proses ağır nəticələrə aparıb çıxara bilər. Bunu gələcək nəsillər hiss edəcəkdir. O zaman isə çox gec olacaq və təəssüf hissi ilə qarşılamalı olacaqlar.**

Lakin elə ölkələr də var ki, neft gəlirlərindən səmərəli istifadə etməklə dünya neft ölkələrinə nümunə ola bilərlər. Belə ölkələrdən biri ön cərgədə olan Norveçdir. Norveçin neftdən əldə etdiyi gəlir tədqiqat apardığımız dövrdə 150 milyard dollar olmuşdur. Bu da ÜDM-in 77 faizini təşkil edirdi. Burada söhbət yüksək gəlir əldə edilməsindən deyil, həmin vəsaitin əhalinin sosial-iqtisadi istiqamətinə yönəldilməsi səviyyəsindən gedir. Buna görə də heç də təsadüfi deyildir ki, BMT-nin İnkişaf

Qeyd: Hər il aparılan tədqiqatlarda bu ardıcıllıq dəyişilir.

Proqramının məruzəsində göstərilib ki, Norveç artıq neçə illərdir ki, yaşayış üçün ən sərfəli ölkələrin siyahısında birinci yeri tutur. Norveç indi də dünyanın ən varlı dövlətlərindən biridir[1].

Beynəlxalq statistikaya görə Norveç dünyada adambaşına düşən səhiyyə xərclərinə görə birinci yerdədir. Hər bir Norveç vətəndaşı il ərzində dövlət hesabına 3 min dollarlıq tibbi yardımdan istifadə edir. Ölkədə dövlət vətəndaşların sosial dayağıdır və ona görə də 1,5 milyon nəfər Norveç vətəndaşı dövlətin sosial yardımları hesabına yaşayır. İki milyon Norveç vətəndaşı birdəfəlik sosial müavinətlə təmin edilir. Norveç Pensiya Fonduna da malikdir. Pensiya Fondunun aktivləri 300 milyard dolları ötüb keçmişdir. Buna baxmayaraq ölkədə avtomobil və dəmir yollarının inkişafı aparıcı ölkələrdən geridə qalır. Nə üçün? Ona görə ki, dövlət gəlirlərinin xərclənməsinə ehtiyatla yanaşır. İqtisadi dillə desək, israfçılığın nəticələri bəzən gözlənilən xeyirdən çox olur. Sakit Sabançı demiş, iqtisadiyyat azğın ata bənzər, üzərində durmaq hünər istər. Burada Vilyam Şekspirin sözləri də yada düşür, **qənaət edən insan zəngindir. Bütün bunları dövlət haqqında da demək olar.**

Müqayisə üçün qeyd edək ki, BMT-nin İnkişaf Proqramına daxil olan 117 dövlətin adının yer aldığı siyahıda ilk yerləri ardıcıl olaraq İslandiya, Avstraliya, İrlandiya, İsveçrə, Kanada, Yaponiya və ABŞ tutur. Siyahının sonunda isə Nigeriyadır.

Müsbət nümunələr sırasında Küveyt, Qətər, BƏƏ, Səudiyyə Ərəbistanı və digər ərəb ölkələri müasir inkişaf səviyyəsinə məhz neft gəlirləri hesabına nail olublar. Onlar da hərtərəfli deyil, lakin çoxcəhətli iqtisadi yüksəliş əldə edə biliblər.

Ərəb ölkələrində də neft fondları var və bundan əhalinin həyat səviyyəsinin yüksəldilməsində müxtəlif formalarda (müxtəlif məqsədlər üçün) istifadə edilir. Nümunə üçün bir sıra ölkələrin inkişafını təhlil edək.

---

[1] Bax: С.Гуриев, К.Сонин. Экономика «ресурсного проклятия». «Вопросы экономики». Журнал. 2008. № 4, с. 67.

**Səudiyyə Ərəbistanı**. Ölkənin adı Səudilər sülaləsinin adından götürülmüşdür. İdarəetmə forması – mütləq monarxiyadır. Dövlət başçısı – kraldır. Ərazisi – 2150000km$^2$-dir. Əhalisi – 28 mln nəfərdir (2011-ci ildə).

- Təhsil və səhiyyə xidməti pulsuzdur.
- Kənd təsərrüfatı ilə məşğul olmaq istəyənlərə böyük imtiyazlar nəzərdə tutulur.
- Sosial ödəmələrə təxminən 30-35 milyard dollar pul xərclənir.
- Gənc və çoxuşaqlı ailələrə dövlətin xüsusi qayğısı var.
- Anadan olan uşağa görə 10 min dollar pul verilir.
- Təhsilini yeni bitirən hər bir şəxsə özünə iş yeri tapana qədər normal dolanmaq üçün 13 min dollar pul verilir.
- Hər bir vətəndaşa 80 min dollar müavinət verilir və geri alınmır.

**Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ).** Dövlət quruluşu – monarxiya üsul-idarəsi ilə 7 subyektdən ibarət federasiyadır (əmirliklərdir). Dövlət başçısı – prezidentdir. Ərazisi – 83657 km$^2$-dir. Əhalisi – 8,2 mln nəfərdir (2010-cu ildə).

- Ölkədə hər 55 nəfərdən biri milyonçudur.
- Təhsil və səhiyyə pulsuzdur.
- Vətəndaşlar kommunal xərclərdən azaddır.
- Hər bir vətəndaş dövlətin hesabına dünyanın istənilən universitetində təhsil ala bilər. Təhsil aldığı ölkədə tibbi xidmətlərə görə xərclər də BƏƏ büdcəsindən ödənilir.
- Bütün yeni evlənənlər dövlətdən 19 min dollar faizsiz kredit alır. Lakin birinci uşaq doğulan kimi kredit bağışlanır. Bundan əlavə, hər qurulan ailənin hesabına dövlət 100 min dollar köçürür. Bu ölkədə üçüncü uşağın doğulmasından sonra isə ailənin bütün kredit borcları bağışlanır.
- Nikaha daxil olanlara dövlət 80 min dollara yaxın yardım edir. Bundan əlavə, BƏƏ-nin Nikah Fondu evlənənlərə (yerli vətəndaşlara) 20 min dollar məbləğində faizsiz kredit və torpaq verir.

- İşləmək istəyən hər bir vətəndaş yüksək əməkhaqqı ilə təmin olunur. Minimum əməkhaqqı 3000 dollardır. Sənayedə çalışanların əməkhaqqı isə 8000 dollardan artıqdır.
- 35 yaşına qədər ailə qurmayan qadınlara dövlət maliyyə cəhətdən yardım etməyi özünə borc bilir.
- Boşanan və dul qadınlar da dövlətin xüsusi qayğısını üzərində hiss edir.
- Ölkə varlanmağa başlayandan hər bir adama "ayağa durması" üçün 400 min dollar pul ayırmışdır.
- Polisdə və orduda xidmət edənlər bütövlükdə dövlətin hesabına yaşayır.
- Maddi vəziyyət o qədər yüksəkdir ki, hətta bəzi ərəblər imtiyaz və uşaq pulundan imtina edir.
- BƏƏ-də hər bir vətəndaş doğulduğu gündən ömrünün sonuna kimi dövlətin himayəsini hiss edir.

**Küveyt.** Ərəbcədən el-kuveyt - "qala-şəhər" deməkdir. İdarəetmə forması – konstitusiyalı monarxiyadır. Dövlət başçısı əmirdir. Ərazisi – 17819 km$^2$ -dir. Əhalisi - 2,8 mln nəfərdir (2011-ci ildə).

- Ölkə öz vətəndaşına dünyada ən yüksək həyat səviyyəsi və sosial təminat yaradıb.
- Küveytdə 2 min şahzadə yaşayır və büdcədən bunlar üçün külli miqdarda vəsait ayrılır. Əhalidə bu narazılıq doğurmur, çünki adi vətəndaşlara da büdcədən lazımi dərəcədə vəsait ayrılır.
- Təhsil pulsuzdur. Xaricdə oxumaq istəyən vətəndaşın dövlət bütün xərclərini ödəyir.
- Tibb pulsuzdur. Vətəndaşın xaricdə müalicəsi zəruridirsə, dövlət təmənnasız bunu da yerinə yetirir.
- Əhali elektrik enerjisi, su və telefon haqqından azaddır.
- Qiymətlər çox ucuzdur.
- Hər bir vətəndaş bankdan ev tikmək, evlənmək və sosial tələbatlarını ödəmək üçün faizsiz kredit götürə bilər. Bankdan götürülən pul üçün heç bir zəmanət tələb olunmur. Məsələn, öl-

kədə hər bir vətəndaş ev tikmək üçün əvəzsiz olaraq 80 min dollar faizsiz, uzun müddətə isə 220 min dollar pul götürə bilər.

- 3500 dollardan aşağı əməkhaqqı yoxdur. Sənayedə çalışanlar təxminən 9000 min dollar əməkhaqqı alır.
- Subay tələbələr 700, ailəlilər isə 1200 dollar təqaüd alır.
- Uşaq dünyaya gələn kimi onun adına bankda 3 min dollar məbləğdə hesab açılır. Əgər uşağın ailəsinin banka borcu varsa, onun böyük hissəsi bağışlanılır.
- Adambaşına düşən avtomobillərin sayına görə dünyada birincidir.
- Hər bir ölkə vətəndaşına ən azı iki mühacir xidmət edir. Bunların əksəriyyəti fəhlə, sürücü, süpürgəçi, liftçi və s. işləyir.
- Küveyt əmiri Sabah - əl – Əhməd əl – Cabir əs – Sabah 2011-ci ildə dövlət büdcəsindən 4 milyard ABŞ dollarının ölkə vətəndaşları arasında paylanması haqqında sərəncam imzaladı. Bu ölkənin dövlət müstəqilliyinin 50 illik yubileyi, Küveytin İraq işğalından azad olmasının 20-ci və indiki əmirin hakimiyyətə gəlməsinin 5-ci ildönümü ilə əlaqədar hədiyyə idi. Hər bir Küveyt vətəndaşı bayram hədiyyəsi olaraq büdcədən 1000 Küveyt dinarı (3572 dollar) almışdır. Küveyt əmiri eyni zamanda 14 ay (fevral 2011-aprel 2012) ərzində ölkə vətəndaşlarına ərzaq mallarını pulsuz paylamış və pulsuz ərzaq mallarını almaq üçün vətəndaşlara xüsusi kuponlar verilmişdir.

**Liviya.** Liviya Ərəb Sosialist Xalq Cümhuriyyəti yerli tayfalardan biri – livunun adından götürülüb. İdarəetmə forması – respublikadır. Rəhbər orqan – inqilabi rəhbərlikdir.

Demokratik mübarizəyə qədər:

- 6,5 milyon əhalisi, dövlət büdcəsi 32 milyard dollar olmuşdur.
- Həyat səviyyəsi yüksək olmuşdur.
- Təhsil və səhiyyə pulsuz idi. Xarici ölkələrdə təhsil almaq istəyənlərin təhsil xərclərini dövlət ödəyirdi.
- Vergi yox idi.
- Əhali elektrik enerjisi və ev pulundan azad olmuşdur.

- Apteklərin əksəriyyətində dərmanlar pulsuz verilirdi. Dərmanları saxtalaşdıranları isə ölüm hökmü gözləyirdi.
- 1000 dollardan aşağı əməkhaqqı yox idi. Əməkhaqqından əlavə ərzaq xərclərini ödəmək üçün hər ailəyə 400 dollar pul verilirdi.
- Hər ailənin bir aylıq ərzaq xərcləri 85 dollar idi.
- Hər bir ailə ildə 1000 dollar əlavə pul alırdı.
- İşsizliyə görə müavinət 750 dollar idi.
- Hər doğulan uşağa görə dövlət ailəyə 7000 dollar pul verirdi.
- Evlənən cütlüklərə dövlət ev almaq üçün 64 min dollar hədiyyə edirdi. Bu pula isə 150 kvadratmetrlik bütün şəraiti olan ev almaq olardı.
- Şəxsi biznes açmaq istəyənlərə dövlət 20 min dollar maddi yardım edirdi.
- Çoxuşaqlı ailələr üçün simvolik qiymətlərlə ərzaq dükanları şəbəkəsi fəaliyyət göstərirdi.
- Avtomobil və ev almaq istəyənlər məbləğin 50 faizini ödəyir. Digər məbləği ödəməyi dövlət öz üzərinə götürürdü.
- Benzin sudan ucuz idi – 0,14 dollar.
- Çörəyin bir kiloqramı isə cəmi 4 sentə satılırdı.

**Oman.** Oman – şəhərin banisi Oman ben – İbrahimin adından götürülüb. İdarəetmə forması – mütləq monarxiyadır. Dövlət başçısı – Sultan, bütün qanunverici və icra hakimiyyəti səlahiyyətləri onundur. Ərazisi – 212460 km$^2$ – dir. Əhalisi – 2,8 mln nəfərdir (2011-ci ildə).

- Qiymətlər çox ucuzdur.
- Sosial göstəricilərinə görə inkişaf etmiş ölkələrlə bir sırada dayanır.
- Orta aylıq əməkhaqqı 6000 dollardır.

**Qətər.** Qətər qədim Qadari kəndinin adındandır. İdarəetmə forması – mütləq monarxiyadır. Dövlət başçısı - əmirdir. Ərazisi – 11586 km$^2$-dir. Əhalisi – 1,7 mln nəfərdir (2010-cu ildə).

- Təhsil və səhiyyə pulsuzdur.

- Sosial sahədə: kommunal xidmətləri, təqaüd və müavinətlər, əhali üçün bir çox imtiyazlar mövcuddur.
- Orta aylıq əməkhaqqı yüksəkdir. Sənayedə çalışan fəhlələrin əməkhaqqı 7500 dollar həcmindədir.

**Bəhreyn.** Bəhreyn ərəbcə "bahari" sözündədir. – "dəniz" deməkdir. İdarəetmə forması – konstitusiyalı monarxiyadır. Dövlət başçısı - əmirdir. Ərazisi – 750 km$^2$ –dir. Əhalisi – 1,2 mln nəfərdir (2011-ci ildə).

- Həyat səviyyəsinə və iqtisadi artıma görə varlı ərəb ölkələri arasında öndə gedənlərdəndir.
- Təhsil və səhiyyə pulsuzdur.
- Əhalinin bir çox sahələrdə imtiyazları var.
- Xarici vətəndaşlar da əmlaka sahib ola bilərlər. Başqa ərəb ölkələrində isə qanun buna icazə vermir.

**Türkmənistan.** Türkmənlər xalq etnomindən – "Turk manənd" – türk sifət deməkdir. İdarəetmə forması – respublikadır. Dövlət başçısı – prezidentdir. Ərazisi – 488100 km$^2$-dir. Əhalisi – 5,1 mln nəfərdir (2011-ci ildə).

- İmtiyazlara görə dünyada ilk yerlərdən birini tutur.
- Əhali mənzil-kommunal təsərrüfatı xidmətlərindən və ev pulundan azaddır. Vətəndaşların mənzil-məişət şəraitinin yaxşılaşdırılması ilə əlaqədar 2008-ci il yanvarın 1-dən etibarən "Prezident bank" 30 yaşına qədər olan vətəndaşlarına ipoteka kreditinin verilməsinə başlamışdır və kredit 30 il müddətinə özü də 1 faizlə verilir.
- Qaz, su və duza görə pul ödənilmir.
- Elektrik enerjisinə limit var. Hər bir ölkə vətəndaşı ayda 35 kvt enerjidən pulsuz istifadə edir. Bundan artıq işlədilən hər 1000 kvt üçün 3,23 dollar ödəməli olurlar.
- Avtomobil sahibləri ayda 120 litr pulsuz benzinlə, yaxud dizellə təmin edilir. Avtobus və yük maşını sahibləri isə 200 litr pulsuz yanacaq alırlar. Bundan artıq istifadə edənlər A-95 benzinin bir litrini cəmi 16 sentə alırlar.

- Nəqliyyatda gediş haqqı, o cümlədən daxili avtomobil, dəmiryolu və aviaxətlərdə biletlərin qiyməti və çörək pullu simvolik xarakter daşıyır.[1]

Maraqlı bir faktı da göstərmək lazımdır ki, müsəlman dövlətləri dünya karbohidrogen ehtiyatlarının 70%-nin sahibidir. Qeyd etdiyimiz ölkələri çıxmaq şərti ilə digər müsəlman ölkələrində ehtiyatların zənginliyinə baxmayaraq əhalinin 40%-dən çoxu yoxsulluq, səfalət içərisində yaşayırlar. Bunlar siyasətlərini və iqtisadiyyatlarını qura bilməyən ölkələrdir. İqtisadiyyatlarını düzgün inkişaf etdirən neftlə zəngin ölkələr isə nəinki öz əhalisini, hətta kənardan gələnləri də təmin edə bilirlər. Buraya həm daimi iş yerləri ilə təmin olunanları, həm də müvəqqəti yaşayanları aid etmək olar. Mətbuatda maraqlı bir yazı dərc edilmişdir. Bu yazıda göstərilir ki, Asiya ölkələrinin vətəndaşları ərəb ölkələrinə 3-4 günlük turist səfərinə gəlirlər. Hörmətli qonaqlar kimi mehmanxanada məskən salırlar. Turist səfərinin müddəti qurtarandan sonra mehmanxanaları tərk edirlər. Onlar müvəqqəti olaraq qohumlarının və yaxud tanışlarının mənzilinə köçürlər. Cırcındır paltarlar geyərək, dilənmək üçün küçələrə çıxırlar. Turist səfərinin qiyməti 800-900 dollar həcmindədir. Viza isə bir ay müddətinə verilir. Deməli, hələ bunların vaxtına 26 gün qalıb. Bu müddət ərzində hər gün dilənirlər və statistikaya görə bu müddət ərzində 3, 4, 5 min dollar qazanırlar. Putyovkanın qiymətini çıxandan sonra 2,5 – 3 min dollar qazanc əldə edirlər və dəbdəbəli libaslarını geyinərək vətənlərinə dönürlər.

Paradoksa baxın, neftlə zəngin müxtəlif ölkələr və fərqli istifadə metodları.

Neftdən gələn gəlirlərdən istifadə zamanı bəzi ölkələrdə şəffaflıq gözlənilir, digərlərində isə pulların taleyi məlum olmur. Məsələn, müəmmalıdır ki, dünyada ən çox neft çıxaran öl-

---

[1] Bax: Dünya ölkələri . Bakı, 2008, s. 159, 161, 199, 203, 220, 226, 246, 309; "Zerkalo" qəzeti. 12 mart 2011-ci il; "Azadlıq" qəzeti. 8 aprel 2011-ci il.

kələrdən olan Səudiyyə Ərəbistanının külli miqdarda borcu var. Qeyd etdiyimiz kimi burada neft sektorundan başqa digər sahələr çox zəif inkişaf edib. Səudiyyə Ərəbistanı ilə müqayisədə qonşu ərazidə yerləşən cüzi təbii ehtiyata malik olan İsrailin dövlət büdcəsi 100 milyard dolları ötür. İsrail yarımsəhrada qeyri-adi kənd təsərrüfatı kompleksləri yaradıb.

## 8.2. Neft gəlirlərindən səmərəli istifadə yolları

Neftdən gələn gəlirlərin qorunması və səmərəli istifadə olunması neft istehsal edən ölkələr üçün mühüm əhəmiyyət kəsb edir.

Bəs neftdən gələn gəlirlər necə idarə olunmalıdır? Beynəlxalq təcrübə necədir? Bu sahədə standart bir resept yoxdur:

**1.**Neft pullarının bir hissəsinə artıq sınaqdan çıxmış beynəlxalq şirkətlərin səhmlərini almaq olar. Bu səhmlər vasitəsilə həmin şirkətlərin idarə sistemində həm iştirak etmək, həm də gəlirlərindən səhmin həcminə uyğun dividend əldə etmək olar.

10 ABŞ-ın və Avropa ölkələrinin nüfuz qazanmış banklarına pul qoymaq olar və əldə edilən faiz hesabına yeni infrastrukturlar yaratmaq olar. Bu zaman ölkə həm də kənardan gözlənilən təhlükədən sığortalanmış olur. Səudiyyə Ərəbistanı ABŞ hökumətinin qiymətli kağızlarını almaq üçün neft dollarından istifadə edir. Bu qiymətli kağızlardan alınan faizlər Səudiyyə Ərəbistanını orta əsrlərdən çıxmağa və müasir sənaye dünyasına daxil olmağa kömək etmişdir. Eyni zamanda səudiyyəlilər tərəfindən neft dollarlarından alınan faizlər Amerika şirkətlərinin xərclərinin ödənilməsinə sərf olunacaqdır[1].

11 Nüfuzlu banklara qiymətli kağızlar qoymaq olar.

---

[1] Вах: Перкинс Джон. Исповедь экономического убийцы. Предисловие и ред. Русского издания д.э.н., проф. Л.Л.Фитуни. М.: Pretext, 2005, с. 132-133.

12 İnkişaf etmiş ölkələrin istehsal prosesinə, turizminə kapital qoyub, gəlir əldə etmək olar.

13 Qeyri-neft sektoruna kapital qoymaq olar. Bu ilk növbədə özəl biznes sektoru deməkdir. Özəl biznes sektorunun inkişafı təkcə iqtisadi amillərdən deyil, siyasi sistemdə aparılmalı olan islahatlardan da asılıdır.

14 Geostrateji mövqeyinin imkan verdiyi və böyük tranzit ölkəyə çevrilməsi mümkün olan bölgəyə kapital qoyulması vacibdir.

**Müsəlman ölkələrindəki neft sahibkarları isə əldə etdikləri gəlir hesabına ABŞ-da və Avropanın inkişaf etmiş ölkələrində bərli-bəzəkli daşınmaz əmlaklar alır, bəzən isə ticarət qururlar. Bəzən auksionlarda dünyada mənfi və müsbət cəhətləri ilə tanınan insanların hər hansı adi bir əşyasına milyonlarla dollar pul xərcləyirlər. Onların bu addımı iqtisadçılar tərəfindən birmənalı qiymətləndirilmir. Bunu müsbət və mənfi proses kimi səciyyələndirənlər var. Bu ölkələrin neft sahibkarlarına gəldikdə isə hələ ki, narazılıq edən yoxdur.**

Bəzi mənfi xüsusiyyətləri ilə yanaşı ərəb sahibkarları öz ölkələrində də investisiya layihələri həyata keçirirlər və möcüzələr yaradırlar. Səhralarda gözəl, dünyanı heyran edən şəhərlər salmaqla fəxr edə bilərlər. Bu şəhərlər ticarət və turizm mərkəzlərinə çevrilib. Bundan da ərəblər küllü miqdarda gəlir əldə edirlər. Ticarət və xidmət sahələri dünya standartları səviyyəsindədir.

Qətər, Bruney, Küveyt, Oman, Bəhreyn kimi ölkələrdə işçi qüvvəsi çatmır. Xaricdən işçi axını çoxdur. Yerli əhali azlıq təşkil edir. Bu ölkələrdə xaricə qoyulan vəsait hesabına o dərəcədə gəlir əldə edilir ki, bunun hesabına nəinki özlərini, hətta gələcək nəsillərə də yetərincə vəsait qorunub saxlanılır. Onlar neft gəlirləri hesabına elə iqtisadi mexanizm yaradıblar ki, əgər gələcəkdə təbii ehtiyatlar azala və ya tükənə bilərsə, öz qurduqları infrastrukturlar hesabına yaşaya bilsinlər.

Hal-hazırda müasir dünya elə inkişaf edib ki, təbii ehtiyatların çıxarılması, istifadəsi, qiymətləndirilməsi, satılması bazar prinsiplərinə əsaslanır. Bazar prinsiplərinə keçməzdən əvvəl isə bazar subyektlərini buna hazırlamaq lazımdır.

Azərbaycan dövləti xarici neft şirkətləri ilə 26 saziş bağlayıb. Artıq sazişdə göstərilən müddətdə neft çıxarılması həyata keçirildiyinə görə ölkə iqtisadiyyatının neft amilindən asılılığı güclənib.

**Dünya ölkələrinə baxanda respublikamızda gedən bəzi proseslərdə müəyyən suallar meydana çıxır. Neft məhsullarını ölkə daxilində nə üçün dünya qiymətləri səviyyəsində satmalıyıq? Hansı prinsiplərə və yaxud dünya təcrübəsinə söykənirik? Azərbaycanda enerjidaşıyıcılarının qiymətlərinin yüksəldilməsi nə üçün beynəlxalq maliyyə institutlarının, xüsusilə də Beynəlxalq Valyuta Fondunun diktəsi ilə həyata keçirilməlidir?**

BVF ABŞ-ın nəzarətindədir və məqsədi yenicə müstəqillik əldə etmiş ölkələri sanki nəzarətdə saxlamaqdır. Bu fond həmin dövlətləri öz tələblərini yerinə yetirməyə məcbur edir.

BVF-yə üzv olmaq üçün bu və ya digər dövlət ondan tələb edilən informasiyanı verməlidir. Bu, BVF-yə daxil olmağın məcburi şərtidir. Belə ki, BVF-nin Nizamnaməsi üzv olmaq niyyətində olan dövlətlərin üzərinə ondan tələb edilən informasiyanı fonda təqdim etmək vəzifəsini qoyur. Təqdim olunan informasiyaya aşağıda göstərilənlər barədə məlumatlar aiddir:

- qızıl-valyuta ehtiyatı;
- ölkədəki istehsal;
- qızılın ixrac və idxalı;
- ticarətin həcm və istiqaməti;
- ödəniş balansı;
- milli gəlir;
- xaricdəki investisiyanın həcmi;

- digər məsələlər (iqtisadi vəziyyət, pul dövriyyəsi).[1]

BVF ildə 50-60 milyon dollar kredit verməklə, əvəzində işığın, neftin qiymətini qaldırmağı tələb edir. Bəzi ölkələr belə ifrat tələbləri yerinə yetirməkdən imtina edir. Bəzi ölkələr qiymətləri reallığa uyğun olmayan səviyyədə qaldırır. Hətta buna zərurət olsa belə, fikrimizcə, qiymətləri tədricən qaldırmaq lazımdır.

Məsələn, Azərbaycanda ipoteka kreditinin verilməsi haqqında qərar qəbul olunmuşdu. Azərbaycan vətəndaşlarına verilən kredit 8 faiz olsa da sonradan ipotekanın verilməsi dayandırıldı. Dünya ölkələrinin çoxuna nisbətən bu faiz böyükdür. Bunu nəzərə alaraq qərar qəbul olunub ki, ipoteka krediti aşağı faizlə verilsin. Əslinə baxanda ipoteka kreditinin verilməsi neft gəlirlərinin əhaliyə paylanmasının bir yoludur, formasıdır.

**İqtisadi amillər və prinsiplər, dünya təcrübəsi bəzən qalıb bir kənarda, sanki özümüzdən yeni metodlar tətbiq edirik. İqtisadiyyat yaranandan onun çox elementar bir prinsipi var: hansı regionda təbii sərvət və ya həmin yerin xammalından istifadə etməklə məhsul istehsal edilirsə, onun qiyməti başqa yerlərə nisbətən ucuz olmalıdır.** Bizdə isə əksinədir. Bəzən elmi prinsiplərə söykənməyən cılız fikirlər səsləndirilir. Məsələn, guya Azərbaycanda ona görə neftin qiymətini qaldırırlar ki, qonşu ölkələrdə bahadır və gizli yolla onlara daşınır. Əgər, hətta belə bir hal varsa da xaricə nefti kim daşıyır? Bəyəm bizim sərhədimiz yoxdurmu, onu qorumurlarmı? Halbuki ölkənin ehtiyacları ödənildikdən sonra qalan məhsulu xaricə satmaq olar.

Görəsən Yaponiyada elə bir məhsul varmı, özlərini təmin etmədən başqasına satsınlar? Biz isə neftimizi satırıq, yerdə qalanının isə qiymətini qaldırırıq. Bu paradoks deyilmi? Bunun üçün səmərəli bir mexanizm hazırlamaq olmazmı?

[1] Bax: Əliyev E.Ə. Beynəlxalq iqtisadi hüquq .Dərslik. Bakı: "Uni Print" nəşriyyat – poliqrafiya müəssisəsi, 2012, s. 422-423.

2006-cı ildə Hollandiyadan Azərbaycana gələn məşhur araşdırıcı jurnalist Rudi van Meorsin belə bir fikri maraq doğurur və bu haqda düşünməyə dəyər. O, demişdir ki, «Hollandiyada Azərbaycan haqqında o qədər də geniş məlumat yoxdur. Sizin ölkə barədə yalnız onu bilirlər ki, Azərbaycanın olduqca zəngin neft və qaz yataqları var... Neft olduqca qiymətli sərvətdir. Bu sərvət sizə güc verməlidir... İlk dəfə Azərbaycana gələndə bu cür neftlə zəngin olan ölkənin vətəndaşlarının küçədə dilənməsi, tərəvəz satmasını görüb təəccübləndim. Bakıda təxminən bütün dünyanı neftlə təchiz edən istehsal 100 il əvvəl başlayıb. Deməli, burada inkişaf üçün böyük perspektivlər yüz il əvvəl açılıb»[1].

Neft pullarından səmərəli istifadə etmək üçün Azərbaycan hökuməti «Neft və qaz gəlirlərinin idarə olunması üzrə uzunmüddətli strategiya» qəbul edib. Sənəddə neft pullarının xərclənəcəyi 7 istiqamət müəyyən edilib:

– iqtisadiyyatın qeyri-neft sektorunun, regionların, kiçik və orta sahibkarlığın inkişafı;

– infrastruktur sahələrin genişmiqyaslı inkişafı;

– yoxsulluğun azaldılması üzrə tədbirlərin həyata keçilməsi və digər sosial problemlərin həlli;

– iqtisadiyyatın intellektual və texnoloji bazasının yüksəldilməsinin stimullaşdırılması;

– insan kapitalının inkişafı (yüksəkixtisaslı kadrların hazırlanması, o cümlədən xarici ölkələrdə), kadrların peşəkarlıq səviyyəsinin artırılması ;

– ölkənin müdafiə qabiliyyətinin gücləndirilməsi;

[1] Qeyd: Təəssüflə qeyd etmək lazımdır ki, dünyanın bir çox ölkələrində vəziyyət belədir. Hətta bir çox ölkələr Azərbaycanın harada yerləşdiyindən və ümumiyyətlə, belə bir ölkənin olmasından xəbərsizdilər. Son illərin nailiyyətlərini nəzərə almasaq bu fikirlə razılaşmaq olardı. Digər bir tərəfdən bunu bəzi ölkələrdə coğrafiyanı zəif bilmələri kimi də qiymətləndirmək olar.

– azad edilmiş ərazilərin yenidən qurulması və məcburi köçkünlərin doğma yurdlarına qaytarılması ilə bağlı tədbirlərin həyata keçirilməsi.

Qeyd etmək lazımdır ki, bu, strategiyanın istiqamətləri arasındakı bölgü prinsipləri hələ də tam müəyyən olunmayıb.

Qordon Braun İngiltərənin Baş naziri seçiləndən sonra ilk çıxışında söyləmişdir ki, bütün gücümü ilk növbədə təhsil və səhiyyənin inkişafına sərf edəcəyəm.

Böyük Britaniyada müxtəlif peşəli insanların illik gəlirləri orta hesabla aşağıdakı ardıcıllıqla müəyyən olunub: direktorlar və ən iri şirkətlərin rəhbərlərinin – 171 min funt sterlinq[1]; həkimlər – 80 min funt sterlinq; dəllallar – 80 min funt sterlinq; maliyyə menecerləri, iri məmurlar və pilotlar – 60 min funt-sterlinq; orta məktəb müəllimləri – 40,5 min funt sterlinq; jurnalistlər – 32 min funt sterlinq; elektriklər, su kəməri işçiləri – 25 min funt sterlinq; kərpic düzən fəhlələr, təlim keçən sürücülər – 20 min funt sterlinq; barmen və ofisiantlar – 11 min funt-sterlinq; park xidmətçiləri – 10,42 min funt sterlinq.

2004-cü ildə BP Azərbaycan şirkətinin prezidenti Devid Vudvord neft şirkətlərində işləyən azərbaycanlıların əcnəbilərdən az əməkhaqqı almasının səbəblərinə aydınlıq gətirərək göstərmişdir ki, əvvəla bu təbii prosesdir. İkincisi, hər bir işçinin əməkhaqqı onun ölkəsindəki iqtisadi inkişafdan asılıdır. Böyük Britaniyada adambaşına düşən Ümumi Daxili Məhsul Azərbaycandakından 30 dəfə artıqdır. Bu səbəbdən oradan dəvət etdiyimiz mühəndisin əməkhaqqı da yerli mühəndisinkindən 30 dəfə artıq olmalıdır.

D.Vudvod eyni zamanda BP şirkətinin sürücüsünə verdiyi əməkhaqqını Azərbaycan hökumətinin həkim və müəllimlərə verdiyi əməkhaqqı ilə müqayisə etməyi məsləhət bilmişdir.

[1] Ütql : <e hzüzv z qf [ ış bkzv zqz ` . hz v wr f əf nr bv bdt hbkzy ğe kkf h f b t l bkv bh.

D.Vudvordun müqayisəsi iqtisadi nöqteyi-nəzərdən qəbul ediləndir və məqbul fikir kimi dəyərləndirilməlidir.

2012-ci ildə bəzi ölkələrdə orta aylıq əməkhaqqı: İsveçrədə – 3.400, Almaniyada – 3.900, ABŞ-da – 4100, Polşada – 1700, İtaliyada – 3000, İspaniyada – 2800, Yunanıstanda – 2600, Rumıniyada – 1.100, Bolqarıstanda – 900, Yaponiyada – 3.600, Rusiyada – 760, Qazaxıstanda – 600, Azərbaycanda – 450, Ukraynada – 350, Ermənistanda – 330, Moldovada – 300 dollar olmuşdur.[1]

Göründüyü kimi, ölkəmizdə orta aylıq əməkhaqqının səviyyəsi son illər yüksəlib – 450 manat olub (2012-ci ildə). Əslinə qalanda Azərbaycanın təbii ehtiyatlarının zənginliyinə və iqtisadi potensialının, iqtisadi artımının, ÜDM-nin indiki səviyyəsinə görə bu çox da böyük rəqəm deyil. Digər tərəfdən nəzərə almaq lazımdır ki, **əməkhaqqı artmamışdan əvvəl məhsulların qiymətləri yüksəlir. Bu da paradoksdur. Bunu ölkə daxilində tənzimləmək üçün mexanizm hazırlanmalıdır.**

Azərbaycanda orta aylıq əməkhaqqı Avropa ölkələri ilə müqayisədə aşağıdır. Dövlət Statistika Komitəsindən bu barədə verilən məlumata görə, indi ölkədə ən çox əməkhaqqını hasilat sənayesində, maliyyə sektorunda işləyənlər, icarə, kommersiya fəaliyyəti ilə məşğul olanlar, həmçinin tikinti şirkətlərinin əməkdaşları alır[2].

**Daimi olaraq rəsmi statistikada ölkədə orta əməkhaqqının yüksəldiyi göstərilir. Lakin bunun hansı üsullarla hesablandığını müəyyən etmək çətindir. Çox güman ki, ölkədəki orta əməkhaqqının səviyyəsi müxtəlif sahələrdə çalışan insanların aldıqları əməkhaqqının cəmi əsasında müəyyən edilir. Bura həm xarici şirkətdə işləyənlərin, həm dövlət məmurlarının və həm də sadə insanların aldıqları əməkhaqqı**

[1] Bax: http: //bs – life.ru/rabota/zarplata/zarplatav mire 2012.html
[2] Qeyd: hüquq-mühafizə orqanının və bank işçilərinin də əməkhaqqı yüksəkdir.

**daxildir. Bu formada hesablanan orta aylıq əməkhaqqı ədalətsiz hesab olunmalıdır. Çünki xarici şirkətlərdə çalışanların, dövlət məmurlarının əməkhaqqı olduqca yüksəkdir. İstər-istəməz cəmiyyətdə təbəqələşmənin real nümunəsini burada görürük.**

**Əslində reallığı əks etdirmək üçün iki qrup əhali arasında orta aylıq əməkhaqqı hesablanmalıdır. Bunlardan, birinci qrupa yüksək əməkhaqqı alanları, digər qrupa isə orta və aşağı təbəqəni aid etmək olar. Əgər belə olarsa onlar arasındakı yaşayış səviyyəsindəki fərqi asanlıqla görmək olar.**

Əgər, konkret olaraq bəzi məhsulların qiymətlərini dünyanın sivil ölkələri ilə müqayisə etsək, görərik ki, bizdə daha yüksəkdir. Məsələn, Amerika filosofu, psixoloqu və jurnalisti Napoleon Xill yeyinti məhsullarının istehsalından kənarda yerləşən kiçik Amerika şəhərciyində yaşayan 4 nəfərdən ibarət olan ailənin adi səhər qəlyanaltısının təxmini dəyərini hesablayıb.

### Orta amerikalı ailəsinin səhər qəlyanaltısının dəyəri[1] (Hal-hazırda da demək olar ki, rəqəm dəyişməyib)

| | |
|---|---|
| Portağal şirəsi (Floridadan) | 56 sent |
| Tostlar (kanza unundan hazırlanmış çörək) | 19 sent |
| Təzə yumurta (yerli quşçuluq fabrikindən) | 18 sent |
| Süd (yerli süd zavodundan) | 74 sent |
| Şəkər (Yuti və ya Texasdan) | 01 sent |

[1]Bax: Наполеон Хилл. Думай и богатей! Классическое издание, исправленное и дополненное / Наполеон Хилл. – СПб.: Прайм – ЕВРОЗНАК, 2009, с. 169.

| | |
|---|---|
| Qarğıdalı dənəcikləri (Kazansadan) | 44 sent |
| Marqarin (İllinoysadan) | 16 sent |
| | Cəmi – 2.76 dollar |
| Çay (Cindən) | 20 sent |
| Banan (Cənubi Amerikadan) | 28 sent |

Bu cür müqayisələr yerli və xarici iqtisadçılara imkan verir ki, ölkəmiz haqqında mənfi imic yaratsınlar. Ölkə iqtisadiyyatını nizamlayan təşkilatlar, bunu təhlil edib müvafiq nəticələrə uyğun tədbir görməlidirlər.

**Göründüyü kimi, dünya elm və təhsilin üzərində dayanır. Ona görə də birmənalı olaraq neft gəlirlərini elm, təhsil və səhiyyənin inkişafına yönəldilməsi nəinki zərurətdir, həm də vacibdir.** Bu məsələyə yuxarıda göstərdiyimiz 7 istiqamətlərdə birbaşa yox, dolayısı ilə olsa da toxunulub. Bunun zərurət olduğunu sübut etmək üçün bir sıra müqayisələrin aparılması vacibdir.

Ümumdünya Səhiyyə Təşkilatının göstəricilərinə görə Azərbaycanda orta yaş həddi 63,08 ildir. Bu yaş həddi Estoniyada 70,1, Litvada 69,2, Latviyada 69, Belarusda 68,5, Rusiyada 67,5, Ermənistanda 66,59, Ukraynada 66,33, Türkmənistanda 61,1 ildir.

ABŞ-ın əhalisi 250 milyon, Avropa Birliyinin əhalisi isə 430 milyon nəfərdir. ABŞ-da adambaşına illik gəlir 40 min dollar, Avropa Birliyində isə 25 min dollar təşkil edir. Dünyanın qalan 6,5 milyard əhalisi bu iki dövlətlər sisteminin birlikdə istehsal etdikləri məcmu gəlirlərin demək olar ki, yarısını istehsal edirlər.

XVIII əsrdə Pyotr elmi bilik toplamaq üçün minlərlə insanı Avropaya, 1826-cı ildən sonra Türkiyə Sultanı 100-ə yaxın türkü Qərbə təhsil almağa göndərmişdir[1].

[1] Qeyd: son illər Azərbaycanda bu proses çox geniş vüsət alıb.

2005-ci ilin iyulundan Alman Tədqiqatlar Cəmiyyəti hər bir universitetə 5 il ərzində 2 milyard pul ayırmışdır. İntellektual səviyyələrinə görə almanlar digər Avropa xalqlarını üstələyirlər. Sonrakı yerləri hollandlar, polyaklar, isveçlilər, italiyalılar, ingilislər, ispanlar və fransızlar tutur.

Vaxtilə Azərbaycanın enerji sistemi heç yerdə tanınmayan «Barmek»ə verildi. Lakin bu sahəyə maraqlı olan Almaniyanın «Simens» şirkətinin elmi tədqiqatlara 3 milyard dollar ayırması heç kimi maraqlandırmadı. Yaddan çıxarmaq lazım deyil ki, elmə söykənən sahə həmişə gələcək inkişafa meyillidir.

**Əlbəttə tarixi keçmişi olan iri dövlətlərlə Azərbaycanın müqayisəsi və tənqidi, alimlərimizdən dünya səviyyəli çoxsaylı kəşflərin gözlənilməsi də elmi və praktiki cəhətdən ədalətsizlik olardı. Adətən kiçik dövlətlərin (hətta nə qədər varlı olsalar da) potensialı nə qədər güclü olsa da, iri dövlətlərin sisteminə qoşulması və orada müəyyən diqqətəlayiq yer tutması çətin məsələdir. Lakin məqsədimiz dünya elmini mənimsəməkdən, o sistemə qoşulmaqdan və intellektual səviyyəmizi yüksəltməkdən ibarətdir. Bunsuz gəlirlərimizdən səmərəli istifadə edilməsi mənasız görünür. Səviyyəmiz o dərəcədə yüksəlməlidir ki, rüşvətsiz təhsil, elm və digər sahələr inkişaf etsin. Daha kəskin desək, rüşvətsiz Azərbaycan dövləti yaratmaq məqsədə çevrilməlidir. Belə zəngin təbii sərvətləri olan ölkədə, bu bir zərurətə çevrilməlidir, birbaşa məqsəd olmalıdır. Əkstəqdirdə dünyaya çıxışımız mənasızdır.**

### 8.3. Neft gəlirləri və dövlət büdcəsinin formalaşmasında onun rolu

Dünya təcrübəsi göstərir ki, təbii ehtiyatlardan gələn gəlirlər dövlət büdcəsinin sürətlə artmasına gətirib çıxarır. Bir qrup iqtisadçılar bunu müsbət hal kimi qiymətləndirir və ölkədə sosial-iqtisadi vəziyyətin yaxşılaşacağı ilə əlaqələndirirlər. Digər qrup iqtisadçılar isə bunun «Holland sindromuna» gətirib

çıxaracağına və ölkədə inflyasiyanın sürətlənməsinə, artmasına səbəb olmasını əsaslandırmağa çalışmışlar.

Büdcə artdıqca, yığılan pul vəsaitlərinin düzgün, gələcəyi nəzərə almaq şərti ilə xərclənməsi böyük problemdir. Dövlət həmin vəsaitləri çoxsaylı infrastrukturların: məktəblərin, xəstəxanaların, yolların, körpülərin tikilməsinə sərf etməlidir. Bu halda isə şəffaflıq tam gözlənilməlidir. Əks təqdirdə ölkəni korrupsiya bürüyər.

Dövlət büdcəsi nə qədər yüksək faizlə artırsa onu idarə etmək də mürəkkəbləşir və proqnoz vermək çətinləşir.

Neft gəlirləri hesabına dövlət büdcəsinin birdən-birə yüksək faizlə artması XX əsrin 70-ci illərində Səudiyyə Ərəbistanı, Venesuela, İran kimi ölkələrdə baş vermişdir. O zaman bu ölkələrin büdcəsi bir neçə dəfə artdı, az bir müddətdən sonra isə hansı sürətlə artmışdırsa, elə həmin sürətlə də azalmağa başladı.

Bəzi iqtisadçılar büdcə kəsirinin kəskin artımının iqtisadi baxımdan yolverilməz olduğunu söyləyirlər. Dünyadakı neft çıxaran ölkələrin təcrübəsi göstərir ki, büdcə xərclərinin artımına müəyyən limit qoymaq lazımdır, yəni onun kəskin artımının qarşısını nisbətən almaq lazımdır. Çünki nəticədə bu artım inflyasiyaya gətirib çıxara bilər.

Dövlət büdcəsinin artmasından istifadə edən bəzi qurumlar daha çox vəsait əldə etməyə can atırlar. Bu çox qorxulu meyildir. Vaxtilə Nigeriyada da belə bir hadisə baş vermişdir. Nigeriyada neftdən gələn gəlirlər birdən yüksəldi. Neft gəlirlərinin hesabına büdcə xərclərinin illik artımı 70 faizə yüksəlmişdir. Onlar milyardlarla başa gələn layihələr hazırladılar. Lakin onlar dərk etmədilər ki, bir gün gələcək neftdən gələn gəlirlər azalacaqdır. Bu gün həmin proses başlayıb və bütün layihələr başa çatmamış yarımçıq qalıb.

Digər tərəfdən 2007-ci ildə Nigeriyanın büdcə xərcləri 40 milyard dollar olmuşdur. Lakin, bunun yalnız 24 milyard dollarının, yəni 60 faizinin hesabatını verə bilmişlər. Bəs qalan vəsait hara sərf olunmuşdur? Təəssüflər ki, Nigeriya hökuməti yer-

də qalan vəsaitin istifadə istiqamətini şərh edə bilməmişlər. Bu mənfi təcrübələr dünya ölkələri üçün nümunə olmalıdır.

Norveçdə isə Dövlət Neft Fondu yaradıldı və əldə edilən gəlirlər tədricən planlı surətdə xərclənməyə başlandı. Norveç Neft Fondunun gəlirlilik səviyyəsi təxminən 4 faizə yaxındır. Lakin Dövlət Neft Fondundan Dövlət büdcəsinə pul köçürmələri müəyyən limitlərlə həyata keçirilməyə başladı. Bu Neft Fondunun illik gəlirinin 4 faizindən çox ola bilməzdi. Neft gəlirlərinin şəffaflığını qorumaq üçün Norveçdə vətəndaş cəmiyyəti qurulmuşudur. Şəffaflıq olmadan neft gəlirlərini ölkənin inkişafına xərcləmək mümkün deyil. Norveçdə hər bir vətəndaş bir neçə təşkilatın üzvüdür. Orada vətəndaş cəmiyyəti çox güclüdür. Bu səbəbdən neft gəlirlərinin dağıdılması və dəqiq təyinatı olmadan istifadəsi praktiki cəhətdən qeyri-mümkündür.

Şəffaflıq məsələsi müəyyən mənada ölkədəki siyasi sistemlə də bağlıdır. Demokratiya olan ölkələrdə şəffaflıq yardımçı xarakter daşıyır. Demokratiya olmayan ölkələrdə isə şəffaflıq əslində siyasətə çevrilir. Norveç və Böyük Britaniyanı çıxmaq şərtilə digər ölkələrin şəffaflıq problemi mövcuddur[1].

Dünya təcrübəsi göstərir ki, dövlət büdcəsinin neft gəlirlərindən asılılığını tədriclə aradan qaldırmaq lazımdır. Çünki neftin qiymətinin yüksəlməsi ilə yanaşı, onun aşağı düşməsi də labüddür.

Korrupsiyaya uğrayan ölkələrdə təbii ehtiyatlar hesabına yaradılan fondlar çox hallarda o istiqamətlərə vəsait ayırmağa

---

[1] Qeyd: 2009-cu ilin fevral ayında Qətərin paytaxtı Doha şəhərində Mədən Hasilatında Şəffaflıq Təşəbbüsü (MHŞT) üzrə 4-cü beynəlxalq konfrans keçirilmişdir. Burada dünyada ilk dəfə Azərbaycana "üzv ölkə" statusu verilib.

2007-ci ilin sentyabrında EİTİ İdarə Heyətinin Afinada keçirilən iclasında qərara alınıb ki, ölkələr üzrə MHŞT prosesinin gedişi qiymətləndirilsin və hansı ölkələrdə proses uğurla həyata keçirilirsə, həmin ölkələrə "MHŞT üzv ölkə" statusu verilsin. Xüsusi qeyd etmək lazımdır ki, Azərbaycan bu prosesə ilk qoşulan ölkə olmuşdur.

çalışır ki, orada ictimai nəzarəti təmin etmək praktiki cəhətdən mümkün olmur. Bütün təşkilat, hətta vətəndaş cəmiyyəti institutları da şəffaflığı təmin etmək imkanından xaricdir. Onların sadəcə olaraq konkret nəzarət mexanizmi yoxdur.

Əgər deyilənləri Azərbaycan iqtisadiyyatının müasir inkişafında təhlil etsək, müəyyən nəticələr çıxara bilərik.

Əvvəla, Azərbaycanda neft gəlirləri dövlət büdcəsinin hər il artmasına gətirib çıxarır. Məsələn, 2008-ci ildə Neft Fondundan dövlət büdcəsinə ayırmalar 3,800, 2009-cu ildə 4,915 (92,8%) milyard manat təşkil edirdisə, 2010-cu ildə bu rəqəm – 5,915 milyard manata, 2011-ci ildə isə 9,0 milyard manata (93,7%), 2012-ci ildə 9,905 milyard manata (93,7%) çatmışdır. Ona görə də dünya ölkələrindəki mənfi halların baş verməməsi üçün ciddi tədbirlər planı hazırlanmalıdır.

İkincisi, ölkə iqtisadiyyatı həddən artıq inhisarlaşıb. Bu hadisəni dəfələrlə dövlət başçısı da etiraf etmişdir. Böyük biznes sahələrinə bir neçə qruplar nəzarət edir. Ona görə də iqtisadi islahatlar bəziləri üçün sərfəli deyil. İnhisarçılar bəzən islahatlara müqavimət göstərirlər. Bütün bunlar dövlət nəzarətindən kənarda deyil. Lakin bu məsələlərə vaxtı çatanda deyil, dövlət səviyyəsində daimi olaraq reaksiya verilməlidir.

Üçüncüsü, Azərbaycan iqtisadiyyatına kapital qoyan xarici şirkətlərin sabitlikdə çox böyük maraqları var. Məlumdur ki, sabitliyin qorunmasında neft gəlirləri böyük rol oynayır. Hökumət bu gün bundan səmərəli istifadə edir. 30-40 ildən sonra vəziyyət dəyişə bilər. Ona görə də respublikamızın ciddi problemlərlə qarşı-qarşıya durmaması üçün gələcək strategiyanı düzgün müəyyən etmək lazımdır.

Dördüncüsü, Azərbaycanda neft xam şəkildə satılır. Yaxın gələcəkdə Azərbaycan neftini öz ərazisində emal etməsi üçün bütün hazırlıq işlərini tezləşdirməlidir və zavodlar tikilməlidir.

Milli Bankın məlumatına əsasən, ixracatda neft və neft məhsullarının payı 94,5% təşkil edir. Problem ondadır ki, Azərbaycanda ixracatda və ÜDM-də neftin payı getdikcə artmaqda-

dır. Bununla da, yaranacaq boşluğu doldurmaq üçün qeyri-neft sektorunun potensialı çox zəifdir. Ona görə də elə bir əlverişli mühit olmalıdır ki, xarici investisiyalar qeyri-neft sektoruna qoyulsun. Amma xarici investisiyaların bu baxımdan vəziyyətləri hələlik qənaətbəxş deyil.

Bəzi siyasətçilər, hətta iqtisadçılar qeyd etdiyimiz məsələlərə adi yanaşır, üstündən sükutla keçirlər, sanki belə olmalıdır. Özlərinə bəraət qazandırmaq üçün keçid iqtisadiyyatlı ölkələrin hamısında özünəməxsus çatışmazlıqların olduğunu dövriyyəyə buraxırlar.

Dünya bazarında neftin qiyməti son illərdə demək olar ki, yüksələn xətlə gedir. Belə olan halda neft ölkələrində ÜDM-də neftin xüsusi çəkisi artacaqdır. Deməli, tədricən neftdən kənar sahələrdən əldə olunan ÜDM çəkisi kəskin surətdə aşağı düşəcəkdir. Əgər hər hansı bir zamanda neftdə ucuzlaşma baş verirsə, deməli, dollar möhkəmlənir. 2007-ci ildə ÜDM-nin artım sürətinə görə Azərbaycan dünyada birinci yeri tuturdu. 2013-cü ildə ÜDM təxminən 6 faiz artmışdır.

**Əlbəttə, elmi baxımdan iqtisadi artımla iqtisadi inkişaf arasında fərqlər var. İqtisadi artımla iqtisadi inkişafı bərabərləşdirmək olmaz. İqtisadi inkişaf geniş təkrar istehsal bazasında cəmiyyətin məhsuldar qüvvələrinin və istehsal münasibətlərinin təkamülüdür. İqtisadi artım isə qısa və ortamüddətli dövrlərdə milli iqtisadiyyatın inkişafının müsbət dinamikasıdır. Ümumiyyətlə, artım – tsiklik hadisədir. İqtisadi artıma keyfiyyətcə yanaşdıqda inkişaf adlandırıla bilər. Bu nöqteyi-nəzərdən iqtisadi artım iqtisadi inkişaf prosesinin tərkib hissəsidir. Zəngin təbii ehtiyatlara malik olan ölkədə ümum daxili məhsul ixrac hesabına yüksək səviyyəyə qalxa bilər. Lakin bu ölkənin bütün əhalisinin ümumi iqtisadi inkişafını xarakterizə edə bilməz. Çünki, bu əhali arasında elə bölünə bilər ki, bir qrup, ümumiyyətlə, pay götürə bilməsin və yaxud az götürsün. Bir sıra ölkələrin iqtisadiyyatını təhlil etsək görərik ki, iqtisadi artımdan ancaq bir qrup faydalanır.**

**Bu da insanlardan gizli deyil və hamı bunu görür. Bunun üçün iqtisadçı olmağa ehtiyac yoxdur. Onu da qeyd etmək lazımdır ki, dünya iqtisadçılarının heç də hamısı iqtisadi artım göstəricisini qəbul etmirlər.**

**Neft Fondunda nə qədər pul toplanmasından asılı olmayaraq, iqtisadiyyatın inkişafı həddən artıq aşağı düşərsə onda iş yerlərinin çoxu az bir müddətdə itirilə bilər. Bu sadəcə olaraq fikirdir, proqnozdur və dövlət səviyyəsində alternativ yollarla bu təhlükənin qarşısını almaq mümkündür.**

Ardıcıl olaraq Britaniyanın nüfuzlu analitik mərkəzlərindən olan Xarici Əlaqələr üzrə Kral İnstitutu («*Chatam House*») Azərbaycanı gözləyən iqtisadi tənəzzüllə əlaqədar proqnozlar verib. Lakin BVF-dən fərqli olaraq onlar ümumilikdə məsləhət görürlər ki, neft istehsal edən bütün ölkələr neft ixracının müəyyən dövrdə tükənəcəyini nəzərə alaraq o vaxta qədər qeyri-neft sahələrini də inkişaf etdirməlidir.

İnstitutun hesablamalarına görə Azərbaycanda ÜDM-in həcmi artmayacaq, əksinə azalacaq. Bu isə artıq iqtisadi böhran deməkdir.

Azərbaycanda gedən proseslər isə bunun əksini göstərir. Aparılan iqtisadi siyasət, alternativ yollar, hələ ki, inkişafı təmin edir və narahatlıq üçün heç bir əsas görünmür.

Malayziya, İndoneziya və Norveç öz iqtisadiyyatlarını karbohidrogensiz artıq inkişaf etdirə biliblər. Yəni bu ölkələr artıq tam neftdən asılı deyil, digər sahələr də kifayət qədər inkişaf edibdir. Yerdə qalan ölkələr – Əlcəzair, Nigeriya, Anqola, Qazaxıstan, Şərqi Timor, Səudiyyə Ərəbistanı, Küveyt və İran bu istiqamətdə ciddi sınaq və məhdudiyyətlərlə üzləşəcəklər. Buna səbəb kimi, idarəetmənin, özəl sektorun zəif inkişafı, iqtisadi və siyasi islahatların aparılması göstərilir. Lakin hansısa iri yataq aşkar edilsə, bu həmin dövrü sadəcə uzadacaqdır.

Ölkə iqtisadiyyatı elə qurula bilər ki, ən az gəlirə malik olanlar bu artımdan, ümumiyyətlə, pay götürməsin. Ona görə də artımın əhalinin həyat səviyyəsinə təsirini müəyyən edilməsi

gəlirin müxtəlif təbəqələr arasında necə bölüşdürülməsindən asılıdır. Dünya neft ölkələrinin əksəriyyətində sosial baxımdan bölgü ədalətli deyil.

İqtisadi hesablamalar göstərir ki, Azərbaycan neft hasilatı üzrə öz zirvəsinə çatıb. Əgər yeni yataqlar kəşf edilməsə hasilat azalmağa doğru gedəcək. Onda avtomatik olaraq ÜDM-in həcmi və büdcə xərclərinin artım sürəti tədricən aşağı düşməyə başlayacaq. Bunun üçün qabaqlayıcı tədbirlər görmək lazımdır.

Qeyd olunduğu kimi ölkə iqtisadiyyatında qeyri-neft sektorunu inkişaf etdirmək lazımdır. İqtisadi sahələrdən başqa respublikamızda qeyri-iqtisadi sahələri də inkişaf etdirmək olar: məsələn, turizm, innovasiyalı təhsil və s. Təhsil sferasını xüsusilə qeyd etmək lazımdır. **Dünyada insana qoyulan kapital ən çox gəlir gətirəndir.** Unutmaq lazım deyil ki, Azərbaycanda neft əsasən Abşeron yarımadasında çıxır. İstər-istəməz neft çıxan regionun inkişaf səviyyəsilə digər regionların inkişaf səviyyələri arasında bir uyğunsuzluq yaranıbdır. Artan kənd əhalisi şəhərlərə axıb. Bu isə həm regionlarda kənd təsərrüfatının inkişafının qarşısını alır, həm də gizli işsizlik yaradır.

İqtisadi yüksəliş təkcə təbii ehtiyatların zənginliyindən asılı deyildir. İqtisadi artım kəmiyyət göstəricisidir. İqtisadi inkişafı müəyyən edən əsas meyar həm də keyfiyyətdir. Keyfiyyət göstəricisi sosial-iqtisadi inkişafın dərin köklü istiqamətlərini özündə səciyyələndirir. Bu eyni zamanda əhalinin yaşayış səviyyəsini özündə əks etdirir. Artımın yaratdığı əlavə dəyər də var və yalnız bu dəyərin ədalətli bölüşdürülməsi insanların sosial rifahına təsir göstərir.

Bəzi siyasətçilər və iqtisadçılar belə hesab edirlər ki, Azərbaycanda ümumi daxili məhsulun artım sürətində mütləq azalma baş verəcəkdir. Bu zaman makroiqtisadi göstəricilər sözsüz ki, dəyişəcək. Lakin, eyni zamanda onlar qeyd edirlər ki, azalma olacaq, ancaq bu neftlə bağlı olmayacaqdır.

Bu proqnozların əksinə olaraq Xəzər Neft-Qaz Konfransında BP-nin Azərbaycandakı prezidenti Bill Şreder bildirdi ki,

əgər hökumət yeni texnologiyalarla neft hasilatını artırmağa razılıq versə, 2019-cu ilə qədər 50 milyon ton hasilat sürətini saxlayacaqdır. Ümumiyyətlə, 2029-cu ilə qədər neft hasilatı 40 milyon tondan aşağı düşməyəcəkdir. İndi kim sübut edə bilər ki, bu neft artımının qarşısında iqtisadiyyat necə çökə bilər? İkincisi, neftə qazı da əlavə etsək onda nə baş verəcək?

**Göründüyü kimi, bütün iqtisadiyyatın inkişafı təkcə təbii ehtiyatların zənginliyindən asılı deyildir. Əsas məsələ bu təbii ehtiyatlardan necə istifadə edilməsindən, idarəetmə sisteminin necə qurulmasından, bütövlükdə ölkənin hansı iqtisadi sistemdə inkişafından asılı olmayaraq siyasi və iqtisadi siyasətindən asılıdır.**

# IX FƏSİL

# MÜASİR DÜNYA İQTİSADİ BÖHRANI: MAHİYYƏTİ, SƏBƏBLƏRİ, XÜSUSİYYƏTLƏRİ, NƏTİCƏLƏRİ, ARADAN QALDIRILMASI YOLLARI

## 9.1. İqtisadi böhranın məzmunu, xarakteri və növləri

Yuxarıdakı fəsillərdə pulla bağlı qarşımıza qoyduğumuz problemlərin təhlilini verdikdən sonra müasir dövrümüzün ən aktual bir məsələsinə çevrilmiş iqtisadi böhrandan bəhs etməmək mümkün deyil. Çünki **böhran birbaşa və dolayısı ilə demokratiya, iqtisadi azadlıq, pul, onun diktaturası, korrupsiya, siyasət, iqtisadi maraqların bütün başqa maraqları üstələməsi və digər artıq bəhs etdiyimiz məsələlərlə bağlıdır.**

Sual yaranır ki, iqtisadi nəzəriyyələrin, sivilizasiyanın inkişaf etdiyi müasir mərhələdə, kifayət qədər intellektual baxışların mövcud olduğu bir şəraitdə böyük dağıdıcı nəticələri olan iqtisadi böhranları qabaqcadan görmək və aradan qaldırmaq mümkün deyil? Doğrudanmı iqtisad elmi və tarixi, müasir nəzəriyyələr böhran qarşısında acizdir? Elmi əsaslarla işlənmiş iqtisadi siyasətlər nə üçün böhranların qarşısını ala bilmir? Bu səpkidən olan bir çox suallara cavab tapmaq üçün iqtisadi böhranları təhlil etmək zəruridir.

Əlbəttə, böhran, onun səbəbləri haqqında çoxlu tarixi və müasir nəzəriyyələr mövcuddur. Onların mükəmməlliyinə şübhə ilə yanaşmaq səhv olardı. Böhranları mümkünsüz edən bu nəzəriyyələrin zəifliyi və ya iqtisadi siyasətdəki nöqsanlar deyil, iqtisadi inkişafın özünün obyektiv tələbidir. **İqtisadiyyat varsa, inkişaf baş verirsə böhranlar labüddür. Bu, obyektiv hadisədir. Lakin məsələnin heç də az əhəmiyyət kəsb etməyən digər tərəfi vardır, böhranları az itki ilə, böyük fəsadlar vermədən necə dəf etmək olar? Cəmiyyətin mənəviyyatı, əxlaqı olduğu kimi, iqtisadiyyatın da mənəviyyatı vardır. Bu gün həmin mənəviyyatı daha da sağlamlaşdırmaq və**

**hərəkətə gətirmək tələb olunur.** Bu müasir ekonomiksdə meta-iqtisadiyyat adlanan iqtisadi əxlaq, iqtisadi inam, iqtisadi vicdan, iqtisadi borc, iqtisadi məsuliyyət, iqtisadi mədəniyyət, iqtisadi etimad, bir sözlə, iqtisadi tərbiyə sanki, böhran doğuran səbəblərin aradan qaldırılması üçün açar rolunu oynayır. **İstənilən böhran amilini təhlil etdikdə onun mənəviyyat amilinə gəlib çıxdığının şahidi oluruq. Məsələn, əgər böhranın səbəbi borc problemidirsə (ipoteka böhranı) deməli, burada tərəflərin biri əxlaq normalarını pozur, sözünə və vədinə xilaf çıxır, yalan danışır və s.**

Rusiyada fəaliyyət göstərən "İnkişaf mərkəzi" adlı iqtisadi tədqiqatlar fondunun baş iqtisadçısı Valeri Mironovun bu barədəki baxışları maraq doğurur. O göstərir ki, 2009-cu ildə ortodoksal kilsə nümayəndələrinin baxışlarında belə bir fikir diqqəti cəlb etdi: böhranın əsasında iqtisadiyyat və maliyyə dayanmır. Onun əsasında bütün dünyada əxlaq, düşüncə dayanır. Bu, maliyyə, iqtisadi böhran yox, daha çox psixoloji, əxlaq böhranıdır.

Roma papası XVI Benedikt Qərbi eqoizmi tərk etməyə çağırdı. O qeyd edir ki, mənəviyyat, yəni psixoloji böhran iqtisadi böhrandan daha çox dünyanı heyrətləndirdi.

Hələ XIX əsrdə C.Mill də böhranın səbəblərini insanın mənəvi xüsusiyyətlərində axtarmağı lazım bilirdi. Məsələn, o yazırdı ki, panika (əsasız təşviş), yalan krediti məhv edir və nəticə etibarilə iqtisadiyyata ziyan vurur[1] .

**Lakin təəssüflər olsun ki, dünyanın əksər ölkələrində mənəviyyatsız bir iqtisadiyyat mövcuddur və sanki belə də olmalıdır devizi ilə inkişaf edir. Əvvəllərdə olduğu kimi yenə də iqtisadi maraqlar bütün digər maraqları, əxlaq normalarını, hətta ailə münasibətlərini kölgədə qoyur, lazım gəldikdə ölçüyəgəlməz sərt simasını göstərir. Halbuki iqtisadiyyatın arxasında güclü mənəviyyat dayanmalıdır. Mənəviyyatsız iqtisadi inkişafın gələcəyi yoxdur. Eyni zaman-**

[1] Bax: "Аргументы и факты" qəzeti. 2012, № 8, s.17

**da bazar iqtisadiyyatının tarixi inkişaf mərhələləri onu da göstərir ki, bu iqtisadi sistem mənəviyyat elementlərini kökündən inkar etmir.**

Bazar iqtisadiyyatına qədəm qoyan ölkələrdə milli burjuaziya formalaşmalıdır. Azərbaycanda belə bir inkişaf XX əsrin əvvəllərində artıq öz ənənəsini qoymuşdur. **Əgər Azərbaycanda Hacı Zeynalabdin Tağıyev, Musa Nağıyev, Murtuza Muxtarov və başqaları kimi öz sərvətlərindən çox ölkənin mənəviyyatını düşünən insanlar olmasa mənəviyyat itəcəkdir.** Onlar öz kapitallarını bu sahəyə yönəltməlidirlər. Söhbət təkcə Azərbaycandan getmir. Dünyanın inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrinin hamısında bu ənənəyə sadiq qalmaq lazımdır. Əks-təqdirdə müəyyən bir dövrdə böhran iqtisadiyyatı ani bir zaman kəsiyində məhv edəcəkdir.

**Böhran ölkə iqtisadiyyatını zəiflətməklə bərabər mənəviyyatı pozur. Mənəviyyatı qorumaq üçün də iqtisadiyyatı böhrandan qorumaq lazımdır. Bəs bütün bunlara necə nail olmalı?**

Bunun üçün ilk növbədə böhranın nə olduğunu, onun mahiyyətinin incəliklərini dərk etmək lazımdır. Yunan sözü olan “krizis” (böhran) – “həll” anlayışındandır. “Krizis” sözü Çin dilində “təhlükə”, “əlverişli imkan” deməkdir. Deməli, böhran həm təhlükə, həm də bir imkan, şansdır. Tarix göstərir ki, güclü dövlətlər bu şansdan, imkandan istifadə edib daha da güclənir. Zəiflər isə güclü dövlətlərdən asılı vəziyyətə düşür.

Böhran eyni zamanda “qərar”, “dönüş” nöqtəsi mənasında da işlədilir.

Ç.Kindlberqer və R.Aliber maliyyə böhranını şərh edərkən daha geniş anlayışlardan istifadə edildiyini göstərir: möhtəkir eyforiyasının sonu və klassiklərin iflas və çaxnaşma adlandırdıqları mərhələnin başlanğıcı arasındakı dövrün təsviri üçün digər epitetlər də - həyəcan, qorxu, gərginlik, sıxıntı, təzyiq, inamsızlıq, təhlükə, zəiflik geniş tətbiq edilmişdir. Daha parlaq

ifadələr belə söz birləşmələrinə daxil idi: "bazarın təhlükəli enməsi", "tufan ərəfəsində atmosfer"[1].

Elmi nöqteyi-nəzərdən hamıya məlumdur ki, inkişaf ziddiyyətlərdən yaranır. Ziddiyyətlər inkişafın hərəkətverici qüvvəsi kimi bütün mərhələlərdə onu müşahidə edir. Ümumiyyətlə, iqtisadiyyatda inkişaf iqtisadi sistemlərin inkişafı kimi təzahür edir. Ona görə də ziddiyyətlər hər bir iqtisadi sistemin daxilində və iqtisadi sistemlər arasında baş verir. İqtisadi sistem daxilindəki ziddiyyətlər iki cür qiymətləndirilə bilər:

1. Sistemə daxilən xas olan mahiyyətdən doğan ziddiyyətlər.
2. Keçmişin qalıqları, mühafizəkarlıq, həyat fəaliyyətindəki çətinliklər və anomaliyalar ilə bağlı olan ziddiyyətlər.

Birinci qrupa daxil olan ziddiyyətlər daim yeni əsas üzərində yeni şəkildə bərpa olunur. Buna görə də onlar sadəcə inkişaf mənbəyi deyil, həm də inkişafı sürətləndirmə mənbəyidir. Həmin ziddiyyətlərin mövcud şəraitə uyğun hərəkət forması tam vaxtında təmin olunduqda onlar inkişafı sürətləndirən mənbə rolunu daha yaxşı ifa edirlər.

İkinci ziddiyyət qrupunda vəziyyət bir qədər başqadır. Özlüyündə ləngidici təsir göstərən bu ziddiyyətlər şiddətləndikcə onların ləngidici təsiri daha da artaraq maksimum qüvvə kəsb edir, əks tərəflərin uyğunsuzluğu xüsusilə kəskin şəkil alır və münaqişəli vəziyyət yaranır. Belə şəraitdə inkişaf əslində onları aradan qaldırmaq üçün göstərilən fəaliyyətdir. Bu ziddiyyətlərin ləngidici təsiri onlara ciddi diqqət yetirilməsini tələb edir. Xüsusilə ona görə ki, bu ziddiyyətlərin yığılıb qalması real şəraitdə baş vermişdir və onları aradan qaldırmaq üçün qəti fəaliyyət göstərilməlidir. Onu da qeyd etmək lazımdır ki, bu cür ziddiyyətlərin dərin kökləri idarəçiliyin mürəkkəb sistemindədir. Əks-təqdirdə ziddiyyətlər belə davamlı olmazdı və onları aradan qaldırmaq

[1] Bax: Ç.Kindlberqer, R.Aliber. Dünya maliyyə böhranları: İflas, təşviş və maniyalar / ingilis dilindən tərcümə. Bakı: "İqtisad Universiteti" nəşriyyatı. 2010, s. 119.

nisbətən asan olardı. İnkişafın müəyyən mərhələsində ziddiyyətlər daha da dərinləşir, kəskin dönüş məqamları yaranır, bu da cəmiyyətdə, iqtisadiyyatda, siyasətdə və s. istiqamətlərdə məyyən dağılmalarla müşayiət olunur, nəticədə böhran baş verir.

**Böhran iqtisadi inkişafın gözlənilən, labüd hadisəsidir. İqtisadi inkişaf vaxtaşırı sürətdə, bərabər, eyni vəziyyətdə ola bilməz. Daimi iqtisadi yüksəliş bütün ölkələrin hökumətlərinin can atdığı idealdır. Lakin, iqtisadi inkişafın daimi xarakter daşımasına – tarixdə hələ ki, heç bir ölkə nail ola bilməmişdir. Həqiqətdə isə bazar iqtisadiyyatı mərhələlərlə inkişaf edir – yüksəlişdən sonra, həmişə tənəzzül baş verir.**

Riçard Dunkan doğru demişdir, hər bir qalxma nəzəriyyəsində həm də enmənin izahı verilir: qalxma nəticəsində nə əkilibsə, böhran nəticəsində bunun bəhrəsi görünəcək.[1]

**İqtisadi tsikl** - bir iqtisadi böhrandan digərinədək olan dövrdür. O, ardıcıl olaraq bir-birini əvəz edən dörd fazadan ibarətdir: böhran, tənəzzül (durğunluq), canlanma, tərəqqi (yüksəliş).

Bu fazalar K.Marks tərəfindən geniş şərh edilmişdir. Müasir iqtisadi ədəbiyyatda isə ABŞ Milli İqtisadi Tədqiqatlar Bürosunun işlətdiyi anlayışlardan istifadə edilir. Əslinə baxanda, bunlar K.Marks nəzəriyyəsindən imtina deyil, mahiyyətcə eyni, formaca müxtəlif olan anlayışlardır: böhran (enmə, sıxılma), durğunluq-tənəzzül (inkişafın dibi), canlanma (genişlənmə), yüksəliş (zirvə, pik, bum).

**Böhran** – başlanğıc mərhələsidir. Təkrar istehsal – onun əsas xüsusiyyətidir. Böhran bütövlükdə təkrar istehsalın gedişində kəskin pozuntuların baş verməsi ilə meydana gəlir. Ödəmə qabiliyyəti olan tələblə müqayisədə çox məhsul istehsal olunur ki, bununda nəticəsində istehsal ixtisar edilir, firmaların, şirkətlərin bir çoxu iflasa uğrayır, işsizlik artır, əməkhaqqı aza-

[1] Bax: Riçard Dunkan. Dolların böhranı / rus dilindən tərcümə. Bakı: “İqtisad Universiteti” nəşriyyatı. 2009, s. 71.

lır, qiymətli kağızların məzənnəsi aşağı düşür. Başqa sözlə, elə bir şərait yaranır ki, ya istehsal tələbatı, ya da tədiyyə qabiliyyətli tələb istehsalı üstələyir. Böhran, bir tərəfdən iqtisadiyyatı dağıdır, digər bir tərəfdən isə ölkənin bu ağır vəziyyətdən çıxması üçün şərait yaradır. Deməli, **böhran hiss olunmasa, uzun müddət iqtisadiyyat çökməyə doğru getsə, bu elmi cəhətdən dərk edilməsə, onda hər hansı bir ölkə çox ağır, uzunmüddətli iqtisadi faciə ilə üzləşər.**

Tənəzzül mərhələsində istehsalın aşağı düşməsi dayandırılır, ümumi tələblə ümumi təklif arasındakı tarazlıq məcburi surətdə bərpa olunur, gələcək iqtisadi artım üçün ilkin şərtlər formalaşır, əsas kapitalın yeni texnika əsasında kütləvi surətdə təzələnməsi baş verir.

Canlanma mərhələsində istehsalda yavaş-yavaş artım başlayır, iqtisadiyyat böhran mərhələsində olan səviyyədəki göstəricilərə nail olur, alıcılıq tələbləri böyüyür, qiymətlər yüksəlir, işsizlik azalır. Canlanma böyüyərək tərəqqiyə keçir. İstehsal sürətlə artır. Məhsul buraxılışı həcmi böhrandan əvvəlki səviyyəni ötüb keçir.

Qeyd etdiklərimiz böhranın başlanması ilə yeni böhranın yaranması arasındakı dövrü xarakterizə edir. Lakin göstərdiyimiz mərhələlər müntəzəm xarakter daşıyır. O bir neçə ildən bir neçə onilliyədək uzana bilər. İqtisadi nəzəriyyədə 10 ilədək olan müddət "kiçik" (kiçikdalğalı), 40-50 ilədək olan müddət isə "böyük" (uzundalğalı) adlanır. Mərhələnin müddəti bir çox amillərdən: əsas kapitalın təzələnməsi vaxtından, bazar konyunkturasının dinamikasından, dövlətin iqtisadiyyata müdaxiləsindən və insanların hökumətin apardığı iqtisadi siyasətə inamından asılıdır.

**Böhranı tam mənfi hal, faciə də hesab etmək düzgün deyildir.**[1] **Çünki böhran iqtisadiyyatdakı zəif həlqələri üzə**

[1] Qeyd: İnkişaf etmiş ölkələrin heç birində böhranı faciə kimi qarşılamırlar. Firmalar, şirkətlər, korporasiyalar müflisləşsə də, əhali öz əmanətlərini itirsə də, buna adi hal kimi baxırlar və inanırlar ki, tezliklə hər şey öz

**çıxarmaqla gələcəkdə daha rəqabətli iqtisadiyyatın başlanmasına (inkişafına) təkan verir. Böhran bazar iqtisadiyyatlı ölkələrin təsərrüfatının hərəkətinin təbii və labüd formasıdır, bir müvəqqəti müvazinət vəziyyətindən digər müvazinət vəziyyətinə keçid formasıdır.**

Böhran – dərin, çox zaman gözlənilməz, mənfi bir dəyişiklikdir, lakin o özündə inkişaf üçün yeni imkanlar da daşıyır. Böhranlar iqtisadi sistemlərin öyrənilməsinin əsasını qoyur. Böhran normal halda gözəgörünməz olan tərəfləri açıqlayır, sistemin inkişafını təmin edən qüvvələri hərəkətə gətirir. Böhranın əsas funksiyası ən az həyat qabiliyyətli və dayanıqsız elementlərin dağıdılmasıdır. Bunun nəticəsində sistemin sadələşməsi və ardıcıllığın möhkəmlənməsi əmələ gəlir. Böhran məhz bu cəhətlərinə görə stimullaşdırıcı, tənzimləyici rol oynayır, elmi-texniki tərəqqinin inkişafına, daha səmərəli sahələrin yaranmasına, iqtisadiyyatda yeni meyillərin və perspektivlərin, innovasiyaların, investisiyaların ortaya çıxmasına səbəb olur.

Böhranlar müxtəlif və çoxcəhətli olur. İqtisadi ədəbiyyatda böhranların müxtəlif təsnifatları verilir. Biz bunların hamısı haqqında şərh vermək fikrindən uzağıq. Lakin, müasir pul münasibətləri müstəvisində böhranlara ümumi xarakteristika verməyi zəruri hesab edirik.

Böhranlar iki yerə bölünür: ümumi və lokal. Ümumi böhran bütün sosial-iqtisadi sistemi, lokal böhran isə onun bir hissəsini əhatə edir.

Mahiyyət etibarilə böhranlar öz həcminə, miqyasına görə makro və mikroiqtisadi böhranlara bölünür. Makroiqtisadi böhran böyük həcmdə və iri miqyasda fəaliyyət göstərir. Mikroiqtisadi böhran isə ayrıca bir problem və ya problemlər qrupunu, yəni firmadaxili (müəssisədaxili) problemləri əhatə edir.

---

axını ilə inkişaf edəcək. Çünki, öz hökumətlərinə, onların apardığı iqtisadi siyasətə, tarixin dərslərinə inamları böyükdür.

Lokal və mikroböhranlar zəncirvari reaksiya kimi bütün sistemə yayıla bilər, çünki sistemdə bütün elementlər qarşılıqlı əlaqədədir və problemlər ayrı-ayrılıqda həll olunmur.

Böhranın tarixən növləri müxtəlif olmuşdur: məsələn, iqtisadi, sosial, maliyyə, aqrar, pul-kredit, birja, valyuta, ərzaq, təşkilati, texnoloji, ekoloji, psixoloji, struktur, sənaye, xarici borc və s.

Müasir dövrdə isə böhranların əsasən aşağıdakı növləri daha aktualdır:

1. **İqtisadi böhranlar.** İstehsal, əmtəə və xidmətlərin yerinə yetirilməsində çətinliklərlə müşayiət olunur. Başqa sözlə, o təkrar istehsal tsiklinin: böhran, durğunluq, canlanma, yüksəliş fazalarından biridir.

2. **Maliyyə böhranı.** Əslində bu iqtisadi böhranın tərkib hissəsidir. Lakin nisbi müstəqil olan maliyyə sektorunun fəaliyyəti ilə əlaqədardır. Ona görə də iqtisadi ədəbiyyatda maliyyə böhranı haqqında ayrıca yazılır. O iqtisadi, siyasi, hərbi və s. fövqəladə vəziyyətlərin təsiri altında dövlət maliyyəsinin pozulmasıdır.[1]

3. **Sosial böhranlar.** Bu müxtəlif sosial qrupların maraqlarında əkslikləri inikas etdirir. Bunlar arasında siyasi böhran xüsusi yerə malikdir. Hakimiyyət böhranı çox vaxt iqtisadi böhrana gətirib çıxarır:

4. **Aqrar böhranlar.** Kənd təsərrüfatı, torpaqla, təbii amillərlə bağlı olan böhranlardır.

5. **Pul-kredit böhranları.** Bank kreditlərinin kəskin şəkildə azalması, faiz dərəcələrinin artması, səhmlərin, istiqrazların məzənnəsinin aşağı düşməsi ilə müşahidə olunan böhranlardır.

[1] Qeyd: Müasir qlobal böhran məhz maliyyə böhranı kimi şərh edilir. Görünür bu, ABŞ-da ipoteka kreditlərinin verilməsi zamanı pul problemləri ilə bağlı olduğundan iqtisadi ədəbiyyatlarda bunu maliyyə böhranı adlandırırlar. Məlumdur ki, böhran necə adlandırılır — adlandırılsın, bu, iqtisadi problemlərlə bağlıdır.

6. **Valyuta böhranları.** Valyuta məzənnəsinin aşağı düşməsi, valyuta ehtiyatlarının bölgüsündəki qeyri-bərabərlik nəticəsində yaranan böhranlardır.

7. **Birja böhranları.** Əslində bu, pul-kredit böhranı ilə bağlıdır. Səhmlərin, qiymətli kağızların məzənnəsinin aşağı düşməsi, siyasi hadisələr, bank fırıldaqlarının baş verməsi böhranın yaranmasına səbəb olur.

8. **Təşkilati böhran.** Təşkilati fəaliyyətin kəskin pozulması və ya iflicidir. Bu cür böhranlar firmaların istehsal etdikləri məhsulların əvvəlki çeşidlərindən fərqli dəyişikliyi zamanı yaranır.[1]

9. **Texnoloji böhran.** Yeni texnologiyanın hazırlanması və iqtisadiyyata tətbiqi zamanı yaranır. İqtisadi ədəbiyyatda buna elmi-texniki tərəqqinin böhranı da deyilir.

10. **Ekoloji böhran.** Ekoloji böhranlar insanların həyat fəaliyyətini, sağlamlığını kəskin zəiflədir. Bu böhran insanların təbiətə laqeyd, təbii tarazlıq qanunlarına etinasız münasibətindən yaranır. Qlobal ekoloji böhran isə, ekoloji sistemdə bəşər cəmiyyətinin təbiətlə münasibətlərində tarazlığın pozulmasıdır. Başqa sözlə, məhsuldar qüvvələrin və istehsal münasibətlərinin inkişafının ətraf mühitin ekoloji imkanlarına uyğun gəlməməsidir.

11. **Psixoloji böhran.** İnsanların psixoloji vəziyyətinin böhranıdır ki, əsəbilik, qorxu, həyəcan, inamsızlıq, narazılıq və s. onun təzahürüdür. Buna iqtisadi ədəbiyyatda sosial-psixoloji mühitin böhranı da deyilir.

Böhranlar aşkar və gizli xarakterdə olur. Aşkar böhran asanlıqla təyin olunur və yüngül keçir. Gizlilər isə qapalı keçir və bu səbəbdən onları dəf etmək də çətinləşir.

Böhranın xarakterini, amillərini, səbəblərini və əlamətlərini bir-birindən ayırmaq lazımdır.

---

[1] Qeyd: **Təşkilatçılıq özü bir elmdir, xüsusi qabiliyyətdir, istedaddır. Təşkilatçılıq qabiliyyəti olmadan iqtisadiyyatı idarə etmək qeyri-mümkündür. Demokratik cəmiyyətin yaradılması, qurulması da təşkilatçılıq istedadının nəticəsidir.**

Bütün bunlarla yanaşı böhranlar, eyni zamanda, dayaz, dərin, qısamüddətli, uzunmüddətli, xüsusi və ümumi xarakterlidir.

Böhranın amilləri dedikdə onu yaradan hadisələr, proseslər, meyllər nəzərdə tutulur. Böhran istər ölkə daxilində istərsə də ayrı-ayrı firmalarda baş verirsə, o bir neçə amilin təsirindən yaranır: xarici, daxili, ümumi, spesifik və inflyasiya.

Xarici amillər dünya iqtisadiyyatına məxsus olan proseslər və hadisələrdir. Daha dəqiq desək, inkişaf etmiş ölkələrdə baş verən iqtisadi proseslərdəki pozulmalardır.

Xarici amillər əsasən iki yerə ayrılır: beynəlxalq və milli. Beynəlxalq amillərə aiddir: başqa ölkələrdə böhranın olması; qlobal iqtisadi və maliyyə böhranları; ölkələr arasındakı iqtisadi əlaqələr; beynəlxalq siyasət; beynəlxalq maliyyə institutlarının səviyyəsi və onların təsir dairəsi; beynəlxalq məhdudiyyətlərin olması, beynəlxalq etibar və s.; beynəlxalq ticarət və tarif razılaşmalarının olması; beynəlxalq gömrük rüsumu; beynəlxalq rəqabət və s.

Əsas milli amillərdən bunları qeyd edə bilərik: ölkədə siyasi kursun qeyri-sabitliyi; daimi olmayan, tez-tez dəyişən qanunvericilik; fövqəl inhisarçılıq; qanunlardakı çatışmazlıqlar; ödəmə qabiliyyətli tələbatın aşağı və yuxarı hədləri; qanunların işləməməsi; zəif dövlət büdcəsi; dövlət sifarişinin qənaətbəxş olmaması; maliyyə sisteminin qeyri-sabitliyi; müttəfiqlik əlaqələrinin pozulması; yüksək inflyasiya; biznes üçün qeyri-uğurlu vergi, kredit və valyuta siyasəti; vergi siyasətindəki çatışmazlıqlar; rüşvət, korrupsiya, lobbiçilik, kriminallaşma; bank sistemindəki çatışmazlıqlar; investisiya siyasətinin elmi əsaslandırılmaması və s.

Daxili amillər milli iqtisadiyyatın özündə yaranır. Belə ki, müəssisənin (onun məhsulu) tsiklik inkişafı mövcuddur ki, bu da böhranın əmələgəlmə imkanlarına təsir edə bilər.

Digər bir tərəfdən hər müəssisə xarici və daxili mühitin dəyişməsinə özünəməxsus tərzdə reaksiya verir. Bu da böhranlı halların yaranma səbəblərindən və qeyri-adekvat reaksiyanın tə-

sirindən ola bilər. Buradan belə bir nəticəyə gəlmək olar ki, iqtisadi sistemlərin daimi inkişafını təmin edən daxili və xarici antiböhran mexanizmi olmalıdır. Bunları nəzərə almadan iqtisadi sistemin davamlı inkişafını təmin etmək mümkün deyildir.

Xarici və daxili mühitdəki dəyişikliklər çoxsaylı müəssisələrin inkişafına təsir edə bilər və ya yalnız bir müəssisəyə aid ola bilər. Bu səbəbdən antiböhran idarəetməsinin ümumi və spesifik mexanizmini də nəzərə almaq lazımdır.

Böhranın səbəbləri dedikdə, onun yaranmasınaqədərki proses və hadisələr nəzərdə tutulur. Əgər inflyasiya böhranın amilidirsə, onda pul kütləsinin özünü doğrultmayan çoxalması böhranın səbəbi ola bilər.

Böhranlar müxtəlif səbəblərdən baş verə bilər: obyektiv, subyektiv və təbii.

Obyektiv səbəb – iqtisadi sistemin yeniləşməsi ilə bağlıdır.

Subyektiv səbəb – idarəetmədəki səhvlərin nəticəsidir.

Təbii səbəb – ekstremal təbiət – iqlim şərtlərini xarakterizə edir.

Böhran daxili, xarici, təsadüfi və qanuni səbəblərdən törəyə bilər.

Daxili səbəb – müəssisədaxili problemlərlə əlaqədardır.

Xarici səbəb – makroiqtisadi inkişafın meyli ilə bağlıdır.

Təsadüfi səbəb – təsadüfi hadisə və proseslərin nəticəsidir.

Qanuni səbəb – proqnozlaşmış, davamlı və təkrarlanan proseslərin nəticəsidir.

Böhranın səbəblərindən asılı olaraq müxtəlif nəticələr verə bilər: sistem yeniləşə bilər, sistem dağıla bilər, böhran güclənə bilər, böhran zəifləyə bilər, yeni böhran yarana bilər, sistemdə keyfiyyət dəyişikliyi baş verə bilər, sistemdə kəmiyyət dəyişikliyi baş verə bilər, böhran uzunmüddətli ola bilər, böhran qısamüddətli ola bilər, böhran dözülməz və dözülən ola bilər.

Böhranların əlamətləri müxtəlif formalarda özünü büruzə verir. Yəni təhlil zamanı böhranın amilləri, yaranma səbəbləri, xarakteri və nəticələri xüsusi əhəmiyyət kəsb edir. Bütün yuxarı-

da qeyd etdiklərimizdən əlavə onun bizə məlum olmayan başqa səbəbləri də mövcud ola bilər. Yəni gözləmədiyimiz hadisə və proseslərin nəticəsi də ola bilər.

Böhranın əlamətləri onu bir sistem kimi xarakterizə etməyə imkan verir. Böhranı qiymətləndirərkən əsasən aşağıdakı əlamətlərdən istifadə edilir: miqyasına, inkişaf sahəsinə, əmələgəlmə fazasına, amillərinə, səbəblərinə, kəskinliyinə və mümkün nəticələrinə görə.

Böhranın əlamətləri – məsələn: qiymətlərin kəskin qalxması böhranlı halın yaranmasına siqnal ola bilər. Əlamət heç də həmişə böhranın əsl səbəblərini müəyyən edə bilməz, lakin onlar adekvat ölçülərin qəbulunu vacib edir.[1]

Məlumdur ki, hər bir əmtəənin öz istifadə dövrü mövcuddur. Hər əmtəə məhdud istehsal və istehlak imkanlarına malik olduğuna görə, əmtəənin rəqabət vəziyyəti vaxt çərçivəsində məhduddur. Rəqabət üstünlüyünün itirilmə təhlükəsi haqqında siqnallar vaxtında qəbul edilir və bu təhlükəyə qarşı adekvat tədbirlər həyata keçirilir. Hər bir firma müəyyən istehsal dövrünə malikdir. Təcrübə göstərir ki, böhranlı halların yaranması istehsal dövrünün digərinə keçidi ilə əlaqədar baş verir.

Firmanın yaranma mərhələsində yüksək risklər (qeyri-müəyyənlik) mövcuddur ki, onlar da müəssisənin hələ formalaşmış strategiyası və ehtiyatları ilə sıx bağlıdır.

Firma inkişafetmə mərhələsində tədricən genişlənir, effektliyi yüksəlir, bütün struktur və sistemlər yenidən qurulur, tərəqqi üçün lazım olan ehtiyatlar cəmlənir. Lakin bu mərhələdə hələ səhvetmə ehtimalı kifayət qədər böyükdür. Bu kimi uğursuzluğun, böhranın qarşısını almaq üçün taktika və strategiyanı düzgün

---

[1] Bax: Антикризисное управление. Теория и практика: учеб. пособие для студентов вузов, обучающихся по специальностям экономики и управления / (В.Я. Захаров и др.) ; под ред. В.Я.Захарова. – 2-е изд., перераб. и доп. – М.: ЮНИТИ – ДАНА, 2009, с. 10-14; Кован С.Е. Теория антикризисного управления предприятиями. Учебное пособие. М.: Финакадемия, 2008, с. 10-20.

müəyyənləşdirmək lazımdır. Bəzən isə mühit özü bunu diktə edir.

Professor Ş.H.Hacıyev və Ə.İ.Bayramov öz tədqiqatlarında iqtisadi ədəbiyyatda böhranın yaranma səbəbləri haqqındakı müxtəlif fikirləri ümumiləşdirərək yazırlar:

1. Böhran "təbii" prosesdir.
2. Əsas problem maliyyə sferasında yeni arxitekturanın qurulması ilə bağlıdır.
3. Problemə sistemli yanaşılmanı nəinki iqtisadiyyatın sahə və sferaları, eləcə də bütövlükdə ictimai həyatın əksər "dəyişənləri" nəzərə almalıdır.
4. Böhranın ümumdünya səviyyəsi almasının əsas "günahkarı" qloballaşma prosesidir.
5. Subyekt aspektinin (məs.: ABŞ) həlledici rola malikliyi və s.[1]

Sonra müəlliflər, qlobal maliyyə böhranının baş vermə səbəbləri haqqında özlərinin konkret mülahizələrini söyləyirlər:

1. Geniş təkrar istehsal prosesinin həm qlobal, həm də ayrı-ayrı "həlledici səsə malik" ölkə və regionlarda sistemliliyi, tamlığı və bütövlüyünün pozulması (Maliyyənin əlahiddələşməsi nəticəsində).
2. Törəmə maliyyə bazarlarının sürətli yüksəlişi; real olmayan pulun qlobal dövriyyəsinin ifrat dərəcədə artımı.
3. İqtisadi sistemin neoliberal model çərçivəsində fəaliyyəti. Bu amilin həm mahiyyətə, həm də böhranın sürətlə yayılmasına birbaşa aidiyyəti vardır.[2]

Böhranlar haqqında iqtisadi ədəbiyyatlarda mövcud olan anlayışları ümumiləşdirərək belə nəticəyə gəlmək olar:

- **İstənilən iqtisadi sistemdə böhranlar qaçılmazdır. Bu, sistemin tsiklik inkişafının qanunauyğun və təkrarlanan inkişafıdır. Böhran böyük bir iqtisadi eksperimentin, səhvin,**

---

[1] Bax: Hacıyev Ş. H., Bayramov Ə.İ. Dünya iqtisadiyyatının tarixi. Dərslik. Bakı: "İqtisad Universiteti" Nəşriyyatı, 2011, s.438.
[2] Yenə orada, s. 440.

**səhlənkarlığın, diqqətsizliyin, özbaşınalığın, qanunların işləməməsinin, təbii fəlakətin, müharibələrin gizli iqtisadiyyatın, rüşvətin, korrupsiyanın və s. nəticəsində yarana bilər.**

- **İqtisadi sistemin əsas elementlərinin inkişaf potensialı əsasən tükəndikdə, ziddiyyət dərinləşdikdə və gələcək tsikli təyin edən yeni sistemin elementləri yaranıb mübarizəyə başladığı vaxtda böhran əmələ gəlir.**
- **Böhran satılmayan əmtəələrin ifrat istehsalı zamanı da yaranır.**

## 9.2. İqtisadi böhranların tarixi təkamülü və müasir mərhələdə xüsusiyyətləri

Böhranlar həmişə müəyyən itkilərlə müşahidə olunduğu üçün onların qarşısının alınması və yaxud nəticələrinin aradan qaldırılması üzrə iqtisadi fikir tarixində bir çox nəzəriyyələr irəli sürülmüşdür. Bu nəzəriyyələrin tarixi böhranların özlərinin yaranma mərhələsi ilə yanaşı baş vermişdir.

İlk iqtisadi böhran 1825-ci ildə Böyük Britaniyanı və Cənubi Amerikanı əhatə etmişdir[1]. İkinci böhran 1836-cı ildə Böyük Britaniyada və ABŞ-da olmuşdur. 1844-1848-ci illərdə baş vermiş üçüncü böhran ilk ifrat istehsal böhranı kimi dünyanın sənaye cəhətdən inkişaf etmiş ölkələrini əhatə etmişdir. XIX əsrin ilk üçdə ikisində böhranlar 10 il intervalı ilə (1816, 1826, 1847, 1857, 1866) baş verirdi. Sonralar böhranlararası müddət artdı.[2]

XX əsrin ikinci yarısında baş vermiş böhranlar arasında iki böhran xüsusilə fərqlənir: 1873-1875-ci və 1980-1981-ci illər böhranı. Bu böhranlar bir çox hallarda XIX əsrin və XX əsrin birinci yarısının böhranlarına oxşayır. Maliyyə sferasına toxunan

---

[1] Bax: Ç.Kindlberqer, R.Aliber. Dünya maliyyə böhranları: İflas, təşviş və maniyalar / ingilis dilindən tərcümə. Bakı: "İqtisad Universiteti" nəşriyyatı. 2010, s. 163.
[2] Yenə orada, s. 37.

sonuncu iri böhran 1997-1998-ci illəri əhatə etmişdir. Bu böhran özünü keçid modeli kimi büruzə vermişdir.[1]

Bütövlükdə XIX əsrdə səkkiz böhran olmuşdur. Doqquzuncu böhran yüzilliyin (1900-1903-cü illər) əvəz edilməsi dövrünə təsadüf edir. XX əsrdə on üç təkrar istehsal böhranı baş vermişdir. Beləliklə, bütövlükdə iyirmi iki böhran, o cümlədən on doqquz dünya böhranı baş vermişdir. Son böhran 2007-ci ildə başlanan və hazırda davam edən ipoteka böhranıdır.

Əgər əvvəllər böhran zamanı qiymətlər enirdisə, indi isə onlar artır, yəni böhranlar staqflyasiya ilə xarakterizə olunur.

Dünya iqtisad ədəbiyyatında 2008-ci ildə Amerikanın ən iri maliyyə qurumlarından biri olan "Lehman Brothers" bankının iflasa uğradığını rəsmən elan etməsi hazırkı maliyyə böhranının başlanğıcı sayılır. O zaman böhranın gələcəkdə təkrarlanmaması sahəsində heç bir addım atılmamışdır. İqtisadçıların fikrincə, böhran maliyyə tənzimlənməsi üzrə qanunvericilikdə ciddi addımların atılmasına səbəb olmalı idi, lakin bu baş verməmişdir. İqtisadçıların qənaətinə görə əgər müasir dövrdə hər hansı iri maliyyə qurumu 2008-ci ilin sentyabrında "Lehman Brothers" kimi iflasa uğrasa, tənzimləyici orqanlar yenə də əvvəlki vəziyyətlə üzləşəcək ki, bu da yeni böhranın birdən-birə güclənməsinə səbəb ola bilər.

Riçard Dunkan müasir dünya iqtisadi böhranını fövqəl kreditləşməyə görə yaranmış fövqəl istehsal obyektlərinin böhranı adlandırmışdır.[2]

Görünür elə bu səbəbdən 2011-ci ildə böhran dalğası yenidən bütün dünyanın diqqət mərkəzində oldu. Hətta iş o yerə çatdı ki, fransız varlıları bəyan etdilər ki, ölkənin maliyyə problemlərinin həllinə yardımçı olmaq istəyirlər. Bu məqsədlə hökumətə

---

[1]Bax: Ю. Пахомов, С.Пахомов. Мировой финансовый кризис: цивилизационные истоки. «Экономист»Журнал. 2009, № 2, с. 37.

[2] Bax: Riçard Dunkan. Dolların böhranı / rus dilindən tərcümə. Bakı: "İqtisadi Universiteti" nəşriyyatı. 2009, s.203.

təklif ediblər ki, onlardan daha çox vergi alsınlar. Onlar bir vətəndaş, bir insan olaraq qeyd edirdilər ki, iqtisadi böhranın Fransanın və Avropanın gələcəyini təhdid etdiyi və hökumətin hər kəsdən həmrəylik istədiyi bir zamanda bizim yardımçı olmağımız vacibdir.

İngiltərə də iqtisadi böhrandan çıxmaq üçün tədbirlər planı hazırlamışdır. Belə ki, qənaət tədbirləri çərçivəsində İngiltərə kraliçası II Yelizavetanın əməkhaqqının 2015-ci ilin aprel ayına qədər dondurulması nəzərdə tutulmuşdur. Buna səbəb kraliçanın gəlirlərinin son illərdə azalması olmuşdur. 1991-2002-ci illər arasında illik 77 milyon funt-sterlinq alan kraliçanın gəliri 2008-2009-cu illərdə 38 milyona düşmüşdür.

Böhranın nəticələrindən biri kimi ekspertlər tərəfindən dünyada ABŞ iqtisadiyyatının və dolların mövqelərinin zəifləməsi qeyd olunur. İnvestorlar ABŞ-da aşağı faiz dərəcələrinin və iqtisadiyyata külli miqdarda vəsaitlərin yönəldilməsinin nəticəsi olaraq inflyasiyanın kəskin artmasından ehtiyatlanırlar. Bundan başqa, böhran dünya iqtisadiyyatında inkişafda olan ölkələrin rolunu artırıb ki, nəticədə dünya iqtisadiyyatının koordinasiyası və ciddi qərarların qəbul edilməsi sahəsində “səkkizlik” (G-8) birliyi deyil, “Böyük 20-lər”in (G-20) birliyi daha aktualdır.

Böhran haqqında nəzəriyyələr ilk növbədə böhranların səbəblərini müəyyən edən baxışlar sistemidir. Müasir iqtisadi böhranın tarixi dərsləri böhranla əlaqədar klassik nəzəriyyələrə bir daha diqqət yetirilməsini, onların təhlil edilməsini zəruri edir. Çünki dünya iqtisadiyyatını idarə edən ölkələr və heç kim yeni böhranların baş verməməsinə zəmanət verə bilməz.

XX əsrin ikinci yarısında böhran mexanizmində əmələ gələn dəyişikliklər (ifrat istehsal qiymətlərinin artması, pulun alıcılıq qabiliyyətinin azalması) Qərb iqtisadçılarını bununla əlaqədar düşünməyə vadar etdi. O zaman böhranın səbəbləri dövlət xərclərinin çox olması ilə, inhisarların fəaliyyəti ilə (inhisarçı qiymətlərin qoyulması ilə) izah edildi.

XX əsrin 70-ci illərində isə sosial-iqtisadi vəziyyətin dəyişməsi böhranların səbəbinin izahında yeni mülahizələr yaratdı. Xalis monetar nəzəriyyə belə hesab etdi ki, istehsalın dövrü xarakteri ancaq pul tədavülünün qeyri-stabilliyi ilə (sabitliyi ilə) izah oluna bilər. Pulun miqdarının və tədavül sürətinin artması və yaxud azalması iqtisadiyyatda yüksəliş və tənəzzülün baş verməsinə gətirib çıxara bilər. Bu nəzəriyyəyə görə ilk baxışda ciddi görünən bir çox qeyri-pul amilləri (məsələn, zəlzələlər, müharibələr, təbii fəlakətlər) iqtisadi şəraitin pisləşməsinə səbəb olsa da onlar vəziyyətin uzun müddət üçün ümumi xarakter kəsb etməsinə, işsizlik və iqtisadi resurslardan tam istifadə edilməməsinə səbəb ola bilməz. Ona görə də bu nəzəriyyə bütün diqqətin pul amilinə verilməsini, xüsusən pul kütləsi vasitəsilə, yəni istehlak xərclərinin mənbəyini dəyişməklə iqtisadi aktivliyə nail olmağın mümkünlüyünü əsaslandırır.

Rusiyanın üzdə olan iqtisadçılarından biri Rusiya Elmlər Akademiyasının direktoru, professor R.Qrinberqin böhrana dair baxışları da maraq doğurur. Onun "Böhranla əlaqədar köpü kim yaratdı" məqaləsindəki fikrinə görə bu hadisənin kökləri XX əsrin 60-70-ci illərindən başlayır. O zaman bazarın hər şeyə qadir bir güc kimi hökmranlıq etməsi ideologiyası dünyada qələbə çalmaqla dövlətin iqtisadiyyata müdaxiləsi tam mənfi hadisə sayıldı. Nəticədə orta sinfə qayğı aradan qalxdı, yəni yoxsulların müdafiəsi sanki unuduldu və varlıların gəlirlərinin artmasına olan məhdudiyyətlər aradan qaldırıldı. Nəticədə əhlinin böyük kütləsinin alıcılıq qabiliyyəti aşağı düşdü. Elə bir təklifin artımı stimullaşdırıldı ki, məhsulların kimə satılacağı şübhə doğurur. Beləliklə, alıcılıq qabiliyyətinin azalması istehsalın da azaldılması zərurətini yaratdı. Deməli böhrandan çıxış üçün tələb lazımdır. Hazırda bu cür tələbi ancaq dövlət canlandıra bilər[1].

[1] Bax: Р.Гринберг. Кто надул пузырь кризиса. «Аргументы и факты» газета. 2012, № 8, с.17

İqtisadçı V.Luşin də böhranın aradan qaldırılmasında dövlətin rolunu xüsusi qiymətləndirir. O qeyd edir ki, iqtisadiyyatda kredit proseslərini aktivləşdirmək üçün dövlət bankların real sektorda investisiya qoyuluşları sahəsindəki riskləri ya əvəzləməli, ya da ki, öz üzərinə götürməlidir.[1]

İqtisadi təlimlər tarixindən məlum olan ifrat yığım nəzəriyyəsinə görə böhran istehsalın strukturunda disproporsiya yarandıqda baş verir. Bu nəzəriyyənin nümayəndələri M.Tuqan – Baranovski, Q.Kassel, A.Aftalon belə hesab edirlər ki, istehsal təyinatlı əmtəələr digər əmtəələrlə müqayisədə çox istehsal olunur, nəticədə istehlak əmtəələrinin qiyməti artır, pulun çatışmaması baş verir və böhran qaçılmaz olur.

Bu nəzəriyyənin iki variantı mövcuddur. Bunlar ifrat yığımın monetar və qeyri-monetar nəzəriyyələridir.

İfrat yığımın monetar nəzəriyyəsinə görə böhranın səbəbi istehsalın strukturundakı disproporsiyaların nəticəsində kreditin genişlənməsidir.

İfrat yığımın qeyri-monetar nəzəriyyəsinə görə isə əsas səbəb texnoloji amildir. Texnoloji amili hərəkətə gətirmək üçün isə istehlaka deyil, investisiyaya üstünlük verilməlidir.

Digər bir nəzəriyyə istehlakın kifayətsizliyi nəzəriyyəsidir. Onun nümayəndələri J.Sismondi və K.Rotbertusdur. Bu nəzəriyyəyə görə milli gəlirdə əməkhaqqının payı aşağı olduğundan yığım artır, yığılmış vəsait investisiyalaşma üçün istifadə olunmur, istehlak əmtəələrinə tələb azalır və nəticədə böhran baş verir.

Həm klassik nəzəriyyələrdə, həm də müasir nəzəriyyələrdə iqtisadi böhranın psixoloji faktorlarla bağlılığı mühüm yer tutur.

Keyns, Mitçell, Hayek, Robertson belə fikirdədirlər ki, optimizm və pessimizm iqtisadi fəallığa müsbət və mənfi təsirə

---

[1] Bax.: Лушин В. Реакция на кризис и ее последствия для реального сектора Российской экономики. «Вопросы экономики» Журнал. 2011. № 1, с.39.

malikdir, hətta onların təsir gücü faiz normasının, pul kütləsinin təsirindən zəif deyil, bu da böhranla və ya inkişafla nəticələnə bilər. İqtisadi alətlərlə optimizmi artırmaq mümkündür. Məsələn, onların fikrinə görə insanlar o vaxta qədər optimist olurlar ki, kredit genişlənir və deməli, tələb artır. Kredit azaldıqda, tələb aşağı düşdükdə onlar pessimizmə yuvarlanırlar.

Bu psixoloji nəzəriyyə istehlak, yığım və investisiya arasında meyilliyi təhlil etməyə əsaslanır (istehlak, yığım və investisiya, multiplikator və akselerator nəzəriyyələrində aydınlaşdırılır).

Kembric məktəbinin nümayəndəsi Artur Piquya görə cəmiyyətdə mövcud olan pessimizm və optimizm halları müvafiq olaraq iqtisadiyyatda böhran və yüksəliş hallarını doğurur. İfrat investisiyalaşmanın da borc probleminə səbəb olması şübhəsizdir.

İqtisadi nəzəriyyələrin səbəblərini izah edərkən daxili və xarici amillərin nəzərə alınması şübhəsiz vacibdir. Bununla əlaqədar P.Samuelsonun mövqeyi diqqəti cəlb edir. O, böhranla əlaqədar nəzəriyyələri eksternal və internal nəzəriyyələrə bölüb. P.Samuelson eksternal nəzəriyyədə iqtisadi səbəbləri xarici amillərdə görən baxışları nəzərdə tutur. Xarici amillər dedikdə isə müharibə, inqilab, siyasi hadisələr göstərilir.

Tarixi və müasir böhran nəzəriyyələrində nəinki böhranın nəticələri təhlil edilir, həmçinin profilaktik tədbir kimi, antitsiklik tənzimlənmənin həyata keçirilməsi də öz ifadəsini tapmışdır. Məsələn, yeni keynsçi baxışa görə məcmu tələbi dəyişdirmək, dövlət xərclərini artırmaq və yaxud azaltmaq, vergi sistemini dəyişdirmək baş verə biləcək böhrana qarşı mühüm təsir vasitələridir.

Yeni konservatorlara görə isə mühüm təsir vasitələri kimi pul-kredit siyasətinin dəyişdirilməsi, pul kütləsinin yuxarı və aşağı hədlərinin müəyyən edilməsi göstərilir.

Bütün məktəblərin özünəməxsus böhran nəzəriyyələri var. Klassik məktəbin böhran nəzəriyyələri fransız iqtisadçısı J.Seyin satış bazarı qanununa əsaslanır. Bu qanuna görə istehsal

təklif doğurur və mükəmməl rəqabət şəraitində tələblə-təklif öz-özünə tənzimlənir, ona görə də bu tənzimlənmə dövründə böhran baş verir. Bu tənzimlənmə ani baş vermir, müəyyən dövr tələb edir, bu dövr isə böhran dövrüdür.

P.Samuelson göstərir ki, Seyin bazarlar qanununa görə təklif tələbi yaradır. Onun fikrinə görə ümumi alıcılıq qabiliyyəti məcmu gəlir və məhsula tam bərabər olduğundan, artıq tələb və ya artıq təklifin mövcudluğu mümkün deyil. C.M.Keyns J.B.Seyin bu qanununu tənqid etmişdir. C.Keyns qeyd edirdi ki, heç də hər cür gəlir artımının istehlaka sərf olunması məcburi deyil[1]. C.Keynsə görə Sey və Rikardodan sonra iqtisadçı – klassiklər öyrədirdilər ki, təklifin özü tələb doğurur. Bu vaxt onlar çox da aydın olmayan, lakin son dərəcə mühüm bir müddəanı nəzərdə tuturdular: məhsulun bütün dəyəri birbaşa və ya dolayısı şəkildə onun alınmasına xərclənmişdir.[2]

Bəzi iqtisadçılar bazardan artıq məhsulun yığışdırılması üçün "üçüncü şəxslərin" zəruriliyini irəli sürürlər və yalnız bu halda böhranın aradan qaldırılmasını mümkün hesab edirlər. Bu fikir ingilis iqtisadçısı Maltusa və fransız iqtisadçısı S.D.Sismondiya məxsusdur. İqtisadi ədəbiyyatda Sismondinin bu nəzəriyyəsi, "istehlakın kifayətsizliyi" nəzəriyyəsi də adlanır.

İqtisadi fikir tarixində sadə və geniş təkrar istehsalın makroiqtisadi proporsiyalarını, məcmu ictimai məhsulun reallaşma şərtlərini müəyyən edən K.Marks ifrat istehsal böhranının səbəblərini kapitalizmin əsas ziddiyyətində və bu ziddiyyət nəticəsində makroiqtisadi proporsiyaların pozulmasında görürdü. Kapitalizmin əsas ziddiyyətini isə K.Marks istehsalın ictimai xarakteri ilə mənimsəmənin xüsusi kapitalist forması arasındakı ziddiyyət kimi vermişdir. Marksa görə böhrandan çıxmanın mühüm yolu əsas kapitalın yeniləşməsindən ibarətdir.

---

[1] Bax: Пол А.Самуэльсон, Вилям Д.Нордхаус. Экономика: пер. с англ. – М.: «БИНОМ», «Лаборатория базовых Знаний », 1997, с.639.

[2] Bax: Con Meynard Keyns. Məşğulluq, mənfəət və pulun ümumi nəzəriyyəsi. Qanun, 2001, s.20.

XX əsrdə iqtisadi böhranların məzmununda əmələ gələn dəyişikliklər iqtisadi böhran nəzəriyyəsində də əksini tapmışdır. Monetar sektorun inkişafı, dövlət – bazar iqtisadiyyatı əlaqəsinin dəyişməsi (iqtisadiyyatın liberallaşma dərəcəsinin artması ilə dövlətin rolunun azalması) belə bir fikrin yaranmasına səbəb olmuşdur ki, böhranın səbəbi bank kreditləri və bank faiz dərəcəsidir. Böhran dövründə bank kreditləri azalır, nəticədə faiz norması artır, bu da nağd pul kütləsinin azalmasına səbəb olur və ifrat istehsal böhranına gətirib çıxarır.

C.Keynsin yazdığına görə iqtisadi tsikldə xarakterik cəhət var ki, bu da böhran adlanır. O, böhranı gözlənilməz və kəskin yüksəlmənin enmə ilə əvəz edilməsi kimi göstərir.

K.F.Herman inkişafın öncül məqsədlərini ortaya atan hər bir gözlənilməz halı böhran adlandırır. Bu, fəaliyyətdə satış həcminin azalması, səhm kurslarının düşməsi, sosial münaqişələr və s. kimi kəskin dəyişikliklərdir ki, onların nəticələrini ölçmək olar.

A.A.Boqdanov böhranın həlli üçün iqtisadi sistemlərin transformasiyaya uğrayacağını söyləyir. Ya yeni sistemdə birləşirlər, ya da başqa komplekslərə ayrılırlar.[1]

Bu göstərilən nəzəriyyələrlə yanaşı, böhranları qeyri-iqtisadi, məsələn, siyasi amillərlə, təbii hadisələrlə, pis idarəetmə ilə izah edən nəzəri baxışlara da rast gəlmək olar.

Müasir qlobal iqtisadi böhran təkcə professional iqtisadçı alimlərin deyil, dünyanın görkəmli elm xadimlərinin də diqqət mərkəzində olmuşdur. Həmyerlimiz, dünya şöhrətli alim, qeyri-səlis məntiq nəzəriyyəsinin yaradıcısı Lütfi-Zadənin böhran haqqında fikirləri də maraq kəsb edir. Onun mülahizələrinə görə müasir iqtisadi böhran dünyada artan, lakin kifayət qədər düzgün tənzimlənməyən qarşılıqlı asılılıqlardan törəmişdir.

---

[1] Вах: Антикризисное управление. Теория и практика: учеб. пособие для студентов вузов, обучающихся по специальностям экономики и управления / (В.Я. Захаров и др.) ; под ред. В.Я.Захарова. – 2-е изд., перераб. и доп. – М.: ЮНИТИ – ДАНА, 2009, с.6.

Buradan belə bir fikir yaranmamalıdır ki, bu görkəmli alim dünyadakı asılılıqların azaldılmasının tərəfdarıdır. Əksinə Lütfi-Zadə belə hesab edir ki, bu asılılıqların artırılması müasir dövrün tələbidir və vacibdir. Lakin onlar düzgün idarə olunmalıdır.

Amerikada oğul Buşun hakimiyyəti dövründə düzgün idarə olunmayan bu asılılıqlar əvvəlcə bu nəhəng ölkədə, sonra isə bütün dünyada böhrana səbəb olmuşdur. Böhranın nəticələri o qədər ağır olmuşdur ki, az bir vaxtda onları aradan qaldırmaq mümkün deyildir.

Lakin bir həqiqət vardır ki, iqtisadi böhran iqtisadi sistem hadisəsidir. İndi artıq bazar iqtisadiyyatı sisteminin kifayət qədər səmərəli olmadığından geniş bəhs edilir. Dövlət tənzimlənməsinin qeyri-səmərəli və zəif olması, dövlət mülkiyyətinin kifayət qədər təsirli olmaması fikirləri də irəli sürülür.

Deməli, iqtisadi böhran hadisəsini konkret səbəblərlə deyil, daha geniş müstəvidə, yəni bir sistem hadisəsi kimi araşdırmaq lazımdır. Əlbəttə, bu da özlüyündə asan bir məsələ deyil və yeni alternativ nəzəriyyələrin yaranmasını tələb edir.

**İqtisadi böhranların daha tez-tez baş verməsi, onların qısa müddətdə dünya ölkələrinin əksəriyyətini bürüməsi, bu böhranların nəticələrinin daha ağır olması ondan xəbər verir ki, müasir iqtisad elmi problemin kökündən həllinə qadir deyil. Deməli, bu elmin özündə, xüsusən fəlsəfi əsaslarında dəyişikliklər etmək zərurəti yaranıb.**

Tarixən ənənəvi böhranlar kifayət qədər öncə görünən dövrə malik idilər, həmin böhranlar iqtisadiyyatı zəif və müflislərdən təmizləyir, güclülərə isə yol açırdı.

İndiki vəziyyətdə keçmiş anlayışlar kifayət deyil. Çünki indiki böhran əvvəlkilərdən radikal şəkildə fərqlənir. Bu böhran yalnız təzahür formalarına görə maliyyə böhranıdır. Əsas cəhət ondadır ki, maliyyə buludu arxasında daha dərin proseslər gizlənir.

Professor Q.Kolodko doğru olaraq göstərir ki, dünya iqtisadiyyatındakı hazırkı pozuntular maliyyə-iqtisadi böhranı ilə əlaqələndirilmir. Sarsıntılar ciddi maliyyə böhranından başladı.

O isə tez bir zamanda istehsal sferası üzərinə keçdi. İndi isə böhran sosial sferanı da əhatə etmişdir, buradan da tədricən siyasi sferaya keçməkdədir. Bütün bunların üzərinə isə dəyərlər və ideologiya sferasındakı böhran da əlavə olunmağa başlayır.[1]

Müxtəlif ölkələrin sivilizasiya dəyərlərinin rəqabəti gedişində zəifləyən, lakin hələ də hegemonluğunu saxlayan Qərb dünyası öz məğlubiyyətini dərk edərək müasir böhranı dayandırmağa çalışır. İlk növbədə söhbət dünyanın ən qlobal ölkəsi sayılan ABŞ-dan gedir. ABŞ təbiidir ki, indiki liderliyini müxtəlif yollarla davam etdirmək istəyir. Elə müasir böhran da həmin uğursuz özünümüdafiə cəhdlərinin nəticəsidir.

Böhran vasitəsilə sivil tərəqqinin qarşısının alınması cəhdləri hələ 1997-1998-ci illərdə baş vermişdir. O zaman da bunu maliyyə böhranı adlandırırdılar. Sanki kənardan belə görünürdü ki, Asiya ölkələri ən zəif və müdafiəsizdirlər. Uğurlu Qərbdən isə böhran yan keçdi.

90-cı illərdə Qərbi Avropada və ilk növbədə ABŞ-da hiss edirdilər ki, iqtisadiyyatları tərəddüdlə inkişaf edir. İqtisadi inkişafın mərkəzi Qərbdən yenidən dirçələn Şərqə keçir. O da hiss olunurdu ki, Qərbin qabaqcıl ölkələrində ənənəvi dəyərlər zəifləyir, Cənubi-Şərqi və Şərqi-Asiya ölkələri isə intibah dövrünü yaşayırlar. Rəqibin qarşısını almaq lazım idi və həmin dövrdə bu mümkün idi. Çünki "iqtisadi möcüzə"nin yeni yaradıcıları onda kifayət qədər müdafiə mexanizmlərinə malik deyildirlər.

Qəribə də olsa yeni iqtisadi inkişaf mərhələsinə qədəm qoyan Şərq ölkələri uğurlu şəkildə 3-4 il ərzində böhranı dəf etdilər. Bax bu həqiqi mənada "iqtisadi möcüzə" idi. Eyni vaxtda, o zamandan başlayaraq Qərb dünyasına daha bir güclü rəqib meydana çıxdı. Vaxtı ilə Napoleon Bonapart uzaqgörənliklə söyləmişdi ki, Çini oyatmayın, oyansa nə olacağını heç kim bilmir. Bəli, deyilən ifadə özünü doğrultdu, "Çin oyandı". Mao-

[1] Вах: Гж.Колодко. Неолиберализм и мировой экономический кризис. Журнал. «Вопросы экономики». 2010, № 3, с. 62.

nun onilliklərlə sürən rejimi dövründə Çin iqtisadiyyatı çox geri qalmışdı. Belə ki, Den Syaonun xəttinin qəbulu, inkişaf modelinin dəyişməsi Çinin aktiv şəkildə tərəqqisinə yol açdı. Syaonun etdiyini bir neçə sözlə ifadə etmək olar: "O, Şərqi dəyərlərə yeni həyat verdi. Konfutsiçilik[1]", buddizm[2] ənənələrini qaytardı. Bu da Çinin müasir uğurunun təməlini qoydu[3]. Dünya iqtisadiyyatında son 10-20 ilin göstəricilərinə nəzər salsaq görərik ki, davamlı iqtisadi artım Çindədir. Bütün dünyanı böhran bürüdüyü halda Çin bu böhrandan ən tez qurtulan dövlət oldu və öz iqtisadi inkişafını qorumağı bacardı[4].

Rusiyada "İnkişaf mərkəzi" adlı iqtisadi tədqiqatlar fondunun baş iqtisadçısı V.Mironov müasir iqtisadi böhranın səbəbini məhz Çin iqtisadiyyatının inkişafı ilə əlaqələndirir. O yazır ki, 2000-ci illərdə ucuz işçi qüvvəsi sayəsində Çinin dünya fabrikinə çevrilməsi bir sıra inkişaf etmiş ölkələrdən istehsalın burada yerləşdirilməsinə səbəb oldu. Lakin maliyyə sektorunun zəifliyi nəticəsində böyük məbləğdə kapitalın ABŞ-a axıb getməsinə şərait yaratdı və orada ucuz pul hesabına yeni maliyyə alətləri meydana gəldi. Bu iş nəzarətsiz həyata keçirildiyindən Çin pullarına alınmış istiqrazlar kəskin ucuzlaşdı. İnsanlar pullarını sərf etdilər, tələb azaldı. Amerika dövləti borca girərək iqtisadiyyata pul buraxmağa məcbur oldu. Lakin insanlardakı inamı

---

[1] Qeyd: Konfutsiçilik – qədim aparıcı ideya cərəyanlarından biridir. Onun banisi b.e.ə. təqribən.551-479-cu illərdə yaşamış Çin mütəfəkkiri "Konfutsi Kun - tszı"dır. Bu təlimdə əsas yeri, hökmdara sədaqət, oğul ehtiramı, alicənablıq, böyüklərə hörmət, borca sədaqət, bir sözlə, insanpərvərlik tutur.

[2] Qeyd: Buddizm –Çində Yaponiyada, Nepalda, Şri Lanka, Birma və bir sıra başqa ölkələrdə yayılmış dünya dinlərindən biridir. Bu təlim e.ə. 6-5 əsrlərdə Hindistanda meydana gəlmişdir. Buddizm elə bir dindir ki, mahiyyət etibarilə istəklərdən imtina etmək yolu ilə iztirablardan azad olmağı və nicata çatmağı təbliğ edir.

[3] Qeyd: Çin iqtisadiyyatının möcüzəli inkişafı haqqında əvvəlki monoqrafiyamda geniş yazdığıma görə təkrara yol verməmək üçün burada ötəri məsələləri qeyd etmişəm. (Bax: Qafarov Ş.S. Müasir iqtisadi sistem və qloballaşma. (Monoqrafiya). Bakı. 2005, s. 63-73).

[4] Bax: Ю.Пахомов, С.Пахомов. Мировой финансовый кризис: цивилизационные истоки. «Экономист» журнал. 2009, № 2, с.38.

qaytarmaq mümkün olmadı və borc problemi meydana gəldi. Amerikada baş verən bu hadisə sonra bütün Avropanı da bürüdü.

V.Mironovun fikrinə görə, bu ölkələrin borc problemlərini həll etmək üçün onların valyutalarını ucuzlaşdırmaq lazımdır. Avrozonada isə belə bir addım atmağa tələsmirlər.[1]

Müasir qlobal iqtisadi böhran artıq bütövlükdə dünya iqtisadiyyatına, o cümlədən ayrı-ayrı ölkələrin iqtisadiyyatına öz təsirini göstərmişdir.

Bəs müasir böhranın yaranma mənbəyi hansı proseslərdən başlamışdır? İlk növbədə ipoteka kreditinə tələb artmış, eyni zamanda bu kreditlərin miqdarı və həm də faizi yüksəlmişdir. İpoteka krediti alanlar onun qaytarılmasında çətinliklər qarşısında aciz qalmışlar. Eyni zamanda iflasa uğramış tərəf dəyər-dəyməzinə əmlakını satır ki, borcunu qaytarsın. Əlbəttə, öz pul vəsaitlərini inflyasiyadan qorumaq üçün daşınmaz əmlak alanlar da çoxalır. Banklar öz müştəriləri qarşısında öhdəliklərini yerinə yetirə bilmirlər və qarşılıqlı borc problemi, yəni böhran baş verir. Rəsmi məlumatlara görə bu böhrandan yaranan itkilər o zaman 3 trilyon dolları ötmüşdür. Nüfuzlu beynəlxalq təşkilatların, görkəmli dövlət xadimləri və iqtisadçıların, "Böyük 20-lərin", "8-liklərin" görüşləri, Davos iqtisadi forumunun müzakirələri göstərir ki, böhrandan real çıxış yolu və onun bir daha təkrarlanmamasının mühüm vasitəsi dövlətin siyasətindən və nəzarətinin tənzimlənməsindən ibarətdir. Xüsusən də maliyyə vəsaitlərinin istifadəsi ilə əlaqədar tənzimlənmə mexanizminin işlənib hazırlanmasının vacibliyi irəli sürülür.

Beləliklə, artıq müasir qlobal dünya iqtisadi böhranın kifayət qədər ümumiləşdirildiyini də söyləmək olar. Bu böhranın dərsləri hələ mükəmməl konsepsiyalar ortaya qoymasa da bir çox fikirlərin ümumiləşdirilməsinə səbəb olmuşdur. Bu fikirlərin gələcəkdə öyrənilməsi elmi cəhətdən maraq kəsb etməyə bilməz.

---

[1] Bax: «Аргументы и факты» qəzeti 2012, № 8, s.17.

## 9.3. Pul-kredit siyasəti və böhran

Son onilliklər ərzində dünya iqtisadiyyatında və milli iqtisadiyyatlarda baş verən dəyişiklər pul-kredit siyasətində də özünü göstərmişdir.

Maliyyə qloballaşması və dünya iqtisadi böhranı yeni reallıqların ortaya çıxmasına səbəb olmuşdur. Xüsusən pul-kredit sistemi ilə maliyyə bazarları arasında əlaqələrdə müəyyən dəyişikliklər özünü göstərməkdədir. Qloballaşma dünya iqtisadiyyatının sanki strukturunu dəyişmiş və maliyyə bazarlarının sürətli inkişafına səbəb olmuşdur. Əvvəllər maliyyə bazarlarının vəzifəsi real sektorun fəaliyyətini təmin etmək idi. Müasir dövrdə isə maliyyə bazarının həcmi artmış və iqtisadi münasibətlərin liberallaşmasının doğurduğu möhtəkirlik əməliyyatlarının nəticəsi olmuşdur.

Pul-kredit siyasətində keyfiyyət dəyişikliklərini ifadə etmək üçün iqtisadi ədəbiyyatlarda maliyyə qloballaşması anlayışından istifadə olunur. Maliyyə qloballaşması sadə şəkildə kapitalın ölkələrarası axınının artımını ifadə edir. Artıq ekonomiksdə bu hadisə Mandella – Fleminq modelinin tətbiqi ilə nəzəri cəhətdən təhlil edilir. Bu modeldən alınan praktiki nəticə ondan ibarətdir ki, kapitalın hərəkəti və ümumiyyətlə, pul-kredit siyasətinin effektliyi valyuta məzənnəsinin seçilmiş rejimindən asılıdır[1]. Müasir ekonomiksdə valyuta məzənnəsinin iki

---

[1] Qeyd: Makmillanın müasir iqtisadi nəzəriyyə lüğətində yazılır ki, Mandella – Fleminq modeli bir-birindən asılı olmayan iki iqtisadçı tərəfindən ayrılıqda işlənilmiş modelə görə büdcə və pul-kredit siyasətinin əhəmiyyəti valyuta kurslarının qəbul olunmuş rejimindən asılıdır. Kapitalın tam mobilliyi ehtimalında model valyutanın qəti müəyyən kursu şəraitində pul-kredit siyasətinin qeyri-effektivliyini, valyutanın çevik kursu şəraitində isə büdcə siyasətinin qeyri-effektivliyini göstərir. Belə bir nəticəyə misal uyğunluq problemini göstərmək olar. Model açıq iqtisadiyyat və valyuta kurslarının müəyyənləşdirilməsi üzrə makroiqtisadi nəzəriyyənin başlanğıcıdır. (Bax: Словарь современной экономической теории Макмиллана. – М.: ИНФРА – М, 2003, с. 343).

mühüm formasından "üzən valyuta məzənnəsi" və "təsbit edilmiş valyuta məzənnəsindən" istifadə edilir.

Modelin mühüm ilkin şərti odur ki, ölkə daxilində faiz dərəcəsi dünyadakı faiz dərəcəsi ilə uyğun gəlir. Bu, ölkələrarası kapitalın mobilliyini təmin edir. Buradan belə bir nəticə alınır: üzən valyuta rejimində milli pul-kredit siyasəti daha səmərəlidir. Çünki real milli gəlirə yaxşı təsir edir.

Təsbit edilmiş valyuta məzənnəsi şəraitində isə pul-kredit siyasəti səmərəli deyil. Beləliklə, məlum olur ki, pul-kredit siyasətinin ölkə iqtisadiyyatına təsiri bu siyasətin valyuta məzənnəsinə təsirinə əsaslanır.

Pul-kredit siyasətinin təsbit edilmiş valyuta məzənnəsi şəraitində məhsul buraxılışına təsiri ancaq devalvasiya və revalvasiya aparmaqla mümkündür. Lakin bu effekt müvəqqəti olur, nəticədə ölkələr arasında qiymətlər səviyyəsi bərabərləşir. Həm də təsbit edilmiş kursun dəyişdirilməsi ölkədə aparılan siyasətə inamı azaldır.

Hazırkı mərhələdə pul-kredit siyasətinin ən mühüm parametri inflyasiyadır. Makroiqtisadiyyat sistemində pul üstünlüyü mövqeyindən M. Fridmenin tərəfdarları inflyasiyaya qiymətlərin daimi və sabit artımı kimi baxırlar. Lakin burada diqqəti cəlb edən ən əsas məsələ ondan ibarətdir ki, təhlil obyekti kimi pul amili götürülür. M. Fridmen yazırdı: **"Siz inflyasiya prosesini araşdırmaq istəyirsinizsə, pul axtarın". "İnflyasiyada həmişə və hər yerdə pul fenomeni mərkəzi yer tutur." Bu şübhəsizdir, çünki inflyasiyanın nəticəsi pulun qiymətdən düşməsidir və bu da pul amilindən asılı olan şeydir. Lakin monetarizm inflyasiya prosesində pula üstünlük verir. Onun qeyri-monetar amillərini nəzərə almır**[1]**.** Bazar iqtisadiyyatı şəraitində inflyasiyanın meydana gəlməsi obyektiv bir

---

[1] Bax: Красавина Л.Н. Регулирование инфляции: мировой опыт и российская практика / Л.Н.Красавина, В.Я. Пищик. – М. Финансы и статистика, 2009, с.74; Фридмен М. Если бы деньги заговорими…/ Пер.с англ.- М-.: Дело, 1999, с. 112.

prosesdir[1]. İnflyasiya – pulun qiymətdən düşməsi prosesidir ki, bunun da nəticəsində pul və əmtəə kütləsi arasında uyğunsuzluq yaranır. Bu zaman inflyasiya istər qiymətlərin artmasında, istərsə də onların süni sabitliyi vaxtında özünü büruzə verir. İnflyasiya əleyhinə iqtisadiyyat aşağıdakı göstərilən şərtlərə nail olmaqla fəaliyyət göstərə bilər:

**1.** Pula olan tələb və təklif arasında bərabərliyə.

**2.** Büdcə kəsirinin olmamasına.

**3.** Əmanətlər üçün faiz dərəcəsi ilə, inflyasiyanın bərabər olmasına.

**4.** Əməkhaqqının inflyasiya dərəcəsinə uyğun indeksləşdirilməsinə.

Nə qədər ki, bu şərtlər qeyri-realdır, potensial olaraq inflyasiya prosesi bazar iqtisadiyyatı üçün xas olan obyektiv xüsusiyyətdir. Ona görə də dövlətin əsas vəzifəsi inflyasiyanı aradan qaldırmaq deyil, onun üzərində nəzarət tətbiq etməkdən ibarətdir.

İnflyasiya iki cür baş verə bilər: gizli və açıq. Gizli inflyasiya qiymətlər və gəlirlər üzərində sərt inzibati nəzarət olduğu zaman mümkündür. Bu növ inflyasiya gizli xarakter daşıyır və demək olar ki, iqtisadiyyat boğulur. Belə inflyasiya inzibati iqtisadiyyata xasdır. Madam ki, gizli inflyasiya bazar mexanizmini dağıdır, onunla mübarizə onun açıq inflyasiyaya keçirilməsidir.

Qiymət artımı kimi, gəlirlərin artımı da açıq inflyasiya üçün xarakterikdir. Bu zaman qiymət artımı arasıkəsilmədən gəlirlərin artımını ötüb keçir. Açıq inflyasiyanın aşağıdakı növlərini fərqləndirmək lazımdır:

1. Xərclərin inflyasiyası.
2. Staqflyasiya.
3. Uyğunlaşdırılaraq gözlənilən inflyasiya.

Xərclərin inflyasiyası nəhayətsiz, genişlənmə qabiliyyəti olan spiralla xarakterizə edilir. Harada ki, əməkhaqqının artımı

---

[1] Вах: Экономическая безопасность России: Общий курс: Учебник / Под ред. В.К. Сенчагова. 2-е изд.- М.: Дело, 2005, с. 414 – 415.

əmtəələrin qiymət artımını sıxışdırır, bu zaman qiymətlərin artımı həmişə əməkhaqqının artımını ötüb keçir.

Staqnasiya latınca "staqnum" – "durğun su" deməkdir. İstehsalda, ticarətdə və iqtisadiyyatın digər ünsürlərində durğunluqdur; sıfır, ən aşağı və ya mənfi iqtisadi artım (inflyasiya nəzərə alınmaqla) dövrüdür; bazarda aşağı fəallıq dövrüdür.

Staqflyasiya[1] (staq (nasiya) +n(flyasiya)) – ölkənin inflyasiya meyillərinin inkişafı zamanı durğunluqla səciyyələnən iqtisadi vəziyyətin, yəni iqtisadi böhranın inflyasiya ilə əlaqələndirilməsidir. Başqa sözlə, iqtisadiyyatın elə vəziyyətidir ki, bu zaman istehsalın durğunluğu və ya tənəzzülü (staqnasiya) artan inflyasiya ilə və qiymətlərin fasiləsiz artımı ilə - inflyasiya ilə əlaqədardır.

Uyğunlaşdırılaraq gözlənilən inflyasiya qiymət artımının daima gözlənilməsi ilə xarakterizə olunur.

İnflyasiya iqtisadiyyata aşağıdakı istiqamətlərdə mənfi təsir göstərir:

1. İqtisadiyyatda uyğunsuzluğu gücləndirir. Əmtəə və xidmətlər sahəsində qiymətlərin qeyri-bərabər qalxması sahələr üzrə gəlir normasının bərabərsizliyini dərinləşdirir. Bu, bəzi ölkələrdə istehsalın genişlənməsinə, digər ölkələrdə isə azalmasına gətirib çıxarır.

2. Pulun qiymətindən düşməsi kapital yığımı prosesinin, uzunmüddətli investisiya və kreditin qarşısını alır.

3. İnflyasiya kapitalın sürətlə dövr etdiyi və gəlir gətirməli olan xidmət sahəsinə tərəf axına səbəb olur.

4. İnflyasiya nəticəsində kapitalın bütün formaları qiymətdən düşür: istehsal güclərinin natamamlılığı ilə əlaqədar – məh-

---

[1] Qeyd: Staqflyasiya anlayışı 1970-ci illərin əvvəllərində yaranmışdır. Bu hadisə inflyasiya prosesinin ətalətli təbiəti ilə izah olunurdu. Məhz 1970-ci illərdə staqflyasiya ilə mübarizə bir nömrəli problem idi. Staqflyasiya yüksək işsizliyin (və ya staqnasiyasının) inflyasiya ilə müşahidə olunduğunu təsvir edirdi. (Bax:Пол А. Самуэльсон, Вильям Д. Нордхаус. Экономика: Пер. с англ. – М.: «БИНОМ», «Лаборатория Базовых Знаний», 1997, с. 422; 435-436).

suldar kapital; pulun alıcılıq qabiliyyətinin aşağı düşməsi ilə əlaqədar – pul kapitalı; satışın çətinliyi ilə əlaqədar - əmtəə kapitalı.

5. Spekulyasiya (alver) artır.[1] Əmtəə və xidmətlərə tələbatın regionlar üzrə qeyri-bərabər bölgüsü spekulyasiyanı (alveri) artırır; ticarət və maliyyə vasitəçilərinin daşınmaz əmlak və torpaq sahibkarlarının spekulyativ (alverçi) kapital yığımı artır.

6. Real əməkhaqqının aşağı düşməsi və gəlirlərin təsbit edilməsi nəticəsində tələbatın, alıcılıq qabiliyyətinin sıxılması bir sıra malların satışını çətinləşdirir və daxili bazarın həcmini azaldır.

7. İnflyasiya istehlak tələbatının strukturunu təhrif edir. Qiymətlərin qalxması puldan maddi sərvətlərə tərəf "qaçış" doğurur. Varlı təbəqələr "əllərini yandıran" qiymətdən düşmüş pullardan xilas olmaq məqsədi ilə daşınmaz əmlak, torpaq, rəsm əsərləri, qızıl, xəz, zinət əşyaları almağa meyil edirlər.

İnflyasiya şəraitində formalaşan, pul yığımına zidd olaraq istehlaka yüksək meyillilik investisiya və iqtisadi artımı pozur.

8. İnflyasiya, bank sisteminin resurslarını ucuzlaşdırmaqla ona mənfi təsir göstərir, bu isə müştərilərin pul yığımının azalmasına gətirib çıxarır. İnflyasiya riski, onun effektiv sığortalanmadığı halda, banklara böyük zərər vurur.

9. Büdcə sistemində də gəlirlərin qiymətdən düşməsində və büdcə xərclərinin artmasında inflyasiyanın mənfi təsiri öz əksini tapmışdır.

---

[1] Qeyd: professor Tofiq Quliyev qeyd edir ki, bir çox postsovet ölkələrində olduğu kimi Azərbaycanda da yeni inflyasiya növü mövcuddur. O, bunu spekulyativ inflyasiya forması adlandırır. Professor bunu onunla əsaslandırır ki, Azərbaycanda əmtəə qıtlığından irəli gələn inflyasiyayaradıcı bir hal yoxdur. Ona görə ki, respublikamızda bazarların ərzaq və sənaye mallarının əmtəə tutumluğu kifayət qədərdir. (Bax: Tofiq Quliyev (Tofiq Fərid). İnflyasiyanın anatomiyası. Bakı, 2006, s.10).

10. İnflyasiya pul sisteminin stabilliyini pozur. Güclü inflyasiya denominasiyanı, qiymətdən düşmüş pulların yeni pullarla əvəz edilməsini və dəyər, pul islahatlarını qaçılmaz edir.[1]

Deməli, dünya iqtisadiyyatının taleyi inflyasiya hadisəsinin tənzimlənməsindən çox asılıdır. Müasir dünyada qiymətlərin dinamikasına diqqət yetirdikdə onun sürətinin azaldığını müşahidə etmək olar, lakin eyni zamanda iqtisadi artımın azalması da müşahidə edilir. Bu hadisənin nəzəri cəhətdən təhlil olunması tələb olunur. Bunun üçün S.Kalderon və K.Şmit – Hebbel modelinə müraciət etmək lazım gəlir.

Bu modeldə 1975-2005-ci illər üçün dünyanın 97 ölkəsində inflyasiya proseslərinin amilləri təhlil olunmuşdur. Nəticədə belə bir fikir təsdiq olunmuşdur ki, qlobal maliyyə inteqrasiyası inflyasiyanın sürətini aşağı salır və pul-kredit orqanlarında qayda yaradılmasına təsir edir. Eyni zamanda aşkarlanmışdır ki, qısamüddətli dövrdə inflyasiyanın sürəti büdcə-vergi siyasətinin parametrlərindən asılıdır. Bu da məlum olmuşdur ki, adambaşına gəlirlərin səviyyəsi yüksək olan ölkələrdə inflyasiyanın sürəti daha azdır. Çünki, bu ölkələrdə iqtisadi aktivlik yüksəkdir.

Deməli, qlobal iqtisadiyyat şəraitində inflyasiya ilə iqtisadi artım arasında qarşılıqlı əlaqə mövcuddur.

Hətta, M.Çikarelli və B. Modjana "qlobal inflyasiya[2]" amillərini təhlil edərkən belə nəticəyə gəlmişlər ki, dünyada inflyasiya sənaye istehsalının qlobal göstəricilərindən və nominal əməkhaqqından asılıdır. Deməli, milli iqtisadiyyat səviyyəsində

---

[1] Вах: Красавина Л.Н. Регулирование инфляции: мировой опыт и российская практика / Л.Н. Красавина, В.Я.Пищик. – М.: Финансы и статистика, 2009, с. 45-46.

[2] Вах: «Вопросы экономики» журнал. 2009, № 2.

pul-kredit siyasəti həyata keçirilərkən Mərkəzi bank qlobal iqtisadiyyatın göstəricilərindən istifadə etməlidir.[1]

Deməli, qlobal amillərin firmanın xərclərinə və daxili inflyasiyaya təsiri mühüm bir iqtisadi problemdir. Buna, çoxlu misallar çəkmək olar. Məsələn, 2000-ci ildən başlayaraq 2008-ci ilin ortalarına qədər davam edən enerjidaşıyıcılarının qiymət artımı inflyasiya proseslərinə ciddi surətdə təsir etmişdir. Bu təsir məcmu təklifin dəyişməsi ilə baş vermişdir.[2]

Alman alimi və siyasi xadimi, sosial-bazar təsərrüfatı nəzəriyyəsi və təcrübəsinin banisi, "Alman iqtisadi möcüzəsi"nin müəllifi – L.Erxardın inflyasiya probleminə baxışı maraq kəsb edir. O yazırdı: "Mən istəyirdim ki, Almaniya xalq təsərrüfatında belə bir dünyagörüşü formalaşsın ki, hər alıcı almaq istədiyi əmtəənin qiymətinin baha olub-olmadığı haqqında dərindən düşünsün. Digər tərəfdən isə, nə isə istehsal və ya təklif edən hər bir kəs düşünməlidir ki, qiymətlərin davamlılığı və bizim xalq təsərrüfatının möhkəmliliyinin təminatı nöqteyi-nəzərdən onun təklif etdiyi qiymət həqiqətə uyğun olsun".[3]

Almaniyanın müharibədən sonrakı təcrübəsi əyani şəkildə sübut edir ki, insan amilinin bu prosesə müdaxiləsi olmadan uğurlu iqtisadi dəyişikliklər qeyri-mümkündür.

Qloballaşma şəraitində pul-kredit siyasətinin mübahisəli məsələlərindən biri də valyuta məzənnəsi rejiminin seçilməsidir. Valyuta məzənnəsinin tənzimlənməsi xüsusi aktuallıq kəsb edir. Məlumdur ki, hazırda ABŞ dolları de-fakto dünya valyuta statusunu saxlamışdır. Bu da ABŞ-ın istənilən ölkədə valyuta məzənnəsinə təsiri imkanlarını göstərir. Hətta aparıcı ölkələr öz

---

[1] Qeyd: Belə nəticə çıxır ki, hər hansı bir ölkədə inflyasiya digər inkişaf etmiş ölkədə sənaye istehsalının göstəricilərindən və nominal əməkhaqqının səviyyəsindən asılı olur.

[2] Qeyd: Məsələn, dünya bazarında neftin qiymətinin artması ölkədə firmaların istehsal etdikləri məhsulun xərclərinin artmasına, bu da öz növbəsində qiymətlərin artmasına, yəni inflyasiyaya səbəb olur.

[3] Bax: Эрхард Л. Благосостояние для всех. М.: 1991, с. 242.

valyutalarını dollarla münasibətdə tənzimləyirlər. Dolların özünəməxsus inhisarçılığı mövcud olmuşdur ki, bu da həmişə onunla razılaşmağı bir zərurətə çevirmişdir. Bu hal indi də davam edir. Hətta avronun möhkəmlənən mövqeyi şəraitində Avropada pul-kredit siyasəti ilə ABŞ-da pul-kredit siyasətinin koordinasiya edilməsi vəziyyətdən çıxış üçün yol sayılır. Məsələn, iqtisadi böhran başlanana qədər Amerikanın Federal Ehtiyat Sistemi iqtisadi artımı təmin etmək xəttinə üstünlük verirdisə, Avropa Mərkəzi Bankı inflyasiyaya qarşı mübarizəyə üstünlük verirdi.

Dünya maliyyə böhranı mövcud makroiqtisadi siyasətdə çatışmazlıqları üzə çıxarıb. Belə ki, Mərkəzi banklar iqtisadiyyatın tənzimlənməsi zamanı uçot dərəcələrinə üz tuturlar. Bunu nəzərə alaraq Beynəlxalq Valyuta Fondu (BVF) 2010-cu ildə Mərkəzi banklara maliyyə böhranının aradan qaldırılması zamanı pul-kredit tənzimlənməsi sferasında fəaliyyətə sərbəstlik yaratmaq məqsədilə adi vaxtlarda yüksək inflyasiya səviyyəsinə səy göstərməyi tövsiyə etmişdir. BVF təklif irəli sürdüyü zaman dünyanın əksər Mərkəzi banklarında inflyasiyanın hədəf səviyyəsi 2 faiz təşkil edirdi. BVF bu səviyyəni 4 faizə qaldırmağı tövsiyə edirdi. Onların fikrincə, böhran olmayan dövrdə 4 faizlik inflyasiya şəraitində uçot dərəcələri 6-7 faiz təşkil edəcək və Mərkəzi banklar zərurət olduqda onu azaldacaqlar.

2011-ci ildə Beynəlxalq Valyuta Fondunun (BVF) icraçı direktoru Kristin Laqard inkişaf etmiş ölkələrin siyasətçilərini iqtisadiyyatın bərpası və artımın stimullaşdırılması üçün bütün mümkün üsullardan, o cümlədən qeyri-standart tədbirlərdən istifadə etməyə çağırıb. O, borcların təkrar maliyyələşdirilməsində çətinliklə üzləşən ölkələrə büdcə konsolidasiyası yolundan kənara çıxmağı məsləhət görüb. Kristin Laqardın fikrincə, sürətli konsolidasiya iqtisadiyyata zərər vurur və əmək bazarının perspektivlərini pisləşdirir. Ona görə də çətinlik büdcə korreksiyasının optimal templərini tapmaqdadır. K.Laqard hesab edir ki, Mərkəzi bankların siyasəti indi daha çox stimullaşdırıcı ol-

malıdır. Çünki bazarda yeni böhran təhlükəsi inflyasiyanın sürətlənməsi təhlükəsindən daha böyükdür.

Belə siyasət ölkələrin öz ehtiyat aktivlərini qorumaq zərurətindən irəli gəlirdi. Deməli, maliyyə qloballaşması hər bir ölkədə pul-kredit siyasətinin məqsədlərinə diqqət yetirməyə müəyyən şərait yaratmışdır. Bu təbiidir, çünki nəzəri cəhətdən məlumdur ki, pul-kredit siyasətinin iqtisadi fəallığa təsiri, faiz dərəcəsi, valyuta məzənnəsi, kredit və aktivlərin qiyməti vasitəsilə baş verir.

Faiz dərəcəsinin azalması kreditin ucuzlaşması deməkdir, bu da investisiyanın istehlakının artmasına səbəb olur. Belə şəraitin yaranması isə öz növbəsində kapitalın ölkəyə gəlməsi və ölkədən getməsi vasitəsilə valyuta məzənnəsinə təsir edir.

Beləliklə, faiz dərəcəsinin azalması ölkədən kapitalın axıb getməsinə, artması isə ölkəyə kapital axınına səbəb olur. Bu da valyuta kursuna təsir edir.

Nəhayət, aktivlərin qiyməti ilə əlaqədar olan mexanizm səhmlərin məzənnəsinin dəyişməsi nəticəsində investisiya və istehlak səviyyəsinin dəyişməsini göstərir.

Daxili və dünya faiz dərəcələrinin yaxınlaşması meylindən belə bir nəticəyə gəlmək olar: qloballaşma prosesi faiz dərəcələri vasitəsilə pul-kredit siyasətinin iqtisadiyyata təsir imkanlarını azaldır, valyuta məzənnəsi mexanizmi vasitəsi ilə isə bu təsiri artırır.

Məlum olmuşdur ki, böhranın bank sisteminə təsiri maliyyə bazarları (ipoteka qiymətli kağızları, səhm bazarı) vasitəsilə baş verib. Belə olduqda bankların böhrana təsiri də maliyyə bazarlarından kənarda təsəvvür olunmur.

İnkişaf etmiş ölkələrdə Mərkəzi bankların böhrana reaksiyası bir neçə istiqamətdə mövcud oldu. İlk mərhələdə Mərkəzi banklar pul-kredit siyasətinin standart alətlərindən istifadə etdilər. Bu alətlərə açıq bazarda əməliyyatlar və baza faiz dərəcələrinin dəyişməsi daxil idi. Nəticədə faiz dərəcələri bir sıra ölkələrdə sıfır dərəcəyə endirildi. Lakin qısa bir müddətdə bu cür standart tədbirlərin görülməsi mümkünsüz oldu. Ona görə də

Amerikanın Federal Ehtiyat Sistemi, İngiltərə bankları pul-kredit siyasətinin yeni elementlərini ortalığa atdılar.

Bu alətlər qiymətli kağızlar bazarını bütövlükdə deyil, ayrı-ayrı seqmentlərini qorumağa yönəldildi. Məsələn, bəzi qiymətli kağızların qiymətləri artırıldı, Mərkəzi bankların kommersiya banklarına verdikləri vəsaitlərin müddəti uzadıldı, pul təklifinin artırılmasına baxmayaraq məcmu tələbin azalmasının qarşısını almağa yönələn xüsusi tədbirlər görüldü. Əslində pul təklifini artırmaqla inflyasiyanın baş verə biləcəyi təhlükəsi diqqətdən kənarda saxlanıldı, başqa sözlə, sanki inflyasiya vasitəsilə böhrandan çıxmanın qaydaları müəyyən olundu. Beləliklə, pul-kredit siyasətinin modelində yeniliklər edildi.

Bu iqtisadi manevr tədbirlərinin Rusiyada həyata keçirilməsi üçün müəyyən məntiqi ardıcıllıq yaradıldı. İlk növbədə bank sisteminə yardım siyasəti həyata keçirildi, ikinci istiqamət kimi valyuta məzənnəsinin tənzimlənməsi (xüsusən böhranın şiddətli fazasında) təmin olundu. Bu tədbirlər də öz nəticəsini verdi.

Artıq postböhran dövrünün pul-kredit siyasətinin strategiyası da müəyyənləşdirilmişdir. Bu strategiyada iki cəhət (məsələ) maraq doğurur:

1. Dünya valyuta sisteminin perspektivlərinin nəzərə alınması.
2. Milli iqtisadiyyatın inkişaf etdirilməsi.

Dünya valyuta sisteminin perspektivlərinin müəyyən edilməsilə nəinki böhran hallarını görmək və aradan qaldırmaq, həm də məlum itkilərdən yaxa qurtarmaq imkanları əmələ gəlir. Bu fikri aydınlaşdırmaq üçün aşağıdakı cədvələ diqqət yetirməyi məqsədəuyğun hesab edirik.

**Dünya ölkələrinin valyuta ehtiyatlarının strukturu**[1]
(əsas valyutalar üzrə faizlə )

| | 2002 | 2003 | 2004 | 2005 | 2006 | 2007 | 2008 | 2009 II kv. |
|---|---|---|---|---|---|---|---|---|
| Dollar | 67,1 | 65,9 | 65,9 | 66,9 | 65,5 | 64,1 | 64,1 | 62,8 |
| Avro | 23,8 | 25,2 | 24,8 | 24,0 | 25,1 | 26,3 | 26,6 | 27,5 |
| Funt-sterlinq | 2,8 | 2,8 | 3,4 | 3,6 | 4,4 | 4,7 | 4,1 | 4,3 |
| Ya-pon iyeni | 4,4 | 3,9 | 3,8 | 3,6 | 3,1 | 2,9 | 3,1 | 3,1 |
| İsveç frankı | 0,4 | 0,2 | 0,2 | 0,1 | 0,2 | 0,2 | 0,1 | 0,1 |

*Mənbə: Cədvəl məlumatları BVF rəqəmləri əsasında hesablanıb. (www.imf.org/external/np/sta/cofer/)*

Bu cədvəldən göründüyü kimi, son 6 il ərzində ehtiyat valyutaların dollarla saxlanmasında azalma müşahidə edilib. Əksinə, dünya ölkələri valyuta ehtiyatlarında avronun xüsusi çəkisi artıb. Digər mühüm valyutaların məsələn, funt- sterlinqin, yapon ieninin, İsveçrə frankının xüsusi çəkisində isə tərəddüdlər (artıb-azalma) müşahidə edilir.

Bununla belə dollarla aparılan sövdələr, yenə də üstünlük təşkil edir. Dünya valyuta bazarında onun xüsusi çəkisi 85%-dən çoxdur. Deməli, dünya iqtisadiyyatında baş verən bu meyilləri kifayət qədər düzgün nəzərə almaqla müəyyən itkilərdən xilas olmaq mümkündür.

Azərbaycan Mərkəzi Bankının hesablarına görə valyuta ehtiyatlarımızın dollarla saxlanılmasında azalma baş vermişdir.

[1] Вах: «Вопросы экономики» журнал. 2010, № 1, с.17.

Bu sahədə geniş diversifikasiya siyasəti (ehtiyatları daha çox müxtəlif valyutalarda saxlamaq) aparılır.

Azərbaycanda 2010-cu ilin yayında avronun manata nisbətən məzənnəsi 2002-ci ildən sonra ən aşağı həddə düşmüşdü. Məsələ bundadır ki, avro həm dollara, həm də manata nisbətən kəskin ucuzlaşmışdır. Lakin maraqlı cəhət odur ki, manatın dollara nisbətən məzənnəsi dəyişməmişdir. Bu ucuzlaşma davam edirdi. Sual olunur dolları da bu aqibət gözləyə bilərmi? Yaxın günlərdə qəflətən avronun məzənnəsi qalxa bilərmi?

Valyuta siyasətində yaranan bu boşluqlar Azərbaycan iqtisadiyyatı üçün həlli vacib problemlərdəndir. Lakin bu problemləri süni şəkildə, müvəqqəti olaraq aradan qaldırmaq gələcəkdə iqtisadiyyatımıza zərbə vura bilər.

Hazırda Mərkəzi Bankın valyuta ehtiyatları 2013-cü ilin 9 ayı ərzində 1568 mln ABŞ dolları artaraq 14208,4 mln ABŞ dolları olub (2013-cü ilin noyabr ayında). Bunun təxminən 40%-i avro ilə saxlanılır. Məsələ bundadır ki, Azərbaycan manatının məzənnəsi ancaq dollarla müəyyən edilir. Bu da ona gətirib çıxarır ki, avronun dollara nisbətən məzənnəsi aşağı düşür, əksinə manatın avroya nisbətən məzənnəsi yüksəlir. Dolların məzənnəsi də yüksəlir. Bu yüksəliş ardıcıl həyata keçirilə bilərmi? Avronun kəskin ucuzlaşması dollara tələbatı artırır.[1] Hansı ölkə idxaldan asılıdırsa və o zaman ABŞ dolları üstünlük təşkil edirsə, həmin ölkələrdə qiymət artımı qaçılmazdır. Belə halda həmin ölkələrdə inflyasiyanın baş verməsi labüd hadisədir. Fikrimizcə, ABŞ dollarının məzənnəsinin yüksəlməsi bu gün üçün maraqlı deyil. Çünki ipoteka böhranı ABŞ-ın dövlət büdcəsində kəskin kəsir yaratmış, digər tərəfdən isə ABŞ-ın dövlət borcu yüksəkdir. Əvvəlki fəsillərdə qeyd etdiyimiz kimi, 2013-cü ildə ABŞ-ın federal borcu 17,4 trilyon dollara çatıb. Bu isə

[1] Qeyd: Bu proses tez-tez enib-qalxdığına görə biz müəyyən dövrün təhlili ilə kifayətlənirik.

Amerikanın Ümum Daxili Məhsulun 106,6%-i həddindədir. Bu, əslinə baxanda qorxulu meyildir.

**Diqqəti cəlb edən cəhət odur ki, bu proses süni yolla həyata keçirilir. Mərkəzi Bankın yeritdiyi siyasət bu gün manatın qorunmasında özünü doğrultsa da, gələcəkdə ölkə iqtisadiyyatını zərbə altında qoya bilər. Onu da qeyd etmək lazımdır ki, əslində manatın məzənnəsi birbaşa hələ ki, dollardan asılıdır. Çünki dünya bazarında neft dollarla satılır. Lakin avro məkanı ilə ildən-ilə artan ticarət əlaqələrimiz milli valyutamıza təsir etməyə bilməz. Milli valyutamızın məzənnəsinin aşağı düşməsinin qarşısını almaq üçün bazara çoxlu dollar cəlb edilməli və yaxud manatın alışı artırılmalıdır. Lakin bu da yeridilən monetar siyasətin elmi əsaslara söykənməsi demək deyildir. Olsa-olsa bu böhranın təsirinin azaldılması siyasətdir. Digər tərəfdən, həqiqəti də söyləmək lazımdır ki, Mərkəzi Bankın valyuta siyasəti ölkəmizi dollar asılılığından xilas etmişdir. Əks-təqdirdə dünya bazarında dolların enib-qalxması Azərbaycanı çıxılmaz vəziyyətdə qoya bilərdi.**

Azərbaycanın tam idxal edən ölkəyə çevrilməməsi üçün, fikrimizcə, manatın avroya nisbətən məzənnəsini müəyyənləşdirərkən bir sıra kompleks göstəriciləri nəzərə almaq lazımdır: makro və mikroiqtisadi göstəriciləri; ölkənin daxili istehsalının həcmini; xarici ticarət əlaqələrini; dünya valyuta bazarında baş verən meyilləri; avro zonada istehsalda, ticarətdə baş verən proses və yenilikləri; psixoloji amilləri; müvəqqəti manevrləri.

Məlumdur ki, ölkənin ehtiyatlarının bir hissəsi dünyanın məşhur şirkətlərinin səhmlərinə yatırılmışdır. **Ölkənin valyuta ehtiyatlarının saxlanılması xüsusi məharət və çeviklik tələb edir. Demək olar ki, respublikada müəyyən itkiyə yol verilsə də hələlik buna kifayət qədər nail olunmuşdur.**

Bu aşağıdakı tədbirlərin həyata keçirilməsi nəticəsində mümkün olmuşdur:

1. Prezidentin antiböhran tədbirləri.

2. İnteqrasiya əlaqələrinin nisbətən zəifliyi.
3. Böhran dövründə Mərkəzi Bankın pul siyasəti.
4. Mərkəzi Bankın pul siyasəti əsasında kommersiya banklarının sərt maliyyə tədbirlərinin həyata keçirməsi.
5. Böhranın ölkədən kapitalın axması ilə müşahidə olunması.
6. Böhran dövründə kapitalın ölkəyə gəlməsi.
7. Böhranın milli rəqabət qabiliyyətini əsas məsələyə çevirməsi.
8. Böhranın iqtisadiyyatın şaxələnməsinə, neft kapitalının insan kapitalına çevrilməsi prosesinə yeni təkan verməsi.

## 9.4. İnkişaf etmiş dünya ölkələrinin antiböhran tədbirləri

2008-ci ildə baş verən böhranın qarşısı alındı, onun dərinləşməsinə imkan verilmədi, iqtisadiyyatda müəyyən sabitlik yarandı.

Böhranın aradan qaldırılmasının əsas səbəbi dövlətin borcları öz üzərinə götürməsi oldu. Belə ki, inkişaf etmiş dövlətlər özləri borca düşərək iri şirkətlərə əlavə vəsait verdi. Müəssisələr borcları vaxtında qaytara bilmədiklərinə görə, dövlətin borc problemi daha da artmağa başladı. Dövlətin boyun olduğu, müəssisələrə verilən borclar geri qayıtmadığından, dövlətlər yenidən borca düşmək məcburiyyətində qaldılar. Əslində dövlətlərin borc almaq imkanları məhduddur. Belə bir vəziyyətdə bəzi inkişaf etmiş ölkələr ciddi borcla üzləşdilər.

Digər bir tərəfdən, valyuta bazarlarındakı gərginlik, neftin və qızılın qiymətinin süni şəkildə artması dünya iqtisadiyyatında narahatlıq yaratmaya bilməzdi.

Beləliklə, 2011-ci ildə yeni dünya böhranının dalğasının rüşeymləri görünməyə başladı. Bu ərəfədə ABŞ prezidenti Barak Obama dövlət xərclərinin həddən artıq azalmasının yeni iqtisadi böhrana səbəb ola biləcəyini qeyd etdi və göstərdi ki, əgər dövlət

aparatının maliyyələşdirilməsini ixtisar etsək, yeni iş yerlərinin açılmasına təkan verən sahələrin maliyyələşdirilməsini azaltsaq, kəsir daha böyük ola bilər və biz yeni iqtisadi böhranla üzləşə bilərik.

Qlobal böhran dünya miqyasında iş yerlərinin sürətlə itirilməsi deməkdir. Bu halın baş verməsi o deməkdir ki, istər-istəməz dünya bazarında enerjiyə tələbat azalacaq, neft bazarında qiymətlər aşağı düşəcək. Neft ölkələrinə bundan çox ciddi ziyan dəyəcək. Neftdən gələn gəlirlərin azalması isə neftdən asılı ölkələrin büdcə gəlirlərinin azalması deməkdir.

Nəticədə, 2011-ci ildə böhran dünyanın inkişaf etmiş ölkələrində hansı izləri qoydu:

1. ABŞ-da borc böhranı yarandı. Borc böhranı onun ümum daxili məhsulu səviyyəsinədək yüksəldi.
2. ABŞ-ın kredit reytinqi tarix boyu ilk dəfə aşağı salındı.
3. Dünyada ən etibarlı hesab edilən: ABŞ-da xəzinə istiqrazlarına tələbatın səviyyəsi, Avropa ölkələrinin əsas iqtisadi göstəriciləri aşağı düşməyə başladı.
4. Avrozona ölkələrində kifayət qədər ciddi problemlər yarandı. Yunanıstanın çıxılması olduqca çətin olan böhran vəziyyəti, digər avrozona ölkələrinə - İtaliya, İspaniya, Portuqaliyaya təsirsiz ötüşmədi. Belə ki, hal-hazırda da avronun taleyində ciddi narahatlıq var.
5. Avropanın qiymətli kağız birjalarında səhmlərin dəyəri kəskin surətdə aşağı düşməyə başladı.
6. Dünya birjalarında indekslər sürətlə aşağı düşdü.
7. Qiymətli kağızlar dəyərini itirdi.

Ayrılıqda hər bir dövlətin, o cümlədən beynəlxalq qurumların antiböhran tədbirləri müəyyənləşdirilmiş və həyata keçirilir. ABŞ-ın böhran nəticəsində federal borcunun çox olması dövlətin ölkədə yeni borc siyasəti işləyib hazırlamaq zərurətini yaratdı. Oxşar hadisə Avropada da baş verib. Bunu Yunanıstanın, İspaniyanın və son dövrlərdə Bolqarıstanın timsalında da göstərmək olar. Məsələn, Yunanıstanın 300 milyard (2010-cu

ilin yayınaqədərki məlumatdır) avronu ötüb keçən dövlət borcu Avropa Birliyi ölkələrinin böyük narahatlığına səbəb olmuşdur. Avrozonada 17 ölkə var. Prinsip etibarilə avrozonaya daxil olan hər hansı bir ölkə borca düşən kimi digərlərinin onun borcuna kömək etmək siyasəti mövcuddur. Narahatlıq elə ondan ibarətdir ki, böhrandan çıxmaq üçün birlik ölkələri Yunanıstana yardım göstərməklə onu xilas etməyə çalışırlar. Eyni zamanda o qədər çox yardım tələb olunur ki, bu digər ölkələr üçün (yardım edən ölkələrdən söhbət gedir) problem doğura bilər.[1] Məsələ bundadır ki, Yunanıstana gələn pullar BVF və Avropa Birliyi yolu ilə daxil olur. Hal-hazırda bu pullar heç bir real problemi həll etmək imkanına malik deyil. Problem ondadır ki, bu ölkələrin borcları o qədər böyükdür ki, onlar, hətta faizləri ödəyə bilmir.

2010-cu ilin may ayında Almaniya kansleri Angela Merkel ölkə parlamentində çıxışı zamanı böhran nəticəsində avronun mövcudluğunun təhlükə altında olduğunu bəyan etdi. Angela Merkel hazırda tarixi vəzifənin Vahid Avropa ideyasını qoruyub saxlamaq olduğunu bildirib. Kanslerin sözlərinə görə, əgər avro tənəzzülə uğrasa, bütün Avropa tənəzzülə uğrayacaq. Çünki avro Avropanın çiçəklənməsinin və inkişafının əsasıdır.

Bu bəyanatdan sonra avronun dollara nisbətdə məzənnəsinin aşağı enməsi müşahidə olunub. Ancaq bu müvəqqəti bir hal olmuşdur.

Almaniya kansleri Angela Merkelin ölkə parlamentindəki çıxışından sonra məşhur ABŞ maliyyəçisi Corc Soros geniş məqalə yazaraq sanki onun fikirlərinə cavab vermişdir. Məqalədə qoyulan məsələlər, reallıqlar, gerçəkliklər və proqnozlar o zamanın tələblərinə uyğun olaraq xüsusi maraq doğurur. C. Soros 2008-ci ilin sentyabrın 15-dən sonrakı bir neçə həftə ərzində qlobal maliyyə bazarının sürətlə dağıldığını və onun süni nəfəs ver-

---

[1] Qeyd: Hətta vəziyyət o dərəcədə gərgin olmuşdur ki, 2010-cu ilin sonunda ABŞ ekspertləri Yunanıstanın, İrlandiya, İspaniya və Portuqaliyanın bank sektorunda tam miqyaslı böhran baş verməməsi üçün avrozonanı tərk etməyi məsləhət görmüşlər.

məyə ehtiyac duyulduğunu vurğulamışdır. O zaman dövlətlər tərəfindən maliyyələşdirilən suveren kreditlər verildi. Onun sözlərinə görə, hökumət rəhbərləri əslində uzun müddət ərzində onun əksini həyata keçirməli idilər. Belə bir şəraitdə bazara daha çox kredit buraxılmalı və bununla da defisiti aradan qaldırmaq məqsədəuyğun olardı. Yalnız böhran sakitləşəndən sonra vəsaiti geri çəkib makroiqtisadi sabitlik yaratmaq mümkün idi. Soros bu prosesi avtomobil idarəetməsinə bənzədir. Belə ki, maşın sürüşəndə sən gərək onu əvvəlcə sürüşmə istiqamətində döndərəsən və yalnız nəzarəti bərpa edəndən sonra istiqaməti tənzimləməyə çalışasan. Maliyyə böhranı halında birinci mərhələ uğurla icra olundu, boşluq dolduruldu. Amma səbəblər aradan qaldırılmadı və maliyyə bazarları suveren borcların kredit əhəmiyyətini sual altına alanda bu problemlər yenidən ortalığa çıxdı. Bu o zaman idi ki, avro iqtisadiyyatdakı çətinliklərin nəticəsi olaraq hadisələrin mərkəzinə çevrildi. Beləliklə, Sorosa görə, indi avronun məzənnəsi ilə bağlı yaranan çətinliklər əslində 2008-ci ildəki maliyyə böhranından qaynaqlanır və islahatların ikinci mərhələsini həyata keçirmək problemlər yaradır.

Soros öz məqaləsində keçən əsrin 30-cu illərini xatırladaraq yazır ki, həmin vaxt bank sistemi və iqtisadiyyat fiskal və monetar stimul olmadan irəli gedə bilmirdi və suveren kreditlər barədə şübhələr var idi. O dövrdə Avropa ölkələri birinci mərhələni uğurla keçdilər, amma sonra vəziyyəti tənzimləməyə çətinlik çəkdilər, çünki bütün problemlər vahid valyuta ilə bağlandı. Avro başlamaq üçün təməl valyuta deyildi, 1992-ci ildə Maastrix Sazişi əsası olmayan monetar birlik oldu. Avro ümumi bir bankla bağlı olsa da, onun arxasında ümumi bir xəzinə dayanmırdı. Avropa Birliyinə üzv ölkələr vahid valyuta məsələsini asanlıqla bölüşürlər, amma suveren borclanmaya gələndə onların hərəsi öz başına çarəni özü qılmalı olur.

Üzv ölkələr yalnız 2010-cu ildə suveren kreditlərin avrozonada yığılıb qalmasından narahat olmağa başladı. Yunanıstanın yeni hökuməti aşkar etdi ki, əvvəlki hökumət büdcə kəsiri-

nin həcmini olduğundan qat-qat aşağı göstərib. Almaniya inflyasiyanın iki epizodu ilə üzləşmişdi və inflyasiya ilə bağlı istənilən təzyiqə qıcıqla yanaşırdı. Fransa və digər ölkələr həmrəyliyə daha çox meyilli idilər. Yunanıstan böhranı yayılmağa başladı. Üzv ölkələr məcbur qalıb Avropa Maliyyə Sabitləşdirməsi Fonduna 750 milyard yerləşdirdilər. Bu pulun 500 milyardı ölkələrin özünün, 250 milyardı isə Beynəlxalq Valyuta Fondunun idi. Amma bu da bazarın tarazlığına zəmanət vermədi, nisbətən zəif ölkələr öz borclarının bir hissəsinin təminatını aldılar. Narahatlıq yaradan məqam ondan ibarətdir ki, Almaniya zəif ölkələr üçün daha sərt fiskal tənzimlənmə təklifi ilə kifayətlənmir, o cümlədən özünün maliyyə defisitinin aradan qaldırılmasını tələb kimi qoyur.

Corc Soros yazır ki, indi Almaniya Maastrix Sazişinə daha çox əməl edilməsini istəyir. Bu isə başadüşülən deyil, çünki Avropa Birliyinin qurulduğu alətlərlə ziddiyyət təşkil edir: “Gəlin avronun çatışmayan cəhətlərini və Almaniyanın mövqeyini analiz edək. Avronun ən böyük çatışmazlığı onun idarə olunmasında ümumi fiskal siyasətin olmamasıdır. Bu, indiyə qədər bilinən səbəbdir. İkinci bir səbəb isə Avropa Birliyinin maliyyə bazarının sabitliyi ilə bağlı əsassız inamıdır.”[1]

2012-ci ilin iyun ayında isə Corc Soros yenidən Avropaya avro xəbərdarlığı etdi. Onun fikrinə görə, Avropanın avronu xilas etməsi üçün cəmi üç ay vaxtı qalır. Üç aydan sonra bazarlar gözləməkdən bezəcək, daha çox şey tələb etməyə başlayacaq. Hökumət isə bu tələbləri yerinə yetirə bilməyəcək. Avropa Birliyinin iyunun sonuna keçiriləcək sammiti bütün tərəfləri təmin edən minimal tədbirlərin qəbul edilməsi ilə işini başa çatdırmış olacaq. Lakin, bütün bunlar mövcud mənfi meyillərin qarşısını müvəqqəti alacaq. Corc Soros təklif edir:

---

[1] Qeyd: Məqalənin Azərbaycan dilində tərcüməsi: “Yeni Müsavat”. 13 iyul 2010-cu il tarixində çap olunub.

1. Avronu xilas etmək üçün banklardan əmanətlərin kütləvi axınının qarşısını almaq üçün bank depozitləri sığortalanmalıdır.

2. Avropa bankları Avropa Maliyyə Sabitliyi Fondundan birbaşa maliyyələşdirilməlidir.

O, Almaniyanın köməyi olmadan bütün bunlara nail olmağın mümkünsüzlüyünü də söyləyir.

"Qızıl hiyləgər" ləqəbiylə tanınan "Hunt Brothers" kompaniyasının keçmiş məsləhətçisi Cim Sinkler Corc Sorosun fikrinin yanlış olduğunu, dünya maliyyə böhranının daha tez iyunun 17-də Yunanıstanda yeni parlament seçkilərinin keçiriləcəyi gün başlayacaq proqnozunu vermişdir.

Avropa İttifaqı böhrana qarşı Avropa ölkələrinin səylərini birləşdirmək üçün Avropa İttifaqının Antiböhran Fondunu yaradıb. Hazırda bu fondun həcmi bir trilyon avroya qədərdir. Bu böyük rəqəm sayılmır, çünki böhranın vurduğu ziyandan 2 trilyon qədər azdır. Analitiklərin fikrinə görə, Avropa İttifaqının Antiböhran fondu maliyyə böhranının nəticələrini aradan qaldırmaqdan daha çox yeni böhran dalğasının qarşısını almağa yönəldilib.

Dünya maliyyə böhranı, onun sosial-iqtisadi nəticələri bir çox maliyyə-iqtisadi məsələlərə dövlətin iqtisadiyyata qarışması, himayəçilik, dövlət banklarının funksiyaları (maliyyə siyasəti, maliyyə riski və s.) yeni baxış tələb edir. Bunların bəzilərinə diqqət yetirək.

Qlobal maliyyə böhranının dərsləri (yekunları) sübut etdi ki, inkişaf etmiş ölkələrdə maliyyə-pul siyasətini antiböhran tədbirləri ilə əlaqələndirmək zəruridir. Bu da öz növbəsində yeni növ siyasətin pul-sənaye siyasətinin formalaşdırılmasını ifadə edir. Bu siyasət isə özlüyündə monetar yanaşmanın məhdudluğunu, onun sənaye prioritetləri (inkişafı) ilə əlaqələndirilməsini zəruri etmişdir. Yəni artıq məlum olur ki, iqtisadiyyatın maliyyə sektorunun nisbi müstəqilliyi müəyyən hədlər daxilində olmalıdır. Bu hədlər isə real sektorun inkişaf dərəcəsi ilə şərtlənir.

Hadisələrin inkişafı həm elmdən, həm də dövlət xadimələrindən bir mühüm suala cavab axtarmağı tələb edir: açıq iqtisadiyyat (Bizim fikrimizcə, burada əsas real sektordur, maliyyə sektoru ikinci dərəcəlidir) və kapitalın hərəkətinin liberallaşdırılması şəraitində, iqtisadiyyatın monetarlaşdırılmasını və onun maliyyə resursları ilə təmin olunmasını necə həyata keçirməli? Hazırda bir çox ölkələr üçün həm beynəlxalq, həm də ölkədaxili iqtisadiyyat səviyyəsində maliyyə axınlarının ciddi tənzimlənməsi zərurəti yaranmışdır. Bu zaman milli prioritetlərə riayət olunması zərurəti meydana gəlir, maliyyə təşkilatlarından daxili maraqları ciddi qorumaq, ona xidmət etmək gözlənilir. Ekonomiksdə mövcud olan "maliyyə milliliyi" və "maliyyə neytrallığı" hadisələrində üstünlük ikincidən birinciliyə keçməkdədir (yəni maliyyə milliləşdirilməsinə). Məsələn, maliyyə neytrallığının tərəfdarı olan İsveçrə bankları böhran dövründə xarici layihələrə nisbətən ölkə daxili layihələrin maliyyələşdirilməsini daha çox stimullaşdırmaq üçün bir çox tədbirlərə əl atmışlar.[1]

Müxtəlif ölkələrdə maliyyə axınlarının seqmentləşdirilməsinin (yəni hissələrə ayrılması) oxşar prosesləri üzə çıxmışdır. Belə ki, bu dövrdə (yəni böhran şəraitində) banklararası bazar tam fəaliyyət göstərə bilməmişdir və ona görə də maliyyə resursları iqtisadiyyatın real sektorunun müəssisələrinə gəlib çatma-

---

[1] Qeyd: İsverçə Konfederasiyadır. İsveçrə 26 "Kanton"dan ibarətdir. ("Kanton" Konfederasiya deməkdir). Hər bir Kanton sanki ayrıca bir dövlətdir. Heç bir Kantonun işinə, qərarına digəri qarışmır. İsveçrənin sahəsi 41.290 km$^2$ –dir. Əhalisi 7,5 mln nəfərdir. İngiltərənin kraliçası II Yelzabeta demişdir: "İsveçrə - bu cənnətdir", "Əgər yer üzündə cənnət varsa, bu İsveçrədir". (Bax: Лучшые туры по Европе 2010. Штутгарт, с. 24; "Kompass comfort - EVROPA" (rus dilində). Düsseldorf. 2010, s. 6.) Bu sadəcə gəlişi gözəl söz deyil. Gözlə görmədən bu ölkə haqqında fikir söyləmək qeyri-mümkündür. Əhalinin hər nəfərinə düşən gəlirə görə İsveçrə dünyada birinci yeri tutur. İsveçrə ərazisinə daxil olanda sanki havadan pul iyi gəlir. Bunu İsveçrə iqtisadiyyatına gözəl bələd olanlar belə deyir.İkinci yerdə isə Lüksemburqdur (Lüksemburq cırtdan dövlət olmasına baxmayaraq o qədər gözəl və qeyri-adi ölkədir ki, onu "Avropanın mirvarisi" adlandırırlar. Böyük Krallıq olan Lüksemburqun sahəsi 2600 km$^2$, əhalisi 0,5 mln nəfərdir).

mışdır. Hətta çatdıqda belə bu resursları əldə edənlər onları istehsal məqsədləri üçün istifadə etmək imkanlarına malik olmamışlar. Belə bir şəraitdə maliyyə axınlarının zəruri hərəkətini təmin edə bilən effektiv mexanizm yaratmaq tələb olunur.

Maliyyə çətinliyi şəraitində proteksionizmin[1] (himayəçiliyin) artması ehtimalı vardı. Beynəlxalq "oyun qaydaları"na bu cür yanaşmanın yolverilməz olduğu məlumdur. Hətta böyük "20-lərin" 24-25 sentyabr 2009-cu il Peterburq şəhərindəki görüşünün yekunlarına dair bəyannamələrində himayəçiliyə qarşı mübarizənin labüdlüyü (vacibliyi) göstərilmişdir. ABŞ Çinlə ticarətin məhdudlaşdırılması üzrə tədbirləri həyata keçirərsə, yeni ticarət münaqişələrinə səbəb ola biləcəyi qeyd olunmuşdur. Bütün bunlara baxmayaraq himayəçiliyin birbaşa və dolayı formaları həmişə diqqət mərkəzində olmuşdur. Bəyannamədə, həmçinin maliyyə himayəçiliyinin yolverilməzliyi xüsusi olaraq göstərilmişdir.

Bu cür baxışlar indi də davam etməkdədir, ölkələrarası koordinasiya yaradılması birgə antiböhran tədbirlərinin son effektini artırmaq üçün vacib sayılmışdır (yəni məsələ hələ həll olunmamışdır).

Böhran prosesində postböhran dövrü üçün maliyyə sisteminin inkişaf istiqamətlərini dəqiqliklə müəyyən etmək mümkün olmasa da, əsas inkişaf xəttini göstərmək olar. Məsələn, Rusiyada "2009-cu il üçün və 2010-2011-ci illərdə vahid dövlət pul-kredit siyasətinin əsas istiqamətləri" qəbul edilmişdir. Bu sənəddə pul təklifinin əsasən daxili mənbələr hesabına formalaşdırılması göstərilmişdir. Bu tədbirin hansı nəticələr verə-

---

[1] Qeyd: Proteksionizm – xarici malın birbaşa və vasitəli məhdudlaşdırılmasının müxtəlif formalarından istifadə etməklə milli iqtisadiyyatın sahələrini xarici rəqabətlərdən mühafizə məqsədilə, xarici ticarət siyasətinin yeridilməsidir (ölkəyə malların idxal edilməsinə yüksək rüsumlar qoyulması, müəyyən malların idxalının məhdudlaşdırılması və ya tam qadağan edilməsi, həmçinin bir sıra başqa tədbirlər yolu ilə).

Başqa sözlə, hər hansı bir dövlətin gömrük vasitələrindən, valyuta, yaxud kredit siyasətindən geniş istifadə edərək öz dövlətlərinin milli əmtəə istehsalçılarının hüquqlarını xarici rəqabətdən qorumasıdır.

cəyini ancaq onun tam reallaşdırılmasından sonra göstərmək mümkündür.

Antiböhran tədbirlərinin tətbiqi, postböhran iqtisadiyyatının mənzərəsi, yeni risklərin ciddiliyi (təhlükəliliyi) haqqında artıq müəyyən təsəvvürlər vardır. Həmçinin dolların potensial riski və onun qlobal stabilliyin pozulmasına təsiri kifayət qədər məlumdur. Ona görə də müxtəlif ölkələrin iqtisadçı alimləri böhran mövzusuna geniş müraciət edirlər, çoxsaylı məqalə və monoqrafiyalar dərc etdirirlər.

Hazırda Amerikanın Federal Ehtiyat Sisteminin və Rusiyanın maliyyə sisteminin yeni risklərindən çox yazılır. Xüsusən ABŞ-da Federal Ehtiyat sistemin və xəzinədarlığın (Maliyyə Nazirliyinin) aparıcı rolundan geniş bəhs edilir. Federal Ehtiyat Sistemi ilə xəzinədarlıq arasında səlahiyyət bölgüsünün, xəzinədarlığın xeyrinə dəyişdirilməsi təklifləri xüsusən diqqəti cəlb edir və maraq doğurur. Bu təkliflər əslində dövlətin maliyyə sektoru üzərində nəzarət mexanizminin təkmilləşdirilməsini əhatə edir. Məsələn, xəzinədarlığın başçılıq etdiyi maliyyə xidməti üzrə Müşahidə Şurasının, Federal Ehtiyat Sisteminin yeni səlahiyyətlərinin, Milli Bankın nəzarət orqanlarının yaradılması və s. kimi tədbirlər onu göstərir ki, dövlət özünün maliyyə tənzimlənməsi missiyasını (funksiyasını) sadə, ardıcıl, mülayim formada, dəqiqliklə, nəticələri qiymətləndirməklə həyata keçirmək fikrindədir.

BMT dünya maliyyə böhranı ilə əlaqədar olaraq bir sıra radikal islahatların həyata keçirilməsini irəli sürmüşdür. Onlar iqtisadi böhranın əsas səbəbini dünya iqtisadiyyatını əlaqələndirən valyuta və kapitalla bağlı olan qaydalar sisteminin effektli olmamasında görürlər. Təklif etmişlər ki:

1. Dolların qlobal ehtiyat valyutası statusunu nəzərdə tutan mövcud maliyyə sisteminə tam şəkildə yenidən baxılmalıdır.

2. Tənzimlənən beynəlxalq mübadilə məzənnələrinin yeni sistemini yaratmalı. Bu sistemə əsasən, dünya iqtisadiyyatındakı cari vəziyyətdən asılı olaraq, Mərkəzi banklar milli valyuta-

larının məzənnəsini azaldıb-artıracaqlar. Digər bir tərəfdən ölkələr real mübadilə məzənnələrini tənzimləmək iqtidarında olacaq.

3. Dünyanın aparıcı valyutası sayılan ABŞ dolları yeni qlobal ehtiyat valyutası ilə əvəz olunmalıdır. Bu, bir sıra problemi aradan qaldırmağa və sabitliyin bərqərar olmasına şərait yaradacaq.

Deməli, maliyyə böhranının aradan qaldırılmasına yönəldilən tədbirlər sistemi özünün indiki məzmunu ilə yeni köklü keyfiyyət dəyişiklikləri vəd etmir.[1]

Bəzi iqtisadçıların fikrincə, böhran tez bir zamanda başladığı ölkədən sürətlə dünyaya yayılaraq daha geniş iqtisadi ərazini əhatə etməyə başlayıb. Bu, böhrana qarşı mübarizəni çətinləşdirməklə yanaşı, onun qlobal mənada iqtisadiyyata, eyni zamanda ayrı-ayrı ölkələrə spesifik təsirinin qiymətləndirilməsini və gələcək üçün mümkün siyasi nəticələr çıxarılmasını xeyli mürəkkəbləşdirir. Bu baxımdan Azərbaycanı xüsusi bir model kimi götürmək maraqlı olardı. Çünki artıq on ildən çoxdur ki, Azərbaycanın Ümumi Daxili Məhsulunun (ÜDM) artımında diqqətəlayiq inkişaf var. Yalnız böhran dövründə ÜDM-in artımı səngiyib. Buna baxmayaraq ÜDM-in artımında mənfi temp müşahidə olunmayıb. Əksər dünya ölkələrində böhrandan sonra ÜDM-in artımı azalma ilə əvəz olunub. Azərbaycan neft ölkəsi olduğundan neftin qiymətinin nəzərəçarpacaq dərəcədə aşağı düşməsi dövründə maliyyə böhranının Azərbaycana təsirinin qiymətləndirilməsi çox əhəmiyyətlidir. Sadalanan mənfi

---

[1] Qeyd: 2009-cu ildə ABŞ-ın Federal Ehtiyatlar Sisteminin keçmiş rəhbəri, dünyanın ən məşhur və nüfuzlu iqtisadçılarından olan Alan Qrinspen beynəlxalq maiyyə böhranının təkrarlanacağı proqnozunu vermişdir. O qeyd etmişdir ki, növbəti böhran indikindən fərqlənəcək: "Amma o, mütləq təkrarlanacaq". İqtisadçının fikrincə, uzun çəkən iqtisadi yüksəliş həmişə böhranla əvəzlənir. Bu böhranlar təbiətinə görə fərqlənsələr də ümumi mənbəyə malik olurlar. Qrinspenin sözlərinə görə, belə bir mənbə kimi insanların iqtisadi çiçəklənmənin daim davam edəcəyi kimi səhv təsəvvürünü göstərmək olar. Qrinspen xatırladıb ki, hazırkı iqtisadi böhran ABŞ-ın mənzil tikintisi bazarından başlayıb. Bununla yanaşı o əmindir ki, bu səbəb olmasaydı, başqa bir səbəb ortaya çıxacaqdı: "Son nəticədə hər şeyi – insan faktoru həll edir."

tendensiyalara, 2008-ci ildən neftin dünya bazar qiymətinin aşağı düşməsinə rəğmən, Azərbaycan iqtisadiyyatı 2009-cu ildə 9.3%-lik iqtisadi artım tempini saxlaya bilib.[1]

Bununla belə, böhrandan ən çox zərər görən tikinti və emal sənayesidir. Bu sahələrdə böhran dövründə yaranan durğunluq həm işçilərin kütləvi ixtisarı, həm də həmin sektorların ÜDM-də payının azalması ilə xarakterizə olunub.[2]

Azərbaycan Respublikasının[3] qlobal maliyyə böhranı şəraitində daha az itkiyə məruz qalması (bu ölkənin makroiqtisadi göstəricilərində və büdcənin parametrlərində özünü göstərir), hətta beynəlxalq təşkilatlarda (formlarda) maraq kəsb edən bir hadisədir. Bu ondan irəli gəlir ki, bəzi iqtisadçılar belə düşünür ki, böhranın nəticələrinin daha ağır olmaması ölkənin beynəlxalq inteqrasiya əlaqələrinin zəif olması ilə əlaqədardır. Bu fikir mübahisə doğurmaya bilməz. Çünki Azərbaycanın dünya ölkələri ilə əməkdaşlığı, ticarət əlaqələri, investisiya əlaqələri getdikcə artmaqdadır. Ölkədə keçirilən düzgün pul-kredit siyasətini və xüsusən respublika prezidentinin başçılığı ilə işlənib hazırlanan antiböhran proqramını da qiymətləndirmək lazımdır.

Prezident İlham Əliyev hələ 2009-cu ilin yanvar ayında Nazirlər Kabinetinin ilkin yekunlarına həsr olunmuş iclasında Azərbaycan iqtisadiyyatındakı vəziyyəti təhlil etmiş və bununla əlaqədar öz mövqeyini və antiböhran paketini tam açıqlamışdır. Bu antiböhran paketində iqtisadiyyatı sağlamlaşdırmaq və sahibkarlıq fəaliyyətini stimullaşdırmaq üçün aşağıdakı konkret istiqamətlər müəyyənləşdirilmişdir:

1. İstehlak qiymətlərinin azaldılması zərurəti.

---

[1] Bax: Dayanıqlı iqtisadi və sosial tarazlığa doğru. (Müxtəlif ssenarilər, fərqli modellər, tapıntılar və tövsiyələr). Bakı – 2010, s.60.

[2] Bax: yenə orada, s.66.

[3] Qeyd: Əlbəttə, məqsədimiz heç də Azərbaycanı inkişaf etmiş "qlobal ölkələrlə" müqayisə etmək deyil. Lakin ərazisinə və əhalisinin sayına görə münasib ölkələr içərisində Azərbaycan iqtisadi inkişafına görə seçilir və diqqəti cəlb edir.

1. İnhisarçılıqla mübarizə.
2. Milli banklara dəstəyi, kreditlərə və faiz dərəcələrinə nəzarəti əhatə edən maliyyə monitorinqinin təşkili.
3. Real iqtisadiyyatda sərmayə qoyuluşunun davam etdirilməsi.
4. Sosial öhdəliklərin dəstəklənməsi.
5. Sənaye müəssisələrinin daxili bazara istiqamətləndirilməsi.
6. Ərzaq təhlükəsizliyinin təmin edilməsi.

Deməli, respublikamızda iqtisadiyyatı mənfi hallardan qorumaq üçün, istehlak bazarına nəzarət gücləndirilməlidir ki, süni qiymət şişirtmələri olmasın, qiymətlərin aşağı düşməsi daha sürətlə getməlidir, antiinhisar fəaliyyət gücləndirilməlidir, qeyri-sağlam rəqabətə son qoyulmalıdır, dövlət tərəfindən qanunsuz müdaxilələr dayandırılmalıdır.

Artıq bu vəzifələr paketinin hazırlanmasından keçən dövr sübut edir ki, ölkədə aparılan iqtisadi siyasət düzgün müəyyənləşdirilmiş və nəticə verməkdədir.

Əslində nəzərdə tutulan antiböhran tədbirlərində əsas hədəf iqtisadiyyatın real sektorunun inkişafından ibarətdir ki, bunu dünya praktikası nöqteyi-nəzərindən həm nəzəri, həm də praktiki baxımdan yüksək qiymətləndirmək olar.

Bütün bu tədbirlər sistemi hər bir ölkədə iqtisadiyyatın dövlət tərəfindən tənzimlənməsindən çox asılıdır. Məlum olduğu kimi iqtisadiyyatın dövlət tərəfindən tənzim edilməsi – iqtisadi, siyasi və hüquqi tədbirlər sistemidir. Bunun köməyi ilə dövlət stabil inkiaşfa nail olmaq, istənilən böhranı aradan qaldırmaq, həmçinin də iqtisadi sistemi daimi dəyişən şəraitə uyğunlaşdırmaq üçün iqtisadi proseslərə müdaxilə edir.

İqtisadiyyatın dövlət tərəfindən tənzimlənməsi zərurəti iki qrup səbəblərdən törənir. Birincisi, kollektiv və ictimai maraqları təmin etməklə əlaqədardır. İkincisi isə, ictimai təkrar istehsalda obyektiv olaraq meydana çıxan ziddiyyətlər və onların həll edilməsi ilə şərtləndirilir.

**İş burasındadır ki, hər bir cəmiyyətdə, həmişə elə növ fəaliyyət olur ki, onun əhəmiyyətini yalnız, gəlirlilik nöqteyi-nəzərindən qiymətləndirmək düzgün olmazdı. Məsələn, ölkənin müdafiəsi, ətraf mühitin mühafizəsi, avtomobil yollarının tikintisi, təbii fəlakətin nəticələrinin aradan qaldırılması, fundamental elmin və təhsilin inkişafı və b. Bir halda ki, onlar biznesi özünə cəlb edə bilmirlər, gəlir əldə etmək arzusunda olanlar bu sahələrə meyilli olmurlar. Ancaq bütün yuxarıda göstərilənlər cəmiyyətə lazımdır. Deməli, dövlət bu proseslərə müdaxilə etmək məcburiyyətindədir.**

Bundan əlavə, inkişafın mərhələlərlə aparılması obyektiv olaraq iqtisadiyyata xas olan xüsusiyyətdir ki, onun da əsas fazası böhran hesab olunur. Dövlət iqtisadiyyata müdaxilə etməklə, böhranın neqativ nəticələrini yumşaldır və ondan çıxmağı sürətləndirir.

Məlumdur ki, rəqabətin sıxışdırılması, bazarı tənzim edən tələb və təklif qanunlarının rolunu sarsıdır. Tələb və təklif münasibətində qiymət, istiqamətverici göstərici kimi çıxış etmir. Ona görə də dövlət bazar proseslərinin tənzimləyicisi olur, rəqabəti həvəsləndirməklə, inhisara qarşı durur.

Nəhayət, bazar iqtisadiyyatında iştirak edənlərin gəlirləri bir-birindən kəskin şəkildə fərqlənir ki, bu da sosial gərginliyə səbəb olur. Dövlət vergilərin köməyilə cəmiyyətin azimkanlı təbəqələrinə kömək etməklə, gəlirlərin bölünməsi prosesinə müdaxilə etməyə məcbur olur.

**Lakin böhran zamanı dövlətin funksiyalarında dəyişikliklər baş verir. Böhran zamanı bəzi dövlətlərdə tənzimlənmə özünü daha çox himayəçilikdə göstərir. Əgər bu yolla getsək, prosesə səhlənkar yanaşılsa təzə bir böhran dalğası yaranar. Ona görə də dövlətin sərt nəzarəti lazımdır.**

Müasir böhrana qarşı görülən tədbirlərdə də proteksionizm meyillərinin güclü olduğu müşahidə edilir. Bu cür meyillər indiki halda böhranın səngiməsinə, onun nəticələrinin aradan

qaldırılmasına müsbət təsir göstərsə də perspektiv inkişaf baxımından məqbul sayıla bilməz.

2009-cu ildə Böyük dövlətlərin maliyyə nazirləri proteksionizm siyasətinin mənfi təsirlərini etiraf ediblər. "Böyük səkkizlik"də rotasiya qaydasında sədrlik edən İtaliyanın paytaxtı Romaya toplaşmış "Maliyyə səkkizliyi"nin üzvləri proteksionizm siyasətindən imtina edilməsi barədə birgə bəyannamə də imzalayıblar.

**Qərb ölkələri böhrandan çıxmaq üçün iqtisadi proteksionizmə üstünlük verirlər. Çünki proteksionizm istehsalla məşğul olan yerli sahibkarları xarici rəqabətdən qorumaq məqsədi ilə ölkənin apardığı siyasətdir. Bu isə bütövlükdə götürdükdə ciddi səhvdir. Proteksionizm dünya iqtisadiyyatına problem yaradan bir amildir.** Qloballaşma dünya iqtisadiyyatının inkişafına müəyyən mərhələlərdə kömək etmişdir. Hazırda isə proteksionizm dünya iqtisadiyyatının bu modelini məhv edir. Dünya iqtisadiyyatının qloballaşmasını dayandırmaq mümkün deyil, onu sadəcə olaraq bir müddət ləngitmək olar. İndi böhran nəticəsində dünya ticarəti yarıbayarı azalıb. Deməli, proteksionizmin beləcə davam etməsi ilə böhranın dərinləşməsi ehtimal oluna bilər.

Londonda 2009-cu il aprelin 1-də başlayan "Böyük 20-lər" – in (G-20) sammitində Almaniya kansleri Angela Merkel bəyan edib ki, liderlər London sammitində qlobal iqtisadi-maliyyə böhranının aradan qaldırılmasına dair konkret razılaşmalar əldə etməlidirlər. "... Və əlbəttə, bu konfransda qərara gəlməliyik ki, dünyanın heç bir yerində proteksionizm olmamalıdır."

Odur ki, **dünya iqtisadiyyatının perspektivləri baxımından yeni alternativ baxışların yaranmasına ehtiyac vardır. Həmçinin bu gün dünya valyutası olaraq dolların əmələ gətirdiyi risklər inkişaf etmiş ölkələri düşünməyə vadar edir. Bu proses yeni iqtisadi inkişaf modellərinin zəruriliyinə sanki bir reaksiyadır.**

## 9.5. XXI əsr dünya iqtisadiyyatının perspektivləri və proqnozları

Son onillikdə dünyada baş verən qloballaşma, xüsusən maliyyə qloballaşması tənzimlənməyən bir prosesə çevrilmişdir. Görünür mövcud beynəlxalq maliyyə təşkilatlarının səhlənkarlığı bu prosesə imkan vermişdir. Nəticədə maliyyə qloballaşması sanki maliyyə böhranı üçün bir başlanğıc olmuşdur. [1]

J.Attalinin fikrinə görə, böhran – vəhşiləşmiş və anarxiyalaşmış (hərc-mərcliyin, özbaşınalığın) qloballaşmanın öndə gələn təhlükəsi üçün insanlara həyəcan siqnalıdır.[2]

Artıq böhranın baş verməsi maliyyə qloballaşmasının tənzimlənmə zərurətini yaratdıqda, xüsusi bir təşkilata ehtiyac yaranmış və bu vəzifəni yerinə yetirmək üçün 20 aparıcı inkişaf etmiş və inkişaf etməkdə olan ölkənin sammiti məsləhət bilinmişdir. Bu Vaşinqton sammiti kimi də məlumdur. Sammitin 15 noyabr 2008-ci il tarixində Vaşinqton deklarasiyasında konkret tədbirlərin siyahısı müəyyənləşdirildi.

Tədbirlərin bir hissəsinin 31 mart 2009-cu il tarixində keçiriləcək London sammitinə qədər keçirilməsi nəzərdə tutuldu. Konkret tədbirlərə keçməmişdən əvvəl Vaşinqton sammitinin baş vermiş maliyyə böhranının səbəbləri haqqında gəldiyi nəticələrə diqqət yetirmək, fikrimizcə, daha məqsədəuyğundur.

Sammitə görə böhranın mühüm bir səbəbi kapitalistlərin riskə çox meyil etməsidir. Bu fikir geniş şəkildə konkretləşdirilməsə də aydın bir fikirdir. Qlobal böhranın təbiətinə dair tən-

---

[1] Qeyd: Professor S.Roqov dünyada gedən prosesləri təhlil edərək belə nəticəyə gəlir ki, bizim gözlərimiz önündə baş verən hadisələr dünyanın iqtisadi böhranına çevrilən dünya maliyyə böhranıdır. Baş verən prosesləri o da müasir qloballaşma böhranı adlandırır. (Bax: С.Рогов. США и эволюция международной финансовой системы. «Экономист» журнал. 2009, N 3, c.12).

[2] Bax: Ж..Аттали. Мировой экономический кризис… А что дальше? – СПб.: Питер, 2009, c.1

zimedici təşkilatın bu ümumi fikri əsasında artıq iqtisadi ədəbiyyatlarda böhranın konkret səbəbləri demək olar ki, müəyyənləşdirilmişdir.

Bu səbəblərə aiddir:

1. Korporativ idarəetmənin keyfiyyətinin kəskin pisləşməsi. Burada belə bir cəhət nəzərdə tutulur ki, qlobal iqtisadi artım və bunun nəticəsində artan kapital axını, bazar iştirakçılarının uzunmüddətli stabilliyi şəraitində yüksək mənfəət əldə etmə cəhdləri ortalığa çıxa biləcək riskləri kifayət qədər nəzərə almamışdır, sanki, fəaliyyət ilkin təhlil olmadan baş vermişdir. Nəticədə böhran halları meydana gəlmişdir. Məsələn, müşahidə olunmuşdur ki, Amerikada iqtisadiyyatın gərginliyi dövründə menecerlərin mükafatlandırılması dəfələrlə həddini aşmışdır. Bu da bəzi iri şirkətlərin böyük itkilərə məruz qalmasına səbəb olmuşdur.

2. Mikrosəviyyədə kredit münasibətləri makrosəviyyədə qeyri-stabillik mənbələri yaratmışdır. Başqa sözlə, mikroiqtisadiyyatda kreditlərin verilməsi və qaytarılması halları elə kredit alətləri ilə həyata keçirilmişdir ki, onlar nəticədə borc probleminin yaranmasına səbəb olmuşdur. Kredit bumu şəraitində kreditlə təminatı üç-dörd dəfə artırmaq əvəzinə sanki bunun əksinə olan tədbirlər görülmüşdür. Burada dövlətin nəzarəti altında olmayan qeyri-bank idarələrinin "xidməti" az olmamışdır.

3. Maliyyə bazarı və institutlarına dövlət tənzimlənməsinin keyfiyyətinin kəskin pisləşməsi. Yuxarıda adı çəkilən deklarasiyada göstərilir ki, risklərin artmasının mühüm bir səbəbi qlobal maliyyə sisteminin vahid tənzimləmə mexanizminin olmamasıdır.

4. Ümumiyyətlə, iqtisadiyyatın dövlət tənzimlənməsi sisteminin keyfiyyətinin kəskin pisləşməsi. Deklarasiyada əksini tapan bu səbəblərin hər birinin aradan qaldırılması üçün konkret təkliflər müəyyənləşdirilməklə bu gün dünya iqtisadiyyatının maliyyə tənzimlənməsinin yeni vasitələrinin tapılmasına artıq ilkin cəhdlər edilmişdir. Bununla əlaqədar sammitin iştirakçıları Beynəlxalq

Valyuta Fondunun[1] (BVF) iştirakçılarının artırılması qərarına gəlmişlər.[2]

Əvvəllərdə olduğu kimi, son iqtisadi böhranla əlaqədar çoxsaylı məqalələr və monoqrafiyalar nəşr olunur. Bunların hamısını təhlil etmək və yaxud fikir söyləmək məqsədini qarşımızda qoymamışıq. Lakin, görkəmli rus iqtisadçısı, professor V.Maunun böhran haqqındakı fikirləri bizdə xüsusi maraq doğurdu.

Onun fikirləri ən çox Rusiya iqtisadiyyatında baş verən proseslərə aid olsa da bu, müasir dünya iqtisadi böhranının aradan qaldırılmasında elmi-nəzəri cəhətdən çox əhəmiyyətlidir. Maunun təhlili və təklifləri təkcə Rusiya üçün deyil, müasir dünya iqtisadiyyatı haqqında da bizdə müəyyən təsəvvürlər yaradır. Bu fikirlərdə sanki dünya iqtisadiyyatının həm perspektivləri, həm də proqnozları öz əksini tapmışdır. V.Maunun çoxsaylı məqalələrində baş verən böhranın xüsusiyyətləri, səbəbləri, hökumətin böhrana reaksiyası, Rusiyada böhrana qarşı mü-

---

[1] Qeyd: Göründüyü kimi, dünyanın ən inkişaf etmiş ölkələri BVF-ə Dünya Bankına çox böyük əhəmiyyət verirlər. Bu da ondan irəli gəlir ki, BVF (1800 əməkdaşı var), Dünya Bankı (10,8 minə yaxın əməkdaşı var) kimi dünya iqtisadiyyatına və iqtisadi fikrinə təsir göstərən təşkilatlar təbii olaraq aktiv intellektual əlaqələrini dünyanın aparıcı iqtisad elmi mərkəzləri ilə inkişaf etdirirlər. (Bax: Raqib Quliyev. Azərbaycanda iqtisad elmi: ixtilaflı transformasiya. "Nurlan" nəşriyyat – poliqrafiya mərkəzi. Bakı. 2006, s. 132.) Beynəlxalq Valyta Fondunun 2009-cu ildə dünya iqtisadiyyatının son mərhələsinə həsr olunmuş proqnozları əvvəlkindən daha məyusedici olmuşdur. Proqnozda bildirilirdi ki, İkinci Dünya müharibəsindən sonra belə əhatəli qlobal iqtisadi tənəzzüllə dünya iqtisadiyyatı rastlaşmayıb. Bu il geriləmə nəticəsində iqtisadi artım 1,3 faiz həddinə düşəcək, gələn il isə cüzi artım (1,9 faiz) gözlənilir. Bu proqnozlar özünü əsasən doğrultdu. Qiymətləndirməyə görə 2009-cu ildə dünya məhsul buraxılışında İkinci Dünya müharibəsindən sonra ilk dəfə olaraq azalma 0,8% həddində baş vermişdir. İnkişaf etmiş ölkələrdə iqtisadi azalma daha kəskin xarakter alaraq 3,2%-ə çatmışdır. İnkişaf etməkdə olan ölkələrdə iqtisadi artım 2,1% təşkil etsə də, bu ötən 5 ilin orta səviyyəsindən 5,3% aşağı olmuşdur.BVF ekspertləri göstərir ki, böhran nəticəsində ABŞ-ın maliyyə sistemi 2 trilyon 700 milyard dollar itirib. BVF proqnozuna görə, Obama administrasiyasının gördüyü tədbirlər dərhal səmərə verməyəcək. Avropada isə iqtisadi artım daha gec başlayacaq. Hazırda dünya iqtisadiyyatının bayraqdarı Çin və Hindistan sayılır. Bu ölkələrdə indi də artım var, növbəti ildə də gözlənilir.

[2] Qeyd: Görünür son zamanlarda BVF özünün böyük miqdarda qızıl ehtiyatlarını satışa çıxarması (təxminən 405 ton) və bununla 2 mühüm məqsədə (Qızılın qiymətinin artmasının qarşısını almaq və əlavə valyuta ehtiyatı əldə etmək) nail olmaq istəyi də bundan irəli gəlmişdir.

barizə, keçmişin antiböhran təcrübəsinin dərsləri haqqında maraqlı mülahizələri vardır.

Böhranın dünyanın daha çox Avropa hissəsini bürüməsi, Çində, Hindistanda, Azərbaycanda, Həbəşistanda və qismən də Rusiyada iqtisadi artımın saxlanılması, böhranı dayandırmaq və böhrandan çıxış üçün sanki əlavə mühərrik funksiyasını yerinə yetirə bilər. Müəllifin bu fikri böhranın sonrakı gedişində müəyyən qədər mübahisəli görünsə də (çünki böhran artıq bütün dünyanı bürümüşdür) bu gün də ekspertlər tərəfindən müəyyən dərəcədə qəbul edilir.

V.Mau Rusiyanın timsalında həm də konkret olaraq digər ölkələrdə böhranın xüsusiyyətləri, səbəbləri və antiböhran tədbirləri haqqında araşdırmalar etmişdir. Onun fikrinə görə, Rusiyada iqtisadi böhranın 3 mühüm xüsusiyyəti və 3 mühüm səbəbi qeyd olunmalıdır.

Xüsusiyyətlər bunlardır:

1. Qloballaşma şəraitində baş verən bu böhran dinamik inkişaf edən ölkələri və regionları əhatə etməklə miqyasına görə ən geniş böhranlardan biridir. Hətta son illərdə uğurla inkişaf edən ölkələrə də böhran təsir etmişdir, əksinə, durğunluq keçirən ölkələrə və regionlara böhran az təsir göstərmişdir. Bu da heç də cavabı aydın olmayan bir sual yaradır: böhrandan çıxış üçün lokomativ (aparan, dartan) rolunu nə oynaya bilər?

2. Müasir böhran struktur xarakter kəsb edir, yəni dünya iqtisadiyyatının strukturunun, onun texnoloji bazasının ciddi surətdə yeniləşdirilməsini nəzərdə tutur.

3. Böhran innovasiya xarakteri kəsb edir. Yəni vaxtında iqtisadiyyatın innovasiya xəttinə keçirilməməsi nəticəsi olaraq baş vermişdir.

Müəllifə görə böhranın səbəblərinə aşağıdakılar aid edilir.

1. Amerika iqtisadiyyatının spesifik problemləri. Burada Amerika administrasiyasının aparılan büdcə və pul siyasətinin adekvat (uyğun) olmaması nəzərdə tutulur. Məlumdur ki, ABŞ-da iqtisadi artım şəraitində 2001-ci ildən etibarən büdcə kəsiri artırılmışdır. Bu da Klinton dövründə profisit (defisitin əksi) büd-

cəyə keçmək üçün tədbirlər görülməsini tələb edirdi. Halbuki bunu etmək mümkün olmadı. Nəticədə böhran qaçılmaz oldu.

2. Müasir iqtisadi inkişafın fundamental, sistem problemləri.

Son iki onillik ərzində biznesin məqsədli funksiyası ciddi surətdə dəyişmişdir. Kapitallaşma səviyyəsinin artırılması korporasiyaların inkişafının mühüm məqsədinə çevrilmişdir. Bu elə bir səviyyəyə çatmışdır ki, maksimum kapitallaşma ilə sosial iqtisadi tərəqqinin real vəziyyəti, yəni əmək məhsuldarlığının artması arasında ziddiyyət yaranmışdır. Nəticədə şirkətlərin real gücü ilə, onların kapitallaşmasının artması arasında kəskin fərq əmələ gəlmişdir. İri sənaye müəssisələrinin tərkibində qeyri-səmərəli köhnə istehsallar saxlanmışdır. Bu da böhrana səbəb olmuşdur.[1]

**Fikrimizcə, baş verən iqtisadi böhranın fundamental sistem səviyyəli səbəbinə bütövlükdə bazar iqtisadiyyatının qeyri-səmərəli bir sistem olduğunu da göstərmək lazımdır. Dövlətin müxtəlif, zaman-zaman dəyişdirilən və təkmilləşdirilən tənzimləmə tədbirlərinə baxmayaraq müasir bazar iqtisadiyyatında öz nəticələrinə görə daha miqyaslı itkilərə səbəb olan böhranlar baş verir.**

3. Böhranın üçüncü səbəbi kimi, ölkədən asılı olan spesifik cəhətlər göstərilir.

Məsələn, Rusiyanın timsalında belə bir səbəb kimi iqtisadiyyatın və ixracın qeyri-səmərəli (səmərəli olmayan) strukturu göstərilir. İxracda xammal və investisiya xarakterli əmtəələrin üstün olması ölkənin tədiyyə balansını tsiklik xarakterli tərəddüdlərdən asılı vəziyyətdə qoyur, bu da partnyor ölkələrdən böhran hallarının ixracatlı ölkələrə asanlıqla daxil olmasına imkan (şərait) yaradır.

[1] Qeyd: Şirkətlər öz səhmlərini sataraq kifayət qədər kapitallar toplayırlar. Lakin bu kapitallar vaxtlı-vaxtında texnikanın, texnologiyanın dəyişdirilməsinə, istehsalın inkişafına yönəldilmir. Halbuki səhmdarlar vaxtaşırı olaraq dividend tələb edirlər. Nəticədə iri şirkətlər üçün heç də uğurlu olmayan anlar başlayır.

Bu cür mənzərəni Azərbaycan üçün də xarakterik saymaq olar. **Deməli, böhrandan çıxmaq üçün mühüm bir tədbir kimi iqtisadiyyatı strukturca təkmilləşdirmək və şaxələnmiş iqtisadiyyat yaratmaqdan ibarət olmalıdır.**

V.Mau eyni zamanda müxtəlif ölkələrdə həyata keçirilən antiböhran tədbirlərinə də diqqət yetirmişdir. Onun ölkələr üzrə apardığı ümumiləşdirmələr əsasında antiböhran siyasətinin 4 sferada həyata keçirilməsi aşkar edilmişdir:

1. Bank sisteminin təhlükədən xilas edilməsi. Bu tədbirlərə aiddir:

a) bankların rekapitallaşdırılması (Amerika, Avstriya, Belçika, Almaniya, Yunanıstan, İspaniya, İtaliya, Kipr, Lüksemburq, Portuqaliya, Finlandiya, Macarıstan, Danimarka, İsveçrə, Honkonq, Qətər, Birləşmiş Ərəb Əmirlikləri, Səudiyyə Ərəbistanı, Qazaxıstan);

